# AZƏRBAYCAN AMPELOQRAFİYASI

## АМПЕЛОГРАФИЯ АЗЕРБАЙДЖАНА

## AMPELOGRAPHY OF AZERBAIJAN

**“Müəllim” nəşriyyatı**
**BAKI – 2017**

- Azərbaycan MEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutu
- AR KTN-nin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
- Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Nəbatat bağı
- Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İnstitutu
- Azərbaycan Dövlət Aqrar Universiteti

*Müəlliflər:*

**Quliyev Varis Muxtər oğlu**, aqrar elmlər üzrə elmlər doktoru, dosent
**Pənahov Tariyel Məhəmməd oğlu**, texnika üzrə elmlər doktoru, dosent
**Qurbanov Maqsud Rüstəm oğlu**, AMEA-nın müxbir üzvü, b.ü.e.d., professor
**Səlimov Vüqar Süleyman oğlu**, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent
**Musayev Mirzə Kamal oğlu**, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent
**İdrisov Hüseyn Əkbər oğlu**, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent
**Nəcəfov Cabbar Sərdar oğlu**, aqrar elmlər üzrə fəlsəfə doktoru

*Baş redaktor:* **TARİYEL TALIBOV**
Akademik, əməkdar elm xadimi, professor

*Rəyçilər:* **ZEYNAL ƏKPƏROV**
AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi
**ZAUR HƏSƏNOV**
Aqrar elmlər üzrə elmlər doktoru, professor

**AZƏRBAYCAN AMPELOQRAFİYASI (3 cilddə). I cild. –** Bakı: "Müəllim", 2017. – 740 s.

"Azərbaycan ampeloqrafiyası" kitabı Azərbaycan Respublikasında üzüm genofondunun ampeloqrafik tədqiqinə həsr olunmuş ilk kapital əsərdir. Kitab 3 cilddən ibarətdir. Oxuculara təqdim olunan I cild giriş, ümumi ampeloqrafiya, interaktiv ampeloqrafiya, xüsusi ampeloqrafiya və ədəbiyyat siyahısı bölmələrindən ibarətdir. Kitab azərbaycan dilində yazılmaqla əsas bölmələr ingilis və rus dillərində də verilmişdir. "Azərbaycan ampeloqrafiyası" digər xalqların da istifadə edə bilməsi üçün üzümçülük üzrə beynəlxalq miqyasda qəbul edilmiş üzümün əsas genetik əlamətlərinin şifrələnmiş sistem əsasında tərtib olunmuşdur. Əsərdə, Azərbaycanda ampeloqrafik tədqiqatlar və üzümçülüyün tarixi inkişaf yolu, müasir vəziyyəti, əsas üzümçülük bölgələri, imkanlar və perspektivlər araşdırılmışdır. Kitabda hazırda istifadə edilən əsas ampeloqrafik metodikalar işıqlandırılmış, üzüm bitkisinin irsi xüsusiyyətləri, genetik əlamətlərin OIV deskriptorları üzrə beynəlxalq şifrələr əsasında ingilis və rus dillərində açıqlanması verilmişdir. Əsərdə 16 kişmişi, 70 aborigen süfrə sortunun tam şəkildə ampeloqrafik təsvirlərləri və fotoşəkilləri verilmiş, Azərbaycanda ampeloqrafik tədqiqatlara aid ədəbiyyat mənbələri işıqlandırılmışdır. "Azərbaycan ampeloqrafiyası" kapital əsəri magistrlər, doktorantlar, elmi işçilər, üzümçülüklə məşğul olan fərdi təsərrüfat sahibləri, fermerlər və digər oxucular üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-435-72-6**

**© Quliyev V.M., Pənahov T.M., Qurbanov M.R., Səlimov V.S., Musayev M.K., İdrisov H.Ə., Nəcəfov C.S., 2017**

# MÜNDƏRİCAT

GİRİŞ..... 7
ВВЕДЕНИЕ..... 14
INTRODUCTION..... 22

***I FƏSİL.*** **AMPELOQRAFİYA VƏ AZƏRBAYCANDA ÜZÜMÇÜLÜK**
1. "Ampeloqrafiya" elminin inkişaf tarixi..... 29
2. *Vitaceae Juss.* fəsiləsinin təsnifatı, cins və növlərin xüsusiyyətləri.....……..... 37
3. Azərbaycanda üzümçülüyün inkişaf tarixi, müasir vəziyyəti, imkanlar, perspektivlər..... 55
4. Azərbaycan Respublikasının üzüm becərilən təbii-iqtisadi bölgələri..... 64
5. Azərbaycanda *V. vinifera* L. növünün yayılması və yabanı üzümün genetik ehtiyatları 72
6. Azərbaycanın üzüm genofondu..... 99

# ÜMUMİ AMPELOQRAFİYA

***II FƏSİL.*** **AMPELOQRAFİK METODİKALAR**
1. Üzüm sortlarının əsas genetik xüsusiyyətləri ..... 113
2. Üzüm sortlarının ampeloqrafik təsviri sxemi..... 117
3. Sortun ampeloqrafik təsviri üçün istifadə olunan əsas botaniki əlamətlər..... 119
4. Üzüm sortlarının rəqəmsal ampeloqrafik təyini üsulu ..... 122
5.Əsas fenoloji fazaların gedişi .....……..... 129
6. Birillik zoğların böyüməsi və mumyetişmə dinamikası..... 133
7. Üzüm sortlarının məhsuldarlığının və bar elementlərinin təyin edilməsi..... 134
8. Yarpaq səthi sahəsinin təyin edilməsi..... 136
9. Gilələrin yetişmə dinamikasının öyrənilməsi.....……..... 137
10. Süfrə üzüm sortlarının orqanoleptik (dequstasiya) qiymətləndirilməsi..... 138
11. Üzüm məhsulunun nəqliyyatla daşınmağa davamlılığı..... 139
12. Üzüm sortlarının xəstəlik və zərərvericilərə qarşı davamlılıqlarının qiymətləndirilməsi 140
13. Üzüm giləsində şirənin şəkərliliyinin ölçülməsi üsulu..... 144
14. Üzüm giləsinin şirəsində ümumi turşululuğun ölçülməsi üsulu..... 147

# İNTERAKTİV AMPELOQRAFİYA

***III FƏSİL.*** **ÜZÜM TƏNƏYİNİN GENETİK MORFOLOJİ ƏLAMƏTLƏRİNİN OIV DESKRİPTORLARI ÜZRƏ ŞİFRƏ VƏ TİPLƏRİ**
1. Vegetativ orqanların inkişafı və quruluşu.....……..... 152
2. Tənəyin inkişafı..... 182
3. Xəstəlik və zərərvericilərə qarşı davamlılığın müəyyənləşdirilməsi..... 185
4. Tənəklərdə məhsulun texnoloji qiymətləndirilməsi..... 190
5. Tam formalaşmış yarpaqların ampelometriyası.....…….. 192
6. Toxumların quruluşu və forması.....……..... 198
7. Əlavə bioloji göstəricilər..... 199

***IV FƏSİL.*** **ÜZÜM BİTKİSİNİN GENETİK XÜSUSİYYƏTLƏRİ** 201
1. *Vitis vinifera* L. *ssp. sativa* BBCH müqayisə olunma işarələri..... 201
2. Üzüm sortlarının qiymətləndirilməsinin yeni üsulu ..... 207
3. Üzümdə sortların, protoklonların seçilməsi üçün istifadə edilən molekulyar-genetik nişanlanma şifrələri..... 210
4. Шифры и коды признаков и свойств винограда...……..... 211
5. Ampelo-descriptors of OIV…….....… 214

## XÜSUSİ AMPELOQRAFİYA

**1. KİŞMİŞİ SORTLARI – КИШМИШНЫЕ СОРТА – RASIN VARIETIES**
Ağ kişmişi – Аг кишмиши – Ag kishmishi..... 218
Daş kişmişi – Даш кишмиши – Dash kishmishi..... 226
Əsgəri – Аскери – Asgari..... 232
Xırça kişmişi – Хырча кишмиши – Khyircha kishmishi..... 239
Xırdagilə sarı kişmişi – Хырдагиля сары кишмиши – Khyrdagile sary kishmishi..... 244
Qəhvəyi kişmişi – Кахваи кишмиши – Gehveyi kishmishi..... 250
Qırmızı kişmişi – Кырмызы кишмиши – Gyrmyzy kishmishi..... 256
Mərməri kişmişi – Мермери кишмиши – Marmari kishmishi..... 263
Naxçıvan qara kişmişi – Нахичеван гара кишмиши – Nakhchyvan gara kishmishi..... 270
Sarı kişmişi – Сары кишмиши – Sary kishmishi..... 276
Yumrugilə sarı kişmişi – Юмругиле сары кишмиши – Yumrugile sary kishmishi..... 284
Yumrugilə Abşeron kişmişi – Юмругиле Абшерон кишмиши – Yumrugile Absheron kishmishi.…....……..……..... 291

**2. SÜFRƏ SORTLARI – СТОЛОВЫЕ СОРТА – TABLE VARIETIES** 297
Abşeron gəlinbarmağı – Абшерон гелинбармаги – Absheron gelinbarmagy..... 297
Abşeron xatınısı – Абшерон хатынысы – Absheron khatynysı..... 303
Abşeron keçiəmcəyi – Абшеронский кечиемджейи – Absheron kechiemjei..... 308
Abşeron qızıl üzümü – Абщерон кызыл изюм – Absheron qyzyl uzumu..... 314
Ağ üzüm – Аг изюм – Ag uzum..... 320
Ağ Dərbəndi – Аг Дербенди – Ag Derbendi..... 326
Ağ gavra – Аг гявра – Ag gavra..... 332
Ağ göybəndam – Аг гейбендем – Ag goybandam..... 338
Ağ Xəlili – Аг Хелили – Ag Khalili..... 344
Ağ kürdəşi – Аг курдаши – Ag kurdashi..... 350
Ağ quşürəyi – Аг гушуреги – Ag qushureyi..... 356
Ağ şanı – Аг шаны – Ag shany..... 362
Ağ tayfı – Аг тайфы – Ag tayfi..... 368
Ağadayı – Агадаи – Agadaiyee..... 374
Ağdam keçiməməsi – Агдам кечимемеси – Agdam kechimemesi..... 380
Ala şanı – Ала шаны – Ala shany..... 386
Ayıboğan – Айыбоган – Ayıbogan..... 392

Bəndi – Бенди – Bendi..... 398
Bəy üzümü – Бей изюму – Bey uzumu..... 405
Cahangiri – Джахангири – Jahangiri..... 411
Əliməmmədi – Алимеммеди – Alimemmedi..... 417
Əmiri – Амири – Amiri..... 423
Əziz – Азиз – Aziz..... 429
Fatmayı – Фатмаи – Fatmayi..... 435
Gəlinbarmağı – Гелинбармаги – Gelinbarmagy..... 441
Gözəl üzüm – Гёзал узум – Gyozal uzum..... 447
Gülabı – Гулаби – Gulabi..... 453
Hacı Abbas – Гаджи Аббас – Haji Abbas..... 459
Haçabaş – Ачабаш – Hachabash..... 465
Xatınbarmağı – Хатынбармаги – Khatunbarmagy..... 471
Xatını – Хатуни – Khatyny..... 477
İrisalxımlı – Ирисалхымлы – Irisalkhymly..... 483
Kal üzüm – Кял узюм – Kal uzum..... 490
Kəhrəba – Кахраба – Kahraba..... 496
Qara şanı – Гара шаны – Gara shany..... 502
Qara göybəndam – Гара гейбендем – Gara goybendam..... 508
Qaragöz – Гарагёз – Garagyoz..... 514
Qara xəlili – Гара Хелили – Gara Khalili..... 520
Qara kürdəşi – Гара кюрдаши – Gara kurdashi..... 526
Qara pişraz – Гара пишраз – Gara pishraz..... 532
Qara şəfeyi – Гара шафеи – Gara shafeyi..... 538
Qara yay üzümü – Гара яй узюму – Gara yay uzumu..... 544
Qırmızı inəkəmcəyi – Гырмызы инекемджеи – Gyrmyzy inekemjeyi..... 550
Qırmızı tayfı – Гырмызы тайфы – Gyrmyzy taify..... 556
Qırmızı Hüseyni – Гырмызы Гусейни – Gyrmyzy Huseiyni..... 562
Qırmızı sahibi – Гырмызы сахиби – Gyrmyzy sahibi..... 568
Qırmızı səabi – Гырмызы сааби – Girmizi saabi..... 574
Qırmızı şəfeyi – Гырмызы шафеи – Gyrmyzy shafeyi..... 580
Qızılı səbzə – Гызылы себзе – Gyzyly sebze..... 587
Mahmudu – Махмуду – Mahmudu..... 593
Misqalı – Мискалы – Misgaly..... 599
Naxçıvan Hüseynisi – Нахичеван Хусейниси – Nakhchyvan Huseynisi..... 606
Naxçıvan qırmızı şanısı – Нахичеван гырмызы шанысы – Nakhchyvan gyrmyzy shanysy..... 612
Naxçıvan ağ tayfısı – Нахичеван аг тайфиси – Nakhchyvan ag tayfysy..... 619
Naxçıvan inəkəmcəyi – Нахичеван инекемджейи – Nakhchyvan inekemjeyi..... 625
Naxçıvan keçiəmcəyi – Нахичеван кечиемджейи – Nakhchyvan kechiemjeyi..... 631
Naxçıvan qara şanısı – Нахичеван гара шанысы – Nakhchyvan gara shanysy..... 637
Naxçıvan qızıl üzümü – Нахичеван гызыл узюму – Nakhchyvan gyzyl uzumu..... 643
Nəbi – Наби – Nabi..... 649

Nəqşəbi – Нагшеби – Nagshabi..... 655
Rişbaba – Ришбаба – Rishbaba..... 661
Sarı şəfeyi – Сары шафеи – Sary shafeyi..... 668
Sarıgilə – Сарыгиля – Sarygila..... 674
Sultanı – Султани – Sultany..... 681
Sürməyi – Сурмеи – Surmeyi..... 688
Şabranı – Шабраны – Shabrany..... 695
Təbrizi – Табризи – Tabrizi..... 701
Yalançı şanı – Яланчы шаны – Yalanchy shany..... 708
Zeynəbi – Зейнаби – Zeynabi..... 714
**Ədəbiyyat siyahısı**..... 720
**Алфавитный указатель сортов винограда**..... 734
**Alphabetical index of grape varieties**..... 736

# GİRİŞ

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli, 1890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" respublikamızda üzümçülüyə dair dövlət siyasətini və strategiyasını formalaşdıran mühüm dövlət qərarlarından biridir. Hazırda Dövlət Proqramına uyğun olaraq Azərbaycanda müasir bazar tələbləri səviyyəsində üzümçülük və onun emal sənayesinin inkişafını təmin etmək üçün digər mühüm tədbirlərlə yanaşı, üzüm genofondunun qorunub saxlanması məqsədilə müasir kolleksiya uzum bağlarının yaradılması, yeni üzümlüklərin salınması, süfrə və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, tingçilik təsərrüfatlarının yaradılmasının dəstəklənməsi kimi mühüm əməli işlər həyata keçirilir.

Azərbaycan Respublikasında üzümçülük aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Üzüm digər kənd təsərrüfatı məhsulları arasında hər 100 hektar torpaq sahəsi üzrə yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul buraxılışına görə ən yüksək göstəriciyə malik olan texniki bitkilərdən biridir. Bununla belə, üzümçülük kənd təsərrüfatı istehsalının ən çox kapital tələb edən sahəsidir.

Qeyd edək ki, Azərbaycanda üzümçülük qədim və ənənəvi istehsal sahələrindən biridir və şərəfli inkişaf yolu keçmişdir. Tarixən Azərbaycanda 600-ə qədər aborigen və introduksiya olunmuş üzüm sortları becərilmiş və bunlardan təxminən 400-ü aborigen üzüm sortlarına aid olmuşdur. Üzümçülüyün genişləndirilməsində ölkə ərazisində üzüm sahələrinin coğrafi cəhətdən yerləşdirilməsi regionların əlverişli torpaq-iqlim şəraiti nəzərə alınmaqla həyata keçirilmişdir. I Dünya müharibəsinə qədər Azərbaycanda üzüm bağlarının sahəsi demək olar ki, hər il artırılırdı. 1953-cü il Azərbaycanda üzümçülüyün inkişafında dönüş ili olmuşdu. Qarabağ-Mil, Quba-Xaçmaz, Lənkəran-Astara bölgələrində yeni üzümçülük-şərabçılıq mərkəzləri yaradılmışdı. Bu dövrdə respublika üzrə 10 üzümçülük sovxozu və çoxsaylı kooperativlər fəaliyyət göstərirdi. 1953-cü ildən 1962-ci ilə qədər üzümlüklərin ümumi sahəsi 22,9 min hektardan 68,7 min hektara qədər artırılmışdı. Vaxtilə ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi sayəsində Azərbaycanda üzümçülük sürətlə inkişaf etmişdi. 1969-cu ildə Azərbaycanda üzüm istehsalı 272 min ton olmuşdur. O dövrdə üzüm istehsalı ildən-ilə genişləndirilərək 1970-ci ildə üzüm bağlarının sahəsi 121,6 min hektar, üzüm istehsalı 351,7 min ton, məhsuldarlıq 46,8 sentner təşkil etdiyi halda, sahəyə göstərilən diqqət və qayğının nəticəsi olaraq artıq 1984-cü ildə üzüm sahələri 2,3 dəfə, üzüm yığımı 6 dəfə, məhsuldarlıq isə 2 dəfədən çox artaraq ən yüksək həddə çatmaqla məhsuldarlıq 99,2 sentner təşkil

etmişdir. 1970-ci ildə respublikada 672 təsərrüfat, o cümlədən 244 ixtisaslaşdırılmış üzümçülük sovxozu fəaliyyət göstərirdi. Üzümlüklərin sahəsi ildən-ilə genişlənərək, 1984-cü ildə 284,1 min hektar təşkil etmişdir [62, 114].

Keçmiş Sovetlər Birliyi məkanında Azərbaycan Respublikasında illik üzüm istehsalı 2 milyon tonu keçərək müttəfiq respublikalar arasında birinci yerə çıxmışdı. Lakin keçmiş Sovet İttifaqında həyata keçirilən ”Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri” ilə bağlı qəbul edilmiş qərardan sonra Azərbaycan iqtisadiyyatında aparıcı sahə olan üzümçülük və şərabçılığa böyük zərbə vurulmuşdur. Bar verən 130 min hektar məhsuldar üzüm bağları məhv edilmişdi. Eyni zamanda 76 istehsal, 116 isə ilkin emal müəssisələri öz işini dayandırmış, üzümçülük və şərabçılıq kompleksi böhran vəziyyətinə düşmüşdü. Həmçinin, Ermənistanın respublikamıza qarşı 1988-ci ildən başlayan təcavüzü nəticəsində 43 min hektar üzüm bağı işğal altında qalmışdı. Digər tərəfdən yeni dövlət quruculuğu dövründə kollektiv mülkiyyətin ləğv olunması, özəl qurumların isə gec formalaşması, şərab məhsullarının satışa çıxarılması sahəsindəki çətinliklər üzüm plantasiyalarının kütləvi şəkildə məhv edilməsinə, şərab istehsalının azalmasına gətirib çıxarmışdı. Üzümlüklərin kütləvi məhv edilməsi isə üzüm genofonduna güclü ziyan vurmuşdur.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra 90-cı illərin ikinci yarısından etibarən Azərbaycanda üzümçülüyün yenidən inkişafı üçün əlverişli şərait yaradılmış və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılmışdı. Ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra bu sahədə müşahidə olunan tənəzzülün qarşısı tədricən alındı, üzümçülük və şərabçılığa diqqət yenidən artırıldı. Keçən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq aqrar sektorda aparılan islahatlar nəticəsində bütün şərab və ilkin şərab emalı, şampan və konyak zavodlarının özəlləşdirilməsi açıq elan edilərək onların bazasında 53 səhmdar cəmiyyəti yaradılmış, qalan 82 emal müəssisəsi isə kiçik müəssisə kimi özəlləşdirilmişdi. Üzümçülükdə müşahidə olunan tənəzzülün qarşısı 2005-ci ildən başlayaraq alınmış, tədricən yeni üzüm bağlarının salınmasına, eləcə də keçmiş ənənələrdən və beynəlxalq təcrübədən yararlanmaqla üzümçülüyün inkişafında intensiv becərmə üsullarının tətbiqinə başlanılmışdır. Beləliklə, üzüm plantasiyalarının genişləndirilməsi, istehsalın həcmi və məhsuldarlığında əhəmiyyətli artıma nail olunmuşdu. Əlverişli biznes mühiti və müvafiq xammal bazasının mövcudluğu ölkədə müasir şərabçılıq müəssisələrinin yaradılmasına imkan vermişdir. Bu müəssisələr yeni üzüm sortları və texnologiyalar əsasında müasir üzüm plantasiyalarının salınmasında fəal iştirak etmişdilər.

2002-ci ildə "Üzümçülük və Şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, üzümçülüyün inkişafı üzrə tədbirlərin də nəzərdə tutulduğu "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2008-2015-ci illərdə

Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" kimi mühüm sənədlər təsdiq edilmişdir. Bu Dövlət Proqramlarında digər sahələrlə yanaşı üzüm istehsalının artıtılması da nəzərdə tutulmuşdur. Belə ki, 1995-ci ildə üzüm plantasiyaları 68,7 min hektara çatmışdır. 2010-cu ilin statistik məlumatlarına əsasən, Azərbaycanda üzümün əkin sahəsi 15,4 min hektar, istehsalın həcmi 129,5 min ton, təzə və qurudulmuş üzüm idxalı 5,5 min ton, ixracı isə 24,1 ton olmuşdur. 2010-cu ildə üzüm şərabı istehsalı 1070,7 min dekalitr təşkil etmişdir ki, onun da 21 faizi və ya 224 min dekalitri ixrac edilmişdir. Azərbaycanın təbii-iqlim şəraiti üzümçülüyünü daha da inkişaf etdirilərək istehsalın artırılmasına, əhalinin müxtəlif çeşidli, yüksək keyfiyyətli süfrə üzümünə, şərabçılıq və digər emal müəssisələrinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir. Bu isə öz növbəsində üzüm və şərabçılıq məhsullarının ixracının artırılmasına, idxalın azaldılmasına şərait yaratmışdır. Üzüm istehsalı üçün ölkəmizin əlverişli torpaq-iqlim şəraiti, üzümün digər bitkiçilik məhsullarına nisbətən yüksək iqtisadi səmərəliliyi, keyfiyyətli kişmişi, süfrə, universal və texniki üzüm sortlarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi, həmçinin qonşu və digər ölkələrin bazarlarında yüksək keyfiyyətli ekoloji təmiz süfrə üzümünə, şərab və digər üzüm emalı məhsullarına olan yüksək tələbat üzümçülüyün daha da inkişaf etdirilməsini zəruri etmişdir. Məhz buna görə Azərbaycanda üzümçülüyün inkişaf etdirilməsi prioritet vəzifə kimi qarşıya qoyulmuşdur. Bu baxımdan üzümçülüyün davamlı olaraq inkişaf etdirilməsi, keyfiyyətli və ucuz başa gələn yerli üzüm sortlarının yetişdirilməsi ölkəmizdə tingçilik təsərrüfatlarının yaradılmasını şərtləndirmişdir. Hazırda yeni üzüm plantasiyaların salınması böyük həcmdə uzunmüddətli kapital qoyuluşu tələb etməklə bərabər, barvermə dövrünədək əkinə xidmət üçün əlavə maliyyə mənbələrinə ehtiyac yaradır. Odur ki, mövcud və yeni yaradılacaq üzümçülük təsərrüfatlarının uzunmüddətli maliyyə mənbələri ilə təminatı qarşıda duran ən vacib məsələlərdən biridir. İstehsal olunmuş üzüm məhsullarının vaxtlı-vaxtında tədarükü (yığılması, saxlanması, qablaşdırılması, satışı və s.) xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə həmin məhsulların "plantasiya-istehlakçı (şərabçılıq və digər emal müəssisələri, üzümsaxlama anbarları, ticarət-satış şəbəkələri və s.)" sxemi üzrə reallaşdırılması məsələləri həlli vacib olan problemlərdən biridir [116, 268].

Üzümçülüyün ölkə iqtisadiyyatı üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyevin şəxsi göstərişi əsasında 1976-cı ildə Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutu, həmçinin şərabçılıq sənayesinə mühəndis-texnoloq, mühəndis-mexanik kadrların hazırlanması məqsədi ilə 1981-ci ildə Azərbaycan Texnologiya İnstitutu yaradılmışdır. Hazırda Üzümçülük və Şərabçılıq ET İnstitutu Azərbaycan Respublikasında üzümçülük və şərabçılığın inkişafında bir elmi mərkəz əhəmiyyətli rolunu oynamaqdadır. Son illər ərzində

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu bir çox ölkələrin, o cümlədən Rusiya (Kuban Dövlət Aqrar Universiteti, Dağıstan Kənd Təsərrüfatı Akademiyası, Ukrayna (V.Y.Tairov adına Üzümçülük və Şərabçılıq İnstitutu, "Maqaraç" Milli Üzüm və Şərab İnstitutu), elecə də Türkiyə, Çexiya, Yunanıstan, Fransa və İtaliyanın Bioversity İnternational, OIV, FIVS, Iter Vitis, Adepta, Wines&Spirits, Richter, Vivai Cooperativi Rauschedo, İtaliya citta del Vino və s. kimi elm mərkəzləri, institut, assosiasiya və şirkətləri ilə əməkdaşlıq əlaqələri qurulmuşdur. ÜŞETİ Bitki Genetik Ehtiyatları üzrə Beynəlxalq Təşkilat (Bioversity İnternational) və Elm və Texnika üzrə Avropa Əməkdaşlığı (COST) Beynəlxalq təşkilatları ilə birgə Şərq-qərb əməkdaşlığı çərçivəsində üzümün biomüxtəlifliyinin öyrənilməsi və becərmə üçün adaptiv xüsusiyyətlərin müəyyənləşdirilməsi üzrə tədqiqatların aparılmasında iştirak edir. Beynəlxalq əməkdaşlıq çərçivəsində 398 yerli ənənəvi sort "Avropa üzümünün məlumat bazasına" daxil edilmiş, 33 yabanı üzüm formasının və 46 yerli ənənəvi sortun molekulyar-genetik identifikasiyası və onlarda davamlılıq genlərinin aşkar olunması istiqamətində birgə tədqiqat işləri aparılmışdır. Qarşıda duran problemlərə ölkələrin yerli üzüm genofondunun məlumat bazasının yeniləşdirilməsi və zənginləşdirilməsi, ampelo-deskriptor kartlarının yaradılması və pasportlaşdırılması və s. daxil idi. Bu layihədə Azərbaycanla yanaşı Avstriya, Belçika, Bolqarıstan, Kipr, Xorvatiya, Çexiya, Fransa, Almaniya, Yunanıstan, İtaliya, Luksemburq, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, İspaniya, İsveç, Türkiyə, Gürcüstan, Rusiya, Moldova, Ukrayna, Mərakeş, Monteneqro iştirak etmişlər.

Azərbaycan Respublikasında üzümlüklərin sort tərkibinin zənginləşdirilməsi, az məhsuldar üzüm sortlarının yeni, daha məhsuldar və keyfiyyətli sortlarla əvəz edilməsi, üzümün genetik ehtiyatlarından səmərəli və davamlı istifadə olunması, əhalinin ərzaq təhlükəsizliyi, respublikada üzümün və onun emal məhsullarının istehsalının artırılması baxımından böyük əhəmiyyətə malikdir. Bioloji müxtəlifliyin önəmli tərkib hissəsi olan bitki genetik ehtiyatları, o cümlədən üzüm genofondu, bu günün tələbatını ödəməklə yanaşı, həmçinin seleksiya, biotexnologiya və gen mühəndisliyi baxımından da mühüm əhəmiyyət kəsb edən genlərin daşıyıcıları olaraq gələcəkdə yeni üzüm sortlarının və hibrid formalarının yaradılması üçün də istifadə oluna bilər. Bununla yanaşı hal-hazırda bitkilərin genetik ehtiyatlarını və biomüxtəlifliyini öyrənən beynəlxalq təşkilatlarla birlikdə, hazırkı aqrobiomüxtəlifliyi təşkil edən bitkilərin yaranma, formalaşma mərkəzlərində onların yabanı biotiplərinin öyrənilməsinə və qorunmasına (*in-situ və ex-situ* şəraitində), qiymətli genotiplərin geniş istehsalata və biotexnologiya tədqiqatlarına cəlb olunmasına xüsusi diqqət yetirilir. Ona görə də Azərbaycan florasının ən qədim və zəngin formasiyalarından olan üzüm genotiplərinin tam olaraq qorunması, gələcək nəsillərə çatdırılması, genetik ehtiyatlardan səmərəli və davamlı istifadə olunması həm elmi, həm də təcrübi baxımdan böyük əhəmiyyət kəsb edir. Üzümün genetik

ehtiyatlarının toplanaraq kolleksiyaya daxil edilməsi, davamlı və səmərəli istifadəsi üzrə fəaliyyətlərin başlıca məqsədlərindən biri də üzüm genotiplərinin təsərrüfat əhəmiyyətli əlamətlərinin müəyyən edilməsi ilə onların seleksiya və yaxşılaşdırılma proqramlarına daha intensiv və məqsədyönlü şəkildə cəlb edilməsindən, daha məhsuldar, ətraf mühitin biotik və abiotik stress amillərinə qarşı davamlı, yüksək keyfiyyətli, bazar rəqabətinə davam gətirən, yüksək texnoloji yararlılığa və alıcılıq qabiliyyətinə malik yeni sortların yaradılması və üzümçülük sahəsində onların potensial imkanlarının maksimum reallaşdırılması yolu ilə üzümçülük və şərabçılıq məhsullarına olan tələbatın təmin edilməsi və bu sahənin davamlı inkişafına nail olunmasından ibarətdir. Tədqiqat işləri nəticəsində məlum olur ki, Azərbaycan ərazisində becərilən 600-ə qədər aborigen və introduksiya olunmuş üzüm sortundan təxminən 400-ü yerli üzüm sortları təşkil edir. Lakin çox təssüf ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da bitki genetik ehtiyatlarının, o cümlədən üzüm genofondunun məhv olmasına, genetik eroziyasına yönəlmiş mənfi amillərin təsirindən onlarla qiymətli yerli, seleksiya və introduksiya olunmuş üzüm sortları artıq itirilmiş, bir qismi isə itmək, məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Son tədqiqatlara görə, respublikada əkilib-becərilən 75-ə qədər sort məhv olmuş, 80-ə yaxın sort isə itmək təhlükəsi qarşısındadır. Digər tərəfdən isə bədxah qonşularımız olan ermənilərin məkirli hərəkətləri nəticəsində respublikamızın bir çox qiymətli üzüm sortlarının adları dəyişdirilərək mənimsənilir və yanlış adlar altında nəşr etdirilərək, erməni sortları kimi qələmə verilir. Respublikada yayılmış yerli üzüm sortlarının, hibrid və yabanı formaların, hətta introduksiya olunmuş üzüm sortlarının etibarlı qorunub saxlanılması və davamlı istifadəsi məqsədilə 2002-ci ildə ÜŞETİ tərəfindən yeni Ampeloqrafik kolleksiya bağı salınmışdır ki, burada 300-ə qədər aborigen və introduksiya olunmuş üzüm sortları, hibrid və yabanı üzüm formaları toplanıb əkilmişdir. İlkin olaraq kolleksiya bağındakı sortların 200-ə yaxını Azərbaycanın, 5 sort Gürcüstanın, 5 sort Moldovanın, 2 sort Türkiyənin, 18 sort Rusiyanın, 19 sort Mərkəzi Asiyanın, 5 sort Misirin, 9 sort ABŞ-ın, 2 sort İranın, 3 sort Almaniyanın, 5 sort Fransanın, 1 sort Ərəbistanın, 3 sort İtaliyanın, 1 sort İngiltərənin payına düşür. Respublikada 400-dən çox yerli üzüm sortunun becərildiyi məlum olur. Bunlardan yalnız 200-ü toplanaraq kolleksiyaya daxil edilmişdir. Respublikamızın müxtəlif bölgələrində indiyə qədər elmi əsaslarla öyrənilməyən qiymətli üzüm sortları əkilib-becərilməkdədir və belə sortlar çoxluq təşkil edir. Azərbaycan dünyada Bayanşirə, Mədrəsə, Şirvanşahı, Xindoqnı, Həməşərə, Mələyi, Xərci, Qara asma, Qara aldərə, Dəvəgözü və s. kimi yüksək keyfiyyətli yerli texniki üzüm sortları ilə məşhurdur [71, 78, 110, 118, 120, 121, 151, 153].

Azərbaycanda aqrar islahatların həyata keçirilməsinə olan dövlət qayğısı və bu sahədə sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli şərait, üzümçülüyün keçmiş şöhrətinin yenidən bərpa ediləcəyinə şərait yaradır. Üzümçülük və Şərabçılıq ET

İnstitutunda hazırda aparılan seleksiya işlərinin əsasını təşkil edən üzümlüklərin sort tərkibinin zənginləşdirilməsi, az məhsuldar üzüm sortlarının yeni, daha məhsuldar və keyfiyyətli sortlarla əvəz edilməsi, seleksiya yolu ilə yeni süfrə və texniki istiqamətli üzüm sortlarının və hibrid formalarının yaradılması mühüm iqtisadi əhəmiyyət kəsb edir. Respublikada üzümçülüyün məqsədyönlü inkişafının təmin edilməsində üzüm sortlarından ibarət kolleksiya bağlarının salınması genetik baza rolunu oynayır. Vəziyyəti nəzərə alaraq, İnstitut əməkdaşları Abşeron rayonu şəraitində Azərbaycanın müxtəlif bölgələrindən gətirilmiş üzüm sortlarından 15 hektar sahədə kolleksiya bağı salmışdır. Azərbaycanda üzümçülüyün genişləndirilməsi üçün tinglik təsərrüfatının yaradılması mühüm şərtdir. Bunun üçün müasir texnologiyaların tətbiqini təmin edən avadanlıqlarla təchiz olunmuş calaq emalatxanasının və tingçilik təsərrüfatlarının təşkil edilməsi günün vacib problemlərindın biridir.

Azərbaycan Respublikasında üzümçülüyün yüksək səviyyədə inkişafına nail olunması üçün süfrə üzümçülüyünə və ondan hazırlanan müxtəlif məhsulların istehsalının artırılmasına, şərabçılığın genişləndirilməsinə diqqət ildən-ilə artmaqdadır. İstehsal həcminin artması ilə yanaşı istehsal olunan şərabçılıq məhsullarının keyfiyyəti də xeyli yaxşılaşdırılır, çeşidi isə genişləndirilir.

Azərbaycanda şərabçılıq şanlı inkişaf yolu keçmişdir. Belə ki, 60-80-ci illərdə ən iri şərab istehsalçıları olan 1 və 2 nömrəli Bakı Şərab Zavodları, Xanlar Aqrar Sənaye Kombinatı, Şəmkir, Göyçay konyak Zavodları, 1 və 2 nömrəli Gəncə Şərab Zavodları 60 çeşiddən çox şərab, o cümlədən 17 növ turş şərab (“Bayan”, “Alşərab”, “Sadıllı”, “Mədrəsə”, “Novruzlu”, “Şamxor”, “Qarakənd”), 20 növ portveyn tipli tünd desert şərabı (“Ağstafa”, “Alabaşlı”, “Ağdam”, “Qızıl şərbət”, “Qarayeri”), 11 növ desert şərabı (“Qaraçanaq”, “Mil”, “Göytəpə”, “Qarabağ”, “Şahbuz”, “Azərbaycan”, “Şamaxı”, “Kürdəmir”) və 13 marka konyak (3,4,5 ulduzlu “Göy-göl”, “Bakı”, “Şirvan”, “Abşeron”, “Kəpəz”, “Moskva”, “Azərbaycan”, “Yubileynı”, “Gəncə”) istehsal edirdilər. Azərbaycanda istehsal olunan şərablar dünya şöhrəti qazanmışdır. 1955-1980-ci illəri əhatə edən dövrdə Azərbaycanın markalı süfrə və desert şərabları, konyak və şampan şərabları Beynəlxalq sərgilərdə, dequstasiya və yarmarkalarda 4 Qran-pri mükafatına, 46 qızıl, 49 gümüş və 3 bürünc medala layiq görülmüşdür. Azərbaycanın şərab və konyakları Macarıstan, Almaniya, Bolqarıstan, Polşa, Çexiya, Slovakiya, Kuba və Monqolustan kimi ölkələrə ixrac olunurdu. Hazırda Azərbaycanda üzümçülüyün və şərabçılığın şöhrətinin özünə qaytarılması və son texnologiya əsasında daha da inkişaf etdirilməsi aqrar sektorun qarşısında duran əsas istiqamətlərdən biridir [112,124,126].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Respublika Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2016-cü ildə qarşıda duran vəzifələrə həsr edilmiş iclasındakı çıxışında göstərmişdir ki, “2016-cü ildə və ondan sonrakı illərdə kənd təsərrüfatının inkişafı ilə bağlı daha

da böyük işlər görüləcəkdir”.

Hazırda Azərbaycan Respublikasında bölgələr üzrə üzümçülüyün genişləndirilməsi üçün aşağıdakı Dövlət tədbirləri həyata keçirilir:

- Kişmişi, süfrə, universal və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, regionların torpaq və iqlim şəraitinə uyğun yeni üzüm plantasiyalarının salınması;
- Üzümçülüyün inkişafı üçün tingçilik təsərrüfatlarının yaradılması, fermerlər üçün bağsalma işlərində istifadə olunan əsas və köməkçi materialların istehsalının təşkili;
- Üzümçülük və şərabçılığın infrastruktur təminatının yaxşılaşdırılması, elmi kadr potensialının gücləndirilməsi;
- Üzüm istehsalı və emalı sahəsində innovativ texnologiyaların tətbiqi, emal müəssisələrinin fəaliyyətinin bərpası və yeni müəssisələrin yaradılması;
- Üzüm məhsullarının satışının stimullaşdırılması, ayrı-ayrı mövsümlərdə əhalinin fasiləsiz olaraq süfrə üzümü ilə təmin edilməsi üçün söyuducu və anbar şəbəkələrinin yaradılması;
- Üzüm və şərabçılıq məhsullarının ixracının stimullaşdırılması, daxili bazarın ədalətsiz rəqabətdən qorunması, dünya standartlarına uyğun spirtli içki məhsüllarının istehsalının təşkili;
- Qurudulmuş mövüc, kişmiş, həmçinin abqora, sirkə, müxtəlif şirələrin, mürəbbələrin, spirtsiz içkilərin yüksək keyfiyyətlə sənaye miqyasında istehsalının təşkili.

Təqdim edilən “Azərbaycan ampeloqrafiyası” Azərbaycan Respublikasında üzüm genofondunun tədqiqi, ayrı-ayrı regionlarda becəriləcək, həmçinin müxtəlif vaxtlarda yetişən üzüm sortlarının seçilməsi, ampeloqrafik, biomorfoloji və aqrobioloji xüsusiyyətlərinin araşdırılması, nadir sortların müəyyənləşdirilməsi, yerli üzüm sortlarının bərpası, seleksiya işlərinin aparılması, regionlarda üzümçülüyün daha da inkişaf etdirilməsi məqsədilə işlənilmişdir.

# ВВЕДЕНИЕ

«Государственная программа по развитию виноградарства в Азербайджане на 2012-2020-е годы», утвержденная указом президента Азербайджанской Республики 15 декабря 2011-го года за номером 1890, стала важным государственным документом, формирующим государственную политику и стратегию по развитию виноградарства в республике. В настоящее время, наряду с другими мероприятиями, направленными на развитие виноградарства и перерабатывающей промышленности, осуществляются работы по созданию виноградных коллекций для сохранения генофонда винограда, закладке новых насаждений, расширению посадочных площадей под столовыми и техническими сортами, поддержке созданию питомниководческих хозяйств.

В Азербайджанской Республике виноградарство, занимая особое место среди отраслей агропромышленного комплекса, играет значительную роль в экономике страны с точки зрения получения дополнительного дохода и повышения экономической эффективности. Виноград занимает лидирующие позиции среди других технических культур по созданию рабочих мест и производству валовой продукции на каждые 100 га земельной площади. Наряду с этим, виноградарство является наиболее капиталоемкой отраслью сельского хозяйства.

Следует отметить, что виноградарство в Азербайджане, являясь одной из древнейших традиционных производственных сфер, прошло славный путь развития. Исторически в Азербайджане выращивалось до 600 сортов винограда, из которых около 400 являлись аборигенными. Расширение посевных площадей осуществлялось в стране с учетом географических особенностей и почвенно-климатических условий. До Первой Мировой Войны площадь виноградников в Азербайджане, можно сказать, увеличивалась год от года. 1953-й стал переломным годом в развитии виноградарства в Азербайджане. Новые центры виноградарства и виноделия были созданы в Карабах-Мильском, Губа-Хачмасском, Ленкорано-Астаринском регионах. В этот период функционировали 10 виноградарских совхозов и множество кооперативов. С 1953-го по 1962-й годы площадь виноградников возросла с 22,9 тыс. га до 68,7 тыс. га. Стремительное развитие виноградарства в Азербайджане произошло в годы руководства республикой Гейдара Алиева. В 1969-м году производство винограда в Азербайджане составило 272 тыс. тонн. В тот период площади виноградников увеличивались из года в год, и по сравнению с 1970-м к 1984-му году площадь виноградников увеличилась в 2,3 раза, сбор винограда – в 6 раз, а урожайность выросла в 2 раза и достигла 99,2 ц/га. В республике функционировало 244 специализированных виноградарских хозяйства;

площадь виноградников составляла 284 га.

Производство винограда в Азербайджане превысило 2 млн. тонн, что было наивысшим показателем среди республик бывшего Советского Союза. Однако вследствие принятия в 1985-м году решения «О мерах по преодолению пьянства и алкоголизма» виноградарству и виноделию, являвшимися ведущими отраслями экономики Азербайджана, был нанесен тяжелый удар. Было уничтожено 130 тыс. га плодоносных виноградников. Остановили свою работу 76 производственных предприятий и 116 предприятий по первичной переработке. Урожайность резко снизилась, виноградо-виноделческий комплекс оказался в кризисном состоянии. Также, вследствие начатой в 1988-м году агрессии Армении, 43 тыс. га виноградников оказались под оккупацией. С другой стороны, отмена государственной собственности при построении нового государства и медленное формирование частных структур, трудности при вывозе винодельческой продукции на продажу привели к поголовному уничтожению виноградных плантаций и сокращению производства вина. Массовое уничтожение виноградников нанесло огромный вред генофонду винограда. Однако, в последующие годы началось постепенное увеличение площадей виноградников. После обретения нашей страной независимости, начиная со второй половины 90-х годов прошлого века, были созданы благоприятные условия для возрождения виноградарства и начались претворяться в жизнь соответствующие меры в этом направлении. После возвращения Гейдара Алиева к руководству страной кризис, наблюдавшийся в этой отрасли, был постепенно преодолен, интерес к виноградарству и виноделию вновь возрос. В результате реформ, начатых со второй половины 90-х годов, была объявлена открытая приватизация всех винзаводов и заводов по первичной переработке, шампанских и коньячных заводов, и на их базе создано 53 акционерных общества, остальные 82 перерабатывающих предприятия были приватизированы как малые предприятия. Вследствие преодоления кризиса отрасли, начиная с 2005-го года, наряду с увеличением площади виноградников, основываясь на прошлых традициях и международном опыте, началось применение интенсивных методов выращивания винограда. Таким образом, было достигнуто расширение площади плантаций, значительное увеличение производства продукции и урожайности. Наличие благоприятной бизнес-среды и соответствующей сырьевой базы обусловило создание современных винодельческих предприятий в стране. Эти предприятия участвуют в закладке новых плантаций из новых сортов и на основе современных технологий.

В 2002-м году был принят Закон Азербайджанской Республики «О виноградарстве и виноделии», были утверждены такие важные документы, как «Государственная программа по социально-экономическому развитию регионов

Азербайджанской Республики», включавшая в себя также меры по развитию виноградарства, «Государственная Программа по надежному обеспечению населения Азербайджанской Республики продовольственными продуктами в 2008-2015 гг.», «Государственная программа по уменьшению бедности и устойчивому развитию в Азербайджанской Республике в 2008-2015 гг.», «Государственная Программа по социально-экономическому развитию регионов Азербайджанской Республики в 2009-2013 гг.». В этих государственных программах, наряду с другими отраслями, предусматривалось увеличение производства винограда. Так, в 1995-м году площадь виноградных насаждений составляла 68,7 тыс. га. Согласно статистическим данным, в 2010-м году площадь виноградников составляла 15,4 тыс. га, объем производства – 129,5 тыс. тонн, импорт свежего и сушеного винограда – 5,5 тыс. тонн, экспорт – 24,1 тыс. тонн. Производство виноградного вина в 2010-м году составило 1070,7 тыс. декалитров, из которых 21%, или 224 тыс. декалитров пошло на экспорт. Природно-климатические условия Азербайджана позволяют, при дальнейшем развитии виноградарства, увеличить производство и удовлетворить потребности населения страны в высококачественном свежем винограде, а винодельческие и другие предприятия - в сырье. Это, в свою очередь, создает условия для увеличения экспорта и уменьшения импорта винограда и продуктов виноделия. Наличие в нашей стране благоприятных условий для производства винограда, высокая экономическая эффективность винограда по сравнению с другим продуктами растениеводства, покрытие за счет местного производства внутреннего спроса на качественные столовые, кишмишные, универсальные и технические сорта винограда, а также существующую потребность в высококачественном, экологически чистом столовом винограде, вине и других продуктах переработки винограда, делают актуальным дальнейшее развитие виноградарства. Именно поэтому развитие виноградарства в Азербайджане было определено как приоритетная задача. Импорт чистых в биологическом и фитосанитарном отношении, высокоурожайных, качественных, подходящих к природно-климатическим условиям нашей страны саженцев для закладки виноградных плантаций из качественных столовых и технических сортов винограда требовало дополнительных средств. В этой связи, для устойчивого развития виноградарства, выращивания качественных местных сортов с низкой себестоимостью требуется создание в нашей стране питомниководческих хозяйств. Наряду с долгосрочными капиталовложениями, необходимыми для широкомасштабной закладки новых виноградных плантаций, требуются дополнительные источники финансирования на период до достижения плодоношения. Таким образом, обеспечение долгосрочными источниками финансирования существующих и вновь закладываемых виноградников является

одной из важнейших задач. Особое значение имеет своевременная заготовка (сбор, хранение, упаковка, реализация). В этой связи важнейшей проблемой, требующей решения, является организация реализации указанной продукции по схеме «плантация-потребитель (винодельческие и другие перерабатывающие предприятия, виноградохранилища, торговая сеть и т.д.).

По личному указанию общенационального лидера Гейдара Алиева, высоко ценившего значение виноградарства для экономики государства, в 1976-м году был основан Азербайджанский Научно-Исследовательский Институт Виноградарства и Виноделия; также, с целью подготовки кадров инженеров-технологов, инженеров-механиков для отрасли виноделия, в 1981-м году открылся Азербайджанский Технологический Институт. В настоящее время Научно-Исследовательский Институт Виноградарства и Виноделия играет роль научного центра, обуславливающего развитие виноградарства и виноделия в Азербайджанской Республике. В последние годы НИИ Виноградарства и Виноделия Министерства Сельского Хозяйства установил партнерские связи с такими научными центрами, институтами, ассоциациями и компаниями, как Кубанский Государственный Аграрный Университет, Дагестанский Государственный Аграрный Университет (Российская Федерация), Национальный Институт Винограда и Вина «Магарач», Институт Виноградарства и Виноделия им. В.Я.Таирова (Украина), Bioversity İnternational, OIV, FIVS, Iter Vitis, Adepta, Wines&Spirits, Richter, Vivai Cooperativi Rauscedo и др. Азербайджанский НИИ Виноградарства и Виноделия участвует в исследованиях по изучению биологической разновидности и определению адаптивных особенностей для выращивания винограда, проводящихся в рамках Сотрудничества Восток-Запад совместно с Международной организацией по Генетическим запасам растений (Bioversity İnternational) и Международной организацией Европейское сотрудничество по науке и технике (COST). В рамках международного сотрудничества 398 местных традиционных сортов были включены в «Базу данных винограда Европы», были проведены работы по молекулярной идентификации и выявлению генов устойчивости у 33 форм дикорастущего винограда и 46 местных традиционных сортов. В ряду требующих решения проблем стояли обновление и обогащение базы данных местного генофонда винограда, создание и паспортизация ампелодескрипторных карт и т.д. В этом проекте, помимо Азербайджана, участвовали Австрия, Бельгия, Болгария, Кипр, Хорватия, Чехия, Франция, Германия, Греция, Италия, Люксембург, Польша, Португалия, Румыния, Словакия, Словения, Испания, Швейцария, Турция, Грузия, Россия, Молдова, Украина, Марокко, Черногория.

С точки зрения обеспечения продовольственной безопасности, увеличения

производства винограда и продуктов его переработки в Азербайджанской Республике, большое значение имеют обогащение сортимента винограда, замена малопродуктивных сортов винограда новыми, высокоурожайными сортами, эффективное и продолжительное использование генетических ресурсов винограда. Являясь значительной составной частью биологического разнообразия, генетические ресурсы растений, в том числе и генофонд винограда, наряду с удовлетворением сегодняшних потребностей, также, являясь носителями генов, имеющих важное значение с точки зрения селекции, биотехнологии и генной инженерии, в будущем могут быть использованы для создания новых сортов и гибридных форм винограда. Вместе с этим, международные организации, в настоящее время изучающие генетические запасы и биологическое разнообразие растений, особое внимание уделяют изучению и сохранению (в условиях *in-situ* и *ex-situ)* дикорастущих биотипов в центрах их возникновения и формирования, привлечению ценных генотипов в широкое производство и использованию их в биотехнологических исследованиях. Именно поэтому сохранение и доведение до будущих поколений генотипов винограда, являющихся одной из древнейших и богатейших формаций флоры Азербайджана, эффективное и продолжительное использование генетических ресурсов представляет большое значение с научной и практической точек зрения. Одной из основных целей работ по собиранию и включению в коллекцию генетических ресурсов винограда, их длительному и эффективному использованию является более интенсивное и целенаправленное включение в программы по селекции и улучшению генотипов винограда посредством выявления хозяйственно ценных признаков, создание новых, более урожайных высококачественных сортов, устойчивых к биотическим и абиотическим стрессовым факторам окружающей среды, конкурентоспособных на рынке, обладающих высокой технологической пригодностью, и путем максимальной реализации их потенциальных возможностей, удовлетворение потребностей в продуктах виноградарства и виноделия и обеспечение последовательного развития отрасли. В результате исследований выявлено, что из примерно 600 сортов винограда, выращиваемых в Азербайджане, около 400 являются аборигенными. Однако, как и повсюду в мире, под влиянием отрицательных факторов, ведущих к уничтожению генофонда винограда, генетической эрозии, были утеряны десятки ценных местных, селекционных и интродуцированных сортов винограда, а некоторые оказались под угрозой исчезновения. Согласно последним данным, утеряно до 75 выращивавшихся в республике сортов, около 80 сортов находятся под угрозой уничтожения. С другой стороны, ряд ценных сортов винограда были переименованы и под этими вымышленными названиями были представлены

как армянские сорта. С целью надежного сохранения местных сортов, гибридных и дикорастущих форм, а также интродуцированных сортов винограда, распространенных в республике, Научно-исследовательским институтом Виноградарства и Виноделия в 2002-м году была основана новая Ампелографическая коллекция, включающая в себя около 300 аборигенных и интродуцированных сортов, гибридных и дикорастущих форм винограда. Из этих сортов 200 являются азербайджанскими, 5 – грузинскими, 5 – молдавскими, 2 – турецкими, 18 – российскими, 19 – среднеазиатскими, 5 – египетскими, 9 – американскими, 2 – иранскими, 3 – немецкими, 5 – французскими, 1 – аравийским, 3 – итальянскими, 1 – английским. Таким образом, из более чем 400 местных сортов винограда, выращиваемых в республике, в Коллекцию включено только 200. В различных регионах нашей республики выращивается большое число ценных сортов винограда, которые до сих пор не были изучены на научной основе. Азербайджанские высококачественные технические сорта винограда Баян-ширей, Матраса, Ширваншахи, Хиндогны, Гамашара, Малайи, Харджи, Кара Асма, Кара Алдара, Девегёзю и др. знамениты по всему миру.

Забота государства о претворении в жизнь аграрных преобразований и благоприятные условия, созданные в Азербайджане для развития предпринимательства в данной области, обуславливают возрождение былой славы виноградарства. Такие задачи, как обогащение сортимента, замена малопродуктивных сортов новыми, более качественными высокоурожайными сортами, создание селекционным путем новых сортов и гибридных форм винограда столового и технического направления, составляющие основу проводимых в Азербайджанском НИИ Виноградарства и Виноделия работ по селекции, имеют важное экономическое значение. Для обеспечения целенаправленного развития виноградарства в Республике создание коллекций генофонда винограда играет роль генетической базы. Исходя из этого, сотрудниками Института на участка площадью 15 га был заложен коллекционный виноградник, состоящий из сортов, привезенных из различных регионов Азербайджана. Для развития виноградарства в Азербайджане важным условием является развитие питомниководства. Для достижения этой цели требуется решение таких проблем, как обеспечение оборудованием, требующимся для внедрения современных технологий, устройство прививочных мастерских и питомниководческих хозяйств. Развитие виноградарства, увеличение объемов производства винограда и продуктов его переработки, интерес к развитию виноделия в Азербайджанской Республике год от года возрастает. Наряду с увеличением объемов производства, значительно улучшается качество и расширяется ассортимент продуктов

виноделия.

Виноделие Азербайджана прошло славный путь развития. Так, в 60-80-е годы XX-го века крупнейшими производителями винодельческой продукции – Бакинскими Винзаводами №1 и 2, Ханларским Агропромышленным Комбинатом, Гянджинскими винзаводами №1 и 2 производилось свыше 60 марок вин, в том числе 17 сухих («Баян», «Ал шараб», «Садыллы», «Матраса», «Новрузлу», «Шамхор», «Каракенд» и др.), 20 – крепленых десертных вин типа портвейн («Агстафа», «Алабашлы», «Агдам», «Кызыл шербет», «Караери» и др.), 11 – десертных вин («Карачанах», «Мил», «Гёйтепе», «Карабах», «Шахбуз», «Азербайджан», «Шамахы», «Кюрдамир» и др.), и 13 марок коньяка (3-х, 4-х, 5-извездные «Гёй-гёль», «Баку», «Ширван», «Абшерон», «Кяпаз», «Москва», «Азербайджан», «Юбилейный», «Гянджа» и др.). Произведенные а Азербайджане вина завоевали мировую известность. В период с 1955-го по 1980-й годы азербайджанские марочные столовые и десертные вина, коньяки и шампанское на Международных выставках, дегустациях и ярмарках были удостоены 4 Гран-при, 46 золотых, 49 серебряных и 3 бронзовых медалей. Азербайджанские вина и коньяки экспортировались в такие страны, как Венгрия, Германия, Болгария, Польша, Чехия, Словакия, Куба и Монголия. В настоящее время возврат былой славы виноградарства и виноделия Азербайджана и развитие отрасли на основе новейших технологий является одним из приоритетных направлений аграрного сектора.

На собрании Кабинета Министров Республики, посвященном итогам социально-экономического развития в 2015-м году и о задачах на 2016-й год и проведенном под председательством Президента Азербайджанской Республики Ильхама Алиева, отмечалось, что в 2016-м и последующих годах будут проведены ещё большие работы по развитию сельского хозяйства. В настоящее время в регионах азербайджанской Республики проводятся следующие государственные мероприятия по развитию виноградарства:

- расширение посевных площадей под кишмишными, столовыми, универсальными и техническими сортами винограда, закладка новых плантаций с учетом почвенных и климатических условий регионов:

- создание питомниководческих хозяйств ддля виноградарства, организация производства основных и вспомогательных материалов, используемых фермерами при закладке виноградников:

- улучшение инфраструктурного обеспечения виноградарства и виноделия, усиление научного кадрового потенциала:

- внедрение инновационных технологий в области производства и переработки винограда, восстановление деятельности перерабатывающих предприятий и создание новых;

- стимулирование продаж продуктов виноградарства, создание сети холодильников и хранилищ для бесперебойного всесезонного обеспечения населения столовым виноградом;
- стимулирование экспорта винограда и продуктов виноделия, защита внутреннего рынка от несправедливой конкуренции, организация производства спиртных напитков в соответствии с мировыми стандартами.

Представляемая «Ампелография Азербайджана» была разработана с целью изучения генофонда Азербайджанской Республики, подбор сортов различного срока созревания для выращивания в определенных регионах, исследования ампелографических, биоморфологических и агробиологических особенностей, выявления и восстановления редких сортов, проведения селекционных работ, дальнейшего развития виноградарства в регионах.

# INTRODUCTION

"The State Program on development of vine-growing in the Republic of Azerbaijan in 2012-2020" approved by the Decree of the President of the Republic of Azerbaijan with No 1890, dated from December 15, 2011, is a significant program that forms the state policy and strategy for vine-growing in our country. At present, according to the State Program, in order to ensure development of vine-growing and its processing industry at level of modern market requirements, are undertaken important practical activities such as creation of the modern collections of vineyards, laying new vineyards, expansion of planting areas for table and technical grapevine varieties, support for the creation of nursery farms on production of saplings for maintenance of the gene pool of grapes.

Occupying a special place among agrarian-industrial branches in the Republic of Azerbaijan, the vine-growing has the great importance for country economy in regard with creation of additional value and to economic efficiency. The grape is one of technical plants with the highest coefficient for number of created jobs and general production capacity per 100 ha of land area. However, vine-growing is the field of agriculture which requires the most capital.

It should be noted that the vine-growing is one of ancient and traditional production fields in Azerbaijan which has covered a glorious path of development. Historically, in Azerbaijan, nearly 600 aboriginal and introduced varieties of grapes have been grown, and about 400 of them have been referred to aboriginal varieties. During expansion of vine-growing, the geographical location of grape plantations across the country have been implemented with consideration of favorable land-climatic condition in regions. Until the I World War, the vineyards were extended almost every year in Azerbaijan. 1953 was a crucial year in development of viticulture in Azerbaijan. New vine-growing and wine-making centers have been created in Garabagh-Mil, Guba-Khachmaz, Lenkeran-Astara regions. At this period, 10 vine-growing state farms and multi-numbered cooperatives were active across the Republic. From 1953 to 1962, general area of vineyards was tripled from 22,9 thousand ha up to 68,7 thousand ha. In former times, vine-growing has been rapidly developed owing to a direct initiative and leadership of Heydar Aliev – the great leader of our country. In 1969, production of grapes made 272 thousand tons in Azerbaijan.

At that period, production of grapes increased from year to year and as compared to 1970 when areas of grapes was 121,6 thousand ha, grapes production 351,7 thousand tons, production capacity 46,8 centners, in 1984, as a result of attention and care shown to the branche of viticulture, grapes areas increased 2-3 times, grapes harvesting – 6 times and productivity – more than 2 times. In that year

the yield of the vineyards has achieved the highest level – 99,2 centners. In 1970, 672 economic farms, including 244 specialized vine-growing state farms functioned in the republic. Having expanded year-by-year, in 1984, the area of vineyards reached up to 284 thousand ha.

In the former Soviet Union the annual grapes production in Azerbaijan exceeded 2 million tonnes. It put the Republic on the first place in the Union. But after a decree adopted related with "Measures to combat alcoholism and drunkenness" implemented in the former Soviet Union, a serious blow was dealt to the vine-growing and wine-making which was a leading branch in the economy of Azerbaijan. Productive vineyards with the area of 130 thousand ha were destructed. Simultanlously, 76 production farms and 116 primary processing enterprices stopped their activity. As the result of implementation of the decree of the government of former USSR, the yield of the vineyards decreased considerably, the vine-growing and wine-making complex suffered a big crisis. Moreover, as a result of aggression exerted by Armenia since 1988, 43 thousand ha of vineyards have remained under occupation of the enemy. On the other hand, liquidation of a collective property, a tardy formation of private bodies, as well as difficulties during selling of wine products in the period of a new state construction led to massive destruction of grapes plantations and decrease in the production of wine. Massive destruction of vineyards caused a strong damage to the grapes gene pool. But in next years, the area of vineyards gradually began to expand. Since second half of the 90s, when our country obtained the independence, a favourable condition was created for revival of vine-growing in Azerbaijan, and relevant measures began to be taken in this direction. After Heydar Aliyev's return to the governance of the country, a decline in this branch of economy was gradually prevented, an attention was supplemented to the vine-growing and wine-making. As a result of reforms made in agrarian sector, beginning since the second half of the 90s of the past century, privatization of all wine and primary grape processing, champagne and brandy (cognac) enterprises announced open and 53 joint-stock companies based on them were created, the remaining 82 wineries were privatized as small enterprices. A decline observed in vine-growing was prevented beginning from 2005 and new vineyards were gradually layed, as well as ways of intensive growing began to be applied for development of vine-growing using traditions of the past and modern international practice. So, expansion of vine plantations caused a considerable rise in production capacity and productivity of the vineyards. Existence of auspicious business environment and appropriate raw materials allowed to create modern wine-making enterprises in the country. These enterprises took part in laying of modern grapes plantations based on new varieties of grapes and technologies.

In 2002, Law of the Republic of Azerbaijan "About the vine-growing and wine-making" was adopted, as well as significant documents such as the "State Program on

social-economic development of regions of the Republic of Azerbaijan (2004-2008)", the "State Program on properly provision of the population with food products in the Republic of Azerbaijan in 2008-2015", the "State Program on poverty reduction and sustainable develpoment in the Republic of Azerbaijan in 2008-2015", "State Program on socio-economic develpoment of regions of the Republic of Azerbaijan in 2009-2013" were approved. In these state programs, along with other sectors of the economy, is also specified the development of the viticulture industry and the increase in production of grapes. Thus, in 1995, the grapes plantations in the Republic reached 68,7 thousand ha. According to statistic data for 2010, the planting area of grapes in Azerbaijan was 15,4 thousand ha, production capacity - 129.5 thousand tons, import of fresh and dried grapes - 5,5 thousand tons and their export - 24,1 tons. In 2010, the production of grape wines made 1070,7 thousand decalitres, of which 21% or 224 thousand decalitres were exported. Natural-climatic condition of Azerbaijan allow to increase level of development of vine-growing, to enlarge volume of production and to meet the population's demand for high quality table grapes of different varieties as well as the demand of wine-making and other processing enterprices for raw stock of local production. In its turn, this allowed to increase the export and decrease the import of grapes and wine products.

Natural-climatic conditions of our country auspicious for grapes production, a higher economic efficiency of grapes than other plant crops, meeting the internal demand for quality varieties of kishmish, table, universal and wine grapes based on the local production, as well as a high demand for high quality and environmentally friendly table grapes, wine and other grapes processing products in markets of neighbouring and other countries made it more necessary to develop vine-growing. That's why the development of vine-growing in Azerbaijan was put forward as a vital issue. The laying of plantations consisting of quality table and technical grapes varieties first of all requires the biologically and phytosanitarily clean, high productive, quality grapes saplings, fitting to natural-climatic conditions of our country, as well as additional funds. In this regard, the continous development of viticulture, the growing of quality and inexpensive local grapevine varieties stipulated establishment of sapling-growing farms in our country. At present, the laying of new grapevine plantations requires long-term and great capital investments and creates the need in additional financial sources for taking care of planting areas until fruiting period. Therefore, provision of existing and to be created vine-growing farms with long-term financial sources is one of the most significant issues of the government. Procurement (harvesting, storage, packaging , sale etc.) of produced grapes products in timely manner is of special importance. To this effect, realization of those products on "plantation-manufacturer" scheme (wine-making and other processing enterprices, grapes storages, trade-sale networks etc.) is one of problems, the solving of which is

of a great importance.

On the personal initiative of Heydar Aliev, national leader of Azerbaijan, who highly appreciated an exceptional importance of vine-growing for country economy, in 1976 was established the Azerbaijani Scientific-Research Institute of Viticulture and Wine-making. In 1981 this tradition was followed by establishment of Azerbaijani Techology Institute with the purposes of training of engineer-technologists, engineer-mechanical specialists for wine-making industry. At present, Azerbaijani Scientific-Research Institute of Viticulture and Wine-making is playing the role of a scientific center stipulating development of vine-growing and wine-making in Azerbaijan. During last years, Azerbaijani Scientific-Research Institute of Viticulture and Wine-making has built cooperation ties with scientific centers, institutes of Russia (Kuban State Agrarian University, Dagestan State Agrarian University), Ukraine (Institute of Vine-growing and Wine-making named after V.Y.Tairov, "Magarach" National Institute of Vine and Wine) as well as with associations and companies from Greece, France and Italy, such as Biodiversity International, OIV, FIVS, Iter Vitis, Adepta, Wines&Spirits, Richter, Vivai Cooperativi Rauscedo. AzSRIVW participates in conducting of researches studying bio-diversity of grapes and identifying adaptive features for growing within cooperation of East and West together with international organizations such as Bioversity International and COST. 398 local traditional grape varieties were included into "European database of grapevine", the molecular-genetic identification of 33 wild forms of grapes and 46 local traditional varieties, the detection of their continuity genes were conducted within the international cooperation. The problems put before included updating and enriching the database of local grapes gene pool of member countries, creation and pasportization of ampelo-descriptor cards etc. Austria, Belgium, Bulgaria, Cypris, Croatia, Czech Republic, France, Germany, Greece, Italy, Luxemburg, Poland, Portugal, Slovakia, Spain, Sweden, Turkey, Georgia, Russia, Moldova, Ukraine, Morocco, Montenegro as well as Azerbaijan participate in this project.

Enriching the composition of vineyards, replacement of less productive grapevine varieties with new, more productive and quality ones, efficiently and continuously using genetic resources of grapes in Azerbaijan Republic is of a great importance in regard to food safety of the population, growth of production of grapes and its processing products in the Republic. Genetic resources of plants which are a substantial composition of the biodiversity, including grapes gene pool may meet today's requirements and be used for creation of new varieties and hybrid forms of grapes in future like carriers of genes which are of a vital importance with regard to selection, biotechnology and genetic engineering. Moreover, at present the organizations, which study genetic resources and biodiversity of plants, pay a special

attention to research and protection of wild biotypes of plants constituting present agrariran biodiversity in their creation and formation centers (*in-situ* and *ex-situ* conditions), involvement of valuable genotypes in wide production and biotechnological researches. Therefore, full protection of grapes genotype which is one of the most ancient and rich formations of Azerbaijan flora, its delivery to future generations, efficient and continuous usage of genetic resources is of a great importance from either scientific or practical standpoint. One of key purposes of activities related with gathering and including genetic resources of grapes into collection, its continuous and efficient usage consists of: 1) more intensive and expedient involvement of grapes genotypes in selection and improvement of programs by identifying their economically valuable signs, 2) satisfaction of the needs for fresh grapes and wine-making products through creation of new varieties resistant to biotic and abiotic stress factors of environment, with high quality, marketable, possessing high technological suitability and purchasing potencial, and through maximum realization of their potential opportunities in the field of vine-growing and 3) achievement of sustainable development in this field. It appears as a result of research works that, approximately 400 out of nearly 600 aboriginal and introduced varieties of grapes, grown in the territory of Azerbaijan, are local grapes. But it is a pity that, like across the world, in Azerbaijan also, due to impact of negative factors directed towards a loss and genetic errosion of genetic resources of plants, including gene pool of grapes, tens of valuable local, selected and introduced varieties of grapes have been already lost, while some of them are exposed to danger of being lost, abolished. According to the last researches, nearly 75 varieties of grapes grown in the Republic were lost, nearly 80 varieties are under danger of being lost. On the other hand, as a result of insidious actions of our ill-disposed neighbours – armenians, names of some valuable grape varieties of our country were changed and misappropriated, and named as armenain grapes through being published under wrong names. In order to properly maintain and sustainably use varieties of local grapes, its hybrid and wild forms, as well as introduced grape varieties common in our republic, a new ampelographic collection was created in 2002 by SRIVW where there nearly 300 aboriginal and introduced varieties, hybrid and wild formsof grapes have been collected and grown. Initially, nearly 200 of varieties in the collection fall on share of Azerbaijan, 5 varieties on Georgia, 5 varieties on Moldova, 2 varieties on Turkey, 18 varieties on Russia, 19 varieties on Central Asia, 5 varieties on Egypt, 9 varieties on USA, 2 varieties on Iran, 3 varieties on Germany, 5 varieties on France, 1 variety on Arabia, 3 varieties on Italy, 1 variety on England. It appears that over 400 local grapevine varieties are grown in the Republic. Only 200 of them have been collected and included into the collection. There are valuable varieties of grapes which have not been yet studied scientifically in different zones of our Republic till

now, and there are many of such sorts. Azerbaijan is famous accross the world for high quality local wine varieties of grapes such as Bayanshire, Medrese, Shirvanshahi, Khindogni, Hemeshere, Meleyi, Kherji, Gara asma, Gara aldere, Devegyozu etc. State care towards undertaking agrarian reforms and auspicious condition created for development of entrepreneurship promises restoration of the past glory of the vine-growing in Azerbaijan. Selection works currently being conducted in AzSRIVW are based on enriching of varietal composition of vineyards, replacement of less productive varieties of grapes with new, more productive and quality ones, creation of new table and wine grapes as well as hybrid forms through selection, which is of a significant economic importance. In ensuring an expedient development of vine-growing in the Republic, creation of collection gardens of grapes gene pool plays a role as a genetic basis. In due consideration of the situation, employees of the Institute in Absheron region layed a collection garden in 15 ha area, which consists of grapevine varieties brought from different zones of Azerbaijan. Creation of a sapling-growing farm is a vital condition for expansion of vine-growing. To this end, supply of equipment ensuring application of modern technologies in vine-growing zones, organization of grafting workshops and sapling-growing farms is among the significant actual problems.

In order to bring the development of vine-growing at high level in the Republic of Azerbaijan, an attention towards growing of table grapevine varieties, an increase of production of different products prepared from grapes, as well as an expansion of wine-making is growing year-by-year. Simultaneously with growth in production capacity, quality of wine products also gets improved to the considerable degree and their assortment are expanded.

Wine-making covered a glorious way in Azerbaijan. Thus in 60-80s, in Baku Wine factorys No 1 and 2, and Khanlar Agrarian Industrial Group of Enterprises, Ganja Wine factoris No 1 and 2, which are the greatest wine manufacturers, produced over 60 sorts of wines, including 17 types of dry table wine (“Bayan”, “Alsherab”, “Sadilli”, “Medrese”, “Novruzlu”, “Shamkhor”, “Garakend”, etc.), 20 sorts of strong dessert port (wine) (“Agstafa”, “Alabashli”, “Aghdam”, “Gizil sherbet”, “Gara yeri”, etc.), 11 sorts of dessert wine (“Garachanag”, “Mil”, “Gyoytepe”, “Garabagh”, “Azerbaijan”, “Shamakhi”, “Kurdemir”, etc.) and 13 brands of brendy (3,4,5 star “Gyoy-gyol”, “Baku”, “Shirvan”, “Absheron”, “Kepez”, “Moskva”, “Azerbaijan”, “Yubileyni”, “Genje”, etc.). Wines produced in Azerbaijan won a popularity accross the world. In a period covering 1955-1980 years, brand table and desert wines, brendies and champagnes of Azerbaijan were awarded 4 Grand Prix, 46 gold, 49 silver and 3 bronze medals in international exhibitions, tastings and fairs. Wines and brendies of Azerbaijan were exported to countries such as Hungary, Germany, Bulgaira, Poland, Czech Republic, Slovakia, Cuba and Mongolia. At present, the

return of popularity of vine-growing and wine-making in Azebaijan and its development through the last technology is one of the problems facing the agrarian sector. In the speech of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev at the meeting of the Cabinet of Ministers of the Republic with chairmanship of the President, devoted to totals of socio-economic development in 2015 and tasks to be fulfilled in 2016, it was stated that more important works would be performed related with development of agriculture in 2016 and in following years.

At present, the following state measures are being taken in order to expand vine-growing in different regions of the Republic of Azerbaijan.

- Expansion of planting areas for kishmish, table, wine and universal grapevine varieties, laying new grapes plantations fitting to land and climatic conditions of regions;
- Creation of sapling-growing farms, organization of production of main and secondary materials used in gardening works for farmers;
- Improvement of infrastructural provision of vine-growing and wine-making, enhancement of scientific personel potential;
- Application of innovative technologies in the field of grapes production and processing, restoration of activity of grapes processing enterprises and establishment of new enterprises;
- Stimulation of selling of grapes products, establishment of refrigerating and storage systems for uninterruptedly provision of the population with table grapes in each season;
- Stimulation of exporting grapes and wine products, protection of internal market against unfair competition, organization of production of alcoholic beverages that meet international standards.

The presented “Ampelography ofAzerbaijan” has been worked out with the aims of investigation of grapes gene pool, choice of grapes varieties, ripen at the different times, to be cultivated in separate regions, study of their ampelographic, biomorphological and agrobiological peculiarities, identification and restoration of rare varieties, implementation of breeding works, further development of the viticulture industry in regions.

# *I FƏSİL.* AMPELOQRAFİYA VƏ AZƏRBAYCANDA ÜZÜMÇÜLÜK

## 1. "Ampeloqrafiya" elminin inkişaf tarixi

Ampeloqrafiya (yunanca *ampelo* – üzüm, *qraphe* – yazıram deməkdir) - *Vitaceae* Juss. fəsiləsinə daxil olan üzümün növ, sort və klonların genofondunun tədqiqi, irsi dəyişkənliklərin qanunauyğunluqlarının müəyyənləşdirilməsi, ekoloji və antropogen amillərin təsiri ilə morfoloji dəyişkənliklərin tədqiqi, aqrobioloji xüsusiyyətlərinin araşdırılmasl ilə məşğul olan mühüm elmi-tədqiqat sahəsidir. Dünyanın üzüm becərilən ölkələrində *Vitacea*e Juss. fəsiləsinə daxil olan sort və formaların qorunub saxlanılmasında, seleksiya işlərində, həmçinin təsərrüfat miqyasında istifadə edilməsində ampeloqrafik kolleksiya bağlarında üzüm genofondunun qorunub saxlanılması çox böyük elmi-praktiki əhəmiyyətə malikdir. Ampeloqrafik kolleksiya bağlarında üzüm genofondunun toplanılması və qorunması həm seleksiya işləri üçün, həm də istehsalatda istifadə olunması məqsədilə mühüm praktiki əhəmiyyət daşıyır. Üzüm tənəyi sənaye əhəmiyyətli olmaqla, ərzaq bitkisidir, meyvəsi şəkərlər (15-25 q/$dm^3$), fermentlər, vitaminlər (C, $B_1$, $B_2$, $B_{12}$, A, E, P, PP), üzvi turşular, yağlar, makro- və mikroelementlər ( Ca, Mn, Fe, Mg, Zn, F, Cu, Co), mineral və aşı maddələrilə çox zəngindir. Üzüm şirəsi (480-1280 kal/l), qurudulmuş kişmişi və mövüc məhsulları (3240-3275 kal/kq) yüksək kaloriliyə malikdir. Təzə halda üzüm yüksək qidalılıq xüsusiyyətinə malik olan məhsuldur. Üzüm məhsullarının istifadəsi çoxşaxəli olmaqla, ondan yüksək maddi gəlir əldə edilməklə onun xalq təsərrüfatında istifadə dairəsi çox genişdir. Dünyada zəngin fizioloji tərkibə və yüksək müalicəvi əhəmiyyətə malik olduğuna görə süfrə üzümçülüyünə böyük diqqət yetirilir [62, 72].

"Ampeloqrafiya" termini bu elmin əsasını qoymuş Saks tərəfindən ilk dəfə işlədilmişdir. Ancaq onun nəzəri və metodoloji əsasları bir fundamental elmi-tətqiqat sahəsi kimi XIX əsrin axırlarında Fransada və başqa Avropa ölkələrində, həmçinin Rusiyada hazırlanmışdır. O dövrdə həmin ölkələrdə *Vitaceae* Juss. fəsiləsinin sistematikası, sort müxtəlifliyinin müəyyənləşdirilməsi, introduksiyası, aqrotexnikası, biokimyası, fiziologiyası və seleksiyası istiqamətində geniş elmi-tədqiqat işləri aparılmaqla yanaşı həmçinin ampeloqrafiq axtarışların ümumiləşdirilməsi, səylərin birləşdirilməsi, nəticədə ümumi qəbul edilmiş metodikaların hazırlanması istiqamətində də mühüm praktiki işlər yerinə yetirilmişdir. Dünya ampeloqrafiya elminin inkişafında J.Saks, P.Viala, V.Vermopeli, S.İ.Korjinski, N.İ.Vavilov, A.M.Neqrul, U.F.Kaç, J.Planşon, İ.V.Palibin, R.A.Baranov, M.A.Lazarevski,

N.İ.Prostosedov, J.K.Şmal, L.H.Vailey, N.İ.Quzun, P.Y.Qolodriqa, L.P.Troşin, Azərbaycanda isə R.K.Allahverdiyev, C.S.Süleymanov, R.A.Məmmədov, V.M.Quliyev, F.H.Şərifov, A.N.Əsədullayev, İ.K.Abdullayev, M.V.Amanov, S.A.Nəcəfov, T.M.Pənahov, V.S.Səlimov, M.K.Musayev və başqalarının böyük xidmətləri olmuşdur [1, 2, 6, 8, 12, 17, 26, 28, 31, 32, 44, 50, 65, 98, 111, 117, 128, 129, 141, 158 198]. Təbii ki, aparılan elmi-tədqiqat işlərinin ana xəttini *Vitaceae* Juss. fəsiləsinin təsnifatının müəyyənləşdirilməsi, cins və növlərin tədqiqi, genofondun toplanılması, sort müxtəlifliyinin öyrənilməsi, onların iqtisadi qiymətləndirilməsi və digər problemlər təşkil edirdi. Ampeloqrafiya bir elm sahəsi kimi uzun tarixi inkişaf yolu keçmişdir. Artıq XV əsrdə çoxlu sayda üzüm sortlarının botaniki təsvirləri haqqında məlumatlara R.Kreşensio və başqa tədqiqatçıların aqronomluğa aid əsərlərində rast gəlinir. Ampeloqrafik tədqiqatlar ilk növbədə üzüm kolleksiya bağlarının yaradılması ilə başlanmışdır. M.K.Ballas Rusiyada ilk kolleksiya üzüm bağının əsasını qoyan ampeloqraf hesab edilir [18, 71]. Ən mükəmməl üzüm kolleksiya bağı XVIII əsrin axırlarında Şartale tərəfindən Luksemburqda (1795) yaradılmışdır. Sonra Vosk tərəfindən üzüm sortlarının sayı 2050-yə çatdırılmışdı [119]. Müasir ampeloqrafiyanın əsası Simon de Roxas Klemente tərəfindən qoyulmuşdur. A.Odar 1000-dən artıq üzüm sortunun kolleksiya bağını yaratmış, aparılan işlərin nəticəsi olaraq "Universal ampeloqrafiya" kitabını nəşr etdirmişdir. Bundan başqa Lui Buse de Bernar 1100, Buşero isə 4000 sortdan ibarət kolleksiya bağı salmışdır. Qeyd etmək lazımdır ki, XIX əsrdə Avropanın ayrı-ayrı ölkələrində geniş ampeloqrafik tədqiqatlar aparılmışdır. İtaliyada ampeloqraf Rovazenda müxtəlif ölkələrdən 1000-ə yaxın üzüm sortunu toplayaraq kolleksiya bağı yaratmış, sonradan onların sayını 3000-ə qədər artırmışdır. Ampeloqraflardan Viala və Vermopolin tərtib etdikləri VII cilddən ibarət olan "Ampeloqrafiya"da 2500-dən çox üzüm sortunun rəngli şəkilləri, botaniki təsvirləri, ad və sinonimləri verilmişdir [165, s. 15-27]. Ancaq o dövrdə sortların adlandırılmasında bir xaotiklik var idi. Ona görə də 1873-cü ildə Vyanada şərabçılıq üzrə ümumdünya sərgisində keçirilən konqresdə üzüm sortlarının nomenklaturasında, ad və sinonimlərindəki qarışıqlığı aradan qaldırmaq üçün "Ümumdünya Ampeloqrafiya Komissiyası"nın yaradılması haqqında ampeloqraflar razılığa gəlmişlər. Bu komissiyanın işində Fransa, İtaliya, Rusiya, Macarıstan, Yunanıstan, İsveçrə və sair dövlətlər təmsil olunmuşdur. Komissiyanın əsas məqsədi üzüm sortlarının adlarının dəqiqləşdirilməsi, nomenklaturasının hazırlanması, sistemləşdirilməsi və kataloqlaşdırılması olmuşdur. Hər bir sortun ən çox yayıldığı ərazidəki adlandırılması əsas adı, başqa bölgələrdəki adlandırılmaları isə sinonimləri qəbul edilmişdir. Rusiyada ilk dəfə Kolenati üzümün mənşəyini, təsnifatını araşdırmaq üçün onun morfoloji əlamətlərini öyrənmiş, həmçinin Azərbaycan və Gürcüstanın 48 üzüm sortuna yeni latın adları vermişdir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Rusiyada üzümçülük və şərabçılıq iqtisadiyyatda

mühüm rol oynayırdı. Ona görə də bu sahəyə yenidən diqqət yetirilməyə başlanılmışdır. Üzümlüklərə külli miqdarda ziyan vuran fillokseraya, mildiu və oidium xəstəliklərinə qarşı mübarizə tədbirlərinin hazırlanması üçün məqsədyönlü elmi-tədqiqat işləri həyata keçirilirdi. Cənubi Qafqaz ərazisində yerli sortların toplanılması, xəstəlik və zərərvericilərinin öyrənilməsi istiqamətində axtarışlara başlanılmışdır. "Qafqaz ampeloqrafiyasının materialları", "Zaqafqaziyada üzüm sortları" və s. məcmuələr məhz o dövrdə yaradılmışdı. Ballasın VI cilddə "Rusiyada şərabçılıq" oçerklərində üzümçülərə və şərabçılara becərilən sortlar haqqında daha müfəssəl məlumatlar verilmişdi [166,167]. O dövrdə ampeloqrapfik tədqiqatlara dair çoxlu əsərlər nəşr olunsa da, akademik S.K.Korjinskinin işləri daha önəmli idi. Onun "Krım ampeloqrafiyası" kitabı elmi baxımdan daha əhatəli olmaqla yanaşı, həm də bu elmin inkişaf istiqamətini müəyyənləşdirmişdi. O yabanı növlərin polimorfizmini, coğrafi yayılmalarını və s. öyrənməklə becərilən sortların mənşəyini və təsnifatını vermişdi. Kitabda 112 sortun botaniki təsviri verilmiş, onların çiçək orqanları, çarpazlaşma və s. haqqında elmi məlumatlar öz əksini tapmışdı. Lakin onun da təsnifatı mükəmməl deyildi. O dövrdə N.N.Prostosedovun ampeloqrafik tədqiqatları mühüm önəm daşıyırdı. Tədqiqatçı Rusiyanın Don vilayətində yayılan üzümün sort müxtəlifliyinin təhlilini və təsərrüfat əhəmiyyətini tədqiq etmiş, aqrobioloji analizlərin aparılması metodikasını hazırlamışdı. XX əsrin əvvəllərində Lissabonda (1938) keçirilən üzümçülük və şərabçılıq üzrə ümumdünya konqresində ampeloqrafik tədqiqatlar üçün yeni təkliflər səsləndirilmişdi. Bu təkliflər iki variantda idi. Fransa variantında P.Viala ampeloqrafiyasının təkmilləşdirilməsilə universal ampeloqrafiyanın yaradılması, ümumdünya sort kataloqunun hazırlanması, iri şərabçılıq sənayesi regionlarında istifadə edilən sortların inventarlaşdırılması və digər təkliflər irəli sürülmüşdür. İtaliya variantında isə ampeloqrafik tədqiqatların bütün üzümçülük inkişaf etdirilən ölkələrdə genişləndirilməsi, regionlar üzrə əsasən yerli sortlardan ibarət kolleksiya bağlarının yaradılması, şərabçılıq və süfrə sortlarının tam şəkildə ampeloqrafik təsvirlərinin aparılması, ən yaxşı şərabların alınmasında istifadə olunan üzüm sortlarının müəyyənləşdirilməsi, bu sahədə dövlətlərarası təcrübə mübadilələrinin aparılması və digər bu kimi tələblər təklif olunmuşdu. O dövrdə Fransada üzüm sortlarının bölgələr üzrə rayonlaşdırılması başa çatsa da, İtaliyada üzümçülük dağınıq halda inkişaf etdirilirdi. Dünyanın əksər ölkələrində isə vəziyyət İtaliyada olduğu kimi idi. Ona görə də konqresdə İtaliya variantı qəbul edilmişdi [165].

Keçmiş SSRİ məkanında üzüm sortlarının toplanılması, regionlar üzrə ampeloqrafik kolleksiya bağlarının yaradılması, sort müxtəlifliyinin öyrənilməsi üçün geniş elmi-tədqiqat şəbəkələri yaradılmışdı. O dövrdə "Maqaraç" Ümumittifaq Elmi Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunda 250 sortdan ibarət ilk kolleksiya bağının yaradılması ampeloqrafik tədqiqatlara geniş imkanlar açmışdı. Orta Asiyada fəaliyyət göstərən Ümumittifaq Bitkiçilik İnstitutunda isə yerli sortların ampeloqrafik

tədqiqi aparılırdı. Həmin İnstitutun Tarnau Dayaq Məntəqəsində 11 növə aid 100-ü yabanı forma olan 400, Tacikistan SSR-də 126, Türkmənistan SSR-də 150, Qazaxıstan SSR-də 100-dən artıq sortdan ibarət kolleksiya bağları salınaraq ampeloqrafik tədqiqatlar aparılmışdı. Ukrayna SSR-də V.E.Tahirov adına Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunda 289 Avropa sortundan və 89 calaqaltıdan ibarət kolleksiya bağı salınmış, əsas məhsuldarlıq göstəriciləri öyrənilmiş, onların şərabçılıq sənayesində istifadə olunması texnologiyası araşdırılmışdır. Sonradan "Maqaraç" Ümumittifaq Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunda 730 sortdan ibarət (onlardan 40-ı yerli sort idi) kolleksiya bağı yaradılmış və üzərində elmi-tədqiqat işləri aparılmışdır. Bu kolleksiyada tanınmış alimlərdən V.S.Suskov, U.F.Kaç, M.A.Lazarevski ampeloqrafik tədqiqatlar aparmışlar [198]. Həmçinin, Ümumittifaq Bitkiçilik İnstitutunun Dərbənd Zonal Dayaq Məntəqəsində (1924-1931) 195 Avropa, 133 Amerika sortundan, Soçidəki məntəqədə isə 210 Amerika və Avropanın yerli sortlarından ibarət üzüm kolleksiya bağı yaradılmış və elmi-tədqiqat işləri yerinə yetirilmişdi. Dünya miqyasında aparılan ampeloqrafik tədqiqatların nəticəsi olaraq XX əsrin əvvəllərində Fransada P.Viala və V.Vermorela tərəfindən 5200 üzüm sortunun ampeloqrafik təsviri olan, 7 cilddən ibarət "Universal ampeloqrafiya" nəşr edilmişdi. Keçmiş SSRİ-də isə 1946-1957-ci illərdə 3070 sortun (1445 texniki, 1232 süfrə və 393 universal istiqamətli sort) ampeloqrafik təsvirləri olan, VI cilddən ibarət "SSRİ ampeloqrafiyası" kitabları nəşr edilmişdi [165, 166]. 1984-cü ildə isə 143 üzüm sortunun təsviri verilmiş "Ampeloqrafiya Uzbekistana" kitabı nəşr edilmişdi [167]. Azərbaycan Respublikasında 1973-cü ildə 94 yerli və introduksiya edilmiş üzüm sortunun botaniki və aqrobioloji göstəricilərindən ibarət olan A.M.Allahverdiyevin "Ампелография Азербайджанской ССР" kitabına Azərbaycanda becərilən 94 üzüm sortunun ampeloqrafık təsviri daxil edilmişdir ki, onun da 67-si yerli sortlardır. Burada 21 yerli üzüm sortunun təsviri ilk dəfə olaraq verilmişdir. 2012-ci ildə Naxçıvan Muxtar Respublikasında 115 sortun ampeloqrafik tədqiqatlarından ibarət V.M. Quliyevin "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası" kitabı nəşr olunmuşdur [62].

Azərbaycanda becərilən üzüm sortlarının biomorfoloji, aqrobioloji, aqrotexniki və ampeloqrafik xüsusiyyətlərinin öyrənilməsində tədqiqatçı alimlərdən A.A.Atakişiyev, C.S.Süleymanov, R.A.Məmmədov, A.N.Əsədullayev, İ.K.Abdullayev, M.R.Qurbanov, V.M.Quliyev, F.H.Şərifov, T.M.Pənahov, V.S.Səlimov, M.K.Musayev, F.M.Əhmədov, A.H.Tağıyev, Ə.H.Əliyev, S.A.Nəcəfov, A.A.Qasımov, N.İ.Ağayeva, H.S.Dadaşov, L.M.Mehdiyeva, K.Q.Məmmədova, M.N.Abbasov, A.Q.İsgəndərov, A.S.Şükürov, C.S.Nəcəfov və başqalarınm xidmətləri böyükdür.

Hazırda Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Üzümçülük və Şərabçılıq ET İnstitutunda, AMEA Genetik Ehtiyatlar İnstitutunda və AMEA Naxçıvan Bölməsi

Bioresurslar İnstitutunda məqsədyönlü ampeloqrafik tədqiqat işləri davam etdirilir [3, 4, 18, 19, 47 4 8, 68, 70, 81, 85, 137, 201, 228, 248, 267].

Azərbaycan Respublikasında 1969-cu ildən sonra üzümçülük və şərabçılığın sürətli inkişafına onun elmi əsaslara öyrənilməsi əhəmiyyətli dərəcədə təsir etmişdir. Bu dövrdə Respublikada üzümün sortöyrənilməsi, seleksiyası və ampeloqrafiyası üzrə tədqiqatlar genişləndirilmişdi, bu sahədə yüksək ixtisaslı alim və mütəxəssislər ordusu formalaşmışdı. Həmin dövrdə üzümün seleksiyası (hibridləşdirmə, klon seleksiyası, təcrübi mutasiyalar və s.), sortöyrənilməsi və introduksiyası istiqamətində aparılan işlərin nəticəsində respublikamızın üzüm genofonduna onlarla qiymətli yeni yaradılan sort və formalar, klon və introdusentlər daxil edilmişdir.

Dünya miqyasında ampeloqrafik kolleksiya bağlarının salınması, gen bankının yaradılması, seleksiya işlərində donor kimi istifadə olunması perspekstivli yeni sortların yaradılması ilə nəticələnmişdir [128, 129, 262, 263, 265, 268, 269, 271]. Ayrı-ayrı ölkələrdə kolleksiya bağlarının yaradılması, üzüm genofondunun tədqiqinin əsas nəticələri əsasında sortların ümumi qəbul edilmiş metodikalar üzrə ampeloqrafik tədqiqinin elektron sistemlərin və məlumat bazalarının köməyi ilə müqayisəli təhlilləri öz səmərəsini vermişdir. Dünyadakı ampeloqrafik kolleksiya bağlarının salınması isə genofondun qorunmasının qarantıdır. Rusiyada Anapa ampeloqrafik kolleksiya bağında hazırda 4708 üzüm sortu toplanılmışdır. Bunlardan 763 sort calaqaltı, 3945 sort isə öz kökü üzərində bitən sortlardır. Hazırda kolleksiya bağında bu sortların adaptasiya olunması və ekoloji xüsusiyyətləri, irsi əlamətləri, həmçinin aqrobiologiyası və iqtisadi əhəmiyyəti tədqiq olunmaqdadır. Bu sortların əksəriyyəti Rusiya Federasiyasında və digər ölkələrdə rayonlaşdırılmışdır [233, 234, 247].

Naxçıvan Muxtar Respublikasında AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunda 2005-ci ildə bölgədə üzüm genofondunun qorunması və seleksiya işlərinin aparılması məqsədilə 120 aborigen, 17 introduksiya edilmiş sort və 50-dən çox seleksiya yolu ilə alınmış yeni formalardan ibarət "Üzüm genofondu" kolleksiya bağı salınmışdır [66, 75, 80, 82, 148, 139, 155, 157, 173, 197].

1985-ci ildə keçmiş SSRİ məkanında 1265 min ha sahədə üzüm becərilirdi. Bu üzümlüklərin 49,5 %-i RSFSR-in, Moldova və Ukraynanın, 33,8 %-i Cənubi Qafqazın, 17,7 %-i isə Orta Asiya respublikalarının payına düşürdü. Dünyada 1985-ci ildə 74060000 ton üzüm məhsulu istehsal olunmuşdur ki, bunun da 12,4 %-ni süfrə sortları təşkil edirdi [84, s. 3-14]. Hazırda dünyada 10213 min ha üzüm plantasiyası vardır ki, bunun da 71,0 %-i Avropada, 14,4 %-i Asiyada, 9,6 %-i Amerikada, 4,0%-i Afrikada, 1,0 %-i isə Avstraliya və Yeni Zelandiya ölkələrində becərilir. Hər il toplanılan təqribən 60525,9 min tondan çox üzüm məhsulunun orta hesabla 69,3 %-i Avropa, 15,4 %-i Amerika, 10,3 %-i Asiya, 3,6 %-i Afrika və 1,4 %-i Okeaniya ölkələrində istehsal olunur. İstehsal edilmiş məhsulun 6,1 %-i, yəni 7246,4 min tonu süfrə üzümü kimi təzə halda istifadə edilir. Hər il təqribən 760-770 min ton istehsal

edilən qurudulmuş üzüm məhsullarının 35 % -i Amerikada, 32 % -i Asiyada, 23 % -i Avropada, 8,05 %-i isə Okeaniya ölkələrində hazırlanır. ABŞ, Yunanıstan, İran, Türkiyə və s. dünyada ən çox kişmişi və mövüz istehsal edən ölkələrdəndir. Ancaq dünya ölkələrində istehsal edilən üzüm məhsulunun 88,0 %-dən çoxu şərabçılıq sənayesində istifadə olunmaqdadır. Hər il dünya miqyasında təqribən 326,646 min dekalitr şərab istehsal olunur ki, bu sahədə də Avropa ölkələri aparıcı rol oynayırlar. İstehsal olunan şərab məhsullarının 79,6 %-i Avropa, 15,1 %-i Amerika, 3,2 %-i Afrika, 1,1 %-i isə Okeaniya ölkələrinin payına düşür [84, s. 3-14].

2006-2010-cu illərdə dünya miqyasında üzümlüklərin sahəsi nəzərə çarpacaq qədər dəyişilməmişdir. 2012-ci ilin məlumatına görə dünya miqyasında üzümlüklərin ümumi sahəsi 7875 min ha-dır. Bu üzümlüklərin 70 %-i 12 dövlətin (İspaniya – 1113 min ha, Fransa – 816 min ha, İtaliya – 805 min ha, Türkiyə – 587 min ha, Çin – 551 min ha, ABŞ – 380min ha, İran – 352 min ha, Argentina – 228 min ha, Portuqaliya – 219 min ha, Rumuniya – 195 min ha, Çili – 194 min ha, Avstraliya – 173 min ha) payına düşür. 2008-ci ildə 72 ölkədə 71236 mln. ton üzüm məhsulu toplanılmışdır [62, 221].

Üzümün yüksək iqtisadı səmərəyə, zəngin fizioloji tərkibə və yüksək müalicəvi əhəmiyyətə malik olduğuna görə dünyada üzümçülüyə böyük diqqət yetirilir [82]. Dünya miqyasında 2014-cü ildə üzümlüklərin ümumi sahəsi 7573 min hektar olmuşdur. Ispaniya, Fransa, Çin və Türkiyə ölkələrində olan üzüm sahələri dünyada mövcud üzümlüklərin 50 %-dən çoxunu təşkil edir. 2015-ci ildə dünya miqyasında 7570 min ton üzüm məhsulu toplanılmışdır. Ən çox üzüm Çində (12,6 mln. ton), ABŞ, Fransa və İtaliyada (6,0-8,2 mln. ton) toplanılmışdır. Dünya bazarına təzə halda 24,8 mln. ton üzüm məhsulu çıxarılmışdır. Ən çox süfrə üzümü istehsal edən ölkərdən Çin (8,47 mln. ton), Hindistan ( 2,2 mln. ton), Türkiyə (1,9 mln. ton), İran (1,36 mln. ton) dövlətləri olmuşdur.

2014-cü ildə dünya miqyasında 1,3 milyon ton qurudulmuş üzün məhsulu istehsal olunmuşdur. Qurudulmuş üzüm məhsulu istehsalına görə Türkiyə (430 min ton), ABŞ (320 min ton), İran (160 min ton) öndə getmişdir. 2015-ci ildə dünya miqyasında 275,7 milyon dekalitr şərab məhsulu istehsal olunmuşdur , bu da 2014-cü ilə nisbətən 2 % çoxdur. Şərab istehsalı 2015-ci ildə ən çox İtaliyada (48,9 mln dekalitr), Fransada (47,4 mln dekalitr), İspaniyada (36,6 mln dekalitr), ABŞ-da (22,1 mln dekalitr), Argentinada (13,4 mln dekalitr), Çili (12,9 mln dekalitr), Avstraliyada (12,0 mln dekalitr) təşkil etmişdir.

Akademiklər N.İ.Vavilov, İ.D.Mustafayev hər hansı bir növün genofondunun qorunması və artırılmasının, qayğısına qalınmasının vacibliyini dəfələrlə qeyd etmişlər [202, 270]. Çünki, genofondun tədricən tükənməsi, populyasiyada müxtəlif irsi əlamətlərə malik genlərin azlığı hər hansı bir növün və ya sortun məhvinə səbəb olduğu üçün, üzümçülükdə də sort azlığı ekoloji mühitin tələbatına uyğun təbii

seçmə prosesində sortyaranma təkamülünü ləngidir, onun birdəfəlik məhv olması üçün zəmin yaratmış olur. Bu baxımdan genofondun zənginliyi müvafiq ekoloji-coğrafi şəraitdə növ və ya sort əmələgəlmə prosesini, onun uyğunlaşma potensialını artırır. Ona görə də Azərbaycan Respublikasında yayılan, müxtəlif irsi əlamətlərə malik olan üzüm sortlarının genofondunun toplanılması, müxtəlif genotiplərin qorunub saxlanılaraq artırılması, sortlar üzrə iqtisadi qiymətləndirmələrin aparılması, perspektivli sortların müəyyən edilərək istehsalata yönəldilməsi, həmçinin seleksiya yolu ilə yeni sort və formaların alınması kimi məqsədyönlü ampeloqrafik tədqiqatlar üzümçülüyün inkişaf etdirilməsində əsas istiqamətlərdən biridir [9, 52, 53, 54, 161, 162, 163, 240, 266]. Respublikada üzümlüklərin sort tərkibinin zənginləşdirilməsi, az məhsuldar və keyfiyyətsiz sortların yeni, daha məhsuldar və keyfiyyətli sortlarla əvəz edilməsi, üzümün genetik ehtiyatlarından səmərəli və məqsədyönlü istifadə olunması, emal məhsullarının istehsalının artırılması mühüm iqtisadi əhəmiyyətə malikdir. Üzüm genofondunun zənginliyi Azərbaycanda bu günün tələbatını ödəməklə yanaşı, həmçinin seleksiya və gen mühəndisliyi baxımından da mühüm əhəmiyyət kəsb edən genlərin daşıyıcıları olaraq gələcəkdə yeni üzüm sortlarının və hibrid formalarının yaradılması üçün də istifadə oluna bilər. Hal-hazırda bitkilərin genetik ehtiyatlarını və biomüxtəlifliyini öyrənən beynəlxalq təşkilatlar biomüxtəlifliyi təşkil edən ayrı-ayrı bitkilərin yaranma mərkəzlərində onların yabanı əcdadlarının öyrənilməsinə, qorunmasına (*in-situ* və *ex-situ* şəraitində), qiymətli genotiplərin geniş istehsalata və biotexnoloji tədqiqatlara cəlb olunmasına xüsusi diqqət yetirirlər. Üzümün sort və formalarının irsi əlamətləri üzrə kodlaşdırılmış informasiyanın yaradılması müasir interaktiv ampeloqrafiya elminin əsas tədqiqat obyektidir. Müasir dövrdə ampeloqrafik tədqiqatların əsas məqsədi üzüm sortlarımn kodlaşdırılmış kataloqlarının hazırlanması, genotiplərin qorunması, qiymətləndirilməsi, seleksiya və istehsalat işlərində istifadə olunması imkanlarının müəyyənləşdirilməsidir [16,20, 21, 42, 69, 73, 74, 77, 79, 95, 105,147, 180, 246,152, 257, 261].

Üzüm bitkisində hər bir sort üçün xarakterik olan irsi əlamətlərinin ekoloji mühit amillərinin təsiri ilə dəyişilə bilən müvafiq modifikasiya xarakterli eko, yaxud biotipləri yarana bilər. Becərilən üzüm sortlarının əsas morfoloji əlamətlərinin spektrinin təhlili onu deməyə əsas verir ki, üzüm bitkisində ayrı-ayrı irsi əlamətlərin müvafiq modifikasiya dəyişkənliklərinə uğraması tənəyin çox müxtəlif ekoloji-coğrafi ərazilərdə uyğunlaşma potensialını artırır və becərilməsinə şərait yaratmış olur. Modifikasiya dəyişkənliyinin amplitudu isə ayrı-ayrı genetik əlamətlər üzrə müxtəlifdir. Tədqiqatların gedişində müəyyən edilmişdir ki, modifikasiya dəyişkənliklərinin amplitudu yaşıl zoğun tac və 3-5-ci yarpağın quruluşunda, əsas fenoloji fazaların davametmə müddətində, birillik zoğların rəngində, buğumaralarının ölçülərində, payızda yarpaqların və çubuqların rənglənməsində, gilələrin rəngində, formasında, toxumun miqdarında *kiçik*, salxımların kütləsi, gilələrin parametrləri,

şirədə şəkərlilik və turşuluq, tənəyin və barlı zoğların məhsuldarlıq əmsalı, məhsulun tam fizioloji yetişməsi və s. kimi irsi əlamətlərdə isə *böyükdür* [8, 11, 13, 14, 39, 58, 83, 84, 86, 97, 101, 109, 121, 132, 139, 152, 160].

Müasir dövrdə ampeloqrafik tədqiqatlar dünya miqyasında üzümçülüyün və şərabçılıq sənayesinin inkişafında çox mühüm rol oynamaqdadır. Ampeloqrafiya elminin hazırda üç şöbəsi: *ümumi ampeloqrafiya* (*Vitaceae* Juss. fəsiləsinin təkamülü, sistematikası, yayılması, dəyişkənlik və irsiyyət qanunauyğunluqları, növ və sort biomüxtəlifliyi, ekologiya problemləri, tədqiqat üsullarının yaradılması, tədqiqi və s.), *xüsusi ampeloqrafiya* (növ, sort, klon və formaların ampeloqrafik təsviri, fenoloji, aqrobioloji, uvoloji, biokimyəvi, təsərrüfat-texnoloji və s. xüsusiyyətlərinin tədqiqi) və *interaktiv ampeloqrafiya* (dünya miqyasında üzüm sortlarında kəmiyyət və keyfiyyət göstəricilərinin ölçülməsi, şifrələnməsi, genetik əlaqələrin tədqiqi nəticəsində fenotipik və genotipik əlamətlərin müəyyənləşdirilməsi) ayırd edilir [164, 84, 208, 210].

Son dövrlər prof. L.P.Troşin tərəfindən yaradılan *Ampelometriya* ampeloqrafıyanın ən yeni bölməsi olmaqla morfometrik üsulla oxşar sortların, yeni formaların (variasiyaların, biotiplərin, klonların) irsi əlamətlərinin, yarpaqlarda kəmiyyət ölçülərinin və onların dəyişkənlik dərəcəsinin variasiya əmsalının müəyyənləşdirilməsində istifadə olunur [235].

Dünyada elmi tərəqqi inkişaf etdikcə ampeloqrafiya elmi də daim yeniləşir, yeni tədqiqat sahələri yaranır. Son illər dünya üzümçülük elmində sortların biomüxtəlifliyinin qiymətləndirilməsində, onların təyinatında molekulyar-genetik markerlərə üstünlük verilsə də, yenə də ampeloqrafik yolla genotiplərin fenotipik əlamət və göstəriciləri üzrə qiymətləndirilməsi və markerləşdirilməsi aktual tədqiqat işi olaraq qalmaqdadır. Biomüxtəlifliyin qısa zaman ərzində və daha dəqiqliklə təyin edilməsi üçün zəruri olan təyinat açarlarınn işlənib-hazırlanması mühüm elmi və əməli əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında indiki dövrdə ampeloqrafik tədqiqat işləri OİV-in tələbləri səviyyəsində həyata keçirilməli, üzüm genotiplərinin ampelodeskriptor xüsusiyyətləri beynəlxalq tələbata üyğün hazırlanmalıdır. Son illərdə Azərbaycanın üzüm becərilən regionlarında kənd əhalisi tərəfindən üzüm bağlarının genişləndirilməsinə maraq artmaqdadır [194, 196].

## 2. *Vitaceae* Juss. fəsiləsinin təsnifatı, cins və növlərin xüsusiyyətləri

Yabanı və mədəni halda Yer kürəsinin tropik, subtropik və mülayim qurşaqlarında 52° şimal en dairəsindən 43° cənub en dairəsinədək ərazilərdə geniş yayılan, üzümkimilər (Vitaceae Juss.) bitkilər aləminin ən zəngin fəsilələrindən biri hesab olunur. Bu fəsiləyə 14 cins və 968 növ daxildir (sxem). Təsnifat baxımından üzüm bitkisi aşağıdakı şəkildə ifadə olunur: Aləm – *Plantae* – bitkilər; yarımaləm- *Tracheobionta* – borulu bitkilər; şöbəüstü – *Spermatophyta* – toxumlu bitkilər; şöbə- *Magnoliophyta* – çiçəkli bitkilər; sinif – *Magnoliopsida, Dicotyledonae* – ikiləpəlilər; sıra – *Vitales* – üzümçiçəklilər; fəsilə – *Vitaceae* Juss. – üzümkimilər. *Vitaceae* Juss. fəsiləsinin sistematikası aşağıda verilmişdi (cədvəl 1.1).

Üzümkimilər – *Vitaceae* Juss. fəsiləsinin nümayəndələri filogenetik inkişaf tarixində müxtəlif mühit şəraitinin (tropik, subtrpoik və mülayim iqlimin) təsiri nəticəsində həmin torpaq-iqlim şəraitinə uyğun xüsusiyyətlər qazamışdır. Buna görə də, fəsilənin çoxlu sayda növləri əmələ gəlmişdir [207, 209, 232]. Bu fəsilənin nümayəndələri həyat formalarına görə təkgövdəli qısaboylu ağac, çoxgövdəli kol və torpaq altında yerləşən lətli gövdədən, hər il inlkişaf edən ot, əksər hallarda isə lian bitkilərdir. Bəzi cinslərin (*Vitis, Ampelopsis* və s.) əksər nümayəndələri xəzanlaşan, bir sıra cinslərin (*Cissus, Tetrastigma* və s.) nümayəndələri isə həmişəyaşıldır. Fəsilənin əksər növlərinə mənsub olan bitkilərin zoğları hər il yarpaq qoltuğundakı, bəzi növlərdə isə yeraltı yoğunlaşmış gövdə üzərindəkı tumurcuqlardan inkişaf edir. Üzümkimilər fəsiləsinin nümayəndələri birevli və ikievli bitkilər olmaqla çiçəkləri ikicinsli və ya birevli bircinslidir. Filogenetik inkişaf tarixindən asılı olaraq çiçəkləri bəzi halda funksional dişi, funksional erkək, həqiqi (əsl) dişi və erkək tipli olurlar. Erkəkciklərin sayı əksər hallarda 4-5, bəzən 6-7 ədəd, dişiciyi isə bir ədəddir.

*Vitaceae* fəsiləsinin niimayəndələri üçün zoğların budaqlanmasının 4 tipi xarakterikdir. Bu budaqlanma tipinə yarpaqları spiralşəkilli yerləşən monopodial, yarpaqları ikicərgəli növbəli düzülmüş monopodial, bığcıqsız (əsasən çiçək salxımı) və bığcıqlı simpodial budaqlanma formaları daxildir. Yarpaqları sadə, bəzən mürəkkəb formalarda olur. Yarpaqları saplaq və ayadan ibarətdir. Ayası bütöv, dilimlərlə bölünmüş, 3-5 pəncəli, yaxud lələkvari formalarda olur. Bir çox növlərdə isə bir bitkidə, yaxud zoğlarda müxtəlif yarpaqlılığa (heterofoliya) da rast gəlinir. Çiçək salxımları yalançı çətir, uzunsov süpürgə və ya salxımşəkilli formalara malikdir. Çiçəklərində erkəkciklər əksər hallarda 4-5, bəzən 6-7 ədəd olmaqla, saplaqdan və tozcuq kisəsindən ibarətdir. Dişiciyi isə bir ədəd olur. Dişiciyin sütuncuğu qısa, ağızcığı nəlbəkişəkillidir. İki meyvəyanlığından ibarətdir. Yumurtacığın əsasında, dişiciklə erkəkciklərin arasında sərbəst, bəzən birləşmiş vəziyyətdə dişi çiçəkaltı yastıqcıq yerləşir. Yumurtalıq əsasən ikiyuvalı, bəzən 3-8

*Cədvəl 1.1*

**Üzümkimilər – *Vitaceae* Juss. fəsiləsinin sistematikası**



yuvalı, hər yuvada isə yumurtacıq yerləşir. Meyvələri giləmeyvə tipinə aid olmaqla üzəri qabıqlı, içərisi şirəli olur. Hər gilədə 2-8 ədəd toxum olur. Toxum qabığı bərk, bel hissəsində dəyirmi, yaxud oval göbəkcik, qarın hissədə isə iki şırım yerləşir. Bu fəsiləyə daxil olan növlər polimorf bitkilərdir. Əksər növlərin yabanı populyasiyaları tam öyrənilməmişdir.

Üzümkimilər fəsiləsinə daxil olan 14 cins mənşəyinə, biomüxtəlifliyinə, arealına görə bir-birilərindən fərqlənirlər. Fəsilənin ən qədim, az öyrənilən və 319 növü əhatə edən cinslərindən biri *Cissus* L.-dir. Bu cinsin nümayəndələri Asiyanın, Afrikanın, Amerikanın və Avstraliyanın tropik və subtropik iqlimə malik bölgələrində geniş yayılan kol tipli, lətli kökyumrularına bənzər kökləri olan bitkilər olub, əksəriyyəti dekorativ əhəmiyyətlidir.

Üzümkimilər (*Vitaceae* Juss.) fəsiləsinin müasir təsnifatı aşağıda verilmişdir (cədvəl 1.2).

*Cədvəl 1.2*

**Üzümkimilər (*Vitaceae* Juss.) fəsiləsinin müasir təsnifatı**

| Aləm | Yarımaləm | Şöbəüstü | Şöbə | Siniftüstü | Sinif | Yarımsinif | Sıraüstü | Sıra | Fəsilə | Cins | Növ | Yarımnöv | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Plantae* | *Travceobionta* | *Spermatophyta* | *Magnoliophyta* | *Rosanae* | *Magnoliopsida* | *Maqnoliidae* | *Vitaliae* | *Vitales Juss.* | *Vitaceae Juss.* | *Vitis. L* | *V.vinifera L.* | *V.vinifera ssp. sylvestris*Gmel. | *V.vinifera ssp. sativa* DC |

***(Vitaceae* Juss.*) fəsiləsinə daxil olan cinslərin qısa xüsusiyyətləri:***

***Cissus* L.** Ən az öyrənilən cinsdir, 328 növü aşkar edilmişdir. Asiya, Amerika Afrika və Avstraliyanın tropik və subtropik iqlim qurşaqlarında yayılmışdır. Dorzoventral yarpaqları növbəli düzülüşlü, ürəkşəkilli formada olmaqla kənarları bütöv və ya çox kəsiklidir. Gilələri qara rənglidir, xırdagilələlidir. Əksər növləri dekorativ məqsədlərlə istifadə edilir. Somatik hüceyrələrində 2n= 24; 26; 28; 36; 40; 48; 56; 96 xromosom olur.

***Ampelocissus* Planch.** cinsinə daxil olan bitkilər 90 növü əhatə etməklə Asiya və Afrikanın isti tropik bölgələrində geniş yayılmışdır. Avstraliyada yayılan bu cinsə daxil olan növlər dırmaşan, dikduran gövdəyə malik olan, kök sistemi güclü inkişaf edən, bəzən kifayət qədər iri (şişkin) kökyumrularına bənzər tipdə olan bitkilərdir. Gilələri yüksək şəkər toplayır, lakin keyfiyyəti *Vitis* L. cinsinin növlərindən geri

qalır. Bu cinsə daxil olan növlər fillokseraya davamlılığı ilə seçilirlər. Əksər nümayəndələrinin meyvələri insanlar tərəfindən həvəslə yeyilir və şərab hazırlanır.

***Ampelopsis*** **Miclix.** cinsinə daxil olan növlər əsasən Cənubi Amerikanın və Asiyanın mülayim bölgələrində yayılmışdır. Bu cinsə dekorativ əhəmiyyəti ilə seçilən 23 növ daxildir ki, bunlar da əsasən xəzanlayan lian tipli, bəzi hallarda dırmaşan və sərilən formalı gövdələrə malikdirlər.

***Partnenocissus*** **Planch.** cinsi Şimali Amerika, cənubi və qərbi Asiyanın kifayət qədər isti bölgələrində yayılmaqla özündə 19 növü birləşdirir. Bu cinsin (Qız üzümü) vətəni Şimali Amerika hesab edilir. Bu cinsə daxil olan növlər əsasən Şimali Amerikanın, Cənubi və Qərbi Asiyanın mülayim iqlimə malik olan bölgələrində yayılmışdır. Gövdələri dırmaşan bitkilərdir. Birillik zoğları qalın, üzəri qırış-qırış olan, açıq-qırmızı, yaxud yaşıl rəngdədir. Zoğların buğumlarında sonu çoxlu şaxələnən (2-12 ədəd) bığcıqlar olur ki, onların vasitəsilə tənəklər dayağa bərk yapışırlar. Yarpaqları bütöv ayalı, dilimli və ya mürəkkəb barmaqşəkilli olmaqla, 6-7 ədəd ellipsvari, bəzən tərs yumurtaşəkilli hissələrdən ibarətdir. Çiçəkləri ikicinsli, yaxud yalançı ikicinsli və erkək tipli olur. Çiçək topasında bığcıq olmur. Çiçəkləmə zamanı çiçək tacları ulduzcuq şəklində ayrılır. Gilələri xırda, qara rəngli, içərisində 1-2 ədəd toxum olur. Meyvələri yeyilməyə yararlı deyildir. Odunlaşmış zoğları ağ rəngdədir, qabıqları zolaqlar şəklində gövdədən ayrılır. Bu cinsə daxil olan növlər quraqlığa, 40°C istiliyə və mənfi 30°C şaxtaya davamlılığı ilə seçilirlər. Filloksera ilə sirayətlənmirlər, göbələk xəstəliklərinə qarşı immunitet xüsusiyyəti ilə fərqlənirlər. Güclü karbonatlı torpaqlar istisna olmaqla, münbitliyə tələbkar deyillər. İndiyə qədər bu cincə mənsub olan növlərlə digər cinsin, xüsusilə də *Vitis* cinsinin növləri arasında çarpazlaşdırma bir nəticə verməyib. Genomunda xromosom sayı 2n=40-dır. Dekorativ bitki kimi geniş istifadə olunur.

***Tetrastigma*** **Miq.** cinsi üzümkimilər fəsiləsinin kifayət qədər zəngin cinslərindən biridir. Asiyanın və Avstraliyanın mülayim, kifayət qədər isti bölgələrində yayılmışdır. Bu cinsə 120-yə qədər növ daxildir. Gövdələri düzdür, dırmaşan lian bitkilərdir. Zoğlarda bığcıqları uzun olmaqla şaxələnmir. Yarpaqları 3-5 dilimlidir. Yarpaq dilimləri barmaqşəkillidir. Fəsilənin digər cinslərindən fərqli olaraq çiçək topaları buğumda yarpağın əks istiqamətində deyil, yarpağın qoltuğunda əmələ gəlir. Əksər növləri ikievli bitkilərdir.

Bu fəsilənin bir çox növlərinin, o cümlədən *T.oliviforme* Planch. növünün meyvələri kifayət qədər iridir, yeyilməyə yararlıdır. Bu növ mədəni halda yetişdirilir. Xromosom sayı 2n=22, 44, 52-dir.

***Pterisanthes*** **Blume** Asiya qitəsinin tropik meşələrində yayılmışdır. *Pterisanthes* Blume kol tipli lian bitkisidir. Bu cinsə aid olan bitkilərin nümayəndələri əsasən çiçək topasının xüsusiyyətlərinə görə digər cinsin nümayəndələrindən seçilirlər və bu cinsə 12 növ daxildir. Onlarda çiçək topası 40

sm-ə qədər uzunluqda olan saplaqda yerləşir.

Üzümkimilər fəsiləsinin ***Cyphostemma*** **Alst.**, ***Cayratia*** **Juss.,** ***Acareosperma*** **Gagnep.,** ***Pterocissus*** **Urb. et Ek.** cinsləri isə az öyrənilmişdir.

***Vitis*** **L.** cinsi*:* Bu cinsə 70-ə yaxın növdaxildir. *Vitis* L. cinsi fəsilənin nümayəndələri arasında iqtisadi əhəmiyyəti, biomüxtəlifliyi və zənginliyi ilə seçilir. Bu cinsin nümayəndələri yer kürəsinin şimal yarımkürəsində mülayim və subtropik iqlimə malik bölgələrdə yayılmışdır. Bu cincə mənsub olan bitkilər meşələrdə, cay kənarlarında, dağ yamaclarında kifayət qədər nəmliklə təmin olunmuş ərazilərdə yayılmışdır. Gövdəsi çoxillik odunlaşmış lian və ya dırmaşan kol bitkiləridir. Zoğları buğumlarla bölünmüşdür, buğumaraları uzun, növbəli düzülüşə malikdir. Zoğların üzərində buğumlarda yarpaqlar, əks tərəfində isə bəzən bığcıqlar və çiçək topaları inkişaf edir. *Vitis* cinsinin əksər növlərində (*V.labrusca* növü istisna olmaqla) zoğ boyunca bığcıqlar və çiçək topaları ardıcıl iki buğumda əmələ gəlir, növbəti buğum sərbəst qalır. Bu qanunauyğunluq zoğun sonuna kimi davam edir. Yarpaqları sadə olub, ayaları bütöv və yaxud dilimlərə bölümıüş şəkildə olur. Bölünmüş yarpaqlarda 3, 5, 7, hətta 9 pəncə inkişaf edir. Çiçək qrupları uzunsov fırçaşəkilli, yaxud mürəkkəb salxımşəkillidir. Çiçək salxımı yaşıl və xırda olur, darağı tədricən böyüyür. Cinsin bütün yabanı formaları ikievli bitkilərdir. Bitkilərin bir hissəsində çiçəklər fertil tozcuqlu erkək cinsli, digərlərində isə funksional dişi çiçək tiplidir. Cinsin becərilən sort və formalarında bəzən erkək, funksional dişi çiçək tipləri olan bitkilərə rast gəlinir. Əksər sort və formalarda isə ikicinsli çiçək tipi yayılmışdır. Çiçəyin kasacığı 5 ədəd kasa yarpağından təşkil olunmuşdur. Erkəkcik uzun saplaqdan və uc hissədə yerləşən tozluqdan təşkil olunmuşdur. Bir çiçəkdə erkəkciklərin sayı 5-7 ədəd olur. Dişicik iki meyvəyanlığından ibaıətdir. Yumurtalığı üst formalıdır, iki yuvalıdır. Hər yuvada isə 2 anatrop yumurtacıq yerləşir. Yumurtalığın əsasında bir-biri ilə birləşmiş 5 vəzicik (nektarlıq) yerləşir. Gilələri müxtəlif irilikdə olmaqla dadlı, şirəli, qabığı müxtəlif rənglərdə və formalardadır. Hər bir gilədə 1-4 ədəd, bəzən isə çox toxum olur. Toxumları xırda və ya iri, oval, armudvari formalarda olmaqla, dim-dikciyi uzunsov, yaxud qısa olur. Toxumun alt hissəsində iki çuxur (toxumun qarın tikişinin yanlarında), üst hissəsində isə girdə, ovalşəkilli göbəkcik yerləşir.

Salxımları ölçüsünə, formasma, şaxələnməsinə, gilələrinin sıxlığına görə forqlənirlər. *Vitaceae* fəsiləsinin digər nümayəndələrindən fərqli olaraq *Vitis* cinsinə məxsus bitkilərdə ikiillik odunlaşmış zoğlar sarı, boz, qəhvəyi rənglərdə olur, qabıq zoğdan zolaqlar şəklində ayrılır. Somatik hüceyrələrində xromosom sayı 2n=38, 40 ədəddir. *Vitis* cinsi *Euvitis* Planch. (68 növü vardır), *Muscadinia* Planch. (2 növü vardır), *V. mıınsoma* Simps. və *V.rotundifolia* Michx. yarımcinslərinə ayrılır.

*V.munsonia* Simps. və *V.rotundifolia* Michx. növlərinə aid olan bitkilər güclü inkişaf edən lian şəkilli bitkilər olub, ABŞ-ın Atlantik okean sahillərinin cənub-şərq subtropilk və tropik meşələrində yayılmışdır. Bu növün xarakterik əlamətləri olan

şaxələnməyən bığcıqlara, möhkəm oduncağa malik olmaları, xırda çiçək topasında bir neçə çiçəyin yerləşməsi, eyni vaxtda yetişməyən və teztökülən gilələrinin olması onları *Euvilis* Planch. yarımcinsindən fərqləndirir. *Muscadinia* Planch. yarımcinsi yuxarıdakı əlamətlərlə yanaşı zoğlarının üzərinin mərciməyə oxşar qabarcıqlarla örtülü olması, buğumaralarının diafraqmasız olması, toxumun üst hissəsində göbəkcik ətrafinda yarığın olmaması ilə səciyyələnir.

Bu cinsin *V.rotundifolia* Michx. növü yabanı halda ABŞ-ın cənub bölgələrində meşələrdə, cəngəlliklərdə, cay kənarlarında, Floridanın cənub rayonlarından Texasadək, Virginiyanm şimalından Delaverə, Kentukkinin cənub ərazilərində, Tennessi, Mussuri və Oklaxomanın cənub-şərq rayonlarında yayılmışdır, Hindistanın şərqindəki adalarda da bu növə rast gəlinir. Bu növün tənəkləri 30 metrədək uzunluqda ağacabənzər lianşəkilli olmaqla çoxlu miqdarda hava kökləri əmələ gətirir. Növün yarpaqları girdə-ürəkvari, ucu sivri, rəngi sarımtıl-yaşıl, çiçəkləri əksər hallarda təkcinsli, bəzən ikicinsli, çiçək topaları olduqca sıx və qısadır. Hüceyrələrində xromosom sayı 2n=40 ədəddir. Giləsi girdə oval formada, qabığı tünd- qırmızı rəngli, olduqca bərk, dadı ətirli, ləti olduqca dadlıdır. Göbələk xəstəliklərinə, fıllokseraya davamlıdır. Çiliklərinin köklənmə xüsusiyyəti aşağıdır. Genomu heteroziqot təbiətli növ olduğundan onun cücərən toxumlarından müxtəlif xüsusiyyətlərə malik olan genotiplər əmələ gəlir. Bu növün hibridləşmədə istifadə olunması nəticəsində, habelə sərbəst tozlanmadan əmələ gələn toxumlarının cücərdilməsindən alınan bitkilərdən seçmə yolu ilə 70-dən artıq üzüm sortu yaradılmışdır. ABŞ-ın cənub-şərq ştatlarında təxminən 180 il bundan əvvəl *V.rolundifolia* növünün mədəni şəraitdə becərilməsi, seçmə işlərinin aparılması və hibridləşmə işlərində istifadə olunması nəticəsində 20-dən artıq yeni sort alınmışdır. Bunlardan ən geniş yayılan Skappernonq sortudur. Bu sort və onun hibridləri digər üzüm sortlarından fərqlənir. Bu sortda və hibrdlərində gilələr salxımda əmələ gəlmir (yarpağın saplağı üzərində əmələ gəlir), albalı ölçüsündə olmaqla, qabığı yaşıl-bürünc rəngdə olur. Tənəkləri güclü inkişaf edir. Bir tənəyin çətiri 0,4 ha sahəni əhatə edə bilir ki, ondan da bir tona qədər məhsul əldə edilir. Bu sortun məhsulunu tənəyin altına müəyyən bir parça, yaxud çadır sərərək silkələməklə yığırlar. Gilələri yeyilməyə tam yararlıdır. Yerli əhali bu sortun meyvələrini təzə halda istifadə edir və müxtəlif məişət məhsulları (şərab, mürəbbə, cem, şirə və s.) istehsal edirlər. Lakin gilələrinin keyfiyyətinə görə *V.vinifera* növündən geri qalır. *V.rotundifolia* növü fıllokseraya dözümlüdür, göbələk xəstəliklərinə və nematodlara qarşı nisbətən davamlıdır. Yeganə növdür ki, Şimali Amerikaınn subtropik və tropik zonalarında mədəni şəkildə yetişdirilir. Avropa və digər qitələrdə bu növə rast gəlinmir. Bu növ çox istisevən bitkidir. Torpaqdakı karbonatlara olduqca həssasdır.

***V.munsonia*** **Simps.** növü. Bu növ yabanı halda ABŞ-da Floridanın bataqlıqlarında bitir. Biomorfoloji xüsusiyyətlərinə görə *V.rolundifolia* növünə

yaxındır, lakin ondan fərqlənərək alçaq gövdəli, xırda giləli, qabığı tünd-qara rəngli, ləti zərif və ətirsizdir. Bu yarımcinsə Meksikada və Qvatemalada yabanı halda yayılan və ABŞ-da çox qədim vaxtlardan becərilən *Vilis popenoei* Fennel növü də daxildir. Bu növün də hüceyrələrində xromosomlarm miqdarı 2n=40 ədəddir.

***Euvitis* Planch.** yarımcinsi. Bu yarımcinsi *Muscadinia* Planch. yarımcinsindən fərqləndirən xüsusiyyətlər somatik hüceyrələrində xromosomların sayının 2n=38 ədəd olması, birillik zoğlardakı buğumların diafraqmalı olması, ikinci qat qabığın zolaq kimi soyulması, salxımların iri olması, məhsulunun eyni vaxtda yetişməsi, gilələrin salxım darağına möhkəm birləşməsi, bığcığın haçalanması və toxumun üst hissəsindəki göbəkcik ətrafında yarığın mövcud olmasıdır. Bu yarımcinsə daxil olan 68 növdən 20-si mədəni şəkildə yetişdirilir ki, bunlardan da keyfiyyətli məhsul alınması ilə yanaşı, seleksiya işlərində də fillokseraya davamlı calaqaltı kimi istifadə olunur. Bu növün gilələri yüksək dad keyfiyyəti ilə səciyyələnir ki, bundan da təzə və qurudulmuş məhsulun alınmasında, habelə mürəbbə, cem, şirə, şərab istehsalında istifadə olunur.

Qeyd edək ki, buzlaşma dövrünə qədər *Euvitis* cinsinin çoxsaylı növləri Avropa qitəsində, tropik iqlim zonası bölgələrində, həmçinin Şimali Amerika və Şərqi Asiya ərazilərində geniş yayılmışdır. Materiklərin ayrılması və buzlaşma dövründən sonra bu yarımcinsdən müxtəlif ekoloji-coğrafi ərazilərdə bir-birindən xeyli fərqlənən 3 növ meydana gəlmişdir:

- Avropa-Asiya növü - *V.vinifera* L.;
- Şərqi Asiya növləri - *V.amurensis* Rupr. və s. (40 növ);
- Şimali Amerika növləri - *V.labrusca* L. və s. (30-a qədər).

Buzlaşma dövründən və materiklərin ayrılmasından sonra meydana çıxan əlverişsiz iqlim şəraitinin təsirlərindən bəzi növlər məhv olmuş, digərləri isə ekoloji-coğrafi şəraitə uyğun irsi dəyişkənliklərə uğrayaraq həyat fəaliyyətlərini davam etdirmişlər. Qeyd edək ki, Avropa qitəsində yalnız *V.vinifera* L. növü qalmışdır. Şərqi Asiyada isə 42 növ, o cümlədən *V.amurenssis* Rupr., *V.coignettae* Pull. və başqa növlər təbiətin sınağından çıxaraq bu ərazilərdə yayıla bilmişdir. Şimali Amerikada digər materiklərə nisbətən buzlaşma prosesinin zəif getməsi oradakı yerli növlərin, o cümlədən Şərqi Asiya növlərinin (28 növ) dövrümüzə qədər saxlanılmasına zəmin yaratmışdır.

Bu növ qrupları təkamül prosesində ayrı-ayrı materiklərin ekoloji amillərinin təsiri nəticəsində biomorfoloji xüsusiyyətləri üzrə müvafiq irsi dəyişkənliklərə məruz qalmışlar. Bu qruplar arasında *V.vinifera* növü Avrasiya qitəsinin müxtəlif təbii-iqlim şəraitinin təsiri altında daha çox irsi dəyişkənliklərə məruz qalmış və onlardan çoxsaylı müxtəlif sortlar meydana gəlmişdir. Qeyd etmək lazımdır ki, *Vitis* L. cinsinə daxil olan və geniş diapazonda təsərrüfat-iqtisadi əhəmiyyətə malik olan mədəni üzüm *V.vinifera* L. növüdür. Bu növ çox polimorf, genotipcə heteroziqot təbiətlidir.

İki yarımnövə ayrılır: *Vitis vinifera* ssp. *sylvestris* C.C. Gmel. (yabanı üzüm) və *Vitis vinifera ssp. sativa* DC. (mədəni üzüm).

***Vitis vinifera ssp. sylvestris*** C.C. Gmel - yabanı üzüm - həmişəyaşıl, bığcıqları vasitəsilə dırmaşan, sarmaşan lianşəkilli və ya kolşəkilli bitkilərdir. Yabanı üzümün müxtəlif biotipləri əsasən meşə (xüsusilə Tuqay meşəliklərində), çay kənarları və dağ ətəklərində yayılmışdır. Yarpaqları sadə olmaqla, dairəvi, yumurtaşəkilli, yaxud böyrəkşəkilli formada, kiçik ölçülü, kənarları kəsiksiz yaxud dayaz kəsikli 3-5 dilimli, alt səthi tükcüklü, yaxud çılpaq olur. Erkək və funksional dişi tipli çiçəkləri olur. Salxımları seyrək, daraq üzərində yerləşən gilələri kürəşəkilli, dəriciyi qara rəngli, ləti şirəli, turş tamlı, bəzən dadlıdır. Hər gilədə 2-4 toxum olur. Toxumu kiçik, uzunluğu 4-6 mm olmaqla uc hissəsi qısadır. Azərbaycan florasında üzümün bir növünə (*V. vinifera* L.) və iki yarımnövünə (*Vitis vinifera ssp. sativa* DC. və *Vitis vinifera* ssp. *sylvestris* C.C. Gmel.) təsadüf edilir. Burada *V.vinifera* növü isə mədəni (*Vitis vinifera ssp. sativa* DC.) və yabanı halda (*Vitis vinifera ssp. sylvestris* C.C. Gmel.) yayılmışdır. Yabanı üzümün 4 taksonomik qrupu ilə (*Vitis sylvestris var. typica* Negr., *Vitis sylvestris var. aberrans* Negr., *Vitis sylvestris var. balcanica* Negr., *Vitis sylvestris var. tabasaranica* Negr.) yanaşı M.V.Amanov [2000-2007] uzun illər apardığı tədqiqatlar nəticəsində Azərbaycanda elmə məlum olmayan yabanı üzümün daha iki növ müxtəlifliyini aşkar etmişdir: a) *Vitis vinifera ssp. sylveslris var. Zangezur* Mail- Zəngəzur mahalının Mehri, Zəngəzur meşələrində geniş ərazilərdə yayılmışdır. Giləsi ağ rəngli, xırdagiləlidir. Hər gilədə 1-3, bəzi hallarda 2-4 toxum olur. b) *Vitis vinifera ssp. sylvestris var. Alpan* Mail - Quba rayonunun Alpan kəndinin meşələrində aşkar edilmişdir. İkievli bitkidir, hər gilədə 2-4 toxum olur.

V.M.Quliyev tərəfindən Naxçıvan MR ərazisində ilk dəfə olaraq şərti adı Ordubad-1 erkək tipli çiçək qrupu olan *V.vinifera ssp. sylvestris var. Nakch.* Varis - yeni variasiyası aşkar edilmişdir [62].

Ukrayna alimləri tərəfindən Yalta və Aluşta ərazilərində yayılmış yabanı üzüm populyasiyalarındakı biotiplərin yarpaqlarında 30 əlamət üzrə differensiasiya apararaq onların bir neçə növmüxtəlifliklərini (*var. lipica* Negı, *var. tipica* Bol. Et. Mal. (yarpcıq ayası yarılmış), *var. balcanica* Negr., *var. balcanica* Bol. Et. Mal. (yarpaq ayası yarılmış), *var. aberrans* Negr., *var tuarica* Bol. Et. Mal., *var. tabasaranica* Negr., *var. colhica* Ram., *var. meridiestaurica* Vol. et. Poll.) müəyyən edilmişdir.

*V. vinifera* L. növünün ən populyar yarımnövü mədəni üzümdür (*V.v.ssp. sativa* DC.). Bu yarımnöv sort, forma və klon zənginliyi və polimorfizmi ilə səciyyələnir. Bu yarımnövə mənsub olan bitkilər dünyada geniş miqyasda əkilib-becərilir, məhsulu xalq təsərrüfatında və istehsalatda geniş istifadə edilir. *V.v.ssp. sativa* DC. (mədəni üzüm) *Vitis* L. cinsinin ən böyük və populyar taksonudur. Mədəni üzüm (*Vv.ssp. sativa* DC.) yarımnövünə mənsub olan sort, forma və klonlar biomorfoloji, kimyəvi-

texnoloji xüsusiyyətlərinə görə bir-birindən fərqlənərək bir sıra müsbət təsnifat və seleksiya əhəmiyyətli əlamətləri ilə səciyyələnirlər. Yarımnövün (*V.v.ssp. sativa* DC.) zəngin biomiixtəlifliyə malik olması onlardan seleksiya işlərində başlanğıc material kimi istifadə olunmasına, yeni irsi xüsusiyyətlərə malik olan forma və sortların yaradılmasına geniş imkanlar açır. Təsərrüfat-iqtisadi və seleksiya əhəmiyyəti ilə səciyyələnən cinslərin nümayəndələri getdikcə dünyanm bir çox ölkələrinə yayılmışdır. Mədəni halda becərilən üzümün (*Vitis vinifera ssp. sativa* D.C.) coğrafi yayılması və bioloji xüsusiyyətlərinə görə üç ekoloji-coğrafı qrupa bölürlər:

*Convar orienlalis* Negr. - Şərq qrupu;

*Convar pontica* Negr. - Qara dəniz hövzəsi qrupu;

*Convar occidentalis* Negr. - qərbi Avropa qrupu.

***Convar orienlalis* Negr. - Şərq qrupu.** Orta Asiyada, Azərbaycanda, Gürcüstanda, Dağıstanda, İranda, Əfqanıstanda, Yaxın Şərq ölkələrində və Afrikada becərilən üzüm sortları Şərq qrupu sortlarına (*convar orientalis* Negr.) aid edilir. Şərq qrupu iki yarımqrupa (*subconvar caspica* Negr. və *subconvar antasiatica* Negr.) ayrılır. *Subconvar caspica* Negr. yarımqrupuna Əfqanıstanın, İranın, Orta Asiyanın, Şərqi Gürcüstanın, Azərbaycanın və Dağıstanm süfrə-texniki üzüm sortları, *subconvar antasiatica* Negr. yarımqrupuna isə Azərbaycan, Dağıstan və Türkmənistanda yayılan bərk giləli süfrə üzüm sortları daxildir. Bu qrupa daxil olan sortların yarpaqlarının alt səthi çılpaq, yaxud seyrək qılcıqşəkilli ağ tükcüklə örtülü olur (damar üzəri və ətraflarında və s.), salxımları isə iri olmaqla əsasən şaxəli formalıdır. Çiçəkləri ikicinsli və ya funksional dişi cinslidir. Gilələri orta ölçüdə olmaqla iri, oval, yumurtavari, tərs yumurtaşəkilli, uzunsov və s. formalarda olur. Gilələrin ləti bərk, şirəli, yeyildikdə xartıldayır. Əksəriyyətinin gilələri ağ, yaxud çəhrayı rəngdədir. Toxumları çox iridir, dimdikciyi çox uzundur. Bu sortlar əsasən Xəzər dənizinin cənub və cənub-qərb ərazilərində yayılan (dağlıq və dağətəyi ərazilərdə) yabanı üzümdən xalq seleksiyası nəticəsində meydana gəlmişdir. Bu qrupa daxil olan sortlar yerli şəraitə uyğun olaraq uzun vegetasiya müddətinə malik olurlar. Bəzi sortlar quraqlığa və isti küləklərin təsirinə qarşı davamlılıqları ilə seçilirlər. Tənəkləri güclü boy atır, barlı zoğların miqdarı aşağı olur (0,3-0,5), hər zoğda bir, bəzi hallarda 2 salxım inkişaf edir. Lakin salxımları çox iri olur. Salxımlarının orta kütləsi 250-4000 q olur. Bir hektardan məhsuldarlığı yüksəkdir (12-25 ton/ha). Qrupda gilələrində toxumları inkişaf etməyən (partenokarpiya) kişmişi sortları çoxluq təşkil edir.Tarixi inkişaf prosesində süni seçmə nəticəsində bu qrupa daxil olan sortların yaranmasında və formalaşmasında tədricən müsbət irsi dəyişkənliklər baş vermişdir. Bu ekoloji-cografı qrupun yayıldığı əraziləri əhatə edən ölkələrdə üzümçülük və şərabçılığın inkişafı sortmüxtəlifliyinin zənginləşməsinə səbəb olmuşdur. Qədim zamanlarda Qərbi Asiya vadisi, Azərbaycan, Şərqi Gürcüstan ərazisində şərabçılığın güclü inkişafı bu ərazilərdə orta, yaxud xırda salxımlı,

xırdagiləli, yerli yabanı üzümə oxşar olan texniki üzüm sortlarının becərilməsinə təkan vermişdir. Bu cür irsi xüsusiyyətlərə malik olan sortlar hazırda Mərkəzi Asiya respublikalarında, Azərbaycanda və Şərqi Gürcüstanda becərilməkdədir. Bu sortlar Xəzər yarımqrupuna (*caspica* Negr.) aid edilir. Sonralar şərqdə islam dininin yayılması ilə əlaqədar olaraq daha çox təzə halda istifadə və mövüc və kişmişi istehsalı üçün irigiləli, irisalxımlı süfrə istiqamətli üzüm sortlarına üstünlük verilmişdi. Belə sortlar isə şərq yarımqrupuna (*aniasiatica* Negr.) aid edilmışdir.

***Convar pontica* Negr. - Qara dəniz hövzəsi qrupu.** Bu qrupa mənsub olan sortlar isə əsasən Moldova, Rumuniya, Bolqarıstan, Macarıstan, Yunanıstan, Türkiyə, Azərbaycan və Gürcüstanın qərb ərazilərində yayılmışdır. Bura daxil olan sortların yarpaqlarının alt səthində ağımtıl keçəvari, torvari və cod tükcüklər olur. Salxımları orta və iri ölçülrdə olur. Salxım darağı üzərində gilələri seyrək, orta sıxlıqda, bəzən sıx yerləşir.Giləleri xırda, orta ölçüdə və iri olur. Giləleri kürəşəkilli, oval, uzunsov formalarda olur. Giləleri ətli-şirəli, ağ, qara, çəhrayı giləleri olmaları ilə səciyyələnir. Toxumları xırdadır. Bu sortlar Qara dəniz hövzəsi daxil olan ölkələrdə yerli yabanı üzüm formalarının uzun illər xalq seleksiyası yolu ilə seçilməsinin məhsuludur. Qrupa daxil olan sortlar morfoloji əlamətlərinə görə yabanı üzümə oxşardırlar. Onlar kifayət qədər qısa vegetasiya mtiddətinə malik olmaqla şaxtaya davamlılıqları və quraqlığa davamsızlıqları ilə fərqlənirlər. Tənəklərin inkişaf gücü orta və yüksək dərəcədədir.. Tənəklərdə barlı zoğların miqdarı xeyli yüksəkdir. Tənəklərdə iki və daha çox salxımlı zoğlar çoxluq təşkil edir (zoğların bar əmsalı 0,6-0,8-dir). Bu növə aid olan sortların əksəriyyəti yüksəkməhsuldardır (10-15 ton/ha). Qrupa daxil olan sortların əksəriyyəti texniki (Rkasiteli, Saperavi, Çinuri və s.), yaxud universal (Ağ çauş, Şabaş, Qalan və s.) istiqamətli, bir qrupu isə tipik süfrə sortlarıdır. Bu qrupda giləleri qismən partenokarpiya (noxudlaşma) və tam partenokar piya (obliqat) yolu ilə inkişaf edən sortlar (korinka, yaxud yunan iizümü qrupu) çoxluq təşkil edir.

***Convar occidentalis* Negr. – Qərbi Avropa sortlar qrupu** .Bu qrupa daxil olan sortlar Avropa (Fransa, İtaliya, Almaniya, İspaniya, Portuqaliya və s.) ölkələrində yayılıb və onların hər biri bu qrupdan olan yerli sortların zəngin genofonduna malikdir. Bu qrupa daxil olan sortların mənşəyi yerli yabanı üzüm biotipləridir. Onlar biomorfoloji əlamətlərinə görə yabanı üzümə çox oxşardırlar. Yarpaqlarının alt səthi ağ ərpşəkilli tükcüklüdür. Sortlar kifayət qədər qısa vegetasiya müddətinə malik olmaqla şaxtaya davamlılıqları ilə seçilirlər. Tənəkləri zəif və orta boy gücünə malikdir. Barlı zoğlarda 3-4 və daha çox çiçək salxımı inkişaf edir (zoğların bar əmsalı 1,0-1,8-dir). Salxımları xırda olmaqla kütləsi aşağıdır (60-140 q). Tənəklərin məhsuldarlığı aşağı və orta səviyyədədir. Qrupa daxil olan sortların hamısı texniki istiqamətlidir. Bu qrupda giləleri partenokarpiya yolu ilə inkişaf edən sortlara rast gəlinmir.

Şimali Afrika qrupuna (*convar Nord-Africa Gram*.) məhsub olan sortlar uzun

vegetasiya müddətinə malik olmaqla əksəriyyəti həmişəyaşıl bitkilərdir. Tənəklərdə tumurcuqlar gec açılır, payızda isə yarpaqları gec tökülür. Xəstəlik və zərərvericilərə, o cümlədən şaxtaya davamsızdırlar. Qrupa daxil olan sortlar hamısı süfrə istiqamətlidir.

Azərbaycan alimləri müəyyən etmişdilər ki, respublikamızda yayılmış üzüm sortlarınm 80-90 %-ni Şərq qrupuna (convar orientalis Negr.), 10-15%-ni Qara dəniz hövzəsi qrupuna (convar ponlicaNegr.) aid olan sortlar təşkil edir. Dünyanın müxtəlif ərazilərində *V.v.ssp. sativa* D.C. yarımnövünə aid olan sortların genofondu təkamül prosesində, həmçinin seleksiya yolu ilə ən yaxşı formaları və klonları seçilərək müvafiq bölgələrdə becərilməklə mütəmadi olaraq yeni qiymətli sortlarla zənginləşdirilmişdir. Son ədəbiyyat məlumatlarına görə, *V. vinifera* L. növünə (Avrasiya növünə) 12 mindən çox sort, forma və klon daxildir. *V vinifera* L. növünə mənsub olan üzüm genofondunun böyük bir hissəsi əsasən xalq seleksiyası yolu ilə yaradılmışdır.

Müasir dövrdə üzüm bitkisinin sistemləşdirilməsində, xüsusilə *V. vinifera* L. növünün təsnifatında prof. A.M.Neqrulun (1959, 1968) sistematikası əsas götürülür. A.M.Neqrul şərq ekoloji-coğrafı qrupunu texniki (*subconvarietas caspica* Negr), süfrə (*subconvarietas antasiaticca* Negr.) yarımqruplarına və kişmişi (*conculta apirinea* Negr.), muskat (*conculla apiana* Negr.), şasla (*conculta arninea* Negr.) sorttiplərinə bölmüşdür. 1975-ci ildə P.M.Qramotenko özündə 199 sortu birləşdirən daha 22 sorttipi ayıraraq morfoloji xüsusiyyətlərini təsvir etmişdir.

A.M.Neqrul (1959, 1968) Qara dəniz hövzəsi ekoloji-coğrafi (*convar. pontica* Negr.) qrupunu gürcü (*subconvarietas georgica* Negr.), balkan (*subconvarietas balcanica* Negr.) yarımqruplarına, irigiləli sortlar (*conculta macrocarpa* Negr.), korinka, yaxud yunan üzümü (*conculta corinthiaca* Negr.) sorttiplərinə ayırmıışdır.

Macar ampeloqrafı M.Nemet (1966, 1967) Şərqi Avropa ekoloji-coğrafi qrupunu (*convarietas occidentalis* Negr.), *subconvarietas gallica* Nem. və *subconvarietas iberica* Nem. yarımqruplarına və onların hər birini isə *proval. microcarpa* Nem. və *proval. mesocarpa* Nem. provariyasiyalarına ayırmışdır. M.Nemet ilk dəfə olaraq - *provarietas* və *subprovarietas* kimi adlandırdığı ən kiçik taksonomik vahid təklif etmişdir. M.Nemet Pino, Şardone, Qamə, Melon, Tresso, Traminer, Semilyon, Malbek, Kaberne, Fol, Muskadel və s. sorttiplərini ən kiçik sistematik vahid olan *subprovarietas*-a (A.M.Neqrula görə *conculta*) aid etmişdir.

P.M.Qramotenko (1975, 1988) professor A.M.Neqrulun üzüm təsnifatına dair elmi nəticələrindən və üzümün təbii filogenetik sistematikasının inkişafını nəzərə alaraq yeni bir ekoloji-coğrafı qrup - *convar.* lelis Gram. (Aralıq dənizi hövzəsi sortlar qrupu) ayırd etdi ki, bu qrupu da *subconvar. boreali-africana* Gram. (Şimali Afrika) və *subconvar. orientali-mediterranea* Gram. (şərqi Aralıq dənizi bölgəsi) yarımqruplarına bölmüşdür. Ampeloqraf Şimali Amerika sortları yarımqrupuna

Alfons Lavalle, Asma, Barbaru, Vestfriziya, Zabalkanskiy, İspanskiy, Qaraburnu, Qara Katolon, Fluron və s. sortları aid etmişdir. Bu yarımqrupa mənsub olan sortlar xəstəliklərə, zərərvericilərə və şaxtaya davamsız olub, filloksera ilə güclü sirayətlənirlər. Tənəklərdə tumurcuqların açılması bir qədər gec başlayır və xəzan prosesi olduqca gec müşahidə olunur. Şərqi Aralıq dənizi yarımqrupuna mənsub olan sortlar (İsgəndəriyyə muskatı, Ağ muskat, Macar muskatı, Muskat krasmy de Madeyra, Çəhrayı muskat, Royal Vinyard, Ağ Servan, Ağ şasla və s.) kilayət qədər uzun sürən vegetasiya müddətlərinin davam etməsinə, xəstəlik və zərərvericilərə, şaxtaya davamsız olmaları, məhsulunun yüksək keyfiyyətli və gilələrinin muskat ətirli olması ilə səciyyələnirlər. Şərqi Aralıq dənizi və Şimali Afrika yarımqruplarının subtropik iqlim şəraitində inkişaf etməsini və mənşə yaxınlığını nəzərə alaraq P.M.Qramotenko onları *convar* Nord Africa qrupunda birləşdirmişdir.

Bir çox tədqiqatçılar çoxillik ampeloqrafik məlumatlar əsasında üzüm sortlarının sistematikasında və təsnifatlaşdırılmasında yeniliklər təklif etmişlər:

*Convar orientalis* Negr. qrupu üzrə:

- *Convar orientalis subconvar caspica* Negr. var. *transcaucasica Gram*. et Trosch. (Qara mələyi, Bayanşirə, Xərci, Dik xərci, Mədrəsə, Misqalı, Tavkveri, Xindoqnı);

- *Convar orientalis subconvar antasiatica* Negr. var. *transcaucasica* Gram. el Trosch. (Ağadayı, Ağ üzüm, Ağ mələyi, Haçabaş, Təbrizi, Rişbaba, Xətmi, Ağ şanı, Şabaş və s.);

- *Convar orientalis subconvar antasiatica* Negr. *var. mediiasica* Gram. et Trosch. (Katta-Kurqan, Ağ Xəlili, Nimrəng, Moldavskiy, Ağ çilyəki, Çəhrayı tayfı və s.);

*Convar pontica Negr*. - qrupu üzrə:

- *Convar pontica subconvar georgica* Negr. (Saperavi, Asıl qara, Qara simlyanskiy və s.);

- *Convar pontica subconvar balcanica* Negr. (Ağ çauş, Plavay, Ağ kokur və s.);

- *Convar pontica* Negr. *subconvar meridionali-balcanica* Trosch. (Portugizer, Kabassiya, Kadarka, Slitnoy, Qara may üzümü, Limberqer və s.);

- *Convar pontica* Negr. *subconvar georgica-caspica* Gram. (Rkasiteli, Cikuri, Qorula, Danqur, Sirqula və s.);

*Convar occidentalis* Negr. qrupu üzrə:

- *Convar occidentalis* Negr. / *subconvar gallica* Nem. (Aliqote, Kaberne-Sovinyon, Merlo, Rislinq, Semilyon, Silvaner, Şardone, məhsuldar Qara pino və s.);

*Convar occidentalis subconvar pyrenaica* Gram. (Verdelo, Sarı verdo, Murvedr, Quveyo, Turiqa, Qış katolonu, Sersial və s.).

Akademik Ş.İ.Korjinskinin əvvəllər təklif etdiyi *proles*., hal-hazırda isə *convar* adlandırılan, A.M.Neqrulun üç ekoloji-coğrafı qrupu üzrə Beynəlxalq sistemində keyfiyyət nümunəsi əsas tutulur (Cədvəl 1.3).

*Cədvəl 1.3*

| *Convarietas* | *Orientalis* Negr. | *Pontica* Negr. | *Occidentalis* Negr. |
|---|---|---|---|
| Subconvarietas | caspica Negr. | balsanica Negr. | gallica Nem. |
| Provarietas | aminea Negr. | mesocapra Nem. | microcarpa Nem. |
| Suhprovarietas | vulgaris Andras. | dolmatica Nem. | Noirien Lev. |
| Conculta | Şasla | Kadarka | Pino |
| Cultivar | Ağ şasla | Kadarka | Qara pino |
| Cubcultivar | Çəhrayı şasla | Göy kadarka | Məhsuldar qara pino |

N.V.Tsertsvadze (1986, 1987) Gürcüstanın yerli üzüm sortlarının təsnifat xüsusiyyətlərini öyrənərkən onların iki ekoloji-coğrafı qrupa *(pontica* Negr. və *orientalis* Negr.) aid olduğnu qeyd etmişdir. Lakin tədqiqatçı Qarne üzüm sortlarının əlamət və xüsusiyyətlərində müşahidə edilən geniş polimorfizmi nəzərə alaraq onları 3 yarımqrupa ayırmışdır:

- *Convar pontica subconvar. Georgica* Negr. *prova. tomentosae* Trests. (Bura daxil olan sortların yarpaqlarının alt səthi keçəşəkilli tükcüklə örtülü olur. *V.vinifera sıubsp. sylvestris* Gmel. - yabanı üzümdən başlanğıc götürmüşdür. Xalq seleksiyası yolu ilə seçilərək yaradılmışdır). Saperavi və s. (cəmi 162 sort).

- *Convar pontica subconvar. Georgica* Negr. *provar. araneosae* Trests. (Bura daxil olan sortların yarpaqlarının alt səthi torvari ağ tükcüklə örtülü olur, *V.vinifera subsp. sylvestris* Gmel. - yabanı üzümdən başlanğıc götürmüşdür. Xalq seleksiyası yolu ilə seçilmişdir. *Convar pontica subconvar Georgica* Negr. *provar. tomentosae* Trests. sortlarının mədəni şəraitdə becərilməsi nəticəsində yaradılmışdır). Qomus tetri, Rkasiteli və s. (cəmi 76 sort).

- *Convar orientalis subconvar. caspica* Negr. (Bura daxil olan sortların yarpaqlarının alt səthi çılpaq (tüksüz) olur, Yabanı üzüm yarımnövündən (*V.vinifera subsp.sylvestris* Gmel.) başlanğıc götürmüşdür. *Convar. pontica subconvar. Georgica* Negr. *provar. tomentosaeTrests. və Convar. pontica subconvar. Georgica* Negr. *provar. araneosae* Trests.-ə daxil olan sortlarn mədəni surətdə becərilməsi nəticəsində yaradılmışdır). Qorula, Çinuri, Tavkveri və s. (cəmi 53 sort).

N.V.Tsertsvadze (1987) qeyd edir ki, öz-özünü tozlayan toxmacarların təhlili göstərmişdir ki, onların çiçək tipi, yarpaqlarının alt səthinin tükcüklük dərəcəsi, ayanın yarılma dərəcəsi, salxım və gilənin forması, gilənin qara rəngi kimi irsi əlamətləri heteroziqot, gilənin ağ rəngi isə homoziqot təbiətlidir. Müəyyən edilmişdir ki, cavan zoğun və yarpağın zəif və orta dərəcədə tükcüklənməsi, funksional dişi çiçək tipi, ayanın bütün növ yarılma dərəcələri, salxımların silindrik-konusvari, konusvari və silindrik formaları, gilələrin oval və girdə forması, gilənin ağ rəngi kimi əlamətlər isə ressesiv təbiətlidir. Funksional dişi çiçək tipinə malik olan sortlarla ikicinsli sortların çarpazlaşdırılmasından alınan bitkilərdə yarpaqların keçəvari ağ tükcüklənməsi və gilənin qara rəngi dominant əlamət kimi özünü büruzə verir.

N.V.Tsertsvadze (1987) təsnifetmə zamanı istifadə olunan əsas əlamətlərdən biri olan yarpağın alt səthinin tükcüklülük dərəcəsini əsas götürərək Gürcüstanın yerli üzüm sortlarını 3 təsnifat qrupunda cəmləşdirmişdir. Müəllif müəyyən etmişdir ki, Gürcüstan sortlarının əksəriyyətini (55,7%) yarpaqlarının alt tərəfi sıx ağ keçəvari tükcüklü olan sortlar qrupu təşkil edir. Sortların 26,1 %-i yarpağının alt səthi torvari ağ tükcüklə örtülü olan qrupa, 18,2%-i isə alt səhti çılpaq (tükcüksüz) olan qrupa daxil edilmişdir. Tədqiqatçı təsnif etdiyi qruplar arasındakı qarşılıqlı əlaqələri, oxşarlıq və fərqləri, onların filogenetik inkişafını öyrənərkən bir-birinə daha çox yaxın olan və əksinə, bir-birindən uzaq olan qrupları ayırmışdır. Aydınlaşdırılmışdır ki, yarpaqları ağ keçəvari tükcüklənməyə malik olan sortlar qrupu yarpaqları ağ torvari tükcüklənməyə malik sortlar qrupuna yaxındır və ya aralıq xüsusiyyətlərə malikdir ki, bu da onların dominant genlərin konsentirasiyası olan formalaşma ocağından divergensiya nəticəsində meydana gəlməsi fərziyyəsini təsdiq edir. N.V.Tsertsvadze (1987) alt səthi çılpaq yarpaqlı sortların filogenetik baxımdan nisbətən gec əmələ gəldiyi fikrini irəli sürmüşdür. Müəllif nəzəri olaraq onların genezisində ağ keçəvari və torvari tükcüklənməyə malik olan yerli mədəni üzüm sortlarının iştirak etdiyi fikrini irəli sürmüşdür. Şərqi Gürcüstan variantının ayrı-ayrı tarixi-coğrafi qrupları arasındakı sıx əlaləqələr çılpaq yarpaqlara və gilələri girdə oval formalara malik olan sortların ilkin olaraq Cənubi Qafqazın mərkəzində və şərq rayonlarında əmələ gəlməsi barədə fikir söyləməyə əsas verir.

Krımın aborigen üzüm sortlarının 38%-i *convar pontica* Negr., 17%-i *convar occidentalis* Negr., 45%-i isə *convar orientalis* Negr. coğrafi-ekoloji qruplarına mənsubdur. Yalta və Aluştaınn yabanı üzüm populyasiyalarındakı bitkilərin yarpaq-larında 30 əlamət üzrə differensasiya aparılaraq onların bir neçə növmüxtəlifliyinə (*var. tipica* Negr., *var. tipica* Bol. Et. Mal., yarpaq ayası yarılmış, *var. balcanica* Negr., *var. balcanica* Bol. Et. Mal., yarpaq ayası yarılmamış, *var. aberrans* Negr., *var tuarica* Bol. Et. Mal., *var. tabasaranica* Negr., *var. colhica* Ram., *var. meridiestaurica* Vol. et. Poll.) aid olduğu məlum olmuşdur.

Azərbaycanda da yerli üzüm sortları geniş polimorfizmi ilə xarakterizə olunur. Yerli üzüm sortlarının morfoloji, bioloji-təsərrüfat xüsusiyyətləri araşdırılmaqla onlar bir neçə qrupda cəmləşdirilmişdir:

- Gilələri iri, çox iri, uzun və uzunsov formada, ləti sıx, xartıldayan, ətvari və ətvari-şirəli, salxımları seyrək və orta sıxlıqda, iri və çox iri, şaxəli formada, yarpaqları iri və çox iri, ayası orta dərəcədə və dərin yarılmış, alt səthi çılpaq olan üzüm sortları;

- Gilələri orta və iri ölçülü, girdə və zəif oval formada, ləti şirəli, ətvari şirəli, zəif xartıldayan, salxımları orta ölçülü və iri, gilələri orta sıx və çox sıx olan, yarpağın alt səthi çılpaq olan süfrə və universal üzüm sortları;

Gilələri girdə, yaxud oval formada, iri və çox iri ölçülü, salxımları orta və iri

ölçülü, gilələri seyrək və orta sıxlıqda, ləti ətvari, ətvari-şirəli olan, yeyildikdə zəif xartıldayan, yarpağın alt səthi ağ keçəvari, torvari, yaxud cod tükcüklü olan, ayası zəif, orta dərəcədə və dərin yan kəsikli süfrə üzüm sortları;

- Gilələri girdə, yaxud oval formalı, xırda və orta ölçülü, ləti şirəİi, salxımları orta ölçülü, iri və çox iri, gilələri sıx və çox sıx, bəzən orta sıxlıqda, yarpaqlarının alt səthi ağ keçəvari, torvari və cod tükcüklü, yarpaq ayası orta dərəcədə və dərin yan kəsikli texniki üzüm sortları;

- Gilələri xırda və orta ölçülü, oval, tək-tək hallarda girdə formada, ləti ətvari, toxumsuz, yeyildikdə zəif xartıldayan, salxımları orta, iri və çox iri olan, orta sıxlıqda, gilələri sıx və çox sıx olan, nisbətən tez yetişən, yarpağın alt səhti çılpaq olan üzüm sortları;

- Gilələri xırda və orta ölçülü, ləti şirəli, ətvari-şirəli, salxımları xırda və orta irilikdə, zoğların bar əmsalı xeyli yüksək olan, yarpağın alt səthi seyrək, sıx torvari, keçəvari tükcüklü olan texniki üzüm sortları.

M.V.Amanovun fikrincə, Azərbaycanın Qara dəniz hövzəsi qrupuna daxil olan sortları digər sortlardan fərqli olaraq salxım və gilələri iri və çox iri olur. Lakin bu sortlar bu qrupun tipik əlaməti olan yarpağın alt səthinin torabənzər ağ tükcüklü olması ilə səciyyələnir. M.V.Amanov bu sortları Qara dəniz qrupundakı sortlarla digər qrupdakı sortların təbii hibridi hesab etmişdir. Tədqiqatlar zamanı aydınlaşdırılmışdır ki, Azərbaycanda 50-yə yaxın sort Qara dəniz hövzəsi sortları qrupunun əlamətlərinə malikdir. Bunların isə əksəriyyəti universal və süfrə istiqamətli üzüm sortlarıdır. Naxçıvanda becərilən üzüm sortlarının 94%-i şərq ekoloji-coğrafi (*convar orienlalis* Negr.), 6%-i isə Qara dəniz hövzəsi (*convar pontica* Negr.) üzüm sortları qrupuna mənsubdur.

Ədəbiyyat mənbələrindən məlumdur ki, bu qrupa daxil olan sortların salxımları və gilələri xırda, yaxud orta ölçüdə olmaqla əsasən texniki istiqamətlidirlər. Əldə olunan nəticələrə əsaslanaraq söyləmək olar ki, bu sortlar Qara dəniz hövzəsi qrupunun formalaşma istiqamətinin bir qolu olmaqla Azərbaycan bölgəsinə məxsus inkişaf yolu keçərək bu şəraitə adaptasiya olunmuşlar.

***Şərqi Asiya növləri qrupu.*** Bu qrup üçüncü dövrə aid olan 39 növü özündə birləşdirir. Bu növlər gilələrinin pis keyfiyyətə malik olması və istifadəyə yararsız olması səbəbindən az öyrənilmişdir. Bunlar arasında elmi əhəmiyyət daşıyan yalnız *V.amurensis* Rupr. növüdür. Bu növ buzlaşma dövründən sonra kəskin iqlim dəyişiklikli, torpağın dərin qatlara qədər donması və yüksək rütubətlilik şəraitində şaxtalara dözümlülük və rütubətə tələbkarlıq xüsusiyyətləri qazanmışdır. Bu növə daxil olan bitkilər qısa vegetasiya müddətinə malikdirlər. Bu qrupun bir sıra növlərinin meyvələri yeyilməli olsa da, keyfiyyətləri çox aşağıdır. Yayılma və yetişmə şəraitindən asılı olaraq təkamül prosesində müxtəlif bioloji xüsusiyyətlər qazanmışlar.

***Amerika növləri qrupu.*** Kanada və ABŞ-ın şimal rayonlarında soyuq iqlimdə və filloksera ziyanvericisi az yayılan ərazilərdə biləvasitə qumsal və qumlu-çınqıllı torpaqlarda yayılan bəzi növlər, o cümlədən *V.labrusca* L. və *V.lincecumii* Buckl. fıllokseraya davamlılıq xüsusiyyəti qazanmışlar.

Amerikada üzüm növləri mədəni şəraitdə qitənin kəşfindən sonra becərilməyə başlanılmışdır. Həmçinin XVII əsrdə Amerika qitəsində yüksəkkeyfiyyətli Avropa-Asiya üzüm sortlarının becərilməsinə cəhd edilsə də bunlar uğursuz alınmışdır. Amerika qitəsinə introduksiya olunan Avropa-Asiya üzüm sortları oradakı torpaqların yüksək miqdarda karbonatlı olması, göbələk xəstəlikləri ilə zənginliyi, xüsusilə filloksera ziyanvericisinin təsirindən məhv olmuşdur. Lakin Şimali Amerikanın meşələrində bilavasitə çarpazlaşma nəticəsində kifayət qədər yüksək dad keyfiyyətinə malik olan, gilələri iri, ağ və çəhrayı rəngli, ikicinsli çiçək tipinə malik olan təbii hibridlər yaranmışdır. Amerika növlərinin Avropa-Asiya növü ilə təbii hibridləri fillokseraya və göbələk xəstəlikiərinə qarşı davamlılıqları ilə seçilmişlər. Meşədə bitən belə təbii hibridlərin ən yaxşılarının seçilib mədəni şəkildə becərilməsi nəticəsində təzə halda istifadə olunan və emal üçün yararlı nümunələr meydana gəlmişdir. Bunlar "Amerikanın bilavasitə törədici hibridləri" adı ilə məşhurdurlar. Onlardan ən geniş yayılanları Amerikanın İzabella, Konkord, Katavba, Lidiya, Noa sortlarıdır. Hazırda belə üzüm sortları ABŞ-ın şərq ştatlarında geniş ərazilərdə becərilir. Qeyd edək ki, bu sortlar Avropanın bəzi üzüm bağlarında da becərilir. Amerika növləri Avropada, xüsusilə Fransa, İtaliya və digər ölkələrin üzümlüklərində fıllokseraziyanvericisi yayıldıqdan sonra çox tanınmağa başladı. Amerika növləri üzərində aparılan çoxillik tədqiqatlar nəticəsində fillokseraya və göbələk xəstə-liklərinə qarşı davamlı olan növlər seçilmişdir. Bunlardan *V. vulpina* L. (*V.riparia* Michx.), *V.rupestris* Scheele., *V.berlandieri* Planch. növləri daha çox praktiki əhəmiyyət kəsb edir. Hazırda bu növlər Avropada, xüsusilə Fransada, Almaniyada geniş ərazilərdə becərilir. Onlar Avropa-Asiya sortlarının becərilməsində calaqaltı kimi istifadə olunurlar. Ancaq belə calaqlar zəif inkişaf etdiklərindən son zamanlar onların Avropa-Asiya sortları ilə alınmış uzaq hibridlərindən daha çox istifadə olunmağa başlanılmışdır. Hazırda bu növlərdən fillokseraya davamlı onlarla çalaqaltı sortlar yaradılmışdır. Belə hibridlər "bilavasitə törədici hibridlər" adlandırılır. Belə hibridlərdən Kuderk 4401, Zeybel 1, Zeybel 14, Zeybel 1000, Bako 1, Kastel 120, Terras 20 və s. göstərmək olar. Amerika növləri arasında kifayət qədər geniş yayılan, hərtərəfli tədqiq olunan və təcrübi əhəmiyyəti ilə seçilən *V labrusca* L., *V.vulpina* L. (V.*riparia* Michx.), *V.rupestris* Scheele*., V.berlandieri* Planch, *V.lincecumii* Buckly, *V.cordifolia* Michx. növləridir.

***Vitis labrusca* L.** Bu növ yabanı halda Kanadanın cənub hissəsində çay kənarlarından başlayaraq ABŞ-ın Florida ştatına qədər düzənlik ərazilərdə, qumsal torpaqlarda yayılmışdır. Növün lianları 30-40 m uzunluğunda olan gövdəsinin

diametri 20-25 sm olur. Zoğları qonur və ya tünd-şabalıdı rənglidir. Bığcığı tükcüklü olmaqla qısadır və 2- 3 haçalıdır. Yarpaqları iri, enli, yumurtaşəkilli yaxud dəyirmi formalı, kənarları bütöv, bəzən çox da aydın hiss olunmayan yan kəsikli, 3-5 dilimlidir. Gilələri orta və iri ölçülü, şarşəkilli, tünd-bənövşəyi, qara yaxud çəhrayı rənglidir. Muskat dadı verir. Giləsi 2-4 toxumlu olur, toxumunun dimdikciyi çox qısadır. Zoğların əsas xarakterik irsi əlaməti 2-3-cü buğumdan sonra bütün buğumlarda ardıcıl əmələ gələn bığcıqların olmasıdır. Şaxtaya davamlılıqları xeyli yüksəkdir (-30°C-yə qədər). Xəstəliklərə qarşı davamlılıqları orta dərəcədədir, lakin Avropa-Asiya sortlarından olduqca yüksəkdir. Bu növün *V.vinifera* növü ilə təbii hibridlərinin seçilməsi və mədəniləşdirilməsi nəticəsində İzabella, Konkord, Katavba, Lidiya, Tezyetişən Mur və s. kimi qiymətli sortları alınmışdır. *V.labrusca* L. növü seleksiyada həm şaxtaya, həm də fillokseraya davamlı üzüm sortlarının alınmasında istifadə olunur. A.A.Qrossheymə görə, Şimali Amerika növləri qrupuna aid edilən *V.labrusca* L. *V.vinifera* ilə hibridi olan İzabella üzümü Talış meşələrinin Lənkəran-Astara bölgəsində daha geniş yayılmışdır. Bu sort hazırda Cənubi Amerikada, Afrikada, Asiyada və Avstraliyada yayılmışdır. Sortun əlverişsiz iqlim şəraitinə, xəstəlik və ziyanvericilərə davamlılığı, yüksək məhsuldarlığı Avropa üzümçülərinin diqqətini cəlb etmişdi və tezliklə geniş ərazilərdə becərilməyə başlanılmışdır. Sort Rusiyaya XIX əsrin 50-ci illərində Fransadan gətirilmiş, oradan isə Gürcüstana, daha sonra isə Azərbaycana introduksiya olunmuşdur. Rusiyada Krasnodar və Dağıstan ərazilərində, Gürcüstanda isə daha çox Abxaziya və Acariyada əkilib becərilir. Gürcüstanda bu sortdan həm təzə halda, həm də ki, şərab istehsalında istifadə edilir. Vaxtilə Azərbaycanda İzabella sortunun becərildiyi sahələr 300 hektardan çox ərazini əhatə edirdi ki, bunun da 200 hektara yaxını Lənkəran rayonunda və Qarabağ ərazisində yerləşirdi. Azərbaycanın bəzi rayonlarında "Ayı üzümü" adı ilə məşhurdur. Bu sort respublikamızın rayonlaşdırılmış üzüm sortları standartlarına daxil edilmişdir.

***V.vulpina* L. *(V.riparia* Michx.)** - Sahil üzümü. Bu üzüm növü Kanadanın şimal rayonlarından ABŞ-ın cənub ştatlarına (Texas, Kolorado və s.) qədər ərazilərdə yayılmışdır. Bu növün nümayəndələri Missisipi və Missuri çaylarının sahillərində yüksək humuslu yüngül qumsal və az miqdarda əhəngli (10-15%) gilli-qumsal torpaqlarda yayılmışdır. Yüksək miqdarda karbonatlı və əhəngli torpaqlarda bitən növün nümayəndələrində xloroz xəstəliyinin inkişafı müşahidə edilir. Bu növ yüksək şaxtaya davamlılığı (-30°C-yə qədər) ilə səciyyələnir. Göbələk xəstəlikləri ilə sirayətlənmirlər, fıllokseranın kök formasına davamlıdırlar. Növün tənəkləri cubuqla yaxşı çoxalır və yüksək köklənmə qabiliyyətinə malikdir. *V.vulpina* L. və *V.labrusca* L. növlərinin süni hibridləşməsindən çoxlu təsərrüfat əhəmiyyətli hibridlər alınmışdır. *V. vulpina* L. növündən seleksiya işlərində fillokseraya davamlı calaqaltı kimi istifadə olunan sortların alınmasında istifadə edilir. Seleksiya nəticəsində bu növə aid olan Riparia Qluar de Monpele (Riparia Qluar), Riparia Qran, Qlabr sortları

və Solonis x Riparia 1616 və s. hibridləri alınmışdır.

***V.rupestris*** **Scheele.** Bu növ ABŞ-ın mərkəzi və cənub ştatlarında geniş yayılmışdır. Əksəriyyəti çox da hündür olmayan güclü şaxələnən kol bitkiləridir. Göbələk xəstəliklərinə, fillokseraya, şaxtaya, quraqlığa davamlıdırlar. İstiyə tələbkar bitkilərdir. Bu növdən də seleksiya işlərində təsərrüfat əhəmiyyətli, fillokseraya davamlı sortların alımnasında geniş istifadə edilir. Bu növün kolu sərilən, ətrafa yayılan, bığcıqsız və ya bığcıqları tez tökülən, yarpaqları xırda, ürəkvari, böyrəkvari formal, yarpaq ayası zəif yan kəsikli olmaqla üzəri hamardır, kənarları dişcikli, ucu sivri, rəngi tünd-yaşıldır. Bu növün nümayəndələri ikievli, əksər hallarda funksional dişi cinsli bitkilərdir. Salxımları orta irilikdə olur, uzunluğu 8-10 sm, gilələri xırdadır, qara rənglidir, üzəri mum qatı ilə örtülür. Hər gilədə 2-4 ədəd normal toxum olır. Hüceyrələrində xromosomların sayi 2n=38 ədəddir. Bu növə mənsub olan Rupestris dyu Lo sortu və Riparia x Rupestris 101-14, Riparia x Rupestris 3309, Murverd x Rupestris 1202, Aramon x Rıipestris Qanzen Ne 1 hibridləri qiymətli fillokseraya davamlı calaqaltılardır.

***V.berlandieri*** **Planch.** Bu növün nümayəndələri Dağ üzümü, Qış üzümü sinonimləri ilə tanınırlar. ABŞ-da Texas ştatının mərkəzi və cənub ərazilərində, Meksikanın şimal bölgələrində yayılmışdır. Kolları çox da böyük olmayan lianlardır. Fillokseraya və göbələk xəstəliklərinə çox dözümlü növdür. Avropaya 1887-ci ildən sonra gətirilmişdir. İkievli bitkilərdir. Çiçəkləri funksional dişi və erkək tiplidir. Salxımı iri, giləsi xırda, üzəri mum təbəqəsi ilə örtülü, qara, şirəli, xoşa gələn dadlı, ağız büzüşdürücüdür. Gilə tam yetişdikdə şirəsi şirin, dadlı olur. Toxumu az, xırda, oval və ya girdədir. 22-28°C şaxtaya, 40-45°C müsbət temperatura davam gətirir. Əhəngli torpaqlarda normal inkişaf edir. Şaxtaya davamhlığı digər növlərə nisbətən aşağıdır. Xromosomlarının sayı 2n=38-dir. Bu növdən seleksiyada yüksək əhəngli torpaqlara davamlılıqları ilə səciyyələnən, fillokseraya davamlı olan calaqaltı sortların alınmasında istifadə edilir. Hazırda dünyanın əksər bölgələrində bu növün hibridlərindən olan *V.berlandieri* x *V.riparia* Kober 5BB, *V.berlandieri* x *V.riparia* 420A, *V.berlandieri* x *V.riparia* Teleki 8B, *V.berlandieri* x *V. riparia* C04, Kreçunel 2, Şasla x *Berlandieri* 41B, *V.berlandieri* x *V. Riparia* Rixler 99 və s. formalar fillokseraya davamlı çalaqaltı kimi Avropa ölkələrində geniş istifadə olunmaqdadır.

***V.lincecumii*** **Buckly.** Bu növə daxil olan bitkilər istiliyə çox tələbkardır. Mərkəzi və şərqi Texasda, Luizianada, çay kənarlarında, adətən palıd meşəliklərində, isti və quraqlıq iqlim şəraitində yayılmışdır. Göbələk xəstəliklərinə davamlılıqları orta dərəcədədir. Fıllokseraya davamlılığı yüksəkdir. Bu növə aid olan bitkilər əhəngli torpaqlarda zəif inkişaf edirlər. Seleksiya işlərində *V.lincecumii*, *V.rupestris* və *V.vinifera* növlərinin çarpazlaşdırılması nəticəsində təsərrüfat əhəmiyyətli çoxlu sayda hibrid formalar (Zeybel 1, Zeybel 20, Zeybel 1000, Zeybel 4986 və s.) alınmışdır. Belə hibridlərin əksəriyyətinin gilələri iridir və yeyilməyə yararlıdırlar.

***V.cordifolia*** **Michx.** Güclü inkişaf edir, lian bitkidir. Çoxillik gövdələrinin diametri 80 sm-ə çatır. Güclü polimorf növdür. ABŞ-da Pensilvaniya, Florida ştatlarında, Kanzasın qərbində, Oklaxomanın şərqindən Texasın mərkəzinə qədər ərazilərdə və Missuri cayının hövzəsində yayılmışdır. Tənəkləri gilli əhəngli-cınqıllı torpaqlarda normal inkişaf edir. Xəstəliklərə, fillokseraya və quraqlığa davamlıdırlar. Digər Amerika növləri ilə asanlıqla çarpazlaşır. Fillokseraya davamlı calaqaltıların alınması baxımından təcrübi əhəmiyyətlidir. Bu növün *V.rupeslris* növü ilə çarpazlaşması nəticəsində alınan fillokseraya davamlı calaqaltı sortu ((*Riparia* x *Cordifolia*) x *Rupestris* 106-8) kifayət qədər geniş yayılmışdır.

## 3. Azərbaycanda üzümçülüyün inkişaf tarixi, müasir vəziyyəti, imkanlar, perspektivlər

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində 90-cı illərin ikinci yarısından etibarən üzümçülüyün yenidən inkişafı üçün əlverişli şərait yaradılmış və bu istiqamətdə müvafiq dövlət tədbirlərinin həyata keçirilməsinə başlanılmışdır. Belə ki, 2002-ci ildə "Üzümçülük və şərabcılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, üzümçülüyün inkişafı üzrə tədbirlərin də nəzərdə tutulduğu "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cu illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidenti tərəfindən 25 avqust 2008-ci ildə təsdiq olunan "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"ölkəmizdə ən gəlirli sahələrdən olan üzümçülüyün yenidən inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli sərəncamı ilə təsdiq edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafina dair Dövlət Proqramı"nda 2020-ci ilə qədər respublikada 50 min hektar yeni üzüm bağlarının salınması planlaşdırılmış, üzümçülüyün müasir vəziyyəti, inkişafının məqsəd və vəzifələri, əsas istiqamətləri, maliyə mənbələri və gözlənilən nəticələr müəyyənləşdirilmişdir. Üzümçülük və şərabcılıq Azərbaycan respublikasında aqrar-sənaye sahələri arasında xususi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Üzüm digər kənd təsərrufatı məhsulları arasında hər 100 hektar torpaq sahəsi üzrə yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul istehsalına görə ən yüksək göstəriciyə malik olan texniki bitkilərdən biridir. Bununla belə, üzümçülük kənd təsərrufatı istehsalının ən çox kapital tələb edən sahəsidir.

**Üzümçülüyün inkişaf tarixi.** Azərbaycan üzüm bitkisinin ən qədim yaranma və formalaşma mərkəzlərindən biri olmaqla qədim üzümçülük və şərabçılıq diyarıdır. İndiki Azərbaycan ərazisində üzümün becərilməsinin qədimliyini çoxsaylı ədəbiyyat məlumatları, eləcə də arxeoloji qazıntılar zamanı tapılmış zəngin qədim əşyalar, maddi-mədəniyyət abidələri, üzüm bitkisinin müxtəlif vegetativ orqanlarının, həmçinin üzüm və şərabçılıq məhsullarının qalıqları sübut edir. Üzüm bitkisinin qazıntı halında tapılan yarpağının qalıqları və toxumları sübut edir ki, üzüm bitkisi 55 milyon il bundan qabaq, bizim planetin geoloji tarixinin üçüncü dövründə meydana gəlmişdir. Buna əyani sübut olaraq Azərbaycanın Naxçıvan bölgəsindən tapılan yabanı üzümün daşlaşmış qalıqlarını ən dəyərli tapıntı kimi göstərmək olar. Təxminən 0,5-1 milyon il tarixə təsadüf edən yabanı üzüm yarpağının daşlaşmış qalıqları Araz çayının ətrafında yuxarı pliosen qatında Naxçıvan ərazisindən tapılmışdır. Bozdağın qərb hissəsində (Göy-göl rayonunda) geoloji tədqiqat apararkən 1-2 milyon il bundan qabaq əmələ gəlmiş Abşeron adlanan çöküntülərdə yabanı üzümün yarpaqlarının daş üzərindəki izlərindən ibarət zəngin tapıntılar aşkar olunmuşdur. 1962-ci ildə Ağstafa yaxınlığında eramızdan əvvəl V-IV minilliyə aid Şomutəpə abidəsində arxeoloji qazıntılar zamanı ən azı 7000 illik tarixi olan mədəni üzüm toxumları tapılmışdır. Arxeoloji qazıntılar zamanı Ağdam şəhəri yaxınlığındakı Üzərliktəpə abidəsindən 3500 il bundan əvvələ aid üzüm toxumları və daşlaşmış gilələr aşkar olunmuşdur. Toxumların ən irisi 6,5 mm, gilələrin böyüklüyü isə 18-20 mm ölçüdə olmuşdur. Mütəxəssislər gilə və toxumların süfrə sortlarına məxsus olduğunu göstərirlər. Gəncəçay ərazisində son tunc dövrünə aid olan bir kurqandan tapılan gil qabın içərisindəki qalıqlarda şərab çöküntüləri və üzüm toxumları çoxluq təşkil etmişdir. İçərisində üzüm qalıqları olan şərab küpləri Mingəçevirdə tunc dövrünün sonuna aid olan qədim qəbirlərdən də tapılmışdır. Qazax şəhərinin qərbindəki Sarıtəpə adlı qədim yaşayış yerində arxeoloji qazıntılar zamanı iri küplər, üzüm gilələri və toxumları tapılmışdır. Eramızdan əvvəl II minilliyin sonuna aid olan bu tapıntılar üzərində tədqiqat aparan professor A.M.Neqrul onların mədəni üzümə aid olduğunu müəyyən etmişdir. Azərbaycanın ayrı-ayrı bölgələrində yüz illərdir ki, yetişdirilən xalq seleksiyasının məhsulları olan müxtəlif yerli üzüm sortları (400-dən çox) və xiyabanlarda rast gəlinən yaşlı üzüm tənəkləri, habelə üzümdən hazırlanan müxtəlif çeşidli məhsullar (mürəbbə, riçal, doşab, sirkə, abqora, sucuq, kişmişi, mövüc, turşaşirin, şirə, şərbət, şərablar, spirt və s.) bu ərazidə əhalinin üzümçülüklə məqsədyönlü şəkildə məşğul olduğunu göstərir.

Müxtəlif dövrlərdə yaşamış dünyanın məhşur tarixçilərinin, səyyahlarının, coğrafiyaşünas alimlərinin əsərlərində, qeydlərində, xatirələrində də Azərbaycanda üzümçülük və şərabçılıq haqqında dəyərli fikirlər vardır. Dünyanın nüfuzlu alimləri Heredotun (e.ə. V əsr), Plininin (e.ə. 23-79-cu il), Strabonun (e.ə. I əsr-eramızın II-III əsri, 330-400-cü illər), Əbü Düləfilin (X əsr), Afanasi Nikitinin (XI əsr), Məsud ibn

Nəmdarın (XII əsr), Yexstafinin (XII əsr), Həmdullah Qəzvininin (XIII əsr), Mikluxo-Maklayın (XIII əsr), Rəşid əd-Dinin, Əbdürəşid Qamivinin (XIII əsr), Marko Polonun (XIII-XIV əsr), Adam Oleraninin (XVII əsr), Evliya Çələbinin (XVII əsr), Korneli de Bruinin (XVII-XVIII əsr), İ.İ.Şopenin (XIX əsr), Fridrix Marşal fon Biberşteynin (XVIII-XIX əsr) və başqalarının əsər, xatirə və qeydlərində üzüm bitkisinin ən qədim məskənlərindən birinin Azərbaycan Respublikası ərazisinin olduğu barədə fikirlər vardır [62, s.5-12].

Ərəb tarixçiləri və coğrafiyaşünasları – Əbülfida, İbn Havqəl, Məsudi, Əl Müqəddəsi ərəblərin hökmranlığı dövründə Bərdə, Gəncə ətrafında və Azərbaycanın digər regionlarında üzümlüklərin olması haqqında məlumatlar verirlər. X əsrin ərəb coğrafiyaşünası Əl Müqəddəsi Azərbaycanın var-dövlətini təsvir edərək yazır «...bu vilayət böyük və gözəldir, orada çoxlu meyvə və üzüm sortları vardır». Yunan alimi Herodot (e.ə. V əsr), Roma alimi Plini (e.ə. 23-79-cu il), yunan coğrafiyaşünası Stroban (e.ə. I əsr-eramızın I əsri), Roma tarixçisi Ammian Masellin (eramızın II-III əsri, 330-400-cü illər) Azərbaycanın həyatında üzümçülüyün xüsusi rol oynadığını qeyd etmişlər. Bütün göstərilən tarixi faktlar Azərbaycanın indiki ərazisində kaspilərin, midiyalıların və albanların yaşadığı dövrə aiddir. Bu faktlardan aydın olur ki, min illər ərzində üzümçülük bir sahə kimi öz mövcudluğunu saxlaya bilmişdir. Monqolların Azərbaycana hücum etdikləri dövr üzümçülüyün inkişafında həlledici rol oynamışdır. Monqolların hökmranlığı dövründə monqol ordusunu saxlamaq üçün əhali xüsusi vergiyə cəlb olunmuşdu. Verginin həcmi qeyri-müəyyən idi, hər şəxsdən təxminən 40 kq buğda, 20 litr şərab və bir qədər pul tələb olunurdu.

Həmdulla Qəzvini Azərbaycanın cənubunda pambıq, buğda, düyü, meyvə və üzüm yetişdirilməsi barədə maraqlı məlumatlar verir. XV əsrdə Azərbaycanda öz iqtisadi inkişafına görə Şirvan bölgəsi çox fərqlənirdi. Ölkənin cənub zonası ilə müqayisədə Şirvanda kənd təsərrüfatının inkişaf səviyyəsi yüksək, məhsul çox, qiyməti isə aşağı idi. 1475-ci ildə Şirvanda olmuş Ambroce Kontarini yazır ki, Şabran şəhərində yerli əhalinin ehtiyaclarını ödəyəcək qədər taxıl, pambıq, düyü, üzüm, tərəvəz və meyvə istehsal olunurdu. Məşhur rus səyahətçisi Afanasi Nikitin Bakıda olmuş, qala ətrafı yerlərin bitkisiz, Abşeron yarımadasının şimal hissəsində meyvə bağları və üzümlüklər olduğunu qeyd etmişdir. I Pyotrun dövründə inkişaf etmiş Rus manufaktur sənayesinin Azərbaycanda istehsal edilən xammal və materiallara ehtiyacı var idi. O, Rusiyaya lazımi miqdarda ipək, pambıq, yun parça, rəng, meyvə, şərab və şirniyyat verə bilərdi. 1777-ci ildə Şamaxıdan keçən məşhur Holland səyahətçisi Korneli Debryuin Şirvanın var-dövləti, gözəl şərabları, meyvələri, at və heyvanları haqqında söhbət açmışdır. O dövrdə Şamaxı və Dərbənd ətrafında meyvə bağları və üzümlüklər salınmışdı. Eyni zamanda Rusiyada bağçılığı inkişaf etdirmək məqsədilə I Pyotrun sərəncamı ilə tənək almaq üçün Şamaxıya xüsusi nümayəndə göndərilmişdir.

Naxçıvanın Vənənd kəndindəki məscidin üzərində yazılmış kitabələrdə XIII əsrin 30-cu illərində ölkə təsərrüfatı və ərzaq təminatı məsələsinə aid qiymətli məlumatlar verilir. Yazıda deyilir: "Həmin illərdə məhsul az olmuş, belə ki, bir pud buğdanın dəyəri 400 dinar, düyü-800, yağ-2800, bal-3200, üzüm şirəsi (doşab)-2400, pendir-1600, üzüm qurusu-2400, arpa-350, adi ərik-80, sarımsaq- 1200, pambıq-400, qarpız tumu-500 dinar olmuşdur".

A.Kələntərin (1895) məlumatına görə, 1895-ci ildə Azərbaycanın Bakı quberniyasında 3331,5 hektar bar verən üzümlüklər vardı ki, burada istehsal olunan üzüm əsasən təzə halda və emal olunaraq şərab və spirt şəklində quberniya daxilində və qonşu quberniyalara satılırdı. Q.Q.Daniyelbəyov (1895) yazır ki, Quba qəzasında əkilib-becərilən üzümlüklərin hər desyatinindən (1,082 hektar) 500 pud üzüm toplanırdı, hər il 300 vedrəyə qədər şərab istehsal edilirdi. XIX əsrin axırlarında Azərbaycanın üzümçülük və şərabçılığın güclü inkişaf etdirildiyi ərazilərinə Göyçay və Şamaxı qəzaları, İrəvan və Naxçıvan quberniyası da daxil idi. Bu yerlərin üzümlüklərində ağ, qırmızı, qara, çəhrayı və s. rəngdə gilələri olan onlarla süfrə, texniki və kişmişi üzüm sortları (Xərci, Əskəri, Misqalı, Haçabaş, Gəzəndayı, Xəlili, Ağ sahibi, Rişbaba, Çilal, Kişmişi, Tülküquyruğu, Qalınqabıq, Şırşıra, Şəkərbura, Hüseyni, Mərməri, Bəndi, Tayfı, Ağ Aldərə, Təbərzə, Şəfeyi, Molla Əhmədi, Şahangir, Qaradamaq, Kərimqəndi, Əmiri, Durnagözü, Şiray, Şirvanşahı, Keçiəmcəyi, Xəzri, Qızıl üzüm, Çil üzüm, At üzümü, Beyləqani, Xan üzümü, Şəkəri, Dəvəgözü, Ağrı, Mahmudabi, Xunqi, Sısaq və s.) becərilirdi. O dövrdə Zaqafqaziya (Cənubi Qafqaz) Statistika idarəsinin məlumatına görə, 1913-cü ildə Azərbaycan ərazisinin 15 qəzasında 26,5 min hektar üzüm bağları var idi. Qeyd edək ki, birinci dünya müharibəsi illərində üzüm sahələri və onların məhsuldarlığı xeyli aşağı düşmüşdü. O dövrdə Azərbaycanda "Azvin", "Karvin" (Qarabağda), "Naxvin" (Naxçıvanda) dövlət şərab-spirt trestləri yaradılmışdı. Sonralar müflisləşmiş yerli kəndli təsərrüfatları "Konkordiya", "Kolokol", "Loza", "Karvinkoop", "Kax" üzümçülük kooperativləri yaradılmışdı. Bu birliklər Azərbaycanda üzümçülük və şərabçılığın gələcək inkişafının ilkin əsasını qoymuşdu.

1921-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Neft Kimya Akademiyası) kənd təsərrüfatı fakültəsində fəaliyyət göstərən "Üzümçülük və şərabçılıq kafedrası" bu sahədə mütəxəssislərin hazırlanmasında böyük rol oynamışdı. Artıq 1924-cü ildə üzüm istehsalı 89,3 min tona, şərab istehsalı isə 5,9 min dekalitrə yüksəldilmişdi. 1929-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (indiki Aqrar Universiteti) və 1930-1931-ci illərdə Gəncə və Azərbaycan Üzümçülük və Şərabçılıq Təcrübə Stansiyası müxtəlif rayonlarda aborigen üzüm sortlarının öyrənilməsinə başlanılmış, nəticədə Ağdam, Gəncə və Abşeronda 80-ə qədər aborigen süfrə və texniki üzüm sortları aşkar olunmuşdur. Azərbaycanda kollektiv-ləşdirmənin inkişafı və təsərrüfatların möhkəmləndirilməsi yeni üzümlüklərin

salınmasına imkan vermişdi. 1940-cı ildə üzümlüklərin sahəsi 33 min hektara çatdırılmışdı. Getdikcə üzümlüklərin vəziyyəti yaxşılaşırdı, məhsuldarlıq xeyli yüksəlirdi. 1940-1941-ci illərdə Azərbaycanda üzüm əkinlərinin xüsusi çəkisi keçmiş İttifaqdakı üzümlüklərin 11,5%-ni təşkil edirdi.

Müharibə dövründə (1941-1945) Azərbaycan üzümlüklərinə çox böyük zərbə vurulmuşdu. Üzüm sahələri baxımsızlıqdan azalmışdı. Belə ki, 1947-ci ildə Respublikada üzümlüklərin sahəsi 21,4 min hektaradək azalmışdı. O dövrdə üzümlüklərdə sort azlığı problemi bu sahənin hərtərəfli inkişafına mane olurdu. Buna əsaslanaraq 1945-ci ildən başlayaraq Respublikamızın ayrı-ayrı zonalarında yerli üzüm sortlarının aşkar edilərək təsərrüfatlara tətbiq olunması məqsədilə ekspedisiyalar təşkil edilmiş və nəticədə 205-dən artıq aborigen üzüm sortları aşkar olunaraq kolleksiya bağlarına daxil edilmişdir.

1954-cü il respublikada üzümçülüyün inkişafinda dönüş ili olmuşdu. O dövrdən başlayaraq üzüm bağlarının sahəsi və məhsul istehsalı ildən-ilə artmağa başlamışdı. Həmin ildə üzüm əkinlərinin sahəsi 28 min hektara çatdırılmışdı. Azərbaycan dövlətinin sonrakı qərarlarında (1958, 1962, 1967) respublikada üzümçülüyün və şərabçılığın daha da inkişaf etdirilməsi, xüsusən üzüm sahələrinin genişləndirilməsi, yeni sovxozların yaradılması, şərab zavodlarının, soyuducuların və s. tikilməsi üzrə böyük tədbirlər planı həyata keçirilmişdi.

Azərbaycanın qədim üzümçülük diyarı olan Naxşıvan Muxtar Respublikası tarixən mədəni üzümçülüyün əsas məskənlərindən biri olmuşdur. Regiondakı çoxlu sayda aborigen üzüm sortları ulu babalarımızın bizə miras qoyub getdikləri maddi sərvətlərimizdən biridir. Ərazidə tarixən xalq seleksiyası yolu ilə əldə olunan bu sortların hər birinin biomorfoloji xüsusiyyətləri də regionumuzun torpaq və iqlim şəraitinə uyğun seçilmişdi. Yaradılan ayrı-ayrı sortların hər biri giləsinin iriliyi, rəngi, salxımlarının görkəmi, forması, dad və keyfiyyətinə görə müvafiq adlarla adlandırılmışdı. Üzüm sortlarının əksəriyyəti yetişdirildiyi ərazinin, kəndlərin və şəxslərin adları ilə adlandırılmışdı. Naxçıvan qara üzümü, Ordubadi, Bənənyari, Zeynəddin üzümü, Şahtaxtı, Ağ aldərə, həmçinin Xəlili, Hüseyni, Cəlali, Xatını, Məşədi Əli, Xanımı, Nəbi, Əsgəri, Muxtarı və digər adlar buna sübutdur. Bəzi sortlar isə gilələrinin forması və oxşarlığına görə İnəkəmcəyi, Keçiəmcəyi, Pişik üzümü, Qoyungözü, Ayıboğan və s. kimi adlandırılmışdır [**17**]. Naxçıvan ərazisində bütün dövrlərdə üzümçülüyün inkişafına böyük önəm verilmiş, əkin dövrüyyəsində ona geniş torpaq sahələri ayrılmışdı. Cənubi Qafqaz Mərkəzi Statistika İdarəsinin məlumatına görə, 1909-1913-cü illərdə çar Rusiyasının Naxçıvan qəzasında üzüm bağlarının sahəsi 1163 hektardan artıq olmuş və hər il 2880 tondan çox məhsul toplanılmışdı. O dövrdə Naxçıvanda "Naxvin" dövlət şərab-spirt tresti fəaliyyət göstərmişdi. Statistik göstəricilərə əsasən bu ərazidə üzüm bağları 1937-ci ildə 1516 ha, 1940-cı ildə 1850 ha olmuşdur. Böyük Vətən Müharibəsi illərində işçi qüvvəsi

çatışmadığı üçün üzüm bağları azalmışdı. 1949-cu ildə muxtar respublika ərazisində becərilən sortların 76,9 %-ni texniki, 13,6 %-ni süfrə, 9,5 % -ni isə kişmişi sortları təşkil edirdi. Böyük Vətən Müharibəsindən sonrakı illərdə üzüm bağlarının yenidən genişləndirilməsinə başlanılmışdır. Belə ki, 1953-cü ildə bu göstərici 1400 ha, 1967 ci ildə isə 7026 ha təşkil etmiş, 1970-ci ildə 23,3 min ha olmuşdur. 1973-cü ildə üzüm tədarükünün həcmi 397 min ton və ya 1972-ci ildəkindən 114 min ton və ya 1971-ci ildəkindən 186 min ton çox olmuşdu.

Azərbaycanda bütün müvafiq təşkilatlara və kənd təsərrüfatı orqanlarına istehsalı yalnız intensivləşdirmə yolu ilə inkişaf etdirməyin mümkün olduğunu izah etmək və bunun üçün hər bir kolxoz və sovxozda konkret tədbirlər görülməsi tələb edilirdi. 1970-ci ildə üzümlüklərin sahəsi 121,6 min hektar olmuşdusa, 5 il ərzində 50 min hektardan çox yeni üzümlüklər salınmış, 1975-ci ildə 178,1 min hektara çatdırılmışdı. 1970-ci ilə nisbətən 1975-ci ildə məhsul istehsalı 2 dəfəyə qədər artırılaraq 351,7 min tondan 706,2 min tona qədər artmış, məhsuldarlıq isə 46,8 s/ha-dan 65,1 s/ha-a yüksəlmişdi. 1970-1980-ci illərdə Respublikada üzüm sahələri genişləndirilmiş, 180 min hektar sahədə yeni üzümlüklər salınmış, üzümlüklərin ümumi sahəsi 270 min hektara çatdırılmışdı. Üzümçülüyün inkişafı ilə yanaşı şərabçılığın inkişafı da təmin olunmuşdu.1970-ci ildə respublika ildə 22,7 milyon dekalitr şərab, 526 min dekalitr konyak istehsal edildiyi halda, 1980-cı ildə şərab istehsalı 70,7 milyon dekalitrə, konyak istehsalı isə 1,16 milyon dekalitrə çatdırılmışdır. Lakin 1985-ci ildən başlayaraq «Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri» ilə əlaqədar üzüm istehsalı sürətlə azalmağa başlamışdı. 1988-ci ildə 195,4 min hektardan 1254,3 min ton, 1990-cı ildə 181,4 min hektardan 1196,4 min ton, 1995-ci ildə isə 97,7 min hektardan 308,7 min ton üzüm məhsulu toplanılmışdı. Keçən əsrin 90-cı illərində üzümçülük üzrə ixtisaslaşmış kolxoz və sovxozların ləğv edilməsi nəticəsində üzüm bağları ancaq fərdi təsərrüfatlarda qalmışdı. Respublikada üzüm plantasiyalarının kütləvi məhv edilməsi bu sahəni tamamilə tənəzzülə uğratdı. Digər tərəfdən kollektiv mülkiyyətin ləğv olunması, özəl qurumların isə gec formalaşması, eləcə də blokada vəziyyəti ilə əlaqədar şərab məhsullarının satışa çıxarılması sahəsindəki çətinliklər üzüm plantasiyalarının kütləvi şəkildə məhv edilməsinə, şərabçılığın isə süqutuna gətirib çıxardı. Üzümlüklərin kütləvi məhv edilməsi isə üzüm genofonduna güclü ziyan vurmuşdu.

Azərbaycan Respublikasında üzümçülük və şərabçılıq sahəsinin inkişaf etdirilməsi məqsədi ilə 1970-ci ildə Respublika Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi yaradılmışdı. Həmçinin Azərbaycanda üzümçülük və şərabçılıq sahəsinin elmi əsaslarla inkişafını təmin etmək üçün Azərbaycan SSR Nazirlər Sovetinin 12 avqust 1976-cı il tarixli, 269 saylı sərəncamı ilə Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, Naxçıvanda, Gəncə şəhərində, Şamaxı və Cəlilabad rayonlarında isə üzümçülük üzrə təcrübə stansiyaları və dayaq məntəqələri yaradılmışdı. Həmçinin

şərabçılıq sənayesini mühəndis-texnoloq, mühəndis-mexanik kadrları ilə təmin etmək məqsədi ilə 1981-ci ildə Gəncə şəhərində Texnologiya İnstitutun yaradılmışdı. Görülən dövlət tədbirləri öz səmərəsini verirdi. Artıq 1984-cü ildə üzümlüklərin əkin sahəsi 284,1 min hektar, üzüm yığımı 2,126.1 min ton, hektardan məhsularlıq ən yüksək həddə çatdırılaraq 99,2 sentner təşkil etmişdi. Bu illə müqayisədə 1985-ci illə məhsul istehsalı 1789,6 min ton, məhsuldarlıq isə 81 s/ha qədər azaldığı aydın olmuşdur. 1985-ci ildə Azərbaycanda sənaye miqyaslı üzüm bağlarının 85,3 % texniki, 14,7 %-ni isə süfrə sortalrı təşkil edirdi.

**Üzümçülüyün müasir vəziyyəti.** Azərbaycanda üzüm tarixən becərilsədə ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyinin birinci dövründə (1969-1982) Azərbaycan Respublikasında kənd təsərrüfatı yenidən qurulmuş, bütün istehsal sahələri dinamik inkişaf yoluna qədəm qoymuşdur. Xüsusilə 22 fevral 1979-cu ildə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" tarixi qərardan sonra ölkədə əkinə yararlı sahələrdə yeni üzüm bağları salınmışdı. Vaxtilə üzümlüklərin 69,1%-i suvarılma, 30,9%-i isə dəmyə şəraitində əkilib-becərilirdi. Ümumi üzüm sahələrinin 85,3%-i texniki sortların, 14,7%-i isə süfrə sortlarının payına düşürdü. 80-ci illərdə Azərbaycan ərazisində mövcud olan üzümlüklərin 16,4%-i Mədrəsə, 11,2%-i Bayanşirə, 10,6%-i Həməşərə, 4,1%-i Xindoqnı, 2,4%-i Mələyi, 0,4%-i Ağ şirə və Misqalı, 3,4%-i Təbrizi, 1,5%-i Ağ şanı və Qara şanı yerli üzüm sortlarının (cəmi 50,1%) becərildiyi sahələr təşkil edirdi. 1980-1984-cü illərdə Respublikada üzüm istehsalı 1,7-2,1 mln tona, hektardan məhsuldarlıq müvafiq olaraq 70-100 sentnerə çatdırılmışdır. Respublikada 1992-1993-cü illərdə mülkiyyətə münasibət formasının dəyişilməsi ilə əlaqədar və bir sıra obyektiv və subyektiv səbəblərdən ölkə iqtisadiyyatında çox mühüm yer tutan üzümçülük və şərabçılıq kompleksi yenə də zəifləməyə başlamış, bar verən üzüm bağlarının ümumi sahəsi 286 min hektardan 10 min hektara qədər azalmışdır, 43 min hektar üzüm bağları isğal altında qalmışdır. Bu müddət ərzində üzümlüklərin məhsuldarlığı xeyli aşağı düşmüş, üzüm istehsalının həcmi isə 8-10 dəfədən çox aşağı düşmüşdür. 1993-cü ildə üzümlüklərin sahəsi 140,1 min hektara qədər azalmış, məhsul istehsalı 411,3 min ton, məhsuldarlıq isə kəskin azalaraq 30,9 s/ha təşkil etmişdir.

Müstəqillik illərində ölkə rəhbərliyi tərəfindən Azərbaycanda üzümçülüyün inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. 2006-cı ildə Respublikada üzümlüklərin sahəsi 10 min hektara, məhsul istehsalı 94,1 min tona, məhsuldarlıq isə 76,7 s/ha yüksəlmişdir. Üzüm sahələri əsasən fermer, ailə-kəndli və fərdi təsərrüfatlarda (92,2%) inkişaf etdirilir [38, 43, 50, 60, 113, 123, 182].

Azərbaycan Respublikasında 2010-cu ildə 15446 ha sahədən 129536 ton, 2011-ci ildə 15858 ha sahədən 137038 ton, 2012-ci ildə 16327 ha sahədən 150987 ton, 2013-cü ildə 16115 ha sahədən 148535 ton, 2014-cü ildə 15904 ha sahədən 147701

ton, 2015-ci ildə isə 16097 ha üzüm bağından 157076 ton nəhsul toplanılmışdır. Bir hektardan orta məhsuldarlıq isə 74.0-86.0 sentner olmuşdur.

Azərbaycan Respublikası ərazisindəı becərilən üzüm sortları əsasən Şərq süfrə (*Convar orientalis subconvar antasiatica* Negr.) və texniki (*Convar orientalis subconvar caspica* Negr.) üzüm sortları ekoloji-coğrafi yarımqrupuna daxildirlər. Hazırda Azərbaycanda aborigen üzüm sortlarının kompleks şəkildə tədqiq olunması, qədim üzümçülük ənənələrinin bərpa edilməsi, dünya təcrübəsindən faydalanaraq digər regionlardan yeni sortların introduksiyası və seleksiya yolu ilə yeni sortların yaradılması, üzümçülüklə məşğul olan adamların yüksək keyfiyyətli, müxtəlif vaxtlarda yetişən və iqtisadi səmərəliliyi yüksək olan yeni sort və formalarldan ibarət əkin materialları ilə təmin edilməsi öz bəhrəsini verməkdədir. Süfrə üzümü və ondan hazırlanan müxtəlif məhsulara tələbat ildən-ilə artmaqdadır. Müasir dövrdə Azərbaycan Respublikasında üzümçülüyün və ona uyğun istehsal sahələrinin yenidən inkişaf etdirilməsi, məhv olmaq təhlükəsi altında olan genofondun qorunması, perspektivli sortların fermer və özəl təsərrüfatlarda geniş istehsalına nail olunması elmi-praktiki əhəmiyyət kəsb edir. Respublikada becərilən üzüm sortlarının əksəriyyəti mənfi 18-20$^0$ C-dən aşağı şaxtalara dözmürlər. Həmçinin, hər il istehsal edilən məhsulun 35-70%-i müxtəlif xəstəlik və ziyanvericilərin təsiri səbəbindən məhv olur. Hər il üzümlüklərin xəstəlik və ziyanvericilərdən qorunmasına külli miqdarda vəsait sərf edilir. Son araşdırma və tədqiqatlardan məlum olmuşdur ki, Azərbaycan ərazisində 600-dən artıq aborigen və introduksiya olunmuş üzüm sortları becərilməkdədir ki, bunun da təxminən 400-nü yerli üzüm sortları təşkil edir. Lakin çox təssüf ki, bütün dünyada olduğu kimi, son araşdırma və tədqiqatlara görə, respublikada becərilən 100-dən çox sort artıq məhv olmuş, 120-ə yaxın sort isə itmək təhlükəsi qarşısındadır. Respublikada yayılmış yerli üzüm sortlarının, hibrid və yabanı üzüm formalarının, hətta introduksiya olunmuş üzüm sortlarının etibarlı qorunub saxlanılması və davamlı istifadəsi məqsədilə 2002-ci ildə ÜŞETİ tərəfindən yeni Ampeloqrafik kolleksiya bağı salınmışdır ki, burada 300-dən çox aborigen və introduksiya olunmuş üzüm sortları, hibrid və yabanı üzüm formaları toplanıb əkilmişdir. İlkin olaraq kolleksiya bağındakı sortların 200-ə qədəri Azərbaycanın, 5 sort Gürcüstanın, 5 sort Moldovanın, 2 sort Türkiyənin, 18 sort Rusiyanın, 19 sort Mərkəzi Asiyanın, 5 sort Misirin, 9 sort ABŞ-ın, 2 sort İranın, 3 sort Almaniyanın, 5 sort Fransanın, 1 sort Ərəbistanın, 3 sort İtaliyanın, 1 sort İngiltərənin payına düşür.

Azərbaycan Respublikasında becərilən üzüm bağlarında sort qarışığı üstünlük təşkil edirdi. Əsrlər boyunca təbii xalq seleksiyası yolu ilə Azərbaycanda külli miqdarda üzüm sortları və hibrid formaları yaradılmışdır ki, bunların da öyrənilməsi, təsərrüfat baxımdan qiymətləndirilməsi, botaniki cəhətdən təsvir edilməsi və qruplar üzrə təsnif edilməsi tələb olunurdu.

Müasir dövrdə Azərbaycanda regionlar üzrə kolleksiya üzüm bağlarının

salınmasına xüsusi diqqət yetirilir. Ölkədə üzümçülüyün məqsədyönlü inkişafının təmin edilməsində üzüm sortlarından ibarət genofond bağlarının salınması böyük əhəmiyyət kəsb edir. Vaxtilə ölkəmizin müxtəlif regionlarında ampeloqrafik kolleksiya bağları mövcud idi. Hazırda kolleksiyaların əksəriyyəti baxımsızlıq ucbatından yox olmaq həddindədir. Vəziyyəti nəzərə alaraq, ÜŞETİ-nun əməkdaşları tərəfindən Abşeron rayonu şəraitində Azərbaycanın müxtəlif bölgələrindən gətirilmiş üzüm sortlarından ibarət 15 hektar sahədə kolleksiya bağı salınmışdır. Hazırda kolleksiya bağında Respublikanın üzüm genofondunun əsasını təşkil edən 320 yerli və introduksiya olunmuş süfrə və texniki istiqamətli üzüm sortları, fillokseraya davamlı Amerika mənşəli calaqaltılar, həmçinin yabanı üzümün xəstəlik və zərərvericilərə qarşı davamlı formaları becərilir. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun təcrübə sahəsində 150-dən çox sort və formalardan ibarət "Üzüm genofondu" kolleksiya bağı salınmışdır. Bu kolleksiya bağı yalnız üzüm genofondunun qorunub saxlanması məqsədinə xidmət etmir, həmçinin İnstitutun təcrübə bazasıdır. İnstitutun əməkdaşları tərəfindən ampeloqrafik kolleksiya bağında becərilən üzüm sortları üzərində müxtəlif istiqamətlərdə tədqiqat işləri aparılır, sortların təsərrüfat yararlılığı və səmərəliliyi öyrənilir, perspektiv klon variasiyaları seçilir, yeni hibridlər əldə olunur [5, 15, 22].

Azərbaycanda müstəqillik dövründə üzümçülük və şərabçılığın elmi əsaslara sürətli inkişafına əhəmiyyətli dərəcədə diqqət və qayğı göstərilir. Bu dövrdə respublikada üzüm genofondunun toplanılması, sortların öyrənilməsi, seleksiyası və ampeloqrafiyası üzrə tədqiqatlar genişləndirilmişdir, bu sahədə yüksək ixtisaslı alim və mütəxəssislər formalaşmışdır. Bu dövrdə qısa müddət ərzində üzümün seleksiyası (hibridləşdirmə, klon seleksiyası, mutasiyalar və s.), sortların öyrənilməsi və introduksiyası, xəstəlik və ziyanvericilərə qarşı mübarizə istiqamətində mühüm elmi nəticələr əldə olunmuş, onlarla yeni yaradılan qiymətli sort və formalar, klon və introdusentlər Azərbaycanın üzüm genofonduna daxil edilmişdir [59, 67, 131, 134, 136, 169, 200, 213, 214, 216, 217, 219, 220].

Şəkil. 1.1 a) Yeni salınan üzüm sahələri b) Məhsuldar üzüm bağı

Müasir dövrdə respublikada üzüm genofondunun qorunması və tədqiqi, sort tərkibinin daha iqtisadi səmərəli süfrə və texniki sortlarla zənginləşdirilməsi, bioloji və təsərrüfat xüsusiyyətlərinin öyrənilməsi, xüsusilə müxtəlif vaxtlarda yetişən, yüksək rentabelli, şaxtaya, xəstəlik və ziyanvericilərə nisbətən dözümlü yeni sortların əkin dövriyyəsinə əlavə edilməsi və istifadəsi üçün səmərəli təkliflərin işlənib hazırlanması ən aktual problemlərdən biridir. Bu baxımdan üzümün müxtəlif genetik irsi əlamətlərə malik genotiplərinin ampeloqrafik kolleksiya bağlarında toplanılması, tədqiqatlar yolu ilə müsbət irsi əlamətli donorların müəyyənləşdirilməsi, kəmiyyət və keyfiyyət dəyişkənlikləri qanunauyğunluqlarının tədqiqi, seleksiya yolu ilə yeni sort və formaların yaradılması, onların istehsalata yönəldilməsi respublikamız üçün mühüm elmi-praktiki əhəmiyyət kəsb edir [223, 224, 226, 227, 228, 229, 230, 231, 237, 244, 249, 253, 258, 260].

Üzümçülüyün yenidən inkişaf etdirilməsi gələcəkdə Azərbaycan Respublikasının aqrar sektorunda inkişafı daha da gücləndirməklə yanaşı, üzümün becərilməsi ilə məşğul olan kənd əhalisinin maddi-rifah halının yüksəldilməsində mühüm rol oynayacaqdır.

## 4. Azərbaycan Respublikasının üzüm becərilən təbii-iqtisadi bölgələri

Azərbaycan Respublikasının ərazisi coğrafi baxımdan şimaldan cənuba 400 km, qərbdən şərqə 500 km uzanaraq, Cənubi Qafqazın şərqində 38°'25'-41°55' şimal enlikləri ilə 44°50'-50°51' uzunluqları arasında yerləşir. Azərbaycan Respublikası cənubdan İranla 765 km və Türkiyə ilə 15 km, şimaldan Rusiya ilə 390 km, şimal-qərbdən Gürcüstanla 480 km, qərbdən Ermənistanla 1007 km həmsərhəddir. Respublika ərazisinin Avropa ölkələrindən Asiya ölkələrinə gedən yol üzərində olması, Azərbaycanın həm keçmişdə (ipək yoluna əsasən), həm də müstəqillik əldə etdikdən sonra iqtisadi inkişafına böyük təkan verməkdədir.

2016-cı ilin məlumatına görə, 86,6 min $km^2$ ərazinin 12,0% meşələr, 4,5% su altında qalan torpaqlar, 55,1% kənd təsərrüfatına yararlı torpaqlar (ondan 29,2% otlaq və biçənək), 28,4% sair torpaqlardır.

Azərbaycanın relyefi də çox müxtəlifdir. Bunun 7,5%-ni hündürlüyü dəniz səviyyəsindən 2000 m-dən çox olan dağlar, 55%-ni 1000 m-dək və 27%-ni 1000 m-dən aşağı olan sahələr təşkil edir. Hündürlükdən asılı olaraq 30° maillikdə bütün kənd təsərrüfatı mexanizmi və 45° maillikdə bir qrup mexanizm tam işləyə bilir, bu, o deməkdir ki, sahələrin əksəriyyəti becərilir və onlardan məhsul əldə edilir. Qalan sahələrdə isə təbii sərvətlərdən və məhsuldar qüvvələrin yerləşdirilməsindən asılı olaraq, xalq təsərrüfatının başqa sahələrinin inkişaf etdirilməsi üçün şərait vardır. Azərbaycanın ərazisi relyefin geomorfoloji quruluşundan asılı olaraq 5 təbii əraziyə bölünür: 1) Böyük Qafqaz silsiləsi, 2) Kiçik Qafqaz silsiləsi, 3) Talış dağları, 4) Naxçıvanın dağlıq hissəsi və 5) Kür-Araz ovalığı. Bunların hər birinin özünə

məxsus iqlimi və xüsusiyyətləri vardır.

Böyük Qafqaz dağ silsiləsi yüksəkliyi 4466 m olan, Bazardüzü zirvəsindən başlanğıcını alıb, cənub-şərq tərəfdə alçaq dağları keçib, Abşeron yarımadasına düzənliyədək uzanır. Cənub istiqamətində çox yüksək olmayan (450-650 m) dağ silsilələri Alazan çayınadək uzanır. Sərt kəsimli qayalardan yuyulub, bu çaylara tökülən lilli, daşlı sular təsərrüfatlara xeyli zərər vurur. Bu dağ yüksəkliyi Şahdağdan başlayıb Xəzər dənizinədək gələrək Beşbarmaq dağını əhatə edir. Babadağdan şərqə doğru silsilələr tədricən azalır və yamaclıqlar, dağlar başlanır. Böyük Qafqaz və onun yamaclarında Quba-Xaçmaz iqtisadi rayonlarına daxil olan ərazilər yerləşir ki, burada əhali əsasən meyvəçilik-tərəvəzçiliklə məşğul olur. Böyük Qafqaz dağlarından şimala getdikcə Qusar dağları yerləşir. Qusar düzənliyi dənizə tərəf Samur-Dəvəçi düzənliyi ilə birləşir. Bütün bu sahələrin dağlıq əraziləri meşəliklərlə örtülmüşdür. Yeraltı içməli sularla zəngin olan massivdə, Xəzər sahillərinə yaxınlaşdıqca qrunt suları çoxalır.

Kiçik Qafqazın cənub tərəfində Naxçıvan Muxtar Respublikası yerləşir. Naxçıvanın dağlıq hissələrinin özünəməxsus relyefi var. Dağların hündürlüyü, zonada 2400-3000 m təşkil edir. Burada Zəngəzur və Dərələyəz silsilələrini Zəngəzur çayı ayırır. Meşələrlə, bulaqları ilə məşhur olan bu ərazi zəngin meyvə, tərəvəz və üzüm genofonduna malikdir.

Azərbaycanın cənub tərəfində Talış dağları Lənkəran düzənliyindən başlayaraq Talış, Peştəsər, Burovar silsilələri cənub-şərq istiqamətində uzanır. Talış dağları ilə Xəzər dənizi arasında yerləşən Lənkəran ovalığı, şimal-şərqdə Xəzər sahili boyu uzanan Samur-Dəvəçi ovalığı ilə birləşir.

Azərbaycanda torpaq və iqlim olduqca müxtəlifdir. Şaquli zonallıq (şaquli zonalar üzrə torpaq əmələgəlməsi) xassəsinə görə Azərbaycan ərazisində demək olar ki, səhra boz torpaqlarından tutmuş şabalıdı və tünd-şabalıdı torpaqlara qədər dəyişilən bütün torpaq növlərinə təsadüf edilir. Respublikada quru subtropik kontinental iqlimdən tutmuş mötədil isti və soyuq iqlimə qədər müxtəlif iqlim növləri vardır. Respublikada sənaye üzümlükləri dəniz səthinə nisbətən 25 m aşağıda və 800 metrə qədər hündürlüklərdə yerləşir. Bu yerlərin iqlim şəraiti mövcud olan bütün üzüm sortlarının normal böyüməsi və inkişafını təmin edir. Lakin sahələrin dəniz səviyyəsinə nisbətən hündürlüyündən və vegetasiya dövründəki aktiv temperaturun cəmindən asılı olaraq, müxtəlif üzüm sortlarında gilələrin şəkərlilik və turşuluq faizi dəyişilir. Eyni bir sort respublikanın aran rayonlarında yay dövrü aktiv temperaturun yüksəkliyinə və isti payız havalarının uzun müddət davam etməsinə görə orta turşuluq xassəsinə malik olmaqla, çoxlu şəkər toplayır. Dağətəyi və orta dağlıq rayonlarda isə yenə həmin sort aktiv temperaturun cəminə nisbətən az və yağıntının çox olması şəraitində aşağı şəkərliliyi və yüksək turşuluğu ilə səciyyələnir. Bundan əlavə, təcrübə göstərmişdir ki, şərabların keyfiyyəti torpaq tipindən də çox asılıdır. Buna görə də yüksək dərəcədə inkişaf etmiş təsərrüfat yaradılması üçün

üzümçülüyün elmi əsaslarla ixtisaslaşdırılması və sort seçiminin düzgün aparılması mühüm praktiki əhəmiyyət kəsb edir.

V.V.Keppenin klassifikasiyasına görə Azərbaycanda dünyanın 11 iqlim tipindən 9-u mövcuddur, ərazinin 65 %-ni subtropik, 33 %-ni mülayim iqlim təşkil edir. Azərbaycan yerləşdiyi meridian xətləri arasında vəziyyətinə görə Günəşdən bol işıq və istilik alır. Bəlkə elə buna görədir ki, ölkəmiz "Günəşli Azərbaycan" adlandırılır. Lakin ərazinin relyef müxtəlifliyi kimi iqlim şəraitinin də müxtəlif olmasına əsas səbəb ərazinin mülayim və subtropik iqlim qurşağının qovuşduğu yerdə yerləşməsidir. Respublikanın ərazisində yağıntıların miqdarı da eyni deyil, müxtəlif yerlərdə fərqli olmaqla orta hesabla 200-1600 mm təşkil edir. Bu göstərici Abşeron yarımadasında 150-200 mm, ən çox isə Talış dağlarının cənub-şərq qurtaracağında və Lənkəran ovalığında – 1200-1600 mm olur. Respublikanın ərazisinin müxtəlif yerlərində aktiv temperatur miqdarı da (10°C-dən yuxarı) fərqli olmaqla dağlıq-dağətəyi ərazilərdə 2000-2500°C, Kür-Araz ovalağında 4000-4500°C təşkil edir.

2009-2016-cı illərdə Azərbaycan Respublikasında üzüm bağlarının əkin sahələri və istehsal edilən məhsulun miqdarı aşağıda qeyd edilmişdir (şəkil 1.2).

Azərbaycan Respublikası ərazisində aşağıdakı üzüm becərilən bölgələr vardır:

**1. Gəncə-Qazax bölgəsi.** Bu zonanın açıq-şabalıdı, şabalıdı və çəmən torpaqlarında, bütün meyvə-giləmeyvə və birillik bitkilər becərilir. Xüsusilə üzümçülükdən yüksək gəlir götürülür. Qışı mülayim keçən bu bölgədə yüngül və ağır sənayenin bütün sahələrinin inkişaf etdirilməsi üçün lazımi şərait vardır. Bölgəyə Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Samux, Göy-göl, Şəmkir, Daşkəsən, Goranboy rayonları və Gəncə şəhəri daxildir. Bölgənin ərazisi (aran, dağətəyi və orta dağ yarımzonaları) dəniz səviyyəsindən 69-1200 m yüksəkdə yerləşir. Bu bölgənin iqlimi mülayim isti-quru və mülayim isti-yarımquru olmaqla, yayı isti, qışı mülayim keçir. Orta illik temperatur 12,1-13,2°C-dir. Aran yarımzonasında (dəniz səviyyəsindən 69-450 m hündürlükdə) aktiv temperaturun miqdarı 3860-4167°C-dir. Yağmurların miqdarı 282-451mm-ə qədərdir. Dağətəyi və orta dağ yarımzonasında (dəniz səviyyəsindən 600-1200 m hündürlükdə) orta illik temperatur 10,3-11,8°C, aktiv temperaturun miqdarı 3200-3700°C-dir. Yağmurların miqdarı 346-525 mm-dir. Bölgədə əsasən açıq-şabalıdı, şabalıdı və ağır şabalıdı və çəmən, skeletli boz-qonur torpaqlar, çay vadilərində allüvial çəmən torpaqları yayılmışdır. Gəncə-Qazax üzümçülük və şərabçılığın bütün dövrlərdə inkişaf etdirildiyi bölgələrdən biridir. Azərbaycanın ən məhsuldar texniki üzüm sortu olan Bayanşirə və qiymətli süfrə istiqamətli üzüm sortu olan Təbrizi bölgənin ən qədim aborigen üzüm sortlarındandır. Həmçinin bu bölgədə aborigen üzüm sortlarından Gəncə qızıl üzümü, Gəncə qara keçiməməsi, Tatlı və Şal üzümü də geniş becərilir. Bu bölgə həm süfrə, həm də texniki istiqamətli üzümçülüyün inkişaf etdirilməsi üçün perspektivlidir. Bölgədə aşağıdakı üzüm sortları becərilir:




Şəkil 1.2. Respublikada üzüm plantasiyalarının sahəsinin və məhsul istehsalının dinamikası (mənbə: https://www.stat.gov.az/ 2017)

*Süfrə sortları:* Ağ Xəlili, Azəri, Ağ şanı, Ağ Hüseyni, Ağ oval kişmişi, Çəhrayı tayfı, Təbrizi, Kardinal, Hüseyni, Hamburq muskatı, İsgəndəriyyə muskatı, Muskat Ottenel, Şasla, Qaraburnu, İtaliya muskatı, Prima, Parkent, Rişbaba, Üzümüklərin kraliçası, Şabaş və s.

*Texniki sortlar:* Ağ pino, Ağ muskat, Aliqote, Göy-göl, Rkasiteli, Bayanşirə, Çəhrayı muskat, Boz pino, Saperavi, Reyn rislinqi, Qaragöz, Qara pino, Qara lkeni, Mədrəsə, Xindoqnı, Saperavi, Sovinyon, Kaberne Sovinyon, Şardone, Fetyaska, Malbek, Tavkveri və s.

**2. Şirvan bölgəsi**. Bu bölgə aran və dağlıq yarımzonaya bölünür:

*Aran yarımzona*: Kür-Araz düzənliyinin şimal-qərb hissəsində hündürlüyü dəniz səviyyəsindən 516 m olan Mingəçevir, Göyçay, Ağsu, Kürdəmir, Ucar, Zərdab, Ağdaş ərazilərini əhatə edir. Bu yarımzona mərkəzi səhra iqliminə malik olmaqla quru subtropik iqlimi, uzun müddət davam edən isti yayı və mülayim qışı ilə digər bölgələrdən fərqlənir. Havanın illik orta temperaturu 14,1-14,8°C-dir. Aktiv temperaturun illik miqdarı 4472-4688°C-dir. İllik yağmurların miqdarı 323-510 mm arasında dəyişir. Bu ərazinin dağlıq yarımzonasında yerləşən Ağsunun orta dağlıq hissəsi, Şamaxı və əsasən də İsmayıllı rayonları dəniz səviyyəsindən 500-900 m hündürlükdə yerləşir. İqlimi mülayim, isti və qurudur. Orta illik temperatur -10,5-11,1°C, yağıntının miqdarı 379-591 mm arasında dəyişir. Ərazinin düzənlik hissəsində əsasən ağır mexaniki tərkibli açıq-boz torpaqlar yayılmışdır.

*Dağlıq yarımzonası.* Bu yarımzonada isə şabalıdı karbonatlı və qonur-meşə torpaqlar geniş yayılmışdır. Düzən hissənin torpaqları şorlaşmaya, dağlıq hissənin torpaqları isə eroziyaya meyllidir. Dağlıq yarımzonasında yerləşən Ağsunun orta dağlıq hissəsi, Şamaxı və əsasən də İsmayıllı rayonları dəniz səviyyəsindən 500-900 m hündürlükdə yerləşir. İqlimi mülayim, isti və qurudur. Orta illik temperatur 10,5-11,1°C, yağıntının miqdarı 379-591 mm arasında dəyişir. Ən çox meyvəçilik, xüsusilə qərzəklilər, üzümçülük və taxılçılıq geniş inkişaf etdirilməklə, yüksək məhsul verir. Bu bölgə Azərbaycanın ən qədim üzümçülük diyarlarından biridir. Burada Şirvanşahı, Şamaxı mərəndisi, Qırmızı mərəndi, Mədrəsə, Çil üzüm, Şəkəri, Dəvəgözü, Ağrı, Mahmudavi, Xunqi, Əlvan, Sısaq, Quş ürəyi, Ağcaqara, Saqi, At üzümü, Xan üzümü, Xəzri, Şiray, Ağ şiray və s. kimi qiymətli yerli üzüm sortları qədimdən əkilib-becərilir. Bu bölgə həm süfrə, həm də texniki üzümçülüyün inkişaf etdirilməsi üçün perspektivlidir. Bu yarımzonanın ağır mexaniki tərkibli açıq-boz və bəzi yerlərdə şoranlaşmış torpaqları, şoranlıqdan təmizlənərək ən çox pambıqçılıq, taxılçılıq və qismən üzümçülük istiqamətində istifadə edilir və yüksək məhsul alınır. Bölgədə aşağıdakı üzüm sortları becərilir:

*Süfrə sortları:* Ağ oval kişmişi, Qara kişmişi, Təbrizi, Ağ Xəlili, Şamaxı mərəndisi, Ağ şasla, Qara şanı, Çəhrayı tayfı, Ağadayı, Mahmudu, Moldova, Ağ Salyan üzümü, Hüseyni, Nimrəng, Muskat Ottenel və s.

*Texniki sortlar:* Rkasiteli, Bayanşirə, Ağ şirə, Xindoqnı, Çəhrayı muskat, Ağ muskat, Aliqote, Aleatiko, Alikant buşe, Kaberne Sovinyon, Mədrəsə, Rislinq, Silvaner, Şirvanşahı, Şardone, Merlo və s.

**3. Qarabağ-Mil bölgəsi.** Bu zona 3 yarımzonaya bölünür:

1) *Cənub dağətəyi yarımzonasına* Ağdam, Tərtər, Füzuli, Cəbrayıl, Zəngilan rayonları daxildir. Dəniz səviyyəsindən 165-430 m hündürlükdə yerləşir. Aktiv temperaturun miqdarı 4000-4300°C, yağmurun orta illik miqdarı 345-488 mm-dir.

2) *Qərb-Aran yarımzonasına* Bərdə, Yevlax, Ağcabədi rayonları daxildir. Dəniz səviyyəsindən 14-79 m hündürlükdə yerləşir. Orta illik temperatur 14-14,6°C, aktiv hərarət 4424-4688°C, yağıntının miqdarı 329-359 mm-dir.

3) *Şərq yarımzonasına* Beyləqan, İmişli rayonları ərazisi və Cəbrayıl, Füzuli rayonlarının aran hissələri daxildir. Dəniz səviyyəsindən 762 m hündürlükdə yerləşir, aktiv temperaturun cəmi 4438-4454°C, yağıntının miqdarı 302-312 mm-dir. Qarabağ-Mil bölgəsində üzümçülük və şərabçılığın tarixi qədim minilliklərə söykənir. Bu bölgə çoxlu sayda süfrə və texniki istiqamətli aborigen üzüm sortlarının məskənidir. Bölgədə süfrə və texniki istiqamətli üzümçülüyün inkişafı üçün əlverişli şərait vardır. Bu sortlar desert şərabların, üzüm şirəsinin və yerli istifadə məqsədilə təzə üzüm istehsalı üçün perspektivlidir. Bölgədə aşağıdakı üzüm sortları becərilir:

4) *Süfrə sortları:* Ağ oval kişmişi, Qara kişmişi, Təbrizi, Ağ Xəlili, Şamaxı mərəndisi, Ağ şasla, Qara şanı, Çəhrayı tayfı, Ağadayı, Mahmudu, Moldova, Ağ Salyan üzümü, Hüseyni, Nimrəng, Muskat Ottenel və s.

*Texniki sortlar:* Rkasiteli, Bayanşirə, Ağ şirə, Xindoqnı, Çəhrayı muskat, Ağ muskat, Aliqote, Aleatiko, Alikant buşe, Kaberne Sovinyon, Mədrəsə, Rislinq, Silvaner, Şirvanşahı, Şardone, Merlo və s.

**4. Qarabağın dağlıq bölgəsi.** Bölgə Kiçik Qafqazın dağlıq və dağətəyi ərazisini əhatə edir. Kəlbəcər, Xankəndi, Ağdərə, Laçın, Xocavənd, Xocalı, Şuşa rayonlarını əhatə edir. İqlimi mülayim istidir. Orta illik temperatur 10,9-13,1°C-dir, aktiv temperaturun miqdarı 3637-3974°C-dir, illik yağmurun miqdarı isə 430-560 mm-dir. Kəlbəcərdə 700-900 mm-ə çatır. Bölgənin ərazisi dəniz səviyyəsindən 320-900 m hündürlükdə yerləşir. Torpaq örtüyü əsasən dağ-çəmən, qəhvəyi dağ-meşə, dağ-boz-qəhvəyi, şabalıdı və çəmən-şabalıdı torpaqlardan ibarətdir. Ərazidə əsasən aşağıdakı üzüm sortları becərilir:

*Süfrə sortları:* Ağ oval kişmişi, Kardinal, Təbrizi, Ağ Xəlili, Ağ şasla, Çəhrayı tayfı, Ağadayı və s.

*Texniki sortlar:* Rkasiteli, Bayanşirə, Xindoqnı, Çəhrayı muskat, Ağ muskat, Aliqote, Kaberne Sovinyon, Mədrəsə, Rislinq, Pino qrupu, Qara lkeni və s.

**5. Muğan-Salyan bölgəsi.** Bu əraziyə Sabirabad, Saatlı, Şirvan, Biləsuvar, Salyan, Neftçala, Hacıqabul rayonları daxildir. Dəniz səviyyəsindən 12-75 m hündürlükdə yerləşir. İqlimi quru-istidir. Orta illik temperatur 14-14,5°C, aktiv hərarətin miqdarı 4450-4500°C, illik yağmurların miqdarı 283-321 mm arasında dəyişir. Ərazidə boz, boz-çəmən və şabalıdı torpaqlar yayılmışdır. Torpaqların əksər hissəsi duzlu və şoranlaşmışdır. Bundan başqa bataqlıq və su altında xeyli torpaq sahəsi vardır. Ən çox boz və şoranlaşmış boz torpaqlarda pambıqçılıq, taxılçılıq,

tərəvəzçilik inkişaf etdirilir. Şoranlaşmış torpaqlar təmizləndikdən sonra istifadə edilə bilər. Bu bölgə süfrə üzümçülüyünün inkişafı üçün əlverişli şəraitə malikdir. Bununla yanaşı şərabçılıqda desert şərablarının istehsal edilməsi məqsədəuyğundur. Salyan rayonunda süfrə üzümçülüyü ilə lap qədim zamanlardan məşğul olunur. Bölgədə becərilən yerli Gəlşən, Ağ pişraz, Salyan sahibisi, Salyan qızıl üzümü, Xalac, Mahmudu, Qara salyan üzümü sortlarından indi də keyfiyyətli təzə üzüm istehsal edilir.vƏrazidə yayılan üzüm sortları aşağıdakılardır:

*Süfrə sortları:* Ağ şanı, Qara şanı, Təbrizi, Ağ Xəlili, Ağ kişmişi, Çəhrayı tayfı, Hüseyni, Ağ oval kişmişi, Qara kişmişi, Nimrəng, Gəlşən, Ağ pişraz, Salyan sahibisi, Salyan qızıl üzümü, Xalac, Mahmudu, Qara salyan üzümü, Ağ şasla, Kardinal və s.
*Texniki sortlar:* Rkasiteli, Bayanşirə, Şirvanşahı, Mədrəsə, Kaberne sovinyon və s.

**6. Abşeron bölgəsi.** Bakı, Sumqayıt şəhərləri və Abşeron, Xızı rayonları ərazisi bu bölgəyə daxildir. Ərazi dəniz səviyyəsindən 20-28 m hündürlükdə yerləşir. İqlimi quru-subtropikdir. Havanın orta illik temperaturu 13,5-14,4°C, aktiv temperaturun miqdarı 4192-4461°C, orta illik yağmurların miqdarı 202-311 mm-dir. Bölgə xəzərətrafı ərazidə yerləşdiyinə görə havanın orta illik nisbi nəmliyi 70-80% təşkil edir. Ərazidə əsasən boz-qonur torpaqlar yayılmışdır. Burada həmçinin dağ-çəmən, çürüntülü-karbonatlı dağ-meşə, qəhvəyi dağ-meşə, dağ-boz-qəhvəyi, dağ-şabalıdı, qonur və boz torpaqlar vardır. Abşeron bölgəsinin əhalisi qədim zəngin üzümçülük mədəniyyətinə malikdir. Bu bölgənin əhalisi Respublika üzüm genofonduna xalq seleksiyasının məhsulu olan onlarla qiymətli üzüm sortları bəxş etmişdir. Ərazidə ən çox becərilən aşağıdakı süfrə sortlarıdır:

*Süfrə sortları:* Azəri, Ağ Hüseyni, Təbrizi, Çəhrayı tayfı, Ağ xəlili, Ağ şanı, Qara şanı, Ala şanı, Şabranı, Qara kişmişi, Ağ oval kişmişi, Madlen Anjevin, Ağ şasla, Ağadayı, Sarıgilə, Azəri, Nimrəng, Sultanı, Çəhrayı kişmişi, Ağ kişmişi, Qırmızı kişmişi, Novrast, Göybəndam, Duxşayi, Abşeron xatınısı, Abşeron gəlinbarmağı, Abşeron keçiəmcəyi, Abşeron qızıl üzümü, Turabi, Ağ pişraz, Qızılı gecyetişən, Gavangir, Hacı Abbas, Xalbasar və s.

**7. Quba-Xaçmaz bölgəsi.** Bölgəyə Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən rayonları daxildir. Ərazi dəniz səviyyəsindən 30-300 m hündürlükdə yerləşir. Qubanın dağlıq hissəsində dəniz səviyyəsindən 615 m hündürlükdə orta temperatur 10°C, aran yerlərdə 12°C-dir. Şimal küləkləri daha çox daxil olduğundan nisbətən soyuq olur. Aktiv temperaturun miqdarı 3800-4000°C-dir. Yağmurların miqdarı 340-350 mm-dir. Qusar-Quba və Dəvəçinin dağətəyi hissəsi dəniz səviyyəsindən 400-900 m hündürlükdə yerləşir, aktiv hərarət 2700-3700°C, yağmurun miqdarı 500-700 mm-dir. Bölgədə əsasən qəhvəyi dağ-meşə, boz-qəhvəyi, çəmən-boz, şabalıdı, allüvial çəmən və çəmən-meşə torpaqları yayılmışdır. Bölgənin aran hissəsində süfrə üzümçülüyünün, dağətəyi hissəsində isə texniki üzümçülüyün inkişaf etdirilməsi məqsədəuyğundur. Şərabçılığın süfrə şərabları, şampan və konyak materiallarının

istehsalı istiqamətində ixtisaslaşdırılması perspektivlidir. Bölgədə aşağıdakı üzüm sortları becərilir:

*Süfrə sortları:* Ağ Xəlili, Ağadayı, Ağ oval kişmişi, Qara kişmişi, Qara şanı, Çəhrayı tayfı, Hüseyni, Dəvəçi həlimleyisi, Dəvəçi qara üzümü, Qara şabranı, Çiləyi və s.

*Texniki sortlar:* Rkasiteli, Bayanşirə, Mədrəsə, Çəhrayı muskat, Ağ muskat, Aliqote, Rislinq, İzabella, Silvaner və s.

**8. Şəki-Zaqatala bölgəsi.** Bu bölgəyə Qax, Balakən, Zaqatala, Şəki, Oğuz, Qəbələ rayonları daxildir. Bölgə böyük Qafqazın cənub-qərb hissəsini əhatə edən hündür dağlarla çəpərlənmişdir. Dəniz səviyyəsindən 200-1000 m hündürlükdədir. Alazan dağətəyi düzənliyində iqlim mülayim subtropik tiplidir. Hündürlük artdıqca, iqlim soyuqlaşır. Orta illik temperatur 12,0-12,5°C, aktiv temperaturun miqdarı 3075-4188°C, yağmurların miqdarı 700-1200 mm-ə çatır. Ərazinin qəhvəyi-boz torpaqlarında meyvəçilik, qismən üzümçülük, əsasən heyvandarlıq geniş yer tutur. Üzümçülüyün əsas istiqaməti süfrə şərabları, şampan və konyak materialları, həmçinin tünd şərablar istehsal etmək və yerli istifadə üçün süfrə üzümü yetişdirməkdir. Ərazi üzüm sortları ilə çox da zəngin deyil. Becərilən sortlar arasında texniki sortlar üstünlük təşkil edir:

*Süfrə sortları:* Ağ Xəlili, Təbrizi, Ağ oval kişmişi, Qara şanı, Ağ şasla və s.

*Texniki sortlar:* Saperavi, Rkasiteli, Mədrəsə, Bayanşirə, Xindoqnı, Aliqote, Rislinq, Pino qrupu, İzabella və s.

**9. Lənkəran bölgəsi.** Bu bölgəyə Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad rayonları daxildir. Lənkəran, Yardımlı, Cəlilabad yarımzonalarına bölünür. Ərazinin iqlimi qışı mülayim-rütubətli, yayı isti-quraq keçən subtropik tipə aiddir. Bölgədə havanın orta aylıq temperaturu 13,5-14$^0$C, fəal temperaturun cəmi 3800-4500$^0$C, atmosfer çöküntülərinin orta illik miqdarı 1100-1200 mm, şaxtasız keçən günlərin sayı 260-320-dir, dəniz səviyyəsindən 21 m aşağı və 1200 m hündürlükdə yerləşir. Burada sarı, qəhvəyi, çəmən, qonur, şabalıdı, qara torpaqlar və onların yarımtipləri, növləri və növmüxtəlifikləri geniş yayılmışdır. Ərazidə üzümçülüyün əsas istiqaməti desert, tünd süfrə şərabları, konyak şərab materialı, üzüm şirəsi istehsal etmək və yerli istifadə üçün süfrə üzümü becərməkdir. Bu bölgə qiymətli texniki üzüm sortu olan Həməşərənin vətənidir. Bununla yanaşı bu bölgədə İzabella, Rkasiteli, Bayanşirə, Xindoqnı və Mədrəsə üzüm sortları da rayonlaşdırılaraq becərilir. Bölgədə aşağıdakı üzüm sortları becərilir:

*Süfrə sortları:* Ağ şanı, Qara şanı, Ağ Xəlili, Ağ oval kişmişi, Qara kişmişi, Sultanina, Sentnnial sidlis, Prima, Moldova və s.

*Texniki sortlar:* İzabella, Rkasiteli, Bayanşirə, Həməşərə, Rislinq, Aliqote, Mədrəsə, Pino qrupu, Terbaş, Ağ və Qara qrenajlar, Kaberne Sovinyon və s.

**10. Naxçıvan bölgəsi.** Naxçıvan Muxtar Respublikası ərazisində olan Ordubad,

Culfa, Babək, Şərur, Şahbuz, Kəngərli, Sədərək inzibati rayonlar daxildir. Aran, dağətəyi və dağlıq yarımzonalara ayrılır. Dəniz səviyyəsindən 700-1200 m hündürlükdə olub, orta illik temperatur 11,2-13,9°C, aktiv temperaturun miqdarı 3920-4821°C, yağmurların miqdarı 211-444 mm təşkil edir. Ərazinin dağlıq hissəsində çimli dağ-çəmən, qəhvəyi dağ-meşə və şabalıdı torpaqlar, Arazətrafı düzən hissədə isə boz və şorakətvari boz-qonur torpaqlar yayılmışdır.

Naxçıvan yerli üzüm genofondunun biomüxtəlifliyinə görə Azərbaycanın ən zəngin bölgələrindən biridir. Naxçıvan MR-in üzüm genotipinin tərkibi aşağıda verilmişdir. Bölgədə aşağıdakı üzüm sortları becərilir:

*Süfrə sortları:* Ağ kişmişi, Qara kişmişi, Qırmızı kişmişi, Qəhvəyi kişmişi, Yumrugilə sarı kişmişi, Mərməri, Sarı kişmişi, Xırdagilə sarı kişmişi, Əsgəri, Ayıboğan, Ağ xəlili, Ağ üzüm, Ağ kürdəşi, Bəndi, Qırmızı inəkəmcəyi, Qara kürdəşi, Qara xəlili, Qara şəfeyi, Qızılı səbzə, Qırmızı tayfı, Qırmızı şəfeyi, Qırmızı hüseyni, İnəkəmcəyi, Keçiəmcəyi, Kəhrəba, Misqalı, Naxçıvan qırmızı şanısı, Naxçıvan ağ tayfısı, Naxçıvan qara şanısı, Naxçıvan qızıl üzümü, Naxçıvan hüseynisi, Nəbi, Nəxşəbi, Sarı şəfeyi, Xatınbarmağı, Xatını, Haçabaş, Gülabı;

*Universal sortlar:* Abbasi, Ağ aldərə, Badamlı üzümü, Batıx, Bənəniyar, Talıbi, Qoyun gözü, Duzalı, Zeynəddin üzümü, Məşədi Əli, Narıncıgilə Pişik üzümü, Sarı aldərə, Sahibi, Təbərzə, Xanımı, Qara xəzani, Şangirey, Hafizəli;

*Texniki sortlar:* Arazvari, Ağ kələnpur, Ağ almərdan, Biləv üzümü, Qara sərmə, Qara hənəqırna, Qoç üzümü, Qırmızı qəməri, Qırmızı hənəqırna, Daşqara, Dağ üzümü, Dəbbi gülabı, Cəlali, Zalxa, Zərəni qorası, İnnabı, Muxtarı, Mələyi, Naxçıvan qara üzümü, Rizağa, Sarı şireyi, Sarı üzüm, Qara aldərə, Tulagözü, Xallı üzüm, Xan üzümü, Xanları, Xərci, Xətmi, Çöl üzümü, Şahtaxtı, Şəkərbura, Hacı Əhmədi, Hənəqırna, Göy üzüm;

*İntroduksiya edilmiş sortlar:* Aliqote, Ağ bolqar, Ağ şanı, Ağ göybəndam, Ağadayı, Bayanşirə, Qara bolqar, Qara cəncəl, Qara şanı, İzabella, Mərəndi, Nimranq, Parkent, Rkasiteli, Tavkveri, Terbaş, Təbrizi, Çəhrayı tayfı, Şirvanşahı, Saperavi, Gözəl qara, Özbəkistan qara kişmişi, Özbəkistan muskatı.

Naxçıvan Muxtar Respublikası ərazisində becərilən üzüm sortları Şərq ekoloji-coğrafi qrupuna mənsub olmaqla 31,3 % süfrə (*Subconvar antasiatica*), 56,1 % texniki (*Subconvar caspica*), 12,6 % isə universal sortlar qrupuna aiddir.

## 5. Azərbaycanda *V. vinifera* L. növünün yayılması və yabanı üzümün genetik ehtiyatları

Üzümkimilər (*Vitaceae* Juss.) fəsiləsinin nümayəndələri yabanı və mədəni halda Yer kürəsinin mülayim və subtropik qurşaqlarında geniş yayılmışdır. Üzümkimilər fəsiləsində 14 cinsə aid, 968 növdən təsərrufat-iqtisadi və seleksiya əhəmiyyəti ilə

seçilən 70-ə yaxın növü özündə cəmləşdirən *Vitis* L. cinsi qədimliyi və polimorf xüsusiyyətləri ilə seçilir. Bu cinsin zəngin biomüxtəlifliyə və ekoloji plastikliyə malik olan növlərindən biri *V. vinifera* L.–dir. Bu növə mənsub olan sort və yabanı formalar Avropa-Asiya mənşəlidir. Hazırda *Vitis* L. cinsinə təxminən 5000 üzüm sortu aid edilir ki, onların da 4000-ə qədəri Avropa-Asiya növünə (*V.vinifera* L.) mənsubdur.

*Vitis vinifera* L. növü zəngin biomüxtəlifliyə malik və polimorf olduğundan iki yarımnövə - *V. vinifera ssp. sylvestris* Gmell. (yabanı üzüm) və *V.vinifera ssp. sativa* D.C. (mədəni üzüm) – ayrılmışdır. Hər iki yarımnövün nümayəndələri respublikamızda geniş yayılmışlar.

Azərbaycan Respublikasında aparılan saysız-hesabsız arxeoloji tapıntılar, paleobotanika, ampeloqrafiya məlumatları, yazılı mənbələr, toponimika və digər tədqiqatlar regionun mədəni üzümçülüyün vətəni olduğunu müəyyənləşdirmişdir. Hazırda Azərbaycanda meşə üzümü Alazan çayının aşağı hissəsindəki vadidə, Zaqatala və Şəki rayonlarında, habelə Böyük Qafqaz dağları ətəyinin cənub tərəfində, Kür çayı və onun qolları boyunca, Ağcabədi, Ağdam və digər rayonlarda geniş yayılmışdır. Yabanı üzümə Talış dağlarının ətəklərində, Dağlıq Qarabağda, Zəngilan rayonu və Naxçıvan MR ərazilərində tez-tez rast gəlinir. Qobustan qayaları arasında təsadüf olunan, vaxtilə mədəni şəkildə becərilmiş üzüm tənəklərinin qalıqları təsdiq edir ki, bu ərazidə qədim vaxtdan üzümçülüklə məşğul olunmuşdur. Beləliklə, xalq seleksiyası nəticəsində mədəni üzüm sortları yaradılmışdır. Bozdağın qərb hissəsində (Xanlar rayonu) geoloji tədqiqatlar apararkən 1-2 milyon il bundan əvvəl əmələ gəlmiş Abşeron adlanan çöküntülərdə çoxlu bitki qalıqlarına təsadüf edilmişdir. Bu qalıqların çoxu meşə üzümü yarpaqlarının daş üzərindəki izlərindən ibarətdir. Yabanı üzümün respublikamızda hələ yuxarı pliosendə meydana gəlməsini Naxçıvan MR-da tapılan daşlaşmış yabanı üzüm yarpağı da sübut edir [45].

Ağstafa rayonu yaxınlığında 1962-ci ildə aparılmış arxeoloji qazıntılar zamanı eramızdan əvvəl V-IV minilliyə aid Şomutəpə abidəsində müxtəlif bitki qalıqları, eləcə də üzüm toxumları aşkar edilmişdir. Tədqiqatlar bu üzüm toxumlarında həm mədənilik, həm də qədimilik əlamətləri olduğunu göstərmişdir. Məhz bu tapıntı əsasında Azərbaycanda mədəni üzümçülüyün ən azı 7 min illik tarixi olduğunu sübuta yetirmişdir. Mədəni üzüm toxumlarının qalıqlarına respublikamızın digər ərazilərində də – Ağdam şəhəri yaxınlığındakı Üzərliktəpə abidəsində, Gəncəçay vadisində, Naxçıvan MR II Kültəpə yaşayış yerində (3500 il bundan əvvəl), Qazax şəhərinin qərbindəki Sarıtəpə yaşayış yerində (eramızdan əvvəl II minilliyin sonu), Mingəçevirdə (eramızdan əvvəl I minilliyin sonu) və s. rast gəlinir.

Azərbaycanda yerli üzüm sortlarının müəyyən bir hissəsi (10-15%-i) Qara Dəniz hövzəsi (*convar pontica* Negr.*),* hətta qərbi Avropa *(convar accidentalis* Negr.*)* ekoloji-coğrafi qruplarının səciyyəvi xüsusiyyətlərinə malikdir.

Son dövrlərdə dünyada yabanı üzümə maraq çox artmışdır və bu isə öz

növbəsində bu sahədə aparılan tədqiqatların arealının genişlənməsinə səbəb olmuşdur. Yabanı üzümü tədqiq etməklə üzüm bitkisinin filogenezi ilə bağlı olan bəzi suallara cavab tapmaqla yanaşı, həm də müsbət bioloji-təsərrüfat göstəriciləri olan və müxtəlif biotik, abiotik amillərə qarşı davamlı genlərə malik formalardan yeni, məhsuldar və tolerant mədəni üzüm sortlarının seleksiyasında donor kimi istifadə etmək olar. Bu məqsədlə xalq seleksiyası sortları ilə yanaşı, Azərbaycan Respublikasının ərazisində təbii halda yayılmış yabanı üzümün genetik ehtiyatlarının toplanması, artırılması, tədqiqi və səmərəli istifadəsi məqsədilə tədqiqat işləri aparılmaqla, həmçinin müxtəlif bölgələr üzrə birgə ekspedisiyalar təşkil edilmişdir. Bunun üçün aşağıda qeyd olunan elmi problemləri tədqiq etmək planlaşdırılmışdır:

1. Respublikamızın bölgələrində üzümçülük üzrə tam əhatəli şəkildə tədqiqatlar və axtarışlar aparılması;

2. Yabanı üzümün üfüqi və şaquli yayılma sərhədlərinin təyin edilməsi;

3. Ekspedisiyalar zamanı əldə edilən yabanı üzüm biotiplərinin ampeloqrafik kolleksiyalarda konservasiyasının təmin edilməsi;

Adları çəkilən problemləri həll etmək üçün isə bu məsələləri tədqiq etmək nəzərdə tutulmuşdur:

1. Ekspedisiya nəticəsində əldə edilən yabanı üzüm nümunələrinin həm təbii yayıldığı ərazilərdə, həm də ampeloqrqfik kolleksiyalarda tam botaniki təsvir edilməsi;

2. Müsbət bioloji-təsərrüfat göstəricilərinə malik formaların aşkar edilməsi;

3. Müxtəlif bölgələrdə aşkar edilmiş yabanı üzüm biotiplərinin ampeloqrafik əlamətlərinə görə təsnifatının dəqiqləşdirilməsi;

4. Yabanı üzüm ilə aborigen üzüm sortları arasında mövcud olan biomorfoloji və genetik əlaqələrin təyin edilməsi;

5. Üzüm bitkisinin filogenezi ilə bağlı olan bəzi məsələlərin araşdırılması.

Azərbaycan üzüm bitkisinin mənşə, formalaşma və ilk mədəniləşdirilmə mərkəzlərindən biridir. Üzümçülük təsərrüfatının əsasını xalq seleksiyası vasitəsilə yaradılmış yerli üzüm sortları təşkil edir. Azərbaycan hələ çox qədim dövrlərdən keyfiyyətli üzüm sortları ilə məşhur olmuşdur. Üzüm sortlarının əksəriyyətinin tarixi min illərlə ölçülür. Zaman keçdikcə öz yüksək keyfiyyəti və məhsuldarlığı ilə üzüm bağlarında özünə vətəndaşlıq hüququ qazanan bu üzüm sortları Azərbaycan xalqının bir daha qədim zamanlardan üzümçülük mədəniyyətinə malik olmasına canlı sübutdur.

Respublika ərzisində yabanı üzüm formaları çox geniş sahələrdə və demək olar ki, bütün bölgələrdə təbii halda yayılmışdır. Onun genetik ehtiyatlarını tədqiq etmək məqsədilə Xaçmaz, Quba, Xudat, Nabran, Qusar, Şamaxı, İsmayıllı, Ağsu, Oğuz, Qəbələ, Şəki, Zaqatala, Lənkəran, Füzuli və s. rayonlarının ərazilərində axtarışlar aparılmışdır. Axtarışlar zamanı aşkar edilmiş yabanı üzüm biotiplərinin yayılma

ərazilərinin kordinatları GPS vasitəsilə təyin edilmiş, foto şəkilləri çəkilmiş, əsas ampeloqrafik göstəriciləri və fitosenotik xüsusiyyətləri təsvir edilmişdir.

Azərbaycanda axtarışlar nəticəsində aşkar edilmiş yabanı üzüm biotiplərinin yayıldığı ərazilərin coğrafi koordinatları müəyyənləşdirilmiş və aşağıda verilmişdir:

| | |
|---|---|
| ✓ N40$^{o}$ 36.811 E48$^{o}$ 26.688 3425 ft | Ağsu aşırımı, Ağsu rayonu. |
| ✓ N 40$^{o}$ 52.127 E 48$^{o}$ 05.769 1560ft | Qurubanfəndi, İsmayıllı rayonu. |
| ✓ N 40$^{o}$ 52.127 E 48$^{o}$ 05.769 1560ft | Qurubanfəndi, İsmayıllı rayonu. |
| ✓ N40$^{o}$ 54.500 E48$^{o}$ 02.077 2292 ft | İsmayıllı rayonu. |
| ✓ N 40$^{o}$ 40.599 E48$^{o}$ 30.868 708m | Basqal kəndi, İsmayıllı rayonu. |
| ✓ N 40$^{o}$ 47.781 E 48$^{o}$ 19.141 | Qara Nohur kəndi, İsmayıllı rayonu. |
| ✓ N 40$^{o}$ 47.814 E 47$^{o}$ 38.334 832ft | Türyançay qoruğu, Qəbələ rayonu. |
| ✓ N40$^{o}$ 53.814 E47$^{o}$ 46.891 1521 ft | Sultannuxa kəndi, Gəbələ rayonu. |
| ✓ N40$^{o}$56.156 E47$^{o}$ 54.841 2277 ft | Vəndam kəndi, Qəbələ rayonu. |
| ✓ N 41$^{o}$ 00.695 E 47$^{o}$ 27.435 481m | Bayan kəndi, Oğuz rayonu. |
| ✓ N 40$^{o}$ 56.422 E 47$^{o}$ 37.078 1288ft | Oğuz-Gəbələ şosesi |
| ✓ N 41$^{o}$ 04.883E 47$^{o}$ 17.933 1725ft | Küngüt Postu, Şəki rayonu. |
| ✓ N 41$^{o}$ 04.883 E47$^{o}$ 17.933 1725ft | Küngüt Postu, Şəki rayonu. |
| ✓ N 41$^{o}$ 04.883E 47$^{o}$ 17.933 1725ft | Küngüt Postu, Şəki rayonu. |
| ✓ N 41$^{o}$ 06.19$^{0}$E 47$^{o}$ 19.119 2049ft | Baş Kəldək kəndi, Şəki rayonu. |
| ✓ N 41$^{0}$ 25$^{1}$E 46$^{0}$ 45$^{1}$ | Alazan Çayının sahili, Zaqatala rayonu. |
| ✓ N 41$^{0}$ 43$^{1}$E 46$^{0}$ 25$^{1}$ | Balakənçay çayının sahili, Balakan rayonu. |
| ✓ N 40$^{0}$ 10$^{1}$E 49$^{0}$ 20$^{1}$ | Dərə, Qobustan rayonu. |
| ✓ N 41 $^{o}$ 38.611 E 48 $^{o}$45.156 18m | Xudat rayonu. |
| ✓ N41$^{o}$ 33.504 E48$^{o}$42.914 66m | Pavlovka kəndi, Xudat rayonu. |
| ✓ N41$^{o}$ 41.610 E 48$^{o}$45.496 4m | Nabran, Xaçmaz r-u, Xəzər dənizinin sahili |
| ✓ N 41 $^{o}$ 41.610E 48 $^{o}$ 45.496 4m | Nabran,Xaçmaz r-u, Xəzər dənizinin sahili |
| ✓ N 41$^{o}$ 41.610 E 48$^{o}$ 45.496 4m | Nabran, Xaçmaz r-u, Xəzər dənizinin sahili |
| ✓ N41$^{o}$ 41.610 E48$^{o}$ 45.496 4m | Nabran, Xaçmaz r-u, Xəzər dənizinin sahili |
| ✓ N 41$^{o}$ 41.610 E 48$^{o}$ 45.496 4m | Nabran, Xaçmaz r-u, Xəzər dənizinin sahili |
| ✓ N 41$^{0}$ 30$^{1}$ 05,7$^{11}$ E 048$^{0}$ 43$^{1}$ 15,3$^{11}$110 m. | Ağarəhimoba kəndi, Xaçmaz r-u. |
| ✓ N 41$^{0}$ 30$^{1}$ 06,8$^{11}$ E 048$^{0}$ 43$^{1}$ 34,1$^{11}$100 m. | Meşə 1, Xaçmaz rayonu. |
| ✓ N41$^{0}$ 29$^{1}$ 40,5$^{11}$E 048$^{0}$ 43$^{1}$ 22,7$^{11}$129 m Pir | Meşə 2, Xaçmaz rayonu. |
| ✓ N 41$^{0}$ 30$^{1}$ 44,6$^{11}$ E 048$^{0}$ 43$^{1}$ 07,2$^{11}$115 m. | Gödəkli kəndi, Xaçmaz rayonu. |
| ✓ N 41$^{0}$ 31$^{1}$ 18,3$^{11}$ E 048$^{0}$ 45$^{1}$ 11,4$^{11}$76 m. | Sabiroba kəndi, Xaçmaz rayonu. |
| ✓ N 41$^{0}$ 29$^{1}$01,8$^{11}$ E 048$^{0}$ 46$^{1}$ 27,6$^{11}$84 m. | Məzarçay çayının sahili, Xaçmaz r-u. |
| ✓ N 41$^{o}$ 21.731 E 48$^{o}$31.591 559m | Vladimirovka kəndi, Quba rayonu. |
| ✓ N 41$^{o}$ 21.731 E 48$^{o}$31.591 559m | Vladimirovka kəndi, Quba rayonu. |
| ✓ N 41$^{0}$ 21$^{1}$ 39,9$^{11}$ E 048$^{0}$ 22$^{1}$ 33,8$^{11}$ 909 m. | Uzunmeşəkəndi , Quba rayonu. |
| ✓ N 41$^{0}$ 23$^{1}$ 13,7$^{11}$ E 048$^{0}$ 25$^{1}$ 08,1$^{11}$903 m. | Alpan kəndi, Quruçay çayının sahili, Quba rayonu. |
| ✓ N 41$^{0}$ 24$^{1}$ 21,5$^{11}$ E 048$^{0}$ 27$^{1}$ 11,1$^{11}$648 m. | Xuçbala kəndi, Quruçay çayının sahili, Quba rayonu. |
| ✓ N 41$^{0}$ 25$^{1}$ 16,6$^{11}$ E 048$^{0}$ 30$^{1}$ 07,0$^{11}$530 m. | Digah kəndi, Quruçay çayının sahili, Quba rayonu. |
| ✓ N 41$^{0}$ 26$^{1}$ 03,7$^{11}$ E 048$^{0}$ 33$^{1}$ 49,1$^{11}$406 m | Ağbil kəndi, Quruçay çayının sahili, Quba rayonu. |
| ✓ N 41$^{0}$ 27$^{1}$ 23,4$^{11}$ E 048$^{0}$ 34$^{1}$ 08,3$^{11}$387 m. | Susay-Qışlaq kəndi, Quba rayonu. |
| ✓ N 41$^{0}$ 24$^{1}$ 09,5$^{11}$E 048$^{0}$ 34$^{1}$ 48,1$^{11}$430 m. | Dəlləkkənd kəndi, Quba rayonu. |
| ✓ N 41$^{o}$ 33.504 E48$^{o}$42.914 66m | Qusarçay, Qusar rayonu. |
| ✓ N 41$^{o}$ 33.504 E 48$^{o}$ 42.914 66m | Qusarçay, Qusar rayonu. |
| ✓ N 41$^{o}$ 33.504 E 48$^{o}$42.914 66m | Qusarçay, Qusar rayonu. |
| ✓ N 41$^{o}$ 24.085 E 48 $^{o}$23.850 2504ft | Qara Bulaq kəndi, Qusar rayonu. |
| ✓ N 39$^{o}$ 26' 46"E 45$^{o}$ 35' 31" 4280ft | Nax MR Ayrınc kəndi, Şahbuz rayonu |
| ✓ N 3854′17″ E46°01′23″ | Nax MR Kotam kəndi, Ordubad rayonu |

Respublika ərazisində *V.vinifera susbsp. silvestris* Gmel. – yabanı üzümün müxtəlif biotipləri cır meyvə-giləmeyvə və meşə bitkilərinin aşağıdakı cins və növləri ilə müştətək yayıldığı diqqəti cəlb edir: əzgil – *Mespilus germanica* L., zoğal-*Cornus mas* L., qoz – *Juglans reqia* L., fındıq – *Corylus avellana* L., nar – *Punica granatum* L., şabalıd – *Castanea sativa* Mill., heyva – *Cydonia obonga* Mill., ərik – *Armeniaca vulgaris Lam*., qafqaz yemişanı – *Crataegus caucasica* C. Koch., şərq yemişanı – *Crataegus orientalis* Pall., qırmızı yemişan – *Crategus kyrtostyla* Fingerh., böyürtikan – *Rubus caucasicus* Focke., çaytikanı – *Hippophae rhamniodes* L., söyüd – *Salix caucasica* Anderss., qovaq – *Populus gracilis* A. Grassh., vələs – *Carpinus caucasica* A. Grossh., qarağac – *Ulmus foliaceae* Gilib., palıd – *Quercus iverica* Stev., ağcaqayın – *Acer campestre* L., qaratikan – *Paliurus spina Christi* Mill., yulğun – *Tamarix ramosissima* Led., qatırquyruğu – *Equisetum* L., gəndəlaş – *Sambucus nigra* L.

Aparılan tədqiqat işlərinin nəticəsində məlum oldu ki, respublika ərazisində yabanı üzümün müxtəlif populyasiyaları əsasən iki formasiyada – tuqay və tipik enliyarpaq meşələrdə yayılmışdır (cədvəl 1.4). Şəki rayonunda Küngüt çayının (Oraban kəndi), Quba rayonunda Quruçay, Qusarçay, Qudyalçay çaylarının (Uzunmeşə, Alpan, Xucbala, Digah, Akbil, Susay Qışlaq, Dəlləkkənd kəndlərində) sahillərində yabanı üzüm tənəkləri əsasən çayqırağı tuqay meşələrində sıx və geniş yayılmışdır. Yabanı üzümün tipik meşə formasiyası isə Xaçmaz rayonunun Ağarəhimoba, Gödəkli, Qımılqışlaq, Qadaşoba, Nərəcan və s. kəndlərinin və onların yaxınlığında olan meşələrin ərazilərində (1 saylı meşə, Pir meşə), Qəbələ (Şonqar bulağı) və Lənkəran rayonlarının (Seliqavul meşəsində) aşkar olunmuşdur [142, 144, 234, 241].

*Cədvəl 1.4*

**Azərbaycanda yabanı üzümün tənəklərinin rast gəlindiyi ərazilər**

| Koordinatları | Ərazilər |
|---|---|
| *1* | *2* |
| K. №1.<br>N $41^0$ $21^1$ $39,9^{11}$<br>E $048^0$ $22^1$ $33,8^{11}$<br>909 m. | Quba rayonu, Uzunmeşə kəndi. Qara giləli yabanı üzüm. Lianın uzunluğu 20-25m, ştambın çevrəsi 25 sm. Ətrafında yabanı əzgil (*Mespilus germanica* L.), zoğal (*Cornus mas* L.) və böyürtkən (*Rubus caucasicus* Focke) bitir. |
| K. №2.<br>N $41^0$ $23^1$ $13,7^{11}$<br>E $048^0$ $25^1$ $08,1^{11}$903m. | Quba rayonu, Alpan kədni. Quruçay çayının sol sahili və Quba-Susay yolunun sol hissəsi. Lianın uzunluğu 25-30 m, ştambın çevrəsi 30 sm. |
| K. №3.<br>N $41^0$ $24^1$ $21,5^{11}$<br>E $048^0$ $27^1$ $11,1^{11}$<br>648 m. | Quba rayonu, Xucbala kəndi. Quruçay çayının sağ sahili. Tuqay meşəsi. Yabanı üzümün lianı 7 m hündürlükdə olan vələs (*Carpinus caucasica* A. Grossh) ağacının üstündə aşkar edildi. Yaxınlıqda yabanı fındıq (*Corylus avellana* L.), ərik (*Armeniaca vulgaris* Lam.), ağcaqayın (*Acer campestre* L.) və böyürtkən (*Rubus caucasicus* Focke.) bitir. |

| *1* | *2* |
|---|---|
| K. №4.<br>N $41^0$ $24^1$ $22,4^{11}$<br>E $048^0$ $27^1$ $09,9^{11}$642 . | Quba rayonu, Xucbala kəndi. Quruçay çayının sol sahili. Tuqay meşəsi. |
| K. №5.<br>N $41^0$ $24^1$ $19,3^{11}$<br>E $048^0$ $27^1$ $07,5^{11}$649 . | Quba rayonu, Xucbala kəndi. Quruçay çayının sağ sahili. Yabanı üzüm lianının ştambının çevrəsi 25 sm. Tuqay meşəsi. |
| K. №6.<br>N $41^0$ $24^1$ $19,6^{11}$<br>E $048^0$ $27^1$ $09,5^{11}$644m. | Quba rayonu, Xucbala kəndi. Quruçay çayının sağ sahili, fermanın yanı. Tuqay meşəsi. |
| K. №7.<br>N $41^0$ $25^1$ $16,6^{11}$<br>E $048^0$ $30^1$ $07,0^{11}$<br>530 m. | Quba rayonu, Digah kəndi. Quruçay çayının sol sahili, "Sarı meşə"nin yaxınlığında. Lian 8m hündürlükdə olan vələs ağacının (*Carpinus caucasica* A. Grossh.) və palıdın (*Quergus iberica* Stev.) üstündə idi. Lianın uzunluğu təxminən 40 m-dir. |
| K. №8.<br>N $41^0$ $25^1$ $11,7^{11}$<br>E $048^0$ $30^1$ $03,3^{11}$<br>535 m. | Quba rayonu, Digah kəndi. Quruçay çayının sağ sahili, "Sarı meşə"nin yaxınlığında. Lianın uzunluğu 20-25 m, ştambın çevrəsi 25 sm. Tuqay meşəsi. Yaxınlıqda yemişan (*Grataegus orientalis* L. və *Grataegus ryrtostyla* Fingerh.), qarağac (*Ulnus foliaceae* Gilib.) və palıd (*Quergus iberica* Stev.) bitir. |
| K. №9-10-11.<br>N $41^0$ $26^1$ $03,7^{11}$<br>E $048^0$ $33^1$ $49,1^{11}$<br>406 m. | Quba rayonu, Ağbil kəndinin yaxınlığı, Quruçay çayının sol sahili, körpünün yanı. Burada yabanı üzüm yemişanların (*Grataegus orientalis* L. və *Gretaegus caucasica* C. Koch.), yulğun (*Tamarix ramosissima* Led.) və qaratikan (*Paliurus spina Christi* Mill.) kolları ilə birlikdə çətin keçilən sıx cəngəlliklər əmələ gətirmişdir. Yaxınlıqda alma bağı vardır. |
| K. №12.<br>N $41^0$ $26^1$ $01,9^{11}$<br>E $048^0$ $33^1$ $48,3^{11}$401m. | Quba rayonu, Ağbil kəndinin yaxınlığı, Quruçay çayının sağ sahili. Qara meyvəli yabanı üzüm lianı. |
| K. №13.<br>N $41^0$ $27^1$ $23,4^{11}$<br>E $048^0$ $34^1$ $08,3^{11}$<br>387 m. | Quba rayonu, Susay-Qışlaq kəndi. Kənd yolunun sol tərəfi, yaşlı qovaq ağacının yaxınlığında. Yabanı üzümün yaxınlığında aşağıdakı bitki növləri bitir: qaratikan (*Paliurus spina Christi* Mill.), qovaq (*Populus gracillis* A.Grossh.) və böyürtkən (*Rubus caucasicus* Focke.). |
| K. №14.<br>N $41^0$ $28^1$ $02,3^{11}$<br>E $048^0$ $34^1$ $43,3^{11}$<br>365 m. | Quba rayonu, Susay-Qışlaq kəndi. Kənd yolunun sol tərəfi, kəndin girişinə yaxın. Qara giləli yabanı üzüm tənəyi 20-25 m hündürlüyündə olan piramidal formalı qovağın üstündədir. Lianın uzunluğu 40-45 m. Susay-Qışlaq kəndinin yolunun hər iki tərəfində 300-ə qədər yabanı üzüm lianları aşkar edildi. |
| K. №15.<br>N $41^0$ $28^1$ $24,9^{11}$<br>E $048^0$ $36^1$ $08,9^{11}$308m. | Quba rayonu, Susay-Qışlaq kəndinin ərazisi. Qusarçay çayının sol sahili. Tuqay meşəsi. |
| K. №16.<br>N $41^0$ $28^1$ $24,4^{11}$<br>E $048^0$ $36^1$ $10,5^{11}$314 . | Quba rayonu, Susay-Qışlaq kəndi. Qusarçay çayının orta hissəsi. Yabanı üzüm lianları çayın içində olan xırda ada şəklində olan ərazidə, Tuqay meşəsində aşkar edilmişdir. |
| K. №17.<br>N $41^0$ $28^1$ $25,5^{11}$<br>E $048^0$ $36^1$ $14,0^{11}$308m. | Quba rayonu, Susay-Qışlaq kəndinin yaxınlığı. Yabanı üzüm lianları Qusarçay çayının orta hissəsində olan böyük ada şəklində olan ərazidə, Tuqay meşəsində aşkar edilmişdir. Bu adada təxminən 50 lian var. |

| *1* | *2* |
|---|---|
| K. №18.<br>N $41^0$ $24^1$ $09,5^{11}$<br>E $048^0$ $34^1$ $48,1^{11}$<br>430 m. | Quba rayonu, Dəlləkkənd kəndi. Qudyalçay çayının sol sahili. Tuqay meşəsi. Yabanı üzüm, yabanı fındıq (*Corylus avellana* L.), böyürtkən (*Rubus caucasicus* Focke.), qatırquyruğu (*Equisetum* L.), söyüd (*Salix caucasica* Anderss.) və çaytikanı (*Hippophoe rhamnoides* L.) ilə birlikdə bitir. Bu ərazidə yabanı üzümə nisbətən çox rast gəlinir. |
| S. №.1 | Qəbələ rayonu, Şonqar bulağının yanı. Rayonun girəcəyində olan çayın üstündəki körpüyə çatmamış sağda, meşəçilik ərazisi. Yabanı üzüm lianı çox hündür (təxminən 25 m) qarağac (*Ulmus foliaceae* Gilib.) bitkisinin üstündə aşkar edildi. Bu yabanı üzüm tənəyinin üzərində meyvələrə rast gəlinmədi. Binokl vasitəsi ilə biz onun yarpaqlarının üçdilimli və ya bütövayalı olmasını təyin etdik. Lianın uzunluğu təxminən 40 m, ştambın çevrəsi isə 35 sm-dir. Gövdənin kök boğazına yaxın olan üst hissəsi tamamilə çürümüşdür. Gövdənin üst və özək hissələri bir neçə metr uzunluqda çürüyərək məhv olmuşdur. Gövdənin yalnız aşağı qabıq hissəsi salamat idi.<br>Burada biz yabanı üzümün ikinci lianını da aşkar etdik. Bu yabanı üzümün meyvələri xırda və qara rəngli idi. Toxumlar və onların dimdik hissələri də çox xırda idi. Toxum tədarük etmək məqsədilə biz onlardan tam yetişmiş meyvələri olan salxımları yığdıq. Bu ərazi çox sıx meşədir və yabanı üzüm aşağıdakı yabanı meşə bitkiləri ilə birlikdə bitir: Qarağac (*Ulmus foliaceeae* Gilib.), şabalıd (*Castanea sativa* Mill.), qara yemişan (*Grataegus caucasica* C. Koch.), vələs (Carpinus caucasica *A. Grossh*.), qoz (*Juglans regia* L.), heyva (*Cydonia oblonga* Mill.) və qara gəndalaş (*Sambucus nigra* L.). |
| S. №2 | Şəki rayonu, Oraban kəndinin ərazisi. Küngüt çayının sahili. Tuqay meşəsi. Kənd yolunun sağ tərəfi. Yabanı üzüm lianı qarağac (*Ulmus foliaceae* Gilib.) və qaratikan (*Poliurus spina Christi* Mill.) kolunun üstündə idi. Lianın uzunluğu 20-25m-dir. Meyvələri qara rəngli və xırda ölçülüdür. Yaxınlıqda böyürtkən (*Rubus caucasicus Focke*.), yabanı nar (*Punica granatum* L.), yulğun (*Tamarix ramosissima*Led.) bitir. |
| S. №.3 | Şəki rayonu, Oraban kəndi. Küngüt çayının sahili. Tuqay meşəsi. Kənd yolunun sol tərəfi. Burada biz yabanı üzümü 4-5 ədəd yabanı fındıq (*Corylus avellana* L.) kollarının üstündə aşkar etdik. Bu lianın da gövdəsinin özək hissəsi S. №1-dəki (Qəbələ, Şonqar) kimi çürümüşdü. Meyvələri qara rəngli və xırda ölçülüdür. Lianın uzunluğu təxminən 30 m-ə qədər, gövdənin çevrəsi isə 30 sm-dir. Bu yabanı üzümün fitosenozunda da S. №2-dəki bitkilər vardır. |
| №1.<br>N $41^0$ $29^1$ $53,4^{11}$<br>E $048^0$ $43^1$ $17,3^{11}$<br>122 m. | Xaçmaz rayonu, Ağarəhimoba kəndinin aşağı hissəsi. İsğəndərin evinin yanı. Kicik meşə zolağı.<br>Qara giləli yabanı üzüm. Lianın uzunluğu 15-20 m. Yabanı üzüm yaşlı qovaq ((*Populus gracillis* A. Grossh.) üzərindıdır. Ətrafında böyürtkən (*Rubus caucasicus* Focke.) bitir. |
| №2.<br>N $41^0$ $30^1$ $05,7^{11}$<br>E $048^0$ $43^1$ $15,3^{11}$110m. | Xaçmaz rayonu, Ağarəhimoba kəndi, Alpan çayının sol sahili. Meşə ərazisi. |
| №3.<br>N $41^0$ $30^1$ $06,0^{11}$<br>E $048^0$ $43^1$ $15,8^{11}$<br>109 m. | Xaçmaz rayonu, Ağarəhimoba kəndi, Alpan çayının sol sahili .1 saylı meşə ərazisi. Yabanı üzümün lianı yaşlı qovaq ((*Populus gracillis* A. Grossh.) ağacının üstündə aşkar edildi. Lianın uzunluğu 40-50 m, gövdənin çevrəsi 32 sm-dir. |

| *1* | *2* |
|---|---|
| K. №4.<br>N $41^0$ $30^1$ $06,5^{11}$<br>E $048^0$ $43^1$ $16,7^{11}$<br>110 m. | Xaçmaz rayonu, Ağarəhimoba kəndi, Alpan çayının sol sahili. 1 saylı meşə ərazisi. Yabanı üzümün lianı yaşlı qovağın (*Populus gracillis* A. Grossh.) üstündı aşkar edildi. Lianın uzunluğu 30-35 m, gövdənin çevrəsi 20 sm-dir. Yaxınlıqda böyürtkən (*Rubus caucasicus* Focke.) və şingilə (Chondrilla L.) bitir. |
| N $41^0$ $24^1$ $19,3^{11}$<br>E $048^0$ $27^1$ $07,5^{11}$<br>110 m. | Xaçmaz rayonu, Ağarəhimoba kəndi, Alpan çayının sol sahili. 1 saylı meşə ərazisi. Yabanı üzümün lianı yaşlı qovağın (*Populus gracillis* A. Grossh. ) üstündədır. |
| №5.<br>N $41^0$ $30^1$ $07,6^{11}$<br>E $048^0$ $43^1$ $18,3^{11}$110 . | Xaçmaz rayonu, Ağarəhimoba kəndi, Alpan çayının sol sahili. 1 saylı meşə ərazisi. Yabanı üzümün lianı böyürtkən (*Rubus caucasicus* Focke. kollarının üstündə sərilib. |
| №6.<br>N $41^0$ $30^1$ $09,5^{11}$<br>E $048^0$ $43^1$$22,2^{11}$<br>114 m. | Xaçmaz rayonu, Ağarəhimoba kəndi. 1 saylı meşə ərazisi. Lianın uzunluğu 40-50 m, gövdənin çevrəsi 28 sm. Meşənin bu ərazisi yabanı üzümlə çox zəngindir. Ərazidə yabanı fındıq (*Corylus avellana* L.), şingilə (*Chondrilla* L.) bitir.<br>Burada meşənin dərinliyinə qədər yabanı üzüm lianları çox yayılıb (N $41^0$ $30^1$ $09,5^{11}$,E $048^0$ $43^1$ $29,9^{11}$,110m) . |
| №7.<br>N $41^0$ $30^1$ $06,8^{11}$<br>E $048^0$ $43^1$ $34,1^{11}$100 . | Xaçmaz rayonu, 1 saylı meşənin dərinlikləri. Yabanı üzüm qovağın (*Populus gracillis* A. Grossh.) üstündədır. Lianın uzunluğu 40-45 m, gövdənin çevrəsi 20 sm. |
| №8.<br>N $41^0$$30^1$$05,5^{11}$<br>E $048^0$$43^1$ $35,1^{11}$107m. | Xaçmaz rayonu, 1 saylı meşənin dərinlikləri. Yabanı üzüm yemişanın (*Grataegus orientalis* L.) üstündədır. Lianın uzunluğu 10 m, gövdənin çevrəsi 27 sm. |
| N $41^0$ $29^1$ $48,6^{11}$<br>E $048^0$ $43^1$ $35,2^{11}$<br>125 m.<br>N$41^0$ $29^1$ $40,5^{11}$<br>E $048^0$ $43^1$ $22,7^{11}$129 m | Xaçmaz rayonu, Pir meşə. Yabanı üzüm yaşlı palıd ağacının yaninda bitir və onun üstünə çıxıb. Lianın uzunluğu 50 m-ə qədər, kök boğazının çevrəsi 78 sm-dir. Pir meşədə yabanı üzüm lianları həddən çoxdur. Demək olar ki, bu meşədəki hər bir ağacın üstündə yabanı üzümə rast gəlinir. |
| №9.<br>N $41^0$ $30^1$ $22,2^{11}$<br>E $048^0$ $42^1$ $41,6^{11}$130m. | Xaçmaz rayonu, Gödəkli kəndi. Kənd yolunun solu. Meşənin kənarı. Yabanı üzümün lianı 10-12 m, gövdənin çevrəsi 15 sm. Yaxınlıqda palıd(*Quergus iberica* Stev.), yabanı fındıq (*Corylus avellana* L.), əzgil (*Mespilus germanica* L.) bitir. Böyük bir ərazidir və yabanı üzümlə çox zəngindir. |
| №10.<br>N $41^0$$30^1$$44,6^{11}$<br>E $048^0$$43^1$ $07,2^{11}$<br>115 m. | Xaçmaz rayonu, Gödəkli kəndi. Yabanı üzüm 20 m hündürlüyündə olan vələs (*Carpinus caucasica* A. Grossh.) ağacının üstünə çıxıb. Lianın uzunluğu 30 m, gövdənin çevrəsi 20 sm-dir. Vələs meşəsi. Bu ərazilər yabanı üzümlə çox zəngindir. Burada çoxlu kəsilmiş yabanı üzüm lianları vardır. |
| №11.<br>N $41^0$ $31^1$ $18,3^{11}$<br>E $048^0$ $45^1$ $11,4^{11}$<br>76 m. | Xaçmaz rayonu, Sabiroba kəndinin yanı. Bakı–Dərbənd yolunun təxminən 170–180-ci km-də, yolun sağı, meşə zolağının yanı. Lianın uzunluğu 10 -14 m, gövdənin çevrəsi 14 sm-dir. |
| №12.<br>N $41^0$ $29^1$$01,8^{11}$<br>E $048^0$ $46^1$ $27,6^{11}$<br>84 m. | Xaçmaz rayonu, Məzarçay çayının sahili. Şollar su kəmərinin yaxınlığı, yolun solu. Ətrafda yabanı fındıq (*Corylus avellana* L .), yemişan ( *Grataegus orientalis* L.*)* və qovaq (*Populus gracillis* A. Grossh. ) bitir. Yolun hər iki tərəfi yabanı üzümlə boldur. |

Cənubi Qafqazda yabanı üzümün mənşə və mədəniləşdirilmə tarixinə dair bəzi sualları aydınlaşdırmaq üçün Cənubi Qafqaz regionunda təbii halda yayılmış bəzi yabanı üzüm biotipləri tədqiq edilmişdir. Bu məqsədlə yabanı üzümün (*V.vinifera* L. *subsp. sylvestris* (C.C.Gmel.) Cənubi Qafqaz biotipləri təhlil edilmişdir (cədvəl 1.5). Yabanı üzümün genetik təbiətinə görə haplotip AAA qrupuna Azərbaycandan 10 biotip, Gürcüstandan 19, Ermənistandan 2, Türkiyədən isə 14 biotip daxildir. AAA haplotipinə yalnız Azərbaycan və Şərqi Gürcüstanda, ATA haplotipinə isə bütün tədqiq edilən ərazilərdə rast gəlinir. ATT haplotipi isə Xəzər dənizindən Qara dənizdə qədər tədqiq edilən bölgənin cənub hissəsində aşkar edilmişdir. Cənubi Qafqazda haplotiplərin paylanması aşağıda xəritədə göstərilmişdir (xəritə 1.2).

*Cədvəl 1.5*

**Yabanı üzümün biotiplərinin populyasiyaları**

| **AAA qrupu** | | | |
|---|---|---|---|
| Populyasiyalar | Coğrafi bölgələr | Çay hovzəsi | Koordinatlar |
| Quba r, Alpan k. | Azərbaycan | Quruçay | N $41^0$ 21/ 17,2// E $048^0$ 22/ 01,2// |
| Quba r, Ağbil k. | Azərbaycan | Quruçay | N 41°26/03,7/ E048°33/49,1/ |
| Quba r, Ağbil k. | Azərbaycan | Quruçay | N $41^0$ 26/ 03,7/ E$048^0$ 33/ 49,1/ |
| Quba r, Susay-Qışlaq k. | Azərbaycan | Quruçay | N $41^0$ 28/ 02,3/ E $048^0$ 34/ 43,3/ |
| **ATT qrupu** | | | |
| Populyasiya | Coğrafi bölgə | Çay hovzəsi | Koordinatlar |
| Ağsu rayonu | Azərbaycan | Giridmançay | N $40^0$ 55/E $048^0$ 15/ |
| Qobustan rayonu, dərə | Azərbaycan | - | N $40^0$ 10/E $049^0$ 20/ |
| **ATA qrupu** | | | |
| Populyasiya | Coğrafi bölgə | Çay hovzəsi | Koordinatlar |
| Quba r., Susay-Qışlaq k. | Azərbaycan | Qusarçay | N 41°28.25,5/ E 048°36.14,0/ |
| Balakənrayonu | Azərbaycan | Balakənçay | N $41^0$ 43/E $046^0$ 25/ |
| Qəbələ rayonu | Azərbaycan | Türyançay | N $40^0$ 47/ 814//E $047^0$ 38/ 334// |
| Zaqatalarayonu | Azərbaycan | Alazan | N $41^0$ 25/E $046^0$ 45/ |

Beləliklə, Azərbaycanda yabanı üzüm biotiplərində Cənubi Qafqaza aid dörd müxtəlif haplotip qrupundan (AAA, ATT, GTA və ATA) 3-nün Azərbaycanda aşkar edilməsi, üzüm sortlarının əsas mənşə və yaranma mərkəzlərindən biri olması faktını sübut edir (şəkil 1.6). Son dövrlər ekspedisiyaların gedişində meşələr qırılması, həmçinin yabanı üzüm tənəklərinin məhv edilməsi hallarının çoxalması qeydə alınmışdır. Ona gərə də bu istiqamətdə əhali arasında maarifləndirmə işlərinin daha da genişləndirilməsinə ehtiyac duyulur. Bu məqsədlə AMEA Genetik Ehtiyatlar İnstitutunda Respublika üzrə üzüm bitkisinin davamlı və məqsədyönlü istifadəsini həyata keçirmək üçün, onun respublikamızın ərazisində mövcud olan genetik ehtiyatlarının inventarlaşdırılması, toplanılması, öyrənilməsi və artırılması istiqamətində tədbirlərin davam etdirilməsi həyata keçirilir.

Şəki rayonu, Oraban kəndi



Qəbələ rayonu, Şonqar bulağının yanı

Quba rayonu, Digah kəndi ( Quba, Zaqatala, Ağsu, Şəki, Oğuz)

Xaçmaz rayonu (Xəzər dənizinin sahili)

Xaçmaz rayonu (Xəzər dənizinin sahili)

Şəkil 1.2. Azərbaycan Respublikası ərazisində yayılan *V.vinifera susbsp. silvestris* Gmel. yarımnövünün biotip və morfotipləri




Xəritə 1.2. Cənubi Qafqazda haplotiplərin paylanması

**Naxçıvan MR florasında *V.vinifera ssp.sylvestris* C.C.Gmel - yabanı üzümün müxtəlif biotipləri və morfometrik analizləri.** A.M.Neqrul toplanılmış materiallar əsasında yabanı üzümün iki əsas növ müxtəlifliyini aşkar etmişdir: *Vitis sylvestris var. typica* Negr. və *Vitis sylvestris var. aberrans* Negr. Müəllif qeyd etmişdir ki, var. typica şimal və qərb rayonlarda, var. aberrans isə cənub və cənub-şərq rayonlarda yayılmışdır. Bu növ müxtəlifliklərinin əsas səciyyəvi əlamətləri aşağıdakılardır: var. typica: yarpaqları üç pəncəli, yan kəsiyi bütöv, orta və dərin yarıqlıdır, saplağının oyuğu açıqdır, yarpaqlarda hörümçək toruna bənzər ağ tükcüklər olur. Çiçəyi funksional dişi və ya erkək tiplidir, salxımları xırda və ya orta irilikdədir (4-12 sm), gilələri xırdadır (diam. 6,0-10,5 mm-ə çatır), kürə formalıdır, qara rənglidir, toxumları xırdadır, uc hissəsi gödəkdir (0,5-1,0 mm). Bu əlamətlər Kmelin tərəfindən təsvir edilmiş Mərkəzi Avropa yabanı üzümünün əlamətlərinə uyğundur. İ.K.Paçoskinin təsvir etdiyi Dnepr sahili yabanı üzümü də var. typica növ müxtəlifliyinə aiddir. Var. aberrans növ müxtəlifliyinin yarpaqları üç və ya beşpəncəlidir, orta və aydın yan kəsiklidir, alt tərəfdə müxtəlif sıxlıqda ağ tükcükləri və damarlar üzərində qılçıqları olur, çiçəyi funksional dişi və ya erkək tiplidir, salxımları xırda və ya orta irilikdədir (3-5 sm), gilələri xırdadır (8,0-12,0 mm), kürəşəkillidir, qara rənglidir və ya bənövşəyi-çəhrayıdır, toxumları xırda və ya orta irilikdədir, uc hissəsi girdədir, orta irilikdədir [26, 102, 1591].

Azərbaycan ərazisində yayılan yabanı üzümün iki variasiyası ilə (*V. ssp. sylvestris var. tupica* Negr., *V. ssp. sylvestris var. aberans* Negr.) yanaşı, M.V.Amanov Azərbaycan ərazisində daha iki, gilələri ağ rəngli olan növ

müxtəlifliyini (*V.vinifera ssp. sylvestris var*. Zangezur Mail, *V.vinifera ssp. sylvestris var.* Alpan Mail) aşkar etmişdir [19].

Naxçıvan MR bölgəsinin şərq hissəsində, Ordubad rayonu ərazisində Araz çayının sol sahilində üzərində yabanı üzüm yarpaqlarının izləri olan daşlar tapılmışdır. [45]. Onu da qeyd etmək lazımdır ki, bu regionda *V. ssp. sylvestris* Gmel. yarımnövü əvvəllər geniş yayılsa da, son vaxtlar biotik və abiotik amillərin təsirindən çox azalmışdır. Ekspedisiyalar nəticəsində Nəhəcir, Ayrınc, Badamlı, Əshabi-kəhf dağında 1, Darıdağda 2, Biləv dağlarında 3 yabanı və cır üzüm formaları toplanılaraq, müəyyən edildiyi ərazinin şərti adları ilə adlandırılmaqla Bioresurslar İnstitutinun "Üzüm genofondu" kolleksiya bağında əkilmişdir. Tədqiqatlar nəticəsində ilk dəfə olaraq şərti adı Ordubad-1 erkək tipli çiçək qrupu olan *V.vinifera ssp. sylvestris var. Nakch. Varis* - yeni variasiyası aşkar edilmişdir. Aşağıda ərazidə aşkar edilən bəzi yabanı üzüm formalarının qısa ampeloqrafik xüsusiyyətləri verilmişdir.

*Darıdağ-1 biotipi.* 2003-cü ildə Darıdağ ərazisində qayalıqların arasında qeydə alınmışdır. Üzüm genofondu kolleksiya bağında əkilmişdir. Kolun ampeloqrafik xüsusiyyətləri yayıldığı ərazidə öyrənilmişdir. Kolu çox güclü inkişaf edir. Tənəyin yayıldığı ərazi 200-250 $m^2$ təşkil etmişdir. Əsas gövdəsinin diametri 15-20 sm-ə çatır. Çoxlu sayda əlavə köklərdən yeni tənəklər əmələ gəlmişdir. Hər il gövdəyə yaxın tumurcuqlardan yeni zoğlar inkişaf edir. Birillik zoğun tacı açıq-qəhvəyi rənglidir, üzəri zəif ağ torabənzər tükcüklə örtülür, 1-3-cü yarpaqları tünd-yaşıl rəngli olmaqla üzəri çılpaqdır. Yeni inkişaf edən zoğları tünd-qəhvəyi rənglidir. Payızda mumyetişmiş birillik zoğlarında buğumaraları açıq-qəhvəyi rənglidir, üzərində kiçik tünd ləkə və zolaqları olmaqla, uzunluğu 2,0-4,5 m-ə çatır. Buğumaraları 4,0-7,0 sm-ə çatır. Birillik çubuqlarda mumyetişmə 67,0 %-dən çox olur. Yarpaqları orta və ya dərin kəsikli, beşdilimlidir. Yarpaqları orta irilikdə (uzun 11,0, eni 7,0 sm), orta diametri 9,0±0,27 sm-dir. Yarpağın alt səthi zəif tükcüklüdür. Yuxarı yan kəsiyi orta və ya dərin formalıdır, açıq liraşəkillidir. Aşağı yan kəsiyi açıqdır, ensiz liraşəkillidir. Yarpaq kənarındakı dişcikləri enli oturacaqlı, küt ucludur, pəncələrdə isə nisbətən uzun, iti ucludur. Saplağın uzunluğu 7,5-9,5 sm olmaqla, açıq-qəhvəyi rənglidir. Saplaq oyuğu enlidir, açıq liraşəkillidir.

Çiçəkləri funksional dişi cinslidir. Salxımları xırda olmaqla, uzunluğu 10-15 sm, orta kütləsi 60-100 q-dır. Gilələri xırda (diam. 0,5-0,9 sm), kürə formalıdır, qabığı qırmızımtıl-qara rənglidir. Əsasən çarpaz tozlanır. Hər gilədə 3-4 ədəd toxum olur. Gilələrdə bəzən çox az miqdarda tozlanma getmədən, apomiksis yolla cücərməyə tam yararlı toxumlar əmələ gəlir. Məhsulun tam yetişməsi oktyabr ayının sonunda baş verir. Gilələrdə şəkərlilik 10,0-12 q/100 $sm^3$, turşuluğu isə 10,0-13,0 q/$dm^3$ olur. Vegetasiya müddəti 175-180 gün davam edir. Göbələk xəstəliklərinə çox davamlıdır.

*Ordubad-1 biotipi.* Yabanı üzümün bu yeni biotipi (*V. vinifera ssp. sylvestris var. Nakch.* Varis) ilk dəfə olaraq 2001-ci ildə Ordubad rayonunun köhnə Kotam

kəndi ətrafındakı sahələrdə rast gəlinmişdir. Tənəyi güclü inkişafetmə xüsusiyyətinə malikdir. Ana tənəyin gövdəsi tünd-şabalıdı rənglidir, diametri 10-17 sm-ə çatır. Birillik zoğlarının üzəri açıq-şabalıdı rənglidir, uzunluğu 2,4-3,0 m-dir. Çubuqlarda mumyetişmə 72,0 %-dən yüksək olur.

Yarpaqları orta irilikdədir, dairəvi formalıdır, əsasən tam ayalı, bəzən dayaz, açıq ensiz liraşəkilli yan kəsikli yarpaqlara da rast gəlinir. Yarpaqların orta diametri 12,8 ±0,21 sm, sahəsi isə 128,63 $sm^3$-dir. Yarpaqların alt və üst səthində ağ torşəkilli tükcüklər olmur. Saplaq oyuğu açıq və ya azca qapanmış formadadır. Saplağı uzundur (9,5-10,5 sm), tünd qəhvəyi rənglidir.

Çiçək salxımları orta irilikdədir. Erkək tipli çiçək qrupuna malikdir. Erkəkciyin saplaqları düz duran, uzun (3,80±0,08 mkm, qalınlığı 0,64 mkm), tozluqları isə çox iridir (uzunluğu 1,91± 0,06 eni 0,99±0,02 mkm). İnkişaf edən zoğların hər birində 2-3 ədəd çiçək salxımı olur. Yarpaqlarda göbələk xəstəliklərinə yoluxma müşahidə edilməmişdir.

*İlandağ-9 biotipi.* Culfa rayonunda İlandağın ətəklərindəki cənub tərəfdə dərəlikdə 600-700 m² ərazidə iri kolluq əmələ gətirmişdir. Tənəkləri yaxşı inkişaf etməklə gövdəsi 17-21 sm diametrindədir. Birillik zoğları çox da uzun olmurlar (uzun. 40,0-150,0 sm-ə qədər). Yarpaqların orta diametri 12,7±0,27 sm (uzun. maks. 14,0 sm, min. 9,5 sm), üzəri zəif torlu qırışıqlıdır, tünd-yaşıl rənglidir, səthi isə 113,04 sm³-dir. Yarpaqların alt səhtində çox az miqdarda ağ torabənzər tükcüklər müşahidə edilir. Yarpaqları əsasən dərin, enli, açıq yan kəsiklidir. Yarpaq kənarlarının dişciyi iti, enli oturacaqlı, pəncələrin ucunda isə uzundur, iti və enli oturacaqlıdır. Saplağın uzunluğu 8,5-9,0 sm, tünd-qəhvəyi rənglidir. Saplaq oyuğu açıqdır, enli liraşəkillidir. Çiçək tipi funksional dişi cinslidir. Salxımların orta kütləsi 25,0-60,0 q olmaqla, gilələri xırda ölçülərə malikdir. Hər gilədə 3-4 ədəd toxum olur. Gilələrdə şəkərlilik 8,0-11,0 q/100 $sm^3$, turşuluq 12-18 q/$dm^3$-dir. Ümumi vegetasiya müddəti 170-180 gün davam edir. Şaxtalara və göbələk xəstəliklərinə çox (0-1 bal) dözümlüdür.

*Ayrıncdağ-1 biotipi.* Şahbuz rayonunun Ayrınc kəndindən 3 km şimali-şərq tərəfdə, dəniz səviyyəsindən 1600 m hündürlükdə, qayalıqların quzeyindəki dağ yamacında 250-270 m² ərazidə keçilməz kolluq əmələ gətirmişdir. Tənəkləri 250-300 ildən artıqdır ki, bu ərazidə mövcuddur. Birillik mumyetişmiş çubuqları 0,55-150 sm uzunluğunda olmaqla, buğumaraları sarımtıl-şabalıdı, buğumları tünd rənglidir. Yaşıl zoğun tacı və 3-5 yeni yarpaqların üzəri parlaqdır, yaşıl rənglidir, alt tərəfində ağ tükcüklər olmur. Yeni zoğların aşağı hissələri tünd şərabı rənglidir, buğumaraları 6,0-8,0 sm uzunluğunda olmaqla, zəif inkişaf edirlər. Yarpaqları beşpəncəlidir, uzununa oval formalıdır, kənarları bir qədər yuxarı yönəlmişdir, diametri 7,4±0,29 sm-dir. Üzəri tünd yaşıl rənglidir, alt tərəfində az miqdarda ağ tükcüklər olur. Yuxarı yan kəsiyi orta, bəzən dərin formalıdır, əsasən açıq liraşəkilli, iti diblidir. Aşağı yan kəsiyi isə dərin olmaqla, açıq formalıdır. Yarpağın kənarlarındakı dişcikləri müxtəlif

uzunluqdadır, enli oturacaqlı, iti ucludur. Saplaq oyuğu açıqdır (bəzən qapalı formada olur), enli kəsiklidir. Saplağı tünd şabalıdı rənglidir, uzunluğu orta damarın ölçüsünə bərabərdir. Çiçəkləri funksional dişi cinslidir. Tənəklərdə çoxlu çiçək salxımları əmələ gəlir. Bu yabanı üzüm biotipində də apomiksis çoxalma forması müəyyən edilmişdir. Əsasən çarpaz tozlanır və toxum əmələ gəlir. Salxımları çox xırdadır (uzun. 8-12 sm, eni 4-7 sm), orta kütləsi 80-120 q-dır. Gilələri seyrək yerləşir, oval formalıdır, ölçüləri xırda (diam. 8,0-10,0 sm), qırmızımtıl-qara rənglidir. Hər gilədə 2-4 ədəd kiçik toxum əmələ gəlir. Şirəsində şəkərliliyi 11-13 q/100 $sm^3$, turşuluğu 10,0-12 q/$dm^3$-dir. Vegetasiya dövrü 175-185 gündür. Şaxtalara çox dözümlüdür, 2003-cü ildə muxtar respublika ərazisində qeydə alınan mənfi 35°C-dən aşağı şaxtalara dözmüşdür. Xəstəlik və ziyanvericilərə yoluxma müşahidə olunmamışdır. Ərazidə yayılan yabanı üzümün müxtəlif biotiplərində fenotipik poliformizm xüsusiyyətləri və biometrik tədqiqat işlərinin olmaması taksonomik problemini həll etməyə imkan vermir. Ona görə də ərazidə yayılan Ayrınc-1, Darıdağ-1, İlandağ-9 və Ordubad-1 biotiplərinin yarpaqlarında yerinə yetirilmiş morfometrik ölçmələr əsasında variasiya analizləri aparılmışdır. Morfometrik tədqiqatlar 2011-ci ildə çap edilmiş interaktiv ampeloqrafiya metodikası ilə yerinə yetirilmişdir [243, 254]. Ərazidə yayılan 4 biotipin 105 yarpağındakı morfometrik ölçmələrinin 60 etalon sintiplə variasiya analizinin müqayisəli təhlili və klaster analizi aparılmışdır (cədvəl 1.6 və cədvəl 1.7). Hər bir biotip üçün aşağıdakı miqdarda yarpaqlar ölçülmüşdür: 1. Ayrıncdağ-1 - 23 ədəd, 2. Darıdağ-1 - 26 ədəd, 3 İlandağ-9 - 28 ədəd və 4. Ordubad-1 - 28 ədəd. Ərazidəki biotiplərin *V.v.ssp.sylvestris* Gmel. yarımnövünə aid olduğunun müəyənləşdirilməsi məqsədilə 1. Rusiyanın Şimali Qafqaz və Ukrayna ərazilərində yayılan, 2. Kuban DAU-nun təcrübə sahəsində (Krasnodar), 3. Nikita botanika bağında (Yalta), 4. V.L. Komarov adına Mərkəzi Botanika Bağında (Sankt-Peterburq) yayılan *V.v.ssp.sylvestris* Gmel. yarımnövünün 60 ədəd yarpağında aparılmış morfometrik ölçmələrinin nəticələrindən müqayisə məqsədilə etalon kimi istifadə edilmişdir. Tədqiqat işləri Kuban Dövlət Universitetinin Üzümçülük kafedrasının rəhbəri, görkəmli tədqiqatçı, prof. L.P. Troşin ilə birgə aparılmışdır. İrsi əlamətlər isə qəbul edilmiş kodlarla göstərilmişdir. Nəticələrin təhlili onu qeyd etməyə əsas verir ki, muxtar respublika ərazisində yabanı üzüm lianlarının yarpaqlarının morfometrik göstəriciləri Rusiya və Ukrayna ərazilərində yayılan yabanı üzüm lianlarından nisbətən yüksək olmuşdur. Əksər hallarda orta həd göstəricisinin statistik qiymətləndirmələrinin (d=x1-x2) dəqiqliyi yüksək (P < 5 %) olmuşdur. Buradan da müqayisə olunan Naxçıvan MR, Rusiya və Ukrayna ərazilərində yayılan yabanı lianların morfoloji fərqlənmələri birbaşa ölçülən 22 əlamətə görə deyil, həm də ilkin məlumat əsasında sadə arifmetik yolla hesablanmış 18 indeks üzrə də aşkar olunmuşdur. Ona görə də müxtəlif biotiplərin yarpaqlarının morfoloji oxşarlığını müəyyən etmək üçün çoxölçülü analiz - Klaster üsulundan istifadə edilməsi zərurəti yaranmışdır. Varda üsulu ilə aparılan, Rusiya, Ukrayna

*Cədvəl 1.6*

**Naxçıvan MR-də yayılan 4 yabanı üzüm biotipin yarpaqlarında 40 irsi əlaməti üzrə morfometrik variasiya analizləri**

| Parametrləri | Ampeloqrafik əlamətləri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *651* | *652* | *092* | *601* | *602* | *603* | *604* | *605* | *606* | *607* |
| 1. Orta göstərici 23 | 9,43 | 9,47 | 5,00 | 6,36 | 6,37 | 4,63 | 2,76 | 3,00 | 3,19 | 51,13 |
| Orta xətalar | 0,22 | 0,19 | 0,16 | 0,16 | 0,13 | 0,13 | 0,08 | 0,14 | 0,10 | 1,88 |
| Stand. kənarlaşma | 1,04 | 0,93 | 0,76 | 0,78 | 0,64 | 0,63 | 0,40 | 0,65 | 0,46 | 9,03 |
| interval | 3,13 | 3,57 | 2,74 | 2,62 | 2,73 | 1,91 | 1,46 | 3,25 | 1,40 | 36,28 |
| minimum | 7,81 | 7,67 | 3,38 | 4,95 | 4,95 | 3,59 | 1,97 | 2,20 | 2,50 | 33,41 |
| maksimum | 10,94 | 11,24 | 6,12 | 7,57 | 7,68 | 5,50 | 3,43 | 5,45 | 3,90 | 69,69 |
| CV | 11,0 | 9,8 | 15,2 | 12,3 | 10,1 | 13,5 | 14,5 | 21,6 | 14,3 | 17,7 |
| 2. . Orta göstərici 26 | 10,15 | 10,33 | 4,92 | 6,91 | 6,48 | 4,72 | 2,90 | 3,32 | 3,52 | 52,72 |
| Orta xətalar | 0,19 | 0,21 | 0,19 | 0,14 | 0,12 | 0,09 | 0,08 | 0,10 | 0,07 | 1,63 |
| Stand. kənarlaşma | 0,97 | 1,09 | 0,99 | 0,69 | 0,63 | 0,47 | 0,42 | 0,50 | 0,37 | 8,30 |
| interval | 3,99 | 3,97 | 3,99 | 3,34 | 2,38 | 1,80 | 1,63 | 2,51 | 1,48 | 32,06 |
| minimum | 8,35 | 8,06 | 2,94 | 5,41 | 5,28 | 3,81 | 1,90 | 2,23 | 2,85 | 37,36 |
| maksimum | 12,34 | 12,03 | 6,94 | 8,75 | 7,66 | 5,61 | 3,53 | 4,74 | 4,34 | 69,42 |
| CV | 9,5 | 10,6 | 20,1 | 10,0 | 9,8 | 9,9 | 14,4 | 15,0 | 10,4 | 15,7 |
| 3. Orta göstərici 28 | 9,61 | 8,78 | 5,82 | 7,38 | 6,63 | 4,53 | 2,65 | 2,90 | 2,55 | 37,16 |
| Orta xətalar | 0,21 | 0,18 | 0,31 | 0,18 | 0,15 | 0,10 | 0,07 | 0,09 | 0,06 | 1,10 |
| Stand. kənarlaşma | 1,09 | 0,95 | 1,65 | 0,97 | 0,80 | 0,51 | 0,38 | 0,50 | 0,34 | 5,80 |
| interval | 3,97 | 3,11 | 7,06 | 3,49 | 2,72 | 1,83 | 1,37 | 2,07 | 1,26 | 23,75 |
| minimum | 7,00 | 7,08 | 2,82 | 5,18 | 4,92 | 3,58 | 1,80 | 2,10 | 1,85 | 26,60 |
| maksimum | 10,98 | 10,19 | 9,88 | 8,66 | 7,65 | 5,41 | 3,18 | 4,17 | 3,11 | 50,35 |
| CV | 11,3 | 10,8 | 28,4 | 13,2 | 12,1 | 11,3 | 14,3 | 17,3 | 13,4 | 15,6 |
| 4. Orta göstərici 28 | 13,53 | 13,52 | 7,81 | 9,52 | 9,16 | 6,39 | 3,90 | 7,45 | 5,79 | 42,84 |
| Orta xətalar | 0,29 | 0,35 | 0,34 | 0,24 | 0,18 | 0,16 | 0,10 | 0,22 | 0,19 | 0,66 |
| Stand. kənarlaşma | 1,53 | 1,86 | 1,81 | 1,27 | 0,95 | 0,84 | 0,51 | 1,14 | 1,01 | 3,47 |
| interval | 7,75 | 6,78 | 7,75 | 6,19 | 3,30 | 3,56 | 1,77 | 5,76 | 3,85 | 15,06 |
| minimum | 10,67 | 10,49 | 5,13 | 7,37 | 7,81 | 5,16 | 2,99 | 5,37 | 4,71 | 35,09 |
| maksimum | 18,43 | 17,27 | 12,88 | 13,56 | 11,11 | 8,71 | 4,76 | 11,13 | 8,55 | 50,16 |
| CV | 11,3 | 13,8 | 23,1 | 13,4 | 10,3 | 13,2 | 13,1 | 15,3 | 17,4 | 8,1 |

*Cədvəl 1.6-nın ardı*

| Parametrləri | Ampeloqrafik əlamətləri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *608* | *609* | *610* | *611* | *612* | *613* | *614* | *615* | *616* | *617* |
| 1. Orta göstərici 23 | 56,31 | 54,88 | 71,56 | 1,74 | 0,56 | 1,02 | 0,54 | 0,84 | 4,35 | 3,38 |
| Orta xətalar | 1,26 | 1,92 | 2,25 | 0,09 | 0,03 | 0,03 | 0,03 | 0,04 | 0,12 | 0,11 |
| Stand. kənarlaşma | 6,03 | 9,19 | 10,78 | 0,42 | 0,14 | 0,16 | 0,15 | 0,21 | 0,57 | 0,50 |
| interval | 22,24 | 34,59 | 44,42 | 1,82 | 0,54 | 0,65 | 0,56 | 0,77 | 2,00 | 1,83 |
| minimum | 45,49 | 37,87 | 52,77 | 1,03 | 0,32 | 0,63 | 0,27 | 0,46 | 4,00 | 2,12 |
| maksimum | 67,73 | 72,47 | 97,20 | 2,85 | 0,86 | 1,28 | 0,83 | 1,23 | 6,00 | 3,95 |
| CV | 10,7 | 16,7 | 15,1 | 24,1 | 25,0 | 15,7 | 28,8 | 24,7 | 13,2 | 14,9 |
| 2. . Orta göstərici 26 | 56,01 | 52,93 | 79,39 | 1,78 | 0,59 | 1,08 | 0,50 | 0,89 | 4,58 | 3,84 |
| Orta xətalar | 1,76 | 1,70 | 2,14 | 0,07 | 0,03 | 0,04 | 0,03 | 0,03 | 0,15 | 0,11 |
| Stand. kənarlaşma | 8,99 | 8,69 | 10,93 | 0,37 | 0,17 | 0,22 | 0,14 | 0,15 | 0,76 | 0,55 |
| interval | 34,36 | 33,94 | 56,32 | 1,47 | 0,65 | 0,80 | 0,57 | 0,62 | 3,00 | 1,90 |
| minimum | 36,85 | 34,51 | 60,00 | 1,05 | 0,32 | 0,58 | 0,19 | 0,53 | 4,00 | 3,13 |
| maksimum | 71,21 | 68,45 | 116,31 | 2,51 | 0,97 | 1,39 | 0,76 | 1,15 | 7,00 | 5,04 |
| CV | 16,1 | 16,4 | 13,8 | 20,6 | 28,7 | 20,4 | 27,6 | 17,4 | 16,6 | 14,4 |
| 3. Orta göstərici 28 | 51,26 | 46,10 | 63,29 | 1,76 | 0,77 | 0,77 | 0,65 | 0,75 | 5,25 | 3,54 |
| Orta xətalar | 1,45 | 1,21 | 1,14 | 0,07 | 0,04 | 0,03 | 0,03 | 0,02 | 0,08 | 0,09 |
| Stand. kənarlaşma | 7,69 | 6,43 | 6,02 | 0,37 | 0,23 | 0,15 | 0,14 | 0,13 | 0,44 | 0,49 |
| interval | 28,37 | 25,41 | 24,42 | 1,66 | 0,81 | 0,54 | 0,52 | 0,51 | 1,00 | 1,82 |
| minimum | 35,32 | 33,72 | 50,46 | 0,93 | 0,44 | 0,51 | 0,35 | 0,43 | 5,00 | 2,51 |
| maksimum | 63,69 | 59,13 | 74,88 | 2,59 | 1,25 | 1,05 | 0,87 | 0,94 | 6,00 | 4,33 |
| CV | 15,0 | 13,9 | 9,5 | 20,9 | 29,5 | 19,3 | 20,7 | 17,5 | 8,4 | 13,9 |
| 4. Orta göstərici 28 | 59,20 | 47,18 | 67,26 | 2,46 | 0,38 | 0,96 | 0,38 | 0,92 | 9,21 | 5,48 |
| Orta xətalar | 1,20 | 1,39 | 1,65 | 0,07 | 0,02 | 0,04 | 0,02 | 0,03 | 0,19 | 0,17 |
| Stand. kənarlaşma | 6,33 | 7,37 | 8,75 | 0,36 | 0,12 | 0,20 | 0,10 | 0,17 | 0,99 | 0,89 |
| interval | 29,52 | 25,79 | 33,52 | 1,55 | 0,45 | 0,74 | 0,41 | 0,81 | 5,00 | 3,38 |
| minimum | 43,37 | 36,25 | 53,68 | 1,90 | 0,19 | 0,53 | 0,16 | 0,69 | 6,00 | 4,27 |
| maksimum | 72,90 | 62,05 | 87,20 | 3,45 | 0,64 | 1,27 | 0,57 | 1,50 | 11,00 | 7,66 |
| CV | 10,7 | 15,6 | 13,0 | 14,8 | 31,2 | 20,6 | 25,1 | 18,4 | 10,8 | 16,2 |

*Cədvəl 1.6-nın ardı*

| Parametrləri | Ampeloqrafik əlamətləri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *618* | *619* | *651*652* | *651/52* | *601/92* | *603/01* | *604/01* | *611/01* | *613/12* | *615/14* |
| 1. Orta göstərici 23 | 0,81 | 3,26 | 89,98 | 1,00 | 1,29 | 0,73 | 0,44 | 0,28 | 1,91 | 1,68 |
| Orta xətalar | 0,10 | 0,15 | 3,61 | 0,02 | 0,04 | 0,02 | 0,01 | 0,02 | 0,10 | 0,13 |
| Stand. kənarlaşma | 0,46 | 0,73 | 17,29 | 0,08 | 0,21 | 0,10 | 0,07 | 0,08 | 0,50 | 0,61 |
| interval | 1,60 | 3,42 | 58,15 | 0,27 | 0,76 | 0,34 | 0,27 | 0,35 | 2,14 | 2,81 |
| minimum | 0,20 | 1,24 | 61,26 | 0,89 | 0,97 | 0,58 | 0,32 | 0,17 | 1,03 | 0,80 |
| maksimum | 1,80 | 4,66 | 119,40 | 1,17 | 1,73 | 0,92 | 0,58 | 0,52 | 3,17 | 3,61 |
| CV | 56,2 | 22,3 | 19,2 | 8,0 | 16,1 | 13,5 | 15,4 | 28,0 | 26,2 | 36,5 |
| 2. . Orta göstərici 26 | 0,60 | 3,58 | 105,56 | 0,99 | 1,46 | 0,69 | 0,42 | 0,26 | 1,94 | 1,88 |
| Orta xətalar | 0,05 | 0,08 | 3,82 | 0,01 | 0,06 | 0,01 | 0,01 | 0,01 | 0,10 | 0,10 |
| Stand. kənarlaşma | 0,26 | 0,40 | 19,48 | 0,08 | 0,31 | 0,06 | 0,07 | 0,06 | 0,53 | 0,49 |
| interval | 1,00 | 1,56 | 73,48 | 0,30 | 1,39 | 0,29 | 0,26 | 0,28 | 2,25 | 1,77 |
| minimum | 0,15 | 2,82 | 67,31 | 0,81 | 1,02 | 0,55 | 0,27 | 0,14 | 0,74 | 1,10 |
| maksimum | 1,15 | 4,38 | 140,79 | 1,11 | 2,41 | 0,83 | 0,53 | 0,42 | 2,99 | 2,88 |
| CV | 42,6 | 11,1 | 18,5 | 7,7 | 21,6 | 9,2 | 16,0 | 23,5 | 27,5 | 26,2 |
| 3. Orta göstərici 28 | 2,31 | 3,41 | 85,30 | 1,09 | 1,37 | 0,62 | 0,36 | 0,24 | 1,04 | 1,18 |
| Orta xətalar | 0,12 | 0,10 | 3,31 | 0,01 | 0,09 | 0,01 | 0,01 | 0,01 | 0,05 | 0,05 |
| Stand. kənarlaşma | 0,64 | 0,53 | 17,54 | 0,05 | 0,45 | 0,05 | 0,04 | 0,04 | 0,24 | 0,25 |
| interval | 2,31 | 1,75 | 58,73 | 0,19 | 2,07 | 0,22 | 0,17 | 0,21 | 1,09 | 1,15 |
| minimum | 1,10 | 2,41 | 49,76 | 0,98 | 0,75 | 0,50 | 0,29 | 0,14 | 0,75 | 0,73 |
| maksimum | 3,41 | 4,16 | 108,49 | 1,17 | 2,82 | 0,72 | 0,46 | 0,35 | 1,84 | 1,88 |
| CV | 27,9 | 15,5 | 20,6 | 4,7 | 32,9 | 8,0 | 10,4 | 18,5 | 23,4 | 21,3 |
| 4. Orta göstərici 28 | 1,35 | 4,88 | 185,16 | 1,01 | 1,27 | 0,68 | 0,41 | 0,26 | 2,73 | 2,64 |
| Orta xətalar | 0,13 | 0,12 | 8,61 | 0,02 | 0,05 | 0,01 | 0,01 | 0,01 | 0,14 | 0,21 |
| Stand. kənarlaşma | 0,70 | 0,64 | 45,56 | 0,09 | 0,29 | 0,08 | 0,05 | 0,04 | 0,74 | 1,10 |
| interval | 2,95 | 2,56 | 200,99 | 0,41 | 1,56 | 0,37 | 0,20 | 0,16 | 2,99 | 5,56 |
| minimum | 0,50 | 3,84 | 117,31 | 0,90 | 0,76 | 0,52 | 0,31 | 0,18 | 0,83 | 1,51 |
| maksimum | 3,45 | 6,39 | 318,30 | 1,31 | 2,33 | 0,89 | 0,51 | 0,34 | 3,82 | 7,07 |
| CV | 51,9 | 13,1 | 24,6 | 8,8 | 22,9 | 11,6 | 12,7 | 13,7 | 27,0 | 41,7 |

*Cədvəl 1.6-nın ardı*

| Parametrləri | Ampeloqrafik əlamətləri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *602/05* | *602/01* | *603/06* | *614/15* | *612/13* | *607+08* | *607+10* | *607+8+9* | *7+8+10* | *616*17* |
| 1. Orta göstərici 23 | 2,18 | 1,02 | 1,47 | 0,67 | 0,56 | 107,44 | 122,69 | 162,32 | 179,00 | 14,62 |
| Orta xətalar | 0,08 | 0,04 | 0,05 | 0,05 | 0,03 | 2,25 | 3,55 | 3,21 | 3,39 | 0,50 |
| Stand. kənarlaşma | 0,38 | 0,17 | 0,25 | 0,23 | 0,16 | 10,79 | 17,02 | 15,39 | 16,24 | 2,39 |
| interval | 1,90 | 0,63 | 0,82 | 0,98 | 0,65 | 38,72 | 61,72 | 48,37 | 60,56 | 10,52 |
| minimum | 1,21 | 0,72 | 1,15 | 0,28 | 0,32 | 93,24 | 94,87 | 141,19 | 158,31 | 8,48 |
| maksimum | 3,12 | 1,35 | 1,97 | 1,25 | 0,97 | 131,96 | 156,60 | 189,56 | 218,87 | 19,00 |
| CV | 17,3 | 16,8 | 17,3 | 34,1 | 28,6 | 10,0 | 13,9 | 9,5 | 9,1 | 16,3 |
| 2. . Orta göstərici 26 | 2,00 | 0,94 | 1,35 | 0,57 | 0,57 | 108,73 | 132,11 | 161,66 | 188,12 | 17,46 |
| Orta xətalar | 0,07 | 0,01 | 0,03 | 0,03 | 0,04 | 2,33 | 2,85 | 2,92 | 3,19 | 0,61 |
| Stand. kənarlaşma | 0,36 | 0,08 | 0,18 | 0,14 | 0,21 | 11,88 | 14,53 | 14,87 | 16,29 | 3,11 |
| interval | 2,03 | 0,31 | 0,68 | 0,56 | 1,02 | 52,75 | 56,33 | 57,34 | 73,20 | 12,29 |
| minimum | 1,11 | 0,78 | 1,10 | 0,35 | 0,33 | 79,75 | 111,68 | 133,05 | 158,26 | 12,88 |
| maksimum | 3,14 | 1,09 | 1,78 | 0,90 | 1,36 | 132,50 | 168,01 | 190,39 | 231,46 | 25,16 |
| CV | 18,2 | 8,0 | 13,0 | 25,4 | 37,9 | 10,9 | 11,0 | 9,2 | 8,7 | 17,8 |
| 3. Orta göstərici 28 | 2,34 | 0,91 | 1,80 | 0,89 | 1,00 | 88,42 | 100,45 | 134,52 | 151,71 | 18,54 |
| Orta xətalar | 0,08 | 0,02 | 0,06 | 0,03 | 0,04 | 1,41 | 1,60 | 1,85 | 1,88 | 0,55 |
| Stand. kənarlaşma | 0,42 | 0,10 | 0,30 | 0,18 | 0,20 | 7,48 | 8,47 | 9,81 | 9,94 | 2,89 |
| interval | 1,53 | 0,45 | 1,35 | 0,84 | 0,79 | 24,72 | 33,99 | 36,26 | 37,58 | 11,78 |
| minimum | 1,74 | 0,67 | 1,15 | 0,53 | 0,54 | 77,51 | 79,23 | 112,89 | 135,35 | 12,57 |
| maksimum | 3,27 | 1,12 | 2,50 | 1,37 | 1,33 | 102,22 | 113,22 | 149,15 | 172,93 | 24,36 |
| CV | 18,0 | 11,0 | 16,8 | 20,8 | 20,3 | 8,5 | 8,4 | 7,3 | 6,6 | 15,6 |
| 4. Orta göstərici 28 | 1,25 | 0,97 | 1,12 | 0,42 | 0,41 | 102,04 | 110,10 | 149,22 | 169,30 | 50,46 |
| Orta xətalar | 0,04 | 0,02 | 0,02 | 0,02 | 0,03 | 1,29 | 1,90 | 2,00 | 1,85 | 1,72 |
| Stand. kənarlaşma | 0,19 | 0,11 | 0,13 | 0,12 | 0,18 | 6,81 | 10,04 | 10,57 | 9,77 | 9,09 |
| interval | 0,87 | 0,46 | 0,61 | 0,52 | 0,94 | 34,48 | 36,49 | 52,75 | 52,04 | 41,56 |
| minimum | 0,84 | 0,69 | 0,78 | 0,14 | 0,26 | 78,47 | 93,24 | 119,07 | 144,93 | 25,64 |
| maksimum | 1,71 | 1,15 | 1,39 | 0,66 | 1,20 | 112,95 | 129,73 | 171,82 | 196,97 | 67,19 |
| CV | 15,3 | 11,5 | 11,3 | 28,5 | 44,8 | 6,7 | 9,1 | 7,1 | 5,8 | 18,0 |

*Cədvəl 1.7*

**Herbari fondunda olan *V.v.ssp.sylvestris* C.C.Gmel.- 40 irsi əlaməti üzrə 60 ədəd yarpağında aparılan morfometrik variasiya analizləri**

| Parametrləri | Ampeloqrafik əlamətləri (kodları,OIV) | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *065-1* | *065-2* | *092* | *601* | *602* | *603* | *604* | *605* | *606* | *607* |
| 1. Orta göstərici | 8,17 | 7,68 | 5,12 | 6,57 | 5,62 | 3,84 | 2,18 | 3,30 | 2,98 | 40,99 |
| orta xətalar | 0,26 | 0,25 | 0,20 | 0,22 | 0,18 | 0,14 | 0,09 | 0,13 | 0,10 | 0,93 |
| stand. kənarlaşma | 2,02 | 1,90 | 1,56 | 1,71 | 1,42 | 1,10 | 0,68 | 1,00 | 0,77 | 7,22 |
| interval | 8,47 | 8,54 | 6,69 | 7,59 | 7,36 | 7,23 | 2,90 | 4,20 | 3,98 | 36,10 |
| minimum | 3,91 | 3,20 | 1,73 | 3,23 | 2,36 | 1,62 | 0,80 | 1,42 | 1,33 | 21,97 |
| maksimum | 12,39 | 11,74 | 8,42 | 10,82 | 9,72 | 8,85 | 3,70 | 5,62 | 5,31 | 58,07 |
| CV | 24,8 | 24,8 | 30,4 | 26,0 | 25,2 | 28,7 | 31,2 | 30,3 | 26,0 | 17,6 |
| | *608* | *609* | *610* | *611* | *612* | *613* | *614* | *615* | *616* | *617* |
| 2. Orta göstərici | 47,71 | 49,59 | 57,53 | 1,34 | 0,48 | 0,64 | 0,36 | 0,54 | 5,37 | 2,19 |
| orta xətalar | 0,86 | 1,22 | 1,87 | 0,07 | 0,02 | 0,03 | 0,02 | 0,02 | 0,17 | 0,09 |
| stand. kənarlaşma | 6,65 | 9,46 | 14,49 | 0,51 | 0,17 | 0,22 | 0,14 | 0,17 | 1,34 | 0,69 |
| interval | 30,90 | 46,09 | 60,45 | 3,12 | 0,84 | 1,20 | 0,74 | 0,93 | 6,00 | 3,20 |
| minimum | 31,73 | 20,71 | 28,02 | 0,03 | 0,09 | 0,24 | 0,10 | 0,20 | 3,00 | 0,95 |
| maksimum | 62,63 | 66,80 | 88,47 | 3,16 | 0,93 | 1,44 | 0,84 | 1,12 | 9,00 | 4,15 |
| CV | 13,9 | 19,1 | 25,2 | 38,5 | 35,7 | 33,3 | 39,1 | 32,1 | 25,0 | 31,7 |
| | *618* | *619* | *651*652* | *651/652* | *601/092* | *603/601* | *604/601* | *611/601* | *613/612* | *615/614* |
| 3. Orta göstərici | 1,91 | 2,80 | 66,21 | 1,07 | 1,37 | 0,59 | 0,34 | 0,21 | 1,45 | 1,57 |
| orta xətalar | 0,10 | 0,12 | 4,01 | 0,02 | 0,06 | 0,01 | 0,01 | 0,01 | 0,08 | 0,05 |
| stand. kənarlaşma | 0,76 | 0,96 | 31,05 | 0,12 | 0,44 | 0,12 | 0,09 | 0,09 | 0,60 | 0,41 |
| interval | 3,33 | 6,22 | 130,68 | 0,59 | 1,92 | 0,61 | 0,45 | 0,72 | 4,33 | 1,94 |
| minimum | 0,62 | 0,98 | 12,53 | 0,79 | 0,57 | 0,42 | 0,18 | 0,01 | 0,64 | 0,70 |
| maksimum | 3,95 | 7,20 | 143,20 | 1,38 | 2,49 | 1,03 | 0,63 | 0,72 | 4,97 | 2,64 |
| CV | 39,7 | 34,3 | 46,9 | 11,5 | 32,3 | 19,5 | 27,9 | 44,7 | 41,9 | 25,8 |
| | *602/605* | *602/601* | *603/606* | *614/615* | *612/613* | *607+608* | *607+610* | *607+8+9* | *607+8+10* | *616*617* |
| 4. Orta göstərici | 1,79 | 0,87 | 1,32 | 0,68 | 0,77 | 88,69 | 98,52 | 138,28 | 146,23 | 12,05 |
| orta xətalar | 0,07 | 0,02 | 0,05 | 0,03 | 0,03 | 1,32 | 1,74 | 1,69 | 2,07 | 0,73 |
| stand. kənarlaşma | 0,52 | 0,14 | 0,37 | 0,20 | 0,24 | 10,22 | 13,50 | 13,08 | 16,01 | 5,62 |
| interval | 2,46 | 0,91 | 2,57 | 1,05 | 1,37 | 48,58 | 51,00 | 54,83 | 68,07 | 25,70 |
| minimum | 0,99 | 0,65 | 0,86 | 0,38 | 0,20 | 62,47 | 72,56 | 108,11 | 111,37 | 3,33 |
| maksimum | 3,46 | 1,57 | 3,43 | 1,43 | 1,57 | 111,04 | 123,56 | 162,94 | 179,44 | 29,03 |
| CV | 29,0 | 16,2 | 28,4 | 29,0 | 31,2 | 11,5 | 13,7 | 9,5 | 11,0 | 46,6 |

ərazilərində yayılan və etalon kimi götürülmüş yabanı üzümün Naxçıvan MR-də yayılan biotiplərinin (Ayrıncdağ-1 - C_2, Darıdağ-1- C_3, İlandağ-9 - C_4, Ordubad-1-C_5) interaktiv morfometrik hesablamalarının klaster analizləri nəticəsində aşkar edilmişdir ki, İlandağ-9 biotipi 40 morfometrik əlaməti üzrə müqayisə olunan sinifllərə oxşardır və birinci superklaster əmələ gətirir. Ona görə də yarpaqlarının irsi əlamətlərinə görə İlandağ-9 biotipi daha çox *V.v.ssp.sylvestris* Gmel. yarımnövünə uyğun gəlir (Şəkil 1.3).




Şəkil 1.3 Yarpaqların 40 irsi əlaməti üzrə Naxçıvan MR-in 4 yabanı üzüm biotipinin və etalon yabanı üzümün klaster analizlərinin dendroqramması

Birinci superklasterdən sonra Ayrıncdağ-1 (C_2), və Darıdağ -1 (C_3) biotipləri də fenotipik əlamətlərinə görə *V.v.ssp. sylvestris* Gmel. yarımnövünə aid edilə bilər. Ordubad-1 (C_5) biotipi isə daha az morfoloji əlamətləri ilə *V.v.ssp. sylvestris* yarımnövünə uyğun gəlir. Buradan belə bir nəticə çıxarmaq olar ki, morfogenetik əlamətlərinə görə Ayrıncdağ-1, Darıdağ -1, İlandağ - 9 biotipləri *V.ssp. sylvestris* yarımnövünə aiddirlər. Naxçıvan MR-də yayılan 4 biotiplər (C_2 …C_5) yarpağın 40 parametrinə görə Varda üsulu ilə Şimali Qafqaz regionunda yayılan 6 biotiplərlə (damanski-C_6, neçayevski-C_7, virovski-C__8, qoryaçe-klyuçevski-C_9, xostinski-C_10 və Dağıstan-C_11) lianları ilə etolan kimi müqayisəli klaster analizi aparılmışdır (şəkil 1.4).




Şəkil 1.4. Yarpaqların 40 irsi əlaməti üzrə Naxçıvan MR-ın 4, Şimali Qafqazın 6 biotipinin və etalon yabanı üzümün klaster analizlərinin dendroqramması

Dendroqrammadan göründüyü kimi V.v.ssp.sylvestris Gmel. yarımnövünün klasterində 9 biotip (C_1, C_4, C_11, C_6, C_8, C_10, C_7, C_2 və C_3) oxşar morfotiplərdir, superklaster Naxçıvanın Ordubad-1 və Kubanın qoryaçe- klyuçevski biotipləri isə bir qədər fərqli morfotiplərdir. Ancaq 40 taksonomik əlamətlər üzrə kənara çıxmalar P<5 % həddində (əlamətlərdən 613, 615, 651*652, 603/601, 611/601, 615/614, 602/605, 602/601, 603/606 və 612/613) biotiplərinin 30 morfoloji əlamətlər üzrə dendroqramması verilmişdir (şəkil 1.5).




Şəkil 1.5. Şimali Qafqazın 6 yabanı üzüm biotipinin klaster analizlərinin etalonla müqayisəli dendroqramması

Beləliklə, dispersiya analizləri nəticəsində alınan dendroqrammalardan aydın olur ki, Şimali Qafqaz ərazisində 6, Naxçıvan MR-də isə 1 biotip (İlandağ- 9) *V.ssp.sylvestris* Gmel. yarımnövünün ümumi klasterinə daxil olurlar. Ayrıncdağ-1-C_2, Darıdağ-1- C_3, Ordubad-1-C_5 biotipləri də klaster analizlərinin nəticələrinə və ampelodeskriptor xüsusiyyətlərinə görə *V.v.ssp.sylvestris* Gmel. yarımnövünə aid edilə bilər. Biotiplər həm salxımların, həm də gilələrin morfotiplərinə görə də bir-birlərindən fərqlənirlər.

Tədqiqat dövrü aşkar edilən *V.v.ssp.sulvestris* Gmel. və yabanı üzüm biotiplərinin ampelodeskriptor xüsusiyyətləri (cədvəl 1.8) və salxımların orta kütləsinin riyazi-statistik göstəriciləri hesablanmışdır (cədvəl 1.9).

Əldə olunmuş göstəricilərə görə ən çox fərqlənən Ayrıncdağ-1, İlandağ-9, Darıdağ-1 biotipləri olmuşdur. Yabanı üzüm formaları, xüsusilə erkək çiçək tipli variasiyası şaxtalara, xəstəlik və ziyanvericilərə davamlı oluqlarından seleksiya işlərində onlardan bir başlanğıc material kimi istifadə olunmuşdur. Tədqiqatlarla müəyyən edilmişdir ki, salxım çiçəklərinin böyüklüyü və formasına görə becərilən üzüm sortları ilə yabanı üzümün erkək çiçəkli variasiyası arasında bir uyğunluq vardır. Ərazidəki qara giləli funksional dişi çiçək tipli yabanı üzüm növü ilə becərilən sortlar salxım çiçəklərinin ölçüsü və formasına görə tam oxşarlıq təşkil edirlər. Bu

*Cədvəl 1.8*

**Naxçıvan MR-də yabanı üzümün (*Vitis sylvestris* Gmel.) və bəzi variasiyalarının əsas ampelo-deskriptor xüsusiyyətləri**

| Şifrələr | Genetik əlamətlər | Morfoloji əlamətlərin kodu və təzahür forması | | | | |
|---|---|---|---|---|---|---|
| | | *Vitis sylvestris* Gmel. | Ordubad - 1 variasiyası | Darı-dağ-1 variasiyası | Ayrıncdağ-1 variasiyası | İlandağ-9 |
| 1 | 2 | *3* | 4 | 5 | 6 | 7 |
| 004 | tac üzərində ag torabənzər tükləmənin intensivliyi (sıxlığı): | 3 - zəif | 1 - çox zəif | 5 - orta | 1 - çox zəif | 5-orta |
| 053 | yarpaqlarda əsas damarların arasında ağ torabənzər tükləmə | 5 - orta | 1 - çox zəif | 5 - orta | 3 - zəif | 5-orta |
| 065 | yarpaq səthinin sahəsi (böyüklüyü): | 3 - xırda | 7 - iri | 1 - çox xırda | 5 - orta | 5-orta |
| 067 | yarpağın forması | 4 - dairəvi | 4 - dairəvi | 2 - ürəkvari | 4 - dairəvi | 4 - dairəvi |
| 068 | yarpaq pəncələrinin sayı | 3 - beş pəncəli | 1-tam ayalı | 3 - beş pəncəli | 3- beş pəncəli | 3-beş pəncəli |
| 069 | yaşıl zoğlarda ilk 3-5 yarpağın səthinin rəngi | 5 - yaşıl | 9 - intensiv tünd yaşıl | 7 - tünd yaşıl | 5 - yaşıl | 7 - tünd yaşıl |
| 074 | yarpağın yandan görünüşü | 3 - yuxarı yönəlir | 1 - səhti düzdür | 3- yuxarı yönəlir | 5-yuxarı yönəlir | 3-yuxarı yönəlir |
| 075 | yarpaq səhtində qabarcıqlar | 5 – opтa | 5 – opтa | 5 - opтa | 5 – opтa | 5 – opтa |
| 076 | yarpaq kənarlarındakı dişciklərin forması | 3 - hər iki tərəfi mailli | 3 - hər iki tərəfi mailli | 2 - hər iki tərəfi mailli | 2 - hər iki tərəfi mailli | 5 – bir tərəfi düz |
| 079 | saplaq oyuğunun forması | 1 - çox açıq | 5 - qapalı | 2 - enli açıq | 1 - çox açıq | 2 - enli açıq |
| 082 | yuxarı yan kəsiyin forması | 1- açıq | tam ayalı | 3 - pəncələri azca qapanır | 3 - pəncələri azca qapanır | 1- açıq |
| 084 | yarpaqların alt səthində damarlar arasında ağ torabənzər tükləmə | 5 - orta | 1 - yoxdur | 5 - orta | 5 - orta | 5 - orta |
| 085 | yarpaqların alt səthində damarlar arasında ağ tükcüklər | 3 - zəif | 1 - yoxdur | 3 - çox zəif | 5 - orta | 5 - orta |
| 093 | saplaq uzunluğunun əsas (orta) damarın uzunluğuna nisbəti | 5 - bərabər | 5 - bərabər | 7 - uzun | 7 - uzun | 7 - uzun |
| 151 | çiçək tipi | 5 - funksional dişi | 1- erkək tipli | 5-funksional dişi | 5 – funksional dişi | 5 – funksional dişi |
| 202 | salxımın ölçüsü (uzunluğu + eni) | 1 - çox xırda | - | 1- çox xırda | 3 - kiçik | 3 - kiçik |
| 204 | salxımın sıxlığı | 1- çox seyrək | - | 5 - orta | 5 - orta | 3 – seyrək |
| 206 | salxım saplağının uzunluğu | 5 - orta | - | 5 - orta | 9 - çox uzun | 9 - çox uzun |
| | | | | | | |
| 207 | salxım saplağının odunlaşması | 5 - orta | | 5 - orta | 5 - orta | 5 - orta |
| 220 | gilələrin ölçüsü (eni, uzunluğu) | 3-kiçik (7-13 mm) | - | 1 - çox kiçik (6,0 mm-ə qədər) | 3 - kiçik (7-13 mm) | 3 - kiçik (7-13 mm) |
| 223 | gilələrin forması | 4 - az oval | - | 3 - dairəvi | 3 - dairəvi | 4 - az oval |
| 225 | gilədə qabığın rəngi | 7 - qırmızı-qara | - | 6-göyümtül-qara | 7 - qırmızımtıl-qara | 7–qırmızı-qara |
| 228 | gilədə dəriciyin qalınlığı | 9 - çox qalın | - | 9 - çox qalın | 7 – qalın | 7 – qalın |
| 236 | gilələrin dad xüsusiyyəti | 1 - adi | - | 1 - adi | 1 - adi | 1 - adi |
| 238 | salxımlarda meyvə saplağının uzunluğu | 5 - orta (8-12 mm) | - | 3 -qısa (4-8 mm-ə qədər) | 5 - orta (8-12 mm) | 5 – orta (8-12 mm) |
| 241 | gilələrdə toxumların cücərməyə yararlılığı | 3 - tam yararlı | - | 3 - tam yararlı | 3 - tam yararlı | 3 - tam yararlı |
| 243 | toxumun kütləsi | 3 - xırda | - | 3 - xırda | 3 - xırda | 3 - xırda |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| *b) bioloji-təsərrüfat xüsusiyyətləri* | | | | | | |
| 629 | məhsulun tam yetişməsinə qədər vegetasiya müddəti | 8 - çox gecyetişən (165 gündən çox) | - | 4 - orta-tez (125-135 gün) | 4 - orta-tez (125-135 gün) | 8 - çox gecyetişən |
| 153 | zoğlarda çiçək salxımlarının miqdarı | 2 - 1,1-2,2 çiçək salxımlı | 2 1,1-2,0 çiçəksalxımlı | 2 - 1,1-2,0 çiçək salxımlı | 2 - 1,1-2,2 çiçək salxımlı | 2 - 1,1-2,2 çiçəksalxımlı |
| 504 | növün məhsuldarlığı | 3 - aşağı | - | 3 - aşağı | 5 - orta | 1 – çox aşağı |
| 505 | şirədə şəkərlilik q/sm$^3$ | 1 - çox aşağı (14 q/100 sm$^3$-ə qədər) | - | 1 - çox aşağı (14 q/100 sm$^3$-ə qədər) | 3 – aşağı (14-17 q/100 sm$^3$-ə ) | 1 - çox aşağı (14 q/100 sm$^3$-ə qədər) |
| 506 | şirədə turşuluq (çaxır turşusuna əsasən), q/l | 9 - çox yüksək | - | 7 - yüksək (10-12 q/dm$^3$) | 7 - yüksək (8-12 q/dm$^3$) | 9 - çox sürətli |
| 351 | çubuqların inkişaf sürəti | 3 - zəif | 9 - çox sürətli | 2-zəif (0,5-1,2 m) | 3 - zəif | 5 - orta |
| 603 | istifadə olunma istiqaməti | 4 - texniki | - | 4 - texniki | 4 - texniki | 4 - texniki |
| 604 | çubuqların mumyetişmə dərəcəsi, % | 9 - çox yüksək | 9 - çox yüksək | 9 - çox yüksək | 7 - orta | 7 - orta |
| 630 | tumurcuqların cücərmə dərəcəsi | 5 - orta | 9 - çox yüksək | 5 - orta | 7 - orta | 5 - orta |
| 631 | şaxtalara dözümlülüyü | 9 - çox yüksək | 9 - çox yüksək | 9 - çox yüksək | 9 - çox dözümlu | 7 – yüksək |
| 632 | yüksək temperatura dözümlülüyü | 9 - çox yüksək | 9 - çox yüksək | 9 - çox yüksək | - | 7 – yüksək |

*Cədvəl 1.9*

**Yabanı üzüm biotiplərində salxımların orta kütləsinin riyazi-statistik göstəriciləri**

| Yabanı üzüm və biotiplər | Orta rəqəm $\overline{X}$ | Dispersiya, $S^2$ | Orta kvadratik kənarlanma, S | Orta kvadrat kənarlanmanın səhvi, Sx | Variasiya əmsalı - V, % | Təcrübənin dəqiqliyi - P, % |
|---|---|---|---|---|---|---|
| *V.v.ssp. sylvestris* G | 52,3 | 63,36 | 7,96 | 2,52 | 15,2 | 0,99 |
| Darıdağ-1 | 85,5 | 169,0 | 13,00 | 4,11 | 15,2 | 4,80 |
| İlandağ-9 | 43,5 | 133,2 | 11,54 | 3,65 | 26,5 | 8,39 |
| İlandağ-2 | 97,8 | 325,1 | 18,03 | 5,70 | 18,4 | 5,80 |
| Ayrıncdağ-1 | 102,5 | 169,0 | 13,00 | 4,11 | 12,7 | 4,00 |
| Havuş-1 | 65,0 | 42,25 | 6,50 | 2,06 | 10,0 | 3,17 |
| Əshabu-kəf-1 | 78,5 | 65,93 | 8,12 | 2,57 | 10,3 | 3,27 |

növlər salxımların çox xırda ölçüsü ilə fərqlənirlər. Erkək çiçəkli yabanı üzüm növü ilə mədəni üzümün çiçək salxımları arasında qanunauyğun oxşar xüsusiyyətləri bir daha sübut edir ki, Naxçıvan MR-də üzüm sortları ərazidəki yabanı üzüm növündən yaranmışdır (şəkil 1.6-1.17).

**Naxçıvan MR-də yayılan yabanı üzümün morfotip və biotipləri**

Şəkil 1.6. İlandağ -9 biotipi

Şəkil 1.7. Ayrıncdağ-1 biotipi

Şəkil 1.8. Yabanı üzüm - *V.v.ssp.sylvestris* Gmel.

Şəkil 1.9. İlandağ-2 morfotipi

Şəkil 1.10. Ayrıncdağ-1 morfotipi

Şəkil 1.11. İlandağ-9 morfotipi

Şəkil 1.12. Darıdaq-1 morfotipi

Şəkil 1.13. Erkək çiçək tipli Ordubad-1 morfotipi

Şəkil 1.14. Ordubad - 3 morfotipi

Şəkil 1.15. Ordubad - 1 morfotipi

Şəkil 1.16. Havuş-1 biotipi

Şəkil 1.17. İlandağ-1 biotipi

**Yabanı üzüm biotiplərinin ümumi xüsusiyyətləri**. Regionda bəzi illərdə şiddətli şaxtaların müşahidə edilməsinə baxmayaraq, tənəkləri məhv olmuş yabanı üzümə rast gəlinməmişdir. Yabanı üzüm biotipləri müxtəlif ərazilərdə yayıldığından biomorfoloji xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Bir qayda olaraq erkək çiçək tipli tənəklər güclü, funksional dişi cinsli tənəklər isə orta və ya zəif boyatma

gücünə malikdirlər. Yarpaqların böyüklüyünə görə yabanı üzümün bütün biotiplərini 4 qrupa bölmək olar: çox xırda (uzun. 4,0 8,0 sm-ə qədər) yarpaqlı, xırda yarpaqlı (uzun. 8,0-12,0 sm-ə qədər), orta yarpaqlı (uzun. 12,0-15,0 sm-ə qədər) və iri yarpaqlı (uzun. 15 sm-dən artıq). Tədqiq etdiyimiz biotiplərin əksəriyyəti xırda və orta ölçülü yarpaqları olan qruplara aiddir. Yabanı üzüm biotipləri yarpaqların yan kəsiklərinə görə 3 qrupa bölünürlər: bütöv, orta və çox dərin kəsikli yarpaqlar. Bəzi biotiplərdə yarpaqların alt səthi zərif ağ torabənzər tükcüklərlə örtülü olur. Əksər hallarda yarpaqların alt səthi çılpaq olan biotiplərə rast gəlinir. Biotiplər yarpaqların kənarlarında dişciklərin formasına görə bir-birindən fərqlənirlər. Dişcikləri sivri, üçbucaq və küt künbəz formalı yarpaqlara rast gəlinir. Saplaq oyuqları əsasən liraşəkilli, nadir hallarda oyuğun yan tərəfləri paralel olmaqla, dibi yastı olur. Yabanı üzüm biotipləri ikievlidir, yəni ya erkək, ya da dişi çiçək qrupuna malikdirlər. Öz-özünə tozlanan ikicinsli çiçək qrupu olan yabanı üzüm biotiplərinə rast gəlinməmişdir. Yabanı üzüm bitkisində çiçək qruplarının tipləri, bəzi tədqiqatçıların fikrincə, mədəni üzümün mənşəyinin təyin edilməsi üçün mühüm əhəmiyyətə malik bir morfoloji əlamətdir, çünki yabanı üzüm yarımnövü ikievli bitkidir. Erkək və ya dişi çiçək qrupuna malik olan biotiplərin yayılması təsadüfi xarakter daşıyır. Yabanı üzümün salxım çiçəkləri formalarına görə bir-birlərindən fərqlənirlər, xırda və ya orta irilikdə olurlar. Bir qayda olaraq erkək çiçək qrupuna malik olan tənəklərin salxım çiçəkləri iri olmaqla, konusşəkilli formaya malikdirlər. Dişi çiçək qrupuna malik olan tənəklərin salxım çiçəkləri xırda olmaqla, konusvari-silindrik və ya silindrik şəklində olurlar. Yabanı üzümün salxımları xırda olur, uzunluğu 7,0-13 sm, eni 6-8 sm arasında dəyişilir. Nisbətən iri salxımlar Ayrıncdağ-1 biotipində olmuşdur. Salxımda gilələri seyrək və ya orta sıxlıqda yerləşir. Məhsuldar zoğlarda 1-2 ədəd salxım olur. Əsasən salxımlar yeni zoğların 3-5-ci buğumlarında yerləşir. Gilələrin qabığı qara və ya qırmızımtıl-qara rənglidir. Əsasən girdə oval formalıdır, üzəri tozşəkilli mum təbəqəsi ilə örtülmüşdür. Toxumlar cücərərkən zəif genetik parçalanma verir. Bu da onların zəif heteroziqot təbiətli olmasını göstərir. Yabanı üzüm biotiplərinin əksəriyyəti mildiu və oidium xəstəliklərinə dözümlüdür.

**Yabanı üzüm biotiplərində apomiksis çoxalma.** Apomiksis partenogenez çoxalmanın bir forması olub mayalanmadan toxum əmələ gətirməklə bir qeyri-cinsi çoxalma növüdür. Təbiətdə apomospermiya örtülü toxumlularda 80-dən çox fəsilədə, 300-ə yaxın cinsdə qeydə alınmışdır. Apomiksis çox müvəffəqiyyətlə seleksiya işlərində ana valideyinin irsi əlamətlərinin dəyişilmədən nəslə ötürülməsində geniş istifadə edilən genetik çoxalma üsullarından biridir. Belə çoxalma zamanı ana nəslin heteroziqot təbiəti qorunaraq nəslə ötürülür. Üzüm də apomiksis çoxalmaya meyilli bir bitkidir [69]. Muxtar respublika ərazisində bu cür qeyri-cinsi çoxalma forması *V.amurensis* Rupr. növündə və *V.v.ssp.sylvestris* Gmel. yarımnövündə müşahidə edilmişdir.

Muxtar respublika ərazisində *V.amurensis* Rupr. növündə tumurcuqların açılması becərilən sortlarla eyni müddətə təsadüf etsə də, çiçəkləməsi nisbətən 20-25 gün tez, 22-27.05 tarixlərdə baş verir.

Apomiksis çoxalmanı müəyyən etmək məqsədilə çiçəkləmə dövrü funksional dişi cinsli çiçək salxımlarına kağız torbalar keçirilmişdir. Çiçəkləmə qurtardıqdan sonra çiçək salxımlarında az miqdarda gilətutma müşahidə edilmişdir. Onlar inkişaf edərək normal cücərmə qabiliyyətinə malik toxumlar əmələ gətirmişdir (şəkil 1.18).




Şəkil 1.18 *V. amurensis* Rupr. növündə apomiksis yolla əmələ gələn toxumlar

Qeyd etmək lazımdır ki, apomiksis yolla çoxalma forması ikievli, bircinsli yabanı üzüm növlərində uzun illər ərzində irsi əlamətlərinin dəyişilmədən nəslə ötürülməsini təmin etmiş, relikt bitki növləri olaraq qalmışlar. Bu da nəticə etibarı ilə funksional dişi cinsli yabanı üzüm biotiplərinin uzun illər ərzində morfogenetik təbiətcə dəyişilmədən çoxalmasına, müəyyən ekoloji-coğrafi ərazilərdə populya-siyalar əmələ gətirməsinə imkan vermişdir. Yabanı üzümdə toxumların apomiksis yolla əmələ gəlməsi yarpaqların çox dərin yan kəsikli, yaxud tam ayalı irsi əlamətləri ilə müşayiət olunur (cədvəl 1.10).

*Cədvəl 1.10*

**Yabanı üzümlərdə apomiksis yolla toxumların əmələ gəlməsi**

| Yabanı üzüm növləri | Yarpaqlarda saplaq oyuğundan aşağı yan kəsiyə qədər uzunluğu, sm | Çiçək tipi | Hər gilədə toxumun miqdarı, ədəd | Vegeta-siya müddə-ti, gün | Apomiksis yolla toplanılan toxumlar %-lə |
|---|---|---|---|---|---|
| *V.amurensis* Rupr. | tam ayalı | funk.dişi | 3-4 | 160 | 100,0 |
| *V.vinifera ssp. sylvestris* Gmel. | 2,8±0.003 | funk.dişi | 2-3 | 128 | 100,0 |

Becərilən üzüm sortlarında bu kimi irsi xüsusiyyətə rast gəlinmir. Ancaq funksional dişi cinsli Hənəqırna, Sarı şəfeyi, Qızıl üzüm və s. kimi sortların salxımlarında noxudlaşma, yəni partenogenez yolla toxumsuz, yaxud toxum başlanğıcı inkişaf etməyən xırda gilələrin əmələ gəlməsi apomiksis çoxalmaya meyilliliyin olduğunu göstərir.

## 6. Azərbaycanın üzüm genofondu

Dünyanın müxtəlif ölkələrində böyük iqtisadi əhəmiyyətə malik olan üzüm genofondunun toplanılması və genetik ehtiyatlarının qorunması istiqamətində məqsədyönlü elmi-tədqiqat işləri aparılır [34, 40, 41, 46, 130, 135, 137, 143, 145, 156, 199, 201, 203, 218, 222, 225, 236, 242, 245, 250, 251, 255, 256, 259]. Azərbaycan Respublikası və onun bölgələrindən olan Naxçıvan Muxtar Respublikası Qafqazın cənub hissəsində yerləşməklə mədəni üzümçülüyün əsas mərkəzlərindəndir. Bu ərazidə yaşayan türk tayfalarının hələ b.e. 3000 il öncə əsas məşğulluq sahələrindən biri də üzümçülük və şərabçılıq olmuşdur. Arxeoloji qazıntılar nəticəsində tapılan daşlardan yonulmuş müxtəlif qablar, saxsı əşyalar, daşlaşmış üzüm toxumları bunu sübut edir. Çoxəsirlik xalq seleksiyası nəticəsində bu ərazidə ayrı-ayrı genetik əlamətlərə malik üzümün sortmüxtəlifliyi yaradılmışdır [23, 24, 25, 168, 201, 212, 239].

*Vitaceae* Juss. fəsiləsinə təkamül tarixinə, mənşəyinə, arealına, morfoloji, bioioji, ekoloji xüsusiyyətlərinə, irsi əlamətlərinə görə bir-birindən fərqlənən 14 cins və 968 növ daxildir. Hazırda bu fəsilənin dünya miqyasında ən geniş yayılanı, həmçinin daha çox təsərrüfat əhəmiyyətinloə malik olanı *Vitis vinifera* L. növüdür. Bu növün dünyada 41648 sortu və 10 mindən çox yeni hibridləri, mutant və poliploid formaları, klonları, uzaq hibridləri vardır [12].

N.İ.Vavilov, A.M.Neqrul becərilən üzüm sortlarının yaranma mərkəzlərindən biri də Cənubi Qafqaz ərazisi olduğunu qeyd etmişlər. Azərbaycanda yabanı üzümün yayılmasi, variasiya müxtəlifliyinin öyrənilməsi istiqamətdə M.V.Amanov, V.S. Səlimov, M.K.Musayev,V.M.Quliyevin tədqiqatları xüsusi əhəmiyyət kəsb edir [110, 76, 85, 87, 88, 89, 90, 91, 92, 93, 94, 96, 100, 103, 106, 108, 122, 127, 133, 140, 146], Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikası ərazisində *V.vinifera* L. növünə aid olan sortlar xalq seleksiyası yolu ilə yabanı *V.vinifera ssp. sylvestris* Gmel. yarımnövündən yaradılmış, zəngin genofondu toplanılmış və bütün bölgələrdə yayılmaqla müxtəlif populyasiyalar əmələ gətirmişdir. Üzüm sortlarının biomüxtəlifliyi əsasən iki yolla meydana gəlmişdir. *Birincisi* təbii hibrid mənşəli toxumların cücərməsindən yeni bitkilərin alınması, *ikincisi* spontan mutasiyaya uğramış tumurcuqlara malik olan çubuqla çoxaldılma yolu ilə yeni formaların meydana çıxması nəticəsində *sort-populyasiyalar* formalaşmışdır. Eyni zamanda təkamül prosesində müxtəlif torpaq-iqlim şəraitinə

uyğunlaşmalar nəticəsində yeni variasiyalar yaranmış, beləliklə sort müxtəlifliyi formalaşmışdır**.** Hal-hazırda mövcud olan növ və sortlar variasiyaların və çoxsayıı populyasiyaların cəmidir. Hazırda becərilən sortların əksəriyyəti sort-klonlardır. Təbii və süni seçmə prosesində sort-klonlar seleksiya üçün ən qiymətli başlanğıc seleksiya materialıdır. Xalq seleksiyası yolu ilə bu əsasda müxtəlif kişmişi, süfrə, texniki və muskat sortları yaradılmışdır.

Təkamül prosesində bəzi üzüm sortlarında N.İ.Vavilovun homoloji sıralar qanununa uyğun irsi dəyişikliklər baş vermişdir. Beləliklə, oxşar irsi əlamətlərə malik olan, morfoloji, bioloji və təsərrüfat xüsusiyyətlərinə görə bir-birinə yaxın olan sortlar qrupu - *biotiplər* formalaşmışdır. Bir növə daxil olan biotiplər əsasən bioloji xüsusiyyətləri (vegetasiya müddətləri, davamlılıq, boyatma və s. xüsusiyyətləri), bəzən də morfoloji əlamətlərinə (salxımın ölçüsü, salxımda gilənin miqdarı, gilənin ölçüsü və s.) görə fərqlənirlər. Oxşar irsiyyətə malik olan, bir-biri ilə qohum və tarixən eyni ərazidə yayılan sort qrupları *populyasiyalar* əmələ gətirmişlər.

Son araşdırma və tədqiqatlardan məlum olur ki, Azərbaycan ərazisində 400-ə qədər aborigen və introduksiya olunmuş üzüm sortlarının genofondu formalaşmışdır ki, bunlarında 300-dən çoxunu aborigen sortlar təşkil edir. Qeyd edək ki, Respublikada üzün illər üzüm genofondunun qorunmasına lazım olan səviyyədə diqqət yetirilmədiyinə görə bir çox qiymətli sortlar məhv olmuşdur. Son araşdırma və tədqiqatlara görə, respublikada becərilən 75-ə qədər sort artıq məhv olmuş, 80-ə yaxın sort isə məhv olmaq təhlükəsi həddindədir.

Azərbaycanın zəngin üzüm genofondu bir sıra xüsusiyyətləri ilə səciyyələnir. Belə ki, giləsinin rənginə (Ağ şanı, Qara şanı, Ala şanı, Sarıgilə, Qırmızı sahibi, Ağ səabi, Qara üzüm, Qızıl üzüm, Qırmızı üzüm, Qırmızı çiləyi, Qara sərmə, Qara, ağ, qırmızı və qəhvəyi kişmişilər və s.), məhsulunun keyfiyyətinə, dadına, ətrinə (Naxçıvan muskatı, Gülabı, Kişmişi sortları, Şəkəri, Təmbeyi, Şireyi, Qara qənd üzümü və s.), salxım və giləsinin əmtəə görünüşünə (Quşürəyi, Misqalı, Əlincə, Dəvəgözü, Tulagözü, Keçiməməsi, İnəkəmcəyi, Gəlinbarmağı, Xatınbarmağı, Gözəl üzüm, İrisalxımlı və s.), ən tez yetişgənliyinə (Ağ xəlili, Qara Xəlili, Kürdəşi və s.), gilə qabığının qalınlığına və lətinin bərkliyinə (Xart-xart, Daş üzüm, Daş kişmişi, Daş mərəndi və s.), gilənin və salxımın iriliyinə (Haçabaş, Bəndi, Nərgizi, Qızıl üzüm, Təbərzə, Gülabı, Kəhrəba və s.), müalicəvi əhəmiyyəti və məişətdə istifadəsinə (Sarı Şəfeyi, Hənəqırna, Ağ aldərə, Şəkərbura və s.), geniş yayılma və yer adlarına görə (Təbrizi, Beyləqani, Bayanşirə, Mədrəsə, Şirvanşahı, Ordubadi, Şaxtaxtı, Şabranı, Dərbəndi, Fatmayi, Salyan üzümü, Ağ Aldərə, Xəzəri və s.) görə iqtisadi əhəmiyyət kəsb edən üzüm sortlarıdır.

Müəyyən edilmişdir ki, Azərbaycanda yayılan üzüm sortları *Vitis vinifera* L. və *Vitis labrusca* L. növlərinə daxildir. Üzüm sortlarının əksəriyyəti *Vitis vinifera* L. növünün *V.vinifera ssp*. *satıva* DC. yarımnövünə aiddir. Bu yarımnövə aid olan

sortlar isə ekoloji-coğrafi mənşəyinə görə *Convar orientalis* Negr., *Convar pontica* Negr. və *Convar occidentalıs* Negr. qruplarına daxildir.

Azərbaycanın yerli üzüm sortları əsasən şərq (*Convar orientalis* Negr.), Qara dəniz hövzəsi (*Convar pontica* Negr.) və hətta bir hissəsi Şərqi Avropa (*Convar occidentalis* Negr.) ekoloji-coğrafi qruplarına daxildirlər. Şərq ekoloji-coğrafi qrupu zəngin biomüxtəlifliyə və polimorfizmə malik olduğundan - *Convar orientalis subconvor antasiatica* Negr. (süfrə sortları) və *Convar orientalis subconvar caspica* Negr. (texniki sortlar) yarımqrupuna ayrılırlar.

Azərbaycanın üzüm genofondunda dörd sort tipi - kişmişi sortları (*Conculta apirineae* Negr.), muskat sortları (*Conculta apiana* Negr), xırdagiləli sortlar (*Conculta corinthiaca* Negr), irigiləli sortlar (*Conculta macrocarpa* Negr.) və üç sort qrupları: süfrə (*Subconvarietas antasiatica* Negr.), texniki (*Subconvarietas caspica* Negr.) və universal (*Subconvarietas universaltica*), həmçinin Hənəqırna (gilələri ağ, qara, qırmızı, boz rəngli), İnəkəmcəyi (ağ, qırmızı, qara giləli), Şəfeyi (sarı, qırmızı, çəhrayı giləli), Hüseyni (ağ, qırmızı giləli), Naxçıvan şanısı (ağ, qara giləli), Aldərə (sarı, ağ, qara giləli) və s. sortqrupları mövcuddur. Genofondda müxtəlif genotiplərin mövcudluğu üzüm sortlarının ayrı-ayrı irsi əlamətlər üzrə geniş biomorfoloji dəyişkənlikləri ilə müşayiət olunur. Aşağıda Azərbaycanda çox yayılan üzüm sortlarının genofondunun tərkibi verilmişdir (Şəkil 1.18).

1. *V.vinifera* L. növü, *V.v. ssp. sativa* DC yarımnövü, *orientalis* Negr. qrupu, *Subconvar antasiatica* Negr. var. üzrə:

*Kişmişi sortları:* Ağ kişmişi, Əsgəri, Xirça kişmişi, Xirdagilə sarı kişmişi, Qəhvəyi kişmişi, Qırmızı kişmişi, Mərməri kişmişi, Naxçivan qara kişmişi, Sarı kişmişi, Yumrugilə Abşeron kişmişi, Yumrugilə sarı kişmişi, Daş kişmişi.

*Süfrə sortları:* Ayıboğan, Abşeron xatınısı, Abşeron keçiəmcəyi, Abşeron qizil üzümü, Abşeron gəlinbarmağı, Ağ üzüm, Ağ dərbəndi, Ağ göybəndam, Ağ zavra, Ağ xəlili, Ağ quşürəyi, Ağ şani, Ağ tayfi, Ağadayı, Ala şanı, Alıxanlı bəy üzümü, Alıxanlı keçiməməsi, Alıxanlı qara gözü, Bəndi, Gavangir üzümü, Əliməmməd üzümü, Fatmayi, Gəlinbarmağı, Gözəl üzüm, Gülabı, Hacı Abbas üzümü, Haçabaş, Xatınbarmağı, Xatını Kal üzüm, Kəhrəba, Qara şanı, Qara göybəndam, Qara xəlili, Qara kürdəşi, Qara pişraz, Qara şəfeyi**,** Qara yay üzümü, Qırmızı hüseyni, Qırmızı inəkəmcəyi, Qırmızi tayfı, Qırmızı sahibi, Qırmızı səabi, Qırmızı şəfeyi, Qızılı səbzə, Mahmudu, Misqalı, Naxçıvan hüseynisi, Naxçıvan qırmızı şanısı, Naxçıvan ağ tayfısı, Naxçıvan inəkəmcəyi, Naxçıvan keçiəmcəyi, Naxçıvan qara şanısı, Naxçıvan qızıl üzümü, Nəbi, Nəqşəbi, Rişbaba, Sarı şəfeyi, Sarıgilə, Sultanı, Sürməyi, Şabranı, Talibi, Təbrizi, Yalançı şanı, Zalxa, Zeynəbi.

*Universal sortlar:* Abbası, Ağ aldərə, Ağdam keçiəmcəyi, Arazvari, Badamlı, Batıx, Bənəniyar, Beyləqan hüseynisi, Füzuli ağ keçiməməsi, Füzuli qara keçiməməsi, Talıbi, Qoyungözü, Qara Dərbəndi, Duzalı, Zeynəddin üzümü, Məşədi

Əli, Narıncıgilə, Pişik üzümü, Sarı aldərə, Sahibi, Sarıgilə gecyetişən, Sarıgilə ortayetişən, Təbərzə, Gəncə keçiməməsi, Gəncə qızıl üzümü, Xanımı, Qara xəzani, Şangirey, Hafizəli.

*Texniki üzüm sortları:* Ağ kələnpur, Ağ Almərdan, Arı üzümü, Ağ dəvəgözü, Asma, Bayanşirə, Bababeli, Biləv üzümü, Büllur, Qara Salyan üzümü, Qarğadili, Qara sərmə, Qara hənəqırna, Qoç üzümü, Qırmızı qəməri, Qırmızı hənəqırna, Daşqara, Dağ üzümü, Dəbbi gülabı, Kal üzüm, Kürə üzümü, Cəlali, Zalxa, Zərəni qorası, İnnabı, İri salxımlı, Muxtarı, Mərəndi, Nardaran dərbəndisi, Naxçıvan qara üzümü, Rizağa, Salyan üzümü, Sarı şireyi, Sarı üzüm, Sürməyi, Qara haçabaş, Qara aldərə, Qaraburnu, Qaragöz, Qırmızı mərəndi, Qırmızı üzüm, Qızılı gecyetişən, Yaqubu, Yalançı şanı, Tulagözü, Xallı üzüm, Xan üzümü, Xanları, Xanım göbəyi, Xalac, Xərci, Xətmi, Çərəz, Çil gülabı, Çöl üzümü, Göz üzüm, Gül mərəndi, Şahtaxtı, Şəkərbura, Əlincə, Hacı Əhmədi, Əliməmmədi, Əmiri, Ət mərəndi, Göy Hənəqırna, Göy üzüm, Şamaxı mərəndisi, Şirvanşahı.

*İntroduksiya edilmiş sortlar:* Aliqote, Ağ bolqar, Agadayı, Qara bolqar, Qara cəncəl, Nimranq, Parkent, Rkasiteli, Tavkveri, Terbaş, Çəhrayı tayfı, Saperavi, Gözəl qara, Özbəkistan qara kişmişi, Özbəkistan muskatı, İsgəndəriyyə muskatı.

***Subconvar caspica* Negr.** Alıxanlı qara üzümü, Ağ xərci, Ağ şireyi, Ağ şiraz, Xındoğnı Qara mərəndi, Mələyi, Tatlı, Dik xərci, Qoyun gözü, Kərimqəndi, Sıxqara, Qara şireyi, Mədrəsə, Qara mərəndi, Qara sərmə, Danaburnu, Əhmədbəyli ağ şireyisi, Sərmayi, Şireyi, Sıxsalxımlı, Sısaq, Zalxa, Xindoqnı.

*İntroduksiya olunmuş sort***:** Ağ muskat.

***Convar pontica* Negr.:** *Süfrə sortları:* Ağdam gülabısı, Ağ göybəndam, Ala şanı, Al anqur, Dəvəçi qızıl üzümü, Dəvəçi qara üzümü, Mahmudu, Qara şabranı, Hacı Abbas, Dəvəgözü, Göybəndam, Xımbi, Şah-şahı, Qara pişraz, Qaraçı.

*Universal sortlar:* Ağ mərəndi, Arı mərəndi, Az məhsuldar, Quş üzümü, Boyaxanı, Xunqi, Leyli, Gülşən, Ağdam qızıl üzümü, Beyləqan qızıl üzümü.

*Texniki sortlar*: Ağ anqur, Ağ şireyi, Ağ kələmbir, Qara kələnpur, Araz qara üzümü, Ağ lkeni, Həməşərə, Qara lkeni, Qara mövücü, Kürdəşi, Qara mərəndi.

*İntroduksiya olunmuş sortlar:* Rkasiteli, Saperavi, Dağıstan gülabısı, Tavkveri, Ağ kokur, Sarı pandas, Ağ çauş, Fetyaska.

***Convar occidentalis* Negr**.

*Aborigen sortlar:* Ağ Beyləqani,Qara Beləqani, Nubarı,

*İntroduksiya olunmuş sortlar:* Ağ qrenaj, Alfons lavalle, Aliqote, Ağ pino, Aleatiko, Alikant buşe, Qara pino, Rislinq, Semilyon, Madlen anjevin, Merlo, Malbek, Muskat ottenel, Kardinal, Kaberne-Sovinyon, Silvaner, Sovinyon, Şardone.

***2. V.labrusca* L.** növü üzrə **-** İzabella.

***3. V.amurensis* Rupr.** növü üzrə **-** Amur üzümü




Şəkil 1.18. Azərbaycanın üzüm genofondu

**Genom tərkibi:** Azərbaycan Respublikasında üzüm genofondu çoxəsirlik təbii mutasiya dəyişkənlikləri, toxumla çoxaldılma, xalq introduksiyası və seleksiyası yolu ilə çoxlu sayda iqtisadi və təsərrüfat əhəmiyyətli biomorfoloji əlamətlərə malik olan sortmüxtəlifliyi ilə səciyyələnir. Yüksək polimorfizm xüsusiyyətlərinə malik olan *Vitis vinifera* növünə aid mövcud üzüm sortlarının genomu diploid (2n=38) xromosom saylarına malikdir. Ancaq eksperimental yolla autotetraploid və autotriploid (2n=54, 76) üzüm formaları əldə olunmuşdur [29, 33, 35, 37, 49, 51, 55, 56, 171, 172, 174, 175, 176, 178, 181, 186, 189, 190, 191, 192, 193].

Üzüm genofondunda sortların 2,0 %-i ən tez yetişən (v.m. 120 gün və daha az), 13,0%-i tezyetişən (v.m. 121-130 gün), 14%-i orta tezyetişən (v.m. 131-140 gün), 25%-i orta vaxtda yetişən (v.m. 141-150 gün), 18%-i orta gec yetişən (v.m. 151-160 gün), 12%-i orta gec yetişən (v.m. 151-160 gün), 9%-i gecyetişən (v.m. 161-170 gün), 7%-i ən gecyetişən (v.m. 171 gündən çox) sortlar qrupuna daxildir. Üzüm sortlarının şirəsində ümumi şəkərliliyi genofond üzrə 4,0%-də 14 q/100 $sm^3$-dən aşağı, 13,0%-də i14-17 q/100 $sm^3$, 72,0%-də 18-20 q/100 $sm^3$, 27,0%-də 21-25 q/100 $sm^3$, 6,0 %-də isə 25 q/100 $sm^3$-dən çox təşkil edir.

Azərbaycanda mədəni üzümün mənşəyi hesab edilən (*Vitis sylvestris* G.G.Gmel.) yabanı üzümün 4 yarımnöv müxtəlifliyinə *(Vitis sylvestris* var. typica Negr.*, Vitis sylvestris* var. aberrans Negr.*, Vitis sylvestris* var. Zangezur, Mail, *Vitis sylvestris* var. Naxçıvan, Varis*)* aid olan qara, bənövşəyi, qırmızı, hətta ağ giləli və erkək çiçək tipli yabanı üzüm formaları yayılmışdır.

Azərbaycanın genofondunda müxtəlif genotiplərin mövcudluğu sortların ayrı-ayrı irsi əlamətlər üzrə geniş fenotip dəyişkənlikləri ilə müşayiət olunur. Müəyyən edilmişdir ki, üzüm bitkisində ayrı-ayrı irsi əlamətlər ekoloji şəraitə uyğun modifikasiya dəyişkənliklərinə məruz qalırlar. Ayrı-ayrı genetik əlamətlərin modifikasiyalaşma amplitudu isə çox müxtəlifdir.

Hazırda respublikamızın müxtəlif təbii-iqtisadi bölgələrində "Üzüm genofondu" kolleksiya bağlarının salınması aktual problemlərdən biridir. Belə kolleksiya bağlarında qiymətli aborigen və introduksiya olunmuş üzüm sortları ilə yanaşı, yeni yaradılan seleksiya sortlarının toplanılması və qiymətləndirilməsi mühüm iqtisadi əhəmiyyətə malikdir. Belə problemin həlli respublikanın müxtəlif bölgələrində torpaq-iqlim şəraitinə uyğun, müasir bazar rəqabəti ilə uzlaşan qiymətli üzüm sortlarının toplanmasına, zənginləşdirilməsinə, yeni sortların yaradılmasına və onlardan əkin materialı tədarük etməklə yeni üzüm bağlarının salınmasına istifadə ediləcəkdir.

**Naxçıvan MR-də üzüm genofondunun tərkibi.** Naxçıvan bölgəsi Qafqazın cənub hissəsində yerləşməklə mədəni üzümçülüyün əsas mərkəzlərindəndir. Bu ərazidə yaşayan türk tayfalarının hələ b.e. 3000 il öncə əsas məşğulluq sahələrindən biri də üzümçülük və şərabçılıq olmuşdur. Arxeoloji qazıntılar nəticəsində tapılan daşlardan yonulmuş müxtəlif qablar, saxsı əşyalar, daşlaşmış üzüm toxumları bunu sübut edir. Çoxəsirlik xalq seleksiyası nəticəsində bu ərazidə ayrı-ayrı genetik əlamətlərə malik üzüm sort müxtəlifliyi yaradılmışdır. Bu bölgədə Araz çayı vadisində, dağətəyi və dağlıq ərazilərdəki dərəlik və kolluqlarda yabanı halda çoxlu üzüm tənəklərinə tez-tez rast gəlinsə də, son dövrlər onların sayı antropogen təsirlərdən, xüsusilə heyvandarlığın genişləndirilməsi nəticəsində çox azalmışdır [36, 67, 61, 63, 99, 104, 107, 170, 177, 179, 187, 188, 204, 205, 206, 211, 215].

N.İ.Vavilov, A.M.Neqrul becərilən üzüm sortlarının seçmə yolu ilə yabanı *V.viniferassp. sylvestris* Gmel. yarımnövündən yaranması mərkəzlərindən biri də Cənubi Qafqaz ərazisi olduğunu qeyd etmişlər. Azərbaycanda bu istiqamətdə M.V.Amanov. M.K.Musayev və V.S.Səlimovun tədqiqatları xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan bölgəsində yabanı üzümün növ və biotiplərinin, həmçinin sort müxtəlifliyinin zənginliyi bu fikri təsdiq edir. Bu ərazidə üzümün forma və sort biomüxtəlifliyinin zəngin olması səbəblərindən ən əsası tarixən günəş radiasiyasının bəzi vaxtlarda normadan yüksək olması, qış fəslində şaxtaların mənfi 35-40$^0$C-yə qədər düşməsi, yay dövrü isə temperaturun müsbət 40-45$^0$C-yə yüksəlməsi ilə əlaqədar ehtimal edilən spontan tumurcuq mutasiyalarının baş verməsi, həmçinin qış dövrü tənəklərin üzərinin torpaq qatı ilə örtülməsi nəticəsində sərbəst tozlanma yolu ilə əmələ gələn ayrı-ayrı sortlar üzrə üzüm toxumlarının cücərməsi nəticəsində çoxlu sayda yeni formaların yaranması, onların isə seçmə yolu ilə xalq seleksiyası sınağından keçərək dövrümüzə qədər gəlib çıxmasıdır. Ekspedisiyalar yolu ilə bu bölgədə yayılan yabanı üzüm formaları və becərilən sortlar tədqiq edilərək əksəriyyəti toplanılmaqla Bioresurslar İnstitutunun təcrübə sahəsində "Üzüm genofondu" kolleksiya bağına əkilmişdir. Aparılan ampeloqrafik və botaniki tədqiqatlara əsasən muxtar respublika ərazisində *Vitaceae* Juss. fəsiləsinin təsnifatı, genofondunun tərkibi öyrənilmişdir. Tədqiqatların gedişindən alınmış nəticələrə əsaslanaraq bu bölgədə *Vitis vinifera* növünə məxsus sort və yabanı biotipləri 4

qrupa ayırmaq olar (Şəkil 1.19).

I qrup: *Vitis vinifera* L. *subsp. sylvestris* C.C.Gmel. yarımnövü və onun toxumlarından inkişaf edərək yayılan müxtəlif yabanı biotiplər;

Bu qrupa daxil olan populyasiyalara İlandağdakı "Mövlü dərə"də, Darıdağdakı "Ovçular yatağı"nda, Əshabi-Kəhf dağında, Ayrınc, Nəhəcir, Gal, Güney Qışlaq kəndlərinin ərazilərindəki dərəliklərdə, kolluqlarda, Gilançay vadisində, Biləv kəndi ətrafında və digər yerlərdə rast gəlinir. Bu yabanı növ və formaların tənəkləri ikievli, çiçəkləri isə demək olar ki, bircinsli olurlar.

Yarpaqları dərin və ya orta yankəsiklidir, çiçək qrupu əsasən funksional dişi cinslidir, bəzən erkək tipli çiçəkləri olan tənəklərə də rast gəlinir. Salxımları əsasən kiçik, silindrik formalıdır, gilələri xırda və qara rəngli olur. Toxumları əsasən homoziqot təbiətli olduqlarından cücərən yeni bitkilər oxşar populyasiyalar əmələ gətirirlər. Bu yabanı biotiplər xalq seleksiyasında başlanğıc material kimi geniş istifadə olunmuşdur.

II qrup: *Vitis vinifera ssp. sativa* DC. yarımnövünə məxsus sortların müxtəlif mənşəli toxumların cücərməsindən yaranan və yabanı halda yayılan cır üzüm formaları; Becərilən üzüm sortlarının ayrı-ayrı mənşəli (öz-özünə tozlanan, təbii hibrid mənşəli və s.) toxumlarının müxtəlif vasitələrlə yayılması və yabanı halda cücərməsi nəticəsində yaranan çoxlu sayda cır formalara demək olar ki, bütün ərazilərdə rast gəlinir. Toxumları heteroziqot təbiətli olduqlarından yaranan yeni tənəklər yüksək polimorfizm xüsusiyyətləri ilə səciyyələnirlər. Belə formaların çiçək qrupları əsasən ikicinsli, bəzən funksional dişi, nadir hallarda isə erkək cinsli olurlar. Xalq seleksiyasında belə cır formaların bəziləri mədəni halda becərilməklə üzərlərində seçmə işləri aparılmış və yeni sortlar yaradılmışdır.

III qrup: *Vitis vinifera* L. növünə məxsus, müxtəlif genetik xüsusiyyətlərə malik olan 600-dən artıq becərilən aborigen üzüm sortları;

Becərilən sortların 94,0 %-i (*Convar orientalis* Negr.) Şərq ekoloji-coğrafi üzüm sortları qrupuna, 6,0 %-i isə (*Convar pontica* Negr.) Qara dəniz hövzəsi ekoloji-coğrafi qrupuna daxildir (Ağ kələnpur, Naxçıvan qara üzümü və s.).

Muxtar respublika ərazisində becərilən tənəklərinin və birillik zoğların güclü inkişaf etməsi, tacın üzərində, həmçinin yarpaqların alt səthində tükcüklərin olmaması, salxım və gilələrin iri ölçülərə malik olmaları, kolun və barlı zoğların məhsuldarlıq əmsallarının yüksək olması, gilələrdə yüksək şəkər toplanması, tam fizioloji yetişkənliyin müxtəlifliyi, şaxtalara, xəstəlik və ziyanvericilərə qarşı davamlılığın aşağı olması və s. kimi biomorfoloji əlamətləri və aqrobioloji xüsusiyyətləri ilə şərq üzüm sortları ekoloji-coğrafi qrupuna aid olan aborigen sortları iki yarımqrupa (convar orientalis) bölünürlər:

1. *Convar orientalis subconvar antasiatica* Negr. (süfrə sortları);
2. *Convar orientalis subconvar caspica* Negr. (şərab sortları).

Naxçıvan MR-də üzüm genofondunun tərkibi




Şəkil. 1.19

1.*V.v.ssp.sylvestris* Gmel. və onun toxumlarından yaranan yabanı biotiplər;
2. *V.vinifera sativa* DC yarımnövü və onun toxumlarından yaranan cır formalar;
3. *V.vinifera* L. növünə məxsus aborigen sortlar;
4. Seleksiya yolu ilə yaradılan hibrid, klon, introduksiya olunmuş və müxtəlif ploidli (2n=38; 57; 76) mutant formalar.




Şəkil. 1.20

1. Universal sortlar
2. Süfrə sortları
3. Texniki sortlar

IV qrup: Spontan və seleksiya yolu ilə meydana gələn müxtəlif sortlar, klonlar, hibridlər, poliploid (2n=57; 76) və mutant formalar, həmçinin introduksiya edilmiş sortlar;

Bu qrupa daxil olanlar son dövrlər əldə olunan forma və sortlar olub, yüksək iqtisadi səmərəliliyi, həmçinin seleksiya əhəmiyyətli genetik xüsusiyyətləri ilə səciyyələnirlər.

Üzüm genofondunda dörd sort tipi - kişmişi sortları (*Conculta apirineae* Negr.), muskat sortları (*Conculta apiana* Negr), xırdagiləli sortlar (*Conculta corinthiaca* Negr), irigiləli sortlar (*Conculta macrocarpa* Negr.) və üç sort qrupları: süfrə (*Subconvarietas antasiatica* Negr.), texniki (*Subconvarietas caspica* Negr.) və universal (*Subconvarietas universaltica*), həmçinin Hənəqırna (gilələri ağ, qara, qırmızı, boz rəngli), İnəkəmcəyi (ağ, qırmızı, qara giləli), Şəfeyi (sarı, qırmızı, çəhrayı giləli), Hüseyni (ağ, qırmızı giləli), Naxçıvan şanısı (ağ, qara giləli), Aldərə (sarı, ağ, qara giləli) sortqrupları mövcuddur. Genofondda müxtəlif genotiplərin mövcudluğu üzüm sortlarının ayrı-ayrı irsi əlamətlər üzrə geniş biomorfoloji dəyişkənlikləri ilə müşayiət olunur.

Azyayılan və nadir sortlar ən çox dağlıq və dağətəyi ərazilərdə rast gəlinir. Ümumiyyətlə, bu ərazilərdə daha çox təzə halda istifadə edilən, iri salxım və giləli, kişmişi, mövüz istehsalı üçün daha çox yararlı olan aborigen sortlar yayılmışdır. Dağlıq və dağətəyi ərazilər üzrə Culfa rayonunda Hənəqırna, Ağ aldərə, Sarı və Qırmızı kişmişi, Ordubad rayonunda Sarı şəfeyi, Gülabı, Nəqşəbi, Şahbuz rayonunda

Mələyi, Babək rayonunda Misqalı, Qara və Qırmızı kişmişi, Sədərək rayonunda isə Bayanşirə, Rkasiteli və digər ən çox becərilən üzüm sortlarıdır. Bu ərazilərdə süfrə sortları üstünlük təşkil edirlər. Araz çayı vadisində və düzənlik ərazilərdə isə süfrə sortları ilə yanaşı, texniki sortlar daha çox yayılmışdır.

Dünya florasında *Vitaceae* fəsiləsinə 14 cins daxildir. Onlardan ən geniş yayılan *Vitis* cinsinin muxtar respublikanın üzüm genofondunda iki növü vardır:

- *Vitis vinifera* L. (Avropa-Asiya növü);
- *Vitis amurensis* Rupr (Şərqi-Asiya növü, introduksiya olunubdur).

Zəngin biomüxtəlifliyi və polimorfizm xüsusiyyətləri ilə səciyyələnən *Vitis vinifera* növünün Naxçıvan MR ərazisində iki yarımnövü yayılmışdır:

1. *V.vinifera ssp. sativa* DC. - becərilən üzüm sortları (120-dən çox sort və formalar);
2. *V.vinifera ssp. sylvestris* C.C.Gmel. - yabanı üzüm (6-dan çox biotip);

Dünyada üzümçülük inkişaf edən ölkələrdə becərilən, *V.ssp. sativa* DC. yarımnövünə məxsus 5000-dən çox üzüm sort müxtəlifliyinin 400-ə qədəri Azərbaycanın digər rayonlarında, 120-dən çoxu isə Naxçıvan MR ərazisində yayılmışdır. Yəni dünyadakı üzüm genofondunun təxminən 2,4 %-i, keçmiş SSRİ ərazisindəkinin isə 8,0 %-i bu bölgədə mövcuddur.

Muxtar respublika ərazisində becərilməkdə olan üzüm sortları iki qrupa daxildir:

1. *Pontica* Negr. (Qara dəniz hövzəsi şərab üzüm sortları qrupu); Bu qrupa daxil olan sortlarda yarpaq ayası başlıca olaraq bütövdür, üzəri torlu-qırışıqlıdır, alt tərəfi isə hörümçək torunu xatırladan sıx və narın ağ tükcüklərlə örtülü olur. Gilələri orta böyüklükdə, girdə oval formalıdır, lətli-şirəli, dadlı, salxımları iri, sıxgiləli olur. Bura genofondda olan Ağ kələnpur, Mərəndi, Məlahəti sortları, seleksiya yolu ilə alınmış N.80-9/6, N.80-9/5 və digər 15-dən çox formalar, introduksiya olunmuş Rkasiteli, Saperavi aiddirlər.

2. *Orientalis* Negr. (Şərq qrupu); Bu qrupa daxil olan sortlarda isə yarpağın alt tərəfi əsasən çılpaq, bəzən zəif tükcüklü olması, salxımları əsasən seyrəkgiləli, gilələri oval, yumurtaşəkilli, uzunsov, iri və ya orta irilikdə, lətli-şirəli və s. olurlar. Bu qrup isə iki yarımqrupa bölünür: a) *subconvar caspica* Negr., Xəzər yarımqrupu (bura əsasən introduksiya və gətirilmə sortlar daxildirlər); b) *subconvar antasiatica* Negr., Cənubi-şərq yarımqrupu (bura regiondakı becərilən bütün aborigen üzüm sortları daxildirlər).

Muxtar respublikada üzüm genofondunun 85,0%-ni aborigen, 15,0%-ni isə introduksiya olunmuş sortlar və yeni alınmış formalar təşkil edir. Genofondun 26,0%-ni çoxyayılan, 54,5 %-ni azyayılan və 19,5 %-ni nadir, məhv olmaq həddində olan sortlar təşkil edir. Çoxyayılan sortların əksəriyyəti məhsuldar və iqtisadi baxımdan səmərəli olduqlarından bütün üzümlüklərdə becərilir. Azyayılan sortlar

orta məhsuldarlığa malik olmaqla, hər bir sort xarakterik genetik xüsusiyyətləri ilə fərqlənir. İqtisadi baxımdan çox da səmərəli olmayan, lakin ayrı-ayrı genetik əlamətləri ilə səciyyələnən nadir sortlar seleksiya işləri üçün elmi əhəmiyyət kəsb edirlər. Onlarda xəstəliklərə, zərərvericilərə, şaxtalara, quraqlığa davamlılıq, çox gecyetişkənlilik və digər bu kimi irsi əlamətlər müxtəlif kombinasiyalı hibridləşdirmə işləri üçün elmi əhəmiyyət kəsb edir. Qara kürdəşi, Dağ üzümü, Dəbbi gülabı, Qoç üzümü, Zərəni qorası, Batıx və digər sortlar bu kateqoriyaya daxildirlər. Onu da qeyd edək ki, vaxtilə mövcud olmuş Qivami, Şada üzümü, Hır-hırı, Gərməşovu və s. kimi nadir sortlar demək olar ki, birdəfəlik məhv olmuşdur.

Genofondda üzüm sortları çox müxtəlif keyfiyyət göstəriciləri ilə də bir-birlərindən fərqlənirlər. 1955-ci ildə Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatı tərəfindən dünya miqyasında üzüm sortlarının təyinatı aşağıdakı kimi müəyyənləşdirilmişdir:

*Süfrə üzüm sortları:* Təzə halda istifadə olunması üçün becərilən sortlar qrupuna deyilir. Belə sortlar xoşagəlimli əmtəə görünüşünə malik, cəlbedici salxım və gilələri olan, əsasən xırda gilələri, salxımları orta və ya seyrək giləli, gilələri saplaqdan nisbətən çətin qopan, gilələri əsasən bərk və yeyildikdə xırçıldayan, ümumi şirə çıxımı 75,0%-dən aşağı olan, uzun müddət tənəklərdə və ya sərin otaq şəraitində saxlanıldıqda öz keyfiyyətini itirmədən qala bilən, müxtəlif rəngli gilələri olan, qida, müalicəvi əhəmiyyətli və s. kimi biomorfoloji əlamətlərə malik olurlar.

*Texniki üzüm sortları:* Müxtəlif spirtli və spirtsiz içkilərin hazırlanmasında istifadə olunan, ümumi şirə çıxımı 75,0%-dən yuxarı, salxımlarının struktur göstəriciləri aşağı olan (gilələrinin çəkisinin darağa olan nisbəti) sortlar bu qrupa daxildirlər. Texniki üzüm sortlarında salxımın xarici görkəmi, kimyəvi və mexaniki tərkibi əsas rol oynamır. Ona görə də belə sortlar müxtəlif tip torpaqlarda becərilir. Əsasən gilələri sulu-şirəli olan sortlar bu qrupa daxil edilirlər.

*Universal (süfrə-texniki) sortlar:* Süfrə və texniki sortlar aralığında yerləşən sortlara deyilir. Bu üzüm sortları isə həm təzə halda yeyilən, həm də texniki məqsədlər üçün istifadə olunan, çox müxtəlif vaxtlarda yetişən, aralıq xarakterli aqrobioloji göstəricilərə malik olan sortlar qrupudur [30].

Muxtar respublikada hər üç yarımqrupa daxil olan sort müxtəlifliyi mövcuddur. Naxçıvan MR-in isti, quru yay iqlim şəraiti həm toxumsuz (müxtəlif kişmişi sortları), həm də toxumlu süfrə sortlarının genofondunun yaranmasına səbəb olmuşdur. Həmçinin bu ərazidə texniki sortlar da çoxluq təşkil edirlər. Ancaq süfrə və texniki sortlar arasında aralıq aqrobioloji göstəricilərə malik olan universal istiqamətli üzüm sortları azlıq təşkil edir.

Bu regionda hələ çox qədimdən qurudulmuş kişmişi və mövüc istehsal edilirmiş. Genofondda qurutma sənayesi üçün iqtisadi səmərəliliyi yüksək olan müxtəlif üzüm

sortları mövcuddur. Bu sortlar da iki qrupa ayrılır: a) Qurudulmuş kişmişi istehsalı üçün istifadə edilən sortlar; b) Mövüc istehsalı üçün istifadə olunan sortlar. Quru kişmişi istehsalında müxtəlif rəngləri və keyfiyyəti olan 6 kişmişi sortu və 10-dan çox klonlardan istifadə olunur. Mövüc istehsalında isə ən çox Hənəqırna, Ağ aldərə, Bənəniyar, Bəndi, Şəfeyi, Misqalı, İnəkəmcəyi, Keçiəmcəyi, Qırmızı şanı, Naxçıvan tayfısı və s. sortlarından istifadə olunur.

Naxçıvan MR-in üzüm genotipinin tərkibi aşağıda verilmişdir.

*Süfrə sortları:* Ağ kişmişi, Qara kişmişi, Qırmızı kişmişi, Qəhvəyi kişmişi, Yumrugilə sarı kişmişi, Mərməri, Sarı kişmişi, Xırdagilə sarı kişmişi, Əsgəri, Ayıboğan, Ağ xəlili, Ağ üzüm, Ağ kürdəşi, Bəndi, Qırmızı inəkəmcəyi, Qara kürdəşi, Qara xəlili, Qara şəfeyi, Qızılı səbzə, Qırmızı tayfı, Qırmızı şəfeyi, Qırmızı hüseyni, İnəkəmcəyi, Keçiəmcəyi, Kəhrəba, Misqalı, Naxçıvan qırmızı şanısı, Naxçıvan ağ tayfısı, Naxçıvan qara şanısı, Naxçıvan qızıl üzümü, Naxçıvan hüseynisi, Nəbi, Nəxşəbi, Sarı şəfeyi, Xatınbarmağı, Xatını, Haçabaş, Gülabı;

*Universal sortlar:* Abbasi, Ağ aldərə, Badamlı üzümü, Batıx, Bənəniyar, Talıbi, Qoyun gözü, Duzalı, Zeynəddin üzümü, Məşədi Əli, Narıncıgilə Pişik üzümü, Sarı aldərə, Sahibi, Təbərzə, Xanımı, Qara xəzani, Şangirey, Hafizəli;

*Texniki sortlar:* Arazvari, Ağ kələnpur, Ağ almərdan, Biləv üzümü, Qara sərmə, Qara hənəqırna, Qoç üzümü, Qırmızı qəməri, Qırmızı hənəqırna, Daşqara, Dağ üzümü, Dəbbi gülabı, Cəlali, Zalxa, Zərəni qorası, İnnabı, Muxtarı, Mələyi, Naxçıvan qara üzümü, Rizağa, Sarı şireyi, Sarı üzüm, Qara aldərə, Tulagözü, Xallı üzüm, Xan üzümü, Xanları, Xərci, Xətmi, Çöl üzümü, Şahtaxtı, Şəkərbura, Hacı Əhmədi, Hənəqırna, Göy üzüm;

*İntroduksiya edilmiş sortlar:* Aliqote Ağ bolqar, Ağ şanı, Ağ göybəndam, Ağadayı, Bayanşirə, Qara bolqar, Qara cəncəl, Qara şanı, İzabella, Mərəndi, Nimranq, Parkent, Rkasiteli, Tavkveri, Terbaş, Təbrizi, Çəhrayı tayfı, Şirvanşahı, Saperavi, Gözəl qara, Özbəkistan qara kişmişi, Özbəkistan muskatı.

Naxçıvan Muxtar Respublikası ərazisində becərilən üzüm sortları Şərq ekoloji-coğrafi qrupuna mənsub olmaqla 31,3% süfrə (*Subconvar antasiatica*) 56,1% texniki (*Subconvar caspica*), 12,6% isə universal sortlar qrupuna aiddir (şəkil 1.20). Genofonda həmçinin seleksiya yolu ilə alınmış miksoploid (2n=38, 76), eksperi-mental üsulla alınmış autotetraploid (2n=76) üzüm formaları da əlavə olunmuşdur.

***Genom tərkibi:*** Muxtar respublikada üzüm genofondu çoxəsirlik təbii mutasiya dəyişkənlikləri, toxumla çoxalma, xalq introduksiyası və seleksiyası yolu ilə çoxlu sayda iqtisadi və təsərrüfat əhəmiyyətli biomorfoloji əlamətlərə malik olan sortmüxtəlifliyi ilə səciyyələnir. Yüksək polimorfizm xüsusiyyətlərinə malik olan *Vitis vinifera* növünə aid mövcud üzüm sortlarının genomu diploid (2n=38) xromosom saylarına malikdirlər. Genofondda müxtəlif genotiplərin mövcudluğu sortların ayrı-ayrı

irsi əlamətlər üzrə geniş fenotip dəyişkənlikləri ilə müşayiət olunur. Müəyyən edilmişdir ki, üzüm bitkisində ayrı-ayrı irsi əlamətlər ekoloji şəraitə uyğun modifikasiya dəyişkənliklərinə məruz qalırlar. Ayrı-ayrı genetik əlamətlərin modifikasiyalaşma amplitudu isə çox müxtəlifdir. Modifikasiya dəyişkənliyinin amplitudu əsas fenoloji fazaların davametmə müddətində, birillik zoğların rəngində, buğumaralarının ölçülərində, payızda yarpaqların və çubuqların rənglənməsində, gilələrin rəngində, formasında, toxumun miqdarında kiçik, salxımların çəkisi, gilələrin parametrləri, şirədə şəkərlilik və turşuluq, kolun və barlı zoğların məhsuldarlıq əmsalı, məhsulun yetişmə müddəti və s. kimi irsi əlamətlərdə isə böyükdür.

Dünya miqyasında hibridləşdirmə yolu ilə üzüm bitkisində 100-dən artıq irsi əlamətin genləri və onların F1-nəsildə genlərin qarşılıqlı təsiri nəticəsində homo və heteroziqot təbiəti müəyyənləşdirilmişdir. Beynəlxalq miqyasda bu genlər əsasında ayrı-ayrı üzüm sortlarının pasportlaşdırılması həyata kecirilir. V.P.Klimenko və onun həmkarları genetik tədqiqatlar nəticəsində üzümdə 42 kəmiyyət və 45 keyfiyyət göstəriciləri üzrə irsi əlamətlərin nəslə ötürülməsi qanunauyğunluqlarını öyrənmişlər. Cədvəl 1.11-də tədqiqatlarımızda da nəzərə alınan, elmə məlum olan genlərin adları verilmişdir.

*Cədvəl 1.11*

***Vitis vinifera* L. növünün genotipində məlum olan genlər**

| *Genin adı* | *Genotip, homo və heteroziqotluq* | *İrsi əlamətlər* |
|---|---|---|
| Abnorma | An an | tənəkdə yığcamlılıq |
| Acepfolia | Aa af | yarpaq səthinin forması |
| Alata | $Al_1$ $aL_1$ $AL_2$ $aL_2$ | salxımın forması |
| Albina | Aa | xlorofilin əmələ gəlməsi |
| Albostriata | As as | xlorozluq |
| Arqentea | Aq aq | yarpaq səthinin strukturu |
| Aromatica | $Ar_1$ $ar_1$ $Ar_2$ $ar_2$ $Ar_3$ $r_3$ | muskat dadı |
| Aurea | Au au | xlorofilin əmələ gəlməsi |
| Aurostriata | Au sa us | xlorofilin miqdarı |
| Biocolor | Bii | yarpaq səthində xlorofilin yaranması |
| Blask | B | gilələrdə antosianların əmələ gəlməsi |
| Camea | Ca ca | zoğlarda antosianların yaranması |
| Chlorina | Ch ch | xlorofilin yaranması |
| Cito Letalis | Ci ci | erkək letallıq |
| Colorata | Cc | yarpaq və gilələrdə antosianların yaranması |
| Compacta | $Cm_1$ $cm_1$ $Cm_2$ $cm_2$ | salxımın sıxlığı |
| Conika | $Cn_1$ $cn_1$ $Cn_2$ $cn_2$ | salxımın forması |
| Cordata | Cd cd | embrional yarpağın forması |
| Coriaceae | Co co | yarpaq səhtinin forması |
| Crassa | $Cr_1$ $cr_1$ $Cr_2$ $cr_2$ | gilələrin qabığının qalınlığı |
| Curvata | $Cu_1$ $cu_1$ $Cu_2$ $cu_2$ | zoğların uclarının vəziyyəti |
| Decolor | Dec dec | gilədə xlorofilin əmələ gəlməsi |
| Deformans | $Def_1$ $def_1$. $Def_2$ $def_2$ | embrionda bığcıqların əmələ gəlməsi |

| *Genin adı* | *Genotip, homo və heteroziqotluq* | *İrsi əlamətlər* |
|---|---|---|
| Deformata | $Df_1$ $df_1$ $Df_2$ $df_2$ | embrionun deformasiyası |
| Derufata | Dr dr | embrionda antosianların əmələ gəlməsi |
| Diminuta | Dm dm | embrion yarpağın iriliyi |
| Dissecta | Da da | yarpaq səthinin forması |
| Ellipsoida | El el | embrion yarpağın forması |
| Eruthrina | E e | yarpaq, zoğ və gilədə antosianların əmələ gəlməsi |
| Farinosa | Fa fa | yarpağın alt səthində ağ tükcüklər |
| Fertilis | Ft ft | erkən fertillik |
| Fibrosa | Fb fb | gilə lətinin qatılığı |
| Foveata | F f | yarpaq səthinin forması |
| Fruticosa | $Fr_1$ $fr_1$ $Fr_2$ $fr_2$ | tənəyin kollaşması |
| Grandis | Gg | embrion yarpağın böyüklüyü |
| Hederacea | Ha ha | yarpaq səthinin forması |
| Heroina | Hr | inkişaf gücü |
| Horisontalis | Ho ho | kök sisteminin geoquruluşu |
| Lacipiata | La la | yarpaq səthinin forması və strukturu |
| Letalism | Lt lt | tozcuq hüceyrələrinin həyatiliyi |
| Mendica | Mm | payızda yarpaqlarda antosianların əmələ gəlməsi |
| Nan Oblidata | $N_1n_1$ $N_2n_2$ $N_3n_3$ | boyatma sürəti |
| Oblidata | So so | çiçək tipi |
| Oblonga | $Ol_1$ $ol_1$ $Ol_2$ $ol_2$ | embrionda yarpağın forması |
| Pallidior | Rp rp | yarpaq və gilələrdə antosianların əmələ gəlməsi |
| Paterna | Sp Sp | çiçək tipi |
| Polucotyia | Pk pk | embrionun miqdarı |
| Pseudocarmea | Pc pc | zoğlarda antosianların əmələ gəlməsi |
| Pseudofaripoa | Pf pf | yarpaqlarda ağ qılçıqlar |
| Quercifolia | Qu qu | yarpaq səthinin forması |
| red | rr | gilələrdə antosianların əmələ gəlməsi |
| reticulata | $rt_1$ $rt_1$ $rt_2$ $rt_2$ | yarpaq səthinin strukturu |
| rhodochroa | rrh r rh | « |
| rubrarecurrens | r rec r rec | « |
| rubriflua | rf rf | embrionda antosianların əmələ gəlməsi |
| sanquinea | s s | antosianların gilədə yaranması |
| sterilis | st st | erkən fertillik |
| subqlobosa | $sq_1$ $sq_1$ $sq_2$ $sq_2$ | gilənin forması |
| succosa | sc sc | gilədə lətin qatılığı |
| tincta | rt rt | yarpaq və gilələrdə antosianların əmələ gəlməsi |
| tomentosa | $t_1t_1$ $t_2t_2$ | yarpaqlarda ağ tükcüklər |
| trifida | tf tf | bığcıqların forması |
| urticifolia | uf uf | yarpağın forması |
| venata | vv | ilk yarpaqlarda damarlar üzərində antosianların əmələ gəlməsi |
| verticalis | ve ve | kök sisteminin geoloji quruluşu |
| villosa | $v_1$ $v_1$ | yarpaqlarda ağ tükcüklər |
| viridis | vi vi | zoğlarda antosianların əmələ gəlməsi |
| vitalis | vt vt | toxumların həyatiliyi |
| xy | x y | çiçək tipi |

# ÜMUMİ AMPELOQRAFİYA

# *II FƏSİL.* AMPELOQRAFİK METODİKALAR

## 1. Üzüm sortlarının əsas genetik xüsusiyyətləri

Ampeloqrafik tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, *Vitaceae* Juss. fəsiləsinə daxil olan cins və növlərdə təkamül prosesində yayıldığı eko-coğrafi ərazilərə adaptasiya olunması üçün həm vegetativ, həm də generativ orqanlarında hər növə və sorta müvafiq morfogenetik dəyişkənliklər baş vermişdir. Beləliklə, tarixi təkamül prosesində üzüm bitkisi morfogenetik mutasiya dəyişkənliklərinə məruz qalmaqla, həm də toxumla təbii yolla çoxalmaqla yüksək polimorfizm xüsusiyyətləri qazanmışdır. Yüksək polimorfizm xüsusiyyətləri *Vitaceae* Juss. fəsiləsinə daxil olan bütün cinslərdə, o cümlədən *Vitis* L.cinsində də morfoloji, fizioloji, biokimyəvi, aqrobioloji və texnoloji əlamətlərində təzahür etmişdir. Tarixi inkişaf prosesində üzümün mədəni şəkildə becərilməsinə başlanılması,eyni zamanda xalq seleksiyası yolu ilə yeni sortların yaradılması, onun faydalılığının və iqtisadi səmərəliliyinin yüksək olması bu bitkinin təsviri üçün xüsusi ampeloqrafik üsullarla işlənməsi zərurətini yaratmışdır. Üzümçülük inkişaf etdikcə mədəniləşdirilmə prosesində bu bitkidə ekoloji amillərin təsiri altında vegetativ və generativ orqanlarının (yarpaq, çiçək, salxım, gilə və toxum) morfoloji əlamətlərində mühüm morfogenetik dəyişiklikliklər baş vermişdir. Belə ki, yabanı üzümdə dişiciklər ancaq yumru, yaxud şarşəkilli olduğu halda, mədəni üzümdə bu forma ilə yanaşı konusvari, ensizkonusvari, enlikonusvari, hətta silindrik formalı dişiciklərə də rast gəlinir. Təkamül və seçmə prosesində becərilən sortların aqrobioloji və morfogenetik xüsusiyyətlərində - salxımların forma və kütlələrində, gilələrin forması, rəngi, dadı, şəkərliliyi, turşuluğu, ləti və yetişməsində çox böyük morfoloji dəyişkənliklər baş verir. Bununla yanaşı üzüm sortlarının xüsusiyyətləri becərildiyi yerin torpaq-iqlim şəraitindən və aqotexniki tədbirlərin yerinə yetirilməsindən asılı olaraq kifayət qədər morfogenetik dəyişikliyə məruz qalır. Üzüm tənəyinin yüksək dərəcədə heteroziqot genetik təbiəti həm morfoloji, həm bioloji, həm də ki, texnoloji xüsusiyyətlərində təzahür edir. Bu isə onların ampeloqrafik təyin və təsvir edilməsində xeyli çətinliklər törədir. Müasir dövrdə üzüm sortlarının ampeloqrafik təsvir edilməsində tənəyin vegetativ və generativ orqanlarının bir sıra morfoloji diaqnostik əlamətlərdən istifadə edilir. Ancaq üzüm bitkisinin morfoloji əlamətləri, bioloji və aqrotexnoloji göstəriciləri və xarakterik irsi morfogenetik əlamətləri adaptasiya prosesində ekoloji-coğrafi şəraitdən, becərilmə aqrotexnikasından asılı olaraq bu və ya digər dərəcədə amplitudda modifikasiya dəyişkənliklərinə uğrayırlar.Üzüm bitkisində ayrı-ayrı irsi

əlamətlərin modifikasiyalaşma amplitudu aşağıdakı qruplara bölünür:

1. Modifikasiyalaşma amplitudu *aşağı dərəcədə* olan irsi əlamətlər;
2. Modifikasiyalaşma amplitudu *orta dərəcədə* olan irsi əlamətlər;
3. Modifikasiyalaşma amplitudu *yüksək dərəcədə* olan irsi əlamətlər.

Modifikasiyalaşma amplitudu *aşağı dərəcədə* olan irsi əlamətlərə cavan zoğun rəngi, tükcüyün miqdarı, birillik zoğun rəngi, yarpağın forması, yarpaq ayalarının sayı, yarpağın aşağı yan kəsiyinin forması, yarpaqlarda yan kəsiklərin yarılma dərəcəsi; çiçəyin tipi, erkəkciyin uzunluğunun dişiciyin hündürlüyünə nisbəti, dişiciyin forması, çiçəyin açılma faizi, salxımın daraq və saplağının rəngi, gilənin parametrləri, forması, toxumun forması, gilənin qabığındakı fərdi qəhvəyi ləkələr və s. (cəmi 40 əlamət) daxildir.

Modifikasiyalaşma amplitudu *orta dərəcədə* olan irsi əlamətlərə saplaq oyuğundakı fərdi dişicik, yarpaqdakı əsas damarların uzunluğunun saplağın uzunluğuna nisbəti, saplaq oyuğunun dərinliyi, salxımın uzunluğu və eni, erkəkcikdə tozcuq dənəciyinin və toz kisəsinin uzunluğu və eni, yarpağın alt səthində yerləşən epidermisdəki ağızcıqların parametrləri və s. (cəmi 16 əlamət) daxildir.

Modifikasiyalaşma amplitudu *yüksək dərəcədə* olan irsi əlamətlərə yarpağın yuxarı kəsiklərinin forması, ayadakı kəsiklərin dərinliyi, salxımın forması, gilədəki toxumların sayı, yarpaq səthinin sahəsi, məhsuldarlıq elementləri, gilədə şəkərlilik və turşuluğun miqdarı, gilə və salxımın mexaniki tərkibi, salxımda gilənin sayı və s. daxildir.

Üzüm sortlarının ampeloqrafik təsvirində aşağıdakı əsas irsi morfoloji əlamətlərin təsviri verilir (Cədvəl 2.1).

*Cədvəl 2.1*

**Üzüm sortlarında əsas irsi əlamətlərin spektri**

| *№* | *Morfoloji irsi əlamətlər* |
|---|---|
| 1. İnkişaf etməkdə olan zoğlarda tac və ilk 3-5 yarpaqların üzəri | |
| a | seyrək ağ tükcüklə örtülmüşdür |
| b | sıx ağ tükcüklə örtülmüşdür |
| v | üzəri çılpaqdır |
| q | üzəri yaşıl rənglidir |
| d | üzəri qızarır |
| 2. Yeni zoğların rəngi | |
| a | yaşıl |
| b | qəhvəyi-yaşıl |
| v | tünd çaxır rəngli |
| 3. Tumurcuqların inkişaf xüsusiyyətləri | |
| a | tez açılan *havanın t-ru* $17^oC$-dən az olduqda |
| b | orta vaxtda açılan $t = 18^0 - 20^0C$ olduqda |
| v | gec açılan $t = 21^0 - 23^0C$ olduqda |
| d | ən gec açılan $t = 24^0$ C-dən çox olduqda |

| № | *Morfoloji irsi əlamətlər* |
|---|---|
| | 4. Çiçəkləmənin gedişi |
| a | ən tez çiçəkləmə 04.VI – 06.VI |
| b | orta vaxtda çiçəkləmə 7. VI – 9.VI |
| v | gec çiçəkləmə 10.VI – 12.VI |
| d | ən gec çiçəkləmə 13.VI – 16.VI |
| | 5. Tam fizioloji yetişmə müddəti |
| a | ən tez yetişən (v.m. 120 və daha az) |
| b | tez yetişən (v.m. 121-130 gün |
| v | orta tez yetişən (v.m. 131-140 gün) |
| d | orta vaxtda yetişən (v.m. 141-150 gün) |
| e | orta gec yetişən (v.m. 151-160 gün) |
| l | gec yetişən (v.m. 161-170 gün) |
| m | ən gec yetişən (v.m. 171 gündən çox) |
| | 6. Birillik zoğların inkişafı |
| a | çox zəif inkişaf etmə (uzunluğu1 m-dən az) |
| b | zəif inkişaf etmə (uzunluğu 1 m olan ) |
| v | orta inkişaf etmə (uzunluğu 1-2 m olan) |
| d | güclü inkişaf etmə (uzunluğu 2-3 m olan) |
| e | çox güclü inkişaf etmə (uzunluğu 3 m-dən çox) |
| | 7. Birillik zoğlarda mumyetişmə |
| a | çox zəif (50 %-dən aşağı) |
| b | zəif (50-65 %) |
| v | qənaətbəxş (66-80 % ) |
| d | yüksək (81-94 %) |
| e | çox yüksək (95-100 %) |
| | 8. Yarpaqların rəngi |
| a | açıq-yaşıl |
| b | yaşıl |
| v | tünd-yaşıl |
| | 9. Yarpaqların səthi |
| a | hamar |
| b | zəif torlu - qırışıqlı |
| v | çox torlu - qırışıqlı |
| | 10. Yarpaqların kənarları |
| a | düzdüran |
| b | aşağı yönəlmişdir |
| v | yuxarı yönəlmişdir |
| | 11. Salxımların orta kütləsi |
| a | çox aşağıdır (50 q-dan aşağı) |
| b | aşağıdır (50-100 q) |
| v | orta çəkidə (101-150 q) |
| d | iri salxımlı (151-250 q) |
| e | çox iri salxımlı (250 q-dan çox ) |

| № | *Morfoloji irsi əlamətlər* |
|---|---|
| 12. Salxımların parametrləri | |
| a | xırda ölçülü (uzun. 10 sm-dən aşağı) |
| b | orta ölçülü (uzun. 10-18 sm) |
| v | iri ölçülü (uzun. 19-26 sm) |
| d | çox iri ölçülü (uzun. 26 sm-dən çox) aф |
| 13. Salxımların formaları | |
| a | konusvari |
| b | qanadlı-konusvari |
| v | silindrik-konusvari |
| d | silindrik formalı |
| e | şaxəli |
| 14. Gilələrin parametrləri | |
| a | xırda giləli (diam. 13 mm və aşağı) |
| b | gilələri orta irilikdə (diam. 13-18 mm) |
| v | iri giləli (diam. 19-23 mm) |
| e | çox iri giləli (diam. 23 mm-dən çox) |
| 15. Gilələrin formaları | |
| a | kürəvari |
| b | girdə-oval |
| v | tərs yumurtaşəkilli |
| d | uzununa oval |
| e | uzun giləli pazformalı |
| l | uzun giləli, silindr şəkilli |
| 16. Gilələrin rəngi | |
| a | ağ |
| b | qara |
| v | qırmızı |
| d | çəhrayı |
| e | göyümtül-ağ |
| l | sarımtıl-ağ |
| 17. Ümumi şirə çıxımı | |
| a | 60 %-dən aşağı |
| b | 60-70 % |
| v | 71-80 % |
| d | 80 %-dən çox |
| 18. Şirədə şəkərlilik | |
| a | 14 q/100 $sm^3$ - dən aşağı |
| b | 14-17 q/100 $sm^3$ |
| v | 18-20 q/100 $sm^3$ |
| d | 21-25 q/100 $sm^3$ |
| e | 25 q/100 $sm^3$ - dən çox |
| 19. Şirədə turşuluq (titrləmə üsulu ilə) | |
| a | 3 q / $dm^3$ - dən az |
| b | 3-5 q / $dm^3$ |
| v | 6 -7 q / $dm^3$ |
| d | 8 -9 q / $dm^3$ |
| e | 10 q / $dm^3$ - dən çox |

| № | *Morfoloji irsi əlamətlər* |
|---|---|
| 20. Tənəyin məhsuldarlıq əmsalı | |
| a | 0,50 - dən aşağı |
| b | 0,50 - 0,75 |
| v | 0,75- dən yuxarı |
| 21. Barlı zoğların məhsuldarlıq əmsalı | |
| a | 0,2 – dən aşağı |
| b | 0,2 – 0,8 |
| d | 0,9 – 1,1 |
| e | 1,2 – dən yuxarı |

## 2. Üzüm sortlarının ampeloqrafik təsviri sxemi

Keçmiş SSRİ məkanında üzüm sortlarının ampeloqrafik təsviri ümumi qəbul olunmuş metodika əsasında (Ампелография СССР 1946) sortun adı, sinonimi, ekoloji qrupu, yaranma tarixi və yayılması, müasir arealı, botaniki təsviri, aqrobioloji və təsərrüfat-texnoloji xüsusiyyətləri, variasiya və klonları ardıcıllığı ilə aparılmışdır. Üzüm sortlarının ampeloqrafik üsullarla öyrənilməsi ampeloqrafik kolleksiya bağlarında, üzümlüklərdə, yabanı halda bitən formaların öyrənilməsi isə yayıldığı ərazidə aşağıdakı sxem üzrə həyata keçirilir:

Sortun adı

*Sort haqqında ümumi məlumat:* Sortun istifadə olunma istiqaməti, yayıldığı ərazilər, aşkar edildiyi və ya alan müəllifin adı, mənşəyi, aşkar olunma tarixi, yayılması və müasir arealı, əmələgəlmə yeri, növə mənsubluğu, ekoloji-coğrafi qrupu verilir.

*Sinonim:* Müxtəlif ərazilərdə müvafiq adları göstərilir.

Ampeloqrafik xüsusiyyətləri

*Tənək:* Tənəyin bioloji xüsusiyyətləri verilir.

*Cavan zoğ:* Yeni zoğların uzunluğu 10-20 sm olduqda rəngi, tacının tüklülük dərəcəsi təsvir edilir. Zoğun üzərində 5-7 yarpaq olduqda üst və alt səthin torşəkilli ağ tükcüklərlə örtülmə dərəcəsi, rəngi təsvir edilir.

*Birillik zoğ:* Birillik mumyetişmiş zoğların, buğumların, buğumaralarının rəngi, yoğunluğu, buğumarasının uzunluğu, en kəsiyinin forması və s. təsvir olunur. Birillik zoğlar zoğun əsasından – ilk buğumarasından yetişməyə başlayır və tədricən ardıcıl yuxarıdakı buğumaraları yetişir. Zoğların yetişməyə başlamasının müşahidəsi, adətən, gilələrin yetişmə fazası ilə eyni zamanda aparılır. Zoğların yetişməyə başlaması günü sahədə 2-3 tənək üzrə bir neçə zoğda ən aşağı buğumda quru qabığın, yaxud peridermanın meydana gəlmə əlamətləri müşahidə edildikdə qeyd edilir. Zoğun yetişmə əmsalı oduncağın ümumi sahəsinin zoğun ümumi sahəsinə nisbəti

əsasında təyin edilir. Yetişmə əmsalının göstərticisi 0,80-dən kiçik olduqda zoğ zəif yetişən, 0,80-0,90 olduqda kafi, 0,90-dan böyük olduqda isə yaxşı yetişən kimi qəbul edilmişdir.

*Yarpaq:* Yarpağın ümumi görünüşü (forması), yarpaq ayası səthinin xarakteri, rəngi və ayanın burulması, yuxarı və aşağı yan kəsiklər, saplaq oyuğunun forması, dişciklərin forması (ayanın ucunda və kənarlarında yerləşməsi), yarpaq ayasının alt səthinin tükcüklərlə örtülməsi və qılcıqlanma dərəcəsi, yarpaq saplağının və damarcıqların rəngi qeyd edilir. Hər bir sort üçün xarakterik olan yarpaqlar əsasən, tənəyin orta yarusunda əsas zoğun 8-12-ci buğumlarında yerləşdiyindən bu nahiyədə olan yarpaqlardan ən azı 20-25 ədəd götürüb, ölçmə işləri aparılmalıdır.

*Çiçək:* Çiçəyin ikicinsli, funksional dişi və ya funksional erkək tipli olması təsvir edilir.

*Salxım:* Salxımın forması, daraq üzərində gilələrin sıxlıq dərəcəsi, paramertləri təsvir edilir.

*Gilə:* Ampeloqrafik qaydaya əsasən gilələrin parametrləri (ölçüsü), forması, rəngi, qabığın xüsusiyyəti və üzərinin mum təbəqəsinin sıxlığı, lətinin xarakteri, dadı, ətri, toxumun sayı və s. əlamətlər təsvir edilir. Ölçüləri yaxşı inkişaf etmiş 100, yaxud daha artıq giləyə görə orta rəqəmlə hesablanır.

*Toxum:* Toxumun forması, parametrləri, xalazanın forması, dimdik hissənin forması tam yetişdikdən sonra müəyyən edilir. Toxumun ölçüsü və digər parametrləri 100 ədəd toxumdan hesablanır.

Aqrobioloji və texnoloji xüsusiyyətləri

*Vegetasiya fazalarının gedişi:* Tənəklərdə ümumi şirə axımı (başlanması, qurtarması), tumurcuqların açılması (başlanması, kütləvi, sonu), çiçəkləmə (başlanması, kütləvi, sonu), meyvələrin yetişməsi (başlanması, kütləvi, sonu), xəzan ( yarpaqların təbii tökülməsi) fazaları üzrə müəyyən edilir.

*Ümumi şirə çıxımı:*1 kq üzüm məhsulundan gilələrin sıxılması ilə şirə çıxımı faizlə müəyyənləşdirilir.

*Tənəyin məhsuldarlığı:* Bir tənəkdən (ən azı 10 tənəkdən orta hesabla orta məhsuldarlıq hesablanır) kq-la, bir hektardan sentner və ya tonla məhsuldarlıq müəyyənləşdirilir.

*Şəkərliliyi*: Gilələrdə saxarometr və ya areometr vasitəsilə ümumu şəkərin miqdarı ölçülür və q/100 $sm^3$-la ifadə olunur.

*Turşuluğu:* Titirləmə üsulu ilə şirədə turşuluq ölçülür və q/$dm^3$-la ifadə olunur.

*Ampelo-deskriptor xüsusiyyətləri.* Sortun botaniki, aqrobioloji və kimyəvi-texnoloji xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş kod və şifrələrlə ifadə olunur (14).

*Xəstəlik və ziyanvericilərə qarşı davamlılığı:* Xəstəliklərə yoluxması 5 ballıq şkala üzrə qiymətləndirilir. Hansı ziyanvericilərlə yoluxması müəyyənləşdirilir.

*Birillik çubuqlarda mumyetişmə:* Birillik çubuqlarda ümumi uzunluğun yetişmə faizi hesablanır. Birillik çubuqlarda mumyetişmə faizlə ifadə olunur. Buğumaraları və buğumların təbii rənglənməsi qeyd olunur.

*Məhsulun istifadə istiqamətləri:*

*Yeyinti sənayesində istifadəsi.* Məhsulunun təzə halda süfrə üzümü kimi istifadə olunması, süfrə şərabları, şampan və digər şərab materialı, desert şərabları, konyak alınmasında və s. üçün yararlılığı, qurudulmuş məhsul istehsalında (kişmişi və mövüc istiqamətli sortlar); alkoqolsuz məişət məhsullarının (mürəbbə, kompot, şirə, marinad, doşab və s.) alınmasında istifadəsi qeyd olunur.

*Seleksiyada istifadəsi.* Sort-calaqaltı (fillokseraya, mildiuya, şaxtaya davamlılığı); və dekorativ istiqamətli sortlar. Sort haqqında ümumi nəticə çıxarılır, onun texnoloji istifadə istiqaməti, ekoloji xüsusiyyətləri müəyyən edilərək, hansı bölgə yaxud rayonda hansı istiqamət üçün perspektivli olması göstərilir.

*Sortun iqtisadi qiymətləndirilməsi:* Sortun iqtisadi səmərəliliyi hesablanmaqla göstərilir.

*Klon və variasiyaları:* Sortun klon və variasiyaları haqqında məlumat verilir.

## 3. Sortun ampeloqrafik təsviri üçün istifadə olunan əsas botaniki əlamətlər




Şəkil 2.1.Yarpağın morfoloji quruluşu
*1-dar və çox iti üçbucaqşəkilli*
*2-kifayət qədər enli üçbucaq şəkilli*
*3 və 4- tərəfləri zəif qabarıq*
*5 və 6- tərəfləri güclü qabarıq*
*7-keçid künbəz şəkilli*
*8-tipik künbəz şəkilliğ*
*9- çox alçaq və enli künbəz şəkilli*




Şəkil 2.2. Yarpaqlarda yan dişciklərin əsas formaları
*A - əsas pəncə (orta dilim),a - dilimlərin sonundakı dişciklər*
*B - yuxarı yan mişarvari, b - kənar dişciklər,*
*C - aşağı yan pəncələr (dilimlər), c - əlavə dişciklər,*
*D - saplaq oyuğu,*
*E - əsas(orta) damarcıq,*
*F-F' - yuxarı yan damarcıqlar,*
*G-G'- aşağı yan damarcıqlar*
*H - yuxarı kəsik,*
*X - aşağı yan kəsik,*
*J - saplaq*



a) b) v)

Şəkil 2.3. Yarpaq ayalarında yan kəsiyin formaları:
*a) dayaz; b) orta dərinlikdə; v) dərin kəsikli*



1 2 3 4 5

Şəkil 2.4. Qapalı kəsiklər: *1-tam örtülü, oval kəsikli; 2-iti dibli, oval kəsikli, ellepisvari, 3-dairəvi kəsikli; 4-yastı dibli piramida şəkilli, 5-dişcik dibli piramida şəkilli.*



1 2 3 4 5

Şəkil 2.5. Açıq kəsiklər. *1 –iti bucaqlı; 2- bardaq şəkilli; 3- itidibli bardaqşəkilli; 4- itidibli, paralel tərəfli lira şəkilli; 5- dişcikli şıxacağı dar lira şəkilli.*

a) Bağlı saplaq oyuqları: *1- tam örtülü, 2- xırda deşikli, 3- elleps formalı, 4- dəyirmi, 5-yumurta şəkilli, 6- iti dibli yumurta şəkilli, 7- əks yumurta şəkilli, 8- eninə-oval, 9- dibi damarcıqla sərhədlənən eninə-oval.*

b) Açıq saplaq oyuqları: *1. dəyirmi dibli lira şəkilli, 2- iti dibli lira şəkilli, 3- enli-iti dibli lira şəkilli, 4- dibi damarcıqla sərhədlənən lira şəkilli, 5- dar iti dibli tağ şəkilli, 6-dibi düz girintili enli tağ şəkilli, 7- dar oxvari, 8- bərabərtərəfli oxvari, 9- enli oxvari, 10- iki tərəfdən dişcikli,iki mürəkkəb dişcikli.*



a) b)

Şəkil 2.6. Saplaq oyuğunun tipləri *(M.A.Lazarevskiyə görə)*



Şəkil 2.7. Üzümdə çiçəyin əsas tipləri

*1 - ikicinsli (hermofrodit),*
*2 - funksional dişi cinsli*
*3 - tam dişi cinsli*
*4 - funksional erkək cinsli*



Şəkil 2.8. Dişiciklərin formaları




Şəkil 2.9. Gilələrin formaları

*1- yastılanmış, 2- dəyirmi, 3- oval,*
*4- uzunsov, 5- uzun, 6- yumurta şəkilli,*
*7- tərs yumurta şəkilli, 8- tərəfləri qabarıq,*
*9- silindrik, 10- tərəfləri batıq,*
*11- əmzikşəkilli, 12- iti sonluqlu,*
*13- kor sonluqlu, 14- düzgün formalı,*
*15- bir tərəfi inkişaf etmiş,*
*16- əyilmiş (oraqşəkilli, yaxud hilali).*




Şəkil 2.10. Üzümdə salxımların müxtəlif formaları

*1- silindrik salxım,*
*2- konusvari salxım - qanadlı,*
*3- konusvari salxım,*
*4- iki pəncəli silindrik-konusvari salxım,*
*5- şaxəli salxım.*

## 4. Üzüm sortlarının rəqəmsal ampeloqrafik təyini üsulu

Üzüm sortlarının polimorfizm xüsusiyyəti onların təyin edilməsi üçün müvafiq üsulların yaradılması zərurətini ortaya qoymuşdur. Hazırda keçmiş SSRİ məkanındakı respublikalarda müxtəlif morfoloji əlamətlərə malik olan *V.vinifera* növünə aid olan üzüm sortları A.V.Daşkeviç və M.L.Lazarevski üsulları ilə təyin edilir [95, 196]. Üzüm sortlarının düzgün təyin edilməsi aborigen sortların müvafiq regionlara məxsus olmasının aşkar edilməsində mühüm əhəmiyyət kəsb edir. A.V.Daşkeviçin üzüm sortlarının təyin edilməsi üçün tərtib etdiyi metodika 30 əsas morfoloji əlamətlərin ayrı-ayrı təzahür formaları üzrə müqayisə edilməsinə əsaslanır [169, s.67-77]. M.L.Lazarevski üsulu isə bir qədər mürəkkəb olmaqla, 237 morfoloji əlamət üzrə təyin edilir [95, s.108-147]. P.X.Kişkinin (1962, 1977) təyinat-açar üsulu bir qədər sadə olmaqla üzüm sortlarının təyinatı üçün nisbətən daha əlverişli üsuldur. Bu üsullardan hazırda geniş istifadə edilməkdədir. Prof. R.K.Allahverdiyevin rəhbərliyi ilə tərtib olunmuş "Ампелография Азербайджанской ССР" kitabında 17 xarici, 97 aborigen üzüm sortunun ampeloqrafik təsvirləri aparılmışdır ki, bunların da 28 sortu Naxçıvan Muxtar Respublikasına məxsusdur [164, s. 3-492]. Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasında aborigen sortların təyini istiqamətində tədqiqat işləri aparılmamışdır. Ona görə də uzun illər ərzində aborigen sortların

əksəriyyəti kənar respublikalara aparılaraq, başqa sinonimlərlə adlandırılmış, becərilən sortlar isə sistemli təyin olunmadığına görə çoxunun adlanması müvəqqəti xarakter daşımışdır.

*Cədvəl 2.11*

**Üzüm sortlarının rəqəmsal təyin edilməsi üçün əsas morfogenetik əlamətləri**

| *Morfoloji əlamətlərin şərti nömrəsi* | *Əsas əlamətlərin adları* | *Morfoloji əlamətlərin təzahür olunma xüsusiyyətləri* | *Morfoloji əlamətlərin rəqəmli ifadəsi* |
|---|---|---|---|
| *İnkişaf etməkdə olan zoğlarda tac və ilk 3-5-ci yarpaqlar:* | | | |
| I | zoğun üzəri | seyrək ağ tükcüklə ötrülməsi<br>çılpaq<br>sıx ağ tükcüklə örtülməsi | 1<br>2<br>3 |
| *Yaşıl zoğlar* | | | |
| II | rəngi | açıq-yaşıl<br>qəhvəyi-yaşıl<br>tünd-qəhvəyi | 1<br>2<br>3 |
| *Birillik zoğlar* | | | |
| III | inkişafı | zəif (uzun. 1 m və az)<br>orta (uzun. 1-2 m )<br>güclü (uzun. 2-3 m)<br>çox güclü (uzun. 3 m və daha çox) | 1<br>2<br>3<br>4 |
| IV | mumyetişmə | çox zəif (50 % - dən aşağı)<br>zəif (50 - 65 %)<br>qənaətbəxş (66 - 80 %)<br>yüksək (81 - 94 %)<br>çox yüksək (95 - 100 %) | 1<br>2<br>3<br>4<br>5 |
| *Yarpaq* | | | |
| V | ölçüsü | xırda ölçülü (diam. 12 sm və az)<br>orta ölçülü (diam. 13 - 16 sm)<br>iri ölçülü (diam. 17-20 sm)<br>yüksək ölçülü (diam. 21 sm və daha çox) | 1<br>2<br>3<br>4 |
| VI | rəngi | açıq-yaşıl<br>yaşıl<br>tünd-yaşıl | 1<br>2<br>3 |
| VII | üst səthi | səthi hamar, parlaq<br>torlu-qırışıqlı<br>qabarcıqlı<br>qabarıqlı, torlu-qırışıqlı | 1<br>2<br>3<br>4 |
| VIII | kənarları | düz<br>aşağı yönəlir<br>yuxarı yönəlir<br>dalğalı formalıdır | 1<br>2<br>3<br>4 |
| IX | yan kəsiklərin dərinliyi | dayaz<br>orta dərinlikdə<br>dərin<br>çox dərin | 1<br>2<br>3<br>4 |

| *Morfoloji əlamətlərin şərti nömrəsi* | *Əsas əlamətlərin adları* | *Morfoloji əlamətlərin təzahür olunma xüsusiyyətləri* | *Morfoloji əlamətlərin rəqəmli ifadəsi* |
|---|---|---|---|
| X | yan kəsiyin xüsusiyyəti | pəncəsiz<br>3-5 pəncəli<br>5-7 pəncəli | 1<br>2<br>3 |
| XI | alt səthi | tükcüklər yoxdur<br>ağ tükcüklü<br>damarlar üzərində xırda qılçıqlar | 1<br>2<br>3 |
| XII | saplaq oyuğu | qapalı, ensiz oval<br>qapalı, oval, dairəvi<br>qapalı, eninə oval<br>açıq, ensiz lira şəkilli<br>açıq, paralel şəkilli<br>açıq, enli, taylı | 1<br>2<br>3<br>4<br>5<br>6 |
| XIII | saplaq və damarların rəngi | açıq - yaşıl<br>bulanıq - qəhvəyi<br>tünd - qəhvəyi | 1<br>2<br>3 |
| XIV | payızda saplağın rəngi | sarımtıl - boz<br>açıq qəhvəyi<br>tünd qəhvəyi | 1<br>2<br>3 |
| Çiçək | | | |
| XV | tipi | ikicinsli<br>funksional dişi cinsli<br>funksional erkək cinsli | 2<br>3<br>4 |
| Salxım | | | |
| XVI | forması | qanadlı-konusvari<br>konusvari<br>silindrik-konusvari<br>silindrik<br>qanadlı | 1<br>2<br>3<br>4<br>5 |
| XVII | ölçüsü | xırda (uzun. 10 sm-dən az)<br>orta (uzun. 10-18 sm)<br>iri (uzun. 19-26 sm)<br>çox iri (uzun. 27 sm və daha artıq) | 1<br>2<br>3<br>4 |
| XVIII | gilələrin yerləşməsi | seyrək<br>orta sıxlıqda<br>sıx<br>çox sıx | 1<br>2<br>3<br>4 |
| XIX | kütləsi | xırda (100 q və daha az)<br>orta (100 - 200 q)<br>iri (200 - 335 q)<br>çox iri (350 q və daha çox) | 1<br>2<br>3<br>4 |
| XX | salxımın saplağı | qısa (3-5 sm)<br>uzun (6 sm və daha çox) | 1<br>2 |
| Gilə | | | |
| XXI | ölçüsü | xırda giləli (diam. 13 mm və daha az)<br>orta irilikdə (diam. 14-18 mm)<br>iri giləli (diam. 19-23 mm<br>çox iri giləli (diam. 24 mm və daha çox) | 1<br>2<br>3<br>4 |

| *Morfoloji əlamətlərin şərti nömrəsi* | *Əsas əlamətlərin adları* | *Morfoloji əlamətlərin təzahür olunma xüsusiyyətləri* | *Morfoloji əlamətlərin rəqəmli ifadəsi* |
|---|---|---|---|
| XXII | rəngi | ağ<br>qara<br>qırmızı<br>çəhrayı<br>göyümtül - boz<br>sarımtıl - ağ | 1<br>2<br>3<br>4<br>5<br>6 |
| XXIII | formaları | kürəvi (uzun/eni=1,0)<br>oval (uzun/eni=1,1-1,3)<br>tərs yumurta şəkilli (uzun/eni=1,3-1,5)<br>uzun (uzun/eni=1,5 və çox)<br>əmzik şəkilli<br>silindr şəkilli | 1<br>2<br>3<br>4<br>5<br>6 |
| XXIV | tam fizioloji yetişmə müddəti | ən tez (v.m. 120 gün və daha az)<br>tez yetişən (v.m. 121-130 gün)<br>orta tez yetişən (v.m. 131-140 gün)<br>orta vaxtda yetişən (141-150 gün)<br>orta gec yetişən (v.m. 151-160 gün)<br>gec yetişən (v.m. 161-170 gün)<br>ən gec yetişən (v.m. 171 və daha çox) | 1<br>2<br>3<br>4<br>5<br>6<br>7 |
| XXV | ümumi şirə çıxımı | 60 % - dən aşağı<br>61-70 %<br>71-80 %<br>80 %-dən çox | 1<br>2<br>3<br>4 |
| XXVI | şirədə şəkərlilik | 14 q/100 $sm^3$ - dən aşağı<br>14-17 q/100 $sm^3$<br>18-20 q/100 $sm^3$<br>21-25 q/100 $sm^3$<br>26 q/100 $sm^3$ dən çox | 1<br>2<br>3<br>4<br>5 |
| XXVII | şirədə turşuluğu (titrləmə üsulu ilə) | 3 q/$dm^3$- dən aşağı $^3$<br>4-5 q/$dm^3$<br>6-7 q/$dm^3$<br>8-9 q/$dm^3$<br>10 q/$dm^3$-dən yuxarı | 1<br>2<br>3<br>4<br>5 |
| XXVIII | ətirliliyi | kişmişi üzümünün dadı<br>süfrə üzümünün dadı<br>muskat dadı<br>texniki üzümlərə xas olan dad<br>izabella dadı | 1<br>2<br>3<br>4<br>5 |
| XXIX | şirəsinin rəngi | bulanıq-göyümtül<br>bulanıq-çəhrayı<br>qırmızı<br>qara | 1<br>2<br>3<br>4 |
| Məhsuldarlıq əmsalı: | | | |
| XXX | tənəkdə | 0,50 və daha aşağı<br>0,50- 0,75<br>0,76 - yuxarı | 1<br>2<br>3 |
| XXI | barlı zoğlarda | 0.2 və daha az<br>0.3-0.5<br>0.6-0.8<br>0.9-1.1<br>0.2 daha çox | 1<br>2<br>3<br>4<br>5 |

*Cədvəl 2.12*

**Naxçıvan Muxtar Respublikasının üzüm genofondunda becərilən sortlarının rəqəmsal təyini**

| Sortların adları | Əsas morfoloji irsi əlamətlər | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | Məhsuldarlıq əmsalı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Zoğlar | | | | Yarpaqlar | | | | | | | | | | | Çiçəklər | Salxımlar | | | | | Gilələr | | | | | | | | | |
| | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | XIII | XIV | XV | XVI | XVII | XVIII | XIX | XX | XXI | XXII | XXIII | XXIV | XXV | XXVI | XXVII | XXVIII | XXIX | XXX | XXXI |
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* | *9* | *10* | *11* | *12* | *13* | *14* | *15* | *16* | *17* | *18* | *19* | *20* | *21* | *22* | *23* | *24* | *25* | *26* | *27* | *28* | *29* | *30* | *31* | *32* |
| Kişmişi sortları | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
| Ağ kişmişi | 2 | 1 | 3 | 4 | 3 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 5 | 2 | 4 | 4 | 4 | 2 | 1 | 1 | 2 | 4 |
| Qara kişmişi | 2 | 2 | 3 | 4 | 4 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 2 | 3 | 2 | 1 | 1 | 2 | 2 | 3 | 1 | 2 | 2 | 2 | 3 | 4 | 4 | 2 | 1 | 4 | 2 | 5 |
| Qırmızı kişmişi | 2 | 1 | 3 | 5 | 4 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 3 | 2 | 4 | 4 | 4 | 2 | 1 | 2 | 3 | 5 |
| Qəhvəyi kişmişi | 2 | 2 | 3 | 4 | 3 | 3 | 2 | 3 | 1 | 2 | 1 | 3 | 3 | 3 | 1 | 1 | 2 | 2 | 3 | 2 | 2 | 2 | 2 | 3 | 4 | 4 | 2 | 1 | 4 | 2 | 5 |
| Yumrugilə kişmişi | 1 | 1 | 3 | 4 | 3 | 1 | 1 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 1 | 2 | 5 | 2 | 2 | 4 | 4 | 2 | 1 | 1 | 2 | 4 |
| Mərməri | 1 | 1 | 2 | 5 | 2 | 1 | 1 | 3 | 1 | 2 | 2 | 4 | 1 | 1 | 1 | 2 | 2 | 3 | 2 | 1 | 2 | 1 | 1 | 3 | 2 | 4 | 2 | 1 | 1 | 2 | 4 |
| Sarı kişmişi | 1 | 1 | 3 | 4 | 3 | 1 | 1 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 3 | 2 | 2 | 6 | 2 | 4 | 3 | 4 | 2 | 1 | 1 | 2 | 4 |
| Xırdagilə kişmişi | 1 | 1 | 2 | 4 | 2 | 1 | 1 | 3 | 3 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 1 | 1 | 3 | 2 | 1 | 1 | 5 | 1 | 3 | 4 | 4 | 2 | 1 | 1 | 2 | 4 |
| Əsgəri | 1 | 1 | 2 | 4 | 2 | 1 | 1 | 3 | 4 | 3 | 1 | 1 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 2 | 1 | 2 | 5 | 5 | 4 | 3 | 3 | 3 | 1 | 1 | 2 | 5 |
| Süfrə sortları | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
| Ayıboğan | 1 | 1 | 4 | 5 | 3 | 1 | 1 | 3 | 1 | 1 | 2 | 4 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 4 | 2 | 4 | 5 | 3 | 6 | 3 | 2 | 4 | 2 | 1 | 2 | 5 |
| Ağ xəlili | 1 | 1 | 2 | 3 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 3 | 1 | 2 | 5 | 6 | 2 | 2 | 2 | 4 | 2 | 1 | 2 | 5 |
| Ağ üzüm | 2 | 1 | 2 | 5 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 2 | 3 | 2 | 4 | 2 | 3 | 1 | 2 | 7 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 4 |
| Ağ kürdaş | 1 | 1 | 2 | 4 | 2 | 1 | 1 | 4 | 3 | 3 | 1 | 6 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 4 | 2 | 2 | 6 | 4 | 2 | 2 | 2 | 4 | 2 | 1 | 2 | 5 |
| Bəndi | 2 | 2 | 3 | 4 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 2 | 3 | 3 | 4 | 2 | 3 | 5 | 2 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 3 | 5 |
| Qara kürdaş | 1 | 2 | 2 | 4 | 2 | 3 | 2 | 3 | 3 | 3 | 2 | 5 | 2 | 3 | 1 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 2 | 4 | 1 | 3 | 2 | 4 | 2 | 1 | 2 | 5 |
| Qara xəlili | 1 | 2 | 2 | 4 | 2 | 3 | 2 | 3 | 3 | 2 | 1 | 5 | 2 | 2 | 1 | 2 | 2 | 3 | 3 | 1 | 2 | 2 | 4 | 1 | 2 | 2 | 3 | 2 | 1 | 2 | 5 |
| Qara şəfeyi | 2 | 1 | 2 | 5 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 2 | 2 | 3 | 2 | 3 | 3 | 1 | 4 | 2 | 3 | 2 | 4 | 6 | 3 | 3 | 3 | 2 | 2 | 2 | 5 |
| Qızılı səbzə | 1 | 1 | 2 | 4 | 2 | 2 | 1 | 3 | 1 |  | 1 | 6 | 1 | 2 | 1 | 4 | 2 | 2 | 3 | 2 | 2 | 6 | 2 | 7 | 4 | 3 | 3 | 2 | 1 | 2 | 5 |
| Qırm. inəkəmcəyi | 1 | 1 | 3 | 4 | 3 | 3 | 2 | 3 | 1 | 1 | 1 | 4 | 2 | 3 | 1 | 2 | 3 | 2 | 4 | 2 | 4 | 3 | 4 | 3 | 3 | 2 | 3 | 2 | 2 | 2 | 5 |
| Çəhrayı tayfı | 2 | 2 | 2 | 4 | 2 | 3 | 2 | 2 | 2 | 2 | 1 | 6 | 2 | 3 | 2 | 1 | 2 | 1 | 4 | 2 | 4 | 3 | 3 | 6 | 3 | 3 | 3 | 2 | 3 | 2 | 4 |
| Qırmızı şəfeyi | 2 | 2 | 3 | 3 | 3 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 6 | 2 | 2 | 1 | 2 | 3 | 2 | 4 | 2 | 2 | 3 | 4 | 5 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 4 |
| Qırmızı hüseyni | 1 | 3 | 2 | 3 | 2 | 3 | 1 | 3 | 2 | 3 | 1 | 6 | 3 | 3 | 1 | 1 | 2 | 4 | 4 | 1 | 3 | 3 | 2 | 1 | 4 | 3 | 4 | 2 | 3 | 2 | 4 |
| İnəkəmcəyi | 1 | 1 | 3 | 4 | 3 | 2 | 1 | 1 | 1 | 1 | 1 | 6 | 1 | 2 | 1 | 3 | 4 | 2 | 4 | 2 | 4 | 5 | 6 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 5 |
| Keçiəmcəyi | 1 | 1 | 2 | 4 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 6 | 1 | 2 | 1 | 1 | 3 | 2 | 3 | 2 | 2 | 5 | 4 | 3 | 3 | 3 | 2 | 2 | 1 | 2 | 5 |

*Cədvəl 2.12-nin ardı*

| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* | *9* | *10* | *11* | *12* | *13* | *14* | *15* | *16* | *17* | *18* | *19* | *20* | *21* | *22* | *23* | *24* | *25* | *26* | *27* | *28* | *29* | *30* | *31* | *32* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kəhrəba üzüm | 2 | 1 | 2 | 4 | 3 | 1 | 1 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 2 | 4 | 3 | 4 | 2 | 4 | 6 | 2 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 5 |
| Misqalı | 2 | 1 | 3 | 3 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 3 | 2 | 2 | 5 | 2 | 5 | 4 | 3 | 3 | 2 | 1 | 3 | 5 |
| Naxç. qara şanısı | 1 | 2 | 4 | 4 | 2 | 3 | 2 | 3 | 3 | 2 | 1 | 4 | 2 | 3 | 1 | 3 | 3 | 2 | 4 | 2 | 2 | 2 | 2 | 6 | 3 | 3 | 2 | 2 | 2 | 2 | 5 |
| Naxç. qızıl üzümü | 2 | 1 | 3 | 4 | 3 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 1 | 3 | 1 | 4 | 2 | 4 | 5 | 6 | 7 | 3 | 3 | 3 | 2 | 3 | 1 | 5 |
| Naxç. ırmızı şanısı | 2 | 1 | 3 | 5 | 3 | 3 | 2 | 3 | 1 | 1 | 1 | 4 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 4 | 2 | 3 | 3 | 2 | 7 | 2 | 2 | 3 | 2 | 2 | 2 | 4 |
| Naxçıvan ağ tayfısı | 1 | 1 | 4 | 5 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 2 | 3 | 2 | 4 | 2 | 3 | 5 | 2 | 6 | 4 | 4 | 3 | 2 | 1 | 2 | 5 |
| Naxçıvan hüseynisi | 2 | 2 | 3 | 4 | 3 | 3 | 2 | 3 | 3 | 2 | 1 | 6 | 3 | 3 | 1 | 3 | 3 | 1 | 4 | 2 | 4 | 6 | 5 | 3 | 3 | 3 | 3 | 2 | 2 | 2 | 4 |
| Nəbi | 2 | 1 | 2 | 5 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 4 | 3 | 2 | 4 | 2 | 3 | 5 | 2 | 7 | 3 | 2 | 3 | 2 | 1 | 2 | 4 |
| Nəqşəbi | 1 | 1 | 2 | 4 | 2 | 2 | 3 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 1 | 1 | 1 | 3 | 3 | 3 | 1 | 3 | 5 | 3 | 6 | 3 | 2 | 3 | 2 | 1 | 2 | 5 |
| Sarı şəfeyi | 2 | 2 | 3 | 4 | 4 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 3 | 1 | 1 | 2 | 3 | 4 | 1 | 4 | 2 | 4 | 6 | 6 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 5 |
| Xatınbarmağı | 1 | 1 | 2 | 5 | 2 | 1 | 1 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 1 | 4 | 1 | 4 | 2 | 4 | 6 | 5 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 5 |
| Xatını | 2 | 1 | 2 | 4 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 6 | 1 | 2 | 1 | 2 | 3 | 3 | 3 | 2 | 2 | 5 | 1 | 4 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 4 |
| Haçabaş | 1 | 1 | 2 | 4 | 4 | 2 | 2 | 2 | 1 | 1 | 1 | 3 | 2 | 2 | 1 | 3 | 4 | 1 | 4 | 2 | 4 | 5 | 3 | 7 | 4 | 3 | 3 | 2 | 1 | 2 | 5 |
| Gülabı | 2 | 2 | 4 | 4 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 5 | 2 | 2 | 2 | 3 | 2 | 1 | 4 | 2 | 2 | 3 | 2 | 6 | 3 | 3 | 3 | 2 | 2 | 2 | 5 |
| Universal sortlar | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
| Abbasi | 1 | 1 | 3 | 4 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 2 | 2 | 2 | 4 | 2 | 4 | 5 | 6 | 7 | 4 | 3 | 3 | 2 | 1 | 2 | 4 |
| Ağ aldərə | 1 | 1 | 2 | 5 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 2 | 4 | 2 | 4 | 2 | 4 | 5 | 2 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 5 |
| Batıx | 1 | 1 | 2 | 4 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 6 | 1 | 2 | 1 | 4 | 2 | 3 | 3 | 1 | 2 | 6 | 1 | 7 | 4 | 2 | 3 | 4 | 1 | 2 | 4 |
| Bənəniyar | 2 | 1 | 3 | 4 | 4 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 2 | 4 | 3 | 4 | 2 | 4 | 5 | 3 | 7 | 3 | 3 | 3 | 4 | 3 | 2 | 5 |
| Badamlı | 1 | 1 | 2 | 4 | 2 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 6 | 1 | 2 | 1 | 3 | 3 | 2 | 3 | 2 | 4 | 5 | 2 | 6 | 4 | 4 | 3 | 4 | 1 | 2 | 4 |
| Qoyungözü | 1 | 2 | 1 | 4 | 2 | 1 | 1 | 3 | 2 | 2 | 1 | 2 | 1 | 2 | 2 | 3 | 2 | 3 | 3 | 1 | 2 | 2 | 2 | 7 | 3 | 3 | 3 | 4 | 1 | 1 | 4 |
| Duzalı | 1 | 2 | 2 | 4 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 2 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 2 | 2 | 7 | 3 | 3 | 3 | 4 | 4 | 1 | 4 |
| Zeynəddin üzümü | 1 | 3 | 3 | 4 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 2 | 4 | 3 | 3 | 1 | 2 | 2 | 4 | 3 | 1 | 2 | 2 | 2 | 6 | 4 | 2 | 3 | 4 | 2 | 1 | 4 |
| Məşədi Əli | 1 | 2 | 2 | 3 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 1 | 2 | 2 | 4 | 2 | 3 | 6 | 2 | 6 | 4 | 2 | 3 | 4 | 1 | 1 | 4 |
| Narıncıgilə | 1 | 3 | 3 | 4 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 3 | 3 | 1 | 4 | 1 | 1 | 2 | 2 | 2 | 3 | 2 | 6 | 4 | 2 | 4 | 4 | 2 | 2 | 5 |
| Pişik üzümü | 1 | 1 | 3 | 5 | 2 | 2 | 1 | 3 | 4 | 3 | 2 | 3 | 1 | 2 | 1 | 4 | 2 | 4 | 3 | 1 | 2 | 5 | 2 | 7 | 4 | 3 | 3 | 4 | 1 | 3 | 5 |
| Sarı aldərə | 1 | 1 | 2 | 5 | 2 | 1 | 1 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 2 | 4 | 2 | 4 | 1 | 3 | 5 | 2 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 2 | 4 |
| Sahibi | 1 | 1 | 3 | 3 | 3 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 1 | 4 | 3 | 4 | 2 | 4 | 4 | 1 | 7 | 4 | 3 | 3 | 2 | 2 | 2 | 4 |
| Talıbi | 1 | 1 | 3 | 4 | 3 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 1 | 4 | 1 | 4 | 2 | 4 | 3 | 5 | 6 | 4 | 3 | 2 | 2 | 1 | 3 | 5 |
| Təbərzə | 1 | 1 | 2 | 5 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 2 | 5 | 4 | 1 | 4 | 2 | 4 | 6 | 6 | 6 | 3 | 3 | 3 | 2 | 1 | 1 | 4 |
| Xanımı | 1 | 1 | 2 | 4 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 3 | 3 | 2 | 3 | 1 | 2 | 5 | 2 | 7 | 3 | 3 | 3 | 4 | 1 | 3 | 4 |
| Xəzani | 1 | 3 | 2 | 4 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 3 | 3 | 3 | 1 | 1 | 2 | 3 | 4 | 1 | 2 | 2 | 3 | 6 | 3 | 3 | 2 | 4 | 4 | 2 | 4 |
| Şangirey | 1 | 2 | 2 | 4 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 6 | 1 | 2 | 1 | 3 | 3 | 2 | 3 | 2 | 4 | 6 | 6 | 6 | 4 | 4 | 2 | 4 | 1 | 2 | 4 |
| Hafizəli | 1 | 1 | 3 | 4 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 2 | 4 | 3 | 4 | 2 | 4 | 5 | 3 | 6 | 3 | 2 | 3 | 2 | 1 | 2 | 4 |

*Cədvəl 2.12-nin ardı*

| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* | *9* | *10* | *11* | *12* | *13* | *14* | *15* | *16* | *17* | *18* | *19* | *20* | *21* | *22* | *23* | *24* | *25* | *26* | *27* | *28* | *29* | *30* | *31* | *32* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Texniki sortlar | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
| Arazvari | 1 | 2 | 3 | 4 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 3 | 2 | 3 | 1 | 4 | 3 | 4 | 3 | 2 | 3 | 2 | 1 | 5 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 4 |
| Ağ kələnpur | 3 | 1 | 4 | 4 | 4 | 3 | 4 | 3 | 1 | 2 | 2 | 1 | 3 | 3 | 1 | 4 | 2 | 4 | 3 | 1 | 3 | 5 | 2 | 7 | 3 | 2 | 4 | 4 | 1 | 1 | 4 |
| Ağ almərdan | 1 | 1 | 2 | 4 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 2 | 3 | 3 | 1 | 3 | 2 | 3 | 5 | 1 | 5 | 4 | 2 | 3 | 4 | 1 | 3 | 5 |
| Biləv üzümü | 1 | 1 | 2 | 4 | 2 | 1 | 1 | 3 | 1 | 2 | 1 | 6 | 1 | 1 | 1 | 2 | 3 | 2 | 3 | 2 | 4 | 6 | 2 | 6 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 4 |
| Qara sərmə | 1 | 3 | 3 | 4 | 3 | 3 | 2 | 3 | 3 | 2 | 2 | 6 | 3 | 3 | 1 | 1 | 3 | 3 | 4 | 2 | 3 | 2 | 2 | 6 | 4 | 3 | 2 | 4 | 4 | 2 | 5 |
| Qara hərnə-qrna | 1 | 2 | 2 | 4 | 2 | 3 | 2 | 3 | 1 | 2 | 1 | 4 | 2 | 3 | 1 | 2 | 3 | 2 | 3 | 2 | 3 | 2 | 1 | 7 | 4 | 3 | 3 | 4 | 4 | 2 | 5 |
| Qoç üzümü | 2 | 1 | 2 | 4 | 3 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 1 | 3 | 2 | 4 | 2 | 3 | 5 | 1 | 5 | 4 | 4 | 3 | 3 | 4 | 2 | 4 |
| Qırmızı qəməri | 2 | 2 | 3 | 4 | 3 | 2 | 2 | 3 | 1 | 2 | 1 | 6 | 2 | 2 | 1 | 2 | 2 | 2 | 4 | 2 | 3 | 3 | 1 | 7 | 4 | 3 | 3 | 4 | 3 | 1 | 4 |
| Qırmızı hərnə-qrna | 1 | 2 | 3 | 4 | 2 | 2 | 2 | 3 | 1 | 2 | 1 | 4 | 2 | 3 | 2 | 1 | 3 | 2 | 3 | 2 | 3 | 3 | 1 | 7 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 4 |
| Daşqara | 1 | 3 | 3 | 5 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 3 | 4 | 3 | 3 | 1 | 2 | 2 | 4 | 2 | 1 | 2 | 2 | 1 | 7 | 4 | 2 | 5 | 4 | 4 | 2 | 5 |
| Dağ üzümü | 2 | 1 | 3 | 4 | 2 | 1 | 1 | 2 | 2 | 2 | 1 | 6 | 1 | 1 | 1 | 3 | 2 | 3 | 2 | 1 | 2 | 5 | 1 | 7 | 4 | 2 | 4 | 4 | 1 | 1 | 4 |
| Dəbbi gülabı | 2 | 2 | 3 | 3 | 3 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 5 | 3 | 3 | 1 | 2 | 2 | 4 | 3 | 2 | 2 | 3 | 2 | 5 | 4 | 3 | 3 | 4 | 1 | 1 | 4 |
| Cəlali | 1 | 3 | 2 | 4 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 3 | 4 | 2 | 2 | 1 | 1 | 3 | 3 | 4 | 2 | 2 | 2 | 1 | 6 | 4 | 3 | 3 | 4 | 4 | 2 | 4 |
| Zalxa | 1 | 2 | 2 | 4 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 2 | 4 | 3 | 3 | 1 | 1 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 2 | 6 | 4 | 4 | 3 | 4 | 2 | 3 | 5 |
| Zərəni qorası | 2 | 1 | 3 | 4 | 3 | 2 | 2 | 3 | 3 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 2 | 2 | 4 | 2 | 1 | 2 | 5 | 1 | 7 | 4 | 1 | 5 | 4 | 1 | 1 | 4 |
| İnnabı | 2 | 2 | 3 | 5 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 2 | 3 | 1 | 1 | 2 | 3 | 3 | 1 | 2 | 2 | 6 | 7 | 4 | 3 | 3 | 4 | 3 | 2 | 5 |
| Muxtarı | 2 | 3 | 3 | 5 | 4 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 3 | 3 | 2 | 1 | 3 | 3 | 4 | 2 | 4 | 2 | 1 | 7 | 4 | 4 | 3 | 4 | 4 | 2 | 5 |
| Mələyi | 1 | 2 | 3 | 5 | 3 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 5 | 3 | 3 | 1 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 2 | 2 | 5 | 4 | 3 | 3 | 4 | 4 | 2 | 4 |
| Naxç. qara üzümü | 1 | 3 | 3 | 4 | 2 | 3 | 2 | 3 | 3 | 2 | 2 | 3 | 3 | 3 | 1 | 4 | 2 | 4 | 2 | 1 | 2 | 2 | 1 | 7 | 4 | 2 | 4 | 4 | 4 | 1 | 4 |
| Rizağa | 1 | 2 | 3 | 4 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 4 | 2 | 2 | 1 | 2 | 2 | 3 | 3 | 2 | 2 | 2 | 4 | 6 | 4 | 4 | 3 | 4 | 2 | 2 | 4 |
| Sarı şireyi | 1 | 1 | 2 | 4 | 2 | 2 | 1 | 3 | 3 | 2 | 1 | 1 | 1 | 2 | 1 | 2 | 2 | 2 | 3 | 1 | 2 | 6 | 1 | 6 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 5 |
| Sarı üzüm | 1 | 1 | 3 | 4 | 3 | 1 | 1 | 3 | 1 | 1 | 1 | 5 | 1 | 1 | 2 | 3 | 3 | 2 | 3 | 2 | 2 | 6 | 2 | 5 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 5 |
| Tulagözü | 1 | 3 | 3 | 4 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 2 | 5 | 3 | 3 | 1 | 2 | 2 | 4 | 3 | 1 | 2 | 2 | 3 | 6 | 4 | 2 | 4 | 4 | 4 | 2 | 4 |
| Xallı üzüm | 1 | 1 | 3 | 4 | 2 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 5 | 1 | 7 | 4 | 3 | 3 | 4 | 1 | 1 | 4 |
| Xan üzümü | 1 | 1 | 2 | 4 | 2 | 2 | 2 | 3 | 1 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 3 | 3 | 2 | 4 | 2 | 3 | 5 | 1 | 3 | 4 | 4 | 3 | 4 | 1 | 2 | 4 |
| Xanları | 2 | 1 | 2 | 5 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 6 | 1 | 1 | 2 | 3 | 3 | 2 | 4 | 2 | 3 | 5 | 2 | 7 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 4 |
| Xətmi | 1 | 1 | 3 | 4 | 2 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 3 | 1 | 1 | 2 | 2 | 3 | 4 | 1 | 2 | 2 | 5 | 1 | 7 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 5 |
| Çöl üzümü | 2 | 1 | 3 | 4 | 2 | 2 | 2 | 3 | 3 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 2 | 2 | 3 | 2 | 1 | 2 | 5 | 2 | 7 | 4 | 1 | 5 | 4 | 1 | 1 | 4 |
| Şahtaxtı | 1 | 1 | 3 | 4 | 3 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 6 | 1 | 2 | 1 | 1 | 3 | 2 | 4 | 2 | 3 | 5 | 2 | 6 | 4 | 4 | 2 | 4 | 1 | 2 | 5 |
| Şəkərbura | 2 | 1 | 3 | 4 | 3 | 1 | 1 | 3 | 1 | 2 | 1 | 4 | 1 | 1 | 1 | 4 | 3 | 2 | 4 | 2 | 2 | 5 | 2 | 5 | 4 | 4 | 3 | 4 | 1 | 2 | 4 |
| Hacı Əhmədi | 1 | 1 | 3 | 5 | 2 | 2 | 2 | 3 | 2 | 2 | 1 | 6 | 1 | 2 | 2 | 3 | 3 | 2 | 3 | 2 | 3 | 5 | 2 | 5 | 4 | 3 | 3 | 4 | 1 | 2 | 4 |
| Hərnə-qrna | 1 | 1 | 2 | 4 | 3 | 2 | 3 | 1 | 2 | 1 | 5 | 1 | 2 | 1 | 2 | 1 | 4 | 2 | 4 | 2 | 4 | 5 | 1 | 6 | 4 | 4 | 3 | 4 | 1 | 3 | 4 |
| Göy üzüm | 1 | 1 | 3 | 5 | 3 | 2 | 1 | 3 | 2 | 2 | 1 | 3 | 1 | 2 | 1 | 2 | 2 | 3 | 3 | 1 | 2 | 5 | 1 | 7 | 4 | 2 | 5 | 4 | 1 | 1 | 4 |
| Əlincə | 1 | 1 | 3 | 4 | 3 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 3 | 3 | 1 | 3 | 4 | 4 | 3 | 2 | 2 | 2 | 3 | 5 | 4 | 4 | 2 | 4 | 4 | 2 | 4 |
| Xərci | 1 | 2 | 3 | 4 | 2 | 3 | 2 | 3 | 2 | 2 | 1 | 4 | 1 | 2 | 1 | 2 | 2 | 3 | 3 | 2 | 2 | 6 | 1 | 5 | 4 | 4 | 3 | 4 | 1 | 2 | 4 |

Rusiya, Ukrayna və Ermənistan ərazilərində belə üzüm sortlarımız daha çoxdur. Ona görə də üzüm sortlarının təyin edilməsi və düzgün adlandırılması məqsədilə "Üzüm sortlarının rəqəmsal ampeloqrafik təyini" üsulu işlənib hazırlanmışdır və Naxçıvan MR-in aborigen üzüm sortlarının rəqəmsal təyin olunması işi yerinə yetirilmişdir (Cədvəl 2.11 və 2.12). Bu üsulla üzüm sortlarında 31 əsas irsi əlamətlər (inkişaf etməkdə olan zoğlardakı tac və ilk 3-5-ci yarpaqda-1, yaşıl zoğlarda-1, birillik zoğlarda-2, yarpaqlarda-10, çiçəklərdə-1, salxımlarda-5, gilələrdə-9, məhsuldarlıq əmsalı üzrə-2) 127 təzahür formasında müqayisəli şəkildə təyin edilir. Morfoloji əlamətlərin rəqəmsal ifadəsi (təzahür formaları) irsi xüsusiyyətlərin sırası ilə ifadə olunmuşdur. Morfoloji əlamətlərin rəqəmsal ifadəsi hər bir sortun önündəki xanalarda göstərilmişdir. Bu üsulun köməyi ilə 92 aborigen üzüm sortu təyin olunmuşdur. Qeyd etmək lazımdır ki, yeni üsulun üstün cəhəti çox sadə olmaqla yanaşı təyin olunan bütün üzüm sortlarının əsas irsi morfoloji əlamətlərini tez müqayisə olunmasıdır. Bu üsulun köməyi ilə, aborigen üzüm sortları arasında oxşar və fərqli xüsusiyyətləri, genofondda dominantlıq edən irsi əlamətləri və s. asanlıqla ayırd etmək mümkündür. Beləliklə, bu üsulun köməyi ilə muxtar respublika ərazisindən kənarda becərilən aborigen üzüm sortlarını asanlıqla ayırd və təyin etmək, onların əsil adları ilə adlandırılması mümkün olacaqdır.

## 5. Əsas fenoloji fazaların gedişi

Fenologiya - (yunan sözü olub, *Phainomena* – mövcud olmaq, biruzə vermə) canlı orqanizmlərin təbii aktiv inkişaf dövrlərini tədqiq edən elm sahəsidir. Fenoloji müşahidələr nəticəsində orta çoxillik məlumatlarının toplanılması təsərrüfatlarda mövsümü aqrotexniki işlərin yerinə yetirilməsi üçün çox əhəmiyyətlidir. Fenoloji müşahidələr yolu ilə bitkilər aləminin inkişafının ayrı-ayrı fazaları tədqiq edilir, onların biologiyası öyrənilir. Üzüm bitkisinin yerləşdiyi ekoloji şəraitdə abiotik amillərin təsirinə qarşı ən birinci uyğunlaşma və cavab reaksiyası inkişaf tsiklində baş verən fenoloji dəyişkənliklərdir. Tənəyin illik inkişaf tsiklinin müəyyənləşdirilməsində, ayrı-ayrı fazaların irsi qanunauyğunluqların öyrənilməsində fenoloji tədqiqatların böyük nəzəri və elmi-praktik əhəmiyyəti vardır. Ardıcıl olaraq çoxillik fenoloji müşahidələr nəticəsində ayrı-ayrı sortların əsas genetik biomorfoloji xüsusiyyətləri, xarici mühitlə qarşılıqlı əlaqələri və baş verən morfoloji dəyişkənlikləri haqqında elmi məlumatlar əldə edilir. Üzüm genofondunda olan sortlarda ekoloji şəraitdən asılı olaraq bioloji tsiklin, ayrı-ayrı fenoloji fazaların gedişinin öyrənilməsi onların iqtisadi qiymətləndirilməsi üçün əsas şərtlərdən biridir.

*V.vinifera* növü də ontogenezi dövründə həyati funksiyaların və morfoloji dəyişkənliklərin cəmini əhatə edən böyük və hər il təkrarlanan kiçik həyat tsiklini

keçirir. Üzüm bitkisinin illik həyat tsikli ilin mövsüm şəraiti ilə əlaqədar olaraq dəyişən morfoloji, anatomik, fizioloji, biokimyəvi prosesləri əhatə etməklə bir-birindən seçilən vegetasiya və nisbi sükunət dövrlərinə ayrılır. Tənəklərin ontogenezi əsasən 4 mərhələyə: *embrional, yuvenil, məhsuldar* və *qocalma* dövrlərinə ayrılır. Hər il vegetasiya dövrü tənəklərdə həyat üçün vacib olan aktiv proseslər: böyümə, inkişaf, barvermə və s. baş verir. Üzüm sortlarının böyük və kiçik həyat tsiklinin inkişafı onun genetik təbiətinə uyğun baş verməsinə baxmayaraq, onların istiqaməti və intensivliyi ətraf mühit amillərinin təsiri ilə dəyişir. İllik vegetasiya dövrü əsas mühit amillərinin, ən başlıca olaraq işıq və temperaturun dinamikasına uyğun olaraq formalaşır. Bu baxımdan hər bir fenoloji faza üçün təbii amillərin optimallığının müəyyən olunması vegetasiya dövründə üzüm sortlarında məhsuldarlığın, keyfiyyətin yüksəldilməsini idarə etməyə imkan verər. Muxtar respublika ərazisində üzüm bitkisində ayrı-ayrı fenoloji fazaların başlanması, davam etməsi və inkişafı torpaq-iqlim şəraitindən, tənəklərin yaşından və ilin hava şəraitindən asılı olaraq baş verir.

Üzüm genofondunda sortlar üzrə ayrı-ayrı əsas fenoloji fazaların gedişinin ekoloji amillərlə əlaqəli şəkildə öyrənilməsi onların irsi xüsusiyyətlərinin araşdırılmasında, həmçinin hər bir sort üçün lazımi aqrotexniki tədbirlərin hazırlanması və həyata keçirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Onu qeyd etmək lazımdır ki, *V.vinifera* cinsinə mənsub üzüm sortlarında əsas fenoloji fazaların gedişi və davametmə müddətlərindəki irsi fərqlənmələr sort yaranma təkamül prosesində gen mutasiyaları nəticəsində meydana gələn, fizioloji, biokimyəvi proseslərə əsaslanan və günün uzunluğu ilə nizamlanan xarakterik xüsusiyyətlərdən biridir. Üzüm sortlarında əsas fenoloji fazaların gedişində, tumurcuqların inkişafa başlaması, çiçəkləmənin normal gedişi, məhsulun yetişməyə başlaması və tam fizioloji yetişkənliyə çatması üçün tələb olunan aktiv temperaturun miqdarı, ümumi vegetasiya dövrü, həmçinin inkişaf müddətindəki fərqlənmələr əsas genetik irsi xüsusiyyətlərdəndir.

*Ümumi şirə axını:* Meteoroloji şəraitdən və sortdan asılı olaraq şirə axını fazasında normal vəziyyətdə olan bir tənək 1,5-5,0 litrə qədər şirə axıdır. Tənəklərdə mineral maddələr 2-4 m/saat, su 14 m/saat sürətlə hərəkət edirlər. Üzvi maddələrin hərəkəti isə 0,7-1,5 m/saatdır. Tənəklərdə şirə axının miqdarı və sürəti torpaqdakı suyun miqdarı və temperaturla korelyativ əlaqəlidir. Ümumi şirə axınının başa çatması üçün cəmi 230-250$^0$C – aktiv temperatur sərf olunur. Bu dövrdə su 1,5 atmosfer təzyiqlə köklərə sorulur.

Tənəklərdə illik inkişaf tsikli vegetasiya və nisbi sükunət dövrlərinə bölünür. Vegetasiya dövründə tənəkdə həyat üçün vacib olan aktiv proseslər – böyümə, inkişaf, məhsul vermə və s. baş verir. Bu dövr üzüm tənəklərində yazda şirə hərəkəti ilə başlayır, sonra tumurcuqların açılması, zoğların inkişafı, yarpaq, çiçəklərin əmələ gəlməsi, çiçəkləmə, tumurcuqların formalaşması, gilələrin inkişafı və böyüməsi,

zoğların yetişməsi, məhsulun yetişməsi, böyümənin dayanması, xəzanlama kimi proseslər baş verir.

Üzüm sortlarının vegetasiya fazalarının müəyyən edilməsi zamanı fenoloji müşahidələr apararkən aşağıdakı cədvəldən istifadə etmək olar.

**Üzüm sortlarının vegetasiya fazalarının gedişi üzrə cədvəl**

| Sortun adı | Ümumi şirə axımının başlanması | Tumurcuqların açılması | | Çiçəkləmə | | | Məhsulun yetişməsi | | Tumurcuqların açılmasından gilələrin tam yetişməsinə qədər | | Zoğların yetişməyə başlaması | Xəzanlama |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | başlanğıc | kütləvi | başlanğıc | kütləvi | son | başlanğıc | tam yetişmə | vegetasiya müddəi, gün | aktiv temperaturun miqdarı, ºC | | |
| | | | | | | | | | | | | |

*Ümumi şirə axının başlanması:* Erkən yazda tənəklərdəki zədələnən yerlərdə, budanmış tənəklərdə isə zoğların ucuna baxdıqda damcı şəklində bol şirə müşahidə edilir. Bu zaman şirə axımının başlanması qeyd edilir. Əgər tənəyin ştambında yaralar yoxdursa və tənəklər budanmayıbsa, onda müxtəlif tənəklərin birillik zoğlarından bir neçəsinin ucunu müşahidə məqsədilə kəsmək lazımdır. Şirə tənəyin ştambındakı yeni zədələrdə nisbətən tez, köhnə kəsiklərdə isə nisbətən gec axır. Ona görə də müşahidə apararkən tənəklərin ştamblarındakı köhnə zədələnmələr yenidən budanmalıdır. Şirə hərəkətinin öyrənilməsi məqsədilə hər sortdan ən azı 5 ədəd tənəyin müşahidə edilməsi kifayət edir.

*Tumurcuqların inkişafı:* Əvvəlcə tumurcuqlar ölçü etibarı ilə böyüyür (şişir), pulcuq aralanır və böyüməkdə olan sıx sarı, yaxud qəhvəyi rəngli tükcüklərlə örtülü zoğ başlanğıcı yarımkürə şəklində görünməyə başlayır, sonra isə sıx tükcük pərdəsini yarır və çılpaq halda görünür, elə bu vaxtdan da tumurcuqların açılmasının başlanğıcı hesablanır. Üzüm sortlarında ən azı 5 tənək üzrə bar zoğları üzərindəki tumurcuqlarda açılma müşahidə edilirsə, həmin gün tumurcuqların açılması günü qəbul edilir. Ayrı-ayrı tənəklərdə tumurcuqların 50%-i açıldıqda bu kütləvi açılma hesab edilir. Tumurcuqlar açıldıqdan sonra zoğlar və çiçəklər inkişaf etməyə başlayır. Çiçəyin inkişafı müşahidə zamanı qeydə alınmasa da, yaşıl əməliyyatın, salxım yarpaqbükəninə qarşı mübarizənin aparılması və seleksiya işləri baxımından təcrübi

əhəmiyyət kəsb edir.

*Çiçəkləmə***:** Çiçəklərdə çiçək tacının çiçək yatağından ayrılmağa başlaması və qapaqcıq şəlkində tökülməyə başlaması çiçəkləmənin başlanması əlamətidir. Tənəklərdə 2-3 çiçək topasından çiçək tacının düşməyə başlaması müəyyən edildikdə həmin gün çiçəkləmənin başlanmasına işarədir. Tənəklərdəki çiçəklərin 3/4-də tacın kütləvi tökülməsi çiçəkləmənin kütləvi halı kimi qeyd edilir. Çiçək topalarındakı bütün çiçəklərdə tacın ayrılması və tökülməsi, erkəkcik saplağı və tozcuğun quruması (bu zaman ona əl vurduqda tökülür), dişicik ağızığının tədricən quruması, əvvəlki canlı görkəmini itirməsi və nisbətən bozarması, yaxud qonurlaşması əlamətləri çiçəkləmənin sonunun göstəricisidir.

*Məhsulun yetişməsi:* Üzümün yetişmə fazası sortların genetik xüsusiyətlərinin daha qabarıq şəkildə büruzə verməsi ilə müşayət olunur. Sortlar üzrə irsi dəyişkənliklərin meydana çıxması isə aktiv temperaturun miqdarından, torpaqda olan rütubətin və günəşli günlərin sayından daha çox asılı olur. Tənəklərdə məhsulun yetişməsi tələb olunan ilkin yetişkənlik, tam fizioloji yetişkənlik və texniki yetişkənlik dövrlərinə bölünürlər. Süfrə üzüm sortlarında bir sıra sortlar tam fizioloji yetişkənliyə çatmamış toplanılır və satışa çıxarılır. Üzüm məhsulunun tam yetişkənlik dövrü fizioloji yetişkənlik adlanır. Süfrə sortlarının əksəriyyəti isə təzə halda yeyilmək məqsədilə əsasən tam fizioloji yetişkənlik dövründə toplanılır. Sənaye istehsalı üçün istifadə edilən ayrı-ayrı üzüm sortlarında şirədə şəkərliliyin və turşuluğun tələb olunan səviyyədəki dövründə məhsulun toplanılması texniki yetişkənlik adlanır. Texniki sortların hamısı belə yetişmə dövründə toplanılır. Şanpan şərabları, həmçinin xüsusi tipli şərabların hazırlanması üçün istifadə olunan üzüm sortları tələb olunan şəkərliliyə və turşuluğa malik olduqda texniki yetişkənlik dövrü adlanır və toplanılaraq istehsalata göndərilir. Üzüm sortlarından konyak istehsalı üçün 15,0-17,0 q/100 $sm^3$, şampan istehsalı üçün 17,0-20,0 q/100 $sm^3$, ağ süfrə və qırmızı şərablar üçün 18,0-22,0 q/100 $sm^3$, kaxet şərabları üçün isə 22,0 q/100 $sm^3$ və daha çox şəkərlilik tələb olunur. Texniki və fizioloji yetişkənlik dövrləri üst-üstə və ya biri digərindən tez və ya gec ola bilər. Üzüm məhsullarının tam yetişməsi üçün 2500-4200º C aktiv temperatur tələb olunur.

Tam yetişmə zamanı gilələr elastikləşir və saplağından asanlıqla ayrılır. Bu dövrdə gilələr hər sorta məxsus rəng alır, dadı və aromatı aydın hiss olunur. Gilələrin tam yetişməsi zamanı toxumlar lətdən asan ayrılır, son dərəcə möhkəm olur və tamamilə qəhvəyi rəng alır.

Xəzan: Üzümdə təbii xəzanlama zamanı tənəklərdə yarpaqların xarakterik payız rəngi alaraq, yarpaq saplağı zoğlardan asanca qopmağa başlayır. Bir neçə tənəkdə zoğun aşağı buğum düyünlərindən sarı, yaxud qırmızı rəngə boyanmış yarpaqların tədricən, hətta zəif küləyin təsiri ilə tökülməsi xəzanlamanın başlanması günü kimi qeyd edilir. Bəzən təbii xəzanlamadan fərqli olaraq, payızda baş verən güclü quraqlıq

səbəbilə üzümün həyat fəaliyyətində qəflətən pozulmalar baş verir, yarpaqlar vaxtından əvvəl qurumağa və tökülməyə başlayır.

## 6. Birillik zoğların böyüməsi və mumyetişməsi dinamikası

Tənəkdəki zoğlar böyüyərkən zoğun tac hissəsi qıvrılmış vəziyyətdə olur. Bu böyümə dövrü tacın maneələrə toxunub zədələnməməsi üçün təkamül prosesində qazanılmış irsi əlamətdir. Zoğların boyatması başa çatdıqda bu əyrilik itir.

Üzüm sortlarında böyümə dinamikası, biillik zoğları ümumi uzunluğu əsas irsi əlamət olmaqla bir-birindən fərqlənirlər. Böyümə dinamikası öyrənilərək hər bir sorta məxsus olan 10 ədəd tənək üzərində birillik zoğlar 25-30 sm uzunluğa çatdıqdan sonra ölçmə işlərinə başlanılır. Hər 10 gündən bir aparılan ölçmə işlərində tənəyin böyümə dinamikası müəyyən edilir. Vegetasiyanın sonunda birillik zoğların böyüməsi dayanarkən ölçmə işləri dayandırılır. Birillik zoğlarda böyümənin dayanması tazın üfüqi şəkildə durması ilə müəyyən edilir. Birillik zoğların boyatması başa çatdıqdan sonra ümumi uzunluğu və mumyetişmə dərəcələri müəyyən edilir. Zoğların ümumi mumyetişmə dərəcəsi təyin edilərkən zoğun ümumi yetişmiş hissəsi ümumi uzunluğuna bölünərək faizlə ifadə olunur.

Kolleksiya bağındakı tənəklərdə aqrotexniki tədbirlər olaraq yaşıl əməliyyatlar aparıldığından təcrübə üçün seçilmiş tənəklər nişanlanır və onlarda yaşıl əməliyyatlar aparılmır. Zoğların yetişmə dinamikasının öyrənilməsi məqsədilə hər tənəkdən 5-10 ədəd zoğ nişanlanaraq ölçmələr aparılır.

Tənəyin boy gücü və zoğların mumyetişmə dərəcəsi müəyyən edilərkən tənək-dəki zoğların mənşəyi nəzərə alınmalıdır. Biometrik ölçmələr zamanı tənəkdəki əsas tumurcuqlardan əmələ gələn barlı və barsız zoğlarla yanaşı, yatmış tumurcuqlardan əmələ gəlmiş haramı (sulu, yaxud yağlı) zoğlar üzərində də fenoloji müşahidələr aparmaq olar. Burada tənəyin təbii halı, inkişaf və zoğəmələgətirmə qabiliyyəti gözlənilməlidir.

Birillik zoğlarda mumyetişmə salxımlarda meyvələr yetişməyə başlayan dövrə təsadüf edir. Zoğun əsasından başlayaraq, 3-7 buğumarasının yetişməsi ləng gedir və təxminən 12-18 gün davam edir. Sonra isə mumyetişmə intensivləşir. Zoğun uc hissəsinə yaxın 8-14-cü və daha yuxarı buğumaralarının mumyetişməsi sürətlə (3-6 gün) gedir. Təbiidir ki, zoğların mumyetişməsinə aqrotexniki tədbirlər, xüsusilə də hava şəraiti əhəmiyyətli təsir göstərir.

Sortlar üzrə tənəklərdəki birillik zoğlarda inkişafın qiymətləndirilməsi 5 qradasiya üzrə yerinə yetirilir: 1. Çox zəif boyatma; 2. Zəif boyatma; 3. Orta boyatma; 4. Güclü boyatma; 5. Çox güclü boyatma.

Tənəyin boyatma gücünüün təyin edilməsi məqsədilə müxtəlif üsullar tətbiq

edilir. Professor S.A.Melnik tənəyin boy atma gücünün öyrənilməsi məqsədilə 3 üsul təklif etmişdir:

1) Gözəyarı qiymətləndirmə;

2) Çəki üsulu;

3) Xətti öçmə üsulu.

A.S.Melnik zoğların boy artımının üç üsul - gözəyarı, xətti ölçmələr və ilk dəfə V.A.Gernet tərəfindən tətbiq edilmiş kub ölçmələr üsulu ilə əldə edilmiş rəqəmlərin müqayisəli öyrənilməsi nəticəsində müəyyən etmişdir ki, axırıncı üsul daha dəqiqdir. Çünki bu zaman hər zoğun uzunluğu və diametri olçülür, sonra isə aşağıdakı düstur üzrə zoğ artımının kub ölçmələri aparılır.

$$P=\Sigma l \times \pi \frac{d^2}{4};$$

*Burada*: P - kub olçüsü ilə verilən zoğ artımı;

$\Sigma l$ - tənəkdə inkişaf etmiş bütün birillik zoğların uzunluqlarının cəmi;

d – zoğun orta diametridir.

A.M.Neqrulun fikrincə, tənəklərdəki zoğların sayı nəzərə alınmadan boy gücünün hesablanması onu tam ifadə edə bilmir. Müəllif qeyd edir ki, tənəklərdəki zoğların boyu və qalınlığı çoxsaylı amillərdən (sahənin yerləşmə məkanından, tənəyin polyarlığından, becərilmə şəraitindən və texnologiyasından və s.) asılı olaraq dəyişir. Ona görə də A.M.Nerqrul tənəyin boy gücünü hesablamaq üçün tənəkdəki zoğların uzunluğuna və sayına əsaslanaraq, aşağıdakı düsturu təklif etmişdir:

$$V=V_1 K^{\frac{\lg N}{0,301}}.$$

*Burada:* V – tənəyin boy gücü, sm-lə;

$V_1$ – bir zoğun orta uzunluğu, sm-lə;

K – kolun çökmə əmsalı;

N – tənəkdəki zoğların sayı, ədədlə;

0,301 – sabit kəmiyyətdir (lg 2).

## 7. Üzüm sortlarının məhsuldarlığının və bar elementlərinin təyin edilməsi

Üzümçülükdə üzümün sortöyrənilməsi zamanı məhsuldarlığın dəqiq qiymətləndirilməsi kifayət qədər çətin və məsuliyyətli işdir. Üzümün məhsuldarlığı bioloji təbiətinə uyğun olsa da, onun formalaşması müxtəlif amillərin (abiotik, biotik və antropogen amillər) qarşılıqlı təsiri altında gedir.

Üzüm sortlarının məhsuldarlığı haqqında tam və əsaslandırılmış məlumata malik olmaq üçün aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

1. tənəyin strukturunun təyin edilməsi;
2. barlı zoğların təyin edilməsi;
3. məhsulun çəki ilə uçotu;
4. Salxımların sıxlıq dərəcəsinin və gilənin böyüklüyü üzrə variasiyanın təyin edilməsi (sortlarda çiçəklərin tökülmə dərəcəsindən və gilələrin noxudlaşmasından asılı olaraq).

**Tənəyin strukturunun təyin edilməsi**. Tənəklərə sortların bioloji xüsusiyyətlərindən, xüsusilə də onların inkişaf səviyyəsindən, boy gücündən, zoğ əmələgətirmə qabiliyyətindən, barlı və barsız zoğların miqdarından və s. amillərdən asılı olaraq ayrı-atrı formalar verilməklə yanaşı, onların üzərində müxtəlif miqdarda bar barmaqları saxlanılır və bar zoğları isə fərqli uzunluqda kəsilir. Sahədə budama apararaq tədqiq edilən tənəklərin strukturu aşağıdakı elemetlər üzrə öyrənilir:

1. tənəkdə saxlanılan birillik qolların sayı;
2. tənəkdəki bar zoğlarının (barmaqların) sayı;
3. əvəzedici çiliklərin sayı.

**Zoğların məhsuldarlığının təyin edilməsi.** Üzüm sortlarının bar orqanını tənəkdəki qışlayan (əsas) tumurcuqlardan inkişaf etmiş və üzərində çiçək salxımları, olan yaşıl zoğlar təşkil edir. *V.vinifera* növünə mənsub olan sortlarda yatmış (haramı və pöhrə zoğlar) və qoltuq tumurcuqlardan (bic zoğlar) inkişaf edən zoğlar əsasən barsız olurlar. Bunlardan əmələ gələn salxımlar çox xırda, məhsuldarlığı isə aşağı olur.

Zoğların məhsuldarlıq göstəricilərinin öyrənilməsi tənəklərdə yaşıl əməliyyatlar başlayana qədər sona çatdırılmalıdır. Bu müddət ərzində tənəklərdə aşağıdakı işlər görülür:

1. Quru budama zamanı tənəkdə saxlanılmış tumurcuqların sayı;
2. Tənəkdə inkişaf edən tumurcuqların miqdarı;
3. Tənəkdə inkişaf etmiş ümumi zoğların miqdarı;
4. Tənəkdə çiçək salxımlı zoğların miqdarı;
5. Tənəkdə çiçək salxımlarının ümumi miqdarı.

Hər bir sortun genetik xüsusiyyətindən asılı olaraq tənəkdə barlı zoğlarda çiçək salxımları müxtəlif miqdarda ola bilər (bir çiçək salxımlı, iki çiçək salxımlı, üç çiçək salxımlı və s.).

**Məhsuldarlıq əmsalı.** Tənəkdə çiçək salxımlarının sayının inkişaf etmiş ümümi zoğların miqdarına nisbəti *tənəyin məhsuldarlıq əmsalı* adlanır.

Barlı zoğlardakı çiçək salxımlarının sayının barlı zoğların miqdarına olan nisbəti *barlı zoğların məhsuldarlıq əmsalı* adlanır.

Tənəkdən toplanılmış normal salxımların ümumi kütləsinin salxımların sayına bölünməsindən alınan rəqəm *salxımın orta kütləsini* ifadə edir.

Tənəkdə salxımın orta kütləsinin barlı zoğun məhsuldarlıq əmsalına vurma

hasılınə *barlı zoğların məhsuldarlığı* deyilir.

Tənəkdə salxımın orta kütləsinin tənəkdəki ümumi zoğların məhsuldarlıq əmsalına vurma hasılınə *zoğların məhsuldarlığı* deyilir.

**Üzüm sortlarının məhsuldarlıq göstəriciləri**

| Sortun adı | Kolleksiyadakı yeri | Tənəyin bar yükü, ədədlə | Açılmış tumurcuqların sayı, ədədlə | Barlı zoğların sayı | | | Tənəkdəki salxımların miqdarı | Tənəkdəki yaşıl zoğların ümumi sayı, ədəd | Tənəyin məhsuldarlıq əmsal sayı | Barlı zoğun məhsuldarlıq əmsalı | Barlı zoğların faizlə miqdarı | Zoğun məhsuldarlığı, q | Salxımların orta kütləsi, q | Bir kolun məhsuldarlığı, kq | Hektardan məhsuldarlıq, s/ha |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Bir çiçək salxımlı | İki çiçək salxımlı | Üç çiçək salxımlı | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |

## 8. Yarpaq səthi sahəsinin təyin edilməsi

Tənəkdəki yarpaq səthinin sahəsi aşağıdakı formul üzrə hesablanır (tənəkdəki bütün yarpaqların diametrinin ilkin ölçülməsindən sonra):

$$S = \frac{\pi d^2}{4};$$

S - yarpaq səthinin şərti sahəsi, $m^2$

d - yarpağın diametri (əsas dilimin sonundakı dişciyin ucundan aşağı yan dilimin kənarındakı dişciyin ucuna qədər olan məsafə)

$\pi = 3,14$- sabit kəmiyyətdir.

Tənəyin yarpaq səthinin sahəsi bütün yarpaqların səthinin sahəsinin cəmi ilə müəyyən edilir. Müvafiq diametrə (1-17 sm-ə qədər) malik yarpaqların səthinin hesablanmasında hazır göstəricilər müəyyən edilmiş və aşağıdakı *2* saylı cədvəldə verilmişdir.

*Cədvəl 2.13*

**Yarpağın müxtəlif diametrlərində səthin sahəsi**

| d (sm) | S ($sm^2$) | | d (sm) | S ($sm^2$) | | d (sm) | S ($sm^2$) | | d (sm) | S ($sm^2$) | | d (sm) | S ($sm^2$) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1,0 | 0,79 | | 4,3 | 14,48 | | 7,5 | 43,90 | | 10,7 | 89,50 | | 13,9 | 151,90 |
| 1,1 | 0,84 | | 4,4 | 15,25 | | 7,6 | 45,15 | | 10,8 | 91,10 | | 14,0 | 153,86 |
| 1,2 | 0,93 | | 4,5 | 15,98 | | 7,7 | 46,40 | | 10,9 | 92,70 | | 14,1 | 156,08 |
| 1,3 | 1,33 | | 4,6 | 16,66 | | 7,8 | 47,70 | | 11,0 | 95,00 | | 14,2 | 158,30 |
| 1,4 | 1,55 | | 4,7 | 17,44 | | 7,9 | 48,80 | | 11,1 | 96,71 | | 14,3 | 160,53 |
| 1,5 | 1,77 | | 4,8 | 18,50 | | 8,0 | 50,30 | | 11,2 | 98,44 | | 14,4 | 162,80 |
| 1,6 | 2,05 | | 4,9 | 18,97 | | 8,1 | 51,40 | | 11,3 | 100,24 | | 14,5 | 165,07 |
| 1,7 | 2,26 | | 5,0 | 19,65 | | 8,2 | 52,70 | | 11,4 | 102,25 | | 14,6 | 167,36 |
| 1,8 | 2,54 | | 5,1 | 20,44 | | 8,3 | 53,80 | | 11,5 | 103,86 | | 14,7 | 169,71 |
| 1,9 | 2,83 | | 5,2 | 21,57 | | 8,4 | 55,20 | | 11,6 | 105,66 | | 14,8 | 172,12 |
| 2,0 | 3,14 | | 5,3 | 22,13 | | 8,5 | 56,50 | | 11,7 | 107,30 | | 14,9 | 174,50 |
| 2,1 | 3,45 | | 5,4 | 22,97 | | 8,6 | 58,20 | | 11,8 | 108,80 | | 15,0 | 176,90 |
| 2,2 | 3,79 | | 5,5 | 23,66 | | 8,7 | 59,50 | | 11,9 | 111,15 | | 15,1 | 178,99 |
| 2,3 | 4,13 | | 5,6 | 24,60 | | 8,8 | 61,20 | | 12,0 | 113,04 | | 15,2 | 181,37 |
| 2,4 | 4,52 | | 5,7 | 25,47 | | 8,9 | 62,30 | | 12,1 | 114,92 | | 15,3 | 183,76 |
| 2,5 | 4,90 | | 5,8 | 26,42 | | 9,0 | 63,60 | | 12,2 | 116,84 | | 15,4 | 186,17 |
| 2,6 | 5,28 | | 5,9 | 27,28 | | 9,1 | 65,20 | | 12,3 | 118,77 | | 15,5 | 188,66 |
| 2,7 | 5,73 | | 6,0 | 28,30 | | 9,2 | 66,30 | | 12,4 | 120,70 | | 15,6 | 191,58 |
| 2,8 | 6,17 | | 6,1 | 29,08 | | 9,3 | 67,90 | | 12,5 | 122,70 | | 15,7 | 194,49 |
| 2,9 | 6,59 | | 6,2 | 30,01 | | 9,4 | 69,20 | | 12,6 | 124,76 | | 15,8 | 196,46 |
| 3,0 | 7,07 | | 6,3 | 31,08 | | 9,5 | 70,70 | | 12,7 | 126,62 | | 15,9 | 198,46 |
| 3,1 | 7,55 | | 6,4 | 32,20 | | 9,6 | 72,20 | | 12,8 | 128,63 | | 16,0 | 200,96 |
| 3,2 | 8,04 | | 6,5 | 33,20 | | 9,7 | 73,70 | | 12,9 | 130,65 | | 16,1 | 203,49 |
| 3,3 | 8,53 | | 6,6 | 34,25 | | 9,8 | 75,30 | | 13,0 | 132,67 | | 16,2 | 206,20 |
| 3,4 | 8,84 | | 6,7 | 35,30 | | 9,9 | 76,80 | | 13,1 | 134,71 | | 16,3 | 208,50 |
| 3,5 | 9,49 | | 6,8 | 36,32 | | 10,0 | 78,60 | | 13,2 | 136,70 | | 16,4 | 211,13 |
| 3,6 | 10,14 | | 6,9 | 37,89 | | 10,1 | 80,70 | | 13,3 | 138,87 | | 16,5 | 213,72 |
| 3,7 | 10,68 | | 7,0 | 38,48 | | 10,2 | 81,64 | | 13,4 | 140,98 | | 16,6 | 216,31 |
| 3,8 | 11,30 | | 7,1 | 39,48 | | 10,3 | 83,28 | | 13,5 | 143,11 | | 16,7 | 218,93 |
| 3,9 | 11,98 | | 7,2 | 40,50 | | 10,4 | 84,94 | | 13,6 | 145,12 | | 16,8 | 221,55 |
| 4,0 | 12,57 | | 7,3 | 41,65 | | 10,5 | 86,57 | | 13,7 | 145,15 | | 16,9 | 224,31 |
| 4,1 | 13,12 | | 7,4 | 42,70 | | 10,6 | 88,23 | | 13,8 | 149,20 | | 17,0 | 227,07 |

Müvafiq diametrə malik yarpağın cədvəldə verilən sahəsinin göstəricisi düzəliş əmsalına (K) vurulmalıdır.

Düzəliş əmsalı – K *bütöv yarpaqlar* üçün 1,25-ə, *üçdilimli* yarpaqlar üçün 1,27-ə, *beşdilimli, lakin zəif yarılmış* yarpaqlar üçün 1,30-a, *dərin, yaxud güclü yarılmış* yarpaqlar üçün isə 1,35-ə bərabərdir.

## 9. Gilələrin yetişmə dinamikasının öyrənilməsi

Üzüm sortlarının texnoloji qiymətləndirilməsi məqsədilə yalnız gilələrdəki şəkərlilik və titrlənən turşuluğun miqdarı müəyyən edilir və gilələrin yetişməsi dövründə əsasən bu göstəricilərin dinamikası müşahidə edilir.

Gilənin yetişməyə başlaması və tam yetişməsi vizual qaydada müşahidə edilməklə, eyni zamanda gilələrin yetişməyə başlamasından məhsul yığımına qədər

hər 5-10 gündən bir gilələrdəki şəkərliliyin və turşuluğun miqdarı müəyyən edilərək müşahidə dəftərlərinə qeyd edilir (Cədvəl 2.14). Şəkərlilik saxarometr cihazı, tarla refraktometri, turşuluq isə laboratoriya şəraitində 1/3 normal NaOH məhlulu ilə titrləmə yolu ilə təyin edilir.

*Cədvəl 2.14*

**Gilələrin yetişmə dinamikasının göstəriciləri**

| Sortun adı | Gilənin kimyəvi göstəriciləri | A y l a r | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | iyun | | | | | avqust | | | | | | sentyabr | | | | | | oktyabr | | |
| | | 10 | 15 | 20 | 25 | 30 | 5 | 10 | 15 | 20 | 25 | 30 | 5 | 10 | 15 | 20 | 25 | 30 | 5 | 10 |
| | Şəkərlilik | | | | | | | | | | | | | | | | | | | | |
| | Turşuluq | | | | | | | | | | | | | | | | | | | | |

## 10. Süfrə üzüm sortlarının orqanoleptik (dequstasiya) qiymətləndirilməsi

Süfrə üzüm sortlarının təzə halda keyfiyyətinin qiymətləndirilməsi orqanoleptik üsulla, yəni hiss orqanlarının (görmə, qoxu, dad) köməyi ilə həyata keçirilir. Bu üsul dequstasiya adlanır. Üzüm sortlarının dequstasiyası subyektiv xarakter daşımasına baxmayaraq, bu üsul süfrə üzüm sortlarının keyfiyyəti haqqında müəyyən bir fikrə gəlməyə və onların təzə halda istehlakını, istifadə istiqamətini qabaqcadan təyin etməyə imkan verir. Orqanoleptik üsul süfrə üzüm sortlarının üzdə olan əlamətləri məlum texnoloji və bioloji xüsusiyyətləri haqqında qəti rəy söyləməyə əsas verir. Dequstasiya – üzümün məhsulu tam yetişdikdə həyata keçirilir.

Əvvəlcə salxım və gilələrin xarici görünüşü, sonra gilələrin tamı və ətiri, nəhayət, gilələrin qabıq və lətinin xarakteri müəyyən edilir:

***Salxım və gilələrin xarici görünüşü**:*

2,0 bal - salxım və gilələrin rəngi və forması çox gözəldir, irilikləri tələb olunan səviyyədədir;

1,5 bal - kifayət qədər iri slxımlı və iri giləli və görkəmi gözəl;

1,0 bal - salxım və gilənin ölçüsü və görünüşü qənaətbəxşdir;

0,5 bal - salxımda gilələr xırdadır və görünüşü az cəlbedicidir;

0,1 bal - salxımdakı gilələr çox xırda və görünüşü pisdir;

***Gilələrin dadı və aromatı:***

5,0 bal - çox incə və xoşagələn dadlıdır (bəzi sortlarda çox güclü xoşagələn ətir müşahidə edilir);

4,0 bal - harmonik dadlı və ətirlidir (sortlarda yüngül xoşagələn ətir və dad ola bilər);

3,0 bal - adi dadlı və ətirli, amma süfrə sortları üçün qənaətbəxş olan;

2,0 bal - qeyri-harmonik, turşuluq hiss olunan və kobud dad;

1,0 bal - xoşagəlməyən ətir və dad, təzə halda istifadə üçün yararsız.

***Qabıq və lətin xarakteri:***

3,0 bal - yeyilmə zamanı qabıq hiss olunmur, ləti ətvaridir, kifayət qədər şirəlidir, sərt deyil;

2,0 bal - qabıq zəif hiss olunur, yeyilmə zamanı kiçik parçalara ayrılır, ləti sıxdır, lakin kobud deyil;

1,5 bal - qabıq və ləti qənaətbəxşdir, yeyilmə zamanı xoşagəlməz hiss nəzərə çarpmır;

1,0 bal - qabığı qalındır, kobuddur, ləti kisəçik şəklində çox şirəlidir;

0,1 bal - qabığı çox qalındır, ləti çox sulu, yaxud selikvaridir və gilədə toxum çoxdur.

## 11. Üzüm məhsulunun nəqliyyatla daşınmağa davamlılığı

Üzüm məhsulunun uzaq məsafəyə daşınmasında sortlar üzrə salxımın nəqliyyata davamlılığı təyin edilməlidir. Salxımın nəqliyyata davamlılığı laboratoriya sınaqları və eksperiment daşımaları ilə təyin edilir.

Bu məsələ üzrə M.M.Avidzbanın son ümumiləşdirmələrinə görə üzüm salxımının nəqliyyata davamlılığının öyrənilməsinin ilkin metodikası İ.N.Prostoserdova məxsusdur. Sonralar P.T.Bolqarev, A.İ.Tişenko və J.V.Biyukovanın düzəltdikləri cihazlar əvəzolunmaz vasitə hesab edilir (hər göstərici üçün müvafiq sortdan 100 gilə götürülür, yəni, 10 salxımın hərəsindən saplağı ilə birlikdə 10 ədəd gilə götürülür). Sonralar bu cihazlar V.Y.Birykova, S.Y.Ceneyev və N.K.Kondo tərəfindən xeyli təkmilləşdirilərək, gilənin nəqliyyata davamlılığı düstrunu işləyib hazırlamışlar:

$$K_1 = \frac{44A + 28V + 6S}{1000}$$

Burada: $K_1$ - nəqliyyata davamlılıq;

A - gilənin saplaqdan qopma qüvvəsi, q;

V - gilənin deşilməsinə sərf olunan qüvvə, q;

S - gilənin əzilmə qüvvəsi, q;

Müəyyən edilmişdir ki, $K_1$=60-70-ə bərabər olduqda, nəqliyyata davamlılıq aşağıdır; 75-95arasında olduqda, orta davamlı; 95-dən yuxarı olduqda isə yüksək davamlıdır.

Eksperimental daşımaların təşkili üçün müvafiq sortlar üzrə tipik salxımlardan 10-12 ədəd standart qutulara qablaşdırılır və onlar (avtomobil, vaqon və gəmi) nəqliyyatın orta hissəsində yerləşdirilir. Hər bir qutunun üz tərəfində "təcrübə" sözü

yazılır, qabın netto və bruttosu göstərilir.Göndərilən məhsul nəzərdə tutulan məntəqəyə çatdıqda üzümə əmtəə qiyməti verilir (birinci və ikinci sortlar, eləcə də çıxdaş məhsula əsasən itki hesablanır). Hər bir qutu üzrə ayrıca uçot aparılır.

## 12. Üzüm sortlarının xəstəlik və zərərvericilərə qarşı davamlılıqlarının qiymətləndirilməsi

Azərbaycan şəraitində üzüm tənəkləri daha çox mildiu **(***Plasmopara viticola* Berl. et de Toni), oidium (*Uncinula necator* Burr), boz çürümə (*Botrytis cinerea* Pers.) və antraknoz (*Gloeosporınım ampelophagum* Sac.) göbələk xəstəliklərindən və çox təhlükəli filloksera (*Phylloxera vastatrix* Planch) və salxım yarpaqbükəni (*Polychrosis botrana* Schiff.) zərəzvericilərindən ziyan çəkirlər

***Mildiu.*** Üzüm tənəyinin bütün yaşıl yerüstü hissəsini yoluxdurur. Yazda cavan yarpaqların üzərində açıq-yaşıl rəngli, sonrada sarı ləkələr əmələ gəlir. Sonra bu ləkələr yağlı ləkələrə çevrilir və qonurlaşır. Yarpağın aşağı hissəsində ləkə yerlərində yağışlı havalarda çoxlu ağ tükcüklü örtük–xəstəliyin törədicisinin sporları əmələ gəlir. Ləkələrin diametri 2-3 sm ölçüdə olur.Quru havalarda ləkələr üzərində tüklülük olmur. Xəstəliyə yoluxmadan 2-3 həftə sonra yarpaqların toxumaları quruyur və onlar tökülməyə başlayırlar. Cavan zoğların üzərində qonur rəngli, azca batıq ləkələr meydana gəlir. Xəstəliyin güclü inkişafı dövrü zoğlar quruyur, bığcıqlar kövrək olur və rütubət çox olduqda həmin nahiyələr çürüyürlər. Çiçək və qönçələr isə qonurlaşır və məhv olurlar. Çox vaxt mildiu salxımların darağını zədələyir. Daraq məhv olaraq, yuxarıda olan digər hissələrin – çiçəklərin, buğumların məhvinə səbəb olur. Tənəyin orqanlarının xəstəliyə yoluxması yazda və yayın birinci ongünlüyündə daha təhlükəli olur. Xəstəliklə mübarizə aparılmasa bütün məhsul məhv olar, tənəklər isə quruya bilər. Mildiu xəstəliyinə yoluxmanın immunoloji qiymətləndirilməsi, əsasən, yarpaq və salxımlarda qeydə alınır. Mildiu xəstəliyinin müşahidəsi və qiymətləndirilməsi B.Husfeld və İ.N.Naydenova tərəfindən işlənilmiş üsulla yerinə yetirilir.

***Oidium.*** Üzüm tənəklərinin ən təhlükəli göbələk xəstəliklərindən biridir. Bütün vegetasiya dövründə üzüm tənəklərinin yaşıl orqanlarını zədələyir. Göbələk mitseli halında zədələnmiş tumurcuqlarda, zoğlarda və gövdə yarıqlarında qışlayır. Yarpaqlarda xəstəliyin ilk nişanəsi onların bükülərək qıvrılması və üzərində bozumtul-ağ kül rəngində unlu ləkələrin əmələ gəlməsidir. Çiçək qruplarının və yaşıl gilələrin də üzəri bozumtul kül rəngində unlu ləkələrlə örtülürlər. Xəstəliyə tutulmuş qönçələr və çiçəklər quruyaraq tökülür. Oidiuma yoluxmuş gilələrin qabığı genişlənmədiyindən yetişməyə yaxın dövrdə çatlayır, həmin çatlarda göbələklərin düşüb kütləvi surətdə çoxalması nəticəsində gilələr kiflənir. Oidium xəstəliyi tənəyin

bütün yaşıl orqanlarını və gilələrini zədələyir. Bu xəstəliyin təbii şəraitdə sirayətlənmə dərəcəsi K.A.Voytoviçin təklif etdiyi üsulla qiymətləndirilir.

***Boz çürümə.*** Üzüm tənəklərinin təhlükəli göbələk xəstəliklərindən biridir. Bu xəstəliyin törədiciləri polifaq xarakter daşıyır, belə ki, törədici təkcə üzüm bitkisində deyil, bir çox kənd təsərrüfatı bitkilərində də parazitlik edir. Boz çürümə xəstəliyi tənəklərin zoğlarını, yarpaqlarını, çiçək salxımlarını, bığcıqlarını zədələyir. Bu xəstəlik, adətən, gilələri onların yetişmə dövründə zədələyir, rütubətli havada surətlə inkişaf edir. Gilələrin mexaniki zədələnən yerinə göbələyin sporları küləklə düşərək onları yoluxdurur. Bu da gilənin çürüməsinə səbəb olur. Zədələnmiş gilələr bozarır, onların qabığı qırışır və rütübətli havada boz rəngli kifəbənzər örtüklə örtülür və çürüyür. Göbələklər qonşu gilələrə düşərək, salxımın xeyli hissəsinin çürüməsinə səbəb olur. Xəstəliklə cavan zoğlar və yarpaqlar da zədələnir və onlar hava şəraitində çürüyürlər. Boz çürümə xəstəliyi, salxım yarpaqbükəni və oidiumla zədələnən salxımlarda daha sürətlə inkişaf edir. Xəstəliyin inkişafı hava şəraitindən də asılıdır. Belə ki, uzun müddətli quraqlıqdan sonra yetişmə dövründə yağışlı hava olduqda gilələr şişir və çoxlu çatlar əmələ gəlir ki, bu da onların kütləvi surətlə boz çürümə xəstəliyinə tutulmasına səbəb olur.

***Antraknoz.*** Üzüm bitkisinin ən geniş yayılmış, təhlükəli xəstəliklərindən biridir. Xəstəliyin törədicisi tənəyin bütün yaşıl vegetativ və generativ orqanlarını zədələyir və sirayətlənmiş orqanlarda qışlayaraq uzun müddət (beş ilə qədər) yaşamaq qabiliyyətini saxlayır. Göbələk bəzən bir vegetasiya dövründə 30 dəfə nəsil verir. Zoğlarda əmələ gələn yaralar quş gözünə oxşadığına görə, bəzən bu xəstəliyə "quş gözü" çürüməsi də deyirlər. Zoğlarda əvvəlcə xırda qonurumtul rəngli ləkələr əmələ gəlir, sonra onlar getdikcə böyüyərək uzunsov və oval forma alır. Ləkələr bir-biri ilə birləşərək yaraların meydana çıxmasına səbəb olur. Xəstəliklə sirayətlənmiş yarpaq saplağında və damarlarda yaralar əmələ gələrək yarpaqların qıvrılmasına səbəb olur. Zədələnmiş yarpaq ayası müxtəlif ölçülü və formalı qırmızımtıl rənglə haşiyələnir. Yarpaqlardakı ləkələr tədricən quruyaraq dağılır, tökülür və bu xəstəlik üçün səciyyəvi olan deşiklər əmələ gəlir. Antraknoz xəstəliyi çiçəkləmə dövründə baş verərsə, bu zaman çiçəkdə ləkələr qara rəngli haşiyə ilə əhatə olunur. Zədələnmiş çiçəklər kütləvi şəkildə tökülür. Atraknozla sirayətlənmiş meyvələrdə qara və yaxud tünd-purpur rənglə haşiyələnmiş dairəvi boz, yaxud qonurumtul ləkələr əmələ gəlir və belə meyvələr öz normal formalarını itirirlər. Epifitotiyanın baş verməsində, ümumiyyətlə, xəstəliyin inkişaf etməsində xəstəliktörədiciyə sahib bitkinin və ətraf mühit şəraitinin rolu böyükdür. Belə ki, xəstəliyin baş verməsi və inkişafı üçün göbələyin parazitlik xüsusiyyətləri, bitkidə isə həssaslıq olmalıdır. Digər tərəfdən bunların baş verməsi üçün müvafiq şəraitin olması vacibdir. Xəstəliyin yüksək parazitlilik xüsusiyyətləri, yoluxan bitkinin meyilliliyi, optimal həssaslığı, əlverişli şəraitdə nəinki xəstəliyin əmələ gəlməsini və yayılmasını, eləcə də epifitotiyanı təmin

edir. Ətraf mühit şəraiti, xüsusilə hava şəraiti bitkilərin yoluxması və xəstəliyin yayılması üçün əlverişli olmaya bilər. Bu zaman hətta böyük yoluxma ehtimalı olsa belə, epifitotiya inkişaf etmir.

Təbii şəraitdə üzüm bitkisinin xəstəliklərlə yoluxmasının immunoloji qiymətləndirilməsi dedikdə, üç əsas komponentin – sahib bitki, patogen və üzümün becərildiyi xarici şəraitin qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Bir qədər etibarlı davamlılıq əlamətləri və yoluxma göstəriciləri, yüksək təbii infeksiya fonu olan epifitotiya mövsümündə alına bilər. İmmunoloq belə mövsümlərdən öz təcrübi işlərində maksimum dərəcədə istifadə etməli və qiymətləndirməni düzgün aparmaq üçün tədqiqatlar bir neçə il təkrarlanmalıdır.

***Təbii fonda üzüm yarpaqlarında mildiu xəstəliyi ilə siyarətlənməsinin fitopatoloji qiymətləndirilməsi (5 ballıq şkala üzrə);***

0 bal. İmmunitetli - yarpaqlarda xəstəliyin əlamətləri müşahidə edilmir;

1 bal. Yüksək davamlı - yarpaqlarda spor daşıyan xırda nöqtələrə rast gəlinir;

2 bal. Davamlı - yarpaq damarları arasında zəif spordaşıyan nekrozlaşmış ayrı-ayrı qruplar halında hüceyrələrə təsadüf olunur;

3 bal. Tolerant (dözümlü) - nekrozlaşmış zona ilə haşiyələnən böyük olmayan, ayrı-ayrı yağlı mildiu ləkələrinə rast gəlinir. Göbələk spor daşıyanları zəif inkişaf etdiklərinə görə ləkələrin böyüməsi məhdudlaşır. Yarpaqlar tökülmür;

4 bal. Davamsız - yarpaqlarda çoxlu sayda spordaşıyan böyük yağlı ləkələr əmələ gəlir. Bəzi hallarda yarpaqların tökülməsi də müşahidə edilir;

5 bal. Çox davamsız - yarpaq ayası çox hallarda külli miqdarda spor daşıyan böyük ölçülü yağlı ləkələrlə örtülür. Xəstəliyin şiddətli inkişafı zamanı yarpaqlar kütləvi tökülür.

***Təbii fonda üzüm yarpaqlarında oidium xəstəliyi ilə siyarətlənməsinin fitopatoloji qiymətləndirilməsi (5 ballıq şkala üzrə);***

0 bal. İmmunitetli - yarpaqlarda xəstəlik müşahidə olunmur. Konidilər cücərir, lakin mitseli əmələ gətirə bilmir və tezliklə məhv olurlar;

1 bal. Yüksək davamlı - xəstəliklə sirayətlənmiş yarpaqlarda nekrotik ləkələr görünür. Konidilər cücərir və spordaşıyan çox zəif mitseli əmələ gətirirlər. Tənəkdə tək-tək yarpaqlar xəstəliklə sirayətlənirlər;

2 bal. Davamlı - xəstəliklə sirayətlənmiş yarpaqlarda böyük olmayan parlaq mitseli ləkələri görünür və yarpaqlar açıq rəngə boyanırlar. Mitselilər zəif şaxələnir və konidilər az əmələ gəlir. Xəstəliklə tənəkdə ayrı-ayrı yarpaqlar sirayətlənirlər;

3 bal. Tolerant (dözümlü) - xəstəliklə sirayətlənmiş yarpaqlarda böyük ölçüyə malik olmayan oval şəkilli ləkələr əmələ gəlir. Mitselilər yaxşı inkişaf etməsinə baxmayaraq, ləkələr bir-birilə birləşmir, lakin konidilər normal əmələ gələ bilirlər. Tənəkdə çoxlu sayda xəstəliklə sirayətlənmiş yarpaqlara təsadüf olunur;

4 bal. Davamsız - xəstəliklə sirayətlənmiş yarpaqlar tamamilə mitseli ilə örtülür

və çoxlu sayda konidilər əmələ gəlirlər, lakin yarpaq ayasında xəstəliklə yoluxmamış sahələrə təsadüf edilir. Tənəkdə olan yarpaqların əksəriyyəti xəstəliklə sirayətlənirlər;

5 bal. Çox davamsız - xəstəliklə sirayətlənmiş yarpaqlar bütünlüklə ağ-boz rəngli örtüklə örtülür. Tənəkdə olan yarpaqların təxminən hamısı xəstəliklə yoluxaraq, son nəticədə tökülürlər.

***Üzüm salxımlarının təbii fonda mildiu xəstəliyinə qarşı fitopatoloji qiymətləndirilməsi (5 ballıq şkala üzrə);***

0 bal. Immunitetli - salxımda, gilələrdə xəstəlik müşahidə olunmur;

1 bal. Yüksək davamlı - salxımda gilələr az miqdarda (5 %-ə qədər) yoluxur;

2 bal. Davamlı - salxımda gilələrin 5-10%-i yoluxur;

3 bal. Tolerant (dözümlü) - salxımda gilələrin 10-20%-i yoluxur;

4 bal. Davamsız - salxımda gilələrin 20-50 %-i yoluxur;

5 bal. Çox davamsız - salxımlar və gilələr kütləvi yoluxur.

***Üzüm salxımlarının təbii fonda oidium xəstəliyinə qarşı fitopatoloji qiymətləndirilməsi (5 ballıq şkala üzrə);***

0 bal. Immunitetli - salxımda xəstəlik müşahidə olunmur;

1 bal. Yüksək davamlı - salxımda gilələr az miqdarda (5 %-ə qədər) yoluxur;

2 bal. Davamlı - salxımda gilələr zəif (5-10 %) yoluxur;

3 bal. Tolerant (dözümlü) - salxımda gilələrin yoluxması 10-25 % təşkil edir;

4 bal. Davamsız - salxımda gilələrin yoluxması 25-50 % təşkil edir;

5 bal. Çox davamsız salxımda gilələr kütləvi (50 %-dən çox) yoluxurlar.

Boz çürümə xəstəliyi üzüm bitkisində daha çox meyvələri (gilələri) zədələyir. Bu xəstəliyin təbii şəraitdə fitopatoloji qiymətləndirilməsi L.F.Supostat tərəfindən təklif edilən şkala üzrə aparılır.

***Üzüm salxımlarının təbii fonda boz çürümə xəstəliyinə qarşı fitopatoloji qiymətləndirilməsi (5 ballıq şkala üzrə);***

0 bal. Immunitetli - salxım və gilələrdə yoluxma müşahidə edilmir;

1 bal. Yüksək davamlı - salxımda gilələrin 5 % -i yoluxur;

2 bal. Davamlı - salxımda gilələrin 5-10 % -i yoluxur;

3 bal. Tolerant (dözümlü) - salxımda gilələrin 10-25%-i yoluxur;

4 bal. Davamsız - salxımda gilələrin 25-50 % - i yoluxur;

5 bal. Çox davamsız - salxımda gilələr kütləvi (50 %-dən çox) yoluxur.

Xəstəlik və zərərvericilərin tənəyin orqanlarında sirayətlənmə dərəcəsini müəyyən etmək üçün vegetasiya müddətində bir neçə dəfə müşahidə aparılaraq fitopatoloji qiymətləndirmə həyata keçirilir və yoluxma dərəcəsi (balla) müəyyən edilir.

Vegetasiya müddətinin sonunda üzüm sortlarının ayrı-ayrı orqanlarının (yarpaq, zoğ, çiçək, salxım, gilə və s.) xəstəlik və zərərvericilərə qarşı davamlılıq dərəcəsi balla qiymətləndirilib qurtardıqdan sonra onlarda yoluxma dərəcəsinin miqdarı orta

hesabla, faizlə hesablanır. Bunun üçün aşağıdakı formuldan istifadə edilir.

$$A=\frac{100 \times a}{5 \times b};$$

Burada:

A - xəstəlik və zərərvericinin inkişaf dərəcəsi, %-lə;

a - bütün balların cəmi (vegetasiya müddətində tənəyin ayrı-ayrı orqanlarının fitopatoloji qiymətləndirmə balı);

b - orqanlarar üzərindəki müşahidələrin sayı;

Misal: Vegetasiya müddətində yarpaqda 5 dəfə qiymətləndirilmə aparılıb və bu zaman müşahidələrin nəticəsi 2, 3, 4, 1 və 5 balla qiymətləndirilib.

Bu zaman a =2+3+4+1+5=15; b=5 olub və xəstəlik və zərərvericilərin inkişaf dərəcəsi $A=\frac{100 \times 15}{5 \times 5}$=60%-ə bərabər olur.

Alınmış göstəricilər 6 saylı cədvəldə göstərilmiş xəstəlik və zərərvericilərlə sirayətlənmənin faiz göstəricilərinin qruplaşdırılması ilə müqayisə edilərək, bitkilərin davamlılıq dərəcəsi müəyyən edilir və yoluxma səviyyəsi balla ifadə edilir.

*Cədvəl 2.15*

| *Yoluxmanın səviyyəsi* | *Sirayətlənmiş orqanların yoluxma dərəcəsi, %-lə* | *Bal* |
|---|---|---|
| Sirayətlənmə yoxdur | 0 | 0 |
| Sirayətlənmə çox zəifdir | 5%-ə qədər | 1 |
| Sirayətlənmə zəifdir | 5-25 | 2 |
| Sirayətlənmə orta dərəcədədir | 25-50 | 3 |
| Sirayətlənmə güclüdür | 50-75 | 4 |
| Sirayətlənmə çox güclüdür | 100%-ə qədər | 5 |

## 13. Üzüm giləsində şirənin şəkərliliyinin ölçülməsi üsulu

Sahə şəraitində üzümdə şəkərliliyinin miqdarı salxımların orta hissəsindən qoparılan gilə şirəsinin sıxılaraq refraktometrin şkalası üzərinə yaxılmaqla tarla (sahə) refraktometri ilə təyin edilir. Daha dəqiq ölçmələr isə laboratoriyada areometrlə və ya şirənin kimyəvi tərkibinin Bertran üsulu ilə analiz edilir. Refraktometrlə üzüm şirəsində şəkərin miqdarını təyin edilməsi üsulu işıq şüasının üzüm şirəsinin məhlulunda sınma əmsalının ölçülməsi prinsipinə əsaslanır. Refraktometrlə eyni zamanda şirədə həll olmuş quru maddənin də miqdarını da müəyyən etmək olar..

**Refraktometr:** Refraktometrlər əsasən iki qrupa bölünürlər: sadə refraktometr və laboratoriya refraktometri. Hər iki qrup refraktometrin işləmə prinsipi eynidir. Refraktometr müşahidə borusudan, onun içərisində yerləşən ikiqat birləşdirilmiş prizmadan və metal çərçivədən ibarətdir. (şəkil 2.1). Refraktometrin şkalası 0-30 vahidə bölünmüşdür. Xüsusi cədvəl vasitəsilə bu aralıqda ölçülən rəqəmlə şəkərlilik müəyyən edilir (cədvəl 2.16). Qeyd etmək lazımdır ki, refraktometr areometrə

nisbətən dəqiqliyi nisbərən aşağıdır (±0,2 mq).

**Areometr:** İstehsalat şəraitində gilənin yetişmə dövründə şirədə şəkərliliyi müxtəlif areometrlə ölçürlər. Areometrin iş prinsipi məhlulun sıxlığına əsaslanır, yəni şirənin kütləsinin suyun kütləsinə olan nisbətilə müəyyən edilməsindən ibarətdir. Areometrin bir neçə tipi vardır (Eksle, Bome, Bollinq və s). Müxtəlif areometrlərin fərqi yalnız onların şkalalarındadır. Ən geniş yayılan adi areometrdir: Adi areometr qapalı şüşə boru formalı iki hissədən ibarətdir. Yuxarı hissə nazik borudan, aşağı hissə geniş korpusdan ibarətdir. Yuxarı nazik hissə üzərində bölgü və rəqəmlər olan şkala yerləşdirilmişdir; aşağı korpus hissənin içərisinə isə ağır qırma formalı xüsusi metal dənələri doldurulmuşdur. Areometr içərisinə üzüm şirəsi doldurulmuş menzur-kaya salınır və şkala üzırindəki göstəricisinə əsasən xüsusi cədvəldən istifadə etməklə şəkərlilik təyin edilir (Cədvəl 2.15). Üzümçülükdə 2 şkalalı (bölgü 0,1 olmaqla) areometr komplektləri tətbiq edilir (1000-1080 və 1080-1160).

Üzüm giləsindəki şirədə olan şəkərliliyini təyin edən cihazlar

Şəkil 2.1. Sahə (tarla) refraktometr

Şəkil 2.2. Aerometr

*Cədvəl 2.16*

**Üzüm şirəsinin şəkərliliyinin sahə refraktometrinin şkalasının göstəricilərinə əsasən təyin etmə cədvəli**

| Refraktometrin göstəriciləri | Refraktometrin şkalasındakı onluq göstəriciləri | | | | |
|---|---|---|---|---|---|
| | 0,1 | 0,2 | 0,4 | 0,6 | 0,8 |
| Şəkərlilik göstəriciləri, q/100 $sm^3$ | | | | | |
| 15 | 13.6 | 13.8 | 14.0 | 14.3 | 14.5 |
| 16 | 14.7 | 14.9 | 15.1 | 15.4 | 15.6 |
| 17 | 15.8 | 16.0 | 16.2 | 16.5 | 16.7 |
| 18 | 16.9 | 17.1 | 17.3 | 17.6 | 17.8 |
| 19 | 18.0 | 18.2 | 18.4 | 18.7 | 18.9 |
| 20 | 19.1 | 19.3 | 19.5 | 19.8 | 20.0 |
| 21 | 20.2 | 20.4 | 20.6 | 20.9 | 21.1 |
| 22 | 21.3 | 21.5 | 21.7 | 22.0 | 22.2 |
| 23 | 22.4 | 22.6 | 22.8 | 23.1 | 23.3 |
| 24 | 23.5 | 23.7 | 23.9 | 24.2 | 24.4 |
| 25 | 24.6 | 24.8 | 25.0 | 25.3 | 25.5 |
| 26 | 25.7 | 25.9 | 26.1 | 26.4 | 26.6 |
| 27 | 26.8 | 27.0 | 27.2 | 27.5 | 27.7 |

**Qeyd:** *Refraktometrin göstəricisi 24.4-dür. Cədvəldə "refraktometrin göstəriciləri"ndən 24 tapılır, sonra "refraktometrin şkalasındakı onluq göstəriciləri"ndə 0,4-ün kəsişmə rəqəmi şirənin şəkərliliyini göstərir. Cədvələ görə şirənin şəkərliliyi 23.9 q/100 $sm^3$-dir.*

*Cədvəl 2.17*

**Üzüm şirəsində şəkər qatılığının saxarozanın kütlə faizi ilə ifadə olunmuş quru maddələrin miqdarı üzrə təyini**

| Quru maddələr, % kütlə | Şəkərin qatılığı, 100 $sm^3$-də qramla | Quru maddələr, % kütlə | Şəkərin qatılığı, 100 $sm^3$-də qramla | Quru maddələr, % kütlə | Şəkərin qatılığı, 100 $sm^3$-də qramla |
|---|---|---|---|---|---|
| 10,0 | 8,2 | 16,6 | 15,4 | 23,2 | 22,9 |
| 10,2 | 8,4 | 16,8 | 15,6 | 23,4 | 23,1 |
| 10,4 | 8,6 | 17,0 | 15,8 | 23,6 | 23,3 |
| 10,6 | 8,8 | 17,2 | 16,0 | 23,8 | 23,6 |
| 10,8 | 9,0 | 17,4 | 16,2 | 24,0 | 23,8 |
| 11,0 | 9,2 | 17,6 | 16,5 | 24,2 | 24,0 |
| 11,2 | 9,5 | 17,8 | 16,7 | 24,4 | 24,3 |
| 11,4 | 9,7 | 18,0 | 16,9 | 24,6 | 24,5 |
| 11,6 | 9,9 | 18,2 | 17,1 | 24,8 | 24,7 |
| 11,8 | 10,1 | 18,4 | 17,3 | 25,0 | 24,9 |
| 12,0 | 10,3 | 18,6 | 17,6 | 25,2 | 25,1 |
| 12,2 | 10,5 | 18,8 | 17,8 | 25,4 | 25,3 |
| 12,4 | 10,7 | 19,0 | 18,0 | 25,6 | 25,5 |
| 12,6 | 10,9 | 19,2 | 18,2 | 25,8 | 25,8 |
| 12,8 | 11,1 | 19,4 | 18,4 | 26,0 | 26,1 |
| 13,0 | 11,4 | 19,6 | 18,6 | 26,2 | 26,3 |
| 13,2 | 11,6 | 19,8 | 18,8 | 26,4 | 26,5 |
| 13,4 | 11,8 | 20,0 | 19,1 | 26,6 | 26,8 |
| 13,6 | 12,0 | 20,2 | 19,4 | 26,8 | 27,0 |
| 13,8 | 12,2 | 20,4 | 19,6 | 27,0 | 27,2 |
| 14,0 | 12,4 | 20,6 | 19,8 | 27,2 | 27,4 |
| 14,2 | 12,7 | 20,8 | 20,0 | 27,4 | 27,6 |
| 14,4 | 13,0 | 21,0 | 20,3 | 27,6 | 27,8 |
| 14,6 | 13,2 | 21,2 | 20,5 | 27,8 | 28,1 |
| 14,8 | 13,4 | 21,4 | 20,7 | 28,0 | 28,4 |
| 15,0 | 13,6 | 21,6 | 21,0 | 28,2 | 28,7 |
| 15,2 | 13,8 | 21,8 | 21,3 | 28,4 | 29,0 |
| 15,4 | 14,0 | 22,0 | 21,5 | 28,6 | 29,3 |
| 15,6 | 14,2 | 22,2 | 21,7 | 28,8 | 29,5 |
| 15,8 | 14,4 | 22,4 | 22,0 | 29,0 | 29,7 |
| 16,0 | 14,6 | 22,6 | 22,2 | 29,2 | 30,0 |
| 16,2 | 14,9 | 22,8 | 22,5 | - | - |
| 16,4 | 15,1 | 23,0 | 22,7 | - | - |

Üzüm şirəsindəki şəkərlilik müsbət 20-22°C-də təyini edilməlidir.. Temperatur düzəlişləri hər 1˚C üçün 0,0002-dir. Temperatur 20˚C-dən yuxarıdırsa, 20˚C-dən çıxılır və aerometr göstəricisinin üzərinə gəlinir. Məsələn, 1,082+(23-20)×0,0002. 20˚C-dən aşağıdırsa, əksinə 1,018-(20-16)×0,0002.

*Cədvəl 2.18*

**Şirənin şəkərliliyinin areometrin şkalasına əsasən təyin olunma cədvəli**

| Şirənin xüsusi kütləsi | Şirənin şəkərliliyi, *q/100 $sm^3$* | Şirənin xüsusi kütləsi | Şirənin şəkərliliyi, *q/100 $sm^3$*% | Şirənin xüsusi kütləsi | Şirənin şəkərliliyi, *q/100 $sm^3$* |
|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* |
| 1035 | 6,3 | 1064 | 14,0 | 1093 | 21,8 |
| 1036 | 6,6 | 1065 | 14,4 | 1094 | 22,0 |
| 1037 | 6,9 | 1066 | 14.6 | 1095 | 22,3 |
| 1038 | 7,2 | 1067 | 14.8 | 1095 | 22,6 |
| 1039 | 7,4 | 1068 | 15.1 | 1097 | 22 8 |
| 1040 | 7,5 | 1069 | 15,4 | 1098 | 23.1 |
| 1041 | 8,0 | 1070 | 15,6 | 1099 | 23.4 |
| 1042 | 8,2 | 1071 | 15.9 | 1100 | 23.6 |

| *1* | *2* | *3* | *4* | *5* | *6* |
|---|---|---|---|---|---|
| 1043 | 8,4 | 1072 | 16.2 | 1101 | 23,9 |
| 1044 | 8,7 | 1073 | 16.4 | 1102 | 24.2 |
| 1045 | 9,0 | 1074 | 16 7 | 1103 | 24,4 |
| 1046 | 9,2 | 1675 | 17,0 | 1104 | 24,7 |
| 1047 | 9,5 | 1076 | 17,2 | 1105 | 25,0 |
| 1048 | 9,8 | 1077 | 17,3 | 1106 | 25.2 |
| 1049 | 10,0 | 1078 | 17,8 | 1107 | 25,5 |
| 1050 | 10,3 | 1079 | 18.0 | 1108 | 25.8 |
| 1051 | 10,6 | 1080 | 18,3 | 1109 | 26,0 |
| 1052 | 10,8 | 1081 | 18.6 | 1110 | 26,4 |
| 1053 | 11,1 | 1082 | 18,8 | 1111 | 26.6 |
| 1054 | 11,4 | 1083 | 19,1 | 1112 | 26,8 |
| 1055 | 11,6 | 1084 | 19,4 | 1113 | 27.1 |
| 1056 | 11,8 | 1085 | 19,6 | 1114 | 27.4 |
| 1057 | 12,2 | 1086 | 19,9 | 1115 | 27,6 |
| 1058 | 12,4 | 1087 | 20,2 | 1116 | 27,9 |
| 1059 | 12,7 | 1088 | 20,4 | 1117 | 28.2 |
| 1060 | 13 | 1089 | 20.7 | 1118 | 28,4 |
| 1061 | 13,2 | 1090 | 21,0 | 1117 | 28,7 |
| 1062 | 13,5 | 1091 | 21,2 | 1120 | 29,0 |
| 1063 | 13,7 | 1092 | 21,6 | 1121 | 29,3 |

## 14. Üzüm giləsinin şirəsində ümumi turşululuğun ölçülməsi üsulu

Ümumi turşuluq dedikdə, üzüm şirəsində olan bütün sərbəst turşuların və turş duzların cəmi başa düşülür. Turşuluq titrləmə üsulu ilə aparılır (Şəkil 2.3), Sınaq şüşəsinə dəqiq ölçülmüş miqdarda (25 ml) tökülmüş şirəyə turşuların tam neytrallaşması üçün (NaOH) Buretkadan qələvi məhlulu əlavə edilir. Titrləmə üçün natrium və ya kaliumun /3 normal NaOH məhlulu istifadə olunur. Qələvi məhlulu sınaq şüşəsinə damcı şəklində tökülür. Neytrallaşma reaksiyası lakmusla təyin edilir. İstifadə olunan qələvi məhlulunun miqdarı şüşə boru üzərində göstərilən bölgü əsasında müəyyən edilir. Tam neytrallaşma başa çatdıqda istifadə olunmuş qələvi məhlulunun miqdarı (ml) ümumi turşuluğun kəmiyyətinə bərabər olur (q/dm$^3$).




Şəkil 2.3. Üzüm şirəsinin turşuluğunu təyin etmək üçün cihaz: İstifadə olunan ləvazimatlar: 1-büretka, laboratoriya stəkanı, ştativ, spirt lampası, qələvi məhlulu (Na OH), şüşə qab, nazik və elastik kauçuk boru.

# İNTERAKTİV AMPELOQRAFİYA

# *III FƏSİL.* ÜZÜM TƏNƏYİNİN GENETİK MORFOLOJİ ƏLAMƏTLƏRİNİN OIV DESKRİPTORLARI ÜZRƏ ŞİFRƏ VƏ TİPLƏRİ

Üzümlüklərin sort tərkibinin yaxşılaşdırılması və üzüm sortlarına məxsus lazımi fərdi aqrotexnikanı işləmək üçün sortları düzgün təyin etmək olduqca vacibdir. Son illər dünya üzümçülük elmində üzüm biomüxtəlifliyinin öyrənilməsində, onların müqayisə edilməsində molekulyar-genetik markerlərə üstünlük verilsə də, yenə də genotiplərin fenotipik əlamət və göstəriciləri üzrə qiymətləndirilməsi və markerləşdirilməsi aktual tədqiqat işi olaraq qalmaqdadır.

Biomüxtəlifliyin qısa zaman ərzində və daha dəqiqliklə təyin edilməsi üçün zəruri olan təyinat açarlarının işlənib-hazırlanması mühüm elmi və əməli əhəmiyyət kəsb edir. Hazırda yaşadığımız kompyuter əsrində müxtəlif imkanlı elektron vasitələrdən yararlanmaqla biomüxtəlifliyin, o cümlədən istər bitki, istərsə də heyvan fərdlərinin növ mənsubiyyətinin yüksək çeviklik və dəqiqliklə təyin edilməsi xüsusi diqqətə layiqdir. Bu baxımdan floramızın biomüxtəlifliyinə daxil olan müxtəlif bitki növ, sort və formalarının rəqəmsal politomik təyinat açarının və onların kodlaşdırılmış əlamətlər üzrə təsvirinin işlənib hazırlanması biologiya və aqrar elmlərində böyük aktuallıq kəsb edir.

Hazırda dünyada digər qiymətli kənd təsərrüfatı bitkiləri ilə yanaşı, üzüm genotiplərinin də məlumat bazasının yaradılması böyük aktuallıq kəsb edir. Üzümün məlumat bazasında genotiplərin (sort, forma, klon və s.) sortöyrənmə, introduksiya və seleksiya işləri üçün daha əhəmiyyət kəsb edən əlamət və xüsusiyyətləri haqqında məlumatlar toplanaraq, informasiya mərkəzləşdirilməlidir.

Dünyanın əksər ölkələrində üzüm genofondu, adətən, vizual qaydada öyrənilir. Bunun üçün klassik ampeloqrafik üsullardan istifadə edilərək, genotiplər fenotipik əlamətləri üzrə şifahi öyrənilərək təsvir edilir. Son illərdə fərdi kompyuterlərin gündəlik elmi işlərə daxil olması ilə informasiya genotip xüsusiyyətlərinin təsvirini əvəz edən rəqəmsal məlumat şəklində "matritsa" formasını almağa başladı. Beynəlxalq Üzüm və Şərab Təşkilatının (OIV) üzüm klassifikatorları tərəfindən yabanı və mədəni üzümün botaniki formalarının rəqəmsal təsvirinin vahid şəklə salınmış sistemi işlənib hazırlanmışdır. Orada ən əvvəl *Vitis* cinsinə aid növlərin, sortların və formaların tanınması və identifikasiyası üçün zəruri olan əlamət və xüsusiyyətlərin təsviri metodikası təfsilatı ilə işıqlandırılmışdır. Fenoloji, aqrobioloji, bioloji-təsərrüfat, adaptiv, fiziobioloji, uvaloji, texnoloji, anatomik və s. kimi kəmiyyət əlamətləri ənənəvi olaraq nisbətlər şkalası ölçü sisteminin müxtəlif miqyas və vahidləri ilə ölçülür.

OIV klassifikatorlarının müddəalarına uyğun olaraq, üzüm bitkisinin əlamət və xüsusiyyətləri üç rəqəmli qiymətlərlə (məsələn, gilənin böyüklüyü - 220 və s.), onların göstəricilər üzrə bölgüsü, yaxud dərəcələri isə indekslərlə (1 – çox kiçik, 3 – kiçik, 5 – orta ölçülü, 7 – iri, 9 – çox iri və s.) kodlaşdırılmışdır. Sortların təsvir edilməsi nəticəsində kodlaşdırılmış əlamətlərin sayına uyğun gələn tək rəqəmli kodların riyazi sırası əmələ gəlir. Üzüm genotiplərinin əlamət və xüsusiyyətlərinin vahid kodlaşma sistemi müasir ampeloqrafların işlərinin əsasında durur, beynəlxalq aləmdə yekdilliklə qəbul olunur və böyük əhəmiyyətə malikdir.

OIV-nin üzümün seleksiyası üzrə ekspert qrupu *Vitis* L. cinsinin genetik ehtiyatlarının dünya kolleksiyasını mərhələli təsvir etməyi təklif edirlər. Birinci mərhələdə kolleksiyanın səkkiz "pasport" göstəriciləri əsasında təsviri həyata keçirilir. Bu əlamətlər çox yüksək fenotipik təzahür edərək təkrarlanır; ikinci mərhələdə genotiplər 77 əlamət üzrə təsvir edilir; nəhayət üçüncü, indiki mərhələdə təsvir edilmiş obyektlərin identifikasiyasının aparılması və dünya üzüm ehtiyatlarının kataloqunun nəşr etdirilməsi məsələləri durur.

Ümumiyyətlə, rüşeym plazması kolleksiyasının (məlumat bazası) kodlaşdırılması üçün təsvir olunacaq əlamətlərin dəstinə 21 əlamətdən istifadə olunması təklif olunur. Bunlara daxildir: 001, 003, 004, 011, 016, 065, 068, 076, 079, 084, 085, 151, 202, 206, 220, 223, 225, 230, 236, 241, 244.

Üzüm sort və forma nümunələrini ayırmaq (fərqləndirmək) və onların xarakteristikası məqsədilə (bunlar yeni hibrid formalar, yaxud sort populyasiyalardakı protoklonlar ola bilər) 37 məcburi (001, 002, 004, 006,007, 011, 012, 016, 017, 065, 067, 068, 070, 075–081, 084–087, 090, 091, 102, 151, 202, 204, 206, 220, 223, 225, 230, 236, 301) və 40 məsləhət bilinən (003, 005, 008–010, 015, 051–056, 069, 071–074, 082, 083, 089, 093, 101, 103–106, 207, 222, 224, 226–229, 232, 235, 238, 240, 241, 303, 351) əlamətlərdən istifadə təklif edilir.

Dövlət Sort Sınaq Komissiyasına təqdim olunmuş üzüm sortlarının patentləşdirilməsi üçün, yaxud sort namizədlərinin təsvirində isə ən azı 44 əlamətin təsvir edilərək, kodlaşdırılması təklif edilir. Bunlara daxildir: 001, 003-010, 012, 017, 051, 053, 056, 065, 067-068, 070, 075-076, 079,082, 084, 087, 093-094, 103, 151, 202, 204, 206, 220, 223, 225,228, 231, 35-236, 240-241, 301, 303 və 612.

Seleksiyaçıların müəllif hüquqlarının mühafizəsi və yeni sortların genetik eynilik və sabitliyi ilə bağlı ekspertizaların keçirilməsi məqsədilə OIV klassifikatorunun müddəalarına uyğun olaraq Bitkiçilik Nailiyyətlərinin Müdafiəsi üzrə Beynəlxalq İttifaq (UPOV) 77 ən vacib biomorfoloji əlamətlərin kodlaşdırılmasını qəbul edərək, təsdiqləmişdir. Bunlardan ən əsaslarını 004-cavan zoğun uc hissəsinin (tacının) tora bənzər tüklülüyünün intensivliyi, 053-cavan yarpaqların altındakı damarların arasındakı sahədə - tora bənzər tükcüklərinin yayılma dərəcəsi, 065-formalaşmış yarpağın böyüklüyü, 067-ayanın forması, 068-yarpaqdakı dilimlərin sayı, 071-ayanın altındakı əsas damarların rənginin intensivliyi,

074-yarpağın profili (eninə köndələn kəsik əsasında), 075-ayanın səthindəki qabarcıqlar, 076-kənar dişciklərin forması, 079-saplaq oyuğunun (çuxurunun) forması, 082-ayadakı yuxarı kəsiklərin forması (tipi), 084-yarpağın alt səthindəki torvari tükcülər, 085-yarpağın altındakı damarcıqlar arasındakı cod tükcüklər, 093-saplağın əsas damara nisbətən uzunluğu, 151-çiçəyin tipi, 202-salxımın böyüklüyü, 204-salxımın sıxlığı, 206-salxımın saplağının uzunluğu, 220-gilənin böyüklüyü, 223-gilənin forması, 226-gilənin rəngi, 228-gilə qabığının qalınlığı, 236-gilənin dad xüsusiyyəti, 238-gilə saplağının uzunluğu, 241-gilədəki toxumların inkişaf səviyyəsi, 243-toxumun kütləsi, 603-sortun istifadə istiqaməti, 629-məhsuldar dövrün davametmə müddəti, 153-zoğdakı çiçək salxımının miqdarı, 504-məhsuldarlıq, 505-gilədəki səkərlilik, 506-gilədəki turşuluq (üzüm turşusu üzrə), 351-zoğların boy gücü, 604-zoğların yetişmə dərəcəsi və s. göstərmək olar. Kodlaşdırılmış sortların rəqəm massivlərinin kompyuter təhlili onların identifikasiyası, genotiplərin qohumluq dərəcəsinin təyini ilə üzümün filogenetik klassifikasiyası, fenotipik indekslərə əsaslanaraq ən yaxşı sortların perspektivliyinin qiymətləndirilməsi, seleksiya nailiyyətlərinin gerçəkləşdirilməsi üçün valideyn komponentlərinin təyin edilməsi, klonların seçilməsi və s. kimi məsələləri həll etmək mümkündür.

Bütün bunları əsas tutaraq üzümçülükdə istifadə edilən ümümi qəbul olunmuş və OİV-nin təklif etdiyi müasir üsullar əsasında üzüm sortlarının diaqnostik əhəmiyyətli əlamət və xüsusiyyətləri tədqiq edilərək, yerli üzüm sortlarının özünəməxsus xüsusiyyətləri də nəzərə alınmaqla əldə olunmuş faktiki əlamət və göstəricilər, onların müvafiq işarə kodları və ardıcıllığı kitabda əhatəli şəkildə verilmişdir.

Artıq, ölkəmiz üzümçülük və şərabçılığın yeni inkişaf mərhələsinə keçəcəyini bir dövrdə, bu sahədə elmi, texniki, iqtisadi və hüquqi məsələlər üzrə informasiya mübadiləsini təmin edən yeganə dünya forumu olan Beynəlxalq Üzüm və Şərab Təşkilatı (OIV) kimi nüfuzlu qurumun, Baş Assambleyasının iclasında 11 iyun 2013-cü il tarixdən 45-ci üzv dövlət qəbul olunmuşdur. Azərbaycanın BÜŞT-ə üzv olması qabaqcıl beynəlxalq təcrübənin, dünya elmində əldə edilmiş ən son elmi nailiyyətlərin, metodikaların və yüksək səmərəli, innovativ texnologiyaların öyrənilməsi və tətbiqi baxımından böyük əhəmiyyət kəsb edir. Bu təşkilata üzv olmaqla, ümumdünya üzüm və şərab sektoru üzrə beynəlxalq səviyyəli təklif və tövsiyələrin, standartların, metodikaların və digər normativ-hüquqi sənədlərin işlənib hazırlanmasında və tətbiqində iştirak etmək, ölkəmizdə istehsal olunan üzüm və şərab məhsullarının keyfiyyətini dünya standartları səviyyəsinə çatdırmaqla, onların beynəlxalq bazara çıxarılması üçün zəmin yaradır. Bunları nəzərə alaraq, bu gün respublikamızda üzümçülük sahəsindəki tədqiqat işləri OIV-in tələbləri səviyyəsində həyata keçirilməli, üzüm genotiplərinin öyrənilməsi, qiymətləndirilməsi, təsviri, başqa sözlə genotiplərin fenotipik əlamətləri qurumun beynəlxalq deskriptorları əsasında öyrənilərək müəyyən edilməlidir.

## 1. Vegetativ orqanların inkişafı və quruluşu

**Cavan zoğ:**

Şifrə: 001.Uc hissəsinin forması

tip 3 - bağlı (*V.riparia*)
tip 5 - yarıaçıq
tip 7 - açıq (*V.vinifera*)




Şəkil 3.1. Cavan zoğun uc hissəsinin formaları (001şifrəli deskriptor)

Şifrə: 002. Zoğun uc hissəsindəki antosianın rəngi (Şəkil 3.2).
tip 1- rəng (antosian) yoxdur
tip 2- rəng (antosian) zolaqlar şəklindədir
tip 3- rəng (antosian) hərtərəfli yayılıbdır

Şifrə: 003.Yeni zoğun rənginin (antosianın) intensivliyi.
tip 1- çox zəif rənglənir
tip 3 - zəif rənglənir
tip 5 - orta dərəcədə rənglənir
tip 7 - güclü rənglənir
tip 9 - çox güclü



Şəkil 3.2. Tac və yeni yarpaqlar
(002 və 003 şifrəli deskriptor)




Şəkil 3.3. Tacdakı torvari tükcüklər
(004 və 005 şifrəli deskriptor)

Şifrə: 004. Tacdakı torvari tükcüklərin sıxlıq dərəcəsi (Şəkil 3.4).
tip 1 - yoxdur, yaxud çox seyrək tükcüklü
tip 3 - seyrək tükcüklü
tip 5 - orta dərəcədə tükcüklü
tip 7 - sıx tükcüklü
tip 9 - çox sıx tükcüklü

Şifrə: 005. Zoğun ucundakı cod tükcüklərin sıxlıq dərəcəsi (Şəkil 3. 3).
tip 1- yoxdur, yaxud çox seyrək tükcüklüdür
tip 3- seyrək tükcüklüdür
tip 5- orta dərəcədə tükcüklüdür
tip 7- sıx tükcüklüdür
tip 9- çox sıx tükcüklüdür

**İnkişaf etməkdə olan zoğlar:**

Şifrə: 006. Zoğun xarici görünüşü (habitusu) və fəzadakı vəziyyəti (Şəkil 3.4).
tip 1 - düz görünüşlü
tip 3 - yarı düz görünüşlü
tip 5 - horizontal (üfüqi) görünüşlü
tip 7 - yarı sallaq görünüşlü
tip 9 - sallaq görünüşlü




Şəkil 3.4. İnkişaf etməkdə olan zoğların ümumi görünüşü
və fəzadakı vəziyyəti (006 şifrəli deskriptor)

Şifrə: 007. Buğumarasının arxa hissəsinin rəngi
tip 1- yaşıl rəngli
tip 2 - qırmızı zolaqları olan yaşıl rəngli
tip 3 - qırmızı rəngli

Şifrə: 008. Buğumarasının ventral tərəfinin rəngi
tip 1 - yaşıl rəngli
tip 2 - qırmızımtıl zolaqları olan yaşıl rəngli
tip 3 - qırmızımtıl rəngli

Şifrə: 009. Buğumun arxa, yaxud bel (dorsal) hissəsinin rəngi
tip 1 - yaşıl rəngli
tip 2 - qırmızımtıl zolaqları olan yaşıl rəngli
tip 3 - qırmızımtıl rəngli

Şifrə: 010. Buğumun ventral tərəfinin rəngi
tip 1 - yaşıl rəngli
tip 2 - qırmızımtıl zolaqları olan yaşıl rəngli
tip 3 - qırmızımtıl rəngli




Şəkil 3.5. Buğumaralarının görünüşü (007; 008; 009 və 010 şifrəli deskriptor)

Şifrə: 011. buğum düyünündəki cod (qılcıqşəkilli) tükcüklərin sıxlıq dərəcəsi
tip 1 - çox seyrək (çox nadir) tükcüklü
tip 3 - seyrək tükcüklü
tip 5 - orta dərəcədə tükcüklü
tip 7 - sıx (güclü) tükcüklü
tip 9 - çox sıx tükcüklü

Şifrə: 012. Buğumarasında cod (qılcıqşəkilli) tükcüklərin sıxlıq dərəcəsi
tip 1 - çox seyrək tükcüklü (çox nadir): *V.vinifera*,
tip 3 - seyrək tükcüklü:
tip 5 - orta dərəcədə tükcüklü:
tip 7 - sıx tükcüklü:
tip 9 - çox sıx tükcüklü: *V. cinerea.*

Şifrə: 013. Buğumdakı torvari tükcüklərin sıxlıq dərəcəsi
tip 1 - yoxdur, yaxud çox seyrək tükcüklü
tip 3 - seyrək tükcüklü
tip 5 - orta dərəcədə tükcüklü
tip 7 - sıx tükcüklü
tip 9 - çox sıx tükcüklü

Şifrə: 014. Buğumarasındakı torvari tükcüklərin sıxlıq dərəcəsi
tip 1 - yoxdur, yaxud çox seyrək tükcüklü
tip 3 - seyrək tükcüklü
tip 5 - orta dərəcədə tükcüklü
tip 7 - sıx tükcüklü
tip 9 - çox sıx tükcüklü




Şəkil 3.6. Zoğ üzərindəki buğumlarda yumşaq torvari və cod tükcüklər
(011; 012; 013 və 014 şifrəli deskriptor)

Şifrə: 015-1. Yatmış tumurcuqlaın pulcuğunda (qabığında) antosianın intensivliyi
tip 1 - yoxdur,
tip 2 - əsasında var, tumurcuğun $^{1}/_{3}$ hissəsində antosian paylanıb,
tip 3 - tumurcuğun ¾-hissəsində yayılıb,

Şifrə: 015-2. Tumurcuqların rənginin - antosianın intensivliyi
tip 1 - çox zəif rənglənir
tip 3 - zəif rənglənir
tip 5 - orta dərəcədə rənglənir
tip 7 - güclü rənglənir
tip 9 - çox güclü rənglənir




Şəkil 3.7. Yatmış tumurcuqların pulcuğunda antosian piqmentinin intensivliyi (015-1 və 015-2 şifrəli deskriptor)

Şifrə: 016. Zoğlarda ardıcıl bığcıqların miqdarı
tip 1 - iki və az bığcıq: *V.vinifera,*
tip 2 - üç və daha çox bığcıq: *V.coignetiae, V.labrusca.*




Şəkil 3.8. Zoğlarda bığcıqların miqdarı (016 şifrəli deskriptor)




Şəkil 3.9 Bığcıqların uzunluğu (017şifrəli deskriptor)

Şifrə: 017. Zoğda bığcıqların uzunluğu
tip 1 - çox qısa (10 sm-ə qədər) bığcıqlı
tip 3 - qısa bığcıqlı (10,1-15 sm)
tip 5 - orta uzunluqda (15,1-20 sm)
tip 7 - uzun bığcıqlı (20,1-25 sm)
tip 9 - çox uzun bığcıqlı (25-30 sm və daha uzun)

**Təzə açılmış yarpaqlar:**

Şifrə: 051. Yarpağın üst səthinin rəngi (çiçəkləməyə qədər)
tip 1- yaşıl (sarımtıl-yaşıl, açıq-yaşıl, yaşıl, tünd-yaşıl) rəngli

tip 2 - sarı (qızılı-sarı, açıq-sarı, tünd-sarı, açıq-narıncı və s.) rəngli
tip 3 - mis rəngli (misi-sarı, açıq-misi, tünd-misi və s.) rəngli
tip 4 - qırmızımtıl, qırmızımtıl-tunc rəngli




Şəkil 3.10. Yarpağın üst səthinin rəngi (051 şifrəli deskriptor)

Şifrə: 052. Cavan yarpağın rənginin intensivliyi
tip 1 - çox zəif
tip 3 - zəif
tip 5 - orta dərəcədə
tip 7 - güclü
tip 9 - çox güclü

Şifrə: 053. Təzə yarpaq ayasının altındakı damarların arasında və təzə açılmış I-IV yarpaqlarda torvari tükcüklərin sıxlığı
tip 1 - yoxdur, yaxud çox seyrək (çox nadir) tükcüklü
tip 3 - seyrək (nadir) tükcüklü
tip 5 - orta dərəcədə tükcüklü
tip 7 - sıx tükcüklü
tip 9 - çox sıx tükcüklü.

Şifrə: 054. Təzə yarpaq ayasının altındakı damarların arasında olan cod tükcüklərin sıxlıq dərəcəsi (1-5 yarpaqlarda)
tip 1 - yoxdur, yaxud çox seyrək (çox nadir)
tip 3 - seyrək (nadir)
tip 5 - orta dərəcədə
tip 7 - sıx
tip 9 - çox sıx

Şifrə: 055. Təzə yarpaqlarda ayanın altında olan damarların üzərindəki torvari ağ tükcüklərin sıxlıq dərəcəsi (1-5 yarpaqlarda)
tip 1 - yoxdur, və ya çox seyrək (çox nadir) torvari ağ tükcüklü
tip 3 - seyrək (nadir) torvari, ağ tükcüklü

tip 5 - orta dərəcədə torvari, ağ tükcüklü
tip 7 - sıx  torvari, ağ tükcüklü
tip 9 - çox sıx torvari, ağ tükcüklü

Şifrə: 056. Təzə yarpaqlarda ayanın altındakı damarların üzərində olan cod tükcüklərin sıxlıq dərəcəsi (1-5yarpaqlarda)
tip 1 - yoxdur
tip 3 - seyrək cod tükcüklü
tip 5 - orta dərəcədə cod tükcüklü
tip 7 - sıx cod tükcüklü
tip 9 - çox sıx cod tükcüklü




Şəkil 3.11. Yeni yarpaq və zoğlarda cod tükcüklərin sıxlığı
(053; 054; 055; 056 şifrəli deskriptor)

## Tam foprmalaşmış yarpaqlar:

Şifrə: 065. Tam formalaşmış yarpaqlarda ayanın ölçüsü (eni və uzunluğu)
tip 1 - çox xırda (8 sm-ə qədər)
tip 3 - xırda yarpaqlı (8,1-10 sm)
tip 5 - orta ölçüdə (10,1-17 sm)
tip 7 - bölük yarpaqlı (17,1-22 sm)
kod  9 - çox böyük yarpaqlı (22,1-27,0 sm)

Şifrə: 066. Tam formalaşmış yarpağın uzunluğu
tip 1 - çox qısa ölçüdə
tip 3 - qısa ölçüdə
tip 5 - orta ölçüdə
tip 7 - uzun ölçüdə
tip 9 - çox uzun ölçüdə

Şifrə: 067. Tam formalaşmış yarpaqlarda ayanın formaları
tip 1 – paz şəkilli forma
tip 2 – ürəkvari forma
tip 3 – beş künclü forma
tip 4 – dəyirmi forma
tip 5 – böyrək şəkilli yaxud, eninə oval




Şəkil 3.12 Yarpaq ayasının müxtəlif formaları (067 şifrəli deskriptor)

Şifrə: 068. Tam formalaşmış yarpaqlarda dilimlərin sayı
tip 1 - bölümsüz, yaxud dilimsiz (bütöv ayalı) yarpaq
tip 2 - üç dilimli yarpaq
tip 3 - beş dilimli yarpaq
tip 4 - yeddi dilimli yarpaq
tip 5 - doqquz və daha çox dilimli yarpaq




Şəkil 3.13. Yarpaqlarda dilimlərin forması (068 şifrəli deskriptor)

Şifrə: 069. Tam formalaşmış yarpaq ayasının səthinin rəngi
tip 3 - solğun-yaşıl rəngli
tip 5 - yaşıl (parlaq-yaşıl, sarımtıl-yaşıl)
tip 7 - tünd yaşıl (yaşılımtıl-göyə çalan tutqun-yaşıl, göyümtül-yaşıl)




Şəkil 3.14. Yarpaq ayasının səthinin rəngi (069şifrəli deskriptor)

Şifrə: 070. Tam formalaşmış yarpaqlarda ayanın üst səthində olan əsas damarlardakı antosianla rənglənmənin əhatə etdiyi sahə
tip 1 - rənglənmə yoxdur
tip 2 - zəif rənglənmə
tip 3 - orta dərəcədə rənglənmə
tip 4 - güclü rənglənmə
tip 5 - çox güclü rənglənmə

Şifrə: 071. Tam formalaşmış yarpaqlarda ayanın alt səthindəki əsas damarlar boyunca antosianın rəngi
tip 1 - yoxdur, yaxud zəif rənglənir
tip 2 - zəif rənglənir, yalnız saplağın yarpağa biriləşdiyi nahiyədə rənglənmə var
tip 3 - orta dərəcədə rənglənir, ayadakı damarcığın birinci şaxələnməsinə qədər rənglənir
tip 4 - güclü rənglənir, ayadakı damarcığın ikinci şaxələnməsinə qədər rənglənir
tip 5 - çox güclü rənglənir, ikinci şaxələnmədən də yuxarı rənglənir

Şifrə: 072. Tam formalaşmış yarpaqlarda ayanın üst səthinin əsas damarları boyunca büzüşmə dərəcəsi
tip1 - yoxdur, yaxud çox zəifdir
tip 3 - zəifdir
tip 5 - orta dərəcədədir
tip 7 - güclüdür
tip 9 - çox güclüdür




Şəkil 3.15 Yarpaqlarda antosianla rənglənmə (070, 071 şifrəli deskriptor)



Şəkil 3.16. Yarpaqlarda ayanın üst səthinin büzüşmə dərəcəsi (072 şifrəli deskriptor)

Şifrə: 073. Tam formalaşmış yarpaqlarda əsas damarla yan damarların arasında ayanın dalğavariliyi

tip 1- yoxdur,

tip 9 - var.

Şifrə: 074. Tam formalaşmış yarpağın profili (ayanın orta hissəsindən köndələn kəsik əsasında)

tip 1 - yastı, yaxud düz,

tip 2 - V-şəkilli, qıfşəkilli,

tip 3 - yuxarıya doğru bükülmüş,

tip 4 - aşağıya doğru bükülmüş,

tip 5 - dalğavari, şırım-şırım, yaxud qırış-qırış.




Şəkil 3.17. Yarpaq ayasının dalğavariliyi (073 şifrəli deskriptor)




Şəkil 3.18. Yarpaq ayasının profili (074 şifrəli deskriptor)

Şifrə: 075. Tam formalaşmış yarpaqlarda ayanın səthindəki qabarıqların xarakteri

tip 1- yoxdur, yaxud çox zəif qabarcıqlı

tip 3 - zəif qabarcıqlı

tip 5 - orta qabarcıqlı

tip 7 - güclü, yaxud şişkin qabarcıqlı

tip 9 - çox güclü, yaxud çox şişkin qabarcıqlı

Şifrə: 076. Tam formalaşmış yarpaqlarda dişciklərin forması
tip 1 - kənarları çökük (batıq) dişcikli
tip 2 - kənarları düz dişcikli
tip 3 - hər iki kənarı qabarıq dişcikli
tip 4 - bir kənarı çökük, digəri düz, yaxud qarmaqvari dişcikli
tip 5 - bir kənarı düz, digəri qabarıq (qarışıq formalı) dişcikli




Şəkil 3.19. Yarpaqlarda dişciklərin forması (076 şifrəli deskriptor)

Şifrə: 077. Tam formalaşmış yarpaqlarda dişciklərin ayaya nisbətən ölçüsü, yaxud kənar dişciklərin uzunluğu
tip 1 - çox xırda, yaxud çox qısa dişcikli
tip 3 - xırda, yaxud qısa dişcikli
tip 5 - orta ölçülü, yaxud orta uzunluqda dişcikli
tip 7 - iri, yaxud uzun dişcikli
tip 9 - çox iri, yaxud çox uzun dişcikli

Şifrə: 078. Tam formalaşmış yarpaqlarda dişciklərin əsasının eninə nisbətən uzunluğu
tip 1 - çox qısa
tip 3 - qısa
tip 5 - orta uzunluqda
tip 7 - uzun
tip 9 - çox uzun




Şəkil 3.20. Yarpaqlarda dişciklərin xarakteri (077 və 078 şifrəli deskriptor).

Şifrə: 079. Tam formalaşmış yarpaqlarda saplaq oyuğunun ümumi forması
tip 1 - çox geniş və geniş açıq
tip 3 - qismən açıq və açıq
tip 5 - dilimlər bir-birinin üstünü qismən örtür, yaxud bağlı
(aşağı dilimlərin kənarları toxunur)
tip 7 - dilimlər bir-birini orta dərəcədə örtür, yaxud kəsişir
tip 9 - dilimlər bir-birinin üzərinə çox keçir, yaxud tam örtür



Şəkil 3.21. Yarpaqlarda saplaq oyuğunun forması (079 şifrəli deskriptor).

Şifrə: 080. Tam formalaşmış yarpaqlarda saplaq oyuğunun əsasının forması
tip 1 - U-şəkili,
tip 2 - {-şəkilli,
tip 3 - V-şəkilli.




Şəkil 3.22. Yarpaqlarda saplaq oyuğunun əsasının formaları (080 şifrəli deskriptor).

Şifrə: 081-1. Tam formalaşmış yarpaqlarda saplaq oyuğunda dişciyin varlığı

tip 1 - yoxdur,
tip 9 - mövcuddur.

Şifrə: 081-2. Tam formalaşmış yarpaqlarda saplaq oyuğunun əsasının damarcıqla məhdudlaşması
tip 1 - damarcıqla məhdudlaşmır (*saplaq oyuğu yarpaq parenximi ilə formalaşır*): Ağ şasla,
tip 2 - bir tərəfdən sərhədlənir: Kaberne sovinyon, Primitivno,
tip 3 - iki tərəfdən sərhədlənir, yaxud məhdudlaşır: Şardone, Orteqa.




Şəkil 3.23. Saplaq oyuğunun xarakteri (081-1 və 081-2 şifrəli deskriptor).

Şifrə: 082. Tam formalaşmış yarpaqlarda yuxarı və aşağı kəsiklərin vəziyyəti
tip 1 - açıq,
tip 2 - bağlı (dilimlərin ağızcığı bir-birinə toxunur)
tip 3 - dilimlər bir-birini qismən örtür
tip 4 - dilimlər bir-birini tam örtür
tip 5 - ayada dilim yoxdur (*V.riparia*)



Şəkil 3.24 Yarpaqlarda yuxarı və aşağı kəsiklərin tipləri (082 şifrəli deskriptor)

Şifrə: 083-1. Tam formalaşmış yarpaqlarda yuxarı kəsiklərin əsasının forması

tip1- U-şəkilli
tip2- {-şəkilli
tip 3-V-şəkilli

Şifrə: 083-2. Tam formalaşmış yarpaqlarda yuxarı kəsiklərin əsasında dişciklərin mövcudluğu
tip 1 - yoxdur
tip 9 - mövcuddur



Şəkil 3.25. Yarpaqlarda yuxarı kəsiklərin əsasının formaları
(083-1 və 083-2 şifrəli deskriptor).

Şifrə: 084. Tam formalaşmış yarpaqlarda ayanın altındakı damarların arasındakı torvari ağtükcüklərin sıxlıq dərəcəsi

tip 1 - yoxdur, çox seyrək: Ağ şanı, Qaraburnu
tip 3 - seyrək: Qamə, Şardone, Ağ muskat
tip 5 - orta dərəcədə: Kaberne sovinyon, Merlo, Pişik üzümü
tip 7 - sıx: Ağ kleret, Çauş, Naxçıvan qara üzümü
tip 9 - çox sıx: İzabella, Ağ kələnpur




Şəkil 3.26. Yarpaqlarda ayanın altındakı damarlarınarasındakı torvari ağ tükcüklərin sıxlıq dərəcəsi (084 şifrəli deskriptor)

Şifrə: 085. Formalaşmış yarpaq: ayanın altındakı damarların arasındakı cod (qılcıqşəkilli) tükcüklərin sıxlıq dərəcəsi

tip 1 - yoxdur, yaxud çox seyrək,
tip 3 - seyrək, yaxud tək-tək,
tip 5 - orta dərəcədə,
tip 7 - sıx,
tip 9 - çox sıx.




Şəkil 3.27. Yarpaqlarda ayanın altındakı damrlarınarasındakı cod tükcüklərin sıxlıq dərəcəsi (085 şifrəli deskriptor)

Şifrə: 086. Tam formalaşmış yarpaqlarda ayanın altındakı damarların üzərindəki torvari tükcüklərin sıxlıq dərəcəsi

tip 1 - yoxdur, yaxud çox seyrək,
tip 3 - seyrək, yaxud tək-tək,
tip 5 - orta dərəcədə,
tip 7 - sıx,
tip 9 - çox sıx.




Şəkil 3.28. Yarpaqlarda ayanın altındakı damarların üzərindəki torvari tükcüklərin sıxlıq dərəcəsi (086 şifrəli deskriptor).

Şifrə: 087. Tam formalaşmış yarpaqlarda ayanın altındakı damarların üzərindəki cod, yaxud qılcıqşəkilli tükcüklərin sıxlıq dərəcəsi

tip 1 - yoxdur, yaxud çox seyrək,
tip 3 - seyrək, yaxud tək-tək,
tip 5 - orta dərəcədə,
tip 7 - sıx,
tip 9 - çox sıx.




Şəkil 3.29. Yarpaqlarda ayanın altındakı damarların üzərindəki cod, yaxud qılcıqşəkilli tükcüklərin sıxlıq dərəcəsi (087 şifrəli deskriptor).

Şifrə: 088. Tam formalaşmış yarpaqlarda ayanın üst səthində damarların üzərindəki torvari tükcüklərin movcudluğu
tip 1 - yoxdur
tip 9 - var

Şifrə: 089. Tam formalaşmış yarpaqlarda ayanın üst səthində damarların üzərindəki cod, yaxud qılcıqşəkilli tükcüklərin movcudluğu
tip 1 - yoxdur
tip 9 - var

Şifrə: 090. Tam formalaşmış yarpaqlarda saplaq üzərindəki torvari tükcüklərin sıxlıq dərəcəsi
tip 1 - yoxdur, yaxud çox seyrək tükcüklü
tip 3 - seyrək, yaxud tək-tək tükcüklü
tip 5 - orta dərəcədə tükcüklü
tip 7 - sıx tükcüklü
tip 9 - çox sıx tükcüklü

Şifrə: 091. Tam formalaşmış yarpaqlarda saplaq üzərindəki cod, yaxud qılcıqşəkilli tükcüklərin sıxlıq dərəcəsi
tip 1 - yoxdur, yaxud çox seyrək tükcüklü: *Rupestris* dyu Lo,
tip 3 - seyrək, yaxud tək-tək tükcüklü: Cober 5 BB,
tip 5 - orta dərəcədə tükcüklü : Kuderk 3306,
tip 7 - sıx tükcüklü : Cober 125 AA, Teleki 8 B,
tip 9 - çox sıx: *V.cinerea.*

Şifrə: 092. Tam formalaşmış yarpaqlarda saplağın orta damarcığa nisbətən uzunluğu
tip 1- çox qısa,
tip 2 - qısa,
tip 3 - orta,

tip 4 - uzun,
tip 5 - çox uzun




Şəkil 3.30. Yarpaqlarda saplaq üzərindəki cod, yaxud qılcıqşəkilli tükcüklərin sıxlıq dərəcəsi (091 şifrəli deskriptor)



Şəkil 3.31.Yarpaqlarda saplağın orta damarcığa nisbətən uzunluğu (092 şifrəli deskriptor)

Şifrə: 093. Tam formalaşmış yarpaqlarda saplağın əsas damara nisbətən uzunluğu
tip 1 - kifayət qədər qısa
tip 3 - qısa
tip 5 - bir-birinə bərabər
tip 7 - nisbətən uzun
tip 9 - kifayət qədər uzun




Şəkil 3.32. Yarpaqlarda ayanın üst səthində damarların üzərindəki torvari və cod tükcüklərin mövcudluğu (088 və 089 şifrəli deskriptor)




Şəkil 3.33. Yarpaqlarda saplağın əsas damara nisbətən uzunluğu (093 şifrəli deskriptor)

Şifrə: 094. Tam formalaşmış yarpaqlarda ayada yuxarı yan kəsiklərin dərinliyi
tip 1 - çox dayaz yan kəsikli
tip 3 - dayaz yan kəsikli
tip 5 - orta dərinlikdə yan kəsikli
tip 7 - dərin yan kəsikli
tip 9 - çox dərin yan kəsikli




Şəkil 3.34. Yarpaqlarda ayada yuxarı yan kəsiklərin dərinliyi (094 şifrəli deskriptor)

**Birillik zoğlar:**

Şifrə: 101. Birillik zoğun eninə kəsiyinin forması (yarpaqlar töküldükdən sonra)
tip 1 - yumru formalı
tip 2 - ellepsvari formalı: Ağ şanı
tip 3 - oval formalı: Cober 5 BB




Şəkil 3.35. Birillik zoğun eninə kəsiyinin forması (101 şifrəli deskriptor).

Şifrə: 102. Birillik zoğun üzərinin quruluşu
tip 1 - hamar:
tip 2 - kələ-kötür:
tip 3 - şırımlı, qırışlı:



Şəkil 3.36. Birillik zoğun üzərinin quruluşu və en kəsiyi(102 şifrəli deskriptor).

Şifrə: 103. Birillik zoğun rəngi
tip 1 - sarı və onun müxtəlif çalarları
tip 2 - qəhvəyi və onun müxtəlif çalarları
tip 3 - qırmızımtıl-bənövşəyi və onun müxtəlif çalarları
tip 4 - boz və onun müxtəlif çalarları


Şəkil 3.37. BIrillik zoğun rəngi və en kəsiyinin forması (103 şifrəli deskriptor).

Şifrə: 104. Birillik zoğun üzərinin mərciməkliliyi
tip 1 - yoxdur:
tip 2 - var:

Şifrə: 105. Birillik zoğun buğum düyünlərindəki cod tükcüklər
tip 1 - çox zəifdir, yaxud yoxdur:
tip 9 - vardır:

Şifrə: 106. Birillik zoğun buğumarasındakı cod tükcüklər
tip 1 - çox zəif, yaxud yoxdur:
tip 9 - var:




Şəkil 3.38 Buğum düyünlərindəki cod tükcüklər (105şifrəli deskriptor).




Şəkil 3.39. Buğumarasındakı cod tükcüklər (106 şifrəli deskriptor).

## Çiçəyin quruluşu:

Şifrə: 151. Çiçəyin tipi
tip 1 - funksional erkək tipli (dişicik atrofiyalaşmışdır)
tip 2 - ikicincli (hermafrodit),
tip 3 - erkəkciyi aşağı əyilmiş, yaxud qıvrılmış dişi çiçək tipli
tip 4 - erkəkciyin saplağı çox qısa dişi çiçək tipli
tip 5- funksional dişi çiçək tipli (erkəkciklər atrofiyalaşmışdır)




Şəkil 3.40. Çiçək tipləri (151 şifrəli deskriptor)

Şifrə: 152. İlk çiçək salxımının inkişaf etdiyi buğum
tip 1 - I, yaxud II buğum,
tip 2 - III, yaxud IV buğum düyünündə,
tip 3 - V və sonrakı buğum düyünlərində.

Şifrə: 153. Bir zoğa düşən çiçək salxımının miqdarı
tip 1 - bir çiçək salxımına qədər
tip 2 - bir-iki çiçək salxımı
tip 3 - iki-üç çiçək salxımı
tip 4 - üç çiçək salxımından çox

Şəkil 3.41 Birinci çiçək salxımının inkişaf etdiyi buğum miqdarı

Şəkil 3.42. Çiçək salxımı (152 şifrəli deskriptor).



Şəkil 3.43. Çiçək salxımı (151 şifrəli deskriptor).

Şifrə: 154. Barlı zoğlarda birinci çiçək salxımının uzunluğu
tip 1 - çox qısa çiçək salxımlı
tip 3 - qısa çiçək salxımlı
tip 5 - orta uzunluqda çiçək salxımlı
tip 7 - uzun çiçək salxımlı
tip 9 - çox uzun çiçək salxımlı

Şəkil 3.44. Çiçək salxımının uzunluğu (154 şifrəli deskriptor)

**Barlı zoğlar:**

Şifrə: 155. Zoğlardakı əvəzedici çilikdə əsas tumurcuqların bar vermə xüsusiyyəti ( I-III tumurcuqlar)
tip 1 - çox aşağı
tip 5 - orta
tip 9 - çox yüksək




Şəkil 3.45. Əvəzedici çilikdə əsas tumurcuqların
bar vermə xüsusiyyəti (154 şifrəli deskriptor)

**Salxımın quruluşu:**

Şifrə: 201. Bir zoğa düşən salxımın miqdarı
tip 1 - bir salxıma qədər
tip 2 - bir-iki salxımlı
tip 3 - iki-üç salxımlı
tip 4 - üç salxımdan çox

Şifrə: 202. Salxımların parametrləri
tip 1 - çox xırda (8 sm-ə qədər)
tip 3 - xırda (8-12 sm)
tip 5 - orta (12-16 sm)
tip 7 - böyük (16-20 sm)
tip 9 - çox böyük (20-24 sm və daha uzun)



Şəkil 3.45. Salxımların parametrləri (154 şifrəli deskriptor)

Şifrə: 203. Salxımların eni
tip 1 - çox ensiz (4 sm-ə qədər),
tip 3 - ensiz (4-8 sm),
tip 5 - orta (8-12 sm)
tip 7 - enli (12-16 sm)
tip 9 - çox enli (16-20 sm və daha enli)



Şəkil 3.46. Salxımların eni (203 şifrəli deskriptor)

Şifrə: 204. Salxımların sıxlığı

tip 1 - çox seyrək (daraqda gilələr kifayət qədər uzaq məsafədə yerləşir, salxımı üfüqi qoyduqda bütün şaxələri (qanadları) bir müstəvi üzərinə yayılır
tip 3 - seyrək (salxımda gilələri xeyli aralı olur, salxımı üfüqi qoyduqda öz əvvəlki formasını itirir)
tip 5 - orta sıxlıqda (salxımda gilələri nisbətən aralı olur, salxımı üfüqi qoyduqda öz əvvəlki formasını qismən itirmir
tip 7 - sıx (salxımda gilələri azca aralamaq olur, salxımı üfüqi qoyduqda öz əvvəlki formasını itirmir)
tip 9 - çox sıx (salxımda gilələri aralamaq mümkün deyil, onlar bir-birini sıxaraq deformasiyaya uğradır, salxım sanki qarğıdalıya bənzəyir.



Şəkil 3.47. Salxımların sıxlığı (204 şifrəli deskriptor).

Şifrə: 205. Salxımdakı gilələrin miqdarı
tip 1 - çox az giləli
tip 3 - az giləli
tip 5 - orta miqdarda giləli
tip 7 - çox giləli
tip 9 - daha çox giləli

3 5 7 9

Şəkil 3.48. Salxımdakı gilələrin miqdarı (205 şifrəli deskriptor).

Şifrə: 206. Salxımlarda saplağın uzunluğu (əsas salxımın)
tip 1- çox qısa saplaqlı (3 sm-ə qədər)
tip 3- qısa saplaqlı (3-5 sm)
tip 5- orta qısa saplaqlı (5-7 sm)
tip 7- uzun saplaqlı (7-9 sm)
tip 9- çox uzun saplaqlı (9-11 sm və daha uzun)




Şəkil 3.49. Saplağın uzunluğu (206 şifrəli deskriptor)

Şifrə: 207. Saplağın odunlaşma dərəcəsi
tip 1- zəif odunlaşma, yaxud yumşaq
tip 2- orta dərəcədə odunlaşma
tip 3- güclü odunlaşma, yaxud möhkəm

Şifrə: 208. Salxımın formaları
tip 1- silindrik forma
tip 2- konusvari forma
tip 3- qıf şəkilli forma




Şəkil 3.50. Salxımın formaları (208 şifrəli deskriptor)

Şifrə: 209. Salxımın qanadlarının miqdarı (yuxarıdan şaxalənmələr)
tip 1- qanad yoxdur
tip 2- konusvari
tip 3- bir və ya iki qanadlı
tip 4- şaxəli



Şəkil 3.51. Salxımın qanadların miqdarı (208 şifrəli deskriptor)

**Gilələrin quruluşu:**

Şifrə: 220. Gilənin uzunluğu
tip 1- çox xırda (diametri 8 mm-ə qədər)
tip 3- xırda (diametri 8-13 mm)
tip 5- orta (diametri 13-18 mm)
tip 7- uzun (diametri 18-23 mm),
tip 9- çox uzun (23-28 mm və daha böyük)

Şifrə: 221. Gilənin eni
tip 1- çox xırda giləli (diametri 8 mm-ə qədər)
tip 3- xırda giləli (diametri 8-13 mm)
tip 5- orta giləli (diametri 13-18 mm)
tip 7- iri giləli (diametri 18-23 mm).
tip 9- çox iri giləli (23-28 mm və daha böyük)




Şəkil 3.52. Gilənin uzunluğu
(208 şifrəli deskriptor)




Şəkil 3.53. Gilənin eni
(208 şifrəli deskriptor)

Şifrə: 222. Salxımdakı gilələrin forma və ölçüsünün eynilik, uyğunluq dərəcəsi
tip 1- forma və ölçülər qeyri bərabərdir, uyğun deyil: Kardinal,
tip 2- forma və ölçülər bərabər və uyğundur: Qara şanı

.

Şəkil 3.54. Gilələrin forma və ölçüsünün eynilik, uyğunluq dərəcəsi
(222 şifrəli deskriptor)

Şifrə: 223. Gilələrin forması
tip 1- yastılanmış formada (arxa və qabaqdan),
tip 2- yumru formalı
tip 3- qısa ellepsvari formalı
tip 4- uzunsov-ellepsvari formalı
tip 5- silindirik formalı
tip 6- oval formalı
tip 7- sonu küt ovalvari, yaxud küp şəkilli formalı
tip 8- yumurtavari və tərs yumurtavari formalı
tip 9- buynuz şəkili, yaxud bir tərəfi içəri batıq formalı
tip 10- barmaq şəkilli formalı



Şəkil 3.55. Gilələrin forması (222 şifrəli deskriptor)

Şifrə: 224. Gilənin eninə kəsiyinin forması
tip 1 - qeyri-müəyyən forma
tip 2 - dəyirmi, yaxud yumru

Şifrə: 225. Gilələrin rəngi
tip 1 - ağ-sarı-yaşıl,
tip 2 - çəhrayı,
tip 3 - qırmızı və müxtəlif çalarları,
tip 4 - boz (bozumtul çalardan boz-bulanıq-çəhrayı çalara qədər),
tip 5 - tünd qırmızı-bənövşəyi,
tip 6 - göy-qara.

Şəkil 3.56. Gilələrin rəngi (225 şifrəli deskriptor)

Şifrə: 226. Gilənin rənginin eynilik dərəcəsi
tip 1 - bərabər deyil, rənglər üzrə tündlüyü eyni deyil,
tip 2 - bərabərdi, rənglər üzrə tündlük eynidir.




Şəkil 3.57. Gilənin eninə kəsiyinin forması (226 şifrəli deskriptor)

Şifrə: 227**.** Gilədə qabığın üzərindəki pruin, yaxud kitukula qatının (mum təbəqəsinin) qalınlığı
tip 1 - çox zəif, yaxud yoxdur
tip 3 - zəif, yaxud seyrək
tip 5 - orta dərəcədə
tip 7 - güclü, yaxud qalın
tip 9 - çox güclü, yaxud çox sıx

Şifrə: 228. Gilədəqabığın qalınlığı (epidermis+hipoderma)
tip 1 - çox nazik qabıqlı
tip 3 - nazik qabıqlı (100 µ-ə qədər)
tip 5 - orta qalınlıqda (100-175 µ)
tip 7 - qalın qabıqlı (175-250 µ)
tip 9 - çox qalın qabıqlı (250 µ-dən yuxarı)

Şifrə: 229. Gilədə toxumun göbəkciyi
tip 1 - zəif görünür,
tip 2 - yaxşı görünür.

Şifrə: 230.Gilədə lətin rəngliliyi
tip 1 - yoxdur
tip 2 - rənglidir

Şifrə: 231. Gilədə lətin rənginin intensivliyi
tip 1 - rəngsiz, yaxud çox zəif: Qara pino,
tip 3 - zəif: Qamə de Buze,
tip 5 - orta dərəcədə: Qamə de Şodne,
tip 7 - güclü: Qame Froe, Alikant Buşe,
tip 9 - çox güclü.

Şifrə: 232. Gilədə lətin şirəliliyi
tip 1 - az şirəli, yaxud az sulu,
tip 2 - orta dərəcədə şirəli,
tip 3 - çox şirəli, yaxud çox sulu.

Şifrə: 233. Gilədə şirə çıxımı (100 gilə üzrə)
tip 1 - çox aşağı (50%-ə qədər).
tip 3 - aşağı (51-65%),
tip 5 - orta dərəcədə (66-75%),
tip 7 - yüksək (76-90%),
tip 9 - çox yüksək (91%-dən yuxarı).

Şifrə: 235. Gilədə lətin sıxlığı, yaxud sərtliyi
tip 1 - çox yumşaq,
tip 2 - yumşaq,
tip 3 - orta dərəcədə sərt,
tip 4 - sərt (sıx),
tip 5 - çox sərt (çox sıx).

Şifrə: 236. Gilədə lətə məxsus dad və ətir
tip 1 - adi, ətir və qoxusu yoxdur
tip 2 - muskat ətirli
tip 3 - "İzabella" ətirli
tip 4 - sorta məxsus
tip 5 - "quş üzümünə" xas
tip 6 - "ot dadı".

Şifrə: 237. Gilənin aromatının təsnifatı
tip 1 - neytral
tip 2 - zəif hiss olunan
tip 3 - zəif aromatlı
tip 4 - aromatik
tip 5 - bir qədər muskat ətirli
tip 6 - güclü muskat ətirli
tip 7 - digər dadda

Şifrə: 238. Gilədə saplağın uzunluğu
tip 1 - çox qısa (uzunluğu 4 mm-ə qədər)
tip 3 - qısa (uzunluğu 4-7 mm)
tip 5 - orta (uzunluğu 8-13 mm)
tip 7 - uzun (uzunluğu 14-16 mm)
tip 9 - çox uzun (uzunluğu 17 mm-dən çox)

Şifrə: 239. Gilə saplağının daraqdan qopması
tip 1 - çətin qopur
tip 2 - asan qopur

Şifrə: 240. Gilənin saplaqdan qopması
tip 1 - çox asan qopur
tip 3 - asan qopur
tip 5 - orta dərəcədə güc tələb edir
tip 7 - qüvvə ilə (çətin) qopur
tip 9 - böyük qüvvə ilə (çox çətin) qopur



Şəkil 3.58.Gilədə saplağın uzunluğu
(238 şifrəli deskriptor)



Şəkil 46. Gilə saplağının daraqdan qopması
(239 şifrəli deskriptor)



Şəkil 47. Gilənin saplaqdan qopması
(239 şifrəli deskriptor)

Şifrə: 241. Gilədə toxumun inkişaf səviyyəsi
tip 1 - yoxdur (partenokarpiya yolu ilə): Qara korinka
tip 2 - rudiment şəkilli (toxunun qabığı yumşaqdır, endospermi, yaxud rüşeymi çox zəif inkişaf edir - stenospermokarpiya): Sultanina, Ağ oval kişmişi,
tip 3 - tam inkişaf etmiş: Novrast, Qara şanı.



Şəkil 3.59. Gilədə toxumun inkişafı (241 şifrəli deskriptor)

**Toxumun quruluşu:**

Şifrə: 242. Toxumun uzunluğu
tip 1-çox qısa: *V.rupestris,*
tip 3- qısa: Şardone
tip 5- orta: Merlo, Qara pino
tip 7- uzun: Alfons lavelle, Furmint, Hamburq muskatı
tip 9- çox uzun

Şifrə: 243. Toxumun kütləsi
tip 1- çox kiçik (4-10*mq*)
tip 3- xırda (10,1-25 *mq*)
tip 5- orta (25,1-40*mq*)
tip 7- iri (40,1-55 *mq)*
tip 9- çox iri (65 mq-dan yuxarı)

Şifrə: 244. Toxumun qarın hissəsindəki köndələn qırışların mövcudluğu
tip 1- mövcuddur:
tip 2- mövcud deyil:



Şəkil 3.59. Toxumun uzunluğu
(242 şifrəli deskriptor)




Şəkil 3.60. Toxumdakı köndələn qırışlar
(244 şifrəli deskriptor)

## 2. Tənəyin inkişafı

Şifrə: 301. Tumurcuqların açılma vaxtı
tip 1- çox erkən açılma:*V.amurensis, V.romanetii,*
tip 3- erkən açılma :
tip 5- orta vaxtda açılma:
tip 7- gec açılma:,
tip 9- çox gec açılma




Şəkil 3.61. Tumurcuqların açılma vaxtı (301 şifrəli deskriptor)

Şifrə: 302. Kütləvi çiçəkləmənin başlanması
tip 1 - çox erkən çiçəkləmə:
tip 3 - erkən çiçəkləmə
tip 5 - orta vaxtda çiçəkləmə
tip 7 - gec çiçəkləmə
tip 9 - çox gec çiçəkləmə

Şifrə: 303. Gilələrin yetişməyə başlaması
tip 1 - çox erkən yetişmə
tip 3 - erkən yetişmə
tip 5 - orta vaxtda yetişmə
tip 7 - gec yetişmə
tip 9 - çox gec yetişmə




Şəkil 3.61. Gilələrin yetişməyə başlaması (303 şifrəli deskriptor)

Şifrə: 304. Gilələrin fizioloji yetişməsi
tip 1 - çox erkən fizioloji yetişmə
tip 3 - erkən fizioloji yetişmə
tip 5 - orta vaxtda fizioloji yetişmə
tip 7 - gec fizioloji yetişmə
tip 9 - çox gec fizioloji yetişmə

Şifrə: 305. Zoğların yetişməyə başlaması
tip 1- çox erkən yetişmə
tip 3 - erkən yetişmə
tip 5 - orta vaxtda yetişmə
tip 7 - gec yetişmə
tip 9 - çox gec yetişmə

Şifrə: 306. Yarpaqların payız rəngi
tip 1 - sarı rəngli
tip 2 - qırmızımtıl rəngli
tip 3 - qırmızı rəngli
tip 4 - tünd-qırmızı rəngli
tip 5- bənövşəyi rəngli

Şifrə: 351. Zoğların böyümə gücü
tip 1- çox zəif böyümə (0,5 m-ə qədər)
tip 3 - zəif böyümə (0,6-1,2 m),
tip 5 - orta böyümə (1,3-2,0 m),
tip 7 - güclü böyümə (2,1-3,0 m),
tip 9 - çox güclü böyümə (3,0 m-dən yuxarı).

Şifrə: 352. Bic zoğların böyümə gücü, yaxud boyatması
tip 1 - çox zəif böyümə
tip 3 - zəif böyümə
tip 5 - orta böyümə
tip 7 - güclü böyümə
tip 9 - çox güclü böyümə

Şəkil 3.62. Bic zoğların böyümə gücü (352 şifrəli deskriptor)

Şifrə: 353. Buğumarasının uzunluğu
tip 1 - çox qısa (uzunluğu 6 sm-ə qədər)
tip 3 - qısa (uzunluğu 6-9 sm)
tip 5 - orta (uzunluğu 9-12 sm),

tip 7 - uzun (uzunluğu 12-15 sm)
tip 9 - çox uzun (uzunluğu 15-19 sm və daha uzun).



Şəkil3.63. (353 şifrəli deskriptor)

Şifrə: 354. Buğumarasının diametri
tip 1 - çox qısa (5 mm-ə qədər)
tip 3 - qısa (5-8 mm)
tip 5 - orta (8-11 mm)
tip 7 - enli (11-14 mm)
tip 9 - çox enli (14-17 mm və daha uzun)

## 3. Xəstəlik və zərərvericilərə qarşı davamlılığın müəyyənləşdirilməsi

Şifrə: 401. Dəmir xlorozu xəstəliyinə dözümlülük
tip 1 - çox dözümsüzdür *(yarpaqlar sarıdır və üzərilərində 10%-dən çox nekrozlar var)*
tip 3 - dözümsüzdür *(yetişmiş yarpaqlar parlaq-sarı rəngdədir, nekrozlara əsas damarlar arasında rast gəlinir)*
tip 5 - tolerantdır *(yarpaqlar sarıdır, lakin əsas damarlar boyunca yaşıldır)*
tip 7 - dözümlüdür *(yarpaqlar tutqun, yaxud açıq-yaşıl rəngdədir, damarlar yaşıldır)*
tip 9 - çox dözümlüdür*(yarpaqlar tünd-yaşıl rəngdədir)*

Şifrə: 402. Xloridlərə qarşı (duza) dözümlülük
tip 1- çoxdözümsüzdür
tip 3-dözümsüzdür
tip 5- orta dözümlüdür
tip 7-dözümlüdür
tip 9- çox dözümlüdür

Şifrə: 403. Quraqlığa qarşı dözümlülük
tip 1- çox dözümsüzdür
tip 3-dözümsüzdür
tip 5- orta dözümlüdür
tip 7-dözümlüdür
tip 9-çox dözümlüdür

Şifrə: 451. Tənəklərin mildiu xəstəliyinə siyarətlənməsi (*Plasmopara*)
tip 1- sirayətlənir V.viniferanın yarımnövünə aid olan əksər sortlar
tip 9 - dözümlüdür: *V.riparia növü*

Şifrə: 452-1. Yarpaqların təcrübə sahəsində mildiu xəstəliyinə sirayətlənməsi
tip 1- çoxdözümsüzdür, yaxud çox zəif sirayətlənir
tip 3-dözümsüzdür, yaxud zəif sirayətlənir
tip 5- tolerantdır, yaxud orta davamlıdır
tip 7-dözümlüdür
tip 9-çox dözümlüdür

Şifrə: 452-2.Yarpaqlarda laboratoriya şəraitində mildiu xəstəliyinə sirayətlənmə
tip 1- çox sirayətlənir
tip 3-az sirayətlənir
tip 5- tolerantdır, yaxud orta dözümlüdür
tip 7-dözümlüdür
tip 9 - çox dözümlüdür



Şəkil 3.64. Yarpaqlarda mildiu xəstəliyinə siyarətlənmə (352-2 şifrəli deskriptor).

Şifrə: 453. Salxımların mildiu xəstəliyinə sirayətlənməsi
tip 1- çox sirayətlənir
tip 3 - az sirayətlənir
tip 5 - tolerantdır
tip 7 - dözümlüdür
tip 9 - çox dözümlüdür

Şəkil 3.65. Qırmızı kişmişi sortunda salxımların mildiu xəstəliyinə siyarətlənməsi (453 şifrəli deskriptor)

Şifrə: 454. Tənəyin oidimxəstəliyinə yoluxması
tip 1-dözümsüzdür:
tip 9-dözümlüdür

Şifrə: 455. Yarpaqlarının oidium xəstəliyinə yoluxması
tip 1- çox sirayətlənir
tip 3-dözümlüdür
tip 5- tolerantdır,
tip 7-dözümlüdür
tip 9-çox dözümlüdür

Şifrə: 455-1. Yarpaqların laboratoriya şəraitində oidum xəstəliyinə qarşı dözümlülüyü
tip 1- çox dözümsüzdür
tip 3-dözümsüzdür
tip 5- tolerantdır
tip 7-dözümlüdür
tip 9-çox dözümlüdür.

Şifrə: 456. Salxımların oidium xəstəliyinə sirayətlənməsi
tip 1- çox dözümsüzdür
tip 3 az dözümsüzdür
tip 5- tolerantdır
tip 7- dözümlüdür
tip 9- çox dözümlüdür

Şəkil 3.66. Salxımların oidium xəstəliyinə sirayətlənməsi (352 şifrəli deskriptor)

Şifrə: 458. Yarpaqların boz cürümə xəstəliyinə (*Botrytis)* davamlılıq dərəcəsi
tip 1 - 3 çoxdavamsız və davamsız (çox zəif və zəif)
tip 5 - tolerant (orta dərəcədə davamlı)
tip 7 - 9 davamlı və yüksək davamlı (yüksək və çox yüksək)

Şifrə: 458-1. Yarpaqların boz çürümə xəstəliyinə (*Botrytis)* sirayətlənməsi
tip 3 - çox dözümsüzdür
tip 5 - orta dözümlüdür
tip 9 - dözümlüdür

Şifrə: 459. Salxımların boz çürümə xəstəliyinə (*Botrytis)* sirayətlənməsi
tip 3 - çox zəif və zəif dözümlüdür
tip 5 - orta dözümlüdür
tip 9 - dözümlüdür

Şifrə: 461. Yarpaqlarda fillokseraya qarşı dözümlülük
tip 1 - çox aşağı dözümlü:

tip 3 - aşağı dözümlü
tip 5 - orta dözümlü
tip 7 - dözümlü: *V.vinifera*
tip 9 - çox dözümlü





Şəkil 3.66. Yarpaqlarda fillokseraya yoluxma (461 şifrəli deskriptor)

Şəkil 3.67. Fillokseranın kök forması (462 şifrəli deskriptor)

Şifrə: 462. Fillokseranın kök formasına dözümlülük
tip 1 - çox zəif dözümlü
tip 3 - zəif dözümlü
tip 5 - orta dözümlü
tip 7 - yüksək dözümlü
tip 9 - çox dözümlü:




Şəkil 3.68. Fillokseranın kök formasına dözümlülük (462 şifrəli deskriptor).

## 4. Tənəklərdə məhsulun texnoloji qiymətləndirilməsi

Şifrə: 501. Salxımda normal gilələrin miqdarı
tip 1-çox aşağı (10%-dən aşağı)
tip 3- aşağı (20-30%)
tip 5- orta (40-50%)
tip 7- yüksək (60-70%)
tip 9- çox yüksək (80% və daha çox)

Şifrə: 502. Bir salxımın kütləsi
tip 1- çox xırda salxımlı (100 qramdan aşağı)
tip 3- xırda salxımlı (150-250 q)
tip 5- orta salxımlı (350-450 q)
tip 7- iri salxımlı (650-950 q)
tip 9- çox iri salxımlı (1200 q və daha çox)

Şifrə: 503. Bir gilənin kütləsi
tip 1- çox xırda giləli (1 qramdan aşağı)
tip 3- xırda giləli (1,1-3 q)
tip 5- orta giləli (3,1-5 q)
tip 7- iri giləli (5,1-7 q)
tip 9- çox iri giləli (7,1-9 q və daha çox)

Şifrə: 504. Bir tənəkdən məhsuldarlıq (s/ha)
tip 1- çox aşağı (40 s/ha-ya qədər)
tip 3- aşağı (40-80 s/ha)
tip 5-orta (90-120 s/ha)
tip 7- yüksək (130-160 s/ha)
tip 9- çox yüksək (170 s/ha-dan yuxarı)

Şifrə: 505. Üzüm şirəsinin şəkərliliyi
tip 1- çox aşağı şəkərlilik (12 q/100 $sm^3$-na qədər),
tip 3- aşağı şəkərlilik (12-15 q/100 $sm^3$),
tip 5- orta şəkərlilik (15-18 q/100 $sm^3$),
tip 7- yüksək şəkərlilik (18-21 q/100$sm^3$),
tip 9- çox yüksək şəkərlilik (21-24 q/100$sm^3$ və daha çox).

Şifrə: 506. Üzüm şirəsinin turşuluğu
tip 1- çox aşağı (3 q/$dm^3$-dən az),
tip 3- aşağı (3,1-6 q/$dm^3$),
tip 5- orta (6,1-9 q/$dm^3$),
tip 7- yüksək (9,1-12 q/$dm^3$),
tip 9- çox yüksək (12,1-15 q/$dm^3$ və daha yuxarı).

Şifrə: 508. Şirənin pH-ı
tip 3- aşağı,
tip 5- orta,
tip 7- yüksək.

Şifrə: 551. Calaqaltı: bir hektarda əsas köklərin uzunluğu (m/ha) və calaq zoğunun çıxımı
tip 1- çox aşağı səviyyədə
tip 3- aşağı səviyyədə,
tip 5- orta səviyyədə.
tip7- yüksək,
tip9- çox yüksək

Şifrə: 552. Calaq zamanı kallusun əmələ gəlməsi
tip 1- çox aşağı səviyyədə,
tip 3- aşağı səviyyədə,
tip 5- orta səviyyədə,
tip 7- yüksək,
tip 9- çox yüksək.

Şifrə: 553. Adventiv kök əmələgətirmə qabiliyyəti (rizogenez)
tip 1- çox aşağı səviyyədə:
tip 3- aşağı səviyyədə,
tip 5- orta səviyyədə:
tip 7- yüksək səviyyədə,
tip 9- çox yüksək səviyyədə,

Şifrə: 598. Salxımların formaları
tip 1- konusvari,
tip 2- dar konusvari,

tip 3- enli konusvari,
tip 4- silindirik,
tip 5- silindirik-qanadlı (silindrik-konusvari),
tip 6- qanadlı (1, yaxud 2 qanadlı),
tip 7- şaxəli,
tip 8- qanadlı konusvari.

Şifrə: 599. Gilələrdə gilədə toxumun varlığı
tip 1 - toxumlu
tip 2- toxumsuz

Şifrə: 600. Tənəklərdə -27ºC temperaturda tumurcuqların şaxtaya dözümlüyü
tip 1- gözcüklər tam məhv olur,
tip 2- gözcüklərin bir qismi məhv olur.

Şifrə: 603-1. Sortların istifadə istiqamətləri
tip 1- süfrə sortları
tip 2- kişmişi-üzüm, sortları
tip 3- universal (süfrə-texniki) sortlar
tip 4- texniki sortlar
tip 5- calaqaltı sortları

## 5. Tam formalaşmış yarpaqların ampelometriyası

Şifrə: 601. Tam formalaşmış yarpaqlarda əsas damarın ($N_1$ damarının) uzunluğu
tip 1- çox qısa (75 mm-ə qədər)
tip 3- qısa (75-105 mm)
tip 5- orta (105-135 mm)
tip 7- uzun (135-165 mm)
tip 9- çox uzun (165-195 mm və daha uzun)

Şifrə: 602. Tam formalaşmış yarpaqlarda yuxarı əsas yan damarların ($N_2$damarlarının) uzunluğu
tip 1- çox qısa (65 mm-ə qədər)
tip 3 - qısa (65-85 mm)
tip 5- orta uzunluqda (85-105 mm)
tip 7- uzun (105-125 mm)
tip 9- çox uzun (125-145 mm və daha uzun).




Şəkil 3.69.Yarpaqda əsas damarların uzunluğu (601 şifrəli deskriptor)uzunluğu




Şəkil 3.70. Yarpaqda yuxarI yan damarların (602 şifrəli deskriptor)

Şifrə: 603. Tam formalaşmış yarpaqda aşağı yan damarların ($N_3$ damarlarının) uzunluğu

tip 1- çox qısa (35 mm-ə qədər)
tip 3- qısa (35-55 mm)
tip 5- orta (55-75 mm)
tip 7- uzun (75-95 mm)
tip 9- çox uzun (95-115 mm və daha uzun)

Şifrə: 604. Tam formalaşmış yarpaqda əsas damardan ayrılan ilk aşağı damarcığın uzunluğu ($N_4$ damarlarının)

tip 1- çox qısa (15 mm-ə qədər)
tip 3- qısa (15-25 mm)
tip 5- orta uzunluqda (25-35 mm)
tip 7- uzun (35-45 mm)
tip 9- çox uzun (45-55 mm və daha uzun)




Şəkil 3.71.Yarpaqda aşağı yan damarların uzunluğu (603 şifrəli deskriptor)
(604 şifrəli deskriptor)




Şəkil 3.72 Yarpaqda yuxari yan damarlardan ayrılan ilk aşağı damarcığın uzunluğu

Şifrə: 605. Tam formalaşmış yarpaqlarda saplaq oyuğunun dibindən yuxarı kəsiklərin dibinə qədər olan məsafə

tip 1 - çox qısa (30 mm-ə qədər)
tip 3 - qısa (30-50 mm)
tip 5 - orta uzunluqda (50-70 mm)
tip 7 - uzun (70-90 mm)
tip 9 - çox uzun (90-110 mm və daha uzun)

Şifrə: 606. Tam formalaşmış yarpaqda saplaq oyuğunun dibindən aşağı kəsiklərin dibinə qədər olan məsafə

tip 1 - çox qısa (30 mm-ə qədər)
tip 3 - qısa (30-45 mm)
tip 5 - orta (45-60 mm)
tip 7 - uzun (60-75 mm)
tip 9 - çox uzun (75-90 mm və daha uzun)




Şəkil 3.73. 605 şifrəli deskriptor




Şəkil 3.74. 606 şifrəli deskriptor

Şifrə: 607. Tam formalaşmış yarpaqda orta damar ($N_1$) və yuxarı əsas damarların ($N_2$) arasındakı məsafə (bucaq ölçüsü ilə)

tip 1 - çox ensiz, yaxud çox dar (bucaq 30°-dən az)
tip 3 - ensiz, yaxud dar (bucaq 30° - 45°)
tip 5 - orta ölçülü (bucaq 46° - 55°)
tip 7 - geniş (bucaq 56° - 70°)
tip 9 - çox geniş (bucaq 70°-dən yuxarı)

Şifrə: 608. Tam formalaşmış yarpaqda yuxarı əsas damarlarla ($N_2$) aşağı yan əsas damarlar ($N_3$) arasındakı məsafə (bucaq ölçüsü ilə)

tip 1 - çox ensiz, yaxud çox dar (bucaq 30°-dən az),
tip 3 - ensiz, yaxud dar (bucaq 30° - 45°),
tip 5 - orta ölçülü (bucaq 46° - 55°),
tip 7 - geniş (bucaq 56° - 70°),
tip 9 - çox geniş (bucaq 70°-dən yuxarı).




Şəkil 3.75. 607 şifrəli deskriptor




Şəkil 3.76. 608 şifrəli deskriptor

Şifrə: 609. Tam formalaşmış yarpaqda aşağı yan əsas damarlar ($N_3$) ilə ondan ilk şaxələnən damar ($N_4$) arasındakı məsafə (bucaq ölçüsü ilə)

tip 1- çox ensiz, yaxud çox dar (bucaq 30°-dən az),
tip 3- ensiz, yaxud dar (bucaq 30° - 45°),
tip 5- orta ölçülü (bucaq 46° - 55°),
tip 7- geniş (bucaq 56° - 70°),
tip 9- çox geniş (bucaq 70°-dən yuxarı).

Şifrə: 610. Tam formalaşmış yarpaqda aşağı yan əsas damardan ilk şaxələnən damarcıqdan ($N_4$) birinci şaxələnən damarcıq ($N_5$) arasındakı məsafə (bucaq ölçüsü ilə)

tip 1- çox ensiz, yaxud çox dar (bucaq 30°-dən az)
tip 3- ensiz, yaxud dar (bucaq 30° - 45°)
tip 5- orta ölçülü (bucaq 46° - 55°)
tip 7- geniş (bucaq 56° - 70°)
tip 9- çox geniş (bucaq 70°-dən yuxarı)




Şəkil 3.77. 609 şifrəli deskriptor




Şəkil 3.78. 610 şifrəli deskriptor

Şifrə: 611. Tam formalaşmış yarpaq: aşağı yan əsas damarın ilk şaxələnən damarından ($N_4$-dən) şaxələnən birinci damarın ($N_5$) uzunluğu

tip 1-çox qısa (15 mm-ə qədər)
tip 3-qısa (15-25 mm)
tip 5- orta (25-35 mm)
tip 7- uzun (35-45 mm)
tip 9- çox uzun (45-55 mm və daha uzun)

Şifrə: 612. Tam formalaşmış yarpaqda yuxarı yan dilimlərin ucundakı dişciklərin ($N_2$) uzunluğu

tip 1- çox qısa (6 mm-ə qədər),
tip 3- qısa (6-10 mm),
tip 5- orta (10-14 mm),
tip 7- uzun (14-18 mm),
tip 9- çox uzun (18-22 mm və daha uzun).




Şəkil 3.79. 611 şifrəli deskriptor




Şəkil 3.80. 612 şifrəli deskriptor

Şifrə: 613. Tam formalaşmış yarpaq: yuxarı yan dilimlərin ucundakı dişciklərin ($N_2$) eni

tip 1- çox ensiz (6 mm-ə qədər)
tip 3- ensiz (6-10 mm)
tip 5- orta (10-14 mm)
tip 7- enli (14-18 mm)
tip 9- çox enli (18-22 mm və daha uzun)

Şifrə: 614. Formalaşmış yarpaq: aşağı yan əsas damardan ilk şaxələnən damarın ($N_4$) sonundakı dişciyin uzunluğu

tip 1- çox qısa (6 mm-ə qədər)
tip 3- qısa (6-10 mm)
tip 5- orta (10-14 mm)
tip 7- uzun (14-18 mm)
tip 9- çox uzun (18-22 mm və daha uzun)




Şəkil 3.81. 613 şifrəli deskriptor




Şəkil 3.82. 614 şifrəli deskriptor

Şifrə: 615. Tam formalaşmış yarpaq: aşağı yan əsas damardan ilk şaxələnən damarın ($N_4$) sonundakı dişciyin eni

tip 1- çox ensiz (6 mm-ə qədər)
tip 3- ensiz (6-10 mm)
tip 5- orta (10-14 mm)
tip 7- enli (14-18 mm)
tip 9- çox enli (18-22 mm və daha uzun)

Şifrə: 616. Tam formalaşmış yarpaqda yuxarı yan damarların (N2) sonundakı dişciklə, həmin damardan şaxələnən ilk damarın sonundakı dişcik arasında yerləşən dişciklərin sayı

tip 1- çox dar, yaxud 3 dişcik,
tip 3- dar, yaxud 4 dişcik,
tip 5- orta, yaxud 5-6 dişcik,
tip 7- geniş, yaxud 7-8 dişcik,
tip 9- çox geniş, yaxud 9 və daha çox dişcik.




Şəkil 3.83. 615 şifrəli deskriptor




Şəkil 3.84. 616 və 317 şifrəli deskriptor

Şifrə: 617. Tam formalaşmış yarpaq: yuxarı yan damarların (N2) sonundakı dişciklə, həmin damardan şaxələnən ilk damarın sonundakı dişcik arasındakı məsafənin uzunluğu

tip 1- çox qısa (30 mm-ə qədər)
tip 3- qısa (31-45 mm)
tip 5- orta (46-55 mm)
tip 7- uzun (56-70 mm)
tip 9- çox uzun (70 mm və daha uzun)

Şifrə: 618. Tam formalaşmış yarpaq: saplaq oyuğundakı dilimlər arasındakı məsafə, oyuğun açıqlıq dərəcəsi və ya dilimlərin üst-üstə düşməsi.

tip 1- geniş açıq oyuqda - 35 mm-ə qədər
tip 3- açıq oyuqda - 15 mm-ə qədər
tip 5- bağlı oyuqda - 5 mm-ə qədər
tip 7- örtülü oyuqlarda - 25 mm-ə qədər
tip 9- tam örtülü oyuqlarda - 45 mm-ə qədər




Şəkil 3.85. 618 şifrəli deskriptor

Şifrə: 623. Gilədə toxumun sayı
tip 1 - toxumsuz,
tip 2 - bir toxumlu,
tip 3 - bir-iki toxumlu,
tip 4 - iki-üç toxumlu,
tip 5 - üç-dörd toxumlu,
tip 6 - dörd və daha artıq toxumlu

## 6. Toxumların quruluşu və forması

Şifrə: 624. 1.Toxumların forması
tip 1 - dəyirmi formalı
tip 2 - oval formalı
tip 3- dəyirmi-konusvari (armud şəkilli) formalı
tip 4 - uzunsov (silindrik) formalı

Şəkil 3.86. Toxumların forması (624 şifrəli deskriptor)

Şifrə: 624-2. Toxumun rəngi
tip 1- açıq-qəhvəyi rəngli
tip 2- qəhvəyi rəngli
tip 3- tünd-qəhvəyi rəngli
tip 4- qırmızımtıl-tünd qəhvəyi rəngli
tip 5- üzərində çalarlı zolaq, yaxud nöqtələr olan ağımtıl-boz rəngli

Şifrə: 625. Toxumda dimdikciyin nisbi uzunluğu
tip 1- qısa
tip 2- orta uzunluqda
tip 3- uzun

Şifrə: 626. Toxumda göbəkciyin yerləşməsi
tip 1- toxumun yuxarı hissəsində
tip 2- toxumun orta hissəsində

Şifrə: 627. Toxumda göbəkciyinin forması
tip 1- dəyirmi formalı
tip 2- oval formalı
tip 3- üçbucaqşəkilli formalı

Şifrə: 628. Toxumda göbəkcik yastığının vəziyyəti, yaxud qabarıqlığı
tip 1 - batıq formalı
tip 2 - düz formalı
tip 3 - qabarıq formalı

## 7. Əlavə bioloji göstəricilər

Şifrə: 604-1. Birillik zoğun yetişmə dərəcəsi
tip 1- çox az (yetişmə dərəcəsi 35-50%)
tip 3 - az (51-65%)
tip 5 - kafi (66-80%)
tip 7 - yaxşı, (81-95%)
tip 9 - çox yaxşı, (96-100%)

Şifrə: 605-1. Birillik zoğların boyatma xüsusiyyəti
tip 1 - çox zəif boyatma (80 sm-ə qədər)
tip 3 - zəif boyatma (100 sm)
tip 5 - orta dərəcəli boyatma (101-200 sm)
tip 7 - güclü boyatma (201-300 sm)
tip 9 - çox güclü boyatma (300 sm-dən çox)

Şifrə: 629. Tənəyin vegetasiya müddəti

**1.** ***OIV deskriptorları üzrə:***

tip 1-v.m 100-105 gün (lar tez yetişən)
tip 2-v.m 106-115 gün (çox tez yetişən)
tip 3-v.m 116-125 gün (tez yetişən)
tip 4-v.m 126-135 gün (orta-tez yetişən)
tip 5-v.m 136-145 gün (orta dövrdə yetişən)
tip 6-v.m 146-155 gün (orta-gec yetişən)
tip 7-v.m 156-165 gün (gecyetişən)
tip 8-v.m 166 gündən yuxarı (çox gec yetişən)

**2.** ***Azərbaycan Respublikası üzrə:***

tip 1 - ən tez yetişən (v.m. 120 və daha az)
tip 2 - tez yetişən (v.m. 121-130 gün
tip 3 - orta tez yetişən (v.m. 131-140 gün)
tip 4 - orta vaxtda yetişən (v.m. 141-150 gün)
tip 5 - orta gec yetişən (v.m. 151-160 gün)
tip 6 - gec yetişən (v.m. 161-170 gün)),
tip 7 - ən gec yetişən (v.m. 171 gündən çox)

# *IV FƏSİL.* ÜZÜM BİTKİSİNİN GENETİK XÜSUSİYYƏTLƏRİ

## 1. *VITIS VINIFERA* L. *SSP. SATIVA* BBCH üzrə müqayisə olunma işarələri

Hər bir bitkinin təkamül prosesində qazanılmış və genetik aparatında saxlanılmış informasiya mövcuddur ki, bunun əsasında onların fərdi xüsusiyyətləri formalaşır və inkişaf edir. Üzüm bitkisinin də ontogenezində, yəni meydana gəldiyindən məhv olmasına qədər fərdi inkişafında irsi informasiyalar reallaşdırılır. İrsi olaraq hər bir xüsusiyyət ümumi bir ardıcıllıqla, qanunauyğunluqla müəyyən edilir və morfogenetik proseslərin istiqaməti xarici mühit amillərinin təsiri altında həyata keçir və hər bir bitki dəyişkənliyinin hüdudu reaksiya norması ilə səciyyələnir. Mədəni bitkilərin, o cümlədən üzüm tənəklərinin ontogenezində antropogen amillər mühüm rol oynayır. Üzüm ekoloji plastik bitki olub, xüsusi mühit şəraitinə qarşı yüksək ontogenetik adaptasiya xüsusiyyəti ilə seçilir.

Üzümün vegetasiya müddəti ayrı-ayrı fenoloji fazalardan ibarət olub, onların başlanğıcı və sonu tənəkdə aydın ifadə olunan morfoloji əlamətlərlə təyin olunur. Üzüm sortlarının vegetasiya müddətlərinin uzunluğu ilə yanaşı ayrı-ayrı fenofazaların davametmə müddətlərinin öyrənilməsi üzümün seleksiyasında vacib problemlərdən olan vegetasiya dövrünün qısaldılması məsələlərinin həll edilməsi məqsədilə daha məqsəduyğun başlanğıc materialların seçilməsinə imkan verir. Bitkilərin fenofazalarının davametməsi müddətinin onların genotipi ilə şərtlənməsinə baxmayaraq, becərildiyi şəraitdən asılı olaraq əhəmiyyətli dərəcədə variasiya edir. Üzümdə bu və ya digər fenofazaların, o cümlədən vegetasiya müddətlərinin dəyişməsinə ətraf mühitin temperaturu, torpağın su və qida rejimi, günəş işığı və s. kimi ekoloji amillər əhəmiyyətli dərəcədə təsir edir.

Üzüm bitkisi çoxillik bitki olub, onun həyat tsikli onillərlə davam edir. Üzüm bütün həyatı boyu böyük və kiçik həyat tsiklini keçirərək böyüyür və inkişaf edir. Bitkilərin ontogenezi hər il təkrarlanan qısa illik həyat tsikli ilə gerçəkləşir.

Yer kürəsinin subtropik və mülayim iqlimə malik qurşaqlarında üzümün illik tsikli nisbi sükunət və vegetasiya dövrlərinə bölünür. Vegetasiya dövründə tənəklərdə böyümə, inkişaf, məhsulvermə və s. kimi aktiv proseslər gedir. Bu dövr üzüm tənəklərində şirə hərəkəti, tumurcuqların açılması, çiçəkləmə, gilələrin əmələ gəlməsi və böyüməsi, gilələrin yetişməsi, zoğların yetişməsi və xəzanlamaya ayrılır.

Qeyd edək ki, indiyə qədər müəyyən bir bölgədə üzüm sortlarının fenologiyasının və vegetasiaya müddətlərinin öyrənilməsi zamanı klassik üsullardan istifadə

edilərək, yalnız tənəklərdə şirə hərəkəti, tumurcuqların açılması, çiçəkləmə, gilələrin əmələ gəlməsi və böyüməsi, gilələrin yetişməsi və xəzanlama kimi fenofazalar müşahidə edilərək müəyyən edilirdi. Yeni təqdim edilən üsulla bundan fərqli olaraq gözcüklərin sükunət dövründən başlayaraq xəzanlamaya qədər olan müddətdə tənəklərdə baş verən bütün vegetativ və generativ prosesləri yaxından izləmək mümkündür və tənəklərə fərdi yanaşmanı intensiv təmin edir (Cədvəl 4.1). Bu üsulun tətbiqi zamanı fenoloji mərhələlərdə meydana çıxan morfobioloji əlamətlər identifikasiya olunaraq rəqəmsal işarələnir və bu proseslərin baş vermə vaxtları ayrı-ayrı sortlar üzrə qeyd edilir.

*Cədvəl 4.1*

**Üzüm bitkisinin fenoloji mərhələləri və üzümün BBCH üzrə qiymətləndirmə şifrələri**

| BBCH üzrə şifrələr | Genetik əlamətin təsviri |
|---|---|
| *1* | *2* |
| ***0: Tumurcuqların inkişafı*** | |
| 00 | Tumurcuqların nisbi sükunəti: sortdan asılı olaraq qışlayıcı tumurcuqların sonu iti və sonu dəyirmi, rəngi isə açıq qəhvəyidən tünd qəhvəyiyə qədər dəyişir. Sortdan asılı olaraq tumurcuq pulcuğu bağlı, yaxud qicmən açıq olur. |
| 01 | Tumurcuğun şişməyə başlaması: tumurcuqlar pulcuq daxilində şişməyə başlayır. |
| 03 | Tumurcuğun şişməsinin sonu: tumurcuqlar şişkindir, lakin yaşıl rəngdə deyil |
| 05 | "tumurcuqların tünd sarı, yaxud qəhvəyi tükcük pərdəsi ilə örtülmə" dövrü |
| 07 | Tumurcuğun açılmağa başlaması: tumurcuqdan yalnız yaşıl sonluğunun ucluğu görünür. |
| 08 | Tumurcuqların açılması: tumurcuqdan zoğun yaşıl sonluğu aydın görünür |
| ***1: Yarpağın inkişafı*** | |
| 11 | Cavan zoğda birinci yarpaq aydın görünür və zoğun tacından aralanır |
| 12 | Ikinci yarpaq açılır və zoğdan aralanır |
| 13 | Üçüncü yarpaq açılır və zoğdan aralanır |
| 14 | Dördüncü yarpaq açılır və zoğdan aralanır |
| 15/53* | Beşinci yarpaq açılır və zoğdan aralanır |
| 16/54* | Altıncı yarpaq açılır və zoğdan aralanır |
| 17/55* | Səkkizinci yarpaq açılır və zoğdan aralanır |
| 18/56* | Doqquzuncu yarpaq açılır və zoğdan aralanır |
| 19/57* | Onuncu və sonrakı yarpaqlar açılır və zoğdan aralanır |
| ***5: Çiçək topasının əmələ gəlməsi və inkişafı*** | |
| 53 | Çiçək topası aydın görünür |
| 55 | Çiçək topası iriləşir, çiçək qönçələri bir-birinə sıx yerləşir |
| 57 | Çiçək salxımı tam iriləşib inkişaf edir, çiçək qönçələri sərbəst, ayrıca yerləşir |
| ***6: Çiçəkləmə*** | |
| 60 | Bir neçə çiçək tacı (qalpaqcığın) çiçək yatağından ayrılır |
| 61 | Çiçəkləmənin başlanması: 10 % çiçək açılır |
| 62 | Çiçəklərdən 20 % tac (qalpaqcıq) tökülür |
| 63 | Çiçəkləmənin əvvəli: Çiçəklərdən 30 % tac (qalpaqcıq) tökülür |
| 64 | Çiçəklərdən 40 % tac (qalpaqcıq) tökülür |
| 65 | Tam çiçəkləmə: Çiçəklərdən 50 % tac (qalpaqcıq) tökülür |
| 66 | Çiçəklərdən 60 % tac (qalpaqcıq) tökülür |

| *1* | *2* |
|---|---|
| 67 | Çiçəklərdən 70 % tac (qalpaqcıq) tökülür |
| 68 | Çiçəklərdən 80 % tac (qalpaqcıq) tökülür |
| 69 | Çiçəkləmənin sonu |
| ***7: Gilələrin inkişafı*** | |
| 71 | Gilələrin formalaşması: yumurtalıqlar iriləşməyə başlayır |
| 73 | Gilələr çox kiçik ölçüdədir (diametri 4 mm) və salxımlar sallanmağa başlayır |
| 75 | Gilələr noxud ölçüsündədir (diametri 7 mm) və salxımlar sallanır |
| 77 | Salxımdakı gilələr artıq bir-birini sıxmağa başlayır (əgər salxım sıxdırsa) |
| 79 | Salxımda gilələrin əksəriyyəti bir-birini sıxır, gilələr sıxlaşır |
| ***8: Gilələrin yetişməsi*** | |
| 81 | Yetişmənin başlanması: gilələr sortaməxsus rəng almağa başlayır |
| 83 | Gilələrin rənglənməsi, sorta xas rəng alması |
| 85 | Gilələrin yumuşalması |
| 89 | Gilələr tam yetişib, yığıma hazırdır |
| ***9: Nisbi sükunət dövrü*** | |
| 91 | Məhsul yetişdikdən sonra: birillik zoğların yetişməsi və başa çatması |
| 92 | Yarpaqların solğunlaşması |
| 93 | Xəzanlamanın başlanması |
| 95 | Yarpaqların 50%-i tökülür |
| 97 | Xəzanlamanın sonu |
| 99 | Əkin materialının tədarükü |




Şəkil 4.1 Üzüm bitkisinin inkişafının fenoloji mərhələləri və onların BBCH müqayisəli işarələri

00: Tumurcuqların nisbi sükunəti: sortdan asılı olaraq qış tumurcuqlarının sonu iti və sonu dəyirmi, rəngi isə açıq-qəhvəyidən tünd-qəhvəyiyə qədər dəyişir. Sortdan asılı olaraq tumurcuq pulcuğu bağlı, yaxud qismən açıq olur.



01: Tumurcuğun şişməyə başlaması: gözcüklər pulcuq daxilində şişməyə başlayır.



03: Tumurcuğun şişməsinin sonu: gözcüklər şişkindir, lakin yaşıl rəngdə deyil.



05: “gözcüyün tünd sarı, yaxud qəhvəyi tükcük pərdəsi ilə örtülmə” dövrü.

07: Tumurcuğun açılmağa başlaması: tumurcuqdan yalnız yaşıl sonluğu ucluğu görünür.

08: Tumurcuqların açılması: tumurcuqdan zoğun yaşıl sonluğu aydın görünür.

12: İkinci yarpaq açılır və zoğdan aralanır

15: Beşinci yarpaq açılır və zoğdan aralanır;
53: Çiçək topası aydın görünür.

17: Səkkizinci yarpaq açılır və zoğdan aralanır;
55: Çiçək topası iriləşir, çiçək qönçələri bir-birinə sıx yerləşir.



57: Çiçək salxımı tam iriləşib inkişaf edir, çiçək qönçələri sərbəst, ayrıca yerləşir.

61: Çiçəkləmənin başlanması:10% çiçək açılır.



69: Çiçəkləmənin sonu.

71: Gilələrin formalaşması: yumurtalıqlar iriləşməyə başlayır, inkişaf etməmiş çiçəklər tam tökülür.

77: Salxımdakı gilələr artıq bir-birini sıxmağa başlayır (əgər salxım sıxdırsa).



83: Gilələrin rənglənməsi, sorta xas rəng alması (12 °Brix).

89: Gilələr tam yetişib, yığıma hazırdır.

## 2. Üzüm sortlarının qiymətləndirilməsinin yeni üsulu

Üzümçülükdə sortlarının perspektivliyinin qiymətləndirilməsi məqsədilə biomorfoloji, təsərrüfat-texnoloji, iqtisadi, riyazi-statistik üsullardan geniş istifadə edilir. OIV-ni üzümün seleksiyası üzrə ekspert qrupu *Vitis* L. cinsinin genetik ehtiyatlarının dünya kolleksiyasını mərhələli təsvir etməyi təklif edirlər. *Birinci* mərhələdə kolleksiyanın səkkiz "pasport" göstəriciləri əsasında təsviri həyata keçirilir. Bu əlamətlər çox yüksək fenotipik təzahür edərək təkrarlanır; *ikinci* mərhələdə genotiplər 77 əlamət üzrə təsvir edilir; nəhayət *üçüncü* mərhələdə təsvir edilmiş obyektlərin müqayisəsinin aparılması və dünya üzüm genofondunun kataloqunun nəşr etdirilməsi məsələləri durur.

Ümumiyyətlə, rüşeym plazması kolleksiyasının (məlumat bazası) kodlaşdırılması üçün təsvir olunacaq əlamətlərin dəstinə 21, üzüm sort və forma nümunələrini ayırmaq (fərqləndirmək) və onların xarakteristikası məqsədilə 37 məcburi və 40 məsləhət bilinən əlamətlərdən istifadə təklif edilir. Dövlət Sort Sınaq Komissiyasına təqdim olunmuş üzüm sortlarının patentləşdirilməsi üçün, yaxud sort namizədlərinin təsvirində isə ən azı 44 əlamətin təsvir edilərək, kodlaşdırılması təklif edilir. Hazırda Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatının (OIV) deskriptorunun 9 ballıq şkalası əsasında üzümdə də əlamətlərin rəqəmsal kodlaşdırılması üzrə həyata keçirilməsi qəbul edilmiş, üzümün dəyərlilik indeksinin sonrakı hesablanması isə konkret aqroiqlim zonasında sortun obyektiv kompleks qiymətini verməyə imkan yaradır. Ümumiyyətlə, konkret bir aqroiqlim bölgəsində üzüm sortlarının perspektivliyinin qiymətləndirilməsi məqsədilə OİV deskriptorlarından ən vacib 25 əlamət və göstərici müəyyən edilərək seçilmiş və "Perspektivliyin qiymətləndirilməsinin yeni modeli"nə daxil edilmişdir. Öz növbəsində, tədqiq edilib qiymətləndirilən və yaxşılaşdırılan əlamətlər əhəmiyyətinə görə bərabər deyil, buna görə də sortların kompleks qiymətləndirilməsi zamanı hər bir əlamət üçün düzəliş əmsalları tətbiq edilməsi vacibdir. Ona görə də 25 ən vacib əlamət və göstərici daxil edilmiş model öyrənilən üzüm sortlarının təsərrüfat əhəmiyyətli göstəricilər kompleksinin kifayət qədər dolğun öyrənilməsinə imkan verir (Cədvəl 2).

Sortların perspektivliyinin konkret bölgədə qiymətləndirilməsinə daxil edilən bu əlamət və göstəricilər üzüm sortlarına qoyulan ümumi və xüsusi tələblərin ən vacib elementlərindəndir. Qeyd edilən üsula görə sortların perspektivliyi əlamət və göstəricilərin müvafiq kodlarını düzəliş əmsalına vurmaqla alınan rəqəmlər 25 göstərici üzrə cəmlənir. Nəticədə alınan rəqəm əsasında sortların perspektivli olub-olmaması barədə fikir söylənilir. Bu modeldən istifadə edərkən konkret bir aqroiqlim zonasında yetişdirilən üzüm sortlarının məxsus olduqları əlamət və göstəricilər yuxarıdakı cədvəldə göstərilən deskriptorların əlamətləri üzrə müəyyən edilərək, müvafiq 25 göstərici üzrə müqayisə şifrələri təyin edilir. Bundan sonra hər bir göstərici və əlamətin müqayisə işarəsi müvafiq düzəliş əmsallarına vurularaq alınan rəqəmlər toplanır (25 göstərici üzrə). Alınan hasil həmin sortun becərildiyi şəraitdəki

perspektivlik balını göstərir. Sortun perspektivli olub-olmaması isə bölgə üçün rayonlaşdırılmış hər hansı bir qiymətli üzüm sortları ilə müqayisə edilərək təyin edilir. Əgər müəyyən bir bölgədə tədqiq edilən sortların 25 göstərici üzrə ümumi balı nəzarət sortun ümumi qiymətindən 15 baldan çox aşağıdırsa (15) sort ***perspektivsiz***, əgər nəzarət sortun ümumi balına bərabər, yaxud fərq 15 bal həddindədirsə (±15) sort nəzarət sort səviyyəsində, yəni ***qənaətbəxş***, 15 baldan yuxarı olarsa (>15) daha ***perspektivli*** hesab edilir.

*Cədvəl 4.2*

**Üzüm sortlarının qiymətləndirilməsinin mühüm 25 əlamət və göstəriciləri**

| № | OİV deskriptorlarının şifrələri | Üzüm sortlarının fenotipik əlamətləri | Əlamətlərin şifrələnmə ardıcıllığı | Düzəliş əmsalı |
|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* |
| 1 | 301 | Tumurcuqların açılması | 1-çox erkən (uzun illərin orta göstəricisindən 8-10 gün və daha tez);<br>3-erkən (uzun illərin orta göstəricisindən 4-8 gün tez);<br>5-orta vaxtda (uzun illərin orta göstəricisindən ±3 gün fərqli);<br>7-gec (uzun illərin orta göstəricisindən 4-7 güng ec);<br>9-çox gec (uzun illərin orta göstəricisindən 8-10 gün və daha artıq gec). | 0,5 |
| 2 | 629 | Tumurcuqların açılmasından gilələrin tam yetişməsinə qədər | 1-çox gec yetişən (165 gündən artıq);<br>3-gec yetişən (145-165 gün);<br>5-orta dövrdə yetişən (125-145 gün);<br>7-tez yetişən (115-125 gün);<br>9-çox tez yetişən (105-115 gün) | 2,5 |
| 3 | 305 | Zoğların yetişməyə başlaması | 1- çox erkən;<br>3- erkən;<br>5- orta vaxtda;<br>7- gec;<br>9- çox gec. | 0,4 |
| 4 | 604 | Zoğların yetişmə dərəcəsi | 1-çoxaşağı (yetişmə dərəcəsi 35-50 %),<br>3- aşağı (51-65 %),<br>5-orta(66-80%),<br>7-yaxşı (81-95%),<br>9-çox yaxşı (96-100%). | 0,2 |
| 5 | 630 | Tumurcuqların inkişafı | 1-çox aşağı;<br>3-aşağı;<br>5-orta miqdarda;<br>7-yüksək;<br>9- çox yüksək. | 1,5 |
| 6 | 153 | Barlı zoğların miqdarı, | 1- 1 çiçək salxımlı<br>2-l1-2 çiçək salxımlı;<br>3 - l2-3 çiçək salxımlı;<br>4 - l3 çiçək salxımından çox. | 0,7 |

| *1* | *2* | *3* | *4* | *5* |
|---|---|---|---|---|
| 7 | 502 | Bir salxımın kütləsi | 1- çox xırda (100 qramdan aşağı);<br>3- xırda (100-300 q);<br>5- orta (300-500 q);<br>7- iri (500-700 q);<br>9- çox iri (700-900 q və daha çox). | 1,0 |
| 8 | 504 | Məhsuldarlıq | 1-çox aşağı (40 s/ha-ya qədər);<br>3-aşağı (40-80 s/ha);<br>5-orta (90-120 s/ha);<br>7-yüksək (130-160 s/ha);<br>9-çox yüksək (170 s/ha-dan yuxarı). | 2,5 |
| 9 | 505 | Şəkərlilik | 1-çox aşağı (14 q/100 $sm^3$);<br>3-aşağı (14-17 q/100 $sm^3$);<br>5-orta miqdarda (17-20 q/100 $sm^3$);<br>7-yüksək (20-23 q/100 $sm^3$);<br>9-çox yüksək (23 q/100 $sm^3$-dan yuxarı). | 2,2 |
| 10 | 204 | Salxımda gilələrin sıxlığı | 1- çox sıx;<br>3-sıx;<br>5- çox seyrək;<br>7- orta sıxlıqda;<br>9- seyrək. | 0,7 |
| 11 | 206 | Salxım saplağının uzunlğu | 1- çox qısa (3 sm-ə qədər);<br>3- qısa (3-5 sm);<br>5- orta qısa (5-7 sm);<br>7- uzun (7-9 sm);<br>9- çox uzun (9-11 sm və daha uzun). | 0,2 |
| 12 | 220 | Gilənin parametrləri | 1-çox xırda (8 mm-ə qədər);<br>3-xırda (8-13 mm);<br>5-orta ölçülü (13-18 mm);<br>7-iri (18-23 mm);<br>9- çox iri (23-28 mm və daha uzun). | 1,0 |
| 13 | 222 | Salxımda gilələrin forma və ölçüsü | 1- forma və ölçülər qeyri-bərabərdir, uyğun deyil<br>2- forma və ölçülər bərabər və uyğundur. | 2,0 |
| 14 | 223 | Gilənin forması | 1-yastı,<br>2-sıxılmış (ön və arxadan, yaxud eninə oval),<br>3-yumru,<br>4- qısa ellipisvari,<br>5-yumurtavari,<br>6- yumurtavari, yaxud küpşəkilli,<br>7-tərs yumurtavari,<br>8-silindrik,<br>9-uzunna oval. | 1,0 |
| 15 | 225 | Gilənin rəngi | 1- yaşıl;<br>3- qırmızı;<br>5- qara;<br>7- kəhraba rəngli;<br>9-çəhrayı. | 1,8 |
| 16 | 228 | Gilə qabığının qalınlığı | 1- çox nazik;<br>3- nazik (100 μ-ə qədər);<br>5- orta qalınlıqda (100-175 μ);<br>7- qalın (175-250 μ);<br>9- çox qalın (250 μ-dən yuxarı) | 0,4 |
| 17 | 236 | Gilənin özünəməxsus ətri | 1-yoxdur;<br>2-“İzabella üzümünə” xas;<br>3-“quş üzümü”, yaxud ot dadı verən;<br>4-sorta xas, yaxud özünəməxsus;<br>5-muskat ətirli. | 1,5 |

| *1* | *2* | *3* | *4* | *5* |
|---|---|---|---|---|
| 18 | 237 | Gilənin dadının və ya ətrinin təsnifatı | 1-neytral;<br>2-zəif hiss olunan;<br>3-zəif aromatlı;<br>4-aromatik;<br>5-bir qədər muskat ətirli;<br>6-güclü muskat ətirli<br>7-digər dadlar. | 1,3 |
| 19 | 238 | Gilə saplağının uzunluğu | 1-çox qısa (uzunluğu 4 mm-ə qədər);<br>3-qısa (4-8 mm);<br>5-orta uzunluqda (8-12 mm);<br>7-uzun (12-16 mm);<br>9- çox uzun (16 mm-dən çox). | 0,2 |
| 20 | 240 | Gilənin saplaqdan qopma qüvvəsi | 1- çox asan (gilənin saplaqdan qopma qüvvəsi 50-100 q);<br>3- asan (100-200 q);<br>5- orta dərəcədə (200-300 q);<br>7- çətin (300-400 q);<br>9- çox çətin (400-500 q və daha artıq). | 0,5 |
| 21 | 242 | Toxumun ölçüsü (uzunluğuna görə) | 1- çox uzun, yaxud iri;<br>3- uzun, yaxud iri;<br>5- orta ölçülü;<br>7- qısa, yaxud xırda;<br>9- çox xırda. | 0,2 |
| 22 | 351 | Tənəyin böyümə gücü | 1- çox zəif (50 sm-ə qədər);<br>3- zəif (50-100 sm);<br>5- orta (101-200 sm);<br>7- yüksək (201-300 sm);<br>9- çox yüksək (300 sm-dən yuxarı). | 0,5 |
| 23 | 452 | Mildiu xəstəliyinə davamlılıq dərəcəsi | 1- çox davamsız (5 bal);<br>3- davamsız (4-4,5 bal);<br>5- tolerant (3-3,5 bal);<br>7- davamlı (2-2,5 bal);<br>9- yüksəkdavamlı (1 bal). | 1,0 |
| 24 | 455 | Oidium xəstəliyinə davamlılıq dərəcəsi | 1- çox davamsız (5 bal);<br>3- davamsız (4-4,5 bal);<br>5- tolerant (3-3,5 bal);<br>7- davamlı (2-2,5 bal);<br>9- yüksəkdavamlı (1 bal). | 1,0 |
| 25 | 459 | Boz çürümə xəstəliyinə davamlılıq dərəcəsi | 1- çox davamsız (5 bal);<br>3- davamsız (4-4,5 bal);<br>5- tolerant (3-3,5 bal);<br>7- davamlı (2-2,5 bal);<br>9- yüksəkdavamlı (1 bal). | 0,8 |

## 3. Üzümdə sortların, protoklonların seçilməsi üçün istifadə edilən molekulyar-genetik nişanlanma şifrələri

Son dövrlər dünya miqyasında üzüm genofondunun molekulyar səviyyədə öyrənilməsində, aparılan seleksiya nəticəsində yaradılan yeni sort, klon və formalanın bir-birlərindən genetik fərqlərinin araşdırılmasında molekulyar-genetik analizlər aparılmaqdadır. Üzüm genotipin molekulyar-genetik tədqiqatlarında protoklonların, formaların bir-birindən ayird edilməsində, genetiq fərqlənmələrinin müəyyənləş-

dirilməsində, aşağıda göstərilən mikromarker nişanlanma şifrələrindən istifadə olunur: VrZag62, VrZag79, VVMD5, VVMD7, VVMD27, VVS2.

Bu mikrosatel nişanlanmış şifrələr (DNT-də dəyişilə bilən 9 gendən ibarət olan sahə) ЗАО "Синтол" и ЗАО "Бигль" şirkəti tərəfindən sinrez olunmuşdur.

Ayrı-ayrı genotiplərin ayırd edilməsində isə aşağıdakı 24 mikromarker nişanlanma şifrələrindən istifadə olunur: rZag47, VrZag79, VrZag62, VVS2, VVIV67, VVIN16, VMC1B11, VVIP60, VVMD25, VVIN73, VrZag67, VVMD5, VVIB01, VVIH54, VVMD32, VrZag83, VVMD27, VVIQ52, VVIV37, VVIP31, VVMD7, VVMD24, VVMD21 и VVMD28 [7. c. 3-23].

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun "Üzüm genofondu" bağında toplanılmış 150-dən çox aborigen üzüm sortlarının beynəlxalq miqyasda tanıdılması və beynəlxalq katoloquna salınması üçün OİV metodikaları əsasında ampelo-deskriptor xüsusiyyətlərinin şifrələnməsi yerinə yetirilmişdir.

## 4. Шифры и коды признаков и свойств винограда

***1) биоморфологические:***

004. Интенсивность (плотность) паутинистого опушения верхушки: 1 – отсутствует или очень слабое (очень редкое); 3 – слабое (редкое): 5 – среднее; 7 – сильное (густое): 9 – очень сильное (очень густое).

053. Плотность паутинистого опушения между главными жилками на нижней поверхности листа: 1 – отсутствует или очень слабое (очень редкое); 3 – слабое (редкое); 5 – среднее; 7 – сильное (густое); 9 – очень сильное (очень густое).

065. Величина пластинки листа: 1 – очень малая; *V. Rupestris* 3 – малая; 5 – средняя; 7 – большая; 9 – очень большая.

067. Форма листовой пластинки: 1 – сердцевидная; 2 – клиновидная; 3 – пятиугольная; 4 – круглая; 5 – почковидная.

068 Количество лопастей листа: 1 – одна лопасть (цельный); 2 – три лопасти; 3 – пять лопастей; 4 – семь лопастей; 5 – более семи лопастей.

О71. Антоциановая окраска главных жилок нижней поверхности листа: 1 – отсутствует или очень слабая; 2 – только в черешковой точке; 3 – до первого разветвления; 4 – до второго разветвления; 5 – выше второго разветвления.

074. Профиль (поперечное сечение в средней части пластинки): 1 – плоский; 2 – бороздчатый; 3 – закрученный вверх; 4 – закрученный вниз; 5 – волнистый.

075. Пузырчатость верхней поверхности пластинки: 1 – отсутствует или очень слабая; 3 – слабая; 5 – средняя; 7 – сильная; 9 – очень сильная.

076. Форма зубчиков: 1 – обе стороны вогнуты; 2 – обе стороны прямые; 3 – обе стороны выпуклые 4 – одна сторона вогнутая, другая выпуклая; 5 – среднее между обеими сторонами.

079. Форма (степень открытости / перекрываемости) черешковой выемки: 1 – очень широко открытая; 3 – открытая; 5 – закрытая; 7 – лопасти перекрываются; 9 – лопасти сильно перекрываются.

082. Форма (тип) или степень открытости / перекрываемо-сти верхних боковых вырезок: 1 – открытая; 2 – закрытая (лопасти соприкасаются); 3 – лопасти слегка перекрываются; 4 – лопасти сильно перекрываются; 5 – отсутствие лопасти.

084. Плотность паутинистого опушения между главными жилками на нижней стороне листа: 1 – отсутствует или очень слабое (очень редкое); 3 – слабое (редкое); 5 – среднее; 7 – сильное (густое); 9 – очень сильное (очень густое).

085. Плотность щетинистого опушения между главными жилками на нижней стороне листа: 1 – отсутствует или очень слабое (очень редкое); 3 – слабое (редкое); 5 – среднее; 7 – сильное (густое); 9 – очень сильное (очень густое).

093. Длина черешка относительно главной (срединной) жилки: 1 – значительно короче; 3 – короче; 5 – одинаковая; 7 – длиннее; 9 – намного длиннее.

151. Тип цветка (половые органы): 1 – мужской, полностью развитые тычинки и нет гинецея; 2 – полностью развитые тычинки и недоразвитый гинецей; 3 – обоеполый, полностью развитые тычинки и гинецей; 4 – женский, завернутые тычинки и полностью развитый Гинецей.

202. Гроздь: длина, без гребненожки: 1 – очень короткая, до 8 см; 3 – короткая, до 12 см; 5 – средняя, до 16 см; 7 – длинная, до 20 см; 9 – очень длинная, до 24 см и больше.

204. Плотность грозди: 1 – очень рыхлая; 3 – рыхлая; 5 – средней плотности; 7 – плотная; 9 – очень плотная.

206. Длина ножки грозди (длина гребненожки первичнойгрозди): 1 – очень короткая, приблизительно 3 см; 3 – короткая, приблизительно 5 см; 5 – средняя, приблизительно 7 см; 7 – длинная, приблизительно 9 см; 9 – очень длинная, приблизительно 11 см и больше.

208. Гроздь: форма: 1 – цилиндрическая; 2 – коническая; 3 – воронкообразная.

220. Длина ягоды: 1 – очень короткая, до 8 мм; 3 – короткая, до 13 мм; 5 – средняя, до 18 мм; 7 – длинная, до 23 мм; 9 – очень длинная, до 28 мм и больше.

223. Форма ягод: 1 – уплощенная; 2 – сферическая; 3 –

короткоэллиптическая; 4 – длинноэллиптическая; 5 – цилиндрическая; 6 – тупояйцевидная; 7 – яйцевидная; Бикан; 8 – обратнояйцевидная; 9 – формы рога; 10 – формы пальца.

225. Окраска кожицы: 1 – зеленовато-желтая; 2 – розовая; 3 – красная; 4 – серая; 5 – темно-красно-фиолетовая; 6 – сине-черная.

228. Толщина кожицы: 1 – очень тонкая; 3 – тонкая; 5 – средняя; 7 – толстая; 9 – очень толстая.

233. Выход сусла (из 100 г ягод) : 3 – малый, до 65 %; 5 – средний, 65–75 %; 7 – высокий, 75 % и более.

236. Особенности привкуса: 1 – без привкуса (без особенностей); 2 – мускатный; 3 – лисий (изабельный); 4 – травянистый; 5 – другой привкус, чем мускатный, лисий, травянистый.

238. Длина плодоножки: 1 – очень короткая, до 4 мм; 3 – короткая, до 7 мм: 5 – средняя, до 10 мм: 7 – длинная, до 13 мм; 9 – очень длинная.

243. Масса семени: 1 – очень малая, до 10 мг; 3 – малая, до 25 мг; 5 – средняя, до 40 мг; 7 – большая, до 55 мг; 9 – очень большая, до 65 мг и более.

***2) хозяйственно-биологические:***

629. Продолжительность продукционного периода (от начала распускания почек до сбора урожая): 1 - сверхраннего периода созревания (до 105 дней), 2 - очень раннего (106-115 дней), 3 - раннего (116-125 дней), 4 - ранне-среднего (126-135 дней), 5 - среднего (136-145 дней), 6 - средне-позднего (146-155 дней), 7 - позднего (156-165 дней), 8 - очень позднего периода созревания (более 165 дней).

153. Количество соцветий на побеге: 1 – одно соцветие и меньше; 2 – 1,1 – 2 соцветия; 3 – 2,1 – 3 соцветия; 4 – более.

504. Урожайность: 1 – очень малая; 3 – малая; 5 – средняя; 7 – высокая; 9 – очень высокая:

505. Содержание сахаров в сусле: 1 – очень низкое, приблизительно 12 % (г/100 $см^3$); 3 – низкое, приблизительно 15 % (г/100 $см^3$); 5 – среднее, приблизительно 18 % (г/100 $см^3$); 7 – высокое, приблизительно 21 % (г/100 $см^3$); 9 – очень высокое, приблизительно 24 % (г/100 $см^3$) и больше.

506. Титруемая кислотность сусла: 1 – очень низкая; 3 – низкая; 5 – средняя; 7 – высокая; 9 – очень высокая.

351. Сила роста побега: – очень слабая, до 0,5 м;3 – слабая, 0,6–1,2 м; 5 – средняя, 1,3–2,0 м; 7 – сильная, 2,1–3,0 м; 9 – очень сильная, более 3 м.

604. Степень созревания побегов: 1 - очень низкая (менее 1/3 общей длины), 3 - низкая (1/3-1/2 длины), 5 - средняя (1/2-2/3 длины), 7 - высокая (2/3-6/7 длины), 9 - очень высокая (по всей длине, кроме верхушки).

## 5. Ampelo-descriptors of OIV

### a) *Biomorphological specifications*

004 – Young shoot: density of prostrate hairs on the shoot: 1 -none or very low; 3 – low; 5 – medium; 7–high; 9-very high;

053 - Young leaf: density of prostrate hairs between main veins on lower side of blade (4th leaf): 1 -none or very low; 3 – low; 5 – medium; 7–high; 9-very high;

065 – Mature leaf: size of blade: 1-very small; 3- small; 5-medium; 7-large; 9-very large

067 – Mature leaf: shape of blade: 1–cordate; 2 – wedge-shaped; 3 – pentagonal; 4– circular; 5- kidney-shaped;

068 – Mature leaf: number of lobes: 1-one (entire leaf); 2-three4 3-five; 4-seven; 5-more than seven;

071 – Mature leaf: area of anthocyanin coloration of main veins on lower side:of blade: 1-absent; 2- only at the petiolar point; 3- up to the 1st bifurcation; 4-up to the 2nd bifurcation; 5- beyond the 2nd bifurcation;

074 - Mature leaf: profile of blade in cross section: 1-flat; 2-V-shaped; 3-involute; 4- revolute; 5- twisted;

076 – Mature leaf: shape of teeth: 1- both sides; 2 –both sides straight; 3 – both sides convex; 4 – one side concave, one side; 5 - mixture between both sides straight (note 2) and both sides convex (note 3);

079 – Mature leaf: degree of opening / overlapping of petiole sinus: 1-very wide open; 3- open;5- closed; 7-overlapped; 9-strongly overlapped

082 - Mature leaf: degree of opening / overlapping of upper lateral sinuses: 1-open; 2- closed; 3- slightly overlapped; 4- strongly overlapped; 5- absence of sinus

084 – Mature leaf: density of prostrate hairs between main veins on lower side of blade: 1 -none or very low; 3 – low; 5 – medium; 7–high; 9-very high;

085 – Mature leaf: density of erect hairs between main veins on lower side of blade: 1 -none or very low; 3 – low; 5 – medium; 7–high; 9-very high;

093 – Mature leaf: length of petiole compared to length of middle vein: 1-much shorter; 3- slightly shorter ; 5-equal; 7- slightly longer; 9- much longer

151 – Flower: sexual organs: 1 – fully developed stamens and no gynoecium; 2 – fully developed stamens and reduced gynoecium; 3 –fully developed stamens and fully developed gynoecium; 4 – reflexed stamens and fully developed gynoecium;

202 – Bunch: length (peduncle excluded): 1-very short; 3- short; 5- medium; 7-long; 9- very long;

204 – Bunch: density: 1-very loose; 3- loose; 5- medium; 7-dense; 9-very dense;

206 – Bunch: length of peduncle of primary bunch: 1-very short; 3- short; 5-medium; 7- long; 9- very long;

220 – Berry: length: 1-very short (up to about 6 mm);; 3- short (about 7-13 mm); 5- medium (about 14-18 mm); 7- long (about 19-23 mm); 9- very long ( about 23 mm and more)

223 - Berry: shape: 1 – obloid; 2- globose; 3-broad ellipsoid; 4– narrow ellipsoid; 5-cylindric;6- obtuse ovoid; 7-ovoid; 8-obovoid; 9-horn-shaped; 10-finger-shaped;

225 – Berry: color of skin: 1-green yellow; 2-rose; 3-red; 4-grey; 5-dark red violet; 6- blue black; 7-red black

228 – Berry: thickness of skin: 1-very thin; 3-thin; 5- medium; 7- thick; 9- very thick;

236 – Berry: particular flavor:1-none; 2-muckat; 3- foxy; 4-herbaceous; 5-other flavor than muscat, foxy or herbaceous;6- tasteless

238 – Berry: length of pedicel: 1-very short (up to about 4 mm); 3- short (about 4-8 mm); 5- medium (about 8-12 mm); 7- long (about 12-16 mm); 9- very long ( about 16 mm and more)

241 – Berry: formation of seeds: 1-none; 2-rudimentary; 3-complete

243 – Berry: weight of seeds: 1-very low(up to about 10 mg); 3- low (about 10-25 mg); 5-medium (about 25-40 mg); 7- high (about 40-55 mg); 9- very high (about 40 mg and more);

***b) Agrobiological specifications***

629 – Vegetation period: 1 – very early ripening (v.p. 120 days or less)early ripening (v.p. 121-130 days); 3 – medium early ripening (v.p. 131-140 days); 4 – medium ripening (141-150 days); 5 – medium late ripening (v.p. 151-160 days); 6 – late ripening (161 -170 days); 7 – very late ripening (v.p. 171 days and more);

153 – Inflorescence: number of inflorescences per shoot: 1- up to 1 inflorescence; 2- 1,1 to 2 inflorescences; 3- 2,1 to 3 inflorescences; 4-more than 3 inflorescences;

504 - Yield per $m^2$: 1 - very low (up to about 4 t/ha); 3 – low (about 5-8 t/ha); 5 – medium (about 9-12 t/ha); 7–high (about 13-16 t/ha); 9-very high (about 17 s/ha and more);

505 – Sugar content of must: 1 - very low (up to about 14 g/100 $sm^3$); 3 – low (about 14 -17 g/100 $sm^3$); 5 – medium (about 18-20 g/100 $sm^3$); 7–high (about 21-23 g/100 $sm^3$); 9-very high (about 24 g/100 $sm^3$ and more);

506 – Total acidity of must: 1 - very low (up to about 4 g/$dm^3$); 3 – low (about 4-6 g/$dm^3$); 5 – medium (about 7-9 g/$dm^3$); 7–high (about 10-12 g/$dm^3$); 9-very high (about 12 g/$dm^3$ and more);

351 – Vigor of shoot growth: 1- very weak (up to about 0,5 m); 3- weak (about

0,5-1,2 m); 5-medium (about 1,3-2,0 m); 7-strong (about 2,1-3,0 m); 9- very strong (about 3,0 and more);

603-1 – Use direction of the variety: 1– table; 2- raisin grapes; 3– universal; 4 – technical or wine; 5-Rootstock.

604-1– Young shoots maturity level: 1 - very low (up to about 33,3%); 3 – low (about 33,4-50,0%); 5 – medium (about 50,0-70,0%); 7–high (about70,0-95,0%); 9- very high (about 96,0% and more);

452-459 – Proneness towards main fungi deseases (*Plasmopara, Oidium, Botrytis)*: 1-very low (about 5 ball); 3- low (about 4 ball); 5- medium (about 3 ball); 7- high (about 2 ball); 9- very high or total (about 1 ball).

# XÜSUSİ AMPELOQRAFİYA

# 1. KİŞMİŞİ SORTLARI – КИШМИШНЫЕ СОРТА - RAISIN VARIETIES

## AĞ KİŞMİŞİ
## *Аг кишмиш – Ag kishmishi*

Naxçıvan MR-in yerli üzüm sortudur. Azərbaycanın standart kişmişi sortları qrupuna daxildir. Sortun adı onun gilələrinin rənginə görə verilmişdir. Naxçıvan MR-də, Abşeron yarımadasında və Azərbaycanın üzüm becərilən digər regionlarında rast gəlinir. Morfoloji əlamətlərinə və bioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) yarımqrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri yaxşı inkişaf edərək güclü kollanır, zoğları yarımdik vəziyyətdə ətrafa yayılırlar. Quru budama zamanı tənəklərə çoxqollu kordon forması verməklə, bar zoğlarında 7-10 tumurcuq saxlanılır. Yaz dövrü tumurcuqların açılması 90,5 %, məhsuldar zoğları isə 55,2 %-dən çox olur.

*Birillik zoğlar:* İnkişaf xüsusiyyətlərinə görə birillik zoğların uzunluğu müxtəlif olmaqla, orta uzunluğu 210,0 sm-ə, yatmış tumurcuqlardan inkişaf edən birillik zoğların uzunluğu isə bəzən 300,0-350,0 sm-ə çatır. Çubuqların rəngi buğumaralarında açıq sarımtıl-qəhvəyi, üzəri tək-tək qəhvəyi ləkəli və zolaqlı, buğumlarda isə açıq qəhvəyi rənglidir.

*Yaşıl zoğlar:* Tənəklərdə inkişaf etməkdə olan yeni zoğlar açıq-yaşıl rəngli olmaqla, zoğun tacı və 3-5-ci təzə yarpaqların üzəri çılpaqdır, hamar və parlaq-yaşıl rənglidir. Yeni açılmış yarpaqların alt səthində ağ tükcüklərə və damarlar üzərində qılçıqlara rast gəlinmir. Yüksək məhsuldarlıq üçün düzgün yaşıl budanma tələb olunur.

*Yarpaq:* Yarpaqları əsasən dairəvi formalıdır (uzun. 17,8 sm, eni 17,3 sm), yarpaq indeksi 1,03, səthi parlaq yaşıldır, kənarları isə yuxarı yönəlir. Yarpaq sahəsi 191,13 $sm^2$, orta damarın uzunluğu 11,0 sm-dir. Yarpağın alt səthində ağ rəngli torabənzər tükcüklərə və damarlar üzərində xırda qılçıqlara rast gəlinmir. Yarpaqları üç və beşpəncəlidir. Yuxarı yan kəsikləri dayaz, bəzən orta dərinlikdədir. Orta dərinlikdə olan yuxarı yan kəsiyi əsasən açıq formalıdır, iti dibli, liraşəkillidir. Dayaz, itibucaq formada kəsikli yarpaqlara da rast gəlinir. Aşağı yan kəsikləri əsasən dayaz, itibucaq şəklində, orta dərinlikdə isə liraşəkillidir. Pəncələrin ucundakı dişciyi uzundur, enli oturacaqlıdır, kənar dişcikləri isə xırdadır, müxtəlif ölçülü mişardişlidir.

*Saplaq:* Yarpaqların saplağı yaşımtıl-göy rənglidir, orta damardan nisbətən qısadır, orta (9,0-10,5 sm) uzunluğu 9,2 sm-dir. Saplaq oyuğu əsasən qapalı, ensiz oval formalıdır, bəzən açıq, ensiz tağlı oyuğu olan yarpaqlara da rast gəlinir.

*Çiçək:* İkicinsli çiçək qrupuna malikdir, erkəkcik saplağı uzundur. Tozluqlar uzunsov ovalşəkillidir, yumurtalığı isə üst formalı, yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi 91,2 - 95,5 %-dir.

*Salxım:* Salxımların forma və çəkiləri çox müxtəlifdir. Xarakterik salxımları çox qanadlı-konusvari, qanadlı-silindrik formalarda olmaqla, orta uzunluğu 28,0 sm, eni isə 15,0 (uzun. 18,0-32,5 sm, eni 12,5-16,0 sm) sm-dir. Gilələr tozlanmadan asılı olaraq daraqda orta seyrəklikdə və ya sıx yerləşə bilər. Salxımın saplağı 5,0-7,5 sm-dir, bəzi salxımlarda məhsulun yetişmə dövründə saplaq odunlaşır.

*Gilə:* Salxımda gilələr orta irilikdə olub, uzunluğu 13,0-18,0 mm, eni 12,0-15,0 mm-dir. Bərk, əsasən uzunsov-oval formalıdır, sıxgiləli salxımlarda tərsyumurta-şəkilli də olur. Qabığı ağımtıl və ya açıq mavi rənglidir, kölgə yerlərdə isə açıq göyümtül rəngdə olur. Gilələrin qabığı nazik olub, lətli hissədən çətin ayrılır. Gilələrdə toxumların rudiment başlanğıcları olur. Gilələri özünəməxsus dada və keyfiyyətə, yüksək əmtəə görünüşünə malikdir.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya müddəti:* Orta vaxtda yetişən üzüm sortudur. Məhsulu Abşeronda avqust ayının axırında, Naxçıvan Muxtar Respublikasında sentyabr ayının əvvəl-lərində tam fizioloji yetişkənliyə çatır. Vegetasiya müddəti çiçəkləməyə qədər 52-58 gün, məhsulun tam yetişməsinə qədər isə 142-152 gün davam edir. Məhsulun tam yetişkənliyə çatması üçün 2950-3100$^0$C aktiv temperatur sərf olunur.

**Əsas fenoloji fazaların gedişi (Naxçıvan MR-də)**

| İllər | Tumurcuqların açılması | | Çiçəkləmə | | Meyvələrin yetişməsi | | Tumurcuqların açılmasından, gün | | Xəzan |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | çiçəkləməyə qədər | meyvələrin yetişməsinə qədər | |
| 2005 | 10.04 | 4 | 12.06 | 9 | 11.09 | 37 | 57 | 141 | 17.11 |
| 2007 | 12.04 | 4 | 18.06 | 7 | 14.09 | 42 | 52 | 148 | 15.11 |
| 2009 | 09.04 | 3 | 15.06 | 8 | 13.09 | 41 | 50 | 145 | 18.11 |
| 2010 | 14.04 | 5 | 15.06 | 8 | 12.09 | 38 | 54 | 143 | 16.11 |

*Məhsuldarlığı:* Orta məhsuldar sortdur. Tam becərilmə sistemində (3,0 x 1,2 m) bir tənəkdən orta məhsuldarlıq 10,0-14,0 kq, şpaler sistemi ilə becərilmədə isə (2,5 x 1,5 m) 6,0-10,0 kq-a çatır. Talvar sistemi ilə becərilmədə hətta 13,0-18 kq, yaşlı tənəklərdən 50,0-70,0 kq-a qədər məhsul toplanılır. Yüksək şəkərli üzüm sortudur, gilələnin şəkərliliyi 21,0-23,0 q/100 sm$^3$, turşuluğu isə 4,0-4,5 q/dm$^3$-dir. Bir

hektardan orta məhsuldarlıq 60-75 bar yükündə 220,0-250,0 sentnerdən çox olur. Salxımlarda 0,7-5,2 % xırdagiləlik müşahidə olunur.

**Əsas məhsuldarlıq göstəriciləri (Naxçıvan MR-də)**

| Salxımın orta kütləsi, q | Salxımda gilələrin sayı, ədəd | 100 gilənin kütləsi, q | Gilədə, % | | ümumi şirə çıxımı, % | Şirədə | | Məhsuldarlıq əmsalı | | Bir tənəkdə məhsuldarlıq, kq |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | qabıq | toxum | | şəkərliliyi, q/ 100 $sm^3$ | turşuluğu, q/ $dm^3$ | tənəkdə | barlı zoğlarda | |
| 312,1 | 107,6 | 255,4 | 7,1 | - | 89,2 | 23,0 | 4,3 | 0,61 | 1,1 | 7,0 |

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует |
| 017 | длина усиков | 3 | короткие, до 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 7 | большая |
| 067 | форма пластинки листа | 1 | сердцевидная |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 7 | темно зеленный |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 1 | отсутствует или очень слабая |
| 075 | пузырчатость верхней поверхности пластинки | 1 | отсутствует или очень слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 5 | закрытая |
| 082 | форма [тип] верхних вырезок | 1 | открытая |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 3 | короче |
| 094 | форма верхних вырезок листа | 3 | маленькая |
| 103 | основная окраска о древесневшего побега | 2 | коричневатая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 7 | длинная, до 20 см |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 5 | средняя |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 6 | тупояйцевидная |
| 225 | окраска кожицы | 1 | зеленовато-желтая |
| 228 | толщина кожицы | 1 | очень тонкая |
| 230 | окраска мякоти | 1 | отсутствует |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная: |
| 234 | плотность мякоти | 2 | плотная |
| 235 | степень плотности мякоти | 1 | мягкая |
| 236 | особенности привкуса | 1 | без привкуса |
| 238 | длина плодоножки | 5 | средняя, до 10 мм |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 1 | отсутствуют |
| 243 | масса семени | - | - |
| 301 | время распускания почек | 5 | среднее: |
| 303 | начало созревания ягод | 3 | ранее |
| 304 | физиологическая зрелость ягод | 7 | среднее |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 5 | сильная |
| 453 | степень устойчивости к милдью гроздей | 5 | сильная |
| 455 | степень устойчивости к оидиуму листьев | 3 | низкая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 3 | низкая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 7 | высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 7 | высокое, приблизительно 21 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 3 | низкая |
| 604 | степень вызревания побегов, %: | 9 | очень высокая |
| 629 | продолжительность продукционного периода, дни | 6 | средне-позднее 140-1565 дней |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

**The ampelo-descriptive properties of the variety**

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 7 | large |
| 067 | Shape of the leaf | 1 | cordate |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 1 | flat |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 5 | closed |
| 082 | Shape of upper side sinus | 1 | open |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 3 | slightly shorter |
| 151 | Flower: sexual organs | - | |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Size of bunch (length + width) | 7 | long |
| 204 | Density of berries in the bunch | 5 | medium |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 5 | medium (about 14-18 mm); |
| 223 | form of berries: | 6 | obtuse ovoid |
| 225 | skin coloration | 1 | green yellow |
| 228 | Thickness of the skin in the berry | 1 | very thin |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 5 | medium (about 8-12 mm); |
| 241 | The ability of seeds in the berry to germination | 1 | none |
| 243 | Weight of seed | - | - |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 7 | high (about 13-16 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 7 | high (about 21-23 g/100 $sm^3$); |
| 506 | Acid content of must, q/$dm^3$ | 3 | low (about 4-6 g/$dm^3$); |
| 604 | Degree of maturity of shoots, % | 5 | medium (about 50,0-70,0%); |
| 629 | Time of vegetation till full ripening of crop | 6 | late ripening (161 -170 days) |

*Çubuqlarda mumyetişmə:* Çubuqların mumyetişməsi iyun ayının axırlarında başlayır. İlk şaxtalar düşənə kimi çubuqlarda mumyetişmə 89,0 %-ə çatır və 4 balla qiymətləndirilmişdir.

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Xəstəlik və ziyanvericilərə nisbətən dözümlüdür. Tənəklərdə və salxımlarda mildiuya 1-2 bal, oidiuma 0-1 bal, boz çürüməyə isə 0,1 % yoluxma olduğu müəyyənləşdirilmişdir. Salxım

yarpaqbükəni və giləqurduna yoluxma müşahidə edilməmişdir. Şaxtalara nisbətən dözümlüdür. Tənəklərin üzəri qış dövrü torpaq qatı ilə örtülən regionlarda qış dövrü tənəklərin üzəri torpaq qatı ilə örtülmədikdə, mənfi $21^0$C-dən aşağı şaxtalarda bar gözləri kütləvi məhv olur.

*Məhsulların keyfiyyət xüsusiyyəti:* Çox qiymətli kişmişi süfrə sortudur. Ən çox təzə halda yeyilir. Cəlbedici əmtəə görünüşü olduğu üçün, bazarlarda yaxşı qiymətə satılır, ona görə də iqtisadi səmərəliliyi yüksəkdir. Tam yetişməmiş məhsulundan keyfiyyətli abqora, yetişmiş məhsulundan isə mürəbbə, şirələr və quru kişmişi hazırlanır. Nəqliyyatla daşınmağa davamlıdır. Məhsulunu uzun müddət tənəkdə və sərin otaq şəraitində saxlamaq mümkündür.

*Klon və variasiyaları:* İki klonu aşkar edilmişdir.

AĞ KİŞMİŞİ

*Аг кишмиши – Ag kishmishi*

## DAŞ KİŞMİŞİ
## Даш кишмиши – Dash kishmishi

Azərbaycanın aborigen kişmişi üzüm sortudır. Abşeron, Salyan, Şamaxı, Cəlilabad Gəncə-Qazax, Naxşıvan MR-də yayılmışdır. Botaniki əlamətlərinə və aqrobioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) qrupuna daxildir.

*Sinonimi:* Bərk kişmişi.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri güclü inkişaf edir, kollanma güclüdür. Tənəklərdə zoğları yarımdik vəziyyətdə ətrafa yayılır. Yazda tənəklərdəki tumurcuqlardan yeni zoğların inkişafı 95,0 %-dən az olmur, məhsuldar zoğlar isə 41,5 %-ə qədərdir.

*Birillik zoğlar:* Tənəklərdəki normal inkişaf etmiş birillik zoğları müxtəlif uzunluqdadır (80,0-250,0 sm), onların da orta uzunluğu 214,0 sm-dir. Şpaler becərilmədə hər il kök boğazındakı yatmış tumurcuqlardan az miqdarda yeni zoğlar inkişaf edir. Tam mumyetişmiş zoğlarda buğumaraları açıq sarımtıl-ağ, buğumları isə açıq qəhvəyi rəngdədir.

*Yaşıl zoglar:* İnkişaf etməkdə olan yeni zoğların üzəri açıq-yaşıl rəngdədir. Zoğun tacı yaşıl rəngdə olmaqla üzəri çılpaqdır, Yenu zoğlarda 3-5-ci yarpaqların üzəri çılpaqdır. Təzə yarpaqların alt səthində ağ tükcüklər və damarlar üzərində qılçıqlar olmur, üzəri hamar, parlaq-yaşıl rənglidir.

*Yarpaq:* Tənəklərin orta yarusunda olan yarpaqları orta ölcülü, əsasən dairəvi formalıdır (uzunluğu 15-20 sm, eni 15-17 sm), səthi parlaq yaşıldır və kənarları azca yuxarı yönəlir. Yarpaq sahəsi 225,95 $sm^2$, indeksi 1,06, orta damarın uzunluğu 9,6 sm-ə çatır. Yarpaq ayasının səhti zəif dalğavarıdır, üzəri tünd-yaşıl rənglidir. Yarpagın alt səthində və damarlar üzərində az miqdarda tükcüklərə rast gəlinir. Yarpaqları üç və beşpəncəlidir. Yuxarı yan kəsikləri dayazdır, açıq formalıdır. Aşağı yan kəsikləri çox halda dayaz formada olmaqla, itibucaqşəkillidir. Bəzən yuxarı kəsiyi orta dərinlikdə, açıq formada, liraşəkillidir. Yarpaq pəncələrinin ucundakı dişciyi uzundur, enli oturacaqlıdır, kənar dişcikləri isə müxtəlif ölcülü olmaqla, xırda mişardişlidir. Xəzan dövrü yarpaqları sarımtıl rənglənir.

*Saplaq:* Saplağın üzəri yaşımtıl-sarı rənglidir, uzunluğu 9,0-10,8 sm-dir. Saplaq oyuğu əsasən açıq formalıdır, ensiz tağlıdır, bəzən qapalı, ensiz oval kəsiklidir. Qapalı, ensiz ellips kəsiyi olan formalara da rast gəlinir. Saplağın uzunluğu əsasən orta damarın ölçüsünə bərabərdir.

*Çiçək:* İkicinsli çiçək qrupuna malikdir. Erkəkcik saplağı uzundur (uzunluğu 17-21 sm, eni 8,5-11,5 sm-dir) Tozluqlar uzunsov zəif oval şəkillidir, yumurtalığı isə üst formalı olmaqla, yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi 93,0 - 94,0 %-dir.

*Salxım:* Xarakterik salxımları konusvari, qanadlı-konusvari formalarda olur. Salxımları müxtəlif kütlə və ölçülərə malik olmaqla (uzunluğu 14,0-17,5 sm, eni 9.0-11,0 sm), orta uzunluğu 15,0 sm, eni isə 10,0 sm-dir. Salxım saplağı 6-8 sm-dir, bəzi salxımlarda üzümün yetişmə dövründə saplaq odunlaşır.

*Gilə:* Salxımda gilələr sıx yerləşməklə, orta irilikdədir, gilə\ərinin uzunluğu 11-13 mm, eni 10-12 mm arasında dəyişir. Gilələr bərkdir, əsasən girdə-oval formalıdır, sıxgiləlәi salxımlarda isə tərsyumurtaşəkillidir. Gilələri yaşılımtıl rəngdə olur, günəş düşən nahiyələrinin üzərində bəzən tünd qəhvəyi ləkələr olur. Kölgə yerlərdə gilələrinin rəngi açıq göyümtül rəngdədir. Gilələrin qabığı nazikdir, lətli hissədən çətin ayrılır. Gilələrdə toxumların rudiment başlanğıcları olsa da inkişaf etmirlər.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya müddəti:* Orta-tez yetişən kişmişi üzüm sortudur. Tumurcuqların açılması aprel ayının birinci ongünlüyündə, çiçəkləmə iyunun 10-15-də başlayır. Məhsulu isə avqust ayının üçüncü ongünlüyündə tam yetişir. Vegetasiya müddəti çiçəkləməyə qədər 59 gün, məhsulun tam yetişməsinə qədər 135-140 gün davam edir. Məhsulun tam yetişkənliyə çatması üçün 2520-2620$^0$C aktiv temperatur sərf olunur.

*Məhsuldarlığı:* Şpaler sistemi ilə becərilmədə (2,5 x 1,5 m) orta məhsuldar sortdur. Barlı zoğların miqdarı 42-47 %; bar əmsalı 0,42-0,56; məhsuldarlıq əmsalı 0,78-0,82; salxımın sayı 11-18 ədəd arasında dəyişir. Salxımlarının kütləsi 240-350 qr, tənəyin məhsuldarlığı 3,5-5,5 kq, hektardan məhsuldarlıq 70,6-120,0 s/ha arasında tərəddüd edir. Giləsində şəkərlilik tam yetişdikdə 18,0-20,2 q/100sm$^3$, titrlənən turşuluq 4,8-5,4 q/dm$^3$ arasında tərəddüd edir.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır..

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует |
| 017 | длина усиков | 3 | короткие, до 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 3 | светло-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 075 | пузырчатость верхней поверхности пластинки | 3 | слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 5 | закрытая |
| 082 | форма [тип] верхних вырезок | 3 | лопасти слегка перекрываются |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 3 | средняя |
| 103 | основная окраска одревеснevшего побега | 1 | желтая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 5 | средняя, до 16 см |
| 204 | плотность грозди: | 7 | плотная |
| 206 | длина ножки грозди | 5 | средняя |
| 207 | одревеснение ножки грозди | 1 | слабое, только у основания |
| 220 | размер ягоды | 3 | короткая, до 13 мм |
| 223 | форма ягод: | 3 | короткоэллиптическая |
| 225 | окраска кожицы | 1 | зеленовато-желтая |
| 228 | толщина кожицы | 3 | тонкая |
| 230 | окраска мякоти | 1 | отсутствует |
| 232 | сочность мякоти | 2 | средней сочности |
| 234 | плотность мякоти | 2 | плотная |
| 235 | степень плотности мякоти | 1 | мягкая |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 3 | короткая, до 7 мм |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 1 | отсутствуют |
| 243 | масса семени | - | |
| 301 | время распускания почек | 3 | раннее |
| 303 | начало созревания ягод | 5 | среднее |
| 304 | физиологическая зрелость ягод | 5 | средняя |
| 351 | сила роста побега | 5 | средняя, 1,3–2,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 5 | средняя |
| 453 | степень устойчивости к милдью гроздей | 5 | средняя |
| 455 | степень устойчивости к оидиуму листьев | 5 | средняя |
| 456 | степень устойчивости к оидиуму гроздей | 5 | средняя |
| 458 | степень устойчивости к серой гнили листьев | 7 | высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 7 | высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 5 | средняя |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 $см^3$: | 5 | среднее, приблизительно 18 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | сильная |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая |
| 629 | продолжительность продукционного периода, дни | 5 | среднего (136-145 дней) |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 3 | сильная |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | сильная |

**The ampelo-descriptive properties of the variety**

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 3 | involute |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 3 | open |
| 082 | Shape of upper side sinus | 3 | slightly overlapped |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Size of bunch (length + width) | 5 | medium |
| 204 | Density of berries in the bunch | 7 | dense |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 3 | short (about 7-13 mm) |
| 223 | form of berries: | 3 | broad ellipsoid |
| 225 | skin coloration | 1 | green yellow |
| 228 | Thickness of the skin in the berry | 3 | short (about 4-8 mm) |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 3 | short (about 4-8 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 1 | none |
| 243 | Weight of seed | - | |
| 351 | Power growth on the shoot | 5 | medium (about 1,3-2,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 5 | medium (about 9-12 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 5 | medium (about 18-20 g/100$sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 5 | medium (about 7-9 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | high (about70,0-95,0%) |
| 629 | Time of vegetation till full ripening of crop | 5 | medium late ripening (v.p. 151-160 days) |

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Xəstəlik və ziyanvericilərə nisbətən dözümlüdür. Daha çox mildiu xəstəliyinə yoluxur. Tənəklərdə mildiuya 1-2 bal, oidiuma 2-3 bal, salxımlarda mildiuya və oidiuma 2-3 ball yoluxma qeydə alınmışdır. Boz çürüməyə isə yoluxma 0,2 %, inkişaf intensivliyi isə 0,3 % olduğu müəyyənləşdirilmişdir. Salxım yarpaqbükəni və gilə qurduna yoluxma müşahidə edilməmişdir. Şaxtalara nisbətən dözümlüdür. Mənfi $21^0$C-dən aşağı şaxtalarda tənəklərdəki tumurcuqları kütləvi məhv olur.

*Çubuqlarda mumyetişmə:* Tənəklərə şpaler becərilmə sistemində quru budanma zamanı maili kordon və ştambsız çoxqollu yelpik forması verildikdə, ilk şaxtalar düşənə kimi çubuqlarda mumyetişmə 85,5-90,0 %-ə çatır. Çubuqların mumyetişməsi iyun ayının əvvələrindən başlayır. Birillik çubuqların mumyetişməsi 4 balla qiymətləndirilmişdir.

*Məhsullarının keyfiyyət xüsusiyyəti:* Çox qiymətli kişmişi sortudur. Ən çox təzə halda yeyilir. Yeyildikdə xırçıldayır. Salxımları çox xoşagələn əmtəəli görünüşünə malikdir. Məhsulundan keyfiyyətli abqora, yetişmiş məhsulundan isə müxtəlif şirələr, yüksək keyfiyyətli quru kişmişi hazırlanır. Nəqliyyatda daşınmağa çox davamlıdır. Uzun müddət xarab olmadan tənəkdə və otaq şəraitində saxlamaq münkündür.

*Klon və variasiyaları:* Müşahidə olunmamışdır.

*DAŞ KİŞMİŞİ*
*Даш кишмиши – Dash kishmishi*

# ƏSGƏRİ
## Аскери – Asgari

Naxçıvan MR-də qədimdən becərilən yerli üzüm sortudur. Abşeronda, Azərbaycanın digər regionlarında, həmçinin Orta Asiya Respublikalarında, Gürcüstanda yayılmışdır. Naxçıvan Muxtar Respublikasından Ermənistana aparılaraq orada *Nazeli* adı ilə becərilir. Naxçıvan MR-in standart kişmişi sortları qrupuna daxildir. Morfoloji əlamətlərinə və bioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) qrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri müxtəlif torpaq tipi olan ərazilərdə, xüsusilə qara, şabalıdı karbonatlı torpaqlarda orta inkişaf xüsusiyyətinə malikdir. Yaxşı kollanır, zoğları yarımdik vəziyyətdə inkişaf edirlər. Ştambsız çoxqollu yelpik forma verildikdə daha çox məhsuldar olur. Yazda tumurcuqların açılması 94,0 %, məhsuldar zoğları isə 35,2 % təşkil edir.

*Birillik zoğlar:* Tənəklərində müxtəlif uzunluqda birillik zoğları olur. Birillik zoğlarının orta uzunluğu 120,5 sm-ə çatır. Bəzi zoğların, həmçinin kök boğazındakı yatmış tumurcuqlardan inkişaf edən birillik zoğların uzunluğu 250-300 sm-ə çatır. Buğumaraları nisbətən qısadır. Çubuqları buğumaralarında açıq sarı-qəhvəyi, buğumları isə açıq qəhvəyi rəngdədir. Üzərində tək-tək tünd qəhvəyi rəngli ləkə və qısa zolaqlar olur.

*Yaşıl zoglar:* Tənəklərdə inkişaf etməkdə olan yeni zoğlar açıq-yaşıl rəngdədir. Yeni zoğların tacı və 3-5-ci yarpaqların üzəri çılpaq və hamardır. Yeni açılmış yarparların alt səthində ağ tükcüklərə və damarlar üzərində xırda qılçıqlara rast gəlinmir. Yeni yarpaqların üzəri açıq-yaşıl rənglidir.

*Yarpaq:* Yarpaqları əsasən dairəvi formalıdır (uzun. 13,6 sm, eni 13,5 sm), yarpaq indeksi 1,00, səthi parlaq açıq-yaşıl rənglidir, kənarları çox yuxarı yönəlmiş formadadır. Yarpaq sahəsi 107,55 $sm^2$, orta damarın uzunluğu 9,8 sm-dir. Yarpagın alt səthində ağ rəngli torabənzər tükcüklərə və damarlar üzərində xırda qılçıqlara rast gəlinmir. Yarpaqları beş, bəzən yeddipəncəlidir. Dərin yan kəsiklidir. Yuxarı yan kəsiyi əsasən qapalı, ensiz kəsikli, iti diblidir. Aşağı yan kəsikləri dərin, bəzən orta dərinlikdə, əsasən açıq, ensiz liraşəkilli, iti diblidir. Pəncələrin ucundakı dişciyi uzun, enli oturacaqlıdır, kənar dişcikləri müxtəlif ölcüdə, mişardişli formalıdır. Xəzan dövründə yarpaqları saralır.

*Saplaq:* Yarpaqların saplağı yaşımtıl-göy rənglidir. Orta damardan nisbətən qısadır, orta uzunlugu (5,5-8,5 sm) 7,2 sm-dir. Saplaq oyuğu əsasən açıq, ensiz tağlı, iti diblidir.

*Çiçək:* İkicinsli çiçək qrupuna malikdir. Erkəkcik saplağı uzundur. Tozluqlar uzunsov oval şəkillidir, yumurtalığı isə üst formalıdır və yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi 92,5 %-dir.

*Salxım:* Salxımların formaları və çəkiləri çox müxtəlifdir. Sort üçün xarakterik olan salxımları qanadlı-konusvari, qanadlı-silindrik formalardadır, orta uzunluğu 16,5 sm, eni isə 9,0 sm-dir Gilələri tozlanmadan asılı olaraq orta seyrəklikdə və ya sıx yerləşir. Saplağı 4-7 sm-dir, bəzi salxımlarda məhsulun yetişmə dövründə saplaq odunlaşır. Salxımda daraq 3,7 % təşkil edir.

*Gilə:* Salxımda gilələr orta irilikdədir, uzunluğu (13,0-19,0 mm) 16,0 mm, eni (12,0-15,0 mm ) 13,0 mm-dir. Əsasən uzunsov oval formada olub, göyümtül-mavi rənglidir. Kölgə yerlərdə gilələrin rəngi açıq göyümtül, günəş düşən nahiyələri isə qızarmış şəkildə olur. Qabığı nazikdir, lətli hissədən çətin ayrılır, saplaqdan asanlıqla qopurlar, özünəməxsus dada, keyfiyyətə və yüksək əmtəə görünüşünə malikdir. Hər bir gilədə toxumların rudiment başlanğıcı olur.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya müddəti:* Orta vaxtda yetişən süfrə üzüm sortudur. Məhsulu sentyabr ayının əvvəllərində tam fizioloji yetişkənliyə çatır. Vegetasiya müddəti çiçəkləməyə qədər 58-62 gün, məhsulun tam yetişməsinə qədər isə 135-145 gün davam edir. Məhsulun tam yetişkənliyə çatması üçün 2950- 3150$^0$C aktiv temperatur sərf olunur.

**Əsas fenoloji fazaların gedişi**

| İllər | Tumurcuqların açılması | | Çiçəkləmə | | Meyvələrin yetişməsi | | Tumurcuqların açılmasından, gün | | Xəzan |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | çiçəkləməyə qədər | meyvələrin yetişməsinə qədər | |
| 2006 | 10.04 | 42 | 15.06 | 8 | 12.09 | 41 | 64 | 145 | 12.11 |
| 2008 | 09.04 | 46 | 18.06 | 7 | 14.09 | 37 | 58 | 138 | 12.11 |
| 2009 | 10.04 | 44 | 14.06 | 8 | 18.09 | 43 | 65 | 145 | 17.11 |
| 2010 | 13.04 | 56 | 17.06 | 7 | 15.09 | 35 | 62 | 141 | 09.11 |

*Məhsuldarlığı:* Çox məhsuldar sortdur. Toxum sistemi ilə becərilmədə bir tənəkdən orta məhsuldarlıq 10,0-15,0 kq, şpaler sistemi ilə becərilmədə (2,5 x 1,5 m) isə 8,0-12,0 kq-a çatır. Talvar sistemi ilə becərilmədə hətta bir yaşlı tənəkdən 35,0-50,0 kq üzüm məhsulu toplanılır. Salxımlarda xırdagilələlik müşahidə olunmur. Bir hektardan orta məhsuldarlıq 65-80 bar yükündə 330-340 sentnerdən çox olur.

**Əsas məhsuldarlıq göstəriciləri**

| Salxımın orta kütləsi, q | Salxımda gilələrin sayı, ədəd | 100 gilənin kütləsi, q | Gilədə, % | | ümumi şirə əlxımı, % | Şirədə | | Məhsuldarlıq əmsalı | | Bir tənəkdə məhsuldarlıq, kq |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | qabıq | toxum | | şəkərliliyi, q/ 100 $sm^3$ | turşuluğu, q/ $dm^3$ | tənəkdə | barlı zoğlarda | |
| 334,0 | 105,0 | 181,0 | 6,5 | - | 79,5 | 21,0 | 5,0 | 0,60 | 1,7 | 12,0 |

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует |
| 017 | длина усиков | 3 | короткие, до 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 2 | клиновидная |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 3 | светло-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 1 | отсутствует или очень слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 3 | открытая |
| 082 | форма [тип] верхних вырезок | 1 | открытая |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 3 | короче |
| 094 | форма верхних вырезок листа | 3 | маленькая |
| 103 | основная окраска одревесневшего побега | 2 | коричневатая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 5 | длинная, до 20 см |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 3 | короткая, |
| 207 | одревеснение ножки грозди | 3 | слабое, только у основания |
| 220 | размер ягоды | 3 | короткая, до 13 мм |
| 223 | форма ягод: | 5 | цилиндрическая |
| 225 | окраска кожицы | 1 | зеленовато-желтая |
| 228 | толщина кожицы | 1 | очень тонкая |
| 230 | окраска мякоти | 1 | отсутствует |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная: |
| 234 | плотность мякоти | 2 | плотная |
| 235 | степень плотности мякоти | 1 | мягкая |
| 236 | особенности привкуса | 4 | травянистый |
| 238 | длина плодоножки | 7 | длинная, до 13 мм |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 1 | отсутствуют |
| 243 | масса семени | - | |
| 301 | время распускания почек | 5 | среднее: |
| 303 | начало созревания ягод | 3 | ранее |
| 304 | физиологическая зрелость ягод | 5 | среднее |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 3 | низкая |
| 453 | степень устойчивости к милдью гроздей | 5 | сильная |
| 455 | степень устойчивости к оидиуму листьев | 3 | низкая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 3 | низкая |
| 458 | степень устойчивости к серой гнили листьев | 3 | низкая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 3 | очень низкая и низкая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 9 | очень высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 7 | высокое, приблизительно 21 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 3 | низкая |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая |
| 629 | продолжительность продукционного периода, дни | 6 | средне-позднее 140-1565 дней |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

**The ampelo-descriptive properties of the variety**

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 2 | wedge-shaped |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 3 | involute |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 3 | open |
| 082 | Shape of upper side sinus | 1 | open |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 3 | slightly shorter |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Size of bunch (length + width) | 7 | long |
| 204 | Density of berries in the bunch | 5 | medium |
| 206 | Length of the peduncle of the bunch | 3 | short |
| 220 | Size of berry (length + width) | 3 | short (about 7-13 mm) |
| 223 | form of berries: | 5 | cylindric |
| 225 | skin coloration | 1 | green yellow |
| 228 | Thickness of the skin in the berry | 1 | very thin |
| 236 | Berry: particular flavor | 4 | herbaceous |
| 238 | Length of the bunch stalk | 5 | medium (about 8-12 mm); |
| 241 | The ability of seeds in the berry to germination | 1 | none |
| 243 | Weight of seed | - | |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 9 | very high (about 17 s/ha and more) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 7 | high (about 21-23 g/100 $sm^3$); |
| 506 | Acid content of must, q/$dm^3$ | 3 | low (about 4-6 g/$dm^3$); |
| 604 | Degree of maturity of shoots, % | 7 | high (about70,0-95,0%); |
| 629 | Time of vegetation till full ripening of crop | 6 | late ripening (161 -170 days) |

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Xəstəlik və ziyanvericilərə qarşı az dözümlüdür. Daha çox mildiu xəstəliyinə yoluxur. Tənəklərdə və salxımlarda mildiuya və oidiuma 3-4 bal yoluxma qeydə alınmışdır. Qış dövrü mənfi $19^0$C-dən aşağı şaxtalarda tənəklərdəki bar gözləri kütləvi məhv olur.

*Çubuqlarda mumyetişmə*: Çubuqların mumyetişməsi iyun ayının ortalarından başlayır. Sortun birillik çubuqlarında ilk şaxtalar düşənə qədər mumyetişmə 84,0 %-ə yüksəlir və 4 balla qiymətləndirilmişdir.

*Məhsullarının keyfiyyət xüsusiyyəti:* Çox qiymətli kişmişi süfrə sortudur. Ən çox təzə halda yeyilir. Cəlbedici əmtəə görünüşü olduğundan və bazarlarda yaxşı qiymətə satıldığından iqtisadi səmərəliliyi yüksəkdir. Tam yetişmiş məhsulundan yüksək keyfiyyətli səbzə və quru kişmiş hazırlanır. Məhsulu nəqliyyatla daşınmağa davamsızdır.

*Klon və variasiyaları:* Naxçıvan MR ərazisində seyrək və sıx giləli salxımlara malik olan 2 variasiyası yayılmışdır.

ƏSGƏRİ

*Аскери – Asgari*

## XIRÇA KİŞMİŞİ
## Хырча кишмиши – Khyrcha kishmishi

Azərbaycanın aborigen üzüm sortlarındandır. Abşeron, Salyan, Şamaxı, Cəlilabad Gəncə-Qazax rayonlarında yayılmışdır. Morfoloji əlamətlərinə və aqro-bioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) qrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri çox güclü inkişaf edir, kollanma da güclüdür, zoğları yarımdik vəziyyətdə ətrafa yayılırlar. Yazda tənəklərdəki tumurcuqlardan yeni zoğların inkişafı 93,0 %-dən az olmur, məhsuldar zoğlar isə 51,5 %-dən çoxdur.

*Birillik zoğlar:* Tənəklərdəki birillik zoğlar müxtəlif uzunluqdadır (50,0-230,0 sm), onların da orta uzunluğu 204,5 sm-dir. Şpaler becərilmədə hər il kök boğazındakı yatmış tumurcuqlardan çoxlu miqdarda yeni zoğlar inkişaf edir. Zoğlarda buğumaraları açıq sarımtıl-ağ, buğumları isə açıq qəhvəyi rəngdədir.

*Yaşıl zoglar:* İnkişaf etməkdə olan yeni zoğlar açıq-yaşıl rəngdədir. Zoğun tacı yaşıl rəngdə olub çılpaqdır, Yenu zoğlarda 3-5-ci yarpaqların üzəri çılpaqdır. Təzə yarpaqların alt səthində ağ tükcüklər və damarlar üzərində qılçıqlar olmur, üzəri hamar, parlaq-yaşıl rənglidir.

*Yarpaq:* Tənəklərin orta yarusundan toplanılmış yarpaqları iri ölcülü, əsasən dairəvi formalıdır (uzunluğu 14-18 sm, eni 13-17 sm), səthi parlaq yaşıldır və kənarları yuxarı yönəlir. Yarpaq sahəsi 202,90 $sm^2$, indeksi 1,00, orta damarın uzunluğu 9,2 sm-ə çatır. Yarpag ayasının səhti zəif dalğavarıdır, tünd-yaşıl rəngdədir. Yarpagın alt səthində və damarlar üzərində zəif tükcüklərə rast gəlinir. Yarpaqları beşpəncəlidir. Yuxarı yan kəsikləri dayazdır, açıq formalıdır. Aşağı yan kəsikləri çox halda dayaz, itibucaqşəkillidir, bəzən orta dərinlikdə, açıq formada, liraşəkillidir. Yarpaq pəncələrinin ucundakı dişciyi uzundur, enli oturacaqlıdır, kənar dişcikləri isə müxtəlif ölcülü, xırda mişardişlidir. Xəzan dövründə yarpaqları açıq-sarımtıl rənglənir.

*Saplaq:* Saplağı yaşımtıl-sarı rənglidir, uzunluğu 8,0-10,5 sm-dir. Saplaq oyuğu əsasən açıqdır, ensiz tağlıdır, bəzən qapalı, ensiz oval kəsiklidir. Qapalı, ensiz ellips kəsikli formalara da rast gəlinir. Saplağın uzunluğu orta damarın ölçüsünə bərabərdir.

*Çiçək:* İkicinsli çiçək qrupuna malikdir. Erkəkcik saplağı uzundur (uzunluğu 16-22 sm, eni 8-12 sm-dir) Tozluqlar uzunsov oval şəkillidir, yumurtalığı isə üst formalı olmaqla, yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi 93,0 - 95,0 %-dir.

*Salxım:* Xarakterik salxımları konusvari, qanadlı-konusvari formalarda olur. Salxımları müxtəlif kütlə və ölçülərə malik olmaqla (uzunluğu 14,0-17,5 sm, eni 9.0-11,0 sm), orta uzunluğu 15,0 sm, eni isə 10,0 sm-dir. Salxım saplağı 6-8 sm-dir, bəzi

salxımlarda üzümün yetişmə dövründə saplaq zəif odunlaşır.

*Gilə:* Salxımda gilələr sıx və ya çox sıx yerləşməklə, xırda giləlidir, uzunluğu 11-14 mm, eni 10-13 mm arasında dəyişir. Gilələr bərkdir, əsasən girdə-oval formalıdır, sıxgiləlәi salxımlarda isə tərsyumurtaşəkillidir. Gilələri sarımtıl-yaşıl, günəş düşən nahiyələri isə üzərində tünd qıhvəyi ləkələr olur. Kölgə yerlərdə gilələrinin rəngi açıq göyümtül-sarı rəngdədir. Gilələrin qabığı nazikdir, lətli hissədən çətin ayrılır. Gilələrdə toxumların rudiment başlanğıcları olsa da inkişaf etmirlər.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya müddəti:*Orta-tez yetişən üzüm sortudur. Tumurcuqların açılması aprel ayının ikinci ongünlüyündə, çiçəkləmə iyunun 9-15-də başlayır. Məhsulu isə avqust ayının ikinci ongünlüyündə tam yetişir. Vegetasiya müddəti çiçəkləməyə qədər 57 gün, məhsulun tam yetişməsinə qədər 130-138 gün davam edir. Məhsulun tam yetişkənliyə çatması üçün 2500-2600$^0$C aktiv temperatur sərf olunur.

*Məhsuldarlığı:* Şpaler sistemi ilə becərilmədə (2,5 x 1,5 m) yüksək məhsuldar sortdur. Barlı zoğların miqdarı 52-58%; bar əmsalı 0,52-0,66; məhsuldarlıq əmsalı 0,86-0,92; salxımın sayı 14-22 ədəd arasında dəyişir. Salxımlarının kütləsi 140-230 qr, tənəyin məhsuldarlığı 3,6-6,0 kq, hektardan məhsuldarlıq 80,6-130,2 s/ha arasında tərəddüd edir. Giləsində şəkərlilik 16,0-19,2 q/100sm$^3$, titrlənən turşuluq 4,8-6,4 q/dm$^3$ arasında tərəddüd edir.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует |
| 017 | длина усиков | 3 | короткие, до 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 7 | большая |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 5 | средне-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 1 | отсутствует или очень слабая |
| 075 | пузырчатость верхней поверхности пластинки | 3 | слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 079 | форма черешковой выемки | 3 | открытая: |
| 082 | форма [тип] верхних вырезок | 1 | открытая |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 3 | маленькая |
| 103 | основная окраска одревесневшего побега | 1 | желтая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 5 | средняя, до 16 см |
| 204 | плотность грозди: | 7 | плотная |
| 206 | длина ножки грозди | 5 | средняя |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 3 | короткая, до 13 мм |
| 223 | форма ягод: | 3 | короткоэллиптическая |
| 225 | окраска кожицы | 1 | зеленовато-желтая |
| 228 | толщина кожицы | 1 | очень тонкая |
| 230 | окраска мякоти | 1 | отсутствует |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная: |
| 234 | плотность мякоти | 2 | плотная |
| 235 | степень плотности мякоти | 1 | мягкая |
| 236 | особенности привкуса | 4 | травянистый |
| 238 | длина плодоножки | 5 | средняя, до 10 мм |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 1 | отсутствуют |
| 243 | масса семени | - | |
| 301 | время распускания почек | 5 | среднее: |
| 303 | начало созревания ягод | 3 | ранее |
| 304 | физиологическая зрелость ягод | 3 | ранняя |
| 351 | сила роста побега | 5 | средняя, 1,3–2,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 5 | средняя |
| 453 | степень устойчивости к милдью гроздей | 5 | средняя |
| 455 | степень устойчивости к оидиуму листьев | 5 | средняя |
| 456 | степень устойчивости к оидиуму гроздей | 5 | средняя |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 7 | высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 5 | среднее, приблизительно 18 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | сильная |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая |
| 629 | продолжительность продукционного периода, дни | 6 | средне-позднее 140-1565 дней |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

**The ampelo-descriptive properties of the variety**

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 7 | large |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 1 | flat |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 3 | open |
| 082 | Shape of upper side sinus | 1 | open |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Size of bunch (length + width) | 5 | medium |
| 204 | Density of berries in the bunch | 7 | dense |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 3 | short (about 7-13 mm) |
| 223 | form of berries: | 3 | broad ellipsoid |
| 225 | skin coloration | 1 | green yellow |
| 228 | Thickness of the skin in the berry | 1 | very thin |
| 236 | Berry: particular flavor | 4 | herbaceous |
| 238 | Length of the bunch stalk | 5 | medium (about 8-12 mm); |
| 241 | The ability of seeds in the berry to germination | 1 | none |
| 243 | Weight of seed | - | - |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 7 | high (about 13-16 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 5 | medium (about 18-20 g/100$sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 3 | low (about 4-6 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | high (about70,0-95,0%) |
| 629 | Time of vegetation till full ripening of crop | 6 | late ripening (161 -170 days) |

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Xəstəlik və ziyanvericilərə nisbətən dözümlüdür. Daha çox mildiu xəstəliyinə yoluxur. Tənəklərdə mildiuya 2-3 bal, oidiuma 2-3 bal, salxımlarda mildiuya 2-3 bal, oidiuma 3-4 ball yoluxma qeydə alınmışdır. Boz çürüməyə isə yoluxma 0,2 %, inkişaf intensivliyi isə 0,4 % olduğu müəyyənləşdir

.

XIRÇA KİŞMİŞİ

*Хырча кишмиши - Khyrcha kishmishi*

## XIRDAGİLƏ SARI KİŞMİŞİ
## Хырдагиля сары кишмиши – Khyrdagile sary kishmishi

Naxçıvan MR-in az yayılan yerli kişmişi sortudur. Abşeronda və digər üzüm becərilən ərazilərdə rast gəlinir. Sortun adı onun gilələrinin xırda olması ilə şərtlənir. Ağ kişmişi sortundan təbii yolla klon seleksiyası nəticəsində yarandığı ehtimal edilir. Morfoloji əlamətlərinə və aqrobioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) ekoloji-coğrafi qrupuna daxildir.

*Sinonimi*: Qeyd olunmamışdır.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri güclü inkişafetmə xüsusiyyətinə malikdir. Kollanma güclüdür, zoğları yarımdik vəziyyətdə inkişaf edir. Tənəklərə quru budanma dövrü ştambsız yelpik və mailli kordon formaları verilir. Yaz dövrü tənəklərdə tumurcuqların açılması ən azı 90,5 %, məhsuldar zoğlar isə 55,2 % təşkil edir.

*Birillik zoğlar:* İnkişaf xüsusiyyətlərinə görə birillik zoğların orta uzunluğu 187,0 sm-ə çatır. Çubuqlarda buğumaraları sarımtıl-qəhvəyi, buğumlarda isə açıq-qəhvəyi rənglidir.

Yaşıl zoğlar: Yazda yeni inkişaf etməkdə olan zoğları açıq-yaşıl rəngdədir. Zoğun tacı və 3-5-ci yarpaqların üzəri çılpaq və hamardır. Yeni açılmış yarparların alt səthində ağ tükcüklərə və damarlar üzərində qılçıqlara rast gəlinmir. İlk yarpaqların üzəri hamar, parlaq-yaşıl rənglidir. Zoğun yoğunlaşmış hissəsi isə açıq yaşılımtıl rəngdədir.

*Yarpaq:* Yarpaqları əsasən dairəvi formadadır (uzun. 17,0 sm, eni 16,5 sm), yarpaq indeksi 1,00, səthi parlaq yaşıl, kənarları azca yuxarı yönəlir. Yarpaq sahəsi 134,96 $sm^2$, orta damarın uzunluğu 8,7 sm-ə çatır. Yarpağın alt səthində, ağ rəngli torabənzər tükcüklərə və damarlar üzərində xırda qılçıqlara rast gəlinmir. Yarpaqları beşpəncəlidir, yuxarı yan kəsiyi əsasən dərin, ensiz liraşəkilli, bəzən ensiz kəsiklidir. Yan kəsiyi dayaz, itibucaq kəsikli yarpaqlara da rast gəlinir. Pəncələrin ucundakı dişciyi uzun, enli oturacaqlı, kənar dişcikləri isə xırda, mişardişli formalıdır.

*Saplaq:* Yarpaqların saplağı yaşılımtıl-göy rənglidir. Orta damardan nisbətən qısadır və uzunlugu 7,0-8,5 sm-dir. Saplaq oyuğu əsasən qapalı, ensiz oval kəsiklidir, bəzən açıq, ensiz tağlı oyuğu olan yarpaqlara da rast gəlinir.

*Çiçək:* İkicinsli sıx çiçək qrupuna malikdir. Erkəkcik saplağı uzundur. Tozluqlar uzununa ovalşəkilli, yumurtalığı isə üst formalıdır, yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi 93,2-95,0 %-dir.

*Salxım:* Salxımların formaları və çəkiləri çox müxtəlifdir. Xarakterik salxımları qanadlı-konusvari, qanadlı-silindrik, ucu haçalanmış formalardadır. Salxımların orta uzunluğu (uzun. 16,0-22,1 sm, eni 12-15,0 sm) 20,5 sm, eni isə 14,0 sm-dir. Daraq

üzərində gilələri sıx yerləşir. Salxım saplağı 5,0-7,0 sm-dir, bəzi salxımlar məhsulun yetişmə dövründə saplaq odunlaşır.

*Gilə:* Salxımda gilələr orta irilikdə olmaqla, diametri 11,5 mm-dir. Gilələri kürəşəkillidir, bərkdir, qabığı ağımtıl-mavi rənglidir. Kölgə yerlərdə gilələrin rəngi açıq-göyümtül olur. Qabığı nazik olmaqla, lətli hissədən çətin ayrılır. Hər bir gilədə toxumların rudimgent başlanğıcı olur. Özünəməxsus dada və keyfiyyətə malikdir.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya müddəti:* Orta-tez yetişən kişmişi üzüm sortudur. Məhsulu sentyabr ayının əvvələrində tam fizioloji yetişkənliyə çatır. Vegetasiya müddəti çiçəkləməyə qədər 58-62 gün, məhsulun tam yetişməsinə qədər isə 146-152 gün davam edir. Məhsulun tam yetişkənliyə çatması üçün 2700-2850$^0$C aktiv temperatur sərf olunur.

**Əsas fenoloji fazaların gedişi**

| İllər | Tumurcuqların açılması | | Çiçəkləmə | | Meyvələrin yetişməsi | | Tumurcuqların açılmasından, gün | | Xəzan |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | çiçəkləməyə qədər | meyvələrin yetişməsinə qədər | |
| 2004 | 12.04 | 6 | 15.06 | 8 | 09.09 | 35 | 28 | 138 | 14.11 |
| 2006 | 09.04 | 5 | 09.06 | 7 | 15.09 | 36 | 54 | 132 | 16.11 |
| 2010 | 14.04 | 6 | 10.06 | 8 | 10.09 | 32 | 57 | 135 | 12.11 |
| 2014 | 09.04 | 7 | 07.06 | 7 | 12.09 | 31 | 52 | 133 | 10.11 |

*Məhsuldarlığı:* Orta məhsuldar sortdur. Çoxqollu ştambsız yelpik forması verildikdə, şpaler sistemi ilə becərilmədə s(2,5 x 1,5 m) bir tənəkdən orta məhsuldarlıq 6,0-8,5 kq-a yüksəlir. Tənəklərdə 60-80 bar yükündə bir hektardan orta məhsuldarlıq 220-250 sentnerə çatır. Talvar sistemi ilə becərilmədə bir tənəkdən 13,0-18,0 kq, yaşlı tənəklərdən isə hətta 50,0-70,0 kq məhsul toplamaq mümkündür. Gilələrdə ümumi şirə çıxımı 85,0-86,5 %, şəkərliliyi 21,0-23,5 q/100 sm$^3$, turşuluğu 3,0-4,3 q/dm$^3$ olmuşdur. Salxımlarda 1,5-6,2 % xırdagilələlik müşahidə olunur. Məhsulu çox xoşagələm əmtəə görünüşünə malik olmaqla, nəqliyyatda daşınmağa davamlıdır. Uzun müddət xarab olmadan tənəkdə və sərin otaq şəraitində saxlanıla bilər.

**Əsas məhsuldarlıq göstəriciləri**

| Salxımın orta kütləsi, q | Salxımda gilələrin sayı, ədəd | 100 gilənin kütləsi, q | Gilədə, % | | ümumi şirə əixımı, % | Şirədə | | Məhsuldarlıq əmsalı | | Bir tənəkdə məhsuldarlıq, kq |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | qabıq | toxum | | şəkərliliyi, q/ 100 sm$^3$ | turşuluğu, q/ dm$^3$ | tənəkdə | barlı zoğlarda | |
| 310,0 | 272,0 | 110,0 | 4,1 | - | 86,5 | 23,0 | 3,8 | 0,51 | 1,1 | 7,5 |

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır. Ampeloqrafiq tədqiqatların nəticələri aşağıda verilmişdir.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения намеждоузлиях | 1 | отсутствует |
| 017 | длина усиков | 3 | короткие, до 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 7 | большая |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 5 | зеленный |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 1 | отсутствует или очень слабая |
| 075 | пузырчатость верхней поверхности пластинки | 1 | отсутствует или очень слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 5 | закрытая |
| 082 | форма [тип] верхних вырезок | 1 | открытая |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 3 | короче |
| 094 | форма верхних вырезок листа | 3 | маленькая |
| 103 | основная окраска одревесневшего побега | 2 | коричневатая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 7 | длинная, до 20 см |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 5 | средняя |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 6 | тупояйцевидная |
| 225 | окраска кожицы | 1 | зеленовато-желтая |
| 228 | толщина кожицы | 1 | очень тонкая |
| 230 | окраска мякоти | 1 | отсутствует |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная |
| 234 | плотность мякоти | 2 | плотная |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 235 | степень плотности мякоти | 1 | мягкая |
| 236 | особенности привкуса | 1 | без привкуса |
| 238 | длина плодоножки | 5 | средняя, до 10 мм |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 1 | отсутствуют |
| 243 | масса семени | - | |
| 301 | время распускания почек | 5 | среднее: |
| 303 | начало созревания ягод | 3 | ранее |
| 304 | физиологическая зрелость ягод | 7 | среднее |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 5 | сильная |
| 453 | степень устойчивости к милдью гроздей | 5 | сильная |
| 455 | степень устойчивости к оидиуму листьев | 3 | низкая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 3 | низкая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 7 | высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 7 | высокое, приблизительно 21 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 1 | н очень изкая |
| 604 | степень вызревания побегов, %: | 9 | очень высокая |
| 629 | продолжительность продукционного периода, дни | 4 | Средне-позднее 140-155 дней |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 5 | среднего (136-145 дней) |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

## The ampelo-descriptive properties of the variety

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: density of prostrate hairs on the shoot | 1 | none or very low |
| 053 | Young leaf: density of prostrate hairs between main veins on lower side of blade (4th leaf) | 1 | none or very low |
| 065 | Mature leaf: size of blade: 1-very small | 7 | large |
| 067 | Mature leaf: shape of blade | 1 | cordate |
| 068 | Mature leaf: number of lobes | 3 | five |
| 074 | Mature leaf: profile of blade in cross section | 1 | flat |
| 076 | Mature leaf: shape of teeth: 1- both sides | 3 | both sides convex |
| 079 | Mature leaf: degree of opening / overlapping of petiole sinus | 5 | closed |
| 082 | Mature leaf: degree of opening / overlapping of upper lateral sinuses | 1 | open |
| 084 | Mature leaf: density of prostrate hairs between main veins on lower side of blade | 1 | none or very low |
| 085 | Mature leaf: density of erect hairs between main veins on lower side of blade | 1 | none or very low |
| 093 | Mature leaf: length of petiole compared to length of middle vein | 3 | slightly shorter |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Bunch: length (peduncle excluded): 1-very short | 7 | long |
| 204 | Bunch: density | 5 | medium |
| 206 | Bunch: length of peduncle of primary bunch | 5 | medium |
| 220 | Berry: length | 5 | medium (about 14-18 mm) |
| 223 | Berry: shape | 6 | obtuse ovoid |
| 225 | Berry: color of skin | 1 | green yellow |
| 228 | Berry: thickness of skin | 1 | very thin |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Berry: length of pedicel | 5 | medium (about 8-12 mm) |
| 241 | Berry: formation of seeds | 1 | none |
| 243 | Berry: weight of seeds | - | |
| 351 | Vigor of shoot growth | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per: t/ha | 7 | high (about 13-16 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 7 | high (about 21-23 g/100 $sm^3$) |
| 506 | Total acidity of must | 1 | very low (up to about 4 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 9 | very high (about 96,0% and more) |
| 629 | Vegetation period | 4 | medium ripening (141-150 days) |

*Xəstəliklərə, ziyanvericilərə və şaxtalara davamlılığı:* Tənəklərdə vegetasiya dövrü 2-3 dəfə normal yaşıl budanma aparıldıqda xəstəlik və ziyanvericilərə daha çox dözümlüdür. Tənəklərdə və salxımlarda mildiuya və oidiuma 0-1 bal yoluxma olduğu müəyyənləşdirilmişdir. Çürüməyə qarşı davamlıdır. Dağətəyi ərazilərdə göbələk xəstəliklərinə daha çox dözümlüdür. Salxım yarpaqbükəni və giləqurduna yoluxma müşahidə edilməmişdir. Qış dövrü mənfi $20^0$C-dən aşağı şaxtalarda bar gözləri kütləvi məhv olur.

*Çubuqlarda mumyetişmə:* Çubuqların mumyetişməsi iyun ayının üçüncü ongünlüyündə başlayır. İlk şaxtalar düşənə kimi çubuqlarda mumyetişmə 85,0-90,0%-ə yuksəlir və 4 balla qiymətləndirilmişdir.

*Məhsullarının keyfiyyət xüsusiyyəti:* Ən çox təzə halda yeyilir. Cəlbedici əmtəə görünüşü olduğu üçün bazarlarda yaxşı qiymətə satılır, ona görə də iqtisadi səmərəliliyi yüksəkdir. Tam yetişməmiş məhsulundan keyfiyyətli abqora, yetişmiş məhsulundan mürəbbə, şirələr və quru kişmişi hazırlanır.

*Klon və variasiyaları:* Müəyyən olunmamışdır.

*XIRDAGİLƏ SARI KİŞMİŞİ*
*Хырдагиля сары кишмиши – Khyrdagile sary kishmishi*

# QƏHVƏYİ KİŞMİŞİ
## Кахваи кишмиши – Gehveyi kishmishi

Naxçıvan MR-in yerli kişmişi üzüm sortudur. Sortun adı onun gilələrinin rənginə görə verilmişdir. Xalq seleksiyası nəticəsində kortəbii klon seleksiyası yolu ilə yerli qara kişmişi sortundan yaradıldığı ehtimal edilir. Morfoloji əlamətlərinə və bioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) qrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Muxtar respublikada həyətyanı sahələrdə yayılmışdır. Qara, şabalıdı karbonatlı torpağı olan ərazilərdə tənəkləri daha yaxşı inkişaf edir. Tənəklərin inkişafı və kollanması güclüdür. Zoğları tez yogunlaşır və yarımdik vəziyyətdə ətrafa yayılırlar. Tənəklərdə tumurcuqların açılması orta hesabla 91,0 %, məhsuldar zoğlar isə 55,2 %-dən çoxdur.

*Birillik zoğlar:* Tənəklərində birillik zoğların inkişafı müxtəlif uzunluğa (155,0-230,0 sm) malikdir. Yatmış tumurcuqlardan inkişaf edən birillik zöğların uzunluğu bəzən 3,5-4,0 m-ə çatır. Buğumaraları başqa kişmişi sortlarına nisbətən qısadır, 3-12-ci buğumlarda orta uzunluğu 5-7 sm-dir. Çubuqların rəngi buğumaralarında açıq-qəhvəyi, üzəri müxtəlif ölçülü tünd qısa zolaqlı, buğumlarda isə açıq şabalıdı rənglidir.

*Yaşıl zoglar:* Yazda inkişaf edən zoğların tacı və 3-5-ci yarpaqların üzəri çılpaq olur. Yeni açılmış yarpaqların alt səthində ağ tükcüklərə və damarlar üzərində xırda qılçıqlara rast gəlinmir. Təzə yarpaqların üzəri isə torlu-qabarıqlıdır, parlaq tünd yaşıl rənglidir. Zoğların yoğunlaşmış hissələri tünd çaxır rənglidir.

*Yarpaq:* Yarpaqları iri ölcülüdür, əsasən dairəvi formalıdır (diam. 18,3-18,7 sm, yarpaq indeksi 0,97, sahəsi 202,23 $sm^2$, orta damarın uzunluğu 8,9 sm), beşpəncəlidir, səthi parlaq tünd yaşıl rənglidir, kənarları isə yuxarı yönəlir. Yarpagın alt səhtində, damarlar üzərində tükcüklərə və qılçıqlara rast gəlinmir. Yuxarı yan kəsikləri dayaz, əsasən açıq, ensiz liraşəkilli, iti diblidir. Orta dərinlikdə yan kəsikləri olan yarpaqlara da rast gəlinir. Aşağı yan kəsikləri də dayaz, itibucaq formalı, bəzən kəsiksiz, bütov formada olan yarpaqlara da rast gəlinir. Pəncələrin ucundakı dişciyi uzun, enli oturacaqlı, kənar dişcikləri isə xırda, müxtəlif ölcülü, ucları küt, enli oturacaqlıdır.

*Saplaq:* Saplağı açıq yaşılımtıl-qəhvəyi rənglidir, orta damardan bir qədər qısadır. Saplağın uzunluğu 8,0-8,2 sm-dir. Saplaq oyuğu əsasən qapalıdır, ensiz kəsikli, bəzən ensiz tağlı formada olur.

*Çiçək:* İkicinsli çiçək qrupuna malikdir. Erkəkcik saplağı uzundur. Tozluqları və

üst formalı yumurtalığı yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi yüksək, 91,0-93,5%-dir.

*Salxım:* Xarakterik salxımları qanadlı-konusvari, silindrik-konusvari formalarda olur, uzunluğu 15,0-21,5 sm, eni 10,0-13,0 sm-ə çatır. Salxımlarda gilələr tozlanmadan asılı olaraq orta seyrəklikdə və ya sıx yerləşir. Saplağın uzunluğu 4,0-6,0 sm-dir, məhsulun yetişmə dövründə saplaq odunlaşır.

*Gilə:* Salxımda gilələri nisbətən iridir, uzunluğu 17,0-19,0 mm, eni 14,0-16,0 mm-dir, əsasən oval formalıdır. Sıxgilələri salxımlarda tərsyumurtaşəkillidir. Gilələrin qabığı açıq və ya tünd qəhvəyi, qırmızımtıl-qəhvəyi ranglərdə olur. Rənglənmə intensivliyi aktiv temperaturun miqdarından asılıdır. Gilələri bərk, lətli-şirəli, qabığı nisbətən nazikdir, lətli hissə rəngsiz olmaqla qabıqdan asanlıqla ayrılır. Hər bir gilədə toxumların rudiment başlanğıcları olsa da inkişaf etmirlər.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya müddəti:* Orta tez yetişən üzüm sortudur. Tənəklərdə tumurcuqların inkişafı aprel ayının ikinci ongünlüyündə baş verir. Məhsulu isə aran zonalarda avqust ayının ikinsi yarısında, dağətəyi ərazilərdə isə sentyabr ayının əvvələrində tam fizioloji yetişkənliyə çatır. Vegetasiya müddəti çiçəkləməyə qədər 51-64 gün, məhsulun tam yetişməsinə qədər isə 120-130 gün davam edir. Məhsulun tam yetişkənliyə çatması üçün 2700-2850$^0$C aktiv temperatur sərf olunur.

**Əsas fenoloji fazaların gedişi**

| İllər | Tumurcuqların açılması | | Çiçəkləmə | | Meyvələrin yetişməsi | | Tumurcuqların açılmasından, gün | | Xəzan |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | çiçəkləməyə qədər | meyvələrin yetişməsinə qədər | |
| 2005 | 13.04 | 4 | 16.06 | 8 | 19.08 | 32 | 51 | 130 | 18.11 |
| 2007 | 11.04 | 3 | 12.06 | 7 | 16.08 | 35 | 54 | 132 | 15.11 |
| 2008 | 09.04 | 4 | 14.06 | 9 | 14.08 | 32 | 67 | 128 | 11.11 |
| 2009 | 09.04 | 5 | 13.06 | 7 | 15,08 | 37 | 64 | 129 | 16.11 |
| 2014 | 07.04 | 5 | 10.06 | 8 | 12.08 | 36 | 61 | 126 | 21.11 |

*Məhsuldarlığı:* Tənəklərə ştambsız yelpik və maili kordon forması verilir. Orta məhsuldarlığı ox və şpaler sistemi ilə becərilmədə 8,0-10,0 kq-dır. Zoğlardan məhsuldarlıq 470,0 q-a çatır. Talvar sistemi ilə becərilmədə hətta 15-20 yaşlı tənəklərdən 45,0-60,5 kq məhsul toplanılır. Bir hektardan orta məhsuldarlıq 65-75 bar yükündə 225,0-240,0 sentnerə qədər yüksəlir. Salxımlarda 0,5-1,2 % xırda gilələk müşahidə olunur.

**Əsas məhsuldarlıq göstəriciləri (2005-2010-cu illər)**

| Salxımın orta kütləsi, q | Salxımda gilələrin sayı, ədəd | 100 gilənin kütləsi, q | Gilədə, % | | ümumi şirə əxımı, % | Şirədə | | Məhsuldarlıq əmsalı | | Bir tənəkdə məhsuldarlıq, kq |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | qabıq | toxum | | şəkərliliyi, q/ 100 $sm^3$ | turşuluğu, q/ $dm^3$ | tənəkdə | barlı zoğlarda | |
| 470,0 | 195,0 | 367,0 | 7,4 | - | 82,0 | 22,0 | 4,1 | 0,72 | 1,3 | 9,0 |

*Ampelo-deskriptor xüsusiyyətləri*: Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует |
| 017 | длина усиков | 3 | короткие, до 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 7 | большая |
| 067 | форма пластинки листа | 3 | пятиугольная |
| 068 | количество лопастей листа: | 2 | три лопасти |
| 069 | окраска верхней поверхности молодого листа | 7 | темно-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 3 | слабая |
| 076 | форма краевых зубчиков | 2 | обе стороны прямые |
| 079 | форма черешковой выемки | 5 | средние |
| 082 | форма [тип] верхних вырезок | 1 | открытая |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 3 | маленькая |
| 103 | основная окраска одревеснешего побега | 2 | коричневатая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 7 | длинная, до 20 см |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 3 | средняя, приблизительно 7 см |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 4 | длинноэллиптическая |
| 225 | окраска кожицы | 5 | темно-красно-фиолетовая |
| 228 | толщина кожицы | 3 | тонкая |
| 230 | окраска мякоти | 2 | отсутствует |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная |
| 234 | плотность мякоти | 2 | плотная |
| 235 | степень плотности мякоти | 1 | мягкая |
| 236 | особенности привкуса | 4 | травянистый |
| 238 | длина плодоножки | 5 | средняя, до 10 мм |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 1 | отсутствуют |
| 243 | масса семени | - | |
| 301 | время распускания почек | 5 | среднее |
| 303 | начало созревания ягод | 3 | ранее |
| 304 | физиологическая зрелость ягод | 3 | ранняя |
| 351 | сила роста побега | 5 | средняя, 1,3–2,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 9 | очень поздняя |
| 453 | степень устойчивости к милдью гроздей | 9 | высокая и очень высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 9 | очень высокая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 9 | высокая и очень высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 9 | очень высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 7 | высокое, приблизительно 21 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 3 | низкая |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая |
| 629 | продолжительность продукционного периода, дни | 4 | средняя (141-150 дней) |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 7 | высокая |

## The ampelo-descriptive properties of the variety

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: density of prostrate hairs on the shoot | 1 | none or very low |
| 053 | Young leaf: density of prostrate hairs between main veins on lower side of blade (4th leaf) | 1 | none or very low |
| 065 | Mature leaf: size of blade: 1-very small | 7 | large |
| 067 | Mature leaf: shape of blade | 3 | pentagonal |
| 068 | Mature leaf: number of lobes | 2 | three |
| 074 | Mature leaf: profile of blade in cross section | 3 | flat |
| 076 | Mature leaf: shape of teeth: 1- both sides | 2 | both sides straight |
| 079 | Mature leaf: degree of opening / overlapping of petiole sinus | 5 | closed |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 082 | Mature leaf: degree of opening / overlapping of upper lateral sinuses | 1 | open |
| 084 | Mature leaf: density of prostrate hairs between main veins on lower side of blade | 1 | none or very low |
| 085 | Mature leaf: density of erect hairs between main veins on lower side of blade | 1 | none or very low |
| 093 | Mature leaf: length of petiole compared to length of middle vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Bunch: length (peduncle excluded): 1-very short | 7 | long |
| 204 | Bunch: density | 5 | medium |
| 206 | Bunch: length of peduncle of primary bunch | 5 | medium |
| 220 | Berry: length | 5 | medium (about 14-18 mm) |
| 223 | Berry: shape | 4 | narrow ellipsoid |
| 225 | Berry: color of skin | 5 | dark red violet |
| 228 | Berry: thickness of skin | 3 | thin |
| 236 | Berry: particular flavor | 4 | herbaceous |
| 238 | Berry: length of pedicel | 5 | medium (about 8-12 mm) |
| 241 | Berry: formation of seeds | 1 | none |
| 243 | Berry: weight of seeds | - | |
| 351 | Vigor of shoot growth | 5 | medium (about 1,3-2,0 m) |
| 504 | Yield per: t/ha | 7 | high (about 13-16 t/ha |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 7 | high (about 21-23 g/100 $sm^3$) |
| 506 | Total acidity of must | 3 | low (about 4-6 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | high (about70,0-95,0%) |
| 629 | Vegetation period | 4 | medium ripening (141-150 days) |

*Çubuqlarda mumyetişmə:* Çubuqların yetişməsi iyun ayının ortalarından başlayır. İlk şaxtalar düşənə kimi çubuqlarda mumyetişmə 87,0 %-ə yüksəlir. Birillik çubuqların mumyetişməsi 4 balla qiymətləndirilir.

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Xəstəlik və ziyanvericilərə nisbətən dözümlüdür. Mildiu xəstəliyinə yoluxma qeydə alınmışdır. Tənəklərdə və salxımlarda mildiuya yoluxma 0-1 bal, oidiuma və boz çürüməyə yoluxma müşahidə olunmamışdır. Salxım yarpaqbükəninə, giləqurduna qarşı dözümlüdür. Mənfi $20^0$C-dən aşağı şaxtalarda tənəklərdəki bar gözləri kütləvi məhv olur.

*Məhsulun keyfiyyət xüsusiyyəti:* Təzə halda daha çox yeyilir. Cəlbedici əmtəə görünüşünə malik olduğundan, bazarlarda yüksək qiymətə satılır. Məhsulu çox şirin, özünəməxsus dada və keyfiyyətə malikdir. Tam yetişmiş məhsulundan müxtəlif şirələr, siroplar və yüksək keyfiyyətli quru kişmişi hazırlanır. Məhsulu nəqliyyatla daşınmağa dözümlüdür.

*Klon və variasiyaları:* Yoxdur.

*QƏHVƏYİ KİŞMİŞİ*

*Гахваи кишмиши – Gehveyi kishmishi*

## QIRMIZI KİŞMİŞİ
## Кырмызы кишмиши – Gyrmyzy kishmishi

Naxçıvan MR-də çox qədimdən becərilən aborigen süfrə üzüm sortudur. Bütün üzümçülük ərazilərində geniş yayılmışdır. Sortun adı onun gilələrinin rənginə görə verilmişdir. Bu üzüm sortu haqqında məlumatlara ərazidə tapılan hələ III minilliyə aid tarixi mənbələrdə rast gəlinir. Sortda gilələrin rənginin intensivliyi günəşli günlərin sayı və mütləq aktiv temperaturun cəmi ilə düz mütənasiblik təşkil edir. İsti, quraq ərazilərdə yetişdirilən bu sortun salxımlarındakı gilələri daha intensiv çəhrayı-qırmızımtıl, gün az düşən yerlərdə isə zəif çəhrayı-qırmızımtıl rəngdə olurlar. Bu sort keçmişdə ərazidən keçən səyyahların diqqətini daha çox cəlb etdiyindən yaxın Şərq, Asiya və Avropa ölkələrinə aparılmışdır. Üzüm becərilən bir çox ölkələrdə «Qızıl kişmişi», «Karmir kişmişi», «Kişmişi rozovıy» və s. adları ilə tanınır. Bu sort Azərbaycanın, o cümlədən Naxçıvan MR-in standart süfrə sortları qrupuna daxildir. Ərazidə ən çox becərilən üzüm sortlarındandır. Muxtar respublikanın bütün üzüm becərilən ərazilərində bu sorta rast gəlinir. Morfoloji əlamətlərinə və bioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) qrupuna daxildir.

*Sinonimi:*Bütün ərazilərdə çoxlu sayda klon və variasiyaları vardır.

**Ampeloqrafik xüsusiyyətləti**

*Tənək:* Müxtəlif torpaq tipli zonalarda, xüsusilə qara, şabalıdı karbonatlı torpağı olan ərazilərdə tənəkləri güclü inkişafetmə xüsusiyyətinə malikdir. Yeni zoğları maili vəziyyətdə inkişaf edərək kollanır. Yazda tumurcuqların 95,0 %-dən çoxunda yeni yaşıl zoğlar inkişaf edir. Məhsuldar zoğlar ən azı 68,9 % təşkil edir.

*Birillik zoğlar:* Normal inkişaf etmiş birillik zoğlarının orta uzunluğu 220,0 sm-dir. Tənəklərdə zoğlar çox müxtəlif uzunluqlarda olur. Əsasən kök boğazından, bəzən isə nisbətən yuxarı nahiyələrdəki yatmış tumurcuqlardan inkişaf edən zoğları daha güclü olub, uzunluqları 350,0 sm-ə çatır. Birillik zoğlarda buğumaraları sarımtıl-qəhvəyi, buğumlarda isə qəhvəyi rəngdədir.

*Yaşıl zoğlar:* Yazda inkişaf etməkdə olan yeni zoğları açıq-yaşıl rəngdədir, bəzən üzərində uzununa qəhvəyi zolaqlar olur. Zoğun tacı və 3-5-ci yarpaqların üzəri çılpaqdır. Üzəri zəif torlu-qabarıqlı, parlaq-yaşıl rənglidir.

*Yarpaq:* Yarpaqları iri ölcülüdür, beşpəncəlidir, əsasən dairəvi formadadır (diam. 20,0-22,5 sm), səthi parlaq yaşıldır, kənarları yuxarı yönəlir. Yarpağın alt səthində, damarlar üzərində ağ torabənzər tükcüklərə və qılçıqlara rast gəlinmir. Yuxarı yan kəsikləri orta dərinlikdə, əsasən açıq formalı, iti dibli, liraşəkillidir. Dayaz, iti bucaq kəsikli yarpaqlara da rast gəlinir. Aşağı yan kəsikləri isə orta dərinlikdə açıq formalı, liraşəkillidir. Pəncələrin ucundakı dişciyi uzun, enli

oturacaqlıdır, kənar dişcikləri isə xırda, müxtəlif ölçülü, mişardişli formasındadır. Xəzan dövrü yarpaqları açıq-qəhvəyi rənglənir.

*Saplaq:* Saplağı açıq yaşımtıl-göy rənglidir. Orta damardan nisbətən qısadır, uzunluğu 12-16 sm-dir. Saplaq oyuğu əsasən qapalı formadadır, ensiz kəsiklidir. Ellips kəsikli formada saplaq oyuğu olan yarpaqlara da rast gəlinir.

*Çiçək:* İkicinsli çiçək qrupuna malikdir. Erkəkcik saplağı uzundur. Tozluqları uzunsov oval formalıdır, yumurtalığı yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi 95,0-97,5 %-dir.

*Salxım:* Salxımları çox müxtəlif formalarda və çəkilərdə olur. Xarakterik salxımları çoxqanadlı-konusvari, qanadlı-silindrik formalardadır. Orta uzunluğu 18,0-30,5 sm, eni 9,0-14,0 sm-ə çatır. Müxtəlif variasiya və klonları mövcud olduğundan, salxımlarda xarakterik irsi xüsusiyyətləri nisbətən bir-birindən fərqlənir. Salxımlarda gilələr tozlanmadan asılı olaraq orta seyrəklikdə və ya sıx ola bilər. Saplağı 6-8 sm-ə çatır, bəzən məhsulun yetişmə dövründə saplaq odunlaşır.

*Gilə:* Salxımda gilələr orta irilikdədir (uzun.10,0-18,0 mm, eni 10,0-15,0 mm). Əsasən oval formalıdır, sıxgiləli salxımlarda tərsyumurtaşəkillidir. Gilələrin qabığı cəhrayı rəngdən tünd qırmızıya qədər çalarlarda olur. Kölgə yerlərdə gilələri tam qırmızı rənglənmir. Günəş düşən nahiyələrdə gilələr salxımda açıq qırmızımtıl-çəhrayı rəngdə olur. Rənglənmə intensivliyi aktiv temperaturun miqdarından asılı olaraq dəyişilir. Gilələrin qabığı nazik, lətli hissədən çətin ayrılır, lətli-şirəlidir. Hər bir gilədə toxumların rudiment başlanğıcları olsa da inkişaf etmirlər.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Yarpaq:* Yarpaqların ölçüləri iridir (diam. 14,0-16,5 sm), dairəvi formada olmaqla, beşpəncəlidir. Tənəklərdə üçpəncəli, dayaz yan kəsikli yarpaqlara da rast gəlinir. Səthi hamar olmaqla, tünd yaşıl rənglidir. Yarpağın kənarları yuxarı yönələrək nov şəklini alır. Yuxarı yan kəsiyi dayazdır, bəzən orta dərinlikdə, açıq və qapalı formalarda da olur. Açıq yan kəsiyi dayazdır, itibucaqşəkillidir, orta dərinlikdə isə liraşəkillidir. Qapalı yan kəsikləri isə əsasən ensiz kəsiklidir. Aşağı yan kəsiyi dayazdır, iti bucaqşəkillidir, bəzən orta dərinlikdə, açıq, paralel tərəfli, iti dibli, liraşəkillidir. Yarpaq pəncələrinin ucundakı dişciyi uzun, iti uclu, enli oturacaqlıdır. Kənar dişicikləri nisbətən maili formada, iri mişardişlidir. Yarpağın alt səthində tükcüklər yoxdur, ancaq qalın damarlar üzərində seyrək, adi gözlə görünə bilən qılçıqlara rast gəlinir.

*Saplaq:* Saplaq oyuğu əsasən açıqdır, enli, paralel tərəfli, dairəvi oturacaqlıdır. Saplağı orta damardan adətən qısa olur, sarımtıl-yaşıl rənglidir.

*Çiçək:* Çiçəkləri funksional dişi cinslidir. Erkəkciyin saplaqları dişiciyin ətrafına əyilmişdir.

*Salxım:* Salxımları iridir (uzun. 15-17 sm, eni 10-13 sm), müxtəlif formadadır (çoxqanadlı-konusvari, sallaq, silindrik-konusvari), gilələri seyrək və ya orta

sıxlıqdadır. Salxım saplağı uzundur (5-7 sm), açıq-yaşıl rənglidir. Salxımda 2-7 % xırdagilələlik müşahidə olunur.

*Gilə:* Salxımda nisbətən uzun saplaq üzərində yerləşən gilələri iridir (uzun. 12,0-15,0 mm, eni 10-12 mm), girdə oval formada, çəhrayı-qırmızımtıl rənglidir. Gilələrin üzərində tozşəkilli, asanlıqla silinə bilən örtük olur. Qabığı qalın olmaqla, lətdən asanlıqla ayrılır. Gilələri bərkdir, ləti rəngsizdir, lətli-şirəlidir. Şirəsi solğun-çəhrayı rənglidir, məhsulu özünəməxsus dada malikdir. Hər gilədə 3-4 ədəd toxum olur.

*Toxum:* Gilədə tam formalaşmış toxumları ürəyəbənzər formada tünd-qəhvəyi rənglidir. Xalaza oval formalıdır. Toxumun uc hissəsinə qədər xalazadan uzanan şırım sanki ucu iki hissəyə bölür. Qarın nahiyədəki hündür xətt toxumun ucuna qədər uzanır.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya dövrü:* Gec yetişən süfrə üzüm sortudur. Tumurcuqların açılması 04-12 aprel, çiçəkləmə 13-21 may, meyvələrin yetişməsi 16-26 sentyabr aylarına təsadüf edir. Üzüm məhsulu oktyabr ayının birinci yarısında tam fizioloji yetişkənliyə çatır. Ümumi vegetasiya müddəti 135-145 gün təşkil edir. Məhsulun tam yetişkənliyi üçün 3600-3700$^0$C aktiv temperatur sərf olunur.

*Məhsuldarlığı:* Tənəkləri başqa üzüm sortları ilə qarışıq becərildikdə məhsuldarlığı yüksək olur. Şpaler sistemində 70-75 bar yükündə hər tənəkdən 7,0-8,0 kq üzüm məhsulu toplanılır. Sort üçün xarakterik olan salxımlarının orta kütləsi 320,0 q-dır. Tənəkdə 120,0-460,0 q kütləsi olan salxımlara da rast gəlinir. Gilədə 86,6 % təşkil edən lətli hissədən ümumi şirə çıxımı 78,0 % olmuşdur. Məhsuldarlıq əmsalı tənəklərdə 0,72, barlı zoğlarda 1,4-dir. Şirəsində şəkərliliyi 18,0-20,0 q/100 sm$^3$, turşuluğu 5,5-6,4 q/dm$^3$-dir. Tənəyin orta məhsuldarlığı hektardan 120,0-150,0 sentnerdən çox olur.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır. Ampeloqrafiq tədqiqatların nəticələri aşağıda verilmişdir.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабое |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует или очень слабое |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 017 | длина усиков | 3 | короткие, до 15см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа | 4 | семь лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 5 | средне-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 1 | отсутствует или очень слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 3 | открытая |
| 082 | форма [тип] верхних вырезок | 4 | лопасти сильно перекрываются |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревесневшего побега | 2 | коричневатая |
| 151 | тип цветка | 4 | женский, завернутые тычинки и полностью |
| 153 | количество соцветий на побеге | 1 | одно соцветие |
| 202 | величина грозди [длина + ширина]: | 5 | средняя, до 16 см |
| 204 | плотность грозди: | 3 | рыхлая |
| 206 | длина ножки грозди | 7 | длинная, приблизительно 9 см |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 2 | сферическая |
| 225 | окраска кожицы | 2 | розовая |
| 228 | толщина кожицы | 5 | очень тонкая |
| 230 | окраска мякоти | 1 | отсутствует |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная |
| 234 | плотность мякоти | 2 | плотная |
| 235 | степень плотности мякоти | 2 | не очень твердая |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 9 | очень длинная, 16 мм и более |
| 240 | степень трудности отделения от плодоножки | 3 | трудное |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 2 | малая, до 25 мг |
| 301 | время распускания почек | 7 | поздняя |
| 303 | начало созревания ягод | 5 | среднее |
| 304 | физиологическая зрелость ягод | 5 | средняя |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 9 | очень высокая |
| 453 | степень устойчивости к милдью гроздей | 9 | очень высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 9 | очень высокая |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 456 | степень устойчивости к оидиуму гроздей | 9 | очень высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 9 | очень высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 5 | средняя |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 5 | среднее, приблизительно 18 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | средняя |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая (2/3-6/7 длины) |
| 629 | продолжительность продукционного периода, дни | 5 | среднего (136-145 дней), |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | Устойчивость сорта к высокой температуре | 7 | высокая |

## The ampelo-descriptive properties of the variety

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 4 | seven |
| 074 | Side view of the leaf (profile) | 3 | involutes |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 3 | open |
| 082 | Shape of upper side sinus | 4 | strongly overlapped |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 4 | reflexed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 1 | up to 1 inflorescence |
| 202 | Size of bunch (length + width) | 5 | medium |
| 204 | Density of berries in the bunch | 3 | loose |
| 206 | Length of the peduncle of the bunch | 7 | long |
| 220 | Size of berry (length + width) | 5 | medium (about 14-18 mm) |
| 223 | form of berries: | 2 | globose |
| 225 | skin coloration | 1 | rose |
| 228 | Thickness of the skin in the berry | 5 | medium |
| 236 | Berry: particular flavor | 1 | none |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 238 | Length of the bunch stalk | 9 | очень длинная, 16 мм и более |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 2 | малая, до 25 мг |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 5 | средняя |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 5 | medium (about 18-20 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 5 | medium (about 7-9 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | (2/3-6/7 длины) |
| 629 | Time of vegetation till full ripening of crop | 7 | strong (about 2,1-3,0 m) |

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Salxımlarda mildiu xəstəliyinə 1-2 bal, oidiuma isə 2-3 bal yoluxma qeydə alınmışdır. Salxım yarpaqbükəninə dözümlüdür. Boz çürüməyə davamlıdır. Fillokseraya davamsızdır. Tənəklərdəki tumurcuqları qış fəslində mənfi $20^0$C-yə qədər şaxtalara dözümlüdür.

*Tənəklərdə mumyetişmə:* Yaşıl zoğlarda mumyetişmə iyul ayının axırlarında başlayır. Məhsulun tam yetişmə dövrü çubuqlarda mumyetişmə 65-70 %, payızda, ilk şaxtalar düşən vaxtda 87-90 %-ə yüksəlir. Mumyetişmə 4 balla qiymətləndirilmişdir.

*İstifadə olunması və məhsulunun xüsusiyyətləri:* Təzə halda daha çox yeyilir. Çox xoşagələn əmtəə görünüşünə və dad keyfiyyətinə malikdir. Uzaq məsafələrə daşınmağa və sərin otaq şəraitində saxlanılmağa davamlıdır. Ondan hazırlanan mövücün tərkibində nəmlik 17,4 %, ümumi şəkər 71,6 q/100 $sm^3$, turşuluq 2,67 q/$dm^3$, C vitamini 4,41 mq% olmuşdur. Orqanoleptik qiymətləndirmə 7,8 baldır. Üzüm məhsulunun 3,0-3,5 kq-dan 1,0 kq mövüc alınır.

*Klon və variasiyaları:* Az məhsuldar variasiyalarına rast gəlinir.

GÜLABI

*Гюлаби – Gulaby*

## HACI ABBAS
## Гаджи Аббас – Haji Abbas

Azərbaycanın ən qədim və çox az rast gəlinən aborigen süfrə üzüm sortlarındandır. Hazırda Azərbaycanın nadir üzüm sortları (məhv olmaq təhlükəsi altında olan) qrupuna daxildir. Azərbaycan ET Üzümçülük və Şərabçılıq Institunun «Üzüm genofondu» kolleksiya bağında qorunub saxlanılır. Biomorfoloji xüsusiyyətlərinə və morfoloji əlamətlərinə görə Qara dəniz hövzəsi (*convar pontica* Negr.) ekoloji-coğrafi qrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri çox güclü inkişafetmə xüsusiyyətinə malikdir. Yüksək məhsul almaq üçün tənəklərdə 40-46 bar tumurcugu saxlanılır.Bar zoğlarında 7-8 bar yükü saxlanılmaqla quru budanma aparılır. Qış fəsli tənəklərin üzəri torpaq qatı ilə örtülməyən ərazilərdə tənəklərə çoxqollu yelpik və ya ikitərəfli kardon formasının verilməsi məqsədəuyğundur.

*Yaşıl zoğ:* Cavan yaşıl zoğun tacı və ilk 3-5-ci yarpaqların səthi çılpaq olmaqla üzərində ağ tükcüklər olmur, tünd-yaşıl rəngli, parlaq görünüşlüdür. Yoğunlaşmış yaşıl zoğları açıq mavi-yaşıl rənglidir. Tənəklərdə barlı zoğların miqdarı 86 %-dən çox olur.

*Birillik zoğlar:* Zoğları güclü inkişaf edir. Tənəklərdə uzunluğu 50,0-350,0 sm olan zoğlara rast gəlinir. Birillik zoğların orta uzunluğu 220,0 sm olmuşdur.

*Yarpaq:* Yarpaqları orta irilikdədir (uzunluğu 13-18 sm, eni 14-19 sm-dir), eninə-oval formada, 3 və ya 5 pəncəlidir. Orta damarın uzunluğu 10-11 sm, sahəsi 113,56 $sm^2$-dir. Yarpağın kənarları azca yuxarı yönəlir. Səthi nisbətən tünd yaşıl rənglidir. Səthi zəif torlu-qırışıqlıdır.Yuxarı yan kəsiyi dayaz, bəzən orta dərinlikdə, əsasən açıq formada, iti dibli, enli liraşəkillidir. Aşağı kəsiklər də açıq, çox dayaz olub, itibucaq formalı, iti dibli liraşəklindədir. Yarpaq pəncələrinin ucundakı dişiciyi hündür, enli oturacaqlıdır, tərəfləri mailidir. Kənar dişcikləri müxtəlif hündürlükdədir, iri mişardişlidir. Alt səthində ağ torabənzər tükcüklər olur, damarlar üzərində isə az miqdarda xırda qılçıqlara rast gəlinir. Payızda xəzan dövrü yarpaqları açıq qəhvəyi rənglənir.

*Saplaq:* Saplaq oyuğu adətən bağlı olur, ellipsvari, ovalvari və dairəvi formadadır. Orta damarın uzunluğuna bərabərdir. Saplağın uzunluğu 9,0-10,0 sm olmaqla bulanıq qəhvəyi-yaşılmtıl rənglidir.

*Çiçək:* Ikicinsli çiçək qrupuna malikdir. Erkəkciklərin saplağı dişicikdən çox hündür olmaqla yanlara tərəf düz qalxır. Tozlanmadan sonra çiçəklərin 62,5 %-i tökülür.

*Salxım:* Salxımları orta irilikdədir (uzunluğu 13,0-25,0 sm, eni 12,0-14,0 sm) qanadlı-konusvari formalarda olur. Gilələri daraq üzərində seyrək və orta sıxlıqda yerləşir. Normal salxımlarda gilələrin sayı orta hesabla 84,5-98,0 ədəd olur. Salxımın saplağı nisbətən uzun (4-7 sm) olmaqla məhsul yetişəndə odunlaşır. Salxımda bəzən xırdagilələlik müşahidə edilir.

*Gilə:* Irigiləli üzüm sortudur (uzun. 20-26 mm, eni 18-24 mm) Gilələri salxımda orta sıxlıqda yerləşdikdə oval formada olur. Qabığı qalın, elastikdir, tünd-qırmızı, tam yetişdikdə isə qara rəngdə olmaqla lətli-şirəlidir. Yeyildikdə xartıldayır. Xüsusi dadı və ətri vardır. Şirəsi tünd-çəhrayı rəngə boyanır. Gilələr tam yetişən vaxtı üzərində asanlıqla təmizlənə bilən tozşəkilli mum qatı əmələ gəlir. Bir gilənin kütləsi 4,5 q-dır. Hər gilədə 2-3 ədəd yaxşı inkişaf etmiş toxum olur.

*Toxum:* Toxumları orta irilikdədir (uzun. 5,6 mm, eni 4,1 mm), üzərindəki xalaza basıqdır, oval formalıdır, açıq-qəhvəyi rənglidir. Toxumun alt nahiyəsindəki qabarıq şırım dimdiyə qədər uzanaraq yox olur. Dimdik hissə uzundur, ucu ağarır.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya dövrü:* Gecyetişən süfrə üzüm sortları qrupuna daxildir. Tumurcuqların inkişafı mart ayinin axırları, aprelin əvvəlində, çiçəkləmə isə iyun ayının əvvəllərində başlayır. Məhsulu sentyabr ayının axırları, oktyabr ayının əvvəllərində tam fizioloji yetişkənliyə çatır. Düzən ərazilərdə, Abşeronda 10-12 gün tez yetişir. Məhsulun tam yetişməsi üçün 3460-3500$^0$C aktiv temperatur tələb olunur. Vegetasiya dövrü 160-170 gündür.

*Məhsuldarlığı:* Yüksək məhsuldar sortdur. Şpaler sistemində 3,0x2,0 m qida sahəsində hər tənəkdən 6-8 kq, bir hektardan isə 150-200 sentner məhsul toplamaq mümkündür. Salxımların orta kütləsi 280,0-dır. Tənəklərdə kütləsi 140-350 q olan salxımlara da rast gəlinir. Tənəyin məhsuldarlıq əmsalı 0,86, barlı zoğların məhsuldarlıq əmsalı isə 1,3 dır. Ümumi şirə çıxımı 82,0-85,0 % təşkil edir. Tam fizioloji yetişkənlik dövrü giləsində şəkərlilik 18,2-21,6 q/100 sm$^3$, titrlənən turşuluq isə 3,46-4,62 q/dm$^3$ olur. Zoğun məhsuldarlığı 278,0 q-dır.

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Sort mildiu, oidium və boz çürümə xəstəliklərinə qarşı (2-3 bal) davamlılıq və tolerantlıq nümayiş etdirir. Filloksera yayılmış ərazilərdə bu ziyanvericiyə orta dərəcədə yoluxur.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında hazırlanmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабая |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует или очень слабое |
| 017 | длина усиков | 3 | короткие, 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 7 | темно-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 5 | средняя |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 5 | закрытая |
| 082 | форма [тип] верхних вырезок | 2 | закрытая (лопасти соприкасаются) |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 5 | среднее |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 3 | слабое (редкое) |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 3 | среднее |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревеснevшего побега | 2 | коричневатая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 3 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 5 | 2,1 – 3 соцветия |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 5 | средняя, приблизительно 7 см |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 2 | сферическая |
| 225 | окраска кожицы | 6 | сине-черная |
| 228 | толщина кожицы | 7 | толстая |
| 230 | окраска мякоти | 2 | окрашена |
| 232 | сочность мякоти | 2 | средней сочности |
| 234 | плотность мякоти | 2 | не очень твердая |
| 235 | степень плотности мякоти | 2 | не очень твердая |
| 236 | особенности привкуса | 5 | другой привкус, чем мускатный, лисий, |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| | | | травянистый |
| 238 | длина плодоножки | 7 | толстая |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 5 | средняя, до 40 мг |
| 301 | время распускания почек | 7 | позднее |
| 303 | начало созревания ягод | 9 | очень позднее |
| 304 | физиологическая зрелость ягод | 9 | очень поздняя |
| 351 | сила роста побега | 7 | сильная, 2,1-3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 7 | высокая |
| 453 | степень устойчивости к милдью гроздей | 7 | высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 7 | высокая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 7 | высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 9 | очень высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 3 | низкое, приблизительно 15 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 7 | высокая |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая |
| 629 | продолжительность продукционного периода, дни | 7 | позднего (156-165 дней) |
| 630 | степень [процент] прорастания глазков | 7 | высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

## The ampelo-descriptive properties of the variety

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 4 | revolute |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 5 | closed |
| 082 | Shape of upper side sinus | 2 | closed |
| 084 | Density of white prostrate hairs between the main veins | 5 | medium |
| 085 | Density of white erect hairs between the main veins | 3 | low |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 3 | 2,1 to 3 inflorescences |
| 202 | Size of bunch (length + width) | 5 | medium |
| 204 | Density of berries in the bunch | 5 | medium |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 5 | medium (about 14-18 mm) |
| 223 | form of berries: | 2 | globose |
| 225 | skin coloration | 6 | blue black |
| 228 | Thickness of the skin in the berry | 7 | thick |
| 236 | Berry: particular flavor | 5 | other flavor than muscat, foxy or herbaceous |
| 238 | Length of the bunch stalk | 7 | long (about 12-16 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 5 | medium (about 25-40 mg) |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 7 | high (about 13-16 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 7 | high (about 21-23 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 3 | low (about 4-6 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | high (about70,0-95,0%) |
| 629 | Time of vegetation till full ripening of crop | 7 | late ripening (161 -170 days) |

*Tənəklərdə mumyetişmə:* Çubuqlarda mumyetişmə iyul ayının ikinci yarısından sonra başlayır. Vegetasiyanın sonunda bu göstərici 90,0 %-ə yüksəlir. Tam mumyetişmiş birillik zoğlarda buğumaraları qəhvəyi, buğumlarda isə tünd qəhvəyi rəngdədir.

*İstifadə olunması istiqamətləri:* Üzüm məhsulu təzə halda daha çox istifadə edilir. Ondan müxtəlif şirələr, mövüc hazırlamaq olar. Salxımlar tənək üzərində uzun müddət qalır və gilələr çox yüksək şəkərlilik toplayır. Daşınmaya davamlıdır. Salxım və gilələrin xarici görünüşü xoşagəlimlidir. Təzə üzüm məhsulunun orqanoleptik qiymətləndirməsi 7,2 ball olmuşdur.

*Klon və variasiyaları:* Müşahidə olunmamışdır.

HACI ABBAS

*Гаджи Аббас – Haji Abbas*

## HAÇABAŞ
## Ачабаш – Hachabash

Naxçıvan MR-in aborigen süfrə üzüm sortudur. Sortun adı bəzi gilələrdə onu sanki iki hissəyə haçalayan, gözlə görünə bilən uzununa şırımın olması ilə şərtlənir. Abşeronda, Quba-Xaçmaz, Cənub bölgəsində rast gəlinir. 1947-ci ilə qədər Ermənistanda Arabaş, 1947-ci ildən sonra isə rəsmi olaraq Araratı adlandırılmışdır. Hazırda Ermənistanda və Stavropol vilayətində geniş ərazilərdə becərilir. Morfoloji əlamətlərinə və aqrobioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) ekoloji-coğrafi yarımqrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəklərə ştambsız yelpik forması verildikdə güclü inkişaf edir, yaxşı kollanır. Yazda tumurcuqların inkişafı 92,0 %, məhsuldar zoğları isə 60,0 %-dən çox olur.

*Birillik zoğlar:* Birillik zoğlarının orta ölçüsü 135,0 sm-dir. Çox vaxt 3,0-3,5 m uzunluğunda olan zoğlara da rast gəlinir. Vegetasiyanın sonunda çubuqlarda buğumaraları sarımtıl-qəhvəyi, buğumları isə qəhvəyi rənglənir, üzərində müxtəlif formalı tünd ləkələr olur.

*Yaşıl zoğlar:* Yeni zoğlarda tac və 3-5-ci yarpaqlarda tükcüklər yoxdur, üzəri açıq yaşıl rənglidir. Zoğun və ilk yarpaqların kənarı solğun qırmızımtıl-qəhvəyi antosian piqmentli zolaqla əhatə olunmuşdur. Yoğunlaşmış hissələri qəhvəyi rənglidir.

*Yarpaq:* Yarpaqları iridir, dairəvi formadadır, diametri 21,0-24,0 sm üç-beşpəncəlidir, üzəri zəif torlu-qırışıqlı, tünd-yaşıl rənglidir. Yuxarı yan kəsiyi dayazdır, əsasən orta dərinlikdə, açıqdır, bəzən qapalı formalarda olur. Açıq yan kəsiyi ensiz və ya enli liraşəkilli, iti diblidir, nadir hallarda dibi dişcikli olur. Aşağı yan kəsiyi əsasən dayaz, itibucaqşəkillidir, bəzən ensiz liraşəkillidir. Yarpaq pəncələrinin kənarları xırda, müxtəlif uzunluqda olmaqla, mişardişlidir. Pəncələrin ucundakı dişicik enli oturacaqlıdır, ucu nisbətən küt və qısadır. Xəzan dövrü yarpaqları saralır.

*Saplaq:* Saplaq oyuğu qapalı halda ensiz ellips kəsiklidir, açıq formada isə ensiz liraşəkilli, iti diblidir. Saplağı demək olar ki, orta damarın ölcüsündədir, açıq-qəhvəyi rənglidir. Yarpaq ayasında saplağın orta uzunluğu 9-11 sm-dir. Saplaq üzərində çox az miqdarda qılçıqlar müşahidə olunur.

*Çiçək:* Çiçəkləri ikicinslidir. Erkəkciklərin saplağı nisbətən qısa olmaqla, dişiciyin hündürlüyünə bərabərdir. Öz-özünə və çarpaz tozlanır. Yumurtalıq

kolbaşəkilli olmaqla, boyuncuğu çox qısadır.

*Salxım:* Salxımları müxtəlif ölcülərdədir, əsasən iri olmaqla (uzun. 13,0-16,0 sm, eni 9,0-10,0 sm) silindrik-konusvari, bəzən silindrşəkillidir, gilələri sıx və ya orta sıxlıqdadır. Salxım saplağı (uzun. 4-6 sm) məhsulun yetişən dövrü odunlaşır. Salxımda xırdagilələlik 10,0-15,0 %-ə çatır.

*Gilə:* İri giləli üzüm sortudur. Gilələri (uzun. 21,0-22,0 mm, eni 1,9-2,1 mm), girdə oval formalıdır, açıq-yaşımtıl (gün düşən nahiyələr qızarır) rənglidir. Gilələri uzununa şırımla sanki iki simmetrik hissəyə hacalanır. Qabığı qalındır, lətdən asanlıqla ayrılır, lətli-şirəlidir, gün düşən nahiyələr tündləşir. Hər gilədə 2-3 ədəd toxum olur.

*Toxum:* Toxumları (uzun. 6,0-6,2 mm) iridir, üzərindəki xalaza oval formalıdır, açıq qəhvəyi rənglidir. Qarın yatağındakı hündür şırım uc hissəyə qədər uzanır. Toxumun ucu künbəzə bənzəyir.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya dövrü:* Gec yetişən sortdur. Ümumi şirə axını mart ayının axırlarında, aprel ayının əvvəllərində başlayır. Tumurcuqların açılması aprel ayının ikinci ongünlüyündə baş verir. Çiçəkləmə iyun ayının ikinci yarısında, məhsulu isə sentyabr ayının üçüncü ongünlüyündə yetişir. Vegetasiya dövrü 170-180 gün davam edir Məhsulun tam yetişməsi üçün 3750-3850$^0$C aktiv temperatur sərf olunur.

*Məhsuldarlığı:* Orta məhsuldar sortdur. Hər tənəkdən şpaler sistemində, 65-75 bar yükündə bir tənəkdən 7,0-8,5 kq, tum becərilmə sistemində isə 75-90 bar yükündə 9,0-10,0 kq məhsul toplanılır. Sort üçün xarakterik olan salxımları 300-320 q kütləyə malik olur. Kütləsi 150-550 q olan salxımlarda rast gəlinir. Salxımlarda 3-5,0 % xırda gilələlik müşahidə edilir. Məhsuldarlıq əmsalı tənəklərdə 0,60, barlı zoğlarda 1,4 olur. Ümumi şirə çıxımı 80,0-84,0 %, şəkərliliyi 170-190 q/100 sm$^3$, turşuluğu 5,5-7,0 q/ dm$^3$ təşkil edir.

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Tənəklərdə ildə 2-3 dəfə düzgün aqrotexniki qaydada yaşıl budama aparılarsa xəstəliklərə orta dərəcədə dözümlü sortdur. Yarpaqlarında mildiuya 1-2 bal, oidiuma 2-3 bal, salxımlarında isə mildiuya 1-2 bal, oidiuma 2-3 bal yoluxma müşahidə edilmişdir. Salxım yarpaqbükəninə və gilə qurduna yoluxma qeydə alınmamışdır. Tumurcuqları mənfi 20$^0$C-ə qədər şaxtalara dözümlüdür.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır. Ampeloqrafik tədqiqatların nəticələri aşağıda verilmişdir.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабая |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует или очень слабое |
| 017 | длина усиков | 3 | короткие, 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 9 | очень большая |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 4 | семь лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 7 | темно-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 3 | слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 7 | лопасти перекрываются |
| 082 | форма [тип] верхних вырезок | 3 | лопасти слегка перекрываются |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 3 | слабое (редкое) |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 3 | среднее |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 3 | короче |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревесневшего побега | 1 | желтая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 3 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 5 | 2,1 – 3 соцветия |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 7 | длинная, приблизительно 9 см |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 7 | длинная, до 23 мм |
| 223 | форма ягод: | 2 | сферическая |
| 225 | окраска кожицы | 1 | зеленовато-белая |
| 228 | толщина кожицы | 7 | толстая |
| 230 | окраска мякоти | 1 | неокрашена |
| 232 | сочность мякоти | 2 | средней сочности |
| 234 | плотность мякоти | 3 | очень твердая |
| 235 | степень плотности мякоти | 3 | очень твердая |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 7 | толстая |
| 240 | степень трудности отделения от плодоножки | 3 | трудное |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 5 | средняя, до 40 мг |
| 301 | время распускания почек | 7 | позднее |
| 303 | начало созревания ягод | 9 | очень позднее |
| 304 | физиологическая зрелость ягод | 9 | очень поздняя |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 5 | средняя |
| 453 | степень устойчивости к милдью гроздей | 7 | высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 5 | средняя |
| 456 | степень устойчивости к оидиуму гроздей | 5 | средняя |
| 458 | степень устойчивости к серой гнили листьев | 7 | высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 7 | высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 5 | среднее, приблизительно 18 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | средняя |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая |
| 629 | продолжительность продукционного периода, дни | 6 | средне-позднего (146-155 дней) |
| 630 | степень [процент] прорастания глазков | 9 | оченьвысокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

## The ampelo-descriptive properties of the variety

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Chiper* | *The names* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 9 | very large |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 4 | seven |
| 074 | Side view of the leaf (profile) | 3 | involutes |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 7 | overlapped |
| 082 | Shape of upper side sinus | 3 | slightly overlapped |
| 084 | Density of white prostrate hairs between the main veins | 3 | low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 3 | slightly shorter |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Chiper* | *The names* |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 3 | 2,1 to 3 inflorescences |
| 202 | Size of bunch (length + width) | 5 | medium |
| 204 | Density of berries in the bunch | 5 | medium |
| 206 | Length of the peduncle of the bunch | 7 | long |
| 220 | Size of berry (length + width) | 7 | long (about 19-23 mm) |
| 223 | form of berries: | 2 | globose |
| 225 | skin coloration | 1 | very thin |
| 228 | Thickness of the skin in the berry | 7 | thick |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 7 | long (about 12-16 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 5 | medium (about 25-40 mg) |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 7 | high (about 13-16 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 5 | medium (about 18-20 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 5 | medium (about 7-9 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | high (about70,0-95,0%) |
| 629 | Time of vegetation till full ripening of crop | 6 | medium late ripening (v.p. 151-160 days) |

*Tənəklərdə mumyetişmə:* Birillik çubuqlarda mumyetişmə iyul ayının ikinci yarısından başlayır. Payızda məhsulun tam yetişmə dövrü çubuqlarda mumyetişmə 50-65 %, ilk şaxtalar düşəndə isə 92-95 %-ə yüksəlir. Birillik zoğlarda mumyetişmə 5 balla qiymətləndirilmişdir.

*İstifadə olunması və məhsulunun xüsusiyyətləri*: Qiymətli süfrə üzüm sortudur. Salxımları cəlbedici əmtəə görünüşünə, xarakterik dada malikdir və qış dövrü asma üsulu ilə sərin otaqda saxlanıla bilər. Üzümü həm təzə halda, həm də mövüc hazırlanmasında istifadə olunur. Ondan hazırlanan mövücün tərkibində ümumi şəkərliliyi 67,2 q/100 $sm^3$, turşuluğu 2,50 q/$dm^3$, C vitamini 3,20 mq%, ümumi nəmlik 18,4 % olmuşdur. Təzə üzüm məhsullarının orqanoleptik qiyməti 8,0 bal olmuşdur. Uzaq məsafəyə nəqliyyatla daşınmağa davamlıdır. Təzə məhsulun 3,0 kq-dan 1,0 kq mövüc alınır.

*Klon və variasiyaları:* Yoxdur.

HAÇABAŞ

*Ачабаш - Hachabash*

## XATINBARMAĞI
## Хатынбармаги – Khatynbarmagy

Xalq seleksiyası ilə yaradılmış, çox xoşagəlimli əmtəə görünüşünə malik olan Naxçıvan MR-nın azyayılan aborigen süfrə üzüm sortudur. Azərbaycanın digər bölgələrində rast gəlinmir. Sortun gilələri uzunsov, uc hissəsi nisbətən sivri, rəngi ağ, qabığı isə çox nazik olduğundan, qadın barmağına bənzədilməklə Xatınbarmağı adlandırılmışdır. Botaniki xüsusiyyətlərinə və morfoloji əlamətlərinə görə Şərq üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) ekoloji-coğrafi yarımqrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri çox güclü inkişafetmə xüsusiyyətinə malikdir. Yaşıl zoğları maili vəziyyətdə ətrafa yayılırlar. Yazda inkişaf edən tumurcuqların miqdarı 95,0 %-ə çatır. Məhsuldar zoğlar isə ümumi zoğların 48,6 %-dən çoxunu təşkil edir.

*Yaşıl zoğlar:* İnkişaf etməkdə olan yaşıl zoğların tacı və 3-5-ci yeni yarpaqları açıq-yaşıl rənglidir, üzərlərində tükcüklər olmur, parlaqdır. Yoğunlaşmış yaşıl zoğun aşağı hissələri isə açıq- göyümtül rənglidir.

*Birillik zoğlar:* Vegetasiyanın sonunda birillik zoğların orta uzunluğu 142,0 sm-dir. Münbit torpaqlarda zoğların uzunluğu 250,0 sm-ə qədər uzana bilir. Birillik zoğlarda buğumaraları açıq sarımtıl-qəhvəyi, buğumlarda isə açıq qəhvəyi rənglidir.

*Yarpaq:* Yarpaqları orta irilikdədir (diam. 14,0-14,5 sm), yarpaq indeksi 0,96, əsasən dairəvi formada, üzəri açıq-yaşıl rənglidir, alt hissəsində tükcüklər yoxdur. Səthi hamardır, kənarları yuxarı yönəlmişdir, beşpəncəlidir. Orta damarın uzunluğu 13,0-14,0 sm, yarpaq səthinin ümumi sahəsi 135,86 $sm^2$-ə bərabərdir. Yuxarı yan kəsiyi orta dərinliklərdədir, əsasən açıq, bəzən azca qapalı formalarda olur. Açıq yan kəsiyi ensiz liraşəkilli, iti diblidir. Aşağı yan kəsikləri əsasən dayaz və orta dərinlikdə, ensiz liraşəkillidir. Yarpaqlarda pəncələrin ucu qısa, enli oturacaqlı, ucu küt dişciklə qurtarır. Kənar dişcikləri çox xırdadır, müxtəlif uzunluqda, küt uclu, enli oturacaqlıdır. Yarpaqların alt hissəsində yaxşı damarlanma olmaqla, üzəri çılpaqdır. Bəzi hallarda pəncə damarlarının üzərində ağ qısa qılçıqlara rast gəlinir. Xəzan dövrü yarpaqların rəngi saralır.

*Saplaq:* Yarpaqlarda saplağın (13,0-14,0 sm) uzunluğu yarpaqdakı orta damarın uzunluğundan bir qədər artıqdır. Rəngi açıq-sarımtıldır. Saplaq oyuğu qapalıdır, əsasən ensiz kəsikli formadadır.

*Çiçək:* Funksional dişi cinsli çiçək qrupuna malikdir. Çox qısa və dişiciyin yanlarına əyilən rudiment erkəkciklərin sayı 5, nadir hallarda 6 ədəd olur. Dişiciyi üst formalıdır, yumurtaşəkillidir. Çarpaz tozlanır, ən yaxşı tozlayıcısı kişmişi sortlarıdır.

*Salxım:* Salxımları çox müxtəlif çəkilərə malik olmaqla, əsasən şaxəli, bəzən iki qanadlı-konusvari formadadır. Tənəyin orta yarısından dərilmiş salxımların uzunluğu 16,0-22,0 sm, eni 12,0-14,0 sm-dir. Gilələr əsasən seyrək, bəzən orta sıxlıqda yerləşirlər. Salxımların saplağı orta uzunluqdadır (4,0-7,0 sm) zəif odunlaşır, yaşıl rənglidir, məhsulun tam yetişmə dövrü salxımları bar qolundan asanlıqla qopur. Darağın çəkisi 4,5-5,0 q-dır.

*Gilə:* Salxımda iri gilələr uzunsovdur, uc hissəsi sivridir, qabığı sarımtıl-göy rənglidir və üzəri ağ mum qatı ilə örtülür. Gilələrin uzunluğu 19,0-20,0 mm, eni isə 12,0-14,0 mm- ə çatır. Qabığı çox nazikdir, tam yetişmə dövrü günəş düşən tərəfi açıq- qəhvəyi rənglənir. Lətli-şirəli, xoşagəlimli dada malikdir, qabığı lətli hissədən çətin ayrılır. Hər gilədə 3-4ədəd yaxşı inkişaf etmiş toxum olur.

*Toxum:* Toxumları orta irilikdədir, uzunluğu 5,6 mm, eni 3,1 mm, oval formalıdır, açıq qəhvəyi rənglidir. Xalaza demək olar ki, dairəvi formalıdır. Toxumun alt hissəsindəki şırım uc hissəyə qədər uzanır və itir. Toxumun uc hissəsi uzun silindrik formadadır. 100 toxumun kütləsi 6,8-7,2 q-dır.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya dövrü:* Tumurcuqların açılması10-15 aprel, çiçəkləmə 12-20 iyunda, meyvələrin yetişməsi 21-28 sentyabr aylarına təsadüf edir. Gec yetişən sortdur. Məhsulu sentyabr ayının axırlarında, oktyabrın əvvəllərində tam fizioloji yetişkənliyə çatır. Tam fizioloji yetişkənlik üçün 4300-4350$^0$C temperatur sərf olunur. Salxımları oktyabr ayının ikinci ongünlüyünə qədər tənəklərdə qalır. Vegetasiya dövrü 150-160 gün davam edir.

*Məhsuldarlığı:* Yüksək məhsuldar sortdur, şpaler, tum və talvar sistemi ilə becərilir. Şpaler sistemi ilə becərilmədə 70-85 bar yükündə bir tənəkdən 12-15 kq məhsul toplanılır. Hər hektardan orta hesabla 350- 400 sentnerdən çox məhsul əldə etmək mümkündür. Salxımlarda çox az miqdarda xırdagilələlik müşahidə olunur. Məhsuldarlıq əmsalı tənəklərdə 0,55, barlı zoğlarda isə 1,3-dir. Barlı zoğların məh-suldarlığı 572,0 q-dır. Gilələrdə lətli hissə 91,7 % təşkil etsə də ümumi şirə çıxımı 80,0 %, şirəsində şəkərliliyi 16,0-17,0 q/100 sm$^3$ olmaqla, turşuluğu 6,5-7,5 q/dm$^3$-dir. Məhsulu xoşagəlimli əmtəə görünüşünə malik olmaqla, nəqliyyatla daşınmağa davamsızdır. Bar qolundan dərildikdən sonra darağı və gilə saplaqları tez solur.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабая |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует или очень слабое |
| 017 | длина усиков | 3 | короткие, 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 4 | семь лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 5 | волнистый |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 1 | отсутствует или очень слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 5 | закрытая |
| 082 | форма [тип] верхних вырезок | 3 | лопасти слегка перекрываются |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое (очень редкое) |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 3 | среднее |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревесневшего побега | 1 | желтая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 3 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 5 | 2,1 – 3 соцветия |
| 204 | плотность грозди: | 3 | рыхлая |
| 206 | длина ножки грозди | 5 | средняя, приблизительно 7 см |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 7 | длинная, до 23 мм |
| 223 | форма ягод: | 6 | тупояйцевидная |
| 225 | окраска кожицы | 1 | зеленовато-белая |
| 228 | толщина кожицы | 1 | очень тонкая |
| 230 | окраска мякоти | 1 | неокрашена |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная |
| 234 | плотность мякоти | 2 | не очень твердая |
| 235 | степень плотности мякоти | 2 | не очень твердая |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 5 | средняя, до 10 мм |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 3 | малая, до 25 мг |
| 301 | время распускания почек | 7 | позднее |
| 303 | начало созревания ягод | 7 | позднее |
| 304 | физиологическая зрелость ягод | 7 | поздняя |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 7 | высокая |
| 453 | степень устойчивости к милдью гроздей | 7 | высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 7 | высокая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 7 | высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 5 | средняя |
| 459 | степень устойчивости к серой гнили гроздей | 5 | средняя |
| 504 | масса гроздей с 1 га [урожайность] | 9 | очень высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 3 | низкое, приблизительно 15 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | средняя |
| 604 | степень вызревания побегов, %: | 9 | очень высокая |
| 629 | продолжительность продукционного периода, дни | 7 | позднего (156-165 дней) |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 7 | высокая |

## The ampelo-descriptive properties of the variety

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 4 | seven |
| 074 | Side view of the leaf (profile) | 3 | involutes |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 5 | closed |
| 082 | Shape of upper side sinus | 3 | slightly overlapped |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Size of bunch (length + width) | 5 | medium |
| 204 | Density of berries in the bunch | 3 | loose |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 7 | long (about 19-23 mm) |
| 223 | form of berries: | 3 | broad ellipsoid |
| 225 | skin coloration | 1 | very thin |
| 228 | Thickness of the skin in the berry | 1 | very thin |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 7 | long (about 12-16 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 3 | low (about 10-25 mg) |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 9 | very high (about 17 s/ha and more) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 3 | low (about 14 -17 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 5 | medium (about 7-9 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 9 | very high (about 96,0% and more) |
| 629 | Time of vegetation till full ripening of crop | 7 | late ripening (161 -170 days) |

*Çubuqlarda mumyetişmə:* Payızın sonunda, yarpaqların tökülməsi dövrünə qədər birillik çubuqlarda 95-97 % mumyetişmə müşahidə edilir. Çubuqların mumyetişməsi 5 balla qiymətləndirilmişdir.

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Düzən ərazilərdə salxımları mildiuya 2-3 bal, oidiuma isə 1-2 bal yoluxma müşahidə edilsə də, başqa sortlarla müqayisədə az dözümlü sortdur. Dağətəyi və dağlıq ərazilərdə mildiu və oidium xəstəliklərinə nisbətən az yoluxur. Salxım yarpaqbükəninə yoluxmur. Tənəkləri mənfi $19^0$C-dək şaxtalara dözümlüdür.

*Klon və variasiyaları:* Müşahidə edilməyibdir.

XATINBARMAĞI

*Хатынбармаги - Khatynbarmagy*

## XATINI
## Хатуни – Khatyny

Naxçıvan MR-nın aborigen, xalq seleksiyası üzüm sortudur. Azərbaycanın digər ərazilərində, Şimali Qafqazda, Ermənistanda, Rusiya Federasiyasında, Ukraynada və s. yerlərdə rast gəlinir. Biomorfoloji xüsusiyyətlərinə və aqrobioloji əlamətlərinə görə Şərq üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) ekoloji-coğrafi yarımqrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri orta inkişaf xüsusiyyətinə malikdir. Yaşıl zoğları maili vəziyyətdə inkişaf edərək kollanır. Yazda inkişaf edən tumurcuqların 91,0 %-dən yaşıl zoğlar inkişaf edir. Məhsuldar zoğlar isə ümumi zoğların 70,0 %-ni təşkil edir.

*Yaşıl zoğlar:* İnkişaf etməkdə olan yaşıl zoğların tacı və 3-5-ci yeni yarpaqları açıq-yaşıl rənglidir, üzərlərində tükcüklər olmur, parlaqdır. Yoğunlaşmış yaşıl zoğun aşağı hissələri açıq-göyümtül rənglidir.

*Birillik zoğlar:* Birillik zoğların orta uzunluğu 1,5-2,0 m-ə çatır, münbit torpaqlarda isə zoğların uzunluğu 3 m-ə qədər uzanır. Birillik çubuqlarda buğumaraları solğun qəhvəyi, buğumlarda isə nisbətən tündləşir, üzərində zəif tünd rəngdə qısa zolaqlar olur.

*Yarpaq:* Yarpaqları orta irilikdədir (diam. 14,5-13,5 sm), əsasən dairəvi formadadır, açıq-yaşıl rənglidir, alt hissəsində tükcüklər yoxdur. Səthi zəif torluqırışıqlıdır, kənarları yuxarı yönəlmişdir və beşpəncəlidir. Yuxarı yan kəsiyi orta dərinliklərdədir, əsasən açıq, bəzən azca qapalı formalarda olur. Açıq yan kəsiyi liraşəkilli, iti diblidir. Aşağı yan kəsikləri əsasən itibucaqşəkillidir, bəzən ensiz kəsikli olur. Yarpaqda pəncələrin ucu qısa, enli oturacaqlı, ucu küt olan dişiciklə qurtarır. Kənar dişicikləri çox xırdadır, müxtəlif uzunluqda olmaqla, küt uclu, enli oturacaqlıdır. Yarpaqların alt hissəsində yaxşı damarlanma olmaqla, çılpaqdır, tükcüklər yoxdur. Bəzi hallarda damarlar üzərində ağ qısa qılçıqlara rast gəlinir.

*Saplaq:* Saplağın uzunluğu yarpaqda orta damarın uzunluğuna uyğun gəlir, açıqsarımtıl rənglidir. Saplaq kəsiyi açıq, enli kəsikli formadadır.

*Çiçək:* Funksional dişi cinsli çiçək qrupuna malikdir. Çox qısa və dişiciyin ətrafına əyilən rudimentləşmiş erkəkciklərin sayı 5, nadir hallarda 6 ədəd olur. Kişmişi sortları ilə yaxşı tozlanır.

*Salxım:* Salxımları normal halda qanadlı-konusvari formalıdır, çox müxtəlif çəkilərdə (150 q-dan 870 q-a qədər) olur. Tənəyin orta yarısından dərilmiş salxımların uzunluğu 16,0-22,0 sm, eni 10,0-12,0 sm- ə çatır. Salxımda gilələr sıx, və

ya orta seyrəklikdə yerləşirlər. Salxım saplağının orta uzunluğu 4-6 sm-dir, yaşıl rənglidir, məhsulun tam yetişmə dövründə odunlaşır və bar qolundan çətin qopur. Darağın çəkisi 4,0-4,4 q-dır.

*Gilə:* Salxımda iri gilələr kürə formalıdır, sarımtıl-göy rənglidir, üzəri ağ mum qatı ilə örtülür. Gilələrin diametri 14,0-18,0 mm olmaqla, qabığı qalındır, tam yetişmə dövrü günəş düşən tərəfi qalınlaşaraq açıq-qəhvəyi rəngli olur. Gilələri lətli-şirəli, xoşagəlim dada malikdirlər, qabığı lətli hissədən çətin ayrılır. Hər gilədə 3-4 ədəd yaxşı inkişaf etmiş toxum olur.

*Toxum:* Toxumları orta irilikdədir, tünd-qəhvəyi rənglidir, 100 toxumun çəkisi 6,0-6,5 q-dır. Uzunluğu 5,4 mm, eni 3,2 mm, oval formalıdır, açıq qəhvəyi rənglidir. Xalaza demək olar ki, dairəvi formalıdır. Toxumun alt hissəsindəki hündür şırım ucuna qədər uzanır və itir. Toxumun ucu uzun silindrik formadadır.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya dövrü:* Orta gec yetişən sortdur. Tumurcuqların açılması 07-13 aprel, çiçəkləmə 07-12 iyunda, məhsulu sentyabr ayının axırlarında, oktyabrın əvvəllərində tam texniki yetişkənliyə çatır. Vegetasiya dövrü 180-190 gün davam edir. Tam fizioloji yetişkənlik üçün 4380-4403$^0$C aktiv temperatur sərf olunur. Yetişmiş məhsulunu tənəklərdə ilk qar düşənə qədər saxlamaq olur.

*Məhsuldarlığı*: Yüksək məhsuldar sortdur. Şpaler, tum və talvar sistemi ilə becərilir. Şpaler sistemi ilə becərilmədə 70-85 bar yükündə bir tənəkdən 10-12 kq məhsul toplanılır. Hər hektardan orta hesabla 200,0-220,0 sentnerdən çox məhsul toplanılır. Salxımlarda xırdagilələlik müşahidə olunmur, yaxud çox azdır. Məhsuldarlıq əmsalı, tənəkdə 0,70, barlı zoğlarda isə 1,0-dir. Gilələrdə lətli hissə 91,1%, ümumi şirə çıxımı 79,0 %, şirəsində şəkərliliyi 17,0-19,0 q/100 sm$^3$ olmaqla turşuluğu 5,7-6,5 q/dm$^3$-dir. Məhsulu xoşagəlim əmtəə görünüşünə malik olmaqla nəqliyyatla daşınmağa davamlıdır. Darağı və gilə saplaqları nisbətən gec soluxur.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабая |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует или очень слабое |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 017 | длина усиков | 3 | короткие, 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 4 | семь лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 5 | волнистый |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 1 | отсутствует или очень слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 3 | открытая |
| 082 | форма [тип] верхних вырезок | 3 | лопасти слегка перекрываются |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое (очень редкое) |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревеснevшего побега | 1 | желтая |
| 151 | тип цветка | 4 | женский, завернутые тычинки и полностью |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 5 | 2,1 – 3 соцветия |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 5 | средняя, приблизительно 7 см |
| 207 | одревеснение ножки грозди | 5 | среднее, до середины |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 2 | сферическая |
| 225 | окраска кожицы | 1 | зеленовато-белая |
| 228 | толщина кожицы | 7 | толстая |
| 230 | окраска мякоти | 1 | неокрашена |
| 232 | сочность мякоти | 1 | недостаточно сочная |
| 234 | плотность мякоти | 2 | не очень твердая |
| 235 | степень плотности мякоти | 2 | не очень твердая |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 5 | средняя, до 10 мм |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 3 | малая, до 25 мг |
| 301 | время распускания почек | 7 | позднее |
| 303 | начало созревания ягод | 7 | позднее |
| 304 | физиологическая зрелость ягод | 9 | очень поздняя |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 7 | высокая |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 453 | степень устойчивости к милдью гроздей | 7 | высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 9 | очень высокая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 9 | очень высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 9 | очень высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 9 | очень высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 5 | среднее, приблизительно 18 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | средняя |
| 604 | степень вызревания побегов, %: | 9 | очень высокая |
| 629 | продолжительность продукционного периода, дни | 8 | очень позднего периода созревания (более 165 дней) |
| 630 | степень [процент] прорастания глазков | 9 | очень высокая |
| 631 | морозоустойчивость сорта | 7 | повышенная |
| 632 | устойчивость сорта к высокой температуре | 9 | очень высокая |

## The ampelo-descriptive properties of the variety

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 4 | seven |
| 074 | Side view of the leaf (profile) | 3 | involutes |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 5 | closed |
| 082 | Shape of upper side sinus | 3 | slightly overlapped |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 4 | reflexed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Size of bunch (length + width) | 5 | medium |
| 204 | Density of berries in the bunch | 5 | medium |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 5 | medium (about 14-18 mm) |
| 223 | form of berries: | 2 | globose |
| 225 | skin coloration | 1 | very thin |
| 228 | Thickness of the skin in the berry | 7 | thick |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 5 | medium (about 8-12 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 3 | low (about 10-25 mg) |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 9 | very high (about 17 s/ha and more) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 5 | medium (about 18-20 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 5 | medium (about 7-9 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 9 | very high (about 96,0% and more) |
| 629 | Time of vegetation till full ripening of crop | 8 | very late ripening (v.p. 171 days and more) |

*Xəstəliklərə, ziyanvericilərə və şaxtalara dözümlülüyü:* Düzən ərazilərdə mildiuya və oidiuma 0-1 bal yoluxma müşahidə edilsə də, başqa sortlarla müqayisədə dözümlü sortdur. Dağətəyi və dağlıq ərazilərdə mildiu və oidium xəstəliklərinə çox davamlıdır. Salxım yarpaqbükəninə yoluxmur. Tənəkləri mənfi $19^0$C-ə qədər şaxtalara dözümlüdür.

*Çubuqlarda mumyetişmə:* Payızın sonunda, yarpaqların tökülməsi dövrünə qədər birillik çubuqlarda 90-95 % mumyetişmə müşahidə edilir və 5 balla qiymətləndirilmişdir.

*İstifadə edilən məhsulun xüsusiyyətləri:* Həm süfrə, həm də texniki məqsədlər üçün geniş istifadə edilir. Təzə üzüm məhsulunun dequstasiya qiyməti 8,6 bal olmuşdur. Tünd şərabların hazırlanmasında geniş istifadə edilir.

*Klon və variasiyaları:* Müşahidə edilməyibdir.

XATINI

*Хатуни - Khatyny*

## İRİSALXIMLI
## Ирисалхымлы – Irisalkhymly

Azərbaycanın ən qədim və qiymətli aborigen üzüm sortlarındandır.Xalq seleksiyasi yolu ilə yaradılmışdır. Yarandığı ərazi məlum deyildir. Sortun adı salxımların formasına görə verilmişdir. Abşeron yarımadasında və Kür-Araz ovalığı bölgələrində geniş ərazilərdə becərilməsi perspektivlidir. Botaniki əlamətlərinə və aqrobioloji xüsusiyyətlərinə görə sort Şərq süfrə sortları qrupuna *(convar orientalis subconvar antasiatica*Negr.) daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiuyyətləri**

*Tənək:* Azərbaycanın müxtəlif bölgələrində (Mil-Qarabağ, Gəncə-Qazax, Şamaxı, Abşeron) həyətyanı sahələrdə yayılmışdır. Qara, şabalıdı karbonatlı torpağı olan ərazilərdə tənəkləri daha yaxşı inkişaf edir. Tənəklərin inkişafı və kollanması güclüdür. Zoğları tez yoğunlaşır və yarımdik vəziyyətdə ətrafa yayılır. Tənəklərdə tumurcuqların açılması 92,0 %, məhsuldar zoğlar isə 57,2 %-dən çoxdur.

*Birillik zoğlar:* Tənəklərin böyümə gücü yüksəkdir. Birillik zoğların inkişafı müxtəlif uzunluğa (115,0-280,0 sm) malikdir. Yatmış tumurcuqlardan inkişaf edən birillik zoğların uzunluğu bəzən 3,5-4,0 m-ə çatır. Buğumaraları başqa sortlara nisbətən qısadır, 3-12-ci buğumlarda orta uzunluğu 5-7 sm-dir. Çubuqların rəngi buğumaralarında açıq-qəhvəyi, buğumlarda isə qəhvəyi rənglidir. Üzəri müxtəlif ölçülü tünd qısa zolaqlalarla örtülüdür.

*Yaşıl zoğlar:* Yazda inkişaf edən zoğların tacı və 3-5-ci yarpağın üzəri çılpaq olur. Yeni açılmış yarparların alt səthində ağ tükcüklərə və damarlar üzərində xırda qılçıqlara rast gəlinmir. Təzə yarpaqların üzəri isə torlu-qabarıqlıdır, parlaq yaşıl rənglidir. Zoğların yoğunlaşmış hissələri isə yaşılımtıl rənglidir.

*Yarpaq:* Yarpaqları orta ölcülüdür, əsasən dəyirmi formalıdır (diam. 16,0-18,5 sm, yarpaq indeksi 0,96, sahəsi 200,23 $sm^2$, orta damarın uzunluğu 8,7 sm), beşpəncəlidir, səthi parlaq yaşıl rənglidir, kənarları isə yuxarı yönəlir. Yarpağın alt səhtində, damarlar üzərində tükcüklərə və qılçıqlara rast gəlinmir. Yuxarı yan kəsikləri orta dərinlikdə, əsasən açıq, ensiz liraşəkilli, enli diblidir. Dayaz yan kəsikləri olan yarpaqlara da rast gəlinir. Aşağı yan kəsikləri dayaz, itibucaq formalı, bəzən kəsiksiz, bütöv formada olan yarpaqlara da rast gəlinir. Pəncələrin ucundakı dişciyi uzun, enli oturacaqlı, kənar dişcikləri isə xırda, müxtəlif ölcülü, ucları küt, enli oturacaqlıdır.

*Saplaq:* Saplağı açıq-yaşılımtıl-qəhvəyi rənglidir, orta damardan bir qədər qısadır. Saplağın uzunluğu 8,0-8,2 sm-dir. Saplaq oyuğu əsasən qapalıdır, ensiz kəsiklidir, bəzən aşıq, ensiz tağ formasında olur.

*Çiçək:* İkicinsli çiçək qrupuna malikdir. Erkəkcik saplağı çox uzundur. Tozluqları iri və üst formalı yumurtalığı yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi yüksək olub 91,0-93,0 %-ə bərabərdir.

*Salxım:* Xarakterik salxımları konusvari, silindrik-konusvari formalarda olur, uzunluğu 20-28 sm, eni 9-16 sm-ə çatır. Salxımların orta kütləsi 322 q-dır; Salxımlarda gilələr tozlanmadan asılı olaraq orta sıxlıqda yerləşir. Saplağın uzunluğu 5,0-7,0 sm-dir, məhsulun yetişmə dövrü zəif odunlaşır. Salxımlarda 0,5-1,2% xırdagiləlik müşahidə olunur

*Gilə:* Gilələri nisbətən iridir, uzunluğu 24-27 mm, eni 17-21 mm-dir, əsasən uzununa oval formalıdır. Gilələrin qabığı yaşılımtıl-sarı, tam yetişdikdə isə qızılı-sarı, yaxud kəhrəba rəngində olur. Rənglənmə intensivliyi aktiv temperaturun miqdarından asılıdır. Gilələri bərk, lətli-şirəli, qabığı nisbətən nazikdir, lətli hissə rənsiz olmaqla qabıqdan asanlıqla ayrılır. Qabığı qalın və elastikdir. Üzəri seyrək və zərif mum təbəqəsi ilə örtülmüşdür. Hər bir gilədə 1-3 ədəd toxum olur.

*Toxum:* Toxumları orta irilikdədir (uzun. 5,7 mm, eni 4,2 mm), üzərindəki xalaza basıq halda oval formalı, qəhvəyi rənglidir. Toxumun alt nahiyəsindəki qabarıq şırım dimdiyə qədər uzanaraq yox olur. Dimdiyi uzundur, ucu isə zəif ağarır.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya müddəti:* Gecyetiçən üzüm sortudur. Aran zonalarda tənəklərdə tumurcuqların inkişafı aprel ayının birinci ongünlüyündə, çiçəkləmə iyun ayının birinci ongünlüyündə baş verir. Məhsulu isə aran ərazilərdə sentyabr ayının üçüncü ongünlüyündə, dağətəyi ərazilərdə isə oktyabr ayının əvvəllərində tam fizioloji yetişkənliyə çatır. Vegetasiya müddəti çiçəkləməyə qədər 50- 65 gün, məhsulun tam yetişməsinə qədər isə 150-160 gün davam edir. Məhsulun tam yetişkənliyə çatması üçün $3700^0$C aktiv temperatur tələb olunur.

*Məhsuldarlığı:* Tənəklərə ştambsız yelpik və ya maili çoxqollu kordon forması verilir. Bir tənəkdən orta məhsuldarlığı şpaler sistemi ilə becərilmədə 6,0-8,0 kq-dır. Həyətyanı sahələrdə talvar sistemi ilə becərilmədə 15-20 yaşlı tənəklərdən 25,0-30,5 kq məhsul toplanılır. Məhsuldarlıq əmsalı tənəkdə 0,76, barlı zoğlarda 1,24-dür. Zoğlardan məhsuldarlıq 370,0 q-a çatır. Məhsulunda ümumi sirə çıxımı. 78,0 %, şəkərliliyi 20-22 q/100 $sm^3$, titrlənən,turşuluğu 5,0-6,2 q/$dm^3$ arasında dəyişir.Bir hektardan orta məhsuldarlığı 125,0-140,0 sentnerə yüksəlir.

*Xəstəliklərə, zərərvericilərə və şaxtaya davamlılığı:* Xəstəlik və ziyanvericilərə nisbətən dözümlüdür. Tənəklərdə və salxımlarda mildiuya yoluxma 0-2 bal, oidiuma və boz çürüməyə 0-1 bal yoluxma müşahidə olunmuşdur. Salxım yarpaqbükəninə, giləqurduna qarşı dözümlüdür. Filloksera yayılmış ərazilərdə bu ziyanvericiyə yoluxma müşahidə olunmuşdur. Mənfi $18^0$C-dən aşağı şaxtalarda tənəklərdəki bar tumurcuqları kütləvi məhv olur.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует или очень слабое (очень редкое) |
| 017 | длина усиков | 3 | короткие, 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое (очень редкое) |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 3 | пять лопастей |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 3 | слабая |
| 076 | форма краевых зубчиков | 2 | обе стороны прямые |
| 079 | форма черешковой выемки | 5 | закрытая |
| 082 | форма [тип] верхних вырезок | 1 | открытая |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое (очень редкое) |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое (очень редкое) |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 3 | короче |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревеснevшего побега | 1 | желтая |
| 151 | тип цветка | 3 | обоеполый, полностью развитые тычинки и гинецей |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 9 | очень длинная, до 24 см и больше |
| 204 | плотность грозди: | 5 | средней плотности |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 206 | длина ножки грозди | 7 | длинная, приблизительно 9 см |
| 207 | одревеснение ножки грозди | 7 | сильное, больше чем за середину |
| 220 | размер ягоды | 9 | очень длинная, до 28 мм и больше |
| 223 | форма ягод: | 5 | цилиндрическая |
| 225 | окраска кожицы | 1 | зеленовато-белая |
| 228 | толщина кожицы | 5 | средняя |
| 230 | окраска мякоти | 1 | неокрашена |
| 232 | сочность мякоти | 2 | средней сочности |
| 234 | плотность мякоти | 2 | не очень твердая |
| 235 | степень плотности мякоти | 2 | не очень твердая |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 7 | длинная, до 13 мм |
| 240 | степень трудности отделения от плодоножки | 3 | трудное |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 7 | большая, до 55 мг |
| 301 | время распускания почек | 7 | позднее |
| 303 | начало созревания ягод | 7 | поздняя |
| 304 | физиологическая зрелость ягод | 7 | поздняя |
| 351 | сила роста побега | 5 | средняя, 1,3–2,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 7 | высокая |
| 453 | степень устойчивости к милдью гроздей | 7 | высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 7 | высокая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 7 | высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 9 | очень высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 5 | средняя (9,0-12,0 т/г) |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 5 | среднее, приблизительно 18 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | средняя (7,0-9,0 q/ $dm^3$) |
| 604 | степень вызревания побегов, %: | 5 | средняя (1/2-2/3 длины) |
| 629 | продолжительность продукционного периода, дни | 7 | позднего (156-165 дней) |
| 630 | степень [процент] прорастания глазков | 5 | средняя |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

**The ampelo-descriptive properties of the variety**

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 1 | flat |
| 076 | Shape of teeth of the leaf | 2 | both sides straight |
| 079 | Shape of base of petiole sinus | 5 | closed |
| 082 | Shape of upper side sinus | 1 | open |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 3 | slightly shorter |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |
| 202 | Size of bunch (length + width) | 9 | very long |
| 204 | Density of berries in the bunch | 7 | dense |
| 206 | Length of the peduncle of the bunch | 7 | long |
| 220 | Size of berry (length + width) | 7 | long (about 19-23 mm) |
| 223 | form of berries: | 5 | cylindric |
| 225 | skin coloration | 1 | green yellow |
| 228 | Thickness of the skin in the berry | 5 | medium |
| 236. | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 7 | long (about 12-16 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 7 | high (about 40-55 mg) |
| 351 | Power growth on the shoot | 5 | medium (about 1,3-2,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 5 | medium (about 9-12 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 5 | medium (about 18-20 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 5 | medium (about 7-9 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 5 | medium (about 50,0-70,0%) |
| 629 | Time of vegetation till full ripening of crop | 5 | medium ripening (141-150 days) |

*Çubuqlarda mumyetişmə:* Çubuqların yetişməsi iyun ayının ortalarında başlayır. İlk şaxtalar düşənə kimi çubuqlarda mumyetişmə 94,0 %-ə yüksəlir. Birillik çubuqların mumyetişməsi 5 balla qiymətləndirilmişdir.

*Məhsullarının keyfiyyət xüsusiyyəti:* Təzə halda daha çox yeyilir. Cəlbedici əmtəə görünüşünə malik olduğundan, bazarlarda yüksək qiymətə satılır. Məhsulu çox şirin, özünəməxsus dada və keyfiyyətə malikdir. Tam yetişmiş məhsulundan müxtəlif şirələr, siroplar və məhsullar hazırlanır. Məhsulu nəqliyyatla daşınmağa dözümlüdür.

*Klon və variasiyaları:* Yoxdur.

İRISALXIMLI

*Ирисалхымлы – Irisalkhymly*

## KAL ÜZÜM
## Кял узюм – Kal uzum

Azərbaycanın çox az yayılan aborigen süfrə üzümü sortları qrupuna daxildir. Xalq seleksiyası yolu ilə yaradılmışdır. Fərdi həyətyanı üzüm sahələrində tənəklərinə rast gəlinir. Əsasən toxum, şpaler sistemi ilə becərilir. Talvarda daha çox məhsul verir. Sortun el arasında Kal üzüm adlandırılması salxımlarda gilələrin tez qızarması nəticəsində, yəni tam yetişməmiş halda bir qədər turş olan dövrdə yeyilməsi ilə səciyyələnir. Kal üzüm sortu Qarabağ-Mil, Gəncə-Qazax və Abşeron bölgələri üçün perspektivlidir. Morfoloji əlamətlərinə və aqrobioloji xüsusiyyətlərinə görə Şərq süfrə üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) ekoloji-coğrafi yarımqrupuna daxildir.

*Sinonimi:* Yoxdur.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri orta inkişafetmə xüsusiyyətinə malikdir. Çubuqları yarımdik vəziyyətdə ətrafa yayılır və kollanır.Yazda tumurcuqların açılması 82,0 % məhsuldar zoğları isə 50,0 % olmaqla ümumi zoğların yarısını təşkil edir.Sortun tənəklərinə quru budanma dövrü şpaler becərilmə sistemində çoxqollu yelpik formasının verilməsi və 7-12 tumurcuqların bar yükündə saxlanılması məqsədəuyğundur.

*Birillik zoğ:* Birillik zoğlarının uzunluğu 150,0-220,0 sm, buğumaraları 6,5 - 9,0 sm-dir. Payızda çubuqlarda buğumaraları qəhvəyi rəngli, buğumlarda isə tündləşir. Üzərində tünd rəngli xırda ləkə və zolaqlar olur.

*Yaşıl zoğ:* İnkişaf etməkdə olan yaşıl zoğların tacı və yeni açılmış 3-5-ci yarpaqda tükcüklər müşahidə olunur.Təzə yarpaqların üzəri parlaq yaşıl, kənarları qəhvəyi rəngli antosian piqmentli zolaqla əhatə olunmuşdur. Yeni zoğların yuxarı hissələri açıq-qəhvəyi, yoğunlaşmış hissələri isə açıq göy-yaşıl rənglidir.

*Yarpaq:* Yarpaqların orta diametri 17,0 - 20,0 sm, indeksi 1,0, sahəsi 195,64 $sm^2$, üzəri hamardır, tünd-yaşıl rəngdədir, əsasən dairəvi formalıdır, səthi düzdür. Orta damarın uzunluğu 11,0-12,5 sm olur. Alt səthində ağ torabənzər tükcüklərə və qılçıqlara rast gəlinir.Yarpaqları beşpəncəlidir. Yuxarı yan kəsikləri əsasən dayaz iti bucaqşəkilli, bəzən orta dərinlikdə, ensiz liraşəkillidir. Aşağı yan kəsiyi dayaz əsasən iti bucaqşəkilli, bəzən də orta dərinlikdə ensiz liraşəkillidir.Yarpaqlarda orta pəncənin ucundakı dişiciyin ucu küt, enli oturacaqlıdır. Kənar dişicikləri müxtəlif ölçüdədir, xırda mişardişlidir. Yarpaq pəncələrinin ucundakı və kənarındakı dişcikləri xırda, ucu iti, enli oturacaqlıdır. Yarpaqları payızda sarı-qəhvəyi rənglənir.

*Saplaq:* Saplağı açıq-yaşıl rənglidir, 10,0-12,0 sm uzunluqda olur. Saplaq oyuğu açıq kəsikli, paralel tərəfli, ensiz tağlı formalıdır.

*Çiçək:* Çiçəkləri ikicinslidir. Çiçək orqanları yaxşı inkişaf etmişdir. Erkəkcik saplağı uzundur. Yumurtalığı üst formalıdır, uzununa oval şəkillidir. Çiçək salxımlarında tozlanma dövrü gilətutma 20-35 %-dən çox olur.

*Salxım:* Salxımları əsasən enli konusvari formadadır. Tənəklərdə uzunluğu 14,0-22,0 sm, eni 10,0-15,0 sm olan salxamlara rast gəlinir. Salxımların orta kütləsi 160-270q təşkil edir. Gilələr salxımlarda əsasən orta sıxlıqda yerləşir. Salxım saplağı 5-6 sm-dir. Məhsulun tam yetişən vaxtı salxım saplağında odunlaşma orta dərəcədədir. Daraq salxımın ümumi kütləsinin 3,7-4,7 %-ni təşkil etməklə sarımtıl-ağ rənglidir.

*Gilə:* Gilələri orta ölçüdə, qırmızımtıl-çəhrayi rənglidir. Uzunluğu 15-22 mm, eni 12-16 mm-dir. Girdə-oval formalı gilələrin orta kütləsi 4,5 q olmaqla, gilə saplağı uzundur. Gilə üzərində qalın boz rəngli mum qatı vardır.Qabığı qalın, möhkəm və elastikdir. Gilələri nisbətən bərk olub, yeyildikdə zəif xırçıldayır. Dadı şirin və xoşagəlimdir. 100 gilənin kütləsi 280-312 q-dır.Giləsində 1-3 ədəd toxum vardır.

*Toxum:* Toxumları qəhvəyi rənglidir, uzunsov formadadır, xalaza basıq oval şəkillidir. Toxumun ucu kütdür, künbəzə bənzəyir. 100 toxumun kütləsi 5,2 q-dır.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya dövrü:* Gecyetişən süfrə üzüm sortları qrupuna daxildir. Azərbaycanın düzən və dagətəyi ərazilərində erkən yazda tumurcuqların inkişafı aprel ayının əvvəllərində, çiçəkləməsi iyun ayının ortalarında, məhsulu isə sentyabr ayının üçüncü ongünlüyündə fizioloji yetişkənliyə çatır. Abşeron şəraitində məhsulun tam yetişməsinə qədər 155-165 gün davam edir. Tam yetişməsi üçün 3200-3450$^0$C aktiv temperatur sərf olunur.

*Məhsuldarlığı:* Yüksək məhsuldar sortdur. Şpaler sistemində 2,5 x 1,2 m qida sahəsində hər tənəkdən 13-16 kq, hər hektardan isə 150-200 sentner məhsul toplamaq mümkündür. Tənəkdə 250,0-450,0 q kütləsi olan salxımlara rast gəlinir. Məhsuldarlıq əmsalı tənəklərdə 0,70, barlı zoğlarda 1,2-dir. Bir tənəkdən məhsuldarlığın orta göstəricisi 7,0 kq-dır. Salxımların 76,6%-i şirədən, 12,6%-i qabıq və lətin qalığından, 5,2%-i daraqdan, 5,6 %-i toxumdan ibarətdir. Giləsində şəkərliliyi 16,6-18,8 q/100 sm$^3$, titrlənən turşuluq isə 4,4-6,8 q/dm$^3$ arasında olur.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабое |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 5 | среднее |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 1 | отсутствует или очень слабое |
| 017 | длина усиков | 3 | короткие, до 15 см |
| 053 | паутинистое опушение на главных жилках: | 3 | слабое (редкое) |
| 065 | величина [площадь] пластинки листа | 5 | средняя |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 5 | средне-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 3 | слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 3 | открытая |
| 082 | форма [тип] верхних вырезок | 2 | закрытая (лопасти соприкасаются) |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 3 | слабое (редкое) |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 3 | слабое (редкое) |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 3 | среднее |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревесневшего побега | 2 | коричневатая |
| 151 | тип цветка | 3 | обоеполый, полностью развитые тычинки и гинецей |
| 153 | количество соцветий на побеге | 1 | одно соцветие |
| 202 | величина грозди [длина + ширина]: | 7 | длинная, до 20 см |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 5 | средняя, приблизительно 7 см |
| 207 | одревеснение ножки грозди | 7 | сильное, больше чем за середину |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 2 | сферическая |
| 225 | окраска кожицы | 2 | розовая |
| 228 | толщина кожицы | 5 | очень тонкая |
| 230 | окраска мякоти | 1 | отсутствует |
| 232 | сочность мякоти | 2 | средней сочности |
| 234 | плотность мякоти | 2 | плотная |
| 235 | степень плотности мякоти | 2 | не очень твердая |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 9 | очень длинная, 16 мм и более |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 5 | средняя, до 40 мг |
| 301 | время распускания почек | 7 | поздняя |
| 303 | начало созревания ягод | 7 | поздняя |
| 304 | физиологическая зрелость ягод | 7 | поздняя |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 7 | высокая |
| 453 | степень устойчивости к милдью гроздей | 7 | высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 7 | высокая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 7 | высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 7 | высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 7 | высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 3 | низкое, приблизительно 15 % (г/100 см$^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 7 | высокая |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая (2/3-6/7 длины) |
| 629 | продолжительность продукционного периода, дни | 7 | позднего (156-165 дней) |
| 630 | степень [процент] прорастания глазков | 7 | высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 5 | средняя |

**The ampelo-descriptive properties of the variety**

| *The morphological signs* | | *Appearance of the heritable sig* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 5 | medium |
| 053 | White prostrate hairs on the young leaves | 3 | low |
| 065 | Space of the leaf blade | 5 | medium |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 3 | involutes |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 3 | open |
| 082 | Shape of upper side sinus | 2 | closed |
| 084 | Density of white prostrate hairs between the main veins | 3 | low |
| 085 | Density of white erect hairs between the main veins | 3 | low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 1 | up to 1 inflorescence |
| 202 | Size of bunch (length + width) | 7 | long |

| *The morphological signs* | | *Appearance of the heritable sig* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 204 | Density of berries in the bunch | 5 | medium |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 5 | medium (about 14-18 mm) |
| 223 | form of berries: | 2 | globose |
| 225 | skin coloration | 2 | rose |
| 228 | Thickness of the skin in the berry | 5 | medium |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 5 | medium (about 8-12 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 5 | medium (about 25-40 mg) |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 7 | high (about 13-16 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 3 | low (about 14 -17 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 7 | high (about 10-12 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | (2/3-6/7 длины) |
| 629 | Time of vegetation till full ripening of crop | 7 | strong (about 2,1-3,0 m) |

*Xəstəliklərə, ziyanvericilərə və şaxtaya dözümlülüyü:* Düzən və dağətəyi ərazilərdə göbələk xəstəliklərinə nisbətən dözümlüdür. Yarpaqlarda və salxımlarda mildiu və oidiuma 2-3 bal yoluxma qeydə alınmışdır. Boz çürüməyə isə 12,0-18,0 % yoluxma müşahidə edilmişdir. Fillokseraya qarşı davamsızdır. Abşeron şəraitində oidium və boz çürümə xəstəliklərinə yoluxma 4,5 bal olmuşdur.Salxım yarpaqbükəni ilə zəif sirayətlənir. Mənfi $19^0$C-ə qədər şaxtalara dözümlüdür.

*Tənəkdə mumyetişmə:* Birillik zoğlar qonur-sarı, buğum düyünləri isə açıq-qəhvəyi rəngdədir. Tənəklərdəki birillik zoğlarda mumyetişmə payızın sonunda 86,0-95,0 %-ə yühsəlir. Dağətəyi ərazilərdə zoğların mumyetişməsi nisbətən zəifləyir.

*Məhsulun istifadəsi*: Sort salxım və gilələrinin mexaniki xüsusiyyətlərinə görə tipik süfrə istiqamətlidir. Salxım və gilələrinin orqanoleptik göstəriciləri qənaətbəxşdir. Təzə halda daha çox istifadə edilir. Saxlanmaya və daşınmaya nisbətən davamlıdır.

*Klon və variasiyaları:* Müşahidə olunmamışdır.

KAL ÜZÜM

*Кял узюм – Kal uzum*

## KƏHRƏBA
## Кахраба – Kahraba

Naxçıvan MR-də az yayılan yerli süfrə üzüm sortudur. 1995-ci ildə aşkar olunmuşdur. Sortun adı gilələrinin kəhrəba rəngində olması ilə şərtlənir. Köhnə üzüm bağlarında rast gəlinir, həmçinin həyətyanı sahələrdə talvar, tum və şpaler sistemində becərilir. Azərbaycanın dağlıq və dağətəyi ərazilərində becərilməsi məqsədəuyğundur. Morfoloji əlamətləri və aqrobioloji xüsusiyyətlərinə görə Şərq üzüm sortları (*convar orientalis subconvar antasiatica* Negr.) ekoloji-coğrafi yarımqrupuna daxildir.

*Sinonimi:* Sarı üzüm.

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri güclü inkişaf etmək xüsusiyyətinə malikdir. Çubuqları yarımdik vəziyyətdə ətrafa yayılaraq, güclü kollanır. Tənəklərinə tum becərilmə sistemində üzəri torpaq qatı ilə örtülən ərazilərdə quru budanma dövrü ştabsız çoxqullu yelpik forması verilir. Şpaler becərilmə sistemində isə tənəklərə ştamblı ikitərəfli kordon forması verilməsi məhsuldarlığı artırır. Tənəkləri 40-60 il öz məhsuldarlığını saxlayır. Yazda tumurcuqların açılması 87,0 %-ə qədər, məhsuldar zoğları isə ümumi zoğların 46,3 %-dən çoxunu təşkil edir.

*Birillik çubuqlar:* Vegetasiyanın sonunda birillik zoğların orta uzunluğu 180,0 sm-ə çatır. Bəzən 3,0-3,6 m uzunluğunda olan birillik zoğlara da rast gəlinir. Birillik zoğlarda buğumaraları açıq qəhvəyi, üzərində tünd ləkə və qısa zolaqlar olur, buğumlarda isə tündləşir.

*Yaşıl zoğlar:* İnkişaf edən zoğların tacında və 3-5-ci təzə yarpaqlarda nəzərə çarpacaq qədər ağ tükcüklər olmur. Tac və yeni yarpaqların üzəri açıq yaşıl rənglidir. Yeni yaşıl zoğların uc nahiyəsi və yeni yarpaqların saplaqları açıq mavi, yoğunlaşmış hissələri isə yaşılımtıl-mavi rənglidir.

*Yarpaq:* Yarpaq ayası iridir, əsasən eninə oval formalıdır (uzun. 17,5 sm, eni 17,6 sm), bəzən dairəvi formalı yarpaqlara da rast gəlinir. Sahəsi 184,92 $sm^2$, indeksi 0,99-dur, orta damarın uzunluğu 11,0 sm-dir. Yarpaqları beşpəncəlidir, səthi hamardır, kənarları isə azca yuxarı yönəlmiş formadadır. Yarpaqları açıq-yaşıl rənglidir. Alt səthi zəif ağ torabənzər tükcüklə örtülür. Damarların üzərində isə təktək çox kiçik ölcülü qılçıqlara rast gəlinir. Yuxarı yan kəsikləri əsasən açıq ensiz liraşəkilli, itidiblidir. Bəzi yarpaqların yan kəsiyi orta dərinlikdə, qapalı formada, enli və ya ensiz kəsikli olur. Aşağı yan kəsiyi orta dərinlikdədir, əsasən açıq, ensiz liraşəkilli, iti diblidir. Yarpaq pəncələrinin uclarındakı dişiciyi mişardişli, iti uclu, enli oturacaqlıdır. Kənar dişcikləri müxtəlif uzunluqda, iti uclu, enli oturacaqlıdır. Xəzan dövrü yarpaqları açıq-sarı rənglənir.

*Saplaq:* Saplaq oyuğu həm açıq ensiz tağlı, həm də qapalı ensiz kəsiklidir. Saplağı 9,5-10,5 sm uzunluğunda, solğun sarımtıl rənglidir.

*Çiçək:* Çiçəkləri ikicinslidir. Erkəkcik saplağı çox hündür olmur. Əsasən çarpaz, bəzən öz-özünə tozlanır. Çarpaz tozlandıqda salxım darağında gilələri orta sıxlıqda, öz-özünə tozlandıqda isə seyrək yerləşir. Çiçək salxımlarında çiçəklərin tökülməsi 65-70 %-ə çatır. Yumurtalığı iri, boyuncuğu uzundur.

*Salxım:* Tənəklərdə müxtəlif böyüklükdə olan salxımlara rast gəlinir. Sort üçün xarakterik olan salxımları bir tərəfli qanadlı-konusvari formada olurlar. Salxımların orta uzunluğu 17,0-20,0 sm, eni isə 11,0-14,5 sm-dir. Salxımları 250-650 q çəkidə olur. Salxım saplağı (uzun. 23,0 mm, eni 4,6 mm) üzümün tam yetişmə dövrü kövrək olur. Salxımda 8,0-15,0 % xırdagilələlik müşahidə edilir.

*Gilə:* Gilələri kəhrəba rənglidir, iri ölçülüdür (uzun. 2,3-2,5sm, eni 2,0-2,2 sm), əsasən oval formada, bəzən tərsyumurtaşəkillidir. Qabığı nazik olmaqla, lətli hissədən çətin ayrılır. Gilələri bərkdir, lətli-şirəlidir, yeyildikdə xırçıldayır. Gün düşən tərəfi qəhvəyi rənglənir. Hər gilədə 3-4 ədəd toxum olur.

*Toxum:* Toxumları uzunsov formada, qəhvəyi rənglidir. Üst nahiyədə xalaza oval formalı, tünd qəhvəyi rənglidir. Qarın yatağındakı hündür şırım toxumun ucuna qədər uzanır, ucu künbəzə bənzəyir. 100 toxumun çəkisi 6,0 q-dır.

**Aqrobioloji və texnoloji xüsusiyyətləri**

*Vegetasiya dövrü*: Gec yetişən süfrə üzüm sortudur. Tənəklərdə tumurcuqları aprel ayının 09-15-də, çiçəkləmə 12-18 iyunda baş verir, məhsulu isə sentyabr ayının ikinci yarısında tam fizioloji yetişkənliyə çatır. Tumurcuqların açılmasından çiçəkləməyə qədər 59-65 gün, tam fizioloji yetişkənliyə qədər isə 166-180 gün davam edir. Tam fizioloji yetişkənlik üçün 3350-3400$^0$C aktiv temperatur sərf olunur. Xəzan dövrü yarpaqları sarımtıl rənglidir.

*Məhsuldarlığı:* Tum becərilmə sistemində, 75-85 bar yükündə hər tənəkdən orta hesabla 10-14 kq, şpaler sistemində isə 65-75 bar yükündə 8-10 kq məhsul toplanılır. Salxımların orta çəkisi 450,0 q-dır. Tənəklərdə kütləsi 150,0-555,0 q olan salxımlara daha çox rast gəlinir. Gilələrdə lət nisbətən bərk olduğundan ümumi şirə çıxımı 70,0-78,0 % təşkil edir. Gilələri lətli-şirəlidir, şirəsində şəkərliliyi 18,0-20,0 q/100 sm$^3$, turşuluğu 6,0-7,0 q/dm$^3$dir. Məhsuldarlıq əmsalı tənəklərdə 0,65, barlı zoğlarda 1,4 olmuşdur.

*Xəstəliklərə, ziyanvericilərə və şaxtaya dözümlülüyü:* Yarpaqlarda və salxımlarda mildiuya 1-2 bal, oidiuma 2-3 bal yoluxma müşahidə edilmişdir. Boz çürümə müşahidə olunmamışdır. Tam formalaşmış tumurcuqları qış dövrü 20$^0$C-ə qədər şaxtalara dözümlüdür.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında aparılmışdır.

**Ампело-дескрипторная характеристика**

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 001 | форма верхушки молодого побега | 1 | закрытая |
| 003 | интенсивность антоциановой окраски верхушки | 1 | отсутствует или очень слабая |
| 004 | интенсивность [плотность]: паутинистого опушения верхушки | 1 | отсутствует или очень слабое |
| 010 | окраска брюшной стороны узла | 1 | зеленая |
| 012 | интенсивность (плотность) щетинистого опушения на междоузлиях | 3 | короткие, 15 см |
| 017 | длина усиков | 3 | короткие, до 15см |
| 053 | паутинистое опушение на главных жилках: | 1 | отсутствует или очень слабое |
| 065 | величина [площадь] пластинки листа | 7 | большая |
| 067 | форма пластинки листа | 4 | круглая |
| 068 | количество лопастей листа: | 3 | пять лопастей |
| 069 | окраска верхней поверхности молодого листа | 5 | средне-зеленая |
| 074 | профиль [поперечное сечение в средней части пластинки] листа | 3 | закрученный вверх |
| 075 | пузырчатость верхней поверхности пластинки | 3 | слабая |
| 076 | форма краевых зубчиков | 3 | обе стороны выпуклые |
| 079 | форма черешковой выемки | 3 | открытая |
| 082 | форма [тип] верхних вырезок | 1 | открытая |
| 084 | паутинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 085 | щетинистое опушение на нижней стороне листа между главными жилками | 1 | отсутствует или очень слабое |
| 087 | щетинистое опушение главных жилок на нижней стороне листа | 1 | отсутствует или очень слабое |
| 093 | длина черешка относительно главной [срединной] жилки | 5 | одинаковая |
| 094 | форма верхних вырезок листа | 5 | средняя |
| 103 | основная окраска одревесневшего побега | 1 | желтая |
| 151 | тип цветка | 3 | обоеполый, |
| 153 | количество соцветий на побеге | 2 | 1,1 – 2 соцветия |
| 202 | величина грозди [длина + ширина]: | 7 | длинная, до 20 см |
| 204 | плотность грозди: | 5 | средней плотности |
| 206 | длина ножки грозди | 5 | средняя, приблизительно 7 см |
| 207 | одревеснение ножки грозди | 5 | средняя, приблизительно 7 см |
| 220 | размер ягоды | 5 | средняя, до 18 мм |
| 223 | форма ягод: | 3 | короткоэллиптическая |
| 225 | окраска кожицы | 1 | зеленовато-белая |
| 228 | толщина кожицы | 7 | толстая |
| 230 | окраска мякоти | 1 | неокрашена |
| 232 | сочность мякоти | 2 | средней сочности |
| 234 | плотность мякоти | 2 | средней сочности |
| 235 | степень плотности мякоти | 2 | средней сочности |
| 236 | особенности привкуса | 1 | без привкуса (без особенностей) |
| 238 | длина плодоножки | 7 | длинная, до 13 мм |

| *Морфологические особенности* | | *Генетические признаки* | |
|---|---|---|---|
| *Шифры* | *Признаки* | *Коды* | *Формы изменчивости* |
| 240 | степень трудности отделения от плодоножки | 2 | легкое |
| 241 | наличие семян в ягоде | 3 | полноценные |
| 243 | масса семени | 7 | большая, до 55 мг |
| 301 | время распускания почек | 7 | позднее |
| 303 | начало созревания ягод | 7 | позднее |
| 304 | физиологическая зрелость ягод | 7 | позднее |
| 351 | сила роста побега | 7 | сильная, 2,1–3,0 м |
| 452 | степень устойчивости к милдью листьев | 7 | высокая |
| 453 | степень устойчивости к милдью гроздей | 7 | высокая |
| 455 | степень устойчивости к оидиуму листьев | 7 | высокая |
| 456 | степень устойчивости к оидиуму гроздей | 7 | высокая |
| 458 | степень устойчивости к серой гнили листьев | 9 | очень высокая |
| 459 | степень устойчивости к серой гнили гроздей | 9 | очень высокая |
| 504 | масса гроздей с 1 га [урожайность] | 7 | высокая |
| 505 | содержание сахаров в сусле винных сортов, г/100 см³: | 5 | среднее, приблизительно 18 % (г/100 $см^3$) |
| 506 | кислотность сусла [в пересчёте на винную кислоту], г/л | 5 | средняя |
| 604 | степень вызревания побегов, %: | 7 | высокая |
| 629 | продолжительность продукционного периода, дни | 8 | очень позднего периода созревания (более 165 дней) |
| 630 | степень [процент] прорастания глазков | 7 | высокая |
| 631 | морозоустойчивость сорта | 5 | средняя |
| 632 | устойчивость сорта к высокой температуре | 7 | высокая |

**The ampelo-descriptive properties of the variety**

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 004 | Young shoot: intensity of white prostrate hairs of the tip | 1 | none or very low |
| 053 | White prostrate hairs on the young leaves | 1 | none or very low |
| 065 | Space of the leaf blade | 7 | large |
| 067 | Shape of the leaf | 4 | circular |
| 068 | Number of lobes | 3 | five |
| 074 | Side view of the leaf (profile) | 3 | involutes |
| 076 | Shape of teeth of the leaf | 3 | both sides convex |
| 079 | Shape of base of petiole sinus | 3 | open |
| 082 | Shape of upper side sinus | 1 | open |
| 084 | Density of white prostrate hairs between the main veins | 1 | none or very low |
| 085 | Density of white erect hairs between the main veins | 1 | none or very low |
| 093 | Correlation of the length of the stalk to the length of the basic vein | 5 | equal |
| 151 | Flower: sexual organs | 3 | fully developed stamens and fully developed gynoecium |
| 153 | Inflorescence: number of inflorescences per shoot | 2 | 1,1 to 2 inflorescences |

| *The morphological signs* | | *Appearance of the heritable signs* | |
|---|---|---|---|
| *Chiper* | *The names* | *Code* | *Form* |
| 202 | Size of bunch (length + width) | 7 | long |
| 204 | Density of berries in the bunch | 5 | loose |
| 206 | Length of the peduncle of the bunch | 5 | medium |
| 220 | Size of berry (length + width) | 9 | very long (about 23 mm and more) |
| 223 | form of berries: | 3 | broad ellipsoid |
| 225 | skin coloration | 1 | green yellow |
| 228 | Thickness of the skin in the berry | 7 | thick |
| 236 | Berry: particular flavor | 1 | none |
| 238 | Length of the bunch stalk | 7 | long (about 12-16 mm) |
| 241 | The ability of seeds in the berry to germination | 3 | complete |
| 243 | Weight of seed | 7 | high (about 40-55 mg) |
| 351 | Power growth on the shoot | 7 | strong (about 2,1-3,0 m) |
| 504 | Yield per 1 hectar, t/ha | 7 | high (about 13-16 t/ha) |
| 505 | Sugar content of must, q/100 $sm^3$ | 5 | medium (about 18-20 g/100 $sm^3$) |
| 506 | Acid content of must, q/$dm^3$ | 5 | medium (about 7-9 g/$dm^3$) |
| 604 | Degree of maturity of shoots, % | 7 | high (about 70,0-95,0%) |
| 629 | Time of vegetation till full ripening of crop | 8 | very late ripening (v.p. 171 days and more) |

*Tənəklərdə mumyetişmə:* Çubuqlarda mumyetişmə iyul ayının ortalarından başlayır və payızda mumyetişmə 85- 90 %-ə yüksəlir və 4 balla qiymətləndirilmişdir.

*İstifadə edilən məhsulların xüsusiyyətləri:* Məhsulundan təzə halda daha çox istifadə olunur. Ondan müxtəlif şirələr, mürəbbələr, hətta mövüc hazırlanır. Təzə məhsulunda orqanoleptik qiymətləndirmə 8,4 bal olmuşdur. Təzə üzüm məhsulunun 3,0 kq-dan 1,0 kq mövüc alınır.

*Klon və variasiyaları:* Yoxdur.

KƏHRƏBA

*Кахраба – Kahraba*

## QARA ŞANI
## Гара шаны – Gara shany

Azərbaycanın ən qiymətli süfrə üzüm sortudur. Qara şanının tez yetişən və gec yetişən iki klonu və məhsuldarlığı ilə fərqlənən iki variasiyası yayılmışdır. Rusiyada Volqoqrad vilayətində "Казбинка черная" adı ilə becərilir. Tezyetişən klonu daha çox Abşeronda, gecyetişən klonu isə qədim dövrlərdən Naxçıvan MR ərazisində becərilməkdədir. Hazırda həyətyanı sahələrdə tək-tək tənəklərinə rast gəlinir. Gəncə-Qazax zonalarında yaxşı məhsul verir. Bu sort Şabran, Xaşmaz, Qusar regionlarında geniş ərazilərdə becərilir. Cəlilabad və Şirvanın dağlıq ərazilərində, Quba-Xaçmazda dəniz səviyyəsindən hündürlüyü 800 m-dən çox olan yüksəklikdəki ərazilərdə becərmək olar. Sort Qara dəniz hövzəsi qrupuna (*convar pontica* Negr.) daxildir.

*Sinonomi:* Казбинка черная

**Ampeloqrafik xüsusiyyətləri**

*Tənək:* Tənəkləri çox güclü inkişafetmə xüsusiyyətinə malikdir. Şpaler becərilmə sistemində quru budanma dövrü tənəklərə ştamblı çoxqollu yelpik, bir və ya iki mərtəbəli ştamblı kordon formaları verilir. Tənəklərdə generativ tumurcuqlar ən çox 3-7-ci buğumlarda formalaşır. Şpaler və talvar becərilmə sistemində bar qollarının qısa budanması məsləhətdir Yaz dövrü tumurcuqların 92,0 %-dən çoxu inkişaf edərək yeni yaşıl zoğlar əmələ gətirir. Yeni zoğların 41,0 %-dən çoxunda çiçək salxımları olur**.**

*Birillik zoğlar:*Tənəkləri güjlü boy atır. Birillik zoğların uzunluğu 160,0-260,0 sm-ə çatır. Birillik çubuqlarda buğumaraları 7-9 sm olmaqla qəhvəyi rəngdədir. Buğumlarda isə tündləşir.

*Yaşıl zoğlar:* İnkişaf edən yaşıl zoğların tacında və 3-5-ci yeni yarpaqların üst və alt səthində ağ torabənzər tükcüklər olur. Yeni açılmış yarpaqların səthi hamar və yaşıldır.Yeni zoğları rəngi isə qırmızımtıl-çaxır rənglidir.

